ŞİRMƏMMƏD HÜSEYNOV



# MİLLİ HAQQ VƏ ƏDALƏT AXTARIŞINDA



"ADİLOĞLU"–nəşriyyatı
BAKI–2004



ŞİRMƏMMƏD HÜSEYNOV

# MİLLİ HAQQ VƏ ƏDALƏT AXTARIŞINDA

25N386

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

"Adiloğlu" nəşriyyatı
Bakı-2004

**REDAKTOR:** **Ülkər HÜSEYNOVA**

**Şirməmməd Hüseynov.**
***"Milli haqq və ədalət axtarışında" (1988-2000).***
Bakı, 2004; 420 səh.

Bu kitaba müəllifin 1988-2000-ci illərdə yazdığı və respublikanın müxtəlif mətbuat orqanlarında dərc olunmuş ictimai və tarixi əhəmiyyət daşıyan, dövrün çox mühüm problemlərinə həsr olunmuş məqalə, müsahibə, çıxış və s. daxil edilmişdir. Burada həmçinin vaxtilə işıq üzü görməmiş, adları və yazdıqları qadağan edilmiş istiqlal mücahidlərinin, görkəmli qeyrət və qələm sahiblərinin bir sıra əsərləri ilk dəfə oxuculara təqdim edilmişdir. XX əsr Azərbaycan ictimai-siyasi və ədəbi-mətbu tarixini tədqiq edib öyrənmək istəyənlər üçün kitabın faydalı olacağı qənaətindəyik.

H $\frac{4719129072}{121\text{-}2004}$ sifarişlə

© Ş.Hüseynov

## ÖN SÖZ

Əlimə qələm alıb müstəqil yaradıcılığa başladığım andan ən böyük arzum gördüklərimi, düşündüklərimi, həqiqəti yazmaq arzusu olub. Mətbuat tariximizi tədqiq edib qüdrətli qələm sahiblərinin XX əsrin ilk onilliklərində dövri mətbuatda dərc olunmuş müxtəlif janrlı yazılarını heyranlıqla oxuduqca bu istək yaşamaq qayəmə çevrildi. Onu da dərk edirdim ki, nə qədər ki, sovet totalitar rejimi, partiya və təhlükəsizlik orqanlarının nəzarəti üstümüzdədir, həqiqəti yazmaq, demək mümkün olmayacaq. Qələmə ala bilmədiklərimi müxtəlif yollarla auditoriyalarda demək yolunu seçmişdim. Bu da asan iş deyildi. Nəhayət, vaxtilə bizi müstəqil dövlətçiliyə qovuşduran, 1918-ci ilin 28 may futuhatını və Xalq Cümhuriyyətini yaradanların milli müstəqilliyimizi əlimizdən alan bolşevik sovet rejimi ömrünün uzun sürməyəcəyi barədə peyğəmbərcəsinə dedikləri sözlər çin olmağa başladı. Ömrümün ahıl çağında bu tarixi hadisələrin şahidi oldum. Qol çırmayıb, gənclik həvəsi və eşqilə bütün varlığımla milli haqq və ədalət uğrunda gedən vuruşa qoşuldum. Heç bir təmənna, mənfəət, şəxsi ambisiya gözləmədən tale və tarix tərəfindən millətimizə verilən yeni bir müstəqillik şansının qələbəsi üçün genişlənən xalq hərəkatına əlimdən gələn köməyi əsirgəmədim. Həftədə bir neçə dəfə Azərbaycan televiziyası ilə günün ən mühüm hadisələrinə dair çıxışlar edir, senzuradan nisbətən azad olmuş qəzetlərə şərhlər, aktual və tarixi mövzularda məqalələr yazır, mitinqlərdə, yığıncaqlarda iştirak və çıxışlar edir, televiziyada xüsusi ciddi mövzularda verilişlər aparırdım.

Bu dövr artıq tarixə çevrilmişdir. Qalan yazılanlardır. 1988-1993-cü illərdə müxtəlif mətbuat orqanlarında dərc olunmuş yazılarımın bir qismini "Azərnəşr" 1996-cı ildə "Müstəqilliyin çətin yolu... Biz hara gedirik?" adı ilə ayrıca kitab halında nəşr etdi. Artıq 13 ildir şərəfli, faciəli hadisələrlə də dolu müstəqillik dövrünü yaşayırıq. Bu illər ərzində də bir an belə qələmi əldən qoymamışam. Nədən yazmışam, necə yazmışam, bunun qiymətini oxucular verər. Təqdim edilən bu kitabda **1988-2000**-ci illərdə yazdığım və yuxarıda adı çəkilən kitaba daxil edilməmiş məqalələr, müsahibələr və s. daxil edilmişdir. Zənnimcə, maraqlananlar üçün faydasız olmaz.

**MÜƏLLİF**

## MƏNƏVİYYAT ADAMI

*XIX əsrin sonlarından başlayaraq Azərbaycanda bir ziyalı mühiti, ziyalı ənənəsi formalaşıb. H.Zərdabi bu mühitin başında dayanıb, onu formalaşdırıb. Şirməmməd müəllim XXI əsrin əvvəllərində həmin böyük ziyalı nəslinin sonuncu nümayəndələrindəndir. Hərdən mənə elə gəlir ki, Şirməmməd müəllim H.Zərdabinin, Ə.Hüseynzadənin, Ə.Ağaoğlunun, M.Ə.Rəsulzadənin, Ü.Hacıbəyovun və digər böyük fikir adamlarının ömrünün davamını yaşayır. Fəqət H.Zərdabi yeni başlanan, yeni formalaşan, hələ barmaqla sayılacaq qədər az, lakin siyasi və mənəvi yükü sayından çox-çox böyük olan ziyalı mühitinin başında dayanırdısa, XXI əsrin əvvəllərində Şirməmməd müəllim isə bilgisayarla sayılacaq geniş bir ziyalı dairəsinin içində tənhadır. Tənhadır gördüyü işlərin milli qayəsinə, atdığı addımların ictimai mahiyyətinə görə. Sözün həqiqi mənasında elə sözün özünü üzə deyən, düzünü dilə gətirən bu böyük kişi təmtəraqsız ömrünü millət üçün yaşadı. Şirməmməd müəllim bəlkə də heç kəsin görə bilməyəcəyi elə işlər gördü ki, həmin işlər millətin yaddaşını təzələdi, bu gününü dayanaqlı, sabahını etibarlı etdi.*

*XXI əsr fərdiyyətçilik əsridir, insanın özü üçün işlədiyi əsrdir. Şirməmməd müəllim kimi böyük işlərlə məşğul olan böyük əməl sahiblərinə indi az rast gəlinir. Ya bəlkə də heç rast gəlinmir.*

**Cəmil HƏSƏNLİ,**
*tarix elmləri doktoru, professor, millət vəkili*
**10.XI.04**

* * *

*Əziz Şirməmməd müəllim!*

*Gördüyünüz çoxlu və çox faydalı işlərlə Siz çağdaş gəncliyin milli şüurunun oyanmasına güclü təsirlər göstəribsiniz. Tarix və qananlar bunun qiymətini, əlbəttə ki, verəcək!*

**Rafael HÜSEYNOV,**
*filologiya elmləri doktoru,*
*professor, millət vəkili*
**iyun, 1998**



## ÖZ GÖZÜ İLƏ GÖRÜB ÖZ AĞLI İLƏ DÜŞÜNMƏK

Jurnalistlərimizin ağsaqqalı Şirməmməd Hüseynov Azərbaycanda sovet rejimi qurulana qədərki dövrü mətbuatı böyük səbr və həssaslıqla izləmiş, iynə ilə gor qaza-qaza M.Ə.Rəsulzadə, Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə, Ömər Faiq Nemanzadə, Üzeyir bəy Hacıbəyli və b. bu kimi böyük qələm sahiblərinin bu gün bizim üçün lazım olan fikir və mülahizələrini üzə çıxarmış, bu kitabı ilə oxucuya təqdim etmişdir.

Kitabda toplanan yazılar içərisində elələri var ki, bunlar bu günkü oxucular və tədqiqatçılar üçün tamamilə yenidir. Məsələn, "Azərbaycan" qəzetinin 1918-ci il 3 oktyabr tarixli Bakıda çıxan ilk beşinci nömrəsi, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə dair bir sıra sənədlər, "Şəki inqilabdan əvvəlki mətbuat səhifələrində" başlığı altında verilmiş yazılar və s. Bu yazıların hamısı onları üzə çıxarıb oxuculara təqdim edən müəllifin toxunulan məsələlər barədə ümumiləşdirici məqalələri ilə müşayiət olunur.

Biz bu yazıları oxuduqca tarixin necə də təkrar olunduğunu və ən mühümü də başımıza gətirilən müsibətlərin bu qaynaqdan tuşlandığının şahidi oluruq.

Kitabda müxtəlif qəzet müxbirlərinin Ş.Hüseynovla müsahibələri də verilmişdir. Bu müsahibələr, günümüzün mühüm hadisələrinin əsl siyasi icmalçı kimi doğru və düzgün təhlilidir. Bu təhlillərin bir çoxu son dərəcədə bədii və obrazlıdır. Məni bir şair kimi də ovsunlayan müəllifin bəzən ictimai hadisələri təbiət hadisələri ilə qiyaslandıra bilməsidir. Məsələn, müəllif belə hesab edir ki, Yer üzündəki bütün təbii fırtınalar (vulkan püskürməsi, zəlzələ və s.) günəş enerjisinin qeyri-bərabər bölünməsi nəticəsində baş verdiyi kimi, ictimai böhranlar da maddi nemətlərin qeyri-bərabər bölünməsi, milli ədalətsizlik zəmnində meydana gəlir. Demək həm təbiət və həm də cəmiyyətdəki fırtınaların əsas səbəbi ədalətsizlikmiş. Bu, son dərəcə orijinal və maraqlı bir baxışdır. Millət üçün siyasi mədəniyyətin vacibliyini sübut etməyə çalışan müəllif dünyamızın bugünkü mənzərəsindən çox maraqlı bir müqayisə gətirir: "Nə üçün Şərqi Avropanın sosialist ölkələrində avtoritar rejimdən demokratik quruluşa keçid çox sürətlə, əsasən ağrısız və təlafatsız keçir, keçmiş Sovet ittifaqı isə hələ də çalxalanır? Ona görə ki, Rusiyada və sonralar Sovet İttifaqında siyasi mədəniyyət aşağı səviyyədə olub".

Bu, hadisələrə son dərəcədə düzgün və ibrətamiz münasibətdir. Çünki tam siyasi azadlığı əldə etmək üçün siyasi mədəniyyətin vacib şərt olduğunu birdəfəlik dərk etməliyik.

Kitabda gedən məqalələrin bir qismi din və millət məsələlərinə həsr olunmuşdur. Bu məqalələrdə M.Ə.Rəsulzadə dini mənsubiyyətlə milli mənsubiyyət məsələsini bir-birindən ayırır və islam dininin milli mənsubiyyəti inkar etmədiyini irəli sürür.

Mən bu kitabda toplanan məqalələrin böyük əksəriyyətini vaxtilə müxtəlif qəzet səhifələrində oxumuşam. İndi toplu halda oxuyanda toxunulan məsələlərlə və bu məsələlərə müəllif münasibəti ilə tanış olduqca bütün bu yazıların içindən keçən vahid bir xətt görürəm. Bu xətt bunları yazan müəllifin vahid prinsipi, fikri və əqidəsidir. Bu prinsip, bu baxış və bu əqidə məqalədən məqaləyə dərinləşir və 50 ilə yaxın bir müddətdə tanıdığım əqidə qardaşım Şirməmməd Hüseynovun vətəndaş obrazını tamamlayır. Şirməmmədi yaxından tanıyanlar çox yaxşı bilir ki, onu ömrü boyu tutduğu yoldan və tapındığı əqidədən qoparmaq, heç olmasa bir balaca laxlatmaq belə mümkün deyil. O, inandığına inanır, nifrət etdiyinə sona qədər nifrət edir, sevdiyini isə tərəddüdsüz sevir. Bir sözlə, qələmindən çıxan bütün yazılarının arxasından onun sınmaz, dönməz, əyilməz şəxsiyyəti boylanır. Bu isə qələm əhli üçün çox vacib şərtdir. O, ətrafımızda cərəyan edən irili-xırdalı bütün hadisələrə yalnız öz gözləri ilə baxır, öz ağlı ilə də qiymətləndirir. Onun öz yaxınlarına, qohum-qardaşına, dostlarına və hətta övladlarına olan münasibəti də eyni güzəştsiz prinsip və eyni baxış əsasında qurulmuşdur.

Ömrü boyu vətəninə, millətinə, doğma ana dilinə səcdə qılan, onların taleyini öz şəxsi taleyi bilən və bu əqidəsi yolunda qələmi ilə çarpışan əsl vətəndaş jurnalistin, tarix aliminin qələmindən çıxan bu kitabın hər bir azərbaycanlının masaüstü kitabı olacağına inanıram.

**Bəxtiyar Vahabzadə,**
*Azərbaycanın xalq şairi, akademik.*



## DÖVRÜN, ZAMANIN CANLI SALNAMƏSİ

Şirməmməd müəllim "Müstəqilliyin çətin yolu... Biz hara gedirik?" adlı kitabında olduğu kimi, oxuculara təqdim edilən "Milli haqq və ədalət axtarışında" kitabında həqiqətpərvərliyi, demokratizmi, düzlük və cəsarəti, vətənə, xalqa məhəbbəti ailə ilə birlikdə həqiqi təhsil görmüş müəllimlərindən - ziyalılardan əxz etdiyini bildirir, onun 1954-cü ildə Moskva universitetində aspirantura təhsilini başa vurub, namizədlik dissertasiyasını müdafiə etdiyi və Bakı Dövlət Universitetinin jurnalistika şöbəsində fəaliyyətə başladığı gündən indiyə kimi öz tələbələrinə dərin milli-demokratik təsirini qeyd etmək yerinə düşərdi.

Şirməmməd müəllim son illərdə xüsusilə gərgin işləyir. Universitetdə pedaqoji işlə yanaşı, qəzet-jurnallarda beynəlxalq həyatın, milli hərəkatın, milli müstəqillik və dövlətçiliyin, klassik demokratik-publisistik ənənələrin problemləri ilə əlaqədar çıxış edir, böyük öndərimiz Məmməd Əmin Rəsulzadənin çoxcildlik əsərlərinin tərtibi və nəşri ilə məşğul olur. Şirməmməd müəllim elmdə, siyasətdə havayı güllə atanlardan deyildir, O zaman söz silahına sarılır ki, ürəyində dəməmək mümkün olmayan sözü, zirehi dəlib keçən gülləsi hədəfi sərrast seçir. Haqqında söz gedən kitab da hər şeydən əvvəl vətəndaş, alim-pedaqoq və publisistin uzun illər elmi-siyasi axtarışlarının, müxtəlif, rəngarəng formalı, üsullu demokratik mübarizəsinin, milli xalq hərəkatında fəal iştirakının yekunları kimi ortaya çıxmışdır.

Bu kitab onun "Müstəqilliyin çətin yolu...", "Biz hara gedirik?" kitabı kimi hansı janrdadır: sənədli siyasi roman və ya povestdir? Dərslik, yoxsa monoqrafiyadır? Bəlkə də ayrı-ayrılıqda bunların heç biri deyildir, hamısının birgə sintezidir, desək səhv etmərik. Buna görə də oxucunun əqlinə və hissinə hakim kəsilir, onu düşünməyə, təkrar düşünməyə vadar edir. Müəllifin seçdiyi forma orijinal olduğu qədər də cəlbedicidir. Böyük fikir və ideyaların, ağıllı mülahizə və mübahisələrin hərtərəfli və əhatəli ifadəsi üçün geniş imkan yaradır.

Kitab müəllifinin qeyri-adi informasiyalılıq qabiliyyəti, bu informasiyaları təhlil edib mənalandırmaq, düzgün nəticələr çıxarıb qiymətləndirmək, siyasi hadisələrin axarını duymaq, onun nəticələrini qabaqcadan görmək ustalığı daha qabarıq nəzərə çarpır. Həmin informasiyaların mənbəyi yüz, yüz əlli il əvvəlki tariximizdə baş verən ən əlamətdar fakt və hadisələr, tarixi şəxsiyyətlərin fəaliyyətində təkanverici məqamlar, milli-demokratik mətbuat və onların yaradıcıları, son-

rakı onilliklərin keşməkeşləri, beynəlxalq aləmdə həqiqi tarixə çevrilən situasiyalar, anlardır... Əsas yeri isə xalqımızın tarixində xüsusi yeri və əhəmiyyəti olan 1918-1920-ci illərin hadisələri tutur.

Kitabda istifadə olunan zəngin informasiya da, bu informasiyanı müşayiət edən ağıllı, elmi-məntiqli, dəlil-sübutlu müəllif fikri, təhlili, mülahizə və düşüncələri də bu gün xalqın taleyi və varlığı ilə bağlı olan ən mühüm məsələyə böyük qurbanlar, əzab-əziyyətlər, məşəqqətlər bahasına qazanılmış milli müstəqilliyimizin, dövlətçiliyimizin qorunub saxlanılmasına, inkişaf etdirilib möhkəmləndirilməsinə, dünya dövlətləri sırasında yerinin, mövqeyinin əbədiləşdirilməsinə xidmət edir.

Təqdirəlayiq haldır ki, müəllif tarixə, şəxsiyyətlərə yarınmaqdan, quru tərif və mədhiyyələrdən, yaxud yerli-yersiz tənqiddən çox-çox uzaq həqiqi elmi yol seçir, tarixə tamamilə müasir obyektiv gözlə baxır. Əksər hallarda maraqlı tarixi paralellər axtarıb tapır, ayrı-ayrı adamları, qrupları deyil, xalqı, millәti düşündürən suallar qoyur. Həmin suallara birbaşa cavab verməkdən çəkinir. Daha çox inandığı, geniş oxucu kütləsinə məlum olmayan faktlar gətirir. Həmin faktların və onlarla bağlı hadisələrin şərhini verir. Beləliklə oxucunu, maraqlıları tam inandırır. Əsl tarixlə, tarixi həqiqətlər və onların yaradıcıları ilə tanış edir. O bununla da kifayətlənmir. Sözü həqiqi tarixi, hadisələri yaradanların özlərinə verir. Belə məqamlarda oxucu Həsən bəy Zərdabi, Məmməd Əmin Rəsulzadə, Fətəli xan Xoylu, Nəsibəy Yusifbəyli, Mirzəbala Məmmədzadə, həmçinin Üzeyir Hacıbəyov, Əlibəy Hüseynzadə və başqalarına söz verir. Əslən həmyerlimiz olan, "İstiqlal bir çox xəyalpərəstin fantaziyası deyil, millətin ruhunda ən dərin guşələrindən təzahür edən ehtiyacdır" deyən Hüseyn Baykaranı, məşhur türk yazarı və alimi Mustafa Yazıçının "Tarixdə 128 türk dövləti ilə 318 dövlət -356 hökumət başqanlarının özəllikləri" əsərini, xüsusilə əsərin "İthaf"ını yada salır: Əcdadını, tarixini və türk böyüklərini sevənlər üçün hazırladığım bu əsərimi: Bir gün belə bayraqsız və dövlətsiz qalmamış və iftixar etdiyimiz Atalarımızı yetişdirmiş olan türk millətinə; gəlmiş-keçmiş türk dövlət və hökumət başqanları ilə böyük gomandalarımıza; dövlət işlərinə yararlı adam seçməyi bilənlərə; dövlət mexanizmini adi, bir şəkildə işlədənlərə; quruluşu dünya tarixinin başlanğıc günlərinə qədər gerilərdə qalan, böyük millətimizin zəfərləri və əvəzsiz sevinc dolu tarixinə layiq, qürur və öyünmə qaynağımız, milli hakimiyyətimizin təminatı, Vətən və millət şərəfinin qurucusu şanlı ordumuza; ordumuzun bugünkü duruma yetişməsində payları çox böyük olan, varlıqları ilə iftixar etdiyimiz qulluqda və istefada olan zabit-



lərimizə; ədalətin bütün yurdda hakim olmasını saxlayanlara; böyük türk millətinin birlik və meşru-nizamın və dövləti-əbəd müddətin daim yanında olanlara ərməğan edirəm. Həqiqət, ibrət dərsi olacaq ithafdır. Şirməmməd Hüseynovun həmin kitaba və bu "İthaf"a şərhi vur-tut bir səhifədən ibarətdir. İfadə etdiyi mətləblər isə çox dərin və qiymətlidir. Burada türklərin tarixən dövlətsiz olmaması onun tarixi şəxsiyyətlərinin üç başlıca keyfiyyətləri ilə izah olunur: Dövlət quruculuğu istedadı və qabiliyyəti, qəhrəmanlıq və fədakarlıq, insaf və mərhəmətlilik.

Bütün kitab boyu ən çox diqqət yetirilən, tövsiyyə olunan cəhət məhz bu xəzinəni diqqətlə, səbrlə öyrənmək və burada irəli sürülən böyük bəşəri ideyaları bu gün praktiki olaraq yaşatmaq və daha da inkişaf etdirməkdən ibarətdir. Müəllif, eyni zamanda, Azərbaycan Xalq Cümhuriyyətinin yıxılma səbəblərini bütün təfərrüatı ilə açır, bu gün də baş qaldıran həmin təhlükələrin qarşısının alınmasının konkret yollarını göstərir. Bu mənada "Milli haqq və ədalət axtarışında" kitabı yalnız tarixçilər, publisistlər, politoloqlar, jurnalistikanın tarixi, nəzəriyyəsi və təcrübəsi ilə məşğul olanlar, gənc jurnalistlər üçün deyil, bu gün milli dövlətçiliyimizin taleyi ilə məşğul olan dövlət adamları, siyasətçilər, xalq hərəkatı və partiya liderləri üçün də maraqlı olardı.

Nəhayət, qeydlərimi müəllifin aşağıdakı fikirləri ilə tamamlamaq istəyirəm: yaşadığımız günlərdə tarix və millət qarşısında, əcdadlarımızın ruhu qarşısında imtahan veririk: Birinci cümhuriyyətin təcrübəsindən nəticə çıxarmaq lazımdır. Amma fikirləşirəm ki, bu məsuliyyəti dərk edənlərin sırası azalır, ya çoxalır? Mən bu suala cavab verməkdə acizəm. Amma onu bilirəm ki, "fikrən qazanılan istiqlal məfkurəsi" yenə də "şüurlarda sabit yer tutub, maddətən qazanılmasa" ikinci təcrübənin taleyi də ümidverici ola bilməyəcək. Axırıncı hökmü isə zaman verəcək. M.Ə.Rəsulzadənin və bizim hamımızın qəlbən bağlı olduğumuz müqəddəs qayə çin olsun, ikinci təcrübədən müzəffər çıxaq.

Kitab müəllifinə hörmət və ehtiram hissi ilə bu böyük və müqəddəs arzuya mən də qoşuluram.

**Famil Mehdi,**
*filologiya elmləri doktoru, professor*

***iyun, 2002***

*ADU-nun professoru Şirməmməd Hüseynov:*

***"AĞACI QURD, MİLLƏTİ MANQURT İÇƏRİDƏN YEYƏR"***

## DÜZLÜK

**- Açığı, "Qayğı" cəmiyyətinin təsis yığıncağındakı çıxışınız bu sualları verməyə bizi sövq etdi. Xalqımızın rəhmdilliyini, böyük-kiçiyin yerini bilməsini, öz keçmişinə bağlılığını... yenidən kiminsə yadına salmağa ehtiyac varmı? Bununla belə, "Qayğı" cəmiyyətinin yaradılması zərurəti nədən irəli gəlir?**

- Nəyi-nəyi... Rəhmdilliyi nəinki yada salmaq, hətta insanın təbiətinə xas olan bu ilahi əzəli keyfiyyəti qorumaq, daim, lap uşaqlıq çağlarından inkişaf etdirmək vacib və lazımdır. Tarix boyu bəşəriyyətin ən böyük dühaları mən deyərdim ki, bu hissin yer üzərində insanların əməl və düşüncələrində bərqərar olmasına çalışmışlar. Bizə məlum olan bütün dinlərin də, dini təfəkkür və düşüncələrin də mayasını rəhmdillik təşkil etmişdir. "İnsaf dinin yarısıdır" - demişlər ata-babalarımız. Rəhmdillik, insaf, mürvət, böyük-kiçik, öz keçmişinə bağlılıq olmayan yerdə nə ədalət olar, nə inkişaf, nə də xeyir-bərəkət. Bir də xatırlamaq lazımdır ki, qədri bilinməyən torpaq, qorunmayan maddi sərvətlər kimi mənəvi sərvətlər də yavaş-yavaş erroziyaya uğrayır, zəifləyir, bəzən adı, forması qalır, mahiyyəti dəyişir, aradan çıxır. Rəhmdillik də belədir. Onu da bizim əsrin "Qırmızı kitabı"na yazmağı təklif edənlər var. Əgər rəhmdillik olsaydı, 30-40-cı illərin faciələri, durğunluq adlandırılan illərin hadisələri baş verərdimi? İnsafı, rəhmdilliyi itirmək ləyaqəti, insanlığı itirmək deməkdir. Çox təəssüflər olsun ki, biz bu həqiqəti çox gec başa düşmüşük. Əgər biz yenidənqurma adlandırdığımız yeni düşüncə ziyası ilə özümüzə, ətrafımıza, məişətimizə nəzər salsaq, son 70 il müddətində qazandığımızla itirdiyimizi mizanətəraziyə qoysaq çox mətləblərin, düyünlərin, xəstəliklərin səbəbləri, mənbələri aydınlaşar, açılıb üzə çıxar. Mətləbi uzatmamaq üçün demək istəyirəm ki, qazandığımız da çoxdur, həddindən artıq çoxdur. Amma itirdiklərimiz də az deyil. Ən böyük itirilmək qorxusu olan şey isə **İNAMDIR, İMANDIR VƏ RƏHMDİLLİKDİR.** Məncə "Qayğı" könüllü, kütləvi, xeyriyyə cəmiyyətinin də əsas qayəsi xalqımıza xas olan bu keyfiyyətləri dirçəltmək, gücləndirmək, zəngin tarixi ənənə və təc-



rübəni bərpa və inkişaf etdirməkdən ibarətdir. Mən "Qayğı"nın təsis yığıncağında iştirak etmişəm. Onun nizamnaməsinə bələdəm. Çox xeyirxah işlər nəzərdə tutulur. Onun idarə heyətinə respublika ictimaiyyətinin bütün təbəqə və qruplarını, şəhər və rayonlarını təmsil edən 103 nümayəndə daxildir. İdarə heyətinin sədriyinə tanınmış alim və ictimai xadim, el ağsaqqalı adlandırıla biləcək akademik İmam Mustafayev seçilmişdir.

"Qayğı" çox böyük ümid verir. Artıq onun fonduna yarım milyon manata yaxın vəsait toplanmışdır. Arzum budur ki, yaşlılar öz şəxsi nümunələri ilə, qayğıları ilə gəncləri də bu cəmiyyət ətrafına toplasınlar, xeyirxah əməllərə ruhlandırsınlar.

**- Bəs "Qayğı"nın fəaliyyətini necə təsəvvür edirsiniz?**

- Necə təsəvvür edirəm?... Çalışmaq lazımdır ki, hər yerdə "Qayğı"nın əsl fədailəri və onların başçılığı ilə yerli bölmələri yaradılsın. Qəlbində el-oba təəssübü, elpərəstlik ruhu, kökünə, soyuna, torpağına bağlı rəhmdil və insaflı adamlar onun işinə cəlb olunsunlar.

**- Necə güman edirsiniz, mərhəmətli adamlar "Qayğı"ya möhtac olanların hamısının dərdinə şərik ola biləcəklərmi? Axı qayğı umanların sayı günbəgün artır. Özü də mən təkcə mənəvi sevgiyə tamarzı olanları - yetimləri, kimsəsizləri... demirəm. Elə atalı-analı, oğullu-qızlı, qardaşlı-bacılı yaşa dolanların da arasında deyək ki, yaxşı qazanmaq, ev-eşik yiyəsi olmaq, necə deyərlər, əsl insan kimi yaşamaq istəyənlər var. Amma təəssüf ki, arzulamaq hələ tox qarın, təbəssümlü çöhrə demək deyil. Bir şey də aydındır ki, pis yaşayıb yaxşı işləmək olmaz.**

- Sizinlə şərikəm. Həqiqətən ictimaiyyətin qayğısına, mərhəmətinə ehtiyacı olanlar çoxdur, həddindən artıq çoxdur. "Qayğı"nın üzvləri köməyə, müdafiəyə ehtiyacı olanların hər birinə əl uzatmalı, yardım göstərməlidir. Əlbəttə, söhbət təkcə maddi yardımdan getmir. İlk növbədə insana qayğıdan, dərdə şərik olmaqdan, onu yüngülləşdirmək, adamların qanuni hüquqlarının qorunmasından, şəxsiyyətlərinin qorunmasından gedir. Ən çox qayğıya ehtiyacı olanlara - uşaqlara, yeniyetmə gənclərə, xüsusilə istedadlı, talantlı gənclərə hami olmaq, qayğı göstərmək lazımdır. Xalqın başını uca edən onun tərəqqisinə təkan verən məhz istedadlılar, talantlardır. Onları axtarmaq, aşkara çıxarmaq, hər vasitə ilə mühafizə və müdafiə etmək - "Qayğı"nın əsas işlərindən olmalıdır.

Nəhayət, "Qayğı"nın özünə qayğı göstərmək lazımdır ki, o, bürokratizm, formalizm, inzibati amirlik xəstəliyinə tutulmasın. Yalnız pul yığan (həm də maaşdan yarıkönüllü, yarı məcburi) cəmiyyətə çevrilmə-

sin, könüllülük, rəhmdillik mövqeyindən sapınmasın. İndi xüsusilə vacib olan xalqın birliyinin möhkəmlənməsinə, siyasi mədəniyyətinin inkişafına yardım göstərsin. Bunun üçün isə ən müxtəlif kütləvi iş forma və üsullarından, vasitələrindən istifadə etmək vacibdir. Nəzərə almaq lazımdır ki, quru nəsihətlə iş aşmaz. Yaxşı deyiblər ki, xalqı ayıltmaq üçün bəzən min nəsihətdən bir fəlakət xeyirli olur. Biz son səkkiz ayda bunun şahidi olmuşuq. Adamlarımızın, xüsusilə cavanlarımızın oyanmış güclü milli qüvvəsini, enerjisini quruculuğa, rəhmdilliyə, torpağımızın qorunması və abadlaşmasına, sosial-iqtisadi və mədəni-mənəvi sərvətlərimizin sürətli inkişafına yönəltmək, səfərbər etmək gərəkdir.

**- Şirməmməd müəllim, həmişə bilavasitə tələbə auditoriyasında olduğunuza və bu dünyanın hər sirrinə yaxşı bələdçiliyinizə görə Sizə belə bir sual vermək istəyirəm: sizcə, təhsil islahatı respublikamızın ali məktəblərində necə həyata keçirilir?**

- Çox ləng. İclas, yığıncaq, müşavirə, qərar və qətnamə nə qədər desən. Lakin ali təhsilin əsaslı, kompleks şəkildə yenidən qurulması işində əsaslı dönüş hələlik nəzərə çarpmır. Bunun həm obyektiv və həm də subyektiv səbəbləri vardır. Köhnə stereotipləri, vaxtı keçmiş əmr və təlimatları, günün tələblərinə cavab verməyən qayda-qanunları, köhnəlmiş proqramları cəsarətlə süpürüb atmadan, xalq təhsilinin bütün pillələrini inqilabi yenidənqurmanın tələbləri baxımından yenidən və əsaslı şəkildə dəyişmədən, nəhayət, təhsildə və təlim-tərbiyədə əsas sima olan müəllim kadrlarının tərkibini saf-çürük etmədən ali təhsil islahatı mümkün deyil. İndi həllini gözləyən ən əsas və çətin problem məsələn, "nə etməli?" və "nədən başlamalı?" sualına dəqiq cavab tapmaqdır. Respublikamızda məktəb binaları, yataqxanalar çatışmır. Ali məktəblərin vəziyyəti xüsusilə ağırdır. Müasir elmi avadanlığa, yeni laboratoriya və sistemlərə, proqram, dərslik və dərs vəsaitlərinə ehtiyac böyükdür. Kompüterləşməni geniş miqyasda həyata keçirmədən nə təhsil sistemini, nə də bütünlükdə ölkəni durğunluq vəziyyətindən çıxarmaq mümkün olmayacaq. Bunu başa düşmək gərəkdir. Görürsünüzmü, nə qədər görüləsi iş var. Həm də bu, bir ayın, bir ilin işi deyil. Ancaq əməli, real addımlar indidən atılmalıdır. Gecikmək olmaz. Çox böyük səfərbərlik, səy, vəsait və qüvvələrin cəmləşdirilməsi tələb olunur. İndi gəlin görək belə bir səfərbərlik ruhu bizim ali məktəblərimizdə varmı? Mən bu suala müsbət cavab verməkdə çətinlik çəkirəm. Yeri gəlmişkən deyim ki, vaxtilə ali məktəblərin əksəriyyətinə direktorlar başçılıq edərdilər. İndi rektorlar başçılıq edirlər. "Direktor"ların "rektor"larla əvəz edilməsi təsadüfi idimi? Əlbəttə, yox.



Adətən "direktor" ən çox idarə etməklə, "rektor" isə istiqamət verməklə məşğul olmalıdır. Ali məktəblərimizin əksəriyyətində rektorların bütün məsələləri öz öhdələrinə götürdüklərindən istiqamət verməyə, əgər konkret desək, ali təhsil islahatını həyata keçirməyin konkret yollarını yaradıcı surətdə işləyib hazırlamağa, kollektivin bütün gücünü bu səmtə yönəltməyə vaxtları və imkanları çatmır. İttifaq ali məktəblərinin, elmi tədqiqat mərkəzlərinin təcrübəsi göstərir ki, hər bir kollektivin müasir səviyyəli istiqamətverici lideri, rəhbəri olmalıdır.

**- Qəribədir, ali məktəb problemlərin həllinə kömək etməli olduğu halda, əksinə, özü ciddi problemlərlə yüklənmişdir. Sizcə, hamımızın narahatlığına səbəb olmuş həmin "yük"ün çəkisini azaltmaq üçün bugünkü ali məktəbi nədən və kimdən xilas etməliyik?**

- İlk növbədə geniş yayılmış proteksionizm (xahiş) xəstəliyindən, dərin kök salmış rüşvətxorluq bəlasından və rüşvətxorlar mafiyasından, ailəçilik və yerliçilikdən, liberallıqdan, kəmsavad müəllim və tələbələrdən. Əlbəttə, bu o qədər də asan iş deyil. Ali məktəblərdə neqativ qüvvələr sağlam qüvvələrə nisbətən daha sıx birləşmişlər, yenidənqurma haqqında bəzən çox danışan, hay-küy qoparan da onlardır. Hər yerə öz adamlarını qoymağa səy edirlər. Və bəzən buna nail də olurlar...

Bayaq dedim ki, tədris və təlim-tərbiyə işində əsas sima müəllimdir. Məlumdur ki, hər bir müəllim beş ildən bir attestasiyadan keçməli, tutduğu vəzifəyə uyğun gəlib-gəlmədiyi müəyyənləşdirilməli və yenidən seçilməlidir. Çox yaxşı və ədalətli qaydadır. Hətta son vaxtlar bu işə tələbələr də cəlb edilmişlər. Belə ki, onların da rəyi soruşulub nəzərə alınmalıdır. Bəs nəticə? Məsələ bundadır ki, bu mexanizm, demək olar ki, işləmir. Məsələn, universitetdə son illərdə bir nəfər də olsa müəllim attestasiyadan keçməmişdir. Belə görünə bilər ki, burada çalışan 1.116 müəllimin hamısı öz yerində, hər şey öz qaydasındadır. Bəs belə isə nə üçün hazırlanan kadrların əksəriyyətinin səviyyəsi aşağı və hətta bəziləri lap zaydır. Bizdə ümumi prinsipiallıq, vahid tələbkarlıq, xalqımızın gələcək taleyini düşünmək, vətəndaşlıq və milli qeyrət hissi bəzən çatışmır. Mən böyük müəllim və maarifpərvər Firudin bəy Köçərlinin vaxtilə nəzərə çatdırmaq istədiyi belə bir fikri yada salmaq istəyirəm: əgər bir xalqı məhv etmək, onu adam toplusuna çevirmək istəyirsinizsə, müəllimini savadsız, həkimini isə kəmsavad eləyin. Biri onun başını, o biri isə canını zay eləsin.

Qeyd edim ki, ali məktəblərdə kök salmış neqativ hallar bütövlükdə xalqın, xüsusilə gənclərin mənəvi əxlaqi tərbiyəsinə çox pis təsir göstərir. Maraqlıdır ki, ölkəmizdən xaricdə elə bir yer, elə bir xalq tap-

maq olmaz ki, orada kimsə müəllimdən xahiş edə və ona pul verə ki, onun övladını savadsız eləsinlər, bilməyə-bilməyə ona qiymət versinlər. Biliksiz, savadsız attestat və diplomlar kimə və nəyə lazımdır? Bu, xalqa xəyanətdir, gələcəyə xəyanətdir. Mənim qənaətim həmişə belə olmuş və yenə də belədir. Çox təəssüf ki, bu həqiqəti hələ çoxları başa düşmək istəmirlər. Bununla əlaqədar olmuş bir ibrətamiz faktı oxucular a çatdırmaq istəyirəm. Xalq şairi Bəxtiyar Vahabzadənin Türkiyədə növbəti kitabını buraxmaq nəzərdə tutulmuşdu. Xahiş etmişdilər ki, əsərləri özü seçib təqdim etsin. O da digər şerlərlə yanaşı, ali məktəb həyatından bəhs edən "Qiymət" poemasını da kitaba salmışdı. Lakin şairdən xahiş etmişdilər ki, bu poemanı kitaba salmasın. Çünki Türkiyədə orda qoyulan problemi, hadisəni qətiyyən başa düşməzlər və bu, ağlasığan şey deyil.

**- Amma bizdə bəzən layiqli yerləri yaxşı oxumayanlar tutur, pis müəllim kimi tanınan və xatırlanan da tapşırığa məhəl qoymayanlardır. Ona görə ki, onlar "çətin adamlardır, söz eşitmirlər". Beləliklə, ali məktəblərimizdəki ab-hava gözümüz baxa-baxa bir sıra nəcib keyfiyyətləri, o cümlədən hər şeyə qadir olan elmimizi, demək, xalqımızın mənəvi qüdrətini, gücünü əlimizdən alır. Bu da haqlı olaraq, həm elmin səviyyəsini qaldırmaq istəyənləri, həm də xalqımızın gələcəyini düşünənləri narazı salır.**

- Ümumiyyətlə, bizdə razılıq doğuran şey çox azdır. Bu məsələnin də mahiyyəti çox mürəkkəbdir. Məsələn, dünyanın inkişaf etmiş ölkələrində elmi axtarışlar əsasən universitetlərdə, ali məktəblərdə, onların nəzdindəki elmi-tədqiqat institutlarında cəmləşmiş, mərkəzləşmişdir. Gənc elmi qüvvələrin tərbiyəsi, yetişdirilməsi, bilavasitə tədqiqat işinə cəlb edilməsi, görkəmli elm xadimlərinin orbitində dolanması elmi-texniki tərəqqiyə güclü təkan verən əsas səbəblərdən biridir. Elmi-tədqiqat mexanizmi bir növ, daim təzə qan alır, həmişə cavan qalır, necə deyərlər, ideyalar bazarı həmişə açıqdır, təşəbbüs, açıq rəqabət üçün geniş meydan var. Elmi-texniki yeniliklərin istehsalata tətbiqi, həyata keçirilməsi də maneəyə rast gəlmir, əksinə, kəşflə - tətbiq arasındakı müddət ildən-ilə qısalır. Bəs, bizdə necədir? SSRİ-də, o cümlədən respublikamızda göstərdiyimiz funksiyanı əsasən Elmlər Akademiyası, onun institutları yerinə yetirirlər. Ali məktəblər elmdə bir növ köməkçi rolunu oynayır. Musiqi termini ilə desək, ikinci skripkaçı rolunda iştirak edirlər. Bizdə tədris prosesi elmi-tədqiqat işi ilə üzvi surətdə əlaqələndirilmir, vəhdət təşkil etmir. Əslinə baxsan, elə professor-müəllim heyətinin gördükləri, yazdıqları, hər il təhvil verdikləri elmi işlərin də çox hissəsi əsl elmdən, həyatdan çox uzaq olduğuna



və hesabat naminə yazıldığı üçün arxivlərdə yığılıb qalır. Bir sıra hallarda ayrı-ayrı xeyirli, faydalı təsərrüfat əhəmiyyətli işlərə də yiyə duran tapmaq çətindir. Bəlkə bir az sərt deyirəm. Amma əsl vəziyyət belədir. Hazırda universitetdə 151 nəfər elmlər doktoru və professor, 629 nəfər elmlər namizədi və dosent işləyir. Bu, çox böyük elmi qüvvədir. Bəs, nə üçün bunların içərisində bir nəfər belə SSRİ Elmlər Akademiyasının həqiqi və ya müxbir üzvü, Lenin və SSRİ Dövlət mükafatı laureatı olanı yoxdur. Mən bilə-bilə çox yüksək notdan başladım. Elə qonşu respublikalarla müqayisə kifayətdir ki, öz geriliyimizin miqyasını görək, nəticə çıxaraq. Bu geriliyi aradan qaldırmaq üçün gərək ən əvvəl gənclərə qayğını birə on, birə yüz artıraq. Həsənbəy Zərdabinin 112 il bundan əvvəl "Əkinçi" qəzetində yazdığı bir fikri yada salmaq istəyirəm:

*"Bizim ilə zindəganlıq cəngi edən millətlər elm təhsil edirlər. Ona binaən gərək biz də elm təhsil edək ki, onlara zindəganlıq cəngində qalib olmasaq da, onların bərabərində dayanıb duraq, yoxsa dövlət və xoşgüzəranlıq onların əlinə keçəcəkdir və bizlər mürur ilə zindəganlıq cəngində məğlub olub tələf olacağıq".*

Söz elm və təhsildən düşən kimi tez inqilabdan əvvəlki statistikayla və ya müharibədən əvvəlki dövrlərlə müqayisəyə başlayırıq. Əslində dünyanın inkişaf etmiş ölkələri ilə, heç olmasa İttifaqımızın qabaqcıl respublikaları ilə müqayisə olunmalı, əsl vəziyyəti görməliyik. Göstərim ki, respublika Elmlər Akademiyasına seçkilər ali məktəb alimlərini elmi kəşflərə, axtarışlara sövq etmir. Akademik və ya müxbir üzv olmaq üçün ən əvvəl akademiya sistemində vəzifə tutmaq lazımdır. Deməli, akademik olmaq istəyən öz iş yerini dəyişməlidir. Məhz buna görədir ki, indi universitetdə cəmi bir nəfər akademik və 8 nəfər akademiyanın müxbir üzvü vardır. Bax, vəziyyət belədir. Təhsil və elm sahəsində əsl inqilabi dəyişikliklərə, yenidənqurmaya güclü təkan verməli, ətalət buzu sındırılmalıdır.

**- İndiyədək dövri mətbuatda, o cümlədən "Azərbaycan gəncləri" qəzetinin səhifələrində dilimizin bugünkü dərdləri ilə bağlı çox danışılıb. Deyilənlərə nəyi əlavə edərdiniz?**

- Dilimizin bugünkü dərdləri yazmaqla, danışmaqla sağalan deyil. Bildiyimiz kimi, respublikamızın Konstitusiyasında Azərbaycan dili rəsmi dövlət dili elan edilmişdir. Bunu hamı bilir. Ancaq məhəl qoyan yox idi. Nə üçün? Çünki bizdə hüquqi dövlət olmamışdır. İndi bu sahədə də addımlar atılır. Odur ki, gərək çalışaq ki, respublikamızda da sözün həqiqi mənasında hüquqi dövlət yaradılsın. Konstitusiya ilə nəzərdə tutulan qanunlar sözsüz yerinə yetirilsin. Heç kəsin bu qanun-

ları pozmağa cəsarəti çatmasın. Digər tərəfdən, hüquqi dövlət çox böyük vətəndaşlıq məsuliyyəti, siyasi mədəniyyət, qanunların tam və bütövlükle yerinə yetirilməsinin təmin olunmasını tələb edir. Mən çıxış yolunu bunda görürəm. Bir də ki, respublikamızda azərbaycanlılar əhalinin 80-82 faizini təşkil edirlər. Deməli, respublikamızın hər 100 sakinindən 80-82 nəfəri azərbaycanlıdır. Bu yaxınlarda "Arqumentı i faktı" qəzetində oxuculardan birinin - çoxmillətli kollektivlərdə rəsmi yığıncaqlar hansı dildə aparılmalıdır? - sualına redaksiyanın cavabında deyilirdi ki, iştirakçıların 70 faizi hansı millətdəndirsə, iclası da o dildə aparmaq məqsədəuyğundur. Necə deyərlər, şərhə ehtiyac yoxdur. Bəla ondadır ki, bizim öz içərimizdən çıxanları, xalqdan, dindən və millətdən mənən uzaq düşənləri ipə-sapa gətirmək çətindir. Ağacı qurd, milləti manqurt içəridən yeyər. Deməli, birinci növbədə bu xəstəliyin müalicəsinə girişmək, dərmanını tapmaq gərəkdir. Qoy hərə özündən, öz ailəsindən, öz iş yerindən başlasın, təmkinlə, səbrlə, heç kəsin şəxsiyyətinə, mənliyinə toxunmadan və heç kəsdən qanuni iş üçün icazə istəmədən. Əgər görsələr ki, Azərbaycan dili rəsmi dövlət dili kimi bərqərar olur, onda öz övladlarını ana dilində oxudanların sayı da ildən-ilə çoxalacaq. Geniş xalq kütləsi bu məsələdə də ziyalılara, vəzifə sahiblərinə baxır, onlardan nümunə götürür. Mənim mülahizələrim belədir.

**- Son vaxtlar dövri mətbuatda tarixi şəxsiyyətlər və tarixi hadisələr barədə çıxış edənlərin sayı çoxalmışdır. Amma onların tərkibinə nəzər salsaq, görərik ki, çoxunun peşəsi, mövqeyi və elmi səviyyəsi bu mövzuda danışmağa səlahiyyət vermir. Onsuz da tariximiz haqqında yanlış və dolaşıq fikirlər çoxdur. Haqqı olmayanların tarixi mövzuda çıxışları yeni səhvlər və dolaşıqlıqlar yaratmırmı? Bir tarixçi alim kimi bu məsələyə münasibətiniz necədir?**

- Tarixi keçmişə kütləvi marağı dövr özü, zaman özü, yenidənqurma və aşkarlıq ab-havası yaratmışdır. Buna təbii qanunauyğun bir proses kimi baxmaq lazımdır. Əgər xalqın geniş təbəqələri öz tarixi keçmişi ilə maraqlanırsa, deməli, ümumi milli oyanma başlanır, milli mənlik şüuru durğunluq halından çıxmışdır. Bu, çox müsbət hadisədir.

Adətən, ümumdünya tarixinin əlamətdar keçid dövrlərində hər bir mədəni xalq öz tarixi keçmişinə bir daha nəzər salır, inkişaf yolunu və perspektivlərini müəyyənləşdirməyə çalışır. Başqa deyimlə, tarix soğu-suala, imtahana çəkilir. Xalqı yaşadan, onun güc və qüdrətini, maddi və mənəvi varlığını saxlayan və inkişaf etdirən, torpağını və dilini mühafizə etməyə kömək edəcək nə varsa, hamısı bir daha yurddaşların yeni nəsli qarşısında sərgilənir. Əlbəttə, burada əsas məsələ



odur ki, tarixdən kül, his-pas deyil, qeyrət qığılcımı, el-oba təəssübü, elpərəstlik ruhu, cəsarət və rəşadət hissi, bir sözlə, işıq götürülsün.

Tarixə kütləvi maraq bizim tarix elmimizin həqiqi vəziyyətini, tarixçilərimizin fəaliyyətinin nəticələrini və səviyyəsini geniş aşkarlıq meydanına çıxartdı. Məlum oldu ki, respublikamızda 80-ə yaxın tarix elmləri doktoru, 200-dən artıq tarix elmləri namizədi, bir neçə akademik, ayrıca tarix institutu, fakültə və kafedralar var. Amma Azərbaycanın qədim, zəngin tarixinə dair sanballı elmi bir əsər, həm də ümumiləşdirilmiş əsər ortada yoxdur. Əgər tarixçilərimizin böyük bir qismının başı onların işi ilə bilavasitə əlaqəsi olmayan çəkişmələrə, dedi-qodoya, elmi və fəxri adlar, nə bilim, nələr, nələr... uğrunda prinsipsiz çarpışmalara qarışıbsa, başqa ixtisas sahiblərinin tarixi kitablardan öyrənmək əvəzinə onu "tədqiq" etməyə girişmələrinin səbəbi aydınlaşar. Son zamanlar tarixi şəxsiyyətlər, hadisələr haqqında dövri mətbuatda çıxış edənlərin, bəzən ilk söz deyənlərin xeyli hissəsi, düz deyirsiniz ki, ixtisasca tarixçi deyil. Odur ki, bəzi xətaların, səhvlərin, təhriflərin olması da təbiidir. Digər tərəfdən, camaatın bu vaxta qədər yazılmış tarix kitablarına inamı da azalmış və ya itmişdir. İndi həqiqəti deyənlərə də inanan azdır. Hərə hər şeyi öz gözləri ilə görmək istəyir. Tarixi sənədləri oxumaq arzusu getdikcə artır. Bu gün əllərdə nə qədər tarixi kitablardan, sənədlərdən üzü çıxarılmış surətlər gəzir. Bir məsələ də budur ki, bizdə yalanı həqiqətdən ayırmaq vərdişi və bacarığı da zəifləmişdir. Əsas məsələ ictimaiyyətin tarixçi sözünə olan etibarını, inamını bərpa etməkdən ibarətdir.

**- Yenidənqurmanın tərəfdarları arasında "durğunluq dövrü" adlandırdığımız illərin əmək qəhrəmanlarını, hətta vəzifəli şəxslərini tərifləyənlər də var. Biz bu fikirdən uzağıq ki, o vaxt namuslu əmək qəhrəmanı, yaxud rəhbər işçi yox idi. Qeyrətli, vicdanlı, təmiz niyyətli alimlərimiz, yazıçılarımız olduğu kimi, onlar da var idi. Bizi təəssüfləndirən və qorxudan budur ki, o vaxtkı saxtakarlığı həqiqət kimi tərənnüm edənlər bugünkü gerçəkliyin özünü də şişirdirlər. Yerli-yersiz kimisə tərifləyir, kimisə baltalayırlar. Bələləri ilə qoşa addımlamaq təhlükəli deyilmi? Sizcə, biz onları hansı yolla "çıxdaş" edə bilərik?**

- Qoy, heç kəs yaxasını kənara çəkməsin. Ölkəmizin həyatında yaxşı-pis nə varsa, biz hamımız ona cavabdehik. Əlbəttə, durğunluq dövründə də hamı rüşvət verib rüşvət almırdı. Hamı oğurlamırdı, daşıyıb aparmırdı. Hamı bürokratizm xəstəliyinə tutulmamışdı. Qeyrətli, vicdanlı, təmiz niyyətli adamlar vardı. Yenidənqurmanın da fədailəri, təşkilatçıları məhz həmin sağlam qüvvələrdir. Onların birliyindən, əz-



M.F.Axundov adına Azərbaycan Milli

mindən, partiya tərəfindən işlənib hazırlanmış yenidənqurma konsepsiyasını həyata keçirmək üçün maddi və mənəvi ehtiyatları səfərbər etmək bacarığından çox şey asılıdır. Yaltaqlıq edənlər, özünü rəhbərliyin gözünə soxmaq istəyənlər, gündə bir cildə girənlər həmişə olmuş və indi də vardır. Demokratiya və aşkarlıq əgər bizim həyatımızda, işimizdə, fəaliyyətimizin bütün sahələrində dərin kök salsa, bərqərar olsa, kimin kim olduğu tez aşkar olar. Hərə öz yerini bilər, bacardığı işin qulpundan yapışar, böyük xülyalara düşməz. Yaltaqlıqla, təriflə insana yaraşmayan, natəmiz yollarla vəzifə, qulluq sahibi ola bilməz.

**- Təəssüf ki, yaltaqlıqla, natəmiz yolla yüksəlmək istəyənlərin sırası cəmiyyətimizi bu iyrənc xəstəliklərdən xilas etməyə çalışdığımız bir vaxtda da ləng seyrəlir. Şərəf, namus, ləyaqət tapdananda isə... Axı, bu cür yaşamaq, şair demişkən, "ömür-gün deyil".**

- Böyük Sabir isə belə deyib: "Olmasaydı cahanda yaltaqlar, yəqin ki, ac qalardı sarsaqlar". Deməyim odur ki, yaltaq təkcə öz mövqeyinin qeydinə qalmır, o həm də rəisinin nüfuzunun qorunmasına, daha da artmasına görə canfəşanlıq göstərir. Bələləri, təkrar edirəm: dünən də olublar, bu gün də yaşayırlar. Amma gərək sabah olmasınlar.

Odur ki, tariximizin uzaq keçmişi kimi yaxın keçmişinə də çox diqqətlə, dərindən yanaşmaq lazımdır. Əvvəla, tarixi şəxsiyyətlərə görə dövrləşdirmək, səciyyələndirmək nə qədər doğrudur? Stalin - şəxsiyyətə pərəstiş, Xruşşov - mülayimləşmə, volyuntarizm, Brejnev - durğunluq, indi də yenidənqurma. Bu fikir tərzi xalqı məsuliyyətdən xilas etmək təşəbbüsü deyilmi? Məsələn, məni neçə vaxtdır belə suallar düşündürür: nə üçün ünvanına bu qədər tərif dediyimiz, kamalına, ağlına, düşüncəsinə, təmkininə, mədəniyyətinə, qəhrəmanlığına, hədsiz təriflər dediyimiz, əsrin iki onilliyində üç inqilab etmiş, 300 illik mütləqiyyət rejimini, müvəqqəti hökuməti devirmiş böyük rus xalqı Stalinə və onun dəstəsinə imkan verdi ki, yenidən ölkədə avtoritar rejim yaratsın? Əsl inqilabçıların başına II Nikolayın gətirə bilmədiklərini gətirsin? Elə bundan sonrakı dövrlər haqqında da eyni şeyləri demək olar. Mən V.İ.Lenin vəfat edən il anadan olmuşam. Ağlım kəsəndən hamını gecə-gündüz işləyən görmüşəm. Həm də ehtiyacın, özbaşınalığın, qəddarlığın qurbanı olmasam da şahidi olmuşam. 30-cu illərin əvvəllərinin aclığı, kartoçka sistemi, tuthatut, vurhavur bizim də gözümüzün qarşısında cərəyan edirdi. Yadımdadır, Şəki üsyanı və onun iştirakçılarının bizim evin qarşısındakı qəbiristanlıqda güllələnmələri. Bəzilərinin nəşini şəlin (yarpaqlı ağac budaqları) üstə qoyub şəhərin küçələrində ora-bura sürüyürdülər. Nərdivana bağlayıb milis idarəsinin həyətinə qoyurdular ki, camaat gəlib baxsın və qorxsun. Müharibə dövründə Zaqatalanın Varxiyan, Şəkinin Aşağı Göynük, Biləcik, Oxut kəndlərində müəllim işləyərkən, "Şəki fəhləsi" qəzetində ədəbi işçi olarkən kəndlilərin başına nələr gəldiyini indi də sözlə ifadə etməyə çətinlik çəkirəm. Qısa desəm, bu, yaşamaq deyil, cəhənnəm əzabı idi. 1940-cı ildə işə 21 dəqiqə gecikmiş adamları - kişiləri, qadınları, cavanları 6 ay müddətinə həbs cəzası verib, sürü ilə həbsxanaya aparırdılar. Hamının gözü qarşısında. Bunları indi yada saldıqda Yevgeni Yevtuşenkonun "Həbsiz dözümlülük" məqaləsi yadıma düşür. Doğrudan da müasir dünyanın heç bir qitəsində dözümlülükdə bizə çatan xalq olmaz. Bax, bu dərindən tədqiq edilməli, öyrənilməli, radikal müalicə olunmalı xəstəlikdir.



Biz durğunluq dövrü dediyimiz illərin hadisələrinə də ehtiyatla yanaşmalıyıq. Axı, həmin dövrdə də haqlı olaraq cəzalandırılanlar, işdən çıxarılanlar olmuşdur. İndi onların bəziləri özlərini həmin dövrün günahsız qurbanları kimi qələmə verməyə çalışırlar. Bu sahədə qəzet, jurnal redaksiyaları, televiziya jurnalistləri maksimum ehtiyatlı olmalı, hay-küyə getməməlidirlər. Yüz ölçüb, bir biçməlidirlər. Yoxsa, "Selskaya molodyoj", "Nedelya" və digər mətbuat orqanlarının başına gələn bizim də başımıza gələ bilər. Mən "Dalğa" proqramını hazırlayanların diqqətini bu sahəyə xüsusilə cəlb etmək istəyirəm.

Bir cəhəti də nəzərə çatdırım. Uzun illər kimin nə həddi var idi ki, yuxarıdan deyilən, təriflənən adamın ünvanına başqa bir söz deyə, yaza idi. Ölkədə yad fikirliliyi, müstəqilliyi boğmaq üçün amansız bir mexanizm yaradılmışdı. Bunu da nəzərə almaq, "saxtakarlığı həqiqət kimi tərənnüm edənlərin" məcburiyyət üzündənmi, çörək dərdindənmi və yaxud başqa məqsədlə qələm çaldığı aydınlaşdırılmalıdır. Əlbəttə, yenidənqurma heç də hamının ürəyindən deyil. Təngitmə qüvvələri hələ də güclüdür, təhlükəlidir, onlar fürsət düşən kimi əvəz çıxmağa hazırdırlar. Həm də yaxşı təşkil olunublar. Öz kadrlarını imkan düşdükdə ora-bura yerləşdirirlər. Xüsusilə aşağılarda yenidənqurmanın tərəfdarlarını əl-qol açmağa qoymurlar. Bu sahədə qələmə, mən deyərdim ki, gənc fədailərin birliyindən, mübarizə əzmindən çox asılıdır.

**- Son vaxtlar respublikamızda gənclərin qeyri-formal birlikləri əmələ gəlmişdir. Sizcə, bu birliklər respublikamızın inkişafına kömək etməyə qadirdirmi? Onların fəaliyyəti hansı istiqamətə yönəldilsə və həmin birliklər kimlərdən xilas olunsa, xalqımız qazanar?**

- Məncə, gənclərin qeyri-formal birliklərini rəğbətlə qarşılamaq lazımdır. Gənclərin bir yerə yığışmasından, onları düşündürən və narahat edən problemlərdən açıq danışmalarından qorxmaq lazım deyil.

Orda-burda, küncdə-bucaqda giley-güzar etməkdən, danışmaqdansa, həmyaşıdların, həmfikirlərin qarşısında çıxış etmək, fikir söyləmək, təklif vermək, mübahisə etmək daha faydalı deyilmi? "Birdən işin içindən qəmbərqulu çıxar" - kimi bədnam düşüncə tərzindən, inamsızlıqdan nə vaxt əl çəkəcəyik? Gənclər müstəqil ictimai yaradıcılıq məktəbi keçmək istəyirlər. Komsomolun, yaradıcı təşkilatların, elm və mədəniyyət xadimlərinin, rəsmi dairələrin, gənclərin qeyri-formal birlikləri ilə səmimi əlaqə yaratmaları, onların ağıllı, xeyirli təklif və təşəbbüslərinə səs vermələri ümumi işimizə xeyli kömək edə bilər. Səhvləri də hədə-qorxu və inzibati tədbirlər, qadağanlar vasitəsilə düzəltmək deyil, elmi dəlillərlə, inandırıcı məntiqlə, tam bərabərlik və bir-birinin fikrinə hörmət etmək şəraitində düzəltmək olar. Mən o birliklərin bəzi üzvləri ilə söhbətdə və mübahisələrimdə bu xəttin düzgünlüyünə inanmışam.

**- Dağlıq Qarabağ və həmçinin respublikamızın digər regionlarının sosial-iqtisadi inkişafı üçün mühüm qərarlar qəbul olunmuşdur. Həmin qərarların yerinə yetirilməsi yolları da müəyyənləşdirilmişdir. Amma qərarlar ləng yerinə yetirilir. Bunu Bakı mitinqləri də təsdiqləyir. Şəxsən siz çıxış yolunu nədə görürsünüz?**

- Əvvəla deyim ki, Bakıda keçirilən mitinq və nümayişlərdə irəli sürülmüş bütün tələbləri diqqətlə saf-çürük edib, ən haqlı olanlarını ləngimədən yerinə yetirmək lazımdır. Yoxsa, gələcək nəsillər bizi qınayarlar. Çünki hadisələr getdikcə daha tam və aydın şəkildə göstərir ki, "Qarabağ əməliyyatı" əvvəlcədən düşünülüb planlaşdırılmış, mənəvi, təşkilat və maddi cəhətdən hazırlanmış və təşkil olunmuş, xüsusi mərkəzlərdən idarə edilən və dərin kök salmış bir aksiyadır. SSRİ Ali Soveti Rəyasət Heyətinin məlum iyul iclasında bu hadisələri "Yenidənqurmanın bünövrəsinə qoyulmuş mina", "Yenidənqurma üçün ciddi imtahan", durğunluq dövründə yaxşıca varlanmış qrup və şəxsləri hakimiyyətdən uzaqlaşdırmaq və oğurladıqlarının əllərindən çıxması vahiməsi ilə "Yenidənqurmaya qarşı çevrilmiş açıq vuruşu" və s. adlandırmışlar. Odur ki, muxtar vilayətin uzun zaman yığılıb qalmış sosial-iqtisadi problemləri bu dairələri az maraqlandırır. Onlar bunu indi açıqca söyləməkdən də çəkinmirlər. Məlum partiya və dövlət qərarlarının yerinə yetirilməsini ləngidən də məhz budur. Bütün iqtisadi kəmkəsirlər üçün isə bilavasitə vilayətin rəhbərliyi, şəxsən keçmiş birinci katib Gevorkov və indi onun yolunu davam etdirən Poqosyan günahkardırlar. Vilayətin partiya, sovet rəhbərləri, "Sovetakan Karabax" qəzeti qəsdən iqtisadi problemləri ortaya atıb, adamların diqqətini eksterimistlərin "planlı oyunlar"ından yayındırmağa çalışırlar. Ermənistanın kütləvi informasiya vasitələri onları müdafiə edir. Bu da bütün məqamlarda dözümlü və səbrli olan xalqımızı qəzəbləndirir.



Bəs çıxış yolu nədədir? Bu suala 1988-ci ilin fevralın 21-dən ta bu vaxta qədər qəbul edilmiş partiya və dövlət sənədlərində, Mixail Sergeyeviç Qorbaçov yoldaşın müraciət və çıxışlarında cavab verilmişdir. Onları təkrar etməyə ehtiyac yoxdur. Lakin millətlərarası münasibətlər məsələsinə gəldikdə, onun nizama salınmasına hər vəchlə kömək göstərmək lazımdır. Qızışdırılmış kütləvi inamsızlıq, anlaşılmazlıq, ikrah və bəzən də düşmənçilik hisslərini cilovlamaq, ağıl və təmkinlə, hər şeydən ötrü emosiyaya qapılmadan, real vəziyyətə və şəraitə uyğun yol və vasitələr axtarmaqla gərginliyi tədriclə zəiflətmək və aradan qaldırmaq gərəkdir. Təbliğat və təşviqatın məcrasını çəkişmələr, ittihamlar, tarixi axtarışlar yolundan qarşılıqlı hörmət, sivilizasiyalı davranış və rəftar yoluna, sonra isə əvvəlki qədim dostluq münasibətlərini bərpa etməyə yönəldilməlidir. Burada əsas məsələlərdən biri bu hadisələrə qədərki faktlardan daha çox bu günün ibrətamiz faktlarına əsaslanmaq, istinad etmək daha çox vacibdir, xeyirlidir. Məsələn, mənə çox güclü təsir göstərmiş bir hadisəni xatırladım. İyun ayının gərgin günlərində mən respublikamızın kiçik bir nümayəndə heyəti tərkibində Ermənistanda idim. Hadisələrin çox kəskin, ehtirasların son həddinə çatdığı günlər idi. Bu barədə geniş danışmaq fikrində deyiləm. Bu, ayrıca bir mövzudur. Çünki biz azərbaycanlıların yaşadıqları rayonlarda, kəndlərdə olduq. Çox şeylər gördük. Xatırlatmaq istədiyim nədir? Bizimlə gedənlərin hamısı qayıtmışdı. Filologiya elmləri doktoru, professor Kamal Abdullayevlə mən qalmışdıq. Məqsədimiz o idi ki, hadisələri öz gözümüzlə görək. Axı, bir görmək min eşitməkdən yaxşıdır. İyulun 13-ü idi. Ermənistan SSR Ali Sovetinin iclasında Dağlıq Qarabağ məsələsinə baxılırdı. Səhərdən bütün şəhər Yerevanın Teatr meydanına axışırdı. Biz isə təyyarə ilə Bakıya uçmalıydıq. Bilet almaq və uçmaq üçün təyyarə meydanına getməliydik. Ermənistan SSR Nazirlər Sovetinin bizə təhkim etdiyi maşın gəlib çıxmadı. Həyəcanımızı və çıxılmaz vəziyyətdə olduğumuzu görən mehmanxana işçilərindən biri öz şəxsi maşını ilə bizi nümayişçilərin içərisindən keçirib, təyyarə meydanına gətirdi. Təmənnasız və hətta, deyim ki, risq ilə. Ayrılarkən uzun illərin dostları kimi qucaqlaşdıq. Bir-birimizə ünvan və telefon nömrələri verdik. Bu insani münasibət məndə olan belə bir qənaəti daha da gücləndirdi ki, ekstremistlərin, aravuruşduranların suyu bulandıranların bütün cəhdlərinə baxmayaraq, erməni xalqının sadə adamlarında bizə qarşı məhəbbət və dostluq hissləri, bərkdə bir-birinin köməyinə çatmaq vərdişi qalmaqdadır, yaşamaqdadır.

**- Bugünkü gənclər öz təşkilatlarına - komsomola, bir az sərt desək, az inanırlar. Onlar haqlıdırlarmı?**

- Həm haqlıdırlar, həm də yox. Haqlıdırlar, ona görə ki, bürokratik iş üsulu, şparqalka vasitəsilə işləmək, yalançı pafos, şüarçılıq, arzunu həqiqət kimi qələmə vermək, formalizm, gəncləri düşündürən problemlərdən yan keçmək - bütün bunlar komsomol təşkilatlarını gənclərin geniş kütləsindən mənəvi və siyasi cəhətdən, hətta təşkilati cəhətdən nisbətən ayırmışdır. Haqlı deyillər ona görə ki, əgər respublika komsomolunu canlı bir orqanizmə bənzətsək, deyə bilərik ki, o, ciddi xəstələnmişdir, məsələn, bürokratizm xəstəliyinə tutulmuşdur. Məgər xəstədən üz döndərərlər, yoxsa onu müalicə edib sağaltmaq qayğısına qalarlar? Axı, indi bunun üçün həm şərait, həm də imkan var. Kimdir mane olan? Əl-ələ verib komsomolu nüfuzlu, qüdrətli, iş görən, sözü keçən, qayğı göstərən mübariz təşkilata çevirmək olar və inanıram ki, belə də olacaqdır. Başqa yol, başqa seçənək yoxdur.

Nəticədə belə bir kəlamı yada salmaq istəyirəm. Tarix bəzən xalqın üzünə dik baxır. Onun qarşısına çox böyük problemlər qoyur. Xalqı imtahana çəkir və yoxlayır ki, bir xalq kimi gələcəkdə qalmağa, yaşamağa qadirdir, ya yox? Mən gənclərə bu məsələ üzərində düşünməyi məsləhət görürəm.

**Müsahibəni apardı:**
**H.XUDAYƏT**

*"Azərbaycan gəncləri" qəzeti,*
*22 noyabr 1988.*





## KEÇMİŞİN İBRƏT DƏRSLƏRİ

*(AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ TARİXİNDƏN)*

**"İndinin kökü keçmişdədir və keçmiş gələcəyin iynəsidir", - demiş ata-babalar. Tarixi keçmişimizi, kökümüzü dəqiq və dürüst öyrənməyin ən mötəbər mənbələrindən biri - zamanın kollektiv yaddaşı hesab edilən mətbuatdır. Çoxillik mətbu irsimiz bu vaxta qədər üstüörtülü saxlanılan, təhrif edilən, saxtalaşdırılan bir çox mətləblərin gün işığına, həqiqət və aşkarlıq meydanına çıxarılması, tariximizin, "ağ ləkələrinin" aradan qaldırılması üçün zəngin mənbə, qiymətli və əvəzsiz məxəzdir. Ümid edirik ki, tarixçilərimiz, xüsusilə mətbuat tarixi ilə məşğul olan alim və jurnalistlərimiz, bütövlükdə Azərbaycan tarixi mütəxəssisləri və maraqlıları bu sahədə bizimlə yaxından əməkdaşlıq edəcəklər. Bu nömrədə tariximizin az öyrənilmiş 1918-1920-ci illərinə aid bir sıra tarixi sənəd və yazıları oxuculara təqdim edirik. Onları redaksiyamıza ADU-nun jurnalistika fakültəsinin professoru Şirməmməd HÜSEYNOV təqdim etmişdir.**

**Ş.HÜSEYNOV:** *1919-cu il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının bir ili geniş şəkildə bayram edilmişdir. Bu münasibətlə qəzetlərin, o cümlədən Üzeyir və Ceyhun Hacıbəyov qardaşlarının, Şəfibəy Rüstəmbəyovun redaktoru olduqları, Azərbaycan və rus dillərində nəşr olunan "AZƏRBAYCAN" qəzetlərinin xüsusi bayram nömrələri buraxılmışdır. Hər biri 12 səhifə həcmində nəşr olunan bu qəzetlərdə xeyli tarixi sənəd, xatirə, ciddi publisist və bədii yazılar və s. dərc olunmuşdur. Onlarda diqqəti cəlb edən cəhətlər çoxdur. Məsələn, "AZƏRBAYCAN istiqlalını mübəyyin əqdnamə", (ruscası "Akt o nezavisimosti Azerbaydjana"). Hər iki dildə çap olunan bu sənəddə eyniliklə yanaşı, tərcümədə diqqəti cəlb edən fərqlər də vardır. Məsələn, Azərbaycan mətnində müstəqilliyi elan olunan dövlətin adı hər yerdə "Azərbaycan Xalq Cümhuriyyəti" və yaxud "Azərbaycan*

*Cümhuriyyəti" kimi təqdim olunur. Rusca mətndə isə bu, "Azerbaydjanskaya Demokratiçeskaya Respublika" kimi işlədilir. Yəqin buna görədir ki, bizim tarix ədəbiyyatında və məqalələrdə rus mətnindən istifadə edildiyi üçün "Azərbaycan Demokratik Respublikası" adı sabitləşməkdədir. Halbuki, ana dilli mətbuatda və sənədlərdə belə ada rast gəlməzsiniz, hər yerdə "Azərbaycan Xalq Cümhuriyyəti" adlarına rast gələrsiniz. Məncə, bu səhvi düzəltmək, yəni əsas mətn kimi ana dilindəki adı işlətmək lazımdır. Rus dilində də "Azerbaydjanskaya Narodnaya Respublika" kimi yazmaq və işlətmək yaxşı olardı.*

*Yaxud ana dilindəki mətndə oxuyuruq: "Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyət həqqinə malik olduğu kimi, Cənubi-Şərqi Zaqafqaziyadan ibarət Azərbaycan dəxi kamil müstəqil bir dövlətdir".*

Rus mətnində bu maddə belədir:

**"Отныне народы Азербайджана являются носителями суверенных прав, и Азербайджан, состоявший из Восточного и Южного Закавказья, - полноправное независимое государство".**

*1-ci mətndə "Azərbaycan xalqı", 2-ci mətndə "Azərbaycan xalqları" şəklində verilir. Ana dilindəki mətndə "Azərbaycan" xalqın adıdır, rus mətnində "Azərbaycan" coğrafi məfhumdur. Yaxud 1-ci mətndə Azərbaycan, "Cənubi-Şərqi Zaqafqaziyadan", 2-cidə "Şərqi və Cənubi Zaqafqaziyadan" ibarətdir. Hansı daha dəqiqdir. Məncə, hər iki halda ana dilindəki mətn daha dəqiqdir.*

*1918-ci ilin sentyabrında **"Azərbaycan"** qəzetinin Gəncədə çıxmış 1-ci nömrəsində Məhəmməd Hadinin "Türk nəğməsi" adlı şerinə rast gəldim. Onun kitablarının heç birinə bu şer, deyəsən, daxil olmamışdır. Mütəfəkkir, cəfakeş və hədsiz qeyrətli şairimizin qəlbindən və qələmindən çıxan hər bir misrası bizim üçün əziz və gərəkli olduğunu nəzərə alaraq, onu da oxuculara təqdim edirəm.*



**Əbdülsəlimzadə**
**MƏHƏMMƏD HADİ**

## TÜRK NƏĞMƏSİ

*Türkün tökülən qanları bihudə gedərmi!*
*Diqqətlə düşün, yoxsa bu qan həpsi hədərmi!*
*Dörd ildə verilmiş bu qədər can hədər olmaz,*
*Məfkurə yolunda tökülən qan hədər olmaz.*
*Qiymətli olan xuni-şəhidan hədər olmaz,*
*Dul qalmış olan növhəyi nisvan hədər olmaz,*
*Bax sən sonuna himməti türkan hədər olmaz,*
*Bədbəxt olan əfqani-yetiman hədər olmaz.*
*Türkün tökülən qanları bihudə gedərmi!*
*Diqqətlə düşün yoxsa, bu qan həpsi hədərmi!*

***

*Qan ilə qazandıq zəfəri verməyiz əldən,*
*Xovf eyləmədik atəşi dəhhaşe düvəldən.*
*Bir zərrə belə qorxmayırız dəsti-əcəldən.*
*İstərsə cahan çevrile tərsinə təməldən.*
*Türkün üzü çevrilməyəcək səmti əməldən,*
*Türklər geriyə dönməyəcək müslih əməldən.*
*Yüksək yaşamaq istər ikən cümlə-miləldən.*
*Türkün tökülən qanları bihudə gedərmi!*
*Diqqətlə düşün, yoxsa, bu qan həpsi hədərmi!*

**"Azərbaycan" qəzeti,**
**Gəncə N1, Yekşənbə, 8 zilhiccə 1336.**

***"Azərbaycan" 4.10.89***

## "TƏKAMÜL" QƏZETİNİN REDAKTORU

Məlum olduğu kimi, Azərbaycan KP MK bürosu "Azərbaycan dövlət quruluşunun dirçəldilməsi günü haqqında" qərar qəbul etmişdir. Mayın 28-də Azərbaycanda Xalq Cümhuriyyəti elan edilməsinin ildönümüdür. "Türk islam dünyasında ilk demokratik cümhuriyyət rejimi ilə yeni doğan bir türk dövləti"nin (M.Ə.Rəsulzadə) yaradılması xalqımızın tarixinin ayrılmaz hissəsini təşkil edir.

Azərbaycanın istiqlalı və dövlət müstəqilliyinin bərpası fikri, respublikanın yaradılması işinə başçılıq edənlərin özlərinin də etiraf etdikləri kimi, "tarixin axışı içində Azərbaycan xalqının öz ruhundan doğan bir ümummilli hərəkat, hadisə idi...". "İstiqlal" bütün Azərbaycan xalqının əsəri olmuşdur.

Azərbaycan istiqlalı haqqında bəyanatdakı: "Müstəqil Azərbaycan dövlətinin şəkli - idarəsi Xalq Cümhuriyyəti kimi qərarlaşdırılmışdır" maddəsinə, yəni parlamentli, çoxpartiyalı respublika dövlət formasının seçilməsi böyük maraq doğurur. O zaman nə Rusiyada, nə də Şərqdə belə bir hakimiyyət forması yox idi. Mütləqiyyət, avtoritar rejimlərin əhatəsində yaşayan, siyasi mədəniyyət meydanında ilk addımlar atan, uzun əsrlər boyu öz dövlət müstəqilliyini itirmiş bir xalqın, hətta Qərbdə belə həsəd aparılacaq parlamentli respublika dövlət formasını seçməsini nə ilə izah etmək olar? Aydınlaşdırılması və tədqiqi vacib olan problemdir.

1917-1920-ci illərin mürəkkəb, fəlakətli, qanlı-qadalı mübarizəsində xalqa başçılıq edən, onu fiziki cəhətdən məhv olmaq təhlükəsindən qurtaran, Azərbaycan dövlət qurumunun dirçəldilməsinə nail olan şəxsiyyətləri indiki və gələcək nəsillərə tanıtmaq vacibdir. Həmin xadimlər sırasında M.Ə.Rəsulzadənin xüsusi yeri vardır. Bu görkəmli dövlət xadiminin, publisistin keşməkeşli, mürəkkəb və bəzən də ziddiyyətli həyat yolu dərindən öyrənilməlidir. Məlumdur ki, onun dünyagörüşü XX əsr azadlıq hərəkatı tarixində əlamətdar olan birinci rus inqilabı dövründə, Qərbin və Şərqin mütərəqqi ideyaları zəminində formalaşmağa başlamışdı.

1904-1907-ci illərdə M.Ə.Rəsulzadə N.Nərimanov, S.M.Əfəndiyev, S.Musəvi və başqaları ilə birlikdə sosial-demokrat "Hümmət" təşkilatının yaradıcısı və fəal xadimlərindən biri idi. O, artıq 22 yaşında ikən - 1906-cı ildə "Hümmət"çilərin "Təkamül" qəzetində redaktorluq edirdi. Bu qəzetdə onun indi də böyük maraq doğuran 30-dan artıq yazısı dərc olunmuşdur.

***"Kommunist", 26 may 1990.***



## YAZIÇI ƏFQANA VƏ "AZƏRBAYCAN"IN BÜTÜN OXUCULARINA

## M Ə K T U B

Hörmətli Əfqan! Sənin "Kommunist" qəzetinin sentyabrın 7-si nömrəsindəki "Ümidimizi üzməyək..." sərlövhəli publisist sözünü diqqətlə oxudum. Mən də Azərinformun direktoru Azad Şərifov haqqında sənin yazdıqlarına tam şərikəm. Lakin məni məktubla müraciət etməyə sövq edən təkcə bu deyil. Orada diqqətimi cəlb edən seçkilərlə əlaqədar bəzi mülahizə və fikirlərdir. Məsələn, sən respublika mətbuatında çıxmış bir karikaturanın sözlərini xatırlayır və yazırsan ki, belə gedərsə parlamentimiz necə olacaq? Karikaturanın sözlərini yada salıram: "Biz dedik ki, parlament qoyun-quzu yığnağı olmasın, demədik ki, canavar, goreşən, tülkü, çaqqal, qarğa-quzğun yığnağına çevrilsin". Sonra yazırsan ki, "buna yol vermək olmaz". Çox yaxşı fikirdir. Respublikamızın bütün namuslu-qeyrətli adamları da elə bunu istəyir. Lakin əvvəlcə bir cəhəti aydınlaşdırmaq, dəqiqləşdirmək vacibdir. Uzun illər kimlər, hansı hakim siyasi qüvvələr respublika Ali Sovetini "qoyun-quzu yığnağına" çevirmişdilər? Doğrudanmı, "canavarlar, goreşənlər, tülkü, çaqqal, qarğa-quzğunlar" elə bu seçkilər ərəfəsində əmələ gəlmiş, parlamenti ələ almaq "həvəsinə" düşmüşlər? Yoxsa elə çoxdan hər şeyin sahibi onlardır? Məgər inzibati-amirlik sistemi xalqın canına, qanına daraşan həmin yırtıcılardan ibarət deyildimi? Onlar indi libaslarını, rənglərini, danışıq tərzlərini, müraciət formalarını məcburiyyət qarşısında, xalqın vahid güclü cəbhəsinin təzyiqi qarşısında, dəyişmişlər. Amma mövqelərində hələlik möhkəmdirlər, fürsət gözləyirlər, manevr edirlər, gözə kül üfürürlər. İndi səs salmağa, azçox yazıb-pozmağa, xırda güzəştlərə icazə verilir, yerdə qalan köhnə hamam-köhnə tasdır.

Yazırsan ki, "dedilər seçkilər tam demokratik ruhda keçsin, MK-nın və ictimai təşkilatların siyahıları olmasın. Bu il, doğrudan da, siyahı qaydası yoxdur". Həmkarım Əfqan, gəlin hamımız, mən də, sən də, heç olmazsa xalqımızın və tariximizin bu ağır günündə, yaşımızın bu ahıl çağında həqiqəti deməkdən, düz danışıb-yazmaqdan qorxmayaq. Deyirsən siyahı yoxdur. Mən deyirəm olub və yenə də var. Ancaq əvvəlki illərdən fərqli olaraq yeni formada, yeni şəraitə uyğun şəkildə həyata keçirilir. Deyəcəksən dəlil-sübut?.. Budur, şahidi olduğum fakt, həqiqət! Xalqımızın böyük vətəndaş şairi Bəxtiyar Vahabzadə Şəkidə dincəlirdi. Mən də orada idim. Mingəçevir şəhərindən dövlət istilik

elektrik stansiyası kollektivi adından nümayəndə heyəti onun yanına gəlmişdi ki, biz səni Azərbaycan SSR xalq deputatlığına namizəd vermək istəyirik, camaat yığışıb sizi gözləyir. Mən də onunla Mingəçevirə getdim. Şəhər partiya komitəsinin yanından keçərkən şair maşını saxlatdı, dedi, gedək rəhbərliklə görüşək. Mingəçevir Şəhər Partiya Komitəsinin birinci katibi Ramiz Ağayev gəlişimizin səbəbini bilən kimi dedi: "Bəxtiyar müəllim, Siz MK-nın siyahısında bizdən namizəd deyilsiniz". Zəng etdi MK-nın təşkilat şöbəsinə, ordan dedilər ki, "Bəxtiyar müəllim siyahıda Zaqatalada nəzərdə tutulub". Zəng etdilər Zaqatalanın katibi Qabil Qurbanova. O təsdiq etdi ki, şair Zaqatalaya gəlməlidir. Qeyd edim ki, bundan əvvəl Göyçaydan şairin dalınca gəlib onu ora aparmışdılar. Seçkilərin yığıncağı keçirilmiş, bütün lazımi sənədlər də hazırlanmışdı. Lakin rayon rəhbərliyi iki ayağını bir başmağa dirəmişdi ki, sən siyahıda bizim rayondan deyilsən. Namizədi qeydə almaqdan imtina etmişdilər. Hətta buna etiraz əlaməti olaraq Göyçayda bir neçə nəfər aclıq elan etmişdi.

Qarşıdakı seçkilərlə əlaqədar bütün səviyyələrdə geniş müzakirə, mübahisə və hətta çəkişmələrin meydan alıb getməsi faktdır. Axı, demokratiya nə olduğunu bilməyən, görməyən, hiss etməyən, yalnız adını eşidən bir məmləkətdə belə bir qarışıqlıq və hərc-mərcliyin olması bir növ təbiidir. Biz ilk addımlar atırıq. Amma söhbət budur ki, hansı səmtə, hansı tərəfə, nəyə doğru?!

Xalq deputatlığına namizəd göstərilmiş min yüz nəfərdən artıq adamın hamısı, əlbəttə, MK-nın siyahısı üzrə deyil. O ki qaldı xalqın layiqli oğlanlarının bir qismini parlamentə buraxmamaq üçün göstərilən və hörmətli Əfqan, sənin qeyd etdiyin kimi, "vəzifə təsiri və hədə-qorxu" məsələsinə, bu, doğrudan da, vardır. Özü də aşağılar bunu yuxarılardan öyrənirlər. Şair Bəxtiyar Vahabzadənin başına gətirilənlər buna ən bariz misaldır. Dünyanın tanıdığı, bütün həyatını, varlığını, istedadını Azərbaycanın suverenliyi, milli istiqlaliyyəti uğrunda mübarizəyə həsr edən, Vətən və xalq dərdinə şam kimi yanan bir sənətkarı bu son ayda xalq, camaat, sadə adamlar bir tərəfə səsləyir, çağırır, şair də xalqın ardınca gedir. Digər tərəfdən yuxarıların "mahir" əli ilə onun Ali Sovetə deputat seçilməsi qarşısına sədd çəkilir. Mən Zaqatalada, Mingəçevirdə bu oyunların şahidi oldum. İndi də bəziləri iddia edirlər ki, dünənə qədər çox böyük nüfuz sahibi olan bəziləri bu gün namizədlər siyahısına "zorla" düşə bilirlər. Əcəb demokratiya oyunudur.

Bəxtiyar Vahabzadə Yevlaxdan - 109 nömrəli seçki dairəsindən 5 rəqiblə birlikdə mübarizə aparmalıdır. Amma "Kommunist" qəzetində



dərc olunmuş seçki dairələri üzrə namizədlərin siyahısına baxın, neçə-neçə vəzifə sahibi, xalqın dərdindən çox, onun hesabına kef çəkənlər yeganə namizəd kimi qeydə alınmışlar. Nədir bu? Təsadüfmü, yoxsa növbəti seçki oyunudur? İnzibati-amirlik sistemi həqiqi demokratik qüvvələrin qarşısında möhkəm durmuşdur.

Xalq az-çox ayılıb. Lakin onun həqiqi demokratiya uğrunda mübarizə təcrübəsi demək olar ki, yoxdur. Bundan yuxarılar və onların himayə etdikləri aşağıdakı mafiyalar bacırıqla istifadə etməyə, öz hakim mövqelərini parlamentdə qoruyub saxlamağa çalışırlar. Dostum Əfqan! İnana bilmirəm ki, Sizin, hər şeydən və hər işdən agah olan təcrübəli jurnalistin bunlardan xəbəri yoxdur...

***"Azərbaycan" qəzeti, 14 sentyabr 1990.***

## *2-Cİ SƏHİFƏNİN QONAĞI*
## ŞİRMƏMMƏD HÜSEYNOVDUR

**- "7 gün"lə görüşə xoş gəlmisiniz.**

- Sağ olun.

**- Şirməmməd müəllim, ölkədə və respublikamızdakı indiki vəziyyəti necə xarakterizə edərdiniz?**

- Respublikada vəziyyət bütün ölkədə olduğu kimi, xarici jurnalistlərdən birinin təbirincə desək "idarə olunan xaos", özbaşınalıq kimi səciyyələndirilə bilər. Adətən, dövlətin dayaqları qanunverici, icraedici və məhkəmə orqanlarıdır. İndi bunların hər üçü iflic vəziyyətindədir. Ölkəni bu vəziyyətə salan əsas dayaq - Sov.İKP formal olaraq hakimiyyətdən əl çəksə də yenə ölkənin taleyi: iqtisadiyyatı, hakimiyyət orqanları partokratiyanın əlindədir. Əlbəttə, burada Moskva və Leninqrad, Pribaltika və bir sıra digər yerlər istisna edilə bilər. Respublikamızda demokratiya haqqında hay-küy var, kağız-kuğuz boldur. Amma əsaslı dəyişiklik nəzərə çarpmır. Belə getsə bizi iqtisadi fəlakət, tam hərc-mərclik gözləyir. Gözümüzün qabağında zəhmətkeşlərin birgə əməyi ilə yaradılan nə varsa hərraca qoyulur. Korrupsiya, oğurluq, möhtəkirlik baş alıb gedir. Xalqın malına, qanına, canına daraşanlar əl-qol açmışlar. Heç bir şeydən qorxmurlar. İndi heç kəsdən çəkinən yoxdur. Məsələn, bəzi qəzetlərimiz çox böyük fəxrlə yazırlar ki, respublikada tikhatikdir. Zəhmətlə, halallıqla tikilənlərə sözümüz yoxdur. Lakin saraylar, böyük mülklər nə hesaba, kimin hesabına tikilir? 15-

20 il mənzil növbəsində duran zəhmətkeş üçün ev tikməyə material tapılmır. Xalqı soyub varlananlar isə nə istəsələr tapırlar. Məgər bu demokratiyadı, azadlıqdı? Bu, xalqı soymaq azadlığıdır. Mən bu günlərdə Mingəçevirdə idim. Neçə-neçə zavod və fabrik işini dayandırıb: material yoxdur. Məsələn, Mingəçevir izolit zavodunun 800 fəhləsi "məzuniyyətə" buraxılıb. Bunların taleyi necə olacaq? Nə üçün hər dayanan zavoda görə biz həyəcan siqnalı çalmırıq? Niyə respublika hökuməti, rəsmi dairələr dayanan fabriklərin, zavodların, sexlərin siyahısını elan etmir? İşsizlərin taleyindən konkret danışmır? Hakimiyyət uğrunda, vəzifə və havayı gəlir uğrunda mübarizə aparan çoxdur, xalqın qeydinə qalan isə az. Belə təsəvvür yaranır ki, hərə öz başının çarəsini qılmalıdır. Bax, buna xaos deyirlər. Belə bir şəraitdə mən xalqın birliyindən danışanlara təəccüb edirəm. Milləti soyub, onun var-yoxunu hərraca qoyan, şəxsi mənafeyi hər şeydən üstün tutanlarla namuslu adamların birliyi necə tuta bilər, onlar arasında, necə həmrəylik ola bilər? Xalqın canına, qanına daraşan həşəratlardamı xalqdır, millətdir? Yox, min dəfə yox! Xalq və millət məfhumu çox müqəddəsdir, alidir. Millət bayrağı altında canilərə, karyeristlərə, vicdan və namusunu itirənlərə yer olmamalıdır. Ən dəhşətlisi budur ki, indi oğrular doğruları küncə basmaq istəyir. Ən çox "azadlıq, millət" deyənlərin bir qismi onlardır. Soruşacaqsınız çıxış yolu? Ən çətin sualdır. Bilirsiniz niyə? Bu günlərdə SSRİ Xalq deputatlarının növbədənkənar qurultayında Rusiya Pravoslav kilsəsinin başçısı açıqca bildirdi ki, 74 il ərzində hakim partiya təkcə Rusiyanın iqtisadiyyatını, maddi sərvətlərini, tarixi abidələrini deyil, xalqın daxili mənəvi dünyasını, inamını və imanını da dağıtmışdır. İndi cəmiyyət içərisində pozulmamış nəinki sinif, hətta qruplar da aramaq çətindir. Xəzər dənizində çirkabdan təmiz sahə tapmaq nə qədər müşküldürsə, bu da elədir. Bax, vəziyyət bu cürdür. Çıxış yolunu sağlam, Vətənə, torpağa bağlı, şəxsi ambisiyalardan azad, uzaqgörən adamlar bir yerə yığışıb kollektiv təfəkkür və düşüncə ilə müəyyən edə bilərlər. Xalq öz içərisindən liderlərini tapmalı, onların ətrafında birləşməlidir. Başsız, şəxsiyyətsiz, lidersiz xalq zülmətə düşmüş adam kimidir.

**- SSRİ Xalq Deputatlarının növbədənkənar qurultayı Sizdə na kimi təəssüratlar oyatdı?**

- Qurultayın işini mən də hamı kimi diqqətlə izləmişəm. Gəldiyim birinci qənaət budur: mühafizəkar imperiya tərəfdarları nə qədər səy etsələr də keçmişi qaytara bilməyəcəklər. Sovet imperiyası ölür, onu diriltmək mümkün deyil. Altı ilin təcrübəsi göstərdi ki, nə imperiyanı, nə də inzibati-amirlik sistemini islah etmək mümkün deyil. İkinci gəl-



diyim qənaət budur ki, qurultayda vaxtilə Yuri Afanasyevin dediyi "sözəbaxan çoxluq" özü də yavaş-yavaş hərəkətə gəldi. Bu, birinci növbədə milli respublikalardan olan nümayəndələrə və Rusiyanın demokratik qüvvələrinə aiddir. Bu qurultay, yəqin ki, axırıncısı olacaq. Nəticə tam şəkildə mənə məlum olmasa da demokratik qüvvələrin qətiyyəti inam verir deyəm ki, Sovetlər İttifaqı deyilən ölkə olmayacaq. Müstəqil dövlətlərin iqtisadi ittifaqı isə başqa şeydir.

**- Bir vaxtlar siyasi icmalçı kimi televiziyada çıxışlar edərdiniz. İndi isə ekranda görünmürsünüz...**

- Əvvəla deyim ki, siyasi icmalçılıq, politoloqluq uzun zaman kütləvi informasiya vasitələrimizdə bizim üçün bağlı sahə olub. Doğrudur, olanların icmalını demək, deyilənləri qısaca təkrar və tərif etməyə icazə verilib. Amma, müstəqil düşünməyə, fikir deməyə, özü də əks, müxalif fikir söyləməyə imkan verilməyib. Birdən-birə müstəqil düşünmək, özü də böyük və ciddi problemlər barədə fikir söyləmək asan iş deyildi. Biz bu təcrübəni də keçməli idik. Demokratiya yolu, müstəqil düşünmək vərdişi və qabiliyyəti birdən-birə yaranmır. Həm də mən heç vaxt o iddiada olmamışam ki, hər şeyi bilirəm, hər məsələdən başım çıxır. Amma mən heç vaxt, heç kəsin təzyiqi və ya göstərişi ilə öz əqidəmə müxalif çıxış etməmişəm. Nə demişəmsə, səhv də olsa, öz fikrim olub. Hamını hər məsələdə razı salmaq mümkün deyil. Məsələn, mən axırıncı dəfə bu il yanvarın 10-da Azərbaycan televiziyası ilə çıxış etdim. Təxminən bir il düşünüb-daşınandan, götür-qoy etdikdən sonra. Çoxlu rəylər aldım. İsmayıl Şıxlı, Bəxtiyar Vahabzadə, Mahmud İsmayılov, Nəriman Həsənzadə və başqalarının rəyləri məndə belə bir qənaəti yaratdı ki, mühüm məsələlərdə tələsmək lazım deyil. Yüz ölçüb, bir biçmək gərəkdir. Bu çıxışdan sonra televiziya rəhbərliyinə qulaqburması verdilər. Mən də daha getmədim. Qismət olsun, nə vaxt həqiqi mətbuat azadlığı bizim respublikamızda da bərqərar olar, radio və televiziya partokratiyanın diktaturasından xilas olar, onda yenə ekranda görüşərik.

**- Şirməmməd müəllim, ötən illərdə ünvanınıza deyilənlərə münasibətiniz, elə bilirik ki, oxucularımız üçün də maraqlı olar...**

- Mənim kim olduğumu, hansı əxlaqın, dünyagörüşünün sahibi olduğumu qoy birinci növbədə tələbələrim desinlər. Hər halda mən bu yaşımda bütün məsuliyyətimlə deyə bilərəm ki, bu və ya digər məsələyə, problemə münasibətdə səhv etsəm də, əsas məsələdə - nəfsimə hakim olmaqda, xalqa, torpağa bağlılıqda çalışmışam, bir an belə səhvə yol verməyim. Mənə dedilər ki, həmin vaxt (1989-cu ilin noyabr-dekabr ayları nəzərdə tutulur-red.) politexnik institutunun pul almamış tə-

ləbəyə qiymət verməyən meydan pəhləvanları deyirlərmiş ki, Məmməd Əmin Rəsulzadənin adı ilə bağlı BDU-da professor Şirməmməd Hüseynovun dərs deməsi nə qədər məqsədəuyğundur? Mən bu nadan və cahillərə cavab verirəm ki, onlar heç olmasa mənim hazırladığım və bu yaxınlarda birinci cildi "Azərnəşr"də çapdan çıxacaq M.Ə.Rəsulzadənin əsərlərini oxusunlar. Görsünlər ki, Azərbaycan torpağı necə qeyrətli, namuslu və vicdanlı kişilər yetişdirib.

Amerika politoloqlarından biri yaxşı deyir ki, inkişaf təkamüllə olduqda ağıllı, demokratik, uzaqgörən qüvvələr hakimiyyətə gəlir, ani inqilablar vaxtı isə onu dahilər hazırlayır, fanatiklər və kortəbii qüvvələr icraçı olur, şarlatanlar isə hakimiyyət başına keçir. Dünya inqilablarının təcrübəsi bunu müəyyən mənada təsdiq edir.

**- Jurnalistika fakültəsinin professoru kimi mətbuatımızın indiki vəziyyəti haqqında nə deyə bilərsiniz?**

- Qəzet və jurnalların sayı çoxalıb. Bu yaxşıdır. Fikir və mövqe müxtəlifliyi də mövcuddur. Bu da yaxşıdır. Çoxlarının avazı yaxşı gəlir. Amma, görək, oxuduqları Qurandırmı? Siyasət ümumilik sevir, amma konkretlik də istəyir. Ümumiyyətlə, partokratiya deyilir, amma hər rayonda, hər müəssisədə bu zümrədən olanlar nə oyunlar çıxarırlar?! Qəzetlərimiz bunlardan yazmır. Konkretlik yoxdur. Mən sinfi mübarizəyə çağırmıram. Açıq, halal yolla, iqtisadi qanunlar əsasında, hüquq normalarını gözləyərək bazar iqtisadiyyatı zəminində qazanmaq, həcmi və miqdarından asılı olmayaraq halaldır. Dünyanın sivilizasiyalı ölkələrində bu qanun hökm sürür və pis də yaşamırlar. Bəs, bizdə necə? Oğurluq, fırıldaq, yalan. Qanunları kobudcasına tapdalayaraq varlananlarla mübarizə aparmaq lazımdır. Bu bizim mətbuatda çatışmayan ən böyük nöqsandır. Hamı ümumi danışır, ümumi yazır. Axı, hər rayonun, hər kəndin, hər müəssisənin, hətta hər ali məktəbin də soyğunçuları var. Mən istərdim ki, mətbuat səhifələrində namuslu, qeyrətli adamlardan da, onların fəaliyyətindən də yazılsın. Mən bir vaxt DİNnin rəhbər işçiləri ilə görüşəndə zarafatla təklif irəli sürmüşdüm ki, cinayət axtarışı şöbəsilə yanaşı düzlük axtaran şöbə də yaradılsın. Amma, ağlım kəsmir ki, onlar bu işlə məşğul olsunlar. Çünki belə müəssisədən "qazanmaq" olar?

**- Bu günlərdə respublika parlamentində qəbul edilmiş müstəqillik haqqında bəyannamə ilə bağlı hansı fikirləriniz var?**

- Deməli, müstəqilliyin bərpası tarixi fakta əsaslanır. Bunu alqışlamamaq olmaz. İndi söhbət həqiqi müstəqilliyin real olaraq bərqərar edilməsindən getməlidir. SSRİ Xalq Deputatlarının növbədənkənar qurultayı da göstərdi ki, respublikaların müstəqilliyi məsələsi qarşısıalınmazdır. Bütün respublikalar bu yola qədəm qoyub. Amma hakimiyyət başına kim gələcək? Bu xalqı, dövləti kim idarə edəcək? Hansı qanunlarla idarə edəcək? Söhbət bundadır. Əgər, təkcə lövhə dəyişiləcək, yalnız dövlətin atributları (bayrağı, gerbi, himni) yeni olacaqsa, mülkiyyət forması dəyişməyəcəksə, bazar iqtisadiyyatına keçilməyəcəksə, mərkəzdən asılılıq, ələbaxımlılıq qalacaqsa, ən əsası isə xalqın mühafizə və müdafiəsinə respublika özü cavabdeh olmayacaqsa (hələ mən pul, xarici əlaqələr və sairəni demirəm) müstəqillik quruca söz olaraq qalacaq. Biz gərək öz evimizin həqiqi sahibi olaq. Qonaqları sahiblik etməyə qoymayaq.

**- Vaxtınızın xeyli hissəsini arxivlərdə keçirirsiniz. Bu sahədəki fəaliyyətinizin son nəticələrini bilmək maraqlıdır...**

- Mən son iki ildə yüzə yaxın məqalə yazmışam. Məmməd Əmin Rəsulzadənin 30 çap vərəqi həcmində əsərlərinin birinci cildini (1903-1909-cu illər) akademik çap üçün hazırlamışam. Həmin müddətdə Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə, Ömər Faiq Nemanzadə və Üzeyir Hacıbəyovun dərc olunmamış məqalələrindən nümunələr dərc etdirmişəm. "Azərbaycan" qəzetinin 1918-ci il 3 oktyabr tarixli, Bakıda çıxan ilk - beşinci nömrəsini kirill əlifbası ilə çap etdirmişəm. Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə dair bir sıra mühüm sənədlər mətbuat orqanlarında yenidən dərc olunub. "Şəki fəhləsi" qəzetində rubrika aparıram: "Şəki inqilabdan əvvəlki mətbuat səhifələrində". Çünki tarixi şəxsiyyətləri ancaq Bakı və Tiflisdə axtarmaq səhvdir. Ümummilli miqyasda düşünən, təfəkkür və əməl sahibi olan yüzlərcə, minlərcə ziyalımız olub. Ümummilli oyanış əgər bütün Azərbaycan torpağında olmasa, həqiqi milli müstəqillikdən söhbət gedə bilməz. El gücü o vaxt sel gücü olar ki, Bütün Azərbaycanın maddi və mənəvi potensialı bir məcraya - istiqlal məcrasına yönəldilsin. İndi məsələ bu məcranı necə yaratmaqdan, necə açmaqdan gedə bilər. Burada əsl siyasətçilərin, milli təfəkkür sahiblərinin ümumbəşəri ideyalara yiyələnmələri, birgə əməyi, zəhməti lazımdır.

**- Maraqlı müsahibə üçün sağ olun.**

- Siz də sağ olun.

**Şövkət SƏLİMOV**

***"7 gün" qəzeti, 14 sentyabr 1991.***

## MÜSTƏQİL DÖVLƏTƏ AZAD JURNALİSTİKA GƏRƏKDİR

**- Şirməmməd müəllim, məlumdur ki, demokratik ölkələrdə mətbuat dördüncü hakimiyyət və ya qanunverici, icraedici, məhkəmə orqanlarından yuxarıda dayanan dördüncü silk rolunu oynayır. Bəs bütün parametrləri üzrə dağılmaqda olan bu məmləkətdə mətbuatın və digər informasiya vasitələrinin vəziyyəti nə yerdədir?**

- Mətbuatın vəziyyəti məmləkətin siyasi-iqtisadi həyatından asılıdır. İndi bizdə nə totalitar rejim hökm sürür, nə də demokratik rejim. Biri dağılıb, o biri hələ bərqərar olmayıb. Ona görə də nə SSRİ Ali Sovetinin, nə də respublikaların mətbuat və başqa kütləvi informasiya vasitələri haqqında qanunlarında bitkin konsepsiya yoxdur. Mətbuat demokratiyanın sözdə, az çox siyasətdə duyulduğu şəraitdə fəaliyyət göstərir. İqtisadi demokratiya isə yoxdur. Beynəlxalq miqyasda qəbul olunmuş aksiom var: Xüsusi mülkiyyət olmayan yerdə demokratiya olmaz. Demokratiya olmayan yerdə hüquqi dövlət olmaz. SSRİ-də yuxarıdan həyata keçirilən inqilab totalitarizmin iki söykənəcəyini - bir partiyanın və bir ideologiyanın diktaturasına əsasən son qoydu. Amma başlıca söykənəcək - bir mülkiyyət (dövlət mülkiyyəti) formasının diktaturası qalır. Mətbuatı bugünkü acınacaqlı vəziyyətə salan da budur. Bazar iqtisadiyyatı yoxdur, amma respublika mətbuatı bazar qanunlarına tabe olunur. İndiki iqtisadi xaos şəraitində son dərəcə kasıblaşan əhali bir parça çörək qayğısına qalmağa məcbur olur, onun mənəvi qidaya maddi imkanı qalmır.

**- Yəqin ki, yanvar ayından mətbəə, kağız, rabitə xərclərinin artması mətbuatın vəziyyətini daha da ağırlaşdıracaq.**

- Şübhəsiz. Bu günlərdə bağlanmaq təhlükəsi qarşısında qalan bir çox rus qəzetlərinin redaktorları RSFSR mətbuat və informasiya naziri Poltoraninin iştirakı ilə keçirilən müşavirədə müflisləşən qəzetlərə dotasiya verilməsi məsələsi qaldırıblar. MK aparatının Prezident aparatı ilə əvəz olunduğu bizim respublikada əsas partiya qəzetləri prezident aparatı qəzetlərinə çevriliblər. Demokratik mətbuatda siyasi mübarizədə mövqeləri zəifləmiş bu qəzetlər açıq və örtülü himayədarlarının maliyyə köməyi ilə öz mövqelərini saxlamaq istəyirlər. Demokratik mətbuat isə iqtisadi təzyiqə məruz qalır, sıxışdırılır. Buna jurnalistika nəzəriyyəsində totalitar nəzəriyyə deyirlər. Avropada XVI-XVII əsrlərdə təşəkkül tapmış bu nəzəriyyəyə görə mətbuatın başlıca vəzifəsi hakimiyyəti müdafiə etmək, mövcud hökumətin siyasətini həyata



keçirmək uğrunda mübarizə aparmaqdır. Özü də mətbuatın mütləq hökumət orqanı olmağı vacib deyil. Çünki dövlət öncə mətbuata nəzarət etməyin iqtisadi təzyiq, maddi asılılıq praktikasından istifadə edir. Sonra ikinci mərhələ-senzura gəlir. Rusiya imperiyasında mətbuat həmişə bu nəzəriyyə əsasında mövcud olub. Pyotr imperiyanın banisi kimi, tarixə həm də Rusiyada totalitar jurnalistikanın yaradıcısı kimi düşüb. Lenin də mətbuatın partiyalılığı prinsipini ortaya atanda məhz bu nəzəriyyəyə söykənirdi. Fəxr edə bilərik ki, Azərbaycan mətbuatı öz tarixini demokratik ənənələrlə başlayıb. Mətbuatımızın banisi H.Zərdabi "Əkinçi"də yazırdı: "Hər bir vilayətin qəzeti gərək o vilayətin aynası olsun", "Yaxşı yamanlığını aşkar eləsin", "Xalqın hər bir dərdi və xahişi o qəzetdə çap olunsun ki, o qəzetə baxan xalqı aynada görən kimi görsün". "Şərqi Rus"un redaktoru M.Şaxtaxtinski də bu prinsiplərə sadiq qalaraq öz qəzetinin məramnaməsini belə ifadə edərdi. "Biz qəzet çıxarırıq ki, həqiqəti yazaq". İnqilaba qədərki, bütün mətbuat orqanları da - "Açıq söz" də, "Həyat" da, "İrşad" da, "Kaspi" də, "Molla Nəsrəddin" də demokratik jurnalistikanın gözəl nümunələridir. Bu jurnalistikanın yükünü daşıyan Ə.Hüseynzadə, Ə.Ağayev, M.Ə.Rəsulzadə, C.Məmmədquluzadə kimi publisistlərimizin yaradıcılığını, mətbuatımızın tarixini dərindən öyrənsək, jurnalistikamızı Şimaldan gələn totalitarizm bəlasından xilas edə bilərik.

**- Totalitar jurnalistika nəzəriyyəsinin ömrü nə qədər oldu? Avropada onu hansı nəzəriyyə əvəz etdi?**

- Qərbi Avropada və Amerikada totalitar nəzəriyyəni bir neçə əsrdən sonra azad iradə nəzəriyyəsi əvəz etdi. Azad iradə nəzəriyyəsi rasionalizm və insanın təbii hüquqları fəlsəfəsinə əsaslanır. Nəfəs almaq kimi, fikirləşmək və danışmaq da insanın təbii hüququdur. Azad iradə nəzəriyyəsinə görə mətbuatın əsas vəzifələri informasiya vermək, həqiqəti aşkara çıxarmaq, hökumətin fəaliyyəti üzərində nəzarət etməkdir. Bununla bərabər mətbuat həm də əmtəədir, əylədirmək vasitəsidir. Mətbuata yalnız 3 şey qadağan olunur: böhtan, ləyaqətsizlik, dövlət sirrlərini açmaq. Mətbuatın işini tənzimləyən isə "azad ideya bazarı"dır. Xaricdə sonuncu jurnalistika nəzəriyyəsi sosial məsuliyyət nəzəriyyəsidir. Bu nəzəriyyə həqiqəti aşkara çıxarmağı oxucunun öz öhdəsinə buraxmağı əsas tutur. Mətbuatın əsas vəzifəsi ziddiyyətləri, mübahisələri müzakirə obyektinə çevirməkdir. Həqiqət müxtəlif fikir toqquşmalarından parlayar. Əlbəttə, bu nəzəriyyə əsasında çıxan mətbuat diskussiya mədəniyyəti, dərin elmi təhlilə, tarixi müqayisələrə əsaslanan nəticələr çıxarmaq bacarığı tələb edir. Bunu isə professionallar edə bilər. Jurnalistika ilə siyasətin ifrat dərəcədə qovuşduğu

xarici ölkələrdə siyasətçilər jurnalistlərdən öyrənməyə çalışırlar. Bizdə isə jurnalistika qızılla, qızıl suyuna çəkiləni ayıra bilməyən zərgər qabiliyyətsizliyi ilə formal və qeyri-formal rəhbərlərin ağzına baxır. Əsil jurnalistika baxımından bizim jurnalistika çox acınacaqlı vəziyyətdədir. Baxın, Azərbaycandakı indiki bu qəzet bolluğunda hələ də rayon qəzetləri çıxır. Böyük əksəriyyəti heç bir şeyə yaramayan bu qəzetlərin əvəzinə zona qəzetləri yaratmaq, nə qədər kağıza, əlavə mətbəə avadanlığına qənaət etmək olar. "Azadlıq" qəzeti var, amma AXC rayon şöbələri də qəzet buraxır. Jurnalistikanı bu cür özfəaliyyətçilik məhv edir.

**- Yeri gəlmişkən, müxalifətin mətbuatı haqqında fikrinizi bilmək istərdim.**

- Müxalifətin mətbuatında güclü radikalizm var. Təfəkkürdə, fikirdə radikalizmin sonu isə əməldə ekstremizmlə qurtarır.

**- Bizim televiziyamız haqqında nə fikirdəsiniz? Q.Xəlilovun M.Muradovla əvəz olunması televiziyanın işinə təsir göstərə bildimi?**

- Q.Xəlilov totalitar dövrün adamıdır. O bütün varlığı ilə onu vəzifəyə qoyan adamın siyasətinə qulluq etmək psixologiyasına bağlı idi. Zəlil gününə salınmış xalqın əyləncəli proqramlarla (göz yaşları içində qəhqəhə ilə) başının qatılması hamıda ikrah hissi doğururdu. Bəzən cızığından kənara çıxmalar özünü göstərsə də Q.Xəlilov televiziyası mahiyyətcə totalitar təfəkkürün məhsulu idi. M.Murad gələndən sonra bir sıra dəyişikliklər üzə çıxdı. Televiziya ekranı müxalifətin üzünə geniş açıldı. Verilişlərin məzmunu dəyişdi, auditoriyası genişləndi. Çıxışlarına yasaq qoyulmuş adamlara söz demək imkanı verildi. Amma sən demə bu göz qamaşdırmaq, daha məkrli, üstüörtülü planlardan diqqəti yayındırmaq imiş. Bir azdan müxalifət adı ilə ekrana hazırlıqsız, siyasətdən başı çıxmayan, mitinqlə televiziya ekranını dəyişik salan siyasi özfəaliyyət dərnəklərinin üzvləri çıxmağa başladılar. Hətta adicə redaktə edilməmiş nə qədər veriliş gördük. Məndə belə bir qənaət əmələ gəlib ki, M.Murad müxalifətin, ziyalıların bir qismini bu yol ilə xalqın gözündən salmağa səy göstərir. Siyasətdə ayıq adamlar isə ekrana buraxılmır. Bu yaxınlarda televiziya ilə göstərilən Osmanlı imperiyasının tarixindən bəhs edən "Quruluş" filmi yəqin yadınızdadır. Bir neçə gün sonra Roma imperiyasının süqutundan, Yuli Sezarın imperiyanı qorumaq üçün erməni imperiyasından kömək istəməsindən bəhs olunan film ekranlara çıxdı. Belə çıxır ki, XI-XII əsrlərdə türklər təzə-təzə təşəkkül tapmağa başlayanda ermənilərin Roma imperiyasının hesablaşdığı güclü imperiyaları varıymış. Mən etirazımı M.Muradda bildirəndə o bunu fikir plüralizmi ilə əlaqələndirdi. Əslində isə bu diversiyadır. Böyük Ermənistan ideoloqlarının dəyirmanına su tökməkdir. Yaxud "təzə peyğəmbər - Gülzarı televiziyaya çıxartmağı götürək. Bizi islam fundamentalizmində, fanatizmdə ittiham edənlərə xidmət etmək deyilmi? İş o yerə çatıb ki, televiziyada demokratik blokun deputatlarına lətifə danışdırırlar. Başa düşə bilmirəm, müxalifət nümayəndələri onları gözdən salmaq üçün planlaşdırılan bu oyuna nə üçün getdilər? Bu gün lətifə vaxtıdırmı? Televiziyada səriştəsizlik hər verilişdə duyulur. Telejurnalistlik çətin və məsul peşədir. İki-üç məqalə yazıb telejurnalist olmaq mümkün deyil...

**- Şirməmməd müəllim, nəhayət bir neçə kəlmə jurnalist hazırlığı barədə.**

- Jurnalistika fakültəsində müasir texnika yox dərəcəsindədir. Proqramlar da, dərsliklər də, müəllimlər də köhnədir. Az-çox istedadlı uşaqları da indi biz yox, zaman yetişdirir. Xarici ölkələrə tələbələr göndərməliyik. Təhsilə dövlət qayğısı artmalıdır. Yaponiya II Dünya müharibəsindən sonra dizləri üstündən ancaq təhsilə güclü vəsait qoyuluşu hesabına qalxıb indiki səviyyəsinə çatdı. Bizə bir-neçə dil bilən, dərin savadlı, çevik jurnalistlər lazımdır. Xarici ölkələrə, keçmiş müttəfiq respublikalara xüsusi müxbirlər göndərmək üçün bu gün layiqli kadr ehtiyatı yoxdur. Biz dünyadan informasiyanı SİTA vasitəsilə yox, birbaşa almalıyıq. Amma bu elə-belə başa gələn iş deyil. Müstəqil Azərbaycan istəyiriksə, XXI əsrin jurnalistlərini də hazırlamalıyıq. Azad Azərbaycan, səviyyəli, demokratik Azərbaycan jurnalistikasından çox asılıdır.

**Müsahibəni**
**Hikmət SABİROĞLU apardı**

*"Fəryad" qəzeti, 17 dekabr 1991.*

## SUAL-CAVAB

Son günlər hadisələrin sürəti və bununla əlaqədar camaatın narahatlığı da artmışdır. Adamlar bir növ dözümsüz olmuşlar. Teleekrandakı hər verilişdən sonra adama nə qədər zəng edən olsa yaxşıdır? Bəzən küçədə də hər addımda məni saxlayır, çoxlu sual verirlər. Əlbəttə, bunların hamısına cavab tapmaq çətindir. Lakin bir neçəsinin cavabını qəzet vasitəsilə verməyi lazım bilirəm.

Soruşurlar: - BMT-nin axı, neçə üzvü var? Televiziya verilişində siyasətlə məşğul olanlar dedilər ki, guya BMT-nin 140 üzvü var. Bu, doğrudurmu?

- Cavab verim ki, siyasətçi yoldaşlarımız səhv edirlər. BMT-nin 140 deyil, 166 üzvü var. Özü də bunlardan yeddisi son illərdə bu təşkilata daxil olublar. İnşallah, yaxın vaxtlarda bizim də BMT-nin üzvü olmağımız gözlənilir.

Sual verirlər ki, ABŞ doğrudanmı tam müstəqil dövlət deyil?

- Cavab verirəm ki, ABŞ tam müstəqil dövlətdir. Nəinki tam müstəqil dövlətdir, hətta başqalarının müstəqillik paylarından alandır. Görünür, hörmətli siyasətçilər "tam" sözü ilə "mütləq" sözünü dəyişik salırlar. Doğrudan da mütləq istiqlaliyyət yoxdur, tam istiqlaliyyət isə vardır.

Soruşurlar ki, "ittifaq" və "birlik", "dövlət" və "hökumət", "saziş" və "razılaşma" məfhumları sinonimlərdirmi, yoxsa bu barədə danışanlar onların fərqinə varmırlar? Məsələn, "Müstəqil Dövlətlər Birliyi" əvəzinə "müstəqil hökumətlər birliyi" deyirlər. "Minsk sazişi" əvəzinə "Minsk və ya Alma-Ata razılaşması" deyirlər.

Cavab verirəm ki, görünür, tamaşaçılar hüquqi və diplomatiya məfhumlarını yaxşı öyrəniblər. Televiziya işçilərinə və orada çıxış edən hörmətli siyasətçilərə məsləhət görürük ki, bunu nəzərə alsınlar.

**"Səhər" qəzeti, 24.XII.91**





## "SOVET MÖCÜZƏSİ" QALDIQCA KEFİ SAZ DA OLACAQ, AC DA

Dünya çox möcüzələrin şahidi olub. Təbii möcüzələrin, ictimai-siyasi möcüzələrin, iqtisadi, elmi-texniki möcüzələrin. Lakin elə möcüzələr var ki, onlar nadir hallarda və nadir ölkələrdə özünü göstərir. Məsələn, iqtisadiyyatda yapon, Almaniya və Fransa möcüzəsi. Son vaxtlar türk möcüzəsi. Kənd təsərrüfatı sahəsində Hindistan, Pakistan, Braziliya möcüzələri məlumdur. Vaxtilə aclıqdan zillət çəkən bu ölkələr özlərini hər cəhətdən təmin etməklə yanaşı, indi dünya bazarına kənd təsərrüfatı məhsulları da çıxarırlar. Bu mövzuda çox söhbət etmək olar. Lakin dünyada başa düşülməyən bir "möcüzə" də var ki, ona da "Sovet möcüzəsi" deyirlər.

Alimlər göstərirlər ki, əgər keçmiş Sovetlər Birliyində elan olunan rəsmi statistik məlumatlara əsaslansaq, onda gərək Rusiyada yüz milyona yaxın ac-yalavac olar. Lakin vəziyyət son vaxtlara qədər bu şəkildə deyildi.

Alimlər sovet zəhmətkeşlərinin rəsmi maaşlarını götürür, geniş təbəqənin yaşayış səviyyəsi ilə müqayisə edirlər. Məlum olur ki, camaatın əksəriyyəti maaşla dolanmır. Bəs bu yerdə qalan vəsaiti hardan alırlar? İqtisadçıların qənaətinə görə "oğurlaya bilməyən, yaşaya bilməz" prinsipi faktik olaraq həyat qanununa çevrilmişdir. Doğrudur, "oğurlayırlar" sözü bir az kobud çıxır. Odur ki, oğurlayanlar inciməsinlər deyə bu ifadəni "aparanlar", "daşıyanlar" və yaxud da "çırpışdıranlar" şəklində də işlətmək olar.

Biz planetdə yeganə ölkəyik ki, iqtisadiyyatda və milli məhsulun bölüşdürülməsində əməlli-başlı sistem yoxdur. Çırpışdıranların ən böyükləri yuxarılardadır. Birincisi budur ki, ölkədə vəzifələrin əksəriyyəti satılır. Sonra müəssisələr, ali məktəblər gəlir. Burada da hər şey alıb-verməklə tənzim olunur. Mağazalarda heç şey yoxdur. Lakin əksəriyyətinin evində, restoranlarda kababxanalarda quş südü-can dərmanı hər nə desən taparsan. Bax, bu "möcüzəni" xarici iqtisadçılar və siyasətçilər izah etməkdə çətinlik çəkirlər.

Bizim düşündüyümüz vəziyyət çox çətindir, çox müşküldür. İqtisadi islahatları keçirməli olanların başları özlərinə qarışıb. Hər şey oğurlanır, çapılıb-talanır. Məhsul istehsal edən müəssisələrdən tutmuş dü-

kanlardakı piştaxta arxasında duran yerlərə qədər satılır. Maddi nemətlərin kor-təbii hərracının qarşısını indi heç kəs ala bilməz və yaxud almaq istəmir. Müqəddəs kitablarda yazılır ki, "aldatmaq, oğurlamaq günahdır". Bizim başbilənlər buna başqa bir məna veriblər. Buna görə "dövlətdən oğurlamaq günah sayılmır, çünki onsuz da batacaq, yaxşısı budur ki, adamlar daşıyıb aparsınlar".

Məhsulların oğurlanmasının kütləvi xarakterinə bax, beləcə haqq qazandırırlar. Özü də tək-tək adamlar üçün yox, bu xəstəliyə tutulan kütlə üçün.

Yəqin oxucular deyəcəklər ki, onsuz da bunları biz də bilirik. Bəs vəziyyətdən çıxış yolu nədədir? Bu suala cavab vermək də asan deyil. Vaxtilə Azərbaycan Xalq Cümhuriyyətini yaradanlar göstərmişdilər ki, allah bizə anadangəlmə əməyə məhəbbət və istedad hissi verib, bu neməti bizdən əsirgəməyib. Lakin ruslar bizi geridə qalmış bədbəxt xalqa döndərmək üçün bunu əlimizdən almaq istəyiblər. Fikrimcə, müstəqil yaşamağa nail olana qədər biz bu bəladan qurtara bilməyəcəyik.

Xarici siyasətçiləri maraqlandıran bir məsələ də budur ki, görəsən Rusiyada və keçmiş Sovetlər Birliyində adamların dözmək imkanı hara qədərdir. Çünki Rusiyadakı özbaşınalıq dünyanın heç bir yerində, demək olar ki, yoxdur. Məhz bunu nəzərə alaraq, akademik Lixaçov yazır ki, "dünyanın heç bir yerində Rusiyada olan qədər üsyanlara rast gəlinmir.

On səkkiz il Rusiya kommunist taxtında oturmuş Brejnevin qızı Qalina xanım yazır ki, "bütün dünya normal həyat sürür", amma "Rusiyada bütün işlər beyinlə yox, əzələ ilə görülür". Və buna görə də "Rusiya heç vaxt tərəqqiyə nail ola bilməyəcək". O, dünyanı yalnız "kosmos, musiqi, balet və idmanla heyran qoya bilər".

Əgər bu deyilənlər baxımından vəziyyəti təhlil etsək çox acınacaqlı bir mənzərə alınır. Məsələ bundadır ki, qabaqlar pis-yaxşı müəssisələrin əksəriyyəti, camaat müntəzəm işləyirdi, xammal alınır, məhsul istehsal olunurdu, oğurlayanlar olsa da maaş hesabına, zəhmət haqqı hesabına dolananlar da çox idi. İnsafən, ərzaq malları da bol idi. Əlbəttə, ərzağın və çoxişlənən malların hamısını biz özümüz istehsal etmirdik. Xeyli hissəsini kənardan gətirirdik. Bütün ölkədə vəziyyət belə idi. Hər il xaricdən 40 milyon tona yaxın taxıl, milyon tonlarla ət və yağ alınırdı. Xaricə neft məhsulları, xammal, silah satmaq hesabına dolanırdıq. İndi vəziyyət dəyişib. Ölkədə müəssisələrin xeyli hissəsi dayanmaq ərəfəsindədir. Xaricdən mal almaq üçün valyuta yoxdur. Deməli, müəssisələrdə oğurlamaq üçün indi bir şey tapmaq da çətin-



dir. Bəs necə olacaq? Göstərək ki, əgər ciddi sosial tədbirlər görülməsə təbəqələşmə güclənəcək. Varlıların sayı çoxaldıqca kasıbların və acların da sayı çox sürətlə artacaq. Respublikamızda da vəziyyət belədir.

Bu günlərdə Minsk və Alma-Atada Müstəqil Dövlətlər Birliyinin yarandığı elan edilmişdir. İndi on bir müstəqil dövlət bu birliyə daxildir. Düzdür, hələ atalar demişkən, bu, kəsilməmiş qarpız kimi bir şeydir, içindən nə çıxacağını heç kəs əməlli-başlı bilmir. Lakin müstəqillik yolunda atılan addım kimi diqqəti cəlb edir.

Bizi çətin qış, məşəqqətli günlər gözləyir. Varlanmaq hərisliyinə, bu xəstəliyə tutulanlara isə geniş meydan verilmişdir. Lakin nəzərə almaq lazımdır ki, xalqın da dözmək iqtidarı, tab gətirmək imkanı son həddinə çatmaqdadır. Bunu nəzərə almamaq, odla oynamaq kimi bir şeydir. Kefi saz olanlarla kasıb və ac olanların qarşı-qarşıya durması bizi fəlakətə apara bilər.

**"Bərəkət" qəzeti, 24.XII.91**

## ƏYRİ OTUR, AMMA DÜZ DANIŞ

*Tarixdə hər şeyin meyarı zamandır. Rəhmətlik Sabir elə bil bizim günləri də nəzərdə tutaraq yazmışdır:*

***Qarışıqdır hələlik***
***millətin istedadı -***
***Ələnirsə, safı bir yan,***
***tozu biryanlıq olur.***
***Çalxalandıqca, bulandıqca***
***zaman nehrə kimi,***
***Yağı-yağ üstə çıxır,***
***ayranı ayranlıq olur.***

Tarixi həqiqəti araşdırıb ortaya çıxarmaq nəinki zaman, həm də böyük və gərgin axtarış, istedad, qərəzsizlik kimi insani keyfiyyətlər tələb edir. Safla-tozu, ayranla-yağı seçməyi bacarmayanlar bu işə girişəndə həqiqətin quyusu daha da dərinləşir, onu gün işığına çıxarmaq çətin olur. Bu tariximizin əsrə bərabər günlərinə, aylarına, illərinə də aiddir.

Dövrün keşməkeşli hadisələrini elmi cəhətdən tədqiq edib onlara qiymət vermək təşəbbüsləri təqdir edilməlidir. Lakin bir şərtlə ki, səriştəsi olan, xalq və tarix qarşısında məsuliyyət hissini dərk edən mütəxəssislər bu çətin, mürəkkəb işə girişsinlər, siyasi özfəaliyyət dərnəklərinin üzvləri bununla məşğul olmasınlar.

Mən son vaxtlar respublika teleradio şirkətində elmi-tədqiqat müəssisələrini, mütəxəssisləri əvəz etmək meyllərini açıqca hiss edirəm. Və buna görə də bu barədə öz mülahizələrimi söyləməyi vacib bilirəm. "215 KL" studiyasının hazırladığı verilişlərdə biz bu meyli açıqca görürük. Misal üçün, yanvarın 20-də ümumxalq matəmi gününün axşamı bu veriliş ekrana çıxdı. Əlbəttə, yanvar faciəsini, onu müşayiət edən hadisələrin gedişini izləmək, müxtəlif siyasi mövqelərdə duran iştirakçıları dinləmək, onların fikirlərini bilmək maraqlıdır, vacibdir.

Mən adı çəkilən verilişi bütövlükdə təhlil və tənqid etmək fikrində deyiləm. Bu çox böyük zaman və zəhmət tələb edən işdir. Yəqin ki, əks-sədalar da az olmayacaq. Elə veriliş iştirakçılarının və orada adları çəkilənlərin özləri mülahizələrini söyləyəcəklər. Məncə buna da ehtiyac vardır. Axı, yanvar hadisələrindən və faciəsindən populizm məqsədləri ilə istifadə etmək istəyənlər indi az deyil.

"215 KL" studiyasının 20 yanvar verilişində son zamanlar ekranda çox böyük fəallıq göstərən və az qala özünü qərəzsiz hakim və hər şeyi bilən yeganə siyasətçi kimi qələmə verən Zərdüşt Əlizadə mənim də adımı çəkdi. Və iddia etdi ki, guya mən televiziya ilə çıxışımda demişəm ki, Qarabağ məsələsi silahla həll olunmalıdır. Bu mənim vaxtilə dediklərimi açıqcasına təhrif etməkdir. Mən demişdim ki, "erməni ekstremistləri, daşnak mafiyası Dağlıq Qarabağı Azərbaycandan qoparmaq üçün hər cür vasitəyə, o cümlədən silaha əl atacaqlar və atırlar. Bunu bilmək və hazırlaşmaq lazımdır".

Z.Əlizadənin mənim fikrimi təhrif edib tamaşaçıları çaşdırması, görəsən onun nəyinə lazımdır?

Z.Əlizadə çıxışında qeyd etdi ki, Xalq Cəbhəsi ziyalıları özündən uzaqlaşdırırdı. Mən şahidlik edə bilərəm ki, bu işi ən fəal görənlərdən biri Z.Əlizadənin özü idi. Mitinqlərin, necə deyərlər, gur vaxtı B.Vahabzadə ilə meydana getmişdim, mitinqə. Bizi tribunaya çağırdılar. Z.Əlizadə məni tribunada görən kimi, qabağımı kəsdi və dedi ki, sən Xalq Cəbhəsi İdarə Heyətinin üzvü deyilsən, ona görə də tribunaya gəlməyə ixtiyarın yoxdur. Səhəri günü Z.Əlizadənin anası, universitetin professoru Zinyət xanım fakültədə məni kənara çəkib dedi ki, sən oralara getmə, uşaqlar səni döymək istəyirlər. Mən sonradan öyrəndim ki, Əlizadələr çox adamı belə yolla qorxudurmuşlar.



Mən 1990-cı ilin yanvarında dediklərimi bu gün də təkrar edirəm. Erməni ekstremistləri, daşnak mafiyası Qarabağın dağlıq hissəsini Azərbaycandan qoparmaq üçün hər şeyə hazırdır. Birinci növbədə yığdığı külli miqdarda silaha və quldur dəstələrinə arxayındır.

Mən təəccüb edirəm ki, siyasət meydanına çıxan və özünü sosial-demokrat adlandıran Z.Əlizadə mənim bu fikrimi nə üçün başqa cür qələmə verir. Əgər bu iki il ərzində Qarabağın dağlıq hissəsində erməni silahlı qüvvələrinin törətdikləri cinayətləri bütün təfərrüatı ilə bilmək istəyirsə Zərdüşt Əlizadəyə onların ailələrinin ən çox inandıqları Ziyəddin Sultanovun "Xalq qəzeti" səhifələrində çap olunmuş reportajlarını oxumağı məsləhət görərdim.

**"Aydınlıq" qəzeti, 21.I.92**

*Birinci söhbət*

## SİYASƏT... OYUN DEYİL, SƏNƏTDİR

*Suallara siyasi icmalçı,*
*M.Ə.Rəsulzadə adına BDU-nun professoru*
*Şirməmməd HÜSEYNOV cavab verir.*

### *ÖN SÖZ ƏVƏZİ*

*Gücümüz nəyə çatır ki? Olanımız bir sözdü! İndi söz adamları kəndlinin alışıb-yanan evinə, dimdiyində su gətirən bir göyərçin misalındadır. Və acı da olsa, heç də hissiyyata qapılmadan deməliyik ki, bu gün xalqımız min zillətlə tikib hasilə gətirdiyi koması yanan kəndliyə bənzəyir. Neynəyək, allahın adını çağıraq və gücümüz çatan o bir damlanı əsirgəməyək! Ürəyimdən keçir ki, çətin, məşəqqətli həyat tərzi sürən elimə, elatıma, səadətə, bəxtiyarlığa, xoş güzərana aparan ən kəsə, ən doğru yolu göstərim. Amma necə? Mən sadə bir qələm əhliyəm. Neçə-neçə qələm qardaşım kimi dözməyəndə, gördüyümdən dəhşətə gələndə varaqlar üstünə göz yaşı tökür, haray qoparıram. Düşünürəm ki, meşədə azmış bir çarəsiz qəfil rastlaşdığı talaya aparan cığır, qəfil*

görünən işıq, qəfil yüksələn səda şirin və doyulmaz həyatın davamına işarədir. Amma indi alovlar çox yuxarı qalxıb, meşə çox sıxdır. Bu nə şairin, nə də müxbirin girə biləcəyi koldur. Bu cür düşünərkən iş otağımın qapısı açıldı və namuslu ömür yaşayan, böyük zəkasının işığını mənim kimi minlərlə tələbənin qəlbinə səpən, istəkli müəllimim Şirməmməd Hüseynov içəri girdi. Dik qalxdım. Ehtiramla xoş gəldin elədim. Mən onu ədalət tərəfdarı, prinsipiallıq meyarı kimi çox istəyirəm. Yaxşı cəmiyyətdə bu cür adam ən azı bir məmləkətin təhsil sisteminə rəhbərlik etməlidir. Nə isə... Bəlkə mən torpağımızın sabahı sarıdan nigarançılığımı onunla bölüşüm? Yaxamdan yapışan sualların cavabını ondan istəyim? Tələbənin öz müəlliminə suallar vermək istəyi təbiidir. Və bu gün xalqımız böyük azadlıq məktəbinin partası arxasında əyləşdiyi məqamda suallarımıza ağıllı adamların verəcəyi cavablar həqiqət yolunu güman ki, xeyli aydınlaşdıra bilər. Şirməmməd müəllim mənimlə söhbətə razılıq verdi. Bunu da deyim ki, verəcəyim suallar yalnız mənə məxsus deyil, onları adamlardan eşitmişəm. Onlar qaranlıq məşələrin, itkin düşmüş yolların suallarıdır. Biz suallarımıza cavab tapdıqca, həqiqəti dərk etdikcə güclüyük. Tarixin elə mərhələsinə gəlib yetişmişik ki, naşı adamlar hamımızı uçuruma yuvarlaya bilər. Ona görə də bilən adamların ağıllı fikirlərini dinləmək nəinki mənəvi borcumuzdur, sadəcə biz buna məcburuq.

Səhəri gün görüşdük. Söhbətə mən başlamalı idim. Şirməmməd müəllimin müqəddəməsini dinləməli oldum. Daha doğrusu, o sual verdi.

***- Sən söhbətimizi hansı qələmlə yazacaqsan? Hansı dildə danışacağıq?***

- Əlbəttə, öz qələmimlə, öz dilimdə.

- Gəl belə eləyək. Biz "Molla Nəsrəddin"in dediyi kimi "türkün açıq ana dilində danışaq. Yazdığımızı "polad qələm və rusun mürəkkəbi ilə deyil, qamış qələm və Təbriz mürəkkəbi ilə yazaq". Söhbət yazı ləvazimatının keyfiyyətindən getmir ey oğul, söhbət ondan gedir ki, əlində qələm tutan hər şəxs gərək milli ənənələri bilsin. Bilsin ki, düşmən hiyləsi ilə parçalanmış bir məmləkətin övladıdır. Əlində qələm olan, camaata üz tutub söz danışan hər şəxs gərək bilə ki, "tənbəllik və qeyrətsizlik kərpici hansı məmləkətin karxanasından" çıxır və düşür bizim başımıza, "Molla Nəsrəddin" jurnalını hər gün varaqlamaq yazı yazan adam üçün "bismillah" demək kimi bir şeydir, oğul bala. O "Molla Nəsrəddin" ki birinci nömrəsində şəkil təsvir edir: "Erməni rusa pul uzadır ki, al bunu, o silahı ver mənə, türk də doğar inəyini çəkib o rus saldatının ayağına ki, al bunu, o silahı ver mənə". Bu cümləni də "Molla



Nəsrəddin"də oxumuşuq: "Dünyada sözdən böyük yadigar yoxdur, zira ki, mal-mülk tələf olur, söz qalır".

Çox təəssüf ki, bizim bu üzüqara zəmanədə məzənnədən düşən təkcə pul deyil, həm də qızıl kimi gözəl-göyçək sözdür! Söz yığını bir torba kimi xalqın başına keçib. Gözümüzün olan-qalan işığını da qapayır. Hamı danışan yerdə ağız deyəni qulaq eşitməz. Bu səbəbdəndir ki, gərəkli söz gedib beyinlərə yetişmir, qışqırıq, hay-küy içində batıb qalır. Məsələ bələdir, alimlərin, siyasətçilərin, ziyalıların kommunist nəsli meydandan çəkilib. Bəzən sırf təsadüfi adamlar bu boşluğu doldurmağa can atır. İctimai elmlər sahəsi heç vaxt indiki qədər özfəaliyyət səviyyəsinə enməyib. Anladılan biliklərin mayasında elm durmur, tarix isə elmlə birləşəndə tarix olur. "Əkinçi" hələ 1876-cı ildə yazırdı ki, cəmi məratibi - kamalata yetişməyin ilk əməl yolu, elm körpüsü doğruluqdur... bizdə isə körpü sudan uzaq qalıb".

İş o yerə çatıb ki, bu durum xalqımızın tarixinə siyasi hərc-mərclik dövrü kimi düşə bilər. Siyasi partiyalar kefin istəyən qədərdir, amma siyasi xadimləri saymağa bir əlin barmaqları kifayət edər. Şəxsiyyətləri olmayan tarix tarix deyil. Siyasət də siyasət. Pyotrsuz rus tarixi, Yuli Sezarsız İtaliya, Napaleonsuz Fransa, Makedoniyalı İskəndərsiz yunan, Atatürksüz türk tarixi yoxdur. Şəxsiyyətləri olmayan xalq ümumdünya siyasətinə qovuşa bilməz.

***- Şirməmməd müəllim, burası var ki, şəxsiyyətlər yerdən çıxmır, göydən də düşmür, yetişir.***

- Bəli, yetişir. Türk tarixçisi Mustafa Yazıçının belə bir kitabı var: "Tarixdə 128 türk dövləti və 318 dövlət, 356 hökumət başçılarının özəllikləri". Müəllif bu kitabı kimlərə ithaf etsə yaxşıdır? Yadımda qalan bir ithaf ünvanını xatırladıram. Dövlət işlərinə yararlı adamları seçməyi bilənlərə! Millətin taleyini yerliçilik, qohumbazlıq meyarı ilə naşıların olmayan ağlına tapşırmaq o milləti məhv etmək deməkdir. Xüsusən indiki məqamda siyasət meydanı yalnız səriştəli adamlara məxsus olmalıdır. Monoloq bu qədər. İndi keçək dialoqa. Buyur suallarını ver.

***- Şirməmməd müəllim, Sizə elə gəlmirmi ki, son beş ilin ən əlamətdar göstəricilərindən biri ümumən xalqın siyasət deyilən beynəlxalq həqiqətin tamını duyması ilə bağlıdır? Deyəsən, biz də siyasətlə məşğul olmağa başlamışıq. Ümumiyyətlə, siyasət nədir?***

- Siyasət siniflər, millətlər və digər sosial qruplar arasındakı münasibətlərlə bağlı fəaliyyət sahəsidir. Dövlət hakimiyyətini ələ almaq və ondan istifadə etmək sənətidir. Siyasət mədəniyyətdir. Fəlsəfi baxımdan bu, qarşıya mümkün olan, reallaşan vəzifə qoymaq və onun

həllinə çalışmaqdır. Reallıqdan uzaq və həyata keçirilməsi qeyri-mümkün bir iş uğrunda mübarizə siyasətbazlıqdır. Siyasət sənətdir və həmişə sənətkarını axtarır. Siyasətsiz ümumən xalq həyatı, cəmiyyət təsəvvür olunmur. Dövlət, quruluş, siniflər, iqtisadiyyat varsa, siyasət də var. Siyasətin mədəniyyət səviyyəsinə yüksəlməsi son əsrlərin nailiyyətidir. Böyük siyasət xalqın iştirakı ilə zənginləşir, xalq öz həqiqətini partiyalar, cəmiyyətlər, kütləvi informasiya vasitələri ilə ifadə edir. Xalq səviyyənin meyarı sayılan siyasi mədəniyyətə yiyələnməden məmləkətini müstəqil dövlətlər cərgəsinə qovuşdura bilməz. Əslində bizim XX əsr tariximiz siyasi mədəniyyətin formalaşması uğrunda mübarizə tarixidir. Bu vəzifəni bir neçə nəsl həyata keçirib. H.Zərdabi, M.Şahtaxtlı, Ə.Ağayev, Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə, Ü.Hacıbəyov, Ə.Topçubaşov, F.Xoylu. Fikir verdinizmi, mən yazıçıların adını çəkmədim. Çünki onlar ədəbi-bədii qolu, publisistika qolunu təşkil edirdilər. Əgər səriştəli gözlə diqqət eləsək, milli siyasətimizin məna və mahiyyətinin sələflərimizdən bizə model şəklində yadigar qaldığını görərik. Mirzəbala Məmmədzadə "Milli Azərbaycan hərəkatı" əsərində yazır ki, "Azərbaycan əvvəl əsrlər uzunu davam edən siyasi-dövləti bir birlik həyatını yaşamış olduğunu xatırlayırdı. Bu zəngin siyasi keçmişlə yan-yana Azərbaycan qoca bir ədəbiyyata, maddi və mənəvi bir mədəniyyətə malik idi". Bax biz bu gün düşdüyümüz bəlalardan ona görə yaxa qurtara bilmirik ki, siyasətimizi "siyasi dövləti birlik həyatını" bərpa edib bir də yaşamaq istiqamətində aparmırıq. 1918-ci ildə bu işə cəhd edib Cümhuriyyətimizi yaradan siyasi xadimlərə bənzər adamlarımız yoxdur.

**- Siyasi dövləti birlik həyatını təzədən yaşamaq üçün istinad nöqtəsi varmı?**

- Bəli, bunun ilkin bünövrəsi iqtisadiyyatdır. Gərək öncə torpağımıza sahib duraq. İndi dərəbəylikdir. Torpağın yiyəsi yoxdur, ikinci hakimiyyətə yiyələnməkdir - yəni məmləkətin məzmunca tam müstəqilliyidir, üçüncü xalqın ruhuna uyğun ictimai-siyasi quruluş formasının tapılmasıdır, dördüncü nəyə nail olmuşuqsa, onu qoruya bilən gücün - ordunun yaradılmasıdır. Quruluş xalqın əl-qolunu bağlamamalıdır. Ə.Topçubaşovun bu fikri yadıma düşür: "allah biz türklərə anadangəlmə təbii işləmək istedadı verib, ruslar çalışır ki, bizim xalqda bu istedadı öldürsünlər. Bizi təhkimçi halına salsınlar ki, biz kölə vəziyyətinə düşək və zəlil xalq olaq". Türk xalqları heç zaman təhkimçilik rejimində yaşamayıblar. Amma indi bütün məmləkətimiz təhkimçilik boyunduruğunda əzab çəkən bir məmləkətdir. Biz bu boyunduruqdan yalnız ənənələrə söykənib, milli siyasətimizi yeritməklə çıxa bilərik.



**- Müasir Azərbaycanın daxili və xarici siyasətinin mahiyyəti nədən ibarətdir? Hansı cəhətlərə daha çox üstünlük verilməlidir?**

- Təlqin olunur ki, daxili siyasətimizi xarici siyasət müəyyən etməlidir. Bu fikir baş-ayaqdır. Bu səhv bilərəkdən buraxılır. Daxili çətinliklərin üstünü həmişə olduğu kimi malalamaq üçün bundan da gözəl formula tapmaq mümkündürmü? Gəlin xalqın gözünə kül üfürməyək. Evimizin içində mədəni məmləkətlərə məxsus qayda, nizam-intizam, həyat tərzi yaratmasaq heç kim bizi saya salmaz. Demokratik üsul idarə, bazar iqtisadiyyatı, insan hüquqlarının gözlənilməsi... bunlar müasir dünyanın həyat tərzinin əsas əlamətidir, bizdə isə dərəbəylik meydan sulayır.

**- Axı bizi dünyanın 90-dan çox ölkəsi tanımışdır...**

- Nə deyirəm ki, allah onların məmləkətlərini abad eləsin. Yaxşı, bəs biz neçə dövlətlə səfirlik əlaqələri yaratmışıq? Bu səfirliklər açılsa, dünya ictimaiyyətinin daimi nümayəndələri respublikamıza gəlib vəziyyətimizi görsələr bizi kimlə müqayisə edəcəklər? Yenə əvvəl evimizin dərdini içimizdə çəkirdik. İndi isə dünyaya baxıb düzəlməliyik. Yenə də deyirəm evimizin içini qaydaya salmaq üçün belə bir həqiqəti axıra kimi dərk etməliyik, xüsusi mülkiyyət olmayan yerdə demokratiya, demokratiya olmayan yerdə hüquqi dövlət yoxdur. Bunlarsız isə gözləməyək ki, dünya bizi qüdrətli bir dövlət kimi bağrına basacaq.

**- Fikrinizcə, tanınmağına baxmayaraq Azərbaycanı dünya dövləti hesab etmək olmaz?**

- Məsələyə formal yanaşsaq olar, mahiyyətcə təəssüf ki, müsbət cavab verə bilmərəm. Müxtəlif beynəlxalq iqtisadi, siyasi birliklərə üzv olmağımız, əlbəttə, müsbət haldır. Şübhəsiz ki, BMT-yə də qəbul ediləcəyik. Amma biz müstəqil dövlətlərə məxsus vərdişləri ilk addımlardan hiss etdirməyə borcluyuq. Suveren, müsəstəqil dövlətlərə məxsus yerişə elə indidən başlamalıyıq.

**- Siyasətçilərimiz barədə də fikrinizi bilmək maraqlı olardı.**

- İmperiyanın bir parçası olan dövlətdə nə müstəqil siyasətdən, nə də müstəqil siyasətçilərdən söhbət gedə bilər. Hazır göstərişləri, qanunları, qərarları həyata keçirən çinovniklər və azad düşüncəli müstəqil hərəkət edən gəmi kapitanları başqa-başqa anlayışlardır. Bizdə həmişə birincilər olub, ikinciləri yetişməyə qoymayıblar. İndi isə keçmiş çinovnikləri xalqa yeni siyasətçilər kimi qəbul etdirmək istəyirik. Əlbəttə, keçid dövründə hər şey ola bilər. Amma keçid dövrünü uzatmamaq üçün ətrafımıza baxıb, nümunələri də görməliyik. Düşmən də olsa, etiraf etməliyik ki, ermənilər hadisələrlə ayaqlaşırlar. Onlar Amerika siyasət məktəbini keçmiş 32 yaşlı Ovenesyanı nahaq yerə xarici

işlər naziri qoymayıblar. Biz isə vaxtilə qıraqda işləyən dərrakəli adamlarımızı dartıb gətirdik bura və məhv edib sıradan çıxardıq. Yerli siyasətçilərin sabahına ümidimi itirmədən deməliyəm ki, bu gün bizim xaricdə yaşayan azərbaycanlılar içərisində azad düşüncəli siyasətçilər tapmaq olar. Onları gətirmək də olar. Amma onları bizim səviyyəmizə enməyə məcbur etmək yox, özümüzü onların səviyyəsinə yüksəlmək yolu ilə getməliyik.

**- Artıq SSRİ yoxdur, lakin on illər boyunca keçmiş sovet respublikalarının formalaşmış əlaqələri qalmaqdadır. Biz ruslarla, müstəqil dövlətlər birliyinin digər üzvləri ilə əlaqələrimizi nə şəkildə qurmalıyıq?**

- Bəli, SSRİ yoxdur. Amma onun ruhu diridir. Nə üçün? Çünki SSRİ deyəndə dünyanın ilk öncə nəzərdə tutduğu Rusiya indi keçmiş imperiyanın varisi kimi çıxış etmək istəyir. Alacaqların hamısı hələlik özünündür, verəcəklərinə bizi də qoşur. Kravçuk haqlı tənqid edir ki, keçmiş mərkəz ruhundan Yeltsin də xilas ola bilmir. Yeltsinin "biz bir daha imperiya qurmayacağıq" kimi cəzbedici şüarına baxmayaraq imperiyanın dayaqları olan vahid pul, ordu, kəşfiyyat, sərhədlərin qorunması... məsələlərinin həlli hələ də tapılmayıb. Hələ də xalqlar imperiyanın mərkəz vahiməsindən, konflikt və münaqişələrdən əziyyət çəkir. Belə bir vaxtda biz siyasətimizi qətiyyət ruhunda qursaq, uğur qazanarıq. Üzeyirbəy 1906-cı ildə 21 yaşında "İrşad" qəzetində "Mərəzlərimizdən biri" sərlövhəli məqaləsində mübtəla olduğumuz ümumi milli xəstəliklərdən çox böyük və dərin təfəkkürlə söz açıb: "Bizim öz qüdrətimizə etiqadımız yoxdur, varmışsa da itibdir. Təəssüf ki, bizim cürətsizliyimiz və acizliyimizə mübtəla olmağımız hər bir iş müqabilində əl-ayağımızı bağlayıb bizi hərəkətsiz buraxır. Cürətsizlikdən başqa bir də ümumiyyət etibarı ilə digər bir sifət dəxi müşahidə olunur. Bu da acizlikdir. Balaca bir müsibət və bədbəxtliyə düçar olanda biz özümüzü bilmərrə itiririk. Əslinə baxsaq, bu da bizim cürətsizliyimizdən doğan bir sifətdir...

...Acizlik və cürətsizlik göstərməkdənsə mübarizə edib basılmamaq əfsəldir". Çünki, "Aciz qalıb məqsədimizdən sərfi-nəzər etsək mütləq başqalarına möhtac olacağıq... Möhtaclıq da tənəzzülə yardım edən bir bədbəxtlikdir".

**- Bu gün biz "dünyanın yiyəsi var" həqiqətini təsdiq etməyə məcburuq. Dünyada qüdrətli dövlətlər mövcuddur və biz fövqəldövlətlərlə hesablaşmalıyıq, elə deyilmi?**

- BMT-də nə qədər bərabərlik, müstəqillik, bir-birinin daxili işlərinə qarışmamaq, ədalət, haqqaniyyətdən danışılsa da, dünyanın çoxdan



qəbul etdiyi belə bir qanunauyğunluq var: güclü həmişə haqlıdır. İndi də belədir. Fəqət başqa biçimdə, yeni forma-məzmun və yeni dərəcədə. Məsələn, Amerika eramızın super dövlətidir. Xırda və orta dövlətlər Vaşinqtonun mövqeyini nəzərə almağa məcburdur. Biz isə nəinki ABŞ-ın, hətta Moskvanın da mövqeyini yaddan çıxara bilmərik. Daha doğrusu, incə siyasətdə bəhanələrə, su bulandırmağa yol verməməliyik. Əlibəy Hüseynzadə yaxşı yazıb ki, beynəlxalq münasibətlərdə ədalət və insafın hakim və cari olması vacibdir. Beynəlmiləl insaf və ədalətdən doğan sülh! Çünki ümumi aləm salim isə Azərbaycan daxi hürriyyət və istiqlal içində yaşaya bilir. Atatürkün fikri də bununla səsləşir. Cahanda sülh, ölkədə sülh!

**Söhbəti yazdı:**
**Vaqif BƏHMƏNLİ**

***"Odlar yurdu" qəzeti, 1992, N5 fevral***

*Üçüncü söhbət*

## "QARIŞIQDIR HƏLƏLİK MİLLƏTİN İSTEDADI..."

*Suallara siyasi icmalçı,*
*M.Ə.Rəsulzadə adına BDU-nun professoru*
*Şirməmməd HÜSEYNOV cavab verir*

**- 80-ci ilin tən yarısından şəninə nəğmələr qoşulan "bəxtəvər", "şən" və "dinc" ölkə qaynar qazana döndü. Və bu qaynar qazanın amansız istisi başı müsibətlər çəkmiş və çəkən Azərbaycanı da yandırıb qovurdu. Siz cəmiyyətdə baş verən bu ictimai, siyasi, iqtisadi, tarixi prosesə necə qiymət verərdiniz?**

- SSRİ deyilən bir imperiya ərazisinin böyüklüyünə, əhalisinin say çoxluğuna baxmayaraq Qərblə, eləcə də Şərqin Yaponiya, hətta Çin kimi dövlətləri ilə iqtisadi yarışda uduzurdu. Bunu ilk dəfə rəhbərlər duydular və elə buna görə də ölkədə yuxarıdan yenidənqurma komandası verildi. Bu çağa qədərki sabitlik silah, zor, sərhəd, kəşfiyyat, partiya aparatı və ideoloji fanatizm hesabına idi. Vahid partiyanın və vahid mülkiyyət formasının diktaturası inkişaf cığırını qılınc kimi kəsirdi. Qorbaçov və onun məsləkdaşları yenidənqurma, aşkarlıq, sürətləndirmə, de-

mokratiya şüarlarını irəli sürməklə soyuq müharibə buzunun ərimәsinə doğru addımlar atdılar. Əslində yenidənqurmaya doğru addım Rusiya iqtisadiyyatını dirçəltmək üçün daxildə real imkanların olmaması ucbatından idi. Axı milli məhsulun 40 faizi hərb yolunda "suya dönmüşdü". 140 milyon işləyən üzərində 18 milyon "Xudayar bəy" dəyənək fırladırdı. İş görmək əvəzinə hər il 860 milyard sənəd, kağız-kuğuz, qərar istehsal olunurdu. Planlaşdırma əl-qolu bağlamışdı. 25 milyon adda məhsulun başı bir mərkəzə bağlı idi. Tarazlığın, təbii inkişafın bu qaydada insafsızcasına pozulmasının nəticəsidir ki, rus tarixçilərinin özlərinin etiraf etdiyi kimi bu məmləkət hər 20-30 ildən bir qaynayır, yığılanı yel aparır. Budur tufanlı illərin sırası: 1801, 1825, 1856-66, 1881, 1905-07, 1917, 1937, 1956, 1985... 1991-ci ildə isə imperiyanın günü lap qara gəldi - SSRİ dağıldı. Deyim ki, 1905-07 və 1917-ci illəri çıxmaqla problemləri yuxarıdan inqilab yolu ilə həll etmək modda olub. Çünki tarixdə ilk dəfə bu qurama dövlət təkamül yolunun üstündən xətt çəkib. Dövlət mexanizmi işləməyib, demokratiya boğulub. Sıçrayışlar yolu ilə böhrandan çıxmağın bariz nümunəsini I Pyotrun fəaliyyətində də izləmək olar.

Sonuncu yuxarıdan inqilab aşkarlıq, demokratiya şüarları ilə meydana çıxsa da 1988-ci ildən milli demokratik və milli azadlıq çalarları qazandı. Avqust qiyamının məğlubiyyətini Rusiyada demokratik inqilabın qələbəsi adlandırırlar. Çünki məhz bu qiyamdan sonra KP diktaturasına son qoyuldu. Ali Sovet buraxıldı. SSRİ prezidenti hakimiyyətdən götürüldü. Məncə, bu tam demokratik inqilab deyildi. Çünki yerlərdə inzibati-amirlik, vahid ordu, vahid pul hələ də qalırdı. Yuxarıdan inqilablar həmişə yarımçıq qalır. Azərbaycanda baş verən hadisələri bax bu fondan ayırıb təhlil etmək qətiyyən düzgün deyil. Azərbaycan ictimai mühiti keçmiş sovet ənənəsinin təsiri ilə bir müddət formal şəkildə "yenidən quruldu", "hər kəs yenidənqurmaya özündən başladı. Dağlıq Qarabağ hadisələri ilə bağlı kütlələr meydanlara çıxanda məlum oldu ki, bu hənа o hənadan deyil. Azərbaycanda demokratik hərəkat öz xarakterinə görə bu gün milli azadlıq hərəkatıdır. Bu gün biz həm felən müstəmləkəçilikdən azad olmalı, həm də düşmən təcavüzünə məruz qalan torpağımızı yağılardan qorumalıyıq.

**- Yeni ab-hava respublikamızda yeni liderləri meydana çıxardı, daha doğrusu, meydandan yeni liderlər seçildilər. Rusiyadan fərqli olaraq bu liderlərin əlində heç bir hakimiyyət yox idi. İndi də vəziyyət bir o qədər dəyişməyib. Bax, bu liderlər barədə nə deyə bilərsiniz?**

- Hər hansı bir hərəkatın özünə də, onun liderlərinə də qiyməti siyasi icmalçı deyil, tarix verir. Çünki verilən qiymət alınan nəticəni əks etdirməlidir. Bizim isə önümüzdə hələ ki, xırda közərtilərlə müşayiət olunan bir yol uzanır. Tarixi şəxsiyyətlər hər dəqiqə başı yetişmir. Həqiqi lider odur ki, xalqımızın bu ağır günündə milli azadlığın, istiqlaliyyətin çətin yoluna çıxan adamları mənzil başına itkisiz, qan tökülmədən aparsın. Hələ ki, bizim öz evimizin içində hər gün günahsız qanımız axıdılır.



**- Azərbaycan Xalq Cəbhəsinə münasibətiniz?**

- Əlbəttə, sözün bütün mənalarında AXC-nin xidməti böyükdür. Öncə mitinq demokratiyası onun adı ilə bağlıdır. Mətbuat üzərində dəhşətli nəzarət mövcud olduğu vaxt, meydanda geniş xalq auditoriyası təşkil etmək, adamları siyasətə qoşmaq asan məsələ deyildi. Xalq mitinq məktəbi keçdi. AXC-də həm siyasi, həm də ictimai təşkilatın elementləri var. Məncə, onun strukturunu, cəmiyyətdəki mövqeyini həyatın özü hələ xeyli təsis etməlidir. Bəzən əks cəbhə bu təşkilata "neobolşevizm" yarlığı yapışdırmağa səy göstərir. Əslində bu imkanı cəbhənin özü yaradır və bunu onun köhnə strukturlarından tam xilas ola bilməməsi ilə izah etmək lazımdır.

**- Siz AXC-nin üzvüsünüz?**

- Heç bir təşkilatın üzvü deyiləm. Həm də belə rahatdır. Məncə, jurnalistlər bitərəf olduqları zaman cəmiyyətə daha çox xeyir verə bilərlər. Keçmişin acı təcrübəsi də bunu açıq göstərir.

**- Azərbaycandakı digər siyasi partiyaların fəaliyyətinə necə baxırsınız?**

- Hələ ki, ümumi milli bir siyasi partiya görmürəm. Amma demokratik həyat tərzi, şübhəsiz, yeni partiyaları üzə çıxaracaq. Fikir verin, Rusiya parlamentində indi 13 fraksiya var. Biz isə keçmişin "mənfi-müsbət", "xeyir-şər" modelinə sadiq qalaraq hələ ki, "komblok" və "demblok" təfəkküründən irəli gedə bilmirik.

**- Bizdə bir siyasi partiya kimi kommunistliyin yenidən baş qaldırmaq imkanı varmı?**

- İnanmıram! Kommunistlik heç zaman Azərbaycan xalqının hər hansı bir hissəsinin həqiqi idealı olmayıb. Bu sadəcə olaraq cəmiyyətdə mövqe qazanmaq tramplini idi. Kommunizm dünya miqyasında siyasət meydanından gedir. Çünki daha heç kim əfsanə və xülyalarla ömrünü puç etmək istəmir. Planetimizdə demokratiya möhkəm kök salır. Demokratiya yolundan sapmaq siyasi nadanlıq olardı.

**- Müxalifət barədə fikrinizi bilmək istərdik.**

- "Qarışıqdır hələlik, millətin istedadı". Nə qədər ki, iqtisadiyyatda, mülkiyyətdə demokratiya bərqərar olmayıb müxalif qüvvələrin, həqiqi sifətlərin formalaşması baş tutmayacaq. İnkar və təsdiq hələ müxalifət demək deyil. Dünyadakı insanların sayı qədər müxalif fikirlər ola

bilər. Müxalifət son nəticədə xalqın milli dirçəlişinə imkan verən fikir və əməl zənginliyidir, daha bizim başa düşdüyümüz mənada qanlı-bıçaq olmaq deyil.

**- Deputat korpusumuzun fəaliyyətinə necə baxırsınız?**

- Onların arasında yavaş-yavaş siyasi xadim səviyyəsinə yüksələnlər var. Bunu etiraf etməmək insafsızlıqdır. Amma ümumən deputatlarımızın çoxu tariximizi, bu günümüzü bilməyən, buna can atmayan adamlardır. Onların içində əsl fitnəkarlar, yaltaqlar da vardır. "Qurani-Kərim"də deyilir ki, fitnə çıxarmaq adam öldürməkdən daha pisdir.

**- Səhv etmirəmsə, Siz də deputatlığa namizəd kimi seçkilərdə iştirak edirdiniz, deyəsən baş tutmadı?**

- Belə bir şey olmayıb. Amma mən seçkilər zamanı şahidi olduğum bir saxtakarlıq epizodunu mətbuatda ifşa etmişəm.

**- Ümummilli siyasətimizdə bir-biri ilə ziddiyyət təşkil edən hallar tez-tez baş verir? (Məsələn, eyni anda həm SSRİ-nin saxlanılmasına, həm də Azərbaycan dövlət müstəqilliyinə səs veririk).**

- 6-7 illik siyasi mühitimiz bir növ Bakı havasına bənzəyir. Əslində bizim siz deyən ümummilli siyasət konsepsiyamız yoxdur. Elə buna görə də hadisələrin kortəbii axarından yaxa qurtara bilmirik.

**- Şirməmməd müəllim, son beş il ərzində ünvanlarına ən çox tənqid söylənilən, ancaq özləri üzə çıxmayan ziyalılardır. Əslində AXC-də, digər siyasi partiyalarda, dövlət strukturlarında fəaliyyət göstərənlər, ziyalıları passivlikdə tənqid edənlərin özləri də ziyalılardır. Burada söhbət, məncə, o ziyalılardan gedir ki, vaxtı ilə xalq öz bağrının başında onlara yer eləmişdi, adamlar onların qarasına uçurdu...**

- Məncə, biz bu zaman ziyalı ilə istedadı qarışıq salırıq. Ona görə də gileylənirik ki, ziyalımız yoxdur. Birdibli dərk etməliyik ki, Zərdabi, Üzeyir bəy, Mirzə Cəlil, Sabir hər gün yetişməz. Söhbət ondan getməlidir ki, oxumuşlarımız, cəmiyyətin dərrakəsi, ağlı sayılan adamlarımız nə dərəcədə vətəndaşdırlar, hansı ölçüdə xalqa təmənnasız xidmət göstərirlər. Bizdə zehninin məhsulunu satıb çörək qazananların sayı 300 minə çatır. Ədalətsiz cəmiyyətdə bu zavallı adamların hər birinin 300 min də dərdi var. Onlar canlarında keçmişin xroniki cizgilərini də yaşadırlar. Mən inanıram ki, ziyalısının canından, Yusif Səmədoğlu demiş, şöhrət və qorxu azarı çıxdığı gün xalqımız xoşbəxt olacaq...

**Söhbəti yazdı:**
**Vaqif BƏHMƏNLİ**

***"Odlar yurdu" qəzeti, mart N7 1992.***





## "TÜRKÜN DOSTU TÜRK ÖZÜDÜR"

*Suallara siyasi icmalçı,*
*M.Ə.Rəsulzadə adına BDU-nun professoru*
*Şirməmməd HÜSEYNOV cavab verir*

**- Dağlıq Qarabağ bizim dərdimizdi, dünyanın isə siyasət mövzusu. Bu problemin mahiyyəti barədə fikrinizi eşitmək istərdik.**

- Ermənilərin Zaqafqaziyada güclü milli dövlət qurmaq, daha doğrusu, dünya xəritəsində "Böyük Ermənistan" yaratmaq ideyası o qədər də təzə deyil. Həmin ideyanı həyata keçirmək üçün erməni məkri, erməni xəyanəti hopmuş beş bütöv əsr arxada qalmışdır. Bu məqsədlə 25 yaşına çatmış hər bir erməni hər il millət vergisi verir. Dünyadakı yığcam erməni yaşayış məhəllələrini kilsə birləşdirir. Kilsə millətçi ziyalılar yetişdirmək üçün dəridən-qabıqdan çıxır, məktəblər açır. Bunu sübut edən misallar çoxdur. Məsələn, 20 milyon azərbaycanlı yaşayan qonşu İranda ana dilində bircə məktəb yoxdur, cəmi 200 min nəfərlik erməni icmalarının isə 58 məktəbi var; Tehranda, Təbrizdə, İsfahanda... İsfahan universitetində erməni dili və ədəbiyyatı fakültəsi işləyir. Bu, dünyanın erməni yaşayan hər yerində belədir. Ermənilər hazırlaşıb fürsət gözləyiblər. Keçən əsrin əvvəllərində Osmanlı imperiyası ilə Qərb və İran arasında düşmənçilikdə girəvə iyi duyan ermənilər rusların Qafqazı işğal etməsi üçün təşkilati iş aparıblar. Rus soldatının ayağının Yerevana dəydiyi günü orada indi də bayram eləyirlər. Xəyanətkar düşmənlərimizin istəhasi zaman-zaman Türkiyə dövlətinə qarşı da çevrilib. 1890-cı ildə yaradılan Daşnaksütyün əsas diqqəti "Türkiyə Ermənistanının" azad olunmasına verirdisə, bolşeviklərə qoşulan ermənilər Rusiya imperiyasını dağıdıb özlərinə "gün ağlamaq" istəyiblər.

Dediyim odur ki, Qarabağ iddiası köhnə xəyanətin yeni günlərdə davamıdır. İşğalçılıq məqsədini həyata keçirmək üçün ermənilər bir sıra üstünlüklər qazanmışlar. Keçmişdən bu günəcən davam edən maraq eyniliyi Azərbaycanı hərbi, siyasi, iqtisadi cəhətdən bu gün də idarə etməyə çalışan Rusiyanı onların tərəfinə çəkmişdir. Dünyadakı erməni diasporu hadisələrin beynəlxalq miqyasda inkişafına az-çox təsir göstərə bilir. Guya öz ən adi insani hüquqları uğrunda mübarizə aparan Azərbaycandakı erməni azlığının yazıq obrazı yaradılmışdır. Təkcə bunu deyim ki, bizə qarşı ən aktiv hücum mövqeyində dayanan

"Vesti"nin fəaliyyətə başlaması üçün erməni diasporu 67 milyon dollar vəsait ayırmışdır. Bütün bunlar azmış kimi Amerika prezidenti Buşun gəlinlərindən biri də ermənidir.

**- Məncə, problemin düyünə düşməsini, ölüm və itkilərin hər gün çoxalmasını yalnız bunlarla bağlayıb məsuliyyəti öz üzərimizdən ata bilmərik. Düşmən məkrdən, biz isə səhv buraxmaqdan yorulmuruq...**

- Bəli, qanımızda kök salan arxayınçılıq ocaq başındakı düşmənin azğınlaşmasına səbəb olmuşdur. Tarixən çoxluqda və müstəqil dövlət qurumunda yaşamaq yaddaşı sanki bizdə müdafiəyə hazır olmaq və ehtiyat etmək hissini korşaldıb. Tarixə fikir verin: 300 il monqol-tatar himayəsində olan ruslar ayağa qalxandan sonra bir də heç zaman silahı yerə qoymayıblar. Sülh istəyirsənsə, silahlan - bu təfəkkür onların yerdə qalan dünya ilə münasibət meyarına çevrilib. Son 300 ildə Rusiya qazandığının, çalıb-çapdığının 50-60 faizini hərbə sərf edib.

Biz Qarabağ münaqişəsində yalnız ona görə uduzmuruq ki, silahımız, gücümüz yoxdur, uduzuruq ona görə ki, özümüzü müdafiə işinə mənən, əxlaqən hazır deyilik. Diqqətsizik. Hətta bu münaqişənin nə zaman, hansı çalarlarla başladığını belə tez unuduruq. Bu barədə isə gec də olsa yazmağa başlayıblar. N.Andreyevin "İzvestiya" qəzetinin 25 fevral tarixli nömrəsində çap olunmuş "Sərhədlər çoxdan cızılıb, onlara dəymənək yaxşıdır" məqaləsi maraq doğurur. Yazır ki, məlumatı olanlar üçün Qarabağ hadisəsi gözlənilməz deyildi. DQMV-də keçirilən sessiyanın əsas təşkilatçısı və rəvac verəni DTK idi. Moskvadan Vilayət Təhlükəsizlik İdarəsinə göstəriş verilmişdi ki, bu sessiyanın keçirilməsinə maneçilik törətməsinlər. Müəllif qeyd edir ki, Mərkəzi DTK-nın icazəsi olmadan heç kəs belə bir addım atmağa cəsarət eləməzdi. Nə üçün fitnəkarlığa şərait yaradıldı; çünki münaqişə o vaxt islahat əleyhinə çıxan qüvvələr üçün sərfəli idi.

Məncə, guya münaqişəni yatırmaq üçün demokrat Yakovlevin Yerevana, mühafizəkar Liqaçovun Bakıya göndərilməsi də təsadüfi deyildi. Məndə olan ağlabatan məlumata görə "Qarabağ problemi" 1987-ci ildə noyabrın 7-də oktyabr inqilabının 70 illiyində meydana çıxmalı idi. H.Əliyevin Moskvada hələ ki, öz mövqeyində olması planı pozdu. Məhz ermənilərin təsiri ilə Əliyev Qorbaçovun "qara siyahısına" düşdü. Sonra Azərbaycanda xalqımızın güclü şəxsiyyətə inam kultunu qırmaq üçün ifşa kampaniyası başladı.

Nəhayət, bu uzun, lakin vacib girişdən sonra sizin sualınızın üstünə qayıdıram. Bu günə kimi düşdüyümüz fəlakətdən yaxa qurtara bilməməyimizin səbəbi millətin, xalqın başında güclü şəxsiyyətin olmaması ilə bağlıdır. Nədənsə, rəhbərsiz bizim xalqımız xalqlıqdan çıxıb kütlə halına düşür, vahid millət statusunu itirir.



**- "Dağlıq Qarabağ problemi Bakıda həll olunmalıdır" fikrinə necə baxırsınız?**

- Hər halda istəyiriksə Dağlıq Qarabağ həqiqətən bizim olsun, bu məsələ Azərbaycanda həll olunmalıdır. Söhbət respublikanın milli siyasətini həyata keçirən bir məkandan, dövlət strukturlarını işlədən bir mərkəzdən gedir. Qarabağda baş verən uğursuzluqların, faciələrimizin kökü birbaşa bura ilə bağlıdır. Bu şəhərə yeni təfəkkür lazımdır. Azərbaycanda demokratiya hələ ki, lokal prosesdir. O dərininə və enino getməlidir. Hakimiyyət forması sabitləşməlidir. Varlığımızın son imkanları Qarabağ ağrımızın kəsməsinə yönəlməlidir.

**- O qüvvəni özümüzdə tapacağıqmı?**

- Mustafa Kamal Atatürk "Türk gənclərinə" məşhur müraciətində deyir ki, dünyada türkün dostu azdır, türkün dostu türk özüdür... arxalana biləcəyimiz ən etibarlı və yeganə qüvvət damarlarımızdan axan türk qanıdır.

**- Deməli, Dağlıq Qarabağ məsələsinə beynəlxalq don geydirənlər hadisələri şişirdirdilər.**

- Əgər planetimiz birdirsə, əgər bir xalqın başqa bir xalqın torpaqlarına müdaxiləsindən söhbət gedirsə, ondan dünya ictimaiyyətinin az, yaxud çox xəbər tutmasından, az, yaxud çox söz açmasından asılı olmayaraq o beynəlxalq məsələdir. Dağlıq Qarabağda erməni barbarları beynəlxalq hüquqları pozurlar, uşaqları, qocaları, qadınları öldürür, girov götürür, tarixi abidələrimizi məhv edirlər. Amma işin ədalətsizliyinə bax ki, bu barədə biz haray çəkməkdənsə, dünyanın ictimai rəy kanalları ermənilərin xeyrinə işləyir. Bu beynəlxalq ədalətsizlikdir və göstərir ki, ən demokratik hesab edilən Amerika, Fransa... kimi ölkələrdə də hələ hər şey qaydasında deyil. Dünya düzəlməyib hələ...

**- Hər halda oxucularımıza yenə də Dağlıq Qarabağ konfliktinə son qoymaq üçün konkret yol göstərmədik.**

- Konkret yol taktikadır. Əgər biz ümumi siyasətimizi, nəhayət ki, müəyyənləşdirsək, xilas yolları, şübhəsiz, aydınlaşacaq.

**Söhbəti yazdı:**
**Vaqif BƏHMƏNLİ**

***"Odlar yurdu" qəzeti, mart N8, 1992.***

## İXTİYARA
## BU QƏDƏR İXTİYAR VERMƏK OLARMI?

*Bu il mayın 30-da "Xalq qəzeti"ndə Azərbaycan Respublikası prezidenti aparatında 1992-ci ilin iyun ayında vətəndaşların qəbul günləri haqqında rəsmi cədvəl dərc olunmuşdu. Düzü, elə bildim ki, əlimə keçən qəzet köhnədir. Çünki əvvəllər belə cədvəllər vermək dəbdə idi. Sonra fikirləşdim ki, nə olar, vətəndaşları qəbul etmək, onların dərd-sərinə qulaq asmaq, çarə tapmaq xeyirxah işdir. Cədvəldəki siyahıda adı göstərilən hüquq siyasəti üzrə dövlət müşaviri İxtiyar bəy Şirinovun yanına getdim. İnsafən, məni ilk anda çox hörmət və nəzakətlə qarşıladı. Sevindim ki, hakimiyyətə gör nə yaxşı mədəni gənclər, qüvvələr gəlib. Lakin bir neçə dəqiqədən sonra İxtiyar bəyi tanıya bilmədim. Nə oldu ki?*

*İxtiyar bəyə xatırlatdım ki, vətəndaş Tağıyevin əlavə mənzil almaq məsələsi ilə əlaqədar onun Nəsimi rayon soveti icraiyyə komitəsinə verdiyi göstəriş, göndərdiyi "Arayış" mənim də mənafeyimə toxunur və qanunauyğun deyil. Mən bu sözləri demişdim ki, İxtiyar əsil bəyə çevrildi. Elə hücuma keçdi, mənə qarşı elə ittihamlar irəli sürdü ki, çaş-baş qaldım. "Sənin 70 kv.m. evin var" (mən iç-içə ikiotaqlı 40 kv.m. mənzildə yaşayıram, otaqlardan yalnız birinə gün işığı düşür), "Sən qorxmursan ki, qonşuların sənin qapı-pəncərəni dağıdarlar" (İxtiyar bəyə dedim ki, düz deyirsən, qapımı sındırıblar, amma pəncərələr hələ qalıb). Sonra isə mənə qulaq asmayıb, "Sən nə haqla mənim üstümə qışqırırsan" - dedi. Mən 50 illik əmək fəaliyyəti dövründə çox vəzifəli şəxslərlə mübahisə etmişəm, ancaq onlardan heç birinin bir neçə dəqiqə ərzində simasının ildırım sürəti ilə dəyişdiyinə rast gəlməmişdim. Çox böyük həyəcan içində, kor-peşiman otaqdan çıxdım.*

*Xalq səriştəli, qərəzsiz, nəfsinə hakim olan, dostbazlıq, qohumbazlıq və yerlibazlıq xəstəliyindən uzaq qüvvələrin hakimiyyət başına gəlməsini arzu edir. Xalq Cəbhəsində bu cür keyfiyyətlərə malik adamlar az deyil, indiki rəhbərlikdə də bələləri çoxdur. Ümid onlaradır. Lakin xalq hərəkatını, xalq cəbhəsini nüfuzdan sala biləcək kəmhövsələ adamları da vaxtında görmək, islah etmək vacibdir.*

*Mən bu faktla əlaqədar İsa bəy Qəmbərovun məsləhətinə əməl edərək tənqidi qeydlərimi yazıb ona göndərmişəm. Qoy oxucular da bu məktubla tanış olsunlar. Vallah, aşkarlıq yaxşı şeydir. Yoxsa örtülü bazar, dostluğu pozar.*



## *AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏLAHİYYƏTLƏRİNİ HƏYATA KEÇİRƏN AZƏRBAYCAN RESPUBLİKASI ALİ SOVETİNİN SƏDRİ İSA QƏMBƏROVA*

**Hörmətli İsa bəy!**

Bu il mayın 25-də Ali Sovetin hüquq siyasəti komissiyasının sədri İxtiyar Şirinov Nəsimi rayon Soveti İcraiyyə Komitəsinə bir "Arayış" göndərmişdir. Orada deyilir: "Tağıyev Ağəli mənzil şəraitini yaxşılaşdırmaq hüququ olduğu üçün mübahisəli yaşayış sahəsi... ona verilməlidir". (Arayışın tam mətni əlavə olunur).

İ.Şirinovun bu cür qəti fikri ən əzı təəccüb doğurur. Çünki bu məsələyə bir il müddətində məhkəmə və prokurorluq orqanlarının bütün səviyyələrində baxılmış, hətta Respublika prezident aparatına respublika Ali Məhkəməsi sədrinin birinci müavininin imzası ilə rəsmi cavab verilmişdir. (Surəti əlavə olunur). Nəsimi rayon xalq məhkəməsi, Bakı şəhər məhkəməsi, Bakı şəhər prokurorluğu, respublika Ali Məhkəməsi və nəhayət, respublika prokurorluğu A.Tağıyevin şikayət ərizələrinə baxmış, onun iddiası rədd edilmiş və Nəsimi rayon məhkəməsinin qərarı qüvvədə saxlanılmışdır. A.Tağıyev qanunazidd yollarla mənzil əldə etməyə çalışmış, lakin bu da baş tutmamışdır. Bu günlərdə o, həmin əlavə mənzildən məhkəmə icraçısı tərəfindən çıxarılmışdır.

İndi İ.Şirinovun işə qarışması ilə hüquq orqanlarının qərarları bir tərəfə atılır, mənzilin yenidən A.Tağıyevə verilməsi məsələsi qaldırılır.

Arayış üçün qeyd edim ki, A.Tağıyevin elə keçirmək istədiyi mənzil mənim yaşadığım M.A.Əliyev küçəsində 229 nömrəli binanın 3-cü mərtəbəsindəki 4 otaqlı mənzilin iki otağıdır. Vaxtı ilə bu mənzil yarı bölünüb: iki otağı məndə, iki otağı isə qonşum Salitanda olub. Qonşum İsrailə köçüb. Qonşu binada, M.A.Əliyev küçəsi 227 nömrəli evin birinci mərtəbəsində yaşayan A.Tağıyev hansı yollasa həmin mənzili özünün birinci mərtəbədəki evinə birləşdirmək haqqında qərar çıxartdırmışdı. Göstərdiyim kimi, bu qanunsuz qərar sonralar ləğv edildi. İndi boşalmış mənzilin kimə verilməsi həll olunmalıdır. Mənim qanuni haqqım olsa da indiki çətin şəraitdə bu mənzilin ən çox ehtiyacı olan bir qaçqın ailəsinə verilməsi məsləhətdir.

Göstərim ki, A.Tağıyev söhbət gedən mənzili elə keçirmək üçün 1990-cı il iyun ayının 26-da Ağsu rayonunda yaşayan qızı Aida Kəri-

movanı əri Kərimov Nəzirdən boşatdırmış və 1990-cı ilin iyul ayında iki uşağı ilə öz evində pasport qeydiyyatına saldırmışdır. Mənzil məsələsini "həll" edən kimi, yəni 4 aydan sonra A.Kərimova yenidən əri ilə barışmış və N.Kərimov da evə yazılmışdır. Halbuki, 1990-cı ilin iyununda A.Tağıyevin 3 otaqlı mənzilində cəmi 3 adam pasport qeydiyyatında olmuşdur.

Məncə, Ali Sovetin hüquq komissiyasının sədri indi isə həm də hüquq siyasəti üzrə dövlət müşaviri İ.Şirinov arayış yazmazdan əvvəl məsələnin mahiyyəti ilə tanış olmalı idi.

Hüquqi dövlət yaratmağa ilk addımlar elə indidən atılmalıdır. Həqiqət və qanunçuluğa hamı əməl etməlidir. Konkret köməyiniz vacibdir.

***"Aydınlıq" qəzeti, 5 iyun 1992.***

Şərq dünyası

## TƏNƏZZÜL NƏ QƏDƏR DAVAM EDƏCƏK?

İslam aləmi, islam dünyası tarixi bir həyat-məmat məsələsi ilə qarşı-qarşıya durmuşdur. İndi kütləvi informasiya vasitələrinin, beynəlxalq təşkilatların fəaliyyətinə nəzər salan və tarixdən az-çox xəbəri olan hər kəs bunu müşahidə edə bilər. Bosniya və Herseqovinada 4 milyon avropalı slavyanı müsəlman olduqlarına görə qırırlar. İsrail Fələstin, Suriya və İordan torpaqlarını işğal edib yerli ərəbləri buradan çıxartmaq siyasətini həyata keçirir. ABŞ Yaxın Şərqdə silah gücünə islam dünyasına "demokratiya" dərsi verməkdədir. Əllərində nüvə silahı və onu dünyanın istədikləri yerinə atmaq vasitələri cəmləşdirmiş böyük dövlətlər islam ölkələrindən hər hansı birini bu silaha yaxın belə düşməyə qoymamaqda heyrətamiz yekdillik göstərirlər. Təbii sərvətlər sarıdan tanrının öz səxavətini əsirgəmədiyi müsəlman ölkələrində Qərbin ziddiyyət və rəzalət toxumu səpmək ustalarının "səyilə" daxili çəkişmə və vuruşların ardı-arası kəsilmir. "Dovşana qaç, tazıya tut", "ayır-buyur" yeni cilddə dövlət siyasəti səviyyəsinə yüksəldilib. Almaniya və Qərbi Avropanın bir sıra ölkələrində müsəlmanlara



qarşı müxtəlif adlar altında təzyiq, təqib və ideoloji qarşıdurma kampaniyası getməkdədir. Türklərə qarşı son vaxtlar Almaniyada başlamış təqiblər bu təbliğatın nəticəsidir. Əlcəzair, Sudan, Əfqanıstan, Türkiyə, İraq, İran, Hindistan, Tacikistan və digər ölkələrdə nə adla olursa-olsun tökülən müsəlmanların qanı deyilmi?

Elə Azərbaycanı götürün. Ermənilərin qırdıqları, qovduqları, dağıtdıqları, tutduqları azmış, indi bizi bir-birimizə qarşı qırdırırlar, məncə, ermənilərin cürət etmədikləri təyyarə limanını özümüzünkülər yandırıb yerlə-yeksan etmişlər, bu qədər ehtiyac duyulan hərbi şəhərciyi dağıtmışlar.

Dünyada müsəlman-xristian qarşıdurması göz qarşısındadır. Lakin bu tarixi kim-kimi məsələsinə çox məharətlə müxtəlif rəngli və biçimli libaslar geydirilir. Lakin cidanı çuvalda uzun müddət gizlətmək çətindir. Bosniya hadisələri bu pərdəni götürdü.

Müsəlman dünyasının Qərb aləminə və tarixə yaxından bələd olan uzaqgörən ədib və müəllifləri Qərb-Şərq probleminin həmişə gündəlikdə durduğuna diqqəti cəlb etmiş, daim ayıq-sayıq olmağa çağırmışlar. Əlibəy Hüseynzadə 1926-cı ilin martında Bakıda nəşr olunmuş "Qərbin iki dastanında türk" əsərində yazırdı: "XI əsrin sonlarından XIII əsrin sonlarına (1096-1270) qədər Şərq ilə Qərb arasında vaqe olan və ədədi 8-ə çatan Səlib müharibələri o növ hadisələrdəndir ki, əkmiş olduğu nifrət və ziddiyyət toxumlarının izlərini dünyanın əsrimizdə belə cərəyan etmiş və etməkdə olan bir çox vaqeələrində görməmək mümkün deyil".

Əli bəy göstərirdi ki, "XIII əsrin sonlarından aləmi-islam əhli-səlibin (xristianların) başladığı vuruşlardan müvəffəqiyyətlə çıxmış, o vaxta qədər qüvvət və qüdrət, elmi səviyyə və mədəniyyət etibari ilə Qərb aləmi ilə rəqabət edə bilmişdi".

Əli bəy bu prosesin XV-XVI əsrdən başlayaraq yavaş-yavaş dəyişməyə başladığını tarixi faktlarla izah və şərh edirdi. Yazırdı ki, 1498-ci ildə, yəni Amerikanın kəşfindən 45 il sonra Portəgiz kapitanı, dəniz səyyahı Vasqo de Qama (1469-1524) Ümid burnu vasitəsilə Hindistana dəniz yolunu kəşf etdi. Bu hadisəyə qədər Hindistan və Orta Şərqlə ticarət mübadiləsi və Şərq-Qərb iqtisadi əlaqələri aləmi-islam vasitəsilə həyata keçirilməkdə idi. Portəgizlər XVI əsrin əvvəllərindən Hindistanı işğal etməklə dünyanın bu bölgəsində möhkəmlənib islam dünyasını mühüm sərvət və ticarət mənbələrindən məhrum etməyə girişdilər. Sonralar ingilislər, fransızlar və Qərbin digər müstəmləkəçilərinin geniş müdaxiləsi başlandı. Dəniz ticarəti genişləndi. Avropaya müstəmləkə varidatı axmağa başladı. İslam dünyası iqtisadi uçuruma

və tənəzzülə üz qoydu. Bu özünü həyatın bütün sahələrində göstərdi. Əli bəy yazırdı ki, "tərəqqi və inkişafın açarı iqtisadi səhnədə aranmalıdır".

Bu kiçik tarixi səyahət baxımından yaşadığımız dövrə nəzər salsaq İslam dünyasının və müsəlman Şərqinin indi əvvəlki əsrlərdə olduğu kimi iki tərəfdən deyil, hər tərəfdən, xaricdən və daxildən dağıdılmağa girişildiyinin şahidi ola bilərik. Təəssüf ki, böyük Sabirin əsrin əvvəllərində yazdığı "dindirir əsr bizi, dinməyiriz, atılan toplara diksinməyiriz" kəlamı öz gücü və dəyərini saxlamaqdadır. Tənəzzül davam edir. Amma, görəsən, nə vaxta qədər?!

***"Şərq qəzeti", 12 iyun 1993.***

## QAFQAZDA İLK TÜRK MƏKTƏBİ

***Qarşıdakı 1994-cü ildə Azərbaycan maarif ordusu və ictimaiyyəti tariximizin çox mühüm bir hadisəsini - Şəkidə təşkil olunmuş Qafqazda ilk türk məktəbinin yaradılması və fəaliyyətə başlamasının yüz illik yubileyini qeyd etməlidir. Şəkidə bu milli türk məktəbinin banilərindən və müəllimlərindən biri Axalsix türkü, İstanbulda dünyəvi elmlərə meylli "Darüş-Şəfəq" məktəbinin məzunu, demokratik ruhlu gənc ziyalı Ömər Faiq Nemanzadə idi. Tofiq Fikrət, Namiq Kamal və digər mütərəqqi türkçü yazıçıların bədii irsi ilə tanış olan, istibdada qarşı mübarizə aparan inqilabçı gənclərə qoşulan Ömər Faiq Şəkiyə türkçülük ruhu və maarifçilik meylləri gətirən müəllimlərdən biri kimi fəaliyyətə başlamışdır. Şəkidə yaradılmış maarifçi xeyriyyə cəmiyyəti də məhz bu sahədə əməli fəaliyyət göstərirdi. Ömər Faiq Nemanzadə "Xatirələr"ində bununla əlaqədar olaraq yazır: "Bütün Qafqazda birinci dəfə olaraq açılan bu dürlü, nizamlı milli bir məktəb Şəki ziyalıları üçün bir fəxr idi".***

***1894-1896, 1898-1900-cü illərdə Şəkidə yeni üsulla fəaliyyət göstərən milli türk məktəblərində müəllimlik etmiş, həmçinin publisistik yaradıcılığa başlamış Ömər Faiqin ədəbi və ictimai-siyasi irsində Şəki mövzusu mühüm bir yer tutur.***

***Bu, tariximizi öyrənmək baxımından çox faydalı məxəz və mənbələrdən sayıla bilər. Məsələn, Ömər Faiq şahidlik edir ki, qısa müddətdə Şəkidə 3 yerdə milli türk məktəbi təşkil olunmuşdu. Ümid edirəm ki, Şəkinin, o cümlədən onun maarifinin tarixi ilə məşğul olanlar bu***



***mühüm problemlə geniş və ətraflı məşğul olacaqlar. Ömər Faiqin Şəki xatirələrindən bir parçanı oxuculara təqdim edirəm.***

***(Bu xatirələr və Ö.F.Nemanzadənin yaradıcılığı və Şəki ilə əlaqədar fikirləri ilə maraqlananlar professor Ş.Qurbanovun tərtib etdiyi və "Yazıçı" nəşriyyatının keçən il buraxdığı "Seçilmiş əsərləri"ndən faydalana bilərlər).***

**Ö.F.NEMANZADƏ**

## ŞƏKİDƏ

*(1894-1896)*

**1894**-cü ilin payızı idi. Tiflisdən Yevlaxa, oradan Şəkiyə yollandım. Yevlax-Şəki yolunun palçığı, ətrafdakı çılpaq dağların qəmli görünüşü, ağacsız, kölgəsiz düzlərin "sərab"ları məni fərağa salmış, bu gedişimə peşiman olmuşdum. Gün batmaya yaxın Şəkini ətəkləri üstündə tutan Xan yaylağının təpəsi görünməyə başladı. Bir az sonra yuxarıdan aşağıya doğru uzanan geniş, ağaclı bir yamacda bir çox ev səpintiləri gözə çarpırdı. Şəki idi. Ağacsız, kölgəsiz, susuz, daşlı, palçıqlı, tozlu, darıxdırıcı bir yoldan sonra Şəkinin çöldən görünüşü, bir az qabaqkı peşimançılığımın tələsikli olduğunu bildirdi. Faytonumuz uzun bir dərənin kənarı ilə yuxarı doğru çətin qalxırdı. Bərk şaqqıldayan qamçıların köməyi ilə atlarımız yuxarı Cümə məscidinin yaxınlığında dayandı. Faytondan düşüb Mustafa Bədəlova qonaq oldum. Bu şəxs, bu tacir Şəkinin gənc ziyalılarından biri idi. İlk günlərdə camaat və şəhər xüsusunda ondan xeyli məlumat aldım və iki-üç gün sonra da özüm şəhəri gəzdim.

Hər köhnə şəhər kimi, Şəki də təbii müdafiəçilərin - iki hündür təpənin qoltuqları altına sıxılmış, bağçalı, bulaqlı, havası gözəl, 20 min nüfuzlu bir şəhərdir. Yuxarıdan Xan yaylağı ətəklərindən enib şəhəri ikiyə bölən bir kiçik çayın meydana gətirdiyi bir dərə şəhəri görünüşcə ikiyə bölmüşdü...

Şəhərin yuxarı məhəllələrində, köhnə halını mühafizə edən Xan sarayı Şəkinin üzünü ağardacaq tarixi binalardan biridir.

Xan sarayının divarları üstündə gördüyüm nəqşlər, surətlər o vaxtın sənətini, siyasi və ictimai dərəcəsini çox aydın göstərirdi.

Aşağı məhəllələrdəki bir çox böyük-kiçik ipək zavodları ilə əl iş dəzgahları, çoxlu mağaza və dükanlar buranın bir ticarət şəhəri oldu-

ğunu bildirirdi. Cümə məscidlərinin böyüklüyü, məhəllə məscidlərinin çoxluğu, mədrəsələrin bolluğu camaatın dinçiliyinə birər şahiddir.

Bu dinçi, lakin hər biri bir sənət yiyəsi olan camaat son vaxtlarda elmin lüzumunu anlayaraq bir maarif cəmiyyəti təşkil etdi. Həmin bu cəmiyyət öz məsuliyyəti altında milli bir məktəb açmaq üçün hökumətdən rüsxət aldı və Qafqazda ilk dəfə olaraq üsuli-cədid üzrə nizamlı bir türk məktəbi açdı və bu özgə şəhərlər üçün də gözəl bir örnək oldu.

Yuxarı Cümə məscidinin yanında daşdan tikilmiş dörd otaqlı ikiqat (ikimərtəbə) bir binanı məktəb üçün düzəltdilər. Məscidin böyük, geniş həyəti isə şagirdlərin oynamaları üçün gözəl və münasib bir meydandı.

Bir-iki həftəyə qədər məktəb hazırlıqlarını görüb dərsə başladıq. Məktəbə 200-ə qədər şagird yığıldı. İstəyənlər daha çox idi. Lakin yer yox idi.

Maarif cəmiyyəti həm öz üzvlərindən, həm də özgələrindən ianə yığırdı. Məktəb həmin bu ianələr, məktəb şagirdlərindən alınan oxumaq haqqı ilə idarə olunurdu. Oxumaq haqqı - varlı cocuqları üçün 1 manat, ortabablar üçün on şahı, yoxsul cocuqlarından isə haqq alınmazdı.

Məktəbin hər dürlü maddi və mənəvi işlərində bu cəmiyyət məsul idi. Bütün Qafqazda birinci dəfə olaraq açılan bu dürlü, nizamlı milli bir məktəb Şəki ziyalıları üçün bir fəxr idi. Çünki belə milli bir türk məktəbi hökumətin yürütdüyü politikaya tamamilə ziddi idi. Görünür hökumət idarələrindəki türk qulluqçularının və gözüaçıq ziyalı tacirlərin böyük təsirləri olmuşdur.

Cəmiyyətin üzvləri qazı Məmməd Əfəndi, Hacı Zəkəriyyə Quliyev, Hacı İlyas, Hacı Süleyman, Bədəlov Mustafa və Məhəmməd, Hacı Əziz, Hacı Cəlil Sadıqov, Ağamusa, Hacı Məhərrəm, Hacı Salam, Hacı Hüseyn bəy, Hacı Rza, Hacı Manaf.

Məktəb müəllimlərinin məvacibləri, məktəbin təmiri və özgə ehtiyaclarının hamısı maarif cəmiyyətinin tərəfindən görülürdü.

**REDAKSİYADAN:** *Göründüyü kimi, hörmətli müəllimimiz Şəki maarifinin tarixi ilə bağlı çox maraqlı bir mövzuya toxunmuşdur. Şəhərimizin ağsaqqallarından, ağbirçəklərindən xahiş edirik ki, bu yazıda adı çəkilən məktəbin yerini bilənlər, yaxud adları çəkilən adamların nəslindən olanlar varsa, qoy redaksiyaya müraciət etsinlər. Öz xatirələrini təqdim etsinlər. Bu, tariximizi öyrənmək baxımından olduqca vacib və xeyirxah bir iş olar.*


***"Şəki" qəzeti, 21 iyul N36 1993.***





## "AzərTAC" SÖZÜ HARADAN PEYDA OLMUŞDUR?

"Azerbaydjan" qəzetinin avqustun 28-i tarixli nömrəsində sual işarəsi qoyulmamış belə bir sual cümləsinə rast gəldim. Soruşan və məsələ ilə maraqlananın mənim hörmətli dostum və məsləkdaşım, görkəmli alim və dil mütəxəssisi, professor Bayram Tahirbəyov olduğunu görünçə məsələni tarixən qısaca aydınlaşdırmağı özümə borc bilirəm.



1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması elan edildikdən sonra müstəqil və suveren dövlətin informasiya orqanları da tədriclə yaranmağa başladı. Mətbuat üçün daxili və xarici informasiyalar ilk vaxtlar əvvəlki mövcud vasitə və kanallarla əldə edilirdi. 1919-cu il martın 3-də Azərbaycan hökuməti "Azərbaycan Teleqraf Agentliyinin" yaradılması haqqında qərar qəbul etdi (bax: Azərbaycan Respublikasının yeni dövr Mərkəzi Dövlət Arxivi. F. 51. S. 1. İş 2. Vərəq 103). 1920-ci il martın 1-dək rəsmi dövlət mətbuatı orqanı kimi fəaliyyət göstərən "Azərbaycan" qəzetində "Teleqraf xəbərləri" - Azərbaycan dilində "Azərbaycan Simsiz Teleqraf Mövqifi (stansiyası) tərəfindən qəbul olunmuşdur" - rus dilində isə "Prinyato Azerbaydjanskoy radiostansiey" sözləri ilə müşayiət olunurdu. Deməli, agentlik hələ təşəkkül dövrü keçirirdi. 1920-ci il martın 1-də cümhuriyyət hökuməti yenidən bu məsələyə qayıtdı (bax: adı çəkilən arxiv F.314.S.1. İş 462. Vərəq 8). 1920-ci il martın 2-dən mətbuat orqanlarında "Teleqraf xəbərləri"nin mənbəyi kimi "Azərbaycan Teleqraf Agentliyi" "AzərTAC" sözləri görünməyə başladı. 1920-ci il aprelin 27-nə qədər "AzərTAC" müstəqil və suveren Azərbaycan Xalq Cümhuriyyətinin ilk rəsmi teleqraf agentliyi kimi fəaliyyət göstərmişdir.

Hörmətli Bayram müəllim, Azərbaycan Sovet Ensiklopediyasının birinci cildində "Azərinform" haqqında verilmiş (s. 180) və sizin rus dilinə çox dəqiq tərcümə edib verdiyiniz tarixi arayışda yuxarıdakı tarixi fakt və həqiqətlər yoxdur. Niyə yoxdur, hamımız bilirik.

"AzərTAC" adı uydurma, göydəndüşmə deyil. Bizim müstəqil milli informasiya agentliyimizin təməli belə qoyulmuşdur. Ondan nə üçün imtina etməliyik? Əyanilik üçün "Azərbaycan" qəzetinin 1920-ci il 3 mart tarixli nömrəsindən aldığımız foto surətində bu sözü görüb oxuya bilərsiniz.

***"Azərbaycan" qəzeti, 9 sentyabr 1993.***

## GƏLƏCƏYİN LƏNƏTİNDƏN QORXMAQ LAZIMDIR

*"Naxçıvan" qəzetinin baş redaktoruna*

Hörmətli həmkarım Rizvan! Qəzetinizin 23 fevral tarixli nömrəsində "Azərbaycanlı olmaq faciəsi" sərlövhəli yazını oxudum. Düşdüyümüz çətin, faciəli vəziyyət milli namus və qeyrəti olan hər bir vətən övladını narahat etməyə bilməz. Bu mənada sənin də ürək ağrın və dərdinə şərikəm. Ancaq həddindən artıq hissiyyata qapılmaq da, hamını olub-keçənlərdə günahlandırmaq da düz olmaz. Yazırsan ki, "bir millətin övladları ki, vəzifə kreslosuna görə Xocalı boyda torpağı qumara qoya, o millətdən millət olmaz".

Əvvəla, məgər satqınları, siyasət dəllallarını "millətin övladları" adlandırmaq olarmı? Millət adından hər danışanı, döşünə döyəni, əslində vəzifə və hakimiyyət uğrunda, varlanmaq və çapıb-talamaq imkanı uğrunda meydan sulayan nadürüstləri bu müqəddəs adla çağırmaq olarmı? Məncə bu, ən azı günahdır.

İkincisi, Xocalı faciəsində bütün milləti də günahkar və təqsirkar görmək insafsızlıqdır. Axı, sadədil və sadəlövh, deyilənlərə inanan, uzun müddət müstəqil düşünmək vərdişini itirmiş, ağıldan çox emosiya və hissə güc verən kütlədən xalq, millət yaradıb formalaşdırmaq, yetkinləşdirmək elə bilirsən asandır? Demokratiya, müstəqillik və suverenlik şüarlarını əzbərləyib bayraq edənlərin elə bilirsən hamısı əsil millət övladları, mücahidlərdirmi? M.Ə.Rəsulzadə vaxtilə xəbərdarlıq edirdi ki, "şübhəli şəxsləri demokratiya qapısına yaxın belə qoymaq olmaz".

Xalqın taleyinin və torpağının, bütövlükdə varlığının ölüm-dirim meydanına qoyulduğu bir vaxtda siyasət meydanında, döyüş cəbhələrində kimlərin milli məsuliyyəti öhdəsinə götürməsi həlledici əhəmiyyət kəsb edir. Başqa deyimlə, kadr siyasəti ön plana çəkilir. Biz, kommunistləri bu sahədəki xəyanətkar əyintilərə görə haqlı olaraq ittiham etdik və edirik. Bəs iqtidara gələnlər bizim taleyimizi kimlərə tapşırırlar? Şübhəsiz, ürəkdən çalışan, qeyrətlə fəaliyyət göstərənlər az deyil. Lakin indi artıq açıqca görülməkdədir ki, meydanda at çapanlar arasında xalqı soyan keçmiş kolxoz sədrlərinin, partiya, təsərrüfat və inzibati orqan işçilərinin, ticarətçi və alverçilərin "məktəbini" keçib, ailə "tərbiyəsini" görmüş törəmələr çoxdur. Dəhşətlisi budur ki, "bəy" sözünü müraciət forması kimi qələmə verənlər indi sözün həqiqi mənasında "bəylik rejimi", elitası və hətta sinfi yaratmaq iddiasına düşmüşlər. Amma maya zay olduğundan "bəylik" əvəzinə, uzağı "dərəbəylik" rejimi yarana bilər.

Prezident aparatında iqtidarla hesablaşmayanlara, xalqı fəlakətə sürükləyənlərə qarşı etiraz səsini ucaltmaq istəyənlərə divan tutmaqdan çəkinməyəcəklərini açıqca bildirənlər var. Bax yeni, ən böyük faciə mənbəyi də budur.

Hörmətli Rizvan! Sənin yazın 1907-ci il noyabrın 30-da Həsən bəy Zərdabinin dəfn mərasimində Əhməd bəy Ağayevin vida nitqini bir daha yadıma saldı. Böyük Milli Mücahidimiz, bütün varlığını həmvətənlərini millət və xalq kimi formalaşdırmağa sərf etmiş, "dünya malına göz tikməyib, ancaq camaat dərdinə qalan, axırda da quru taxt üstə vəfat edən, əhli-əyalına heç bir şey qoymayan" Zərdabiyə müraciətlə demişdi:

"Ey Ali ruh! Şimdi sən gedirsən ata-babalarımızın, əcdadımızın hüzuruna! Onlara bizdən salam yetirib də bizim bu şikayətimizi de: Ey əcdad, ey babalar! Bizə nə gün qoydunuz? Bizə nə növ irs qoydunuz getdiniz!? Stanlarımız (məmləkətimiz) xərabə, vilayətlərimiz viranə! Cümlə millətlər arasında sərnigün, xar, zəlil, məqhur (qəhr olmuş), məzlum, əhalimiz pozğun! Gündən-günə tənəzzül edib, günü-gündən puç və zay olmaqdayız! Əlan işimiz, sənətimiz oğurluq, quldurluq, birbirimizin canına, malına, irzi-namusuna qəsd etmək imiş! Ey kaş nə biz olaydıq, nə böylə irs".

İndiki nəslin ömür payına çox ağır yük düşüb: Müstəqillik, öz taleyinin sahibi olmaq, milli dövlətini yaratmaq, onu müdafiə edib yaşatmaq və gələcək nəsillərə vermək məsuliyyəti. Əgər bunu bacarmasaq, övladlarımız və nəvələrimiz əsrin əvvəllərindəki ittihamları yenə təkrar edəcəklər. Bu dünyanın faciəsi o dünyamızın da faciəsinə çevriləcək. Bizə rəhmət oxumaq əvəzinə ünvanımıza lənət yağdıracaqlar. Bax, məsələ belə durur. Gərək seçək!

***"Aydınlıq" qəzeti, 5 mart N11 1993.***

## QAZANILMIŞ ŞÖHRƏTİ İTİRMƏK FACİƏSİ DƏ VAR

Dəhşətli, bir-birini təqib edən faciə və müsibətlər, sarsıntılar və həyəcanlar dövrünü yaşayırıq. İstiqlal ab-havasının yaratdığı ilkin sevinc, inam və ümid hissi reallıqdan daha çox artıq şirin bir röyanı andırır.

Milli istiqlal yolunun çətin və məşəqqətli, əzab-əziyyətli olduğunu bilirik. Onu da bilirik ki, istiqlal böyük ağıl, səbat, səbr və qətiyyət tələb edən işdir. Onun qələbəsi, taleyi bu hərəkatın başında hansı qüvvələrin, kimlərin durmasından xeyli dərəcədə asılı olur. Hadisələrin sürətlə cərəyan etdiyi bir məqamda adətən böyük istedadlar, sədaqətli mücahidlərlə yanaşı hərəkata hiyləgər və məkrli böyük avantüristlər də qoşulurlar. Daxili və xarici istiqlal düşmənləri bir qayda olaraq məhz ikincilərə arxalanır, onların vasitəsilə iş görürlər.

Son bir ilin təcrübəsi göstərir ki, son illər əqidəsinə və fəaliyyətlərinə çox böyük rəğbətlə yanaşdığımız, müdafiə edib xalqın və istiqlalın taleyini tapşırdığımız adamların bir qismi bu böyük işin öhdəsindən gəlmək iqtidarında deyillər. Vəzifədən və iqtidar kürsüsündən ikiəlli yapışıb qopmaq istəməyən bu əldəqayırma bəylərdən yaxa qurtarmaq əvvəlkilərdən daha çətin imiş. Gəncə hadisələri ilə bağlı Milli Məclisdə cərəyan edən hadisələr bunu əyani nümayiş etdirir.

İqtidarda səbatsız adamların lövbər salması xalqa və hərəkata həmişə baha başa gəlmişdi. Digər tərəfdən şöhrətinə, cəsarət və dəyanətinə arxayın olub ətrafındakı avantürist kəmsavadların tələsinə düşənlər də tarixən mövcud olmuşdur. Azərbaycan tarixində belə nümunələr də yox deyildir. Onlardan əsrimizdə vaqe olmuş bircəsini xatırlatmaq istəyirəm. Çünki bunun Gəncə hadisələrinə də oxşarlığı vardır.

1914-cü il noyabrın 9-da Səttarxan vəfat etmişdi. Bir gün sonra "İqbal" qəzetində M.Ə.Rəsulzadənin "Səttarxan" sərlövhəli iri bir məqalə-nekroloqu dərc olunmuşdu. Səttarxanın tarixi rolunu, "İran tarixi-təməddününün unudulmaz bir siması" olduğunu qeyd edən, sərdari-millini şəxsən tanıyan və məşrutə inqilabının gedişini izləyən, uğurlu və zəif cəhətlərini görən və gizlətməyən M.Ə.Rəsulzadə Azərbaycan üçün kədərli gündə belə tarixi həqiqəti xalqdan gizlətməyərək yazırdı: **"Son zamanlar Səttarxan unudulmuşdu. Artıq adı dillərdə dastan deyildi. Səttarxan hər nə qədər cismən indi ölmüşdüsə də, Təbriz meydani-hüriyyətində qazandığı şöhrətini 1910-cu ildə Tehranın Atabəy parkında öldürmüşdü".**



Tehranın Atabəy parkında görən nə olmuşdu? M.Ə.Rəsulzadəni dinləyək: **"Səttarxanın öz səyi və himmətilə vücuduna çalışmış olduğu məşrutiyyət hökuməti artan nüfuzunu payidar etmək istəmişdi. Binaən-əleyh əllərində silah olaraq küçələri gəzən mücahidlərin tərksilah etdirilməsinə qərar vermişdi. Gözlənilməli idi ki, bu qərarı hər kəsdən əvvəl Səttarxan qəbul eləsin. Heyhat! Xan Tehran intriqaçılarının damində (tələsində) idi. Hökumətin bu məşru tələbindən boyun qaçırtdı Mücahidlər Atabəy parkına doldular. Hökumətə qarşı durdular. Nəticə parkın hücumla alınması və Səttarxanın da ayağından yaralanması kimi fəci bir hala müncər oldu. Yaralandığından sonra özü ilə görüşənlərə Səttarxan özünün bü səhvindən mütəəssir olduğunu söyləyirdi:**



Bağır xan — Səttar xan

**- Ax, bu məlunlar başıma nələr gətirdilər? - deyə intriqaçılara lənətlər oxuyurdu".**

M.Ə.Rəsulzadə yazırdı ki, 1910-cu il iyulun 5-də Tehranın Atabəy parkında buraxdığı səhv ilə Təbrizin meydani-hürriyyət qəhrəmanı Səttərxan öz qazandığı şöhrətini öldürmüşdü. Görəsən, 1993-cü il iyunun 4-də Gəncədə öz məsuliyyətsiz hərəkətləri ilə xalqın övladlarını qırğına verənlər öz adlarını və şöhrətlərini deyil, həm də millətin onlara bəslədiyi inamı itirmələri, yaxud M.Ə.Rəsulzadənin təbirincə desək, öldürülmələri barədə düşünürlərmi - ya yox? Səttarxan etiraf edirdi ki, o intriqaçı məlunların fitvasının, kələyinin qurbanı olmuşdur. Bəs indiki rəhbərlikdə bu məlun intriqaçı rolunu kimlər oynamışlar, tələyə kimlər düşmüşlər - aydınlığa çıxarılası məsələlər bunlardır. Əgər son illərdə baş verən faciələr kimi bu dəfə də işin üstü açılmasa, təqsirkarlar aşkar edilməsə, məlunlar məlum olmasa məncə mənəvi ölmək kifayət etməyəcək. Axı xalqın da səbr kasası nəhayətsiz, ölçüsüz-biçimsiz deyil, göz görə-görə xalqın siyasi taleyi ilə deyil, fiziki varlığı ilə oynamağa heç kəsin ixtiyarı olmasın gərək.

*"Aydınlıq" qəzeti, 18 iyun 1993.*

## VARİSLİK, QOÇAQ VƏ MAYMAQ "MİLLƏTPƏRƏSTLƏR"

Son vaxtlar ən yüksək səviyyələrdə belə iddia edirlər ki, guya yalnız indiki bəylər ilk cümhuriyyətimizi və onu yaradan "böyük öndərlərin", "dahi mütəfəkkir" və "milli mücahidlərin", bir sözlə, babalarımızın əsl varisləri, nəvələridirlər. Əsas olaraq da indiki cümhuriyyət, milli bayraq və digər müstəqillik atributları və qurumlar nümunə göstərilir. Əvvəla deyim ki, Azərbaycan Xalq Cümhuriyyətini yaradanlar istiqlal savaşının bütün mərhələlərində "Azərbaycan İstiqlalı bütün xalqın əsəridir" - demişlər. İkincisi, varislik və vərəsəlik məsələsi bütöv bir xalqın tarixi və taleyi, indisi və gələcəyi ilə bağlıdır. Ona görə də bu haqda son hökmü zaman və tarix özü verəcəkdir.

Varislik və vərəsəlik çox böyük yük, hədsiz məsuliyyətdir. Burada şüarçılıq işə keçmir. M.Ə.Rəsulzadə bu həqiqəti lap gənc çağında 19 yaşında dərk etmişdi. O, "Şərqi-Rus" qəzetində dərc olunmuş "Hümmət və qeyrət vaxtıdır" sərlövhəli məktubunda yazırdı: "İlahi, havaxtacan bizlər gecə-gündüz fikrə qərq və milləti mizin dərdini və dalda qalmağını özümüzə vəzifə biləcəyik? Məgər bizlərə tərəqqi etməyə maneə vardır? Bəli, vardır. Nə şeydi bizə mane olub? Hümmətsizlik, təkəbbür və qürur, mədəniyyətdən qaçmaq meyli. Müsəlmanam deyib, oturub, baxmaq. Bəli, bir para əhli-maariflərimiz yeri düşəndə köhnə islam mədəniyyətilə fəxr edirlər ki, bu hal alim babası ilə fəxr edən cahil nəvənin gülünc halına bənzər".

Qəlbinin çağırışı və ağlının hökmü ilə milli istiqlal savaşına qoşulanların əksəriyyəti bu yolda təkcə istedad və bacarıqlarını deyil, öz var-yoxlarını, hətta həyatlarını belə sərf və fəda etməyə hazır, əsillinəsilli şəxsiyyətlər idilər. Doğrudur, onların sıralarına müvəqqəti cığırdaşlar, hakimiyyət və vəzifə hərisləri, qazanc güdən alverçilər də soxulmuşdular. Azərbaycan istiqlal dramı və faciəsində bu naxələf ünsürlər az rol oynamadılar. Əgər M.Ə.Rəsulzadə kimi uzaqgörənlər, ağı-qaradan seçməyi bacaranlar olmasa idi, bu tipli "millətpərəstlərin" ziyanı çox, milli faciənin miqyası isə daha geniş ola bilərdi. Məhəmməd Əminin hələ 1906-cı ildə "qoçaq" və "maymaq" millətpərəst adlandırdığı məhz belələri idi. Onun öz yazısını oxuyun və ətrafınıza da baxın, görün belə "millətpərəst" babaların nəvələri, varislik və vərəsəlik iddiasına düşənlər də aranızda var, ya yoxdur?



* * *

### "MİLLƏTPƏRƏSTLİK"

***- "Millətpərəstlik" bilirsənmi nədir?***

***- Yox.***

***- Bəs, qulaq as deyim: Bax iki cür "millətpərəstlik" var. Biri qoçaq, biri də maymaq. O ki qoçaq millətpərəstdir gedib bir dükan açır, yainki karxana bina eləyir. Adın qoyur "millət dükanı", yainki "millət fabrikası", başlayır yavaş-yavaş "millət qarpızı", "millət papirosu", "millət bezi" satmağa. Bu "millətpərəst"in mətahı da həmişə qeyrilərininkindən bir az baha olur. Bu da məlumdur ki, neçün, ondan ötrü ki, özgələrininki, yaxud papiros, qarpız, bez və filan isə, bununki, "millət papirosu", "millət qarpızı", "millət bezi" və "millət filanıdır".***

***O ki, maymaq millətpərəstdir, o da bu qoçaqların sözlərinə inanıb, bir şahlıq qarpızı altı qəpiyə, acı "papirosu" "şirin" əvəzinə, 8 qəpiklik bezi 10 qəpiyə "millət" naminə alıb işlədir.***

***"Təkamül" N3, 30 dekabr 1906.***

**P.S.** *Bizim günlərimizdə "dükan" sözünü bəzən "partiya" mənasında da işlədirlər.*

**"Aydınlıq" qəzeti, 18 iyun 1993.**

## DƏRD HƏMİN DƏRDDİR

***Deyirlər tarix təkrar olunmur. Doğrudur. Lakin hadisələr eynən təkrar olunmur. Amma düşüncə tərzi, əxlaq, insani dəyərlər, ləyaqət kimi keyfiyyətlər bütün ziddiyyətləri ilə uzun müddət ya dəyişməz qalır, yaxud da çox yavaş və tədricən dəyişir. Zamanın və xalqın kollektiv yaddaşı olan mətbuatın əsrin əvvəllərindəki səhifələri ilə bu gün bəzi qəzetlərin nömrələrini müqayisə edəndə həmin anlayışı daha aydın hiss edirsən. Cahillik, nadanlıq, söyüş, təfəkkür yoxsulluğu, yalançılıq, böhtan əsrin əvvəllərində necə idisə yenə bəzi qəzetlərdə formasını dəyişsə də eyni qalıb meydan oxumaqdadır.***

***Azərbaycanın ağıl, elm və real düşüncə sahibi olan yazıçı və publisistləri, ictimai-siyasi xadimləri bu uzun sürən və dəhşətli mərəzə qarşı qətiyyət və cəsarətlə mübarizə aparmışlar. Bu qəbildən "Tərəqqi" qəzetində dərc olunmuş bir yazını nümunə üçün oxucuların mühakiməsinə verirəm. Baxın görün, çox şeymi dəyişib? Həm də Ə.Ağayev, Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə, Ü.Hacıbəyov, Ö.Faiq və başqalarının dünyanın qəbul etdiyi "hər iş öz sahibinin əlində olmalıdır" qanununa müxalif olan "cahilpəsəndləri", "nadanları", "namaz qılan yalançıları", "pula namazdan artıq səcdə edənləri", "fitvaçıları" ifşa etmələri təcrübəsi bizim üçün də örnək deyilmi? Bu bəlalara qarşı qətiyyətli mübarizə aparmadan yaşadığımız faciəli və böhranlı anda ictimai-siyasi atmosferi dəyişmək, sağlamlaşdırmaq mümkün deyil. Bu işi görmədən isə müstəqil respublikanı yaşatmaq, tərəqqi və təkamül yoluna çıxarmaq müşkül olacaq.***

## BİZİM MƏTBUAT

Aləmi-islam, bilxassə (xüsusən) Qafqaz müsəlmanlarının hankı bir işini, hankı bir əməlini nəzəri-mütaliəyə alarsaq, orada bir nöqsan, bir qüsur hədəfi-azarımız oluyor. Baxınız! Bu nöqsan, bu qüsur baisi-həyatımız olan mətbuatda da yox deyildir.

Hər iş kəndi (öz) sahibi əlində olmaq bir qanun olduğu halda islamlar bu qanuna müxalifət ediyorlar.

Əvət! Müxalifət. Fəqət bu müxalifətə hankı işimizdə olursa-olsun çareyi-nicatımız olan mətbuatımızda yol verməməliyiz. Məəttəəssüf (təəssüflər olsun ki) veriliyor.

İştə ən böyük qüsur! Ən böyük nöqsan! Diqqət buyurulsun, müddəamızı isbat edəlim. Budur, "Molla Nəsrəddin"ə cavab" sərlövhəli bir məqalə! Bu adam "Həblülmətin"* tərəfdarı (?)

Sultan Əbdülhəmid aşiqi olaraq Nəsrəddin babaya cavab veriyor. Yahu nasıl cavab? Əvət! Hər kəsi kəndisinə (özünə) qəhqəhə ilə güldürəcək xürafatdan ibarət bir cavab!

Bu cahil hərif kəndisinin (özünün) təəssübi-cahiliyyəsi ilə guya heç kəs bilmiyormuş kimi Qərb ilə Şərqi, bunların yekdigərinə qirayətini təlim ediyor. Bax nə qədər Nadanlıq! Bu keçər dövri-istibdadın 32 sə-

* "Həblülmətin" ictimai-siyasi, həftəlik qəzet (1892-1933), fars dilində Kəlkətədə, bəzən İranda çıxmışdır. Azərbaycan dilində də materiallar vermişdir.



nədən (ildən) bəri irtikab (pis iş görmə) etdiyi müzalimi-şühədayi-hürriyyət olan Midhət Paşaların, Namiq Kamalların, Əli Səfvilərin... daha kimlər və kimlərin edamını, minlər ilə cavan türklərin qəddarane qətllərini, mənfalarda (sürgünlərdə) zalimanə mövtlərini (ölümlərini) bu saqqalı cocuq - böyük bir politikadır - deyə hər kəsə anladır. Ah! Böylə idraka kimlər afərin oxuyamaz!? Afərin!

Fəqət ey cahil mütəəssüb (təəssüb çəkən)! Bilməlisən ki, Osmanlı torpağına qədəmnihad (qədəm qoyan) olan hürriyyəti Vətənin xeyvər evladı olan yeni türklər aldı.

Hürriyyət verilməz, alınar! Bu da öylə oldu. Yoxsa idareyi-istibdad (istibdad idarəsi, üsulu) bacararsa məcburən verdiyi hürriyyəti bu gün belə geri alar. Anlayır imiş! Kimə nə? Anlasın! Bizim məqsədimiz yalnız yazdıqlarının büsbütün mənasız, cahilpəsənd olduğunu pişnəzər qareinə (açıqgöz oxucuya) təqdim etməkdir.

Baxınız! Nəsrəddin babaya "dılğır" demiş. Özünü müdafiə edərək beş vaxt namaz və daha artıq ibadətlər ilə müddəasını isbat, bununla da cəhalətini hər kəsə anladır.

Buna biz yenə afərin oxuyacağız. Afərin! Fəqət, ey adam! Bilməlisən ki, laənşüuranə qılınan namaz beş deyil, beş yüz vaxt qılınarsa belə əsla faidə bəxş eləməz.

Baxınız! Peyğəmbərimiz nə buyuruyor: "şu müntəzəm kainatı bir saət təfəkkür etmək yetmiş sənəlik kor-korane ibadətdən xeyirlidir". Halbuki təfəkkür deyilən hal cəhalət ilə bir yerə gəlməz. Biləks, aramidil və can olan mərifətlə təcəmmə edər (birləşər).

Üç-dörd sənədən (ildən) bəri mətbuat tərəfindən olunan bu qədər tərğib (həvəsləndirmə) və təşviq səm (eşitmə) etibara alınıb da namaz qılan yalançılar ləməhalə (heç olmazsa) bircə məktəb təsisinə təşəbbüs etmədilər, çünki pula namazdan artıq səcdə edirlər!

Heyhat! Bu xeyirli fikirdən bu günə qədər vaz keçdilər. Çünki cəhalət dediyimiz o ədu (düşmən) inkir bunlar ilə mübarizəyə qalxıb da axırda qalib gəldiyindən bu gün Şamaxıda nə bir məktəb, nə də bir əsəri-intibah mövcuddur.

Vay olsun əğniyasına (dövlətlilərinə), cahil əhalisinə!

**"Tərəqqi" qəzeti,**
**29 sentyabr 1908, N64.**

***"Xalq qəzeti," 25 sentyabr 1993.***

## QƏLƏM DƏLLALLARI, QƏZET HƏŞƏRATLARI

*Pamflet*

Cahil və nadanın əlinə odlu silah vermək ətraf üçün nə qədər qorxuludursa siyasi mədəniyyəti, milli qeyrəti, şərəfi olmayan kəmsavadların və qələm dəllallarının əlinə söz silahı, mətbuat orqanı vermək cəmiyyət üçün ondan yüzqat qorxulu, təhlükəlidir.

Tarixən ara qarışıb məzhəb itəndə, hərc-mərclik və özbaşınalıq baş alıb gedəndə belə bir vəziyyətlə qarşılaşmalı olmuşuq, təəssüf ki, indi də qarşılaşırıq. Kim əyani surətdə bu qorxunun nədən ibarət olduğunu bilmək istəyirsə "Mozalan"ı vərəqləsin.

Azərbaycanın bu gərgin, fəlakətli çağında ictimai-siyasi mühiti zəhərləməyə çalışan, hər nömrəsində kimlərinsə sifarişi ilə ağzına gələn böhtan və hədyanları ləyaqətsizcəsinə qələmə alan bu üzdəniraq "ictimai-siyasi satirik qəzetin" qayəsi, məqsədi ziyalılarımıza qarşı ardıcıl "ifşa" kampaniyası aparmaqdır.

Düzünü deyim ki, mən belə bir qəzetin çıxdığını əvvəllər də bilirdim, ancaq oxumamışdım. Bu axır günlərdə təsadüfən "Mozalan"ın 10 sentyabr tarixli nömrəsi ilə tanış oldum. Diqqətlə oxudum. Gördüm ki, xalqın fəxri hesab edilə biləcək Anar, Yusif Səmədoğlu, onların valideynləri, digər ziyalılar ələ salınır, qəzet "görəsən, bunların hansı təhlükəlidir?" sualı ilə oxucuda şübhə yaratmağa cəhd edir.

Satiranı bayağı söyüş, təhqir, söz oyunu, ədəb-ərkandan xaric ifadələr yığını kimi anlayan "Mozalan"ın 1993-cü il nömrələrini vərəqlədim. Nə görsəm yaxşıdır? 10 sentyabr tarixli nömrəsində "Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevi və nəslini ləkələyənlərə, onlara böhtan atanlara" qarşı çıxan və guya sədaqət nümunəsi göstərmək istəyən "Mozalan" özü sən demə bu il yanvarın 1-də çıxan 1 (7)-ci nömrəsində H.Əliyevə qarşı ən azğın və məkrli böhtan və iftira ilə dolu iri bir redaksiya məqaləsi dərc edibmiş. "Bəxt istəyirsən, erməni ol!" sərlövhəli bu cızmaqara aşağıdakı sözlərlə başlayır:

"- Qağa, deyirəm bu necə işdirsə bizim rəhbərlər erməni xalqına və onun rəhbərlərinə həmişə hüsn-rəğbət bəsləyirlər.

- Qarabağ hadisələrindən sonra ola bilməz.

- Elə Qarabağ hadisələrindən əvvəl də, sonra da. İstəyirsən lap Heydər babadan başlayaq".

Bundan sonra tarixi hadisələri və faktları istədiyi kimi naşıcasına mənalandırmağa cəhd göstərən "Mozalan" abırsızcasına el ağsaqqalına, XX əsr Azərbaycanının ən görkəmli dövlət və siyasət xadimlərindən birinin ünvanına nələr uydurmur, az qalır onu ermənipərəst kimi qələmə versin. Bu yaxınlarda Milli Məclisdə daxili işlər nazirinin oxuduğu "vərəqə" ilə "Mozalan"ın "Bəxt istəyirsən, erməni ol!" cızmaqarası məzmun və riyakar forması ilə eynidir, hər ikisi bir "qələmin" məhsuldur. Görünür, Azərbaycan torpağını və xalqını parçalamaq istəyənlərin gizli və açıq təfriqəçi dəstələri əlbir hərəkət edirlər.

Mən bir jurnalist, tarixi hadisələrdən xəbərdar mətbuat tarixçisi kimi respublikamızda siyasi sabitlik, vətəndaş həmrəyliyi, sağlam qüvvələrin yeni respublika rəhbərliyi ətrafında toplaşması prosesinin getdiyi çətin bir şəraitdə ziyalılara, birinci növbədə namuslu, qeyrətli, istedadlı ziyalılara qarşı bəzi milli mətbuat adını daşımağa layiq olmayan qəzetçiliklərdə aparılan kampaniyaya, yazılara biganə münasibət bəsləyə bilməzdim. Həm də jurnalist tələbələrim belə bir addımı atmağı çoxdandır məndən gözləyirdilər. Telestudiyaya getdim, jurnalistikamıza ləkə gətirən belə hallara qarşı münasibətimi bildirdim. Doğrusunu deyim, mənə xəbərdarlıq etdilər ki, Mövsüm Əşrəfoğlunun arxasında "nüfuzlu" adamlar durur, bəzilərini də özü təsiri altına salıb yoldan çıxardıb, həm də abır-həya bilən deyil, sənin haqqında da təhqir və söyüşlə dolu böhtan və uydurmalar yazacaq, danışacaq, yayacaq. Doğrudan da belə oldu. "Mozalan" son nömrəsində öz riyakar və böhtançı simasını göstərdi.

Deyirlər, nədənsə qorxan meşəyə getməz. Bir də, indiki məsuliyyətli və böhranlı şəraitdə meydanı qələm dəllalarına və qəzet həşəratlarına vermək olarmı?

Mozalana dair ədəbiyyatda oxuyuruq: "Mozalan ikiqanadlı həşərat dəstəsinə mənsub 4 fəsilənin adıdır. Məməlilərin parazitidir. 11 cinsə mənsub 33 növü əhatə edir. Keçmiş SSRİ ərazisində 9 cinsə aid 20 növü məlumdur. Azərbaycanda 2 növü öyrənilmişdir".

Azərbaycanda mozalan parazitinin 3-cü - mətbuat növünün peyda olmasına şərait yaradanlar necə dözülməz xətaya yol verdiklərini bilsələr yaxşıdır. Yoxsa tez-tez rəngini dəyişən, əvlaq və etika normalarından bixəbər "Mozalan" həftədə bir dəfə atmosferi zəhərləyəcək, korlayacaqdır. Elə qəzetin son nömrəsi də beləcə başdan-ayağa təhqir və söyüşdür.

Azərbaycanda demokratik islahatlar və insan hüquqlarının müdafiəsi hərəkatına siyasi naşıları və qələm parazitlərini yaxın qoymaq ən azı tarix və xalq qarşısında məsuliyyətsizlikdir. Azərbaycan xalqını onun ziyalılarının timsalında biabır etməyi qarşısına məqsəd qoymuş parazitə qarşı qəti və təxirəsalınmaz əlac tapılmalıdır.

***"Xalq qəzeti" 28.IX.93.***

## "MƏTBUATIN HÖRMƏT VƏ ƏZƏMƏTİNİ BİLƏK, QORUYAQ"


Ö.F.Nemanzadə

Bu sözləri "İrşad" qəzetinin 1908-ci il 3 iyul tarixli nömrəsində oxudum. İstedadlı jurnalist və qeyrətli Vətən övladı Ömər Faiq Nemanzadə yazırdı:

"Hansı məmləkətdə çoxlu nəfli (faydalı), davamlı və nüfuzlu mətbuat varsa, ən mütərəqqi və mədəni məmləkət də orasıdır.

Mətbuatı olmayan millətin mövcudiyyəti, istiqbalı qətiyyən yoxdur. Mətbuatı olmayan millətin nə məhəbbəti-vətəniyyəsi, nə qeyrəti-milliyyə və insaniyyəsi və nə də idareyi-məşrutəsi ola bilər...

Mətbuat, inqilab, hürriyyət, ədalət - bunların cümləsi (hamısı) bir-birinin edadına (köməyinə) möhtac yoldaşlardır. Bu səbəblədir ki, mətbuatsız səmərəbəxş inqilab, inqilabsız hürriyyəti-mətbuat ola bilməz. Bu cəhətlədir ki, mətbuatsız idareyi-məşrutə, idareyi-məşrutəsiz hürriyyəti-mətbuat davam edə bilməz...".

Ümumbəşəri dəyərlərə, dünya təcrübəsinə əsaslanan və əsrin inkişaf meyllərini özündə əks etdirən bu müddəalardan sonra Ömər Faiq ürək ağrısı və böyük təəssüflə yazırdı: "Heyf ki, biz Qafqaz və Azərbaycan türkləri arasında mətbuat namına (adına) çox az əsər (qəzet) var...".

Eyni fikirləri M.Ə.Rəsulzadə qeyd edir və yazırdı ki, "İstibdadın üfüqü əhatə edən dağların arxasından hürriyyət şəfəqi görükdükcə qəzetələr, jurnallar da çoxlaşmağa başlayır. İnqilab buludlarından səpilən hürriyyət yağmurları göbələk yağışına misal olaraq bir çox qəzetələrin birdən-birə meydana gəlməsinə səbəb oldu".

Mətbuat orqanlarının sayca artması ilə əlaqədar əsl qələm sahibi olan vətənpərəst ziyalıların qayğıları və narahatçılığı da artmaqda idi. Bunu onların yazılarından da görmək, hiss etmək olur. Məsələn, 1905-ci ildə gündəlik "Həyat" qəzetinin nəşrə başlamasından 6 ay sonra



ana dilində ikinci bir gündəlik "İrşad" qəzetinin çıxması ilə əlaqədar M.Ə.Rəsulzadə yazırdı: "Əcib və qərib fikirlər dövran edir ki, şəhərimizdə nifaq, ikitirəlik düşəcəkdir", çünki "bir yerdə, bir şəhərdə iki qəzet olursa məmləkətdə iki hökmdari-mütləq olduğu kimi ikitirəlik və nifaq büruz edəcəkdir". Müəllif soruşurdu: "Əcəba, nə üçün gərək qəzetə çox olduqca nifaq artsın, əksinə olaraq qəzetlər və jurnalların çoxluğu həsbi ilə ittifaq, ittihad artıb, insaniyyət, haqqaniyyət, mədəniyyət tərəqqi etməlidir. Buna intibatı (nəşr etmək imkanı) çox olan millətlərin halı şahidi-aşkardır".

Bununla bərabər, müəllif qeyd edirdi ki, "qəzetlər arasında hər bir vaxt, hər bir zaman mübahisə, mücadilə, mübarizə olur, lakin bu bəhs, bu cidal, xəncər və tapança davası olmayıb müsadimeyi-əfkar (fikir toqquşması), mübarizeyi-təsəvvürdən ibarətdir və bu toqquşma və vuruşma qəbih (çirkin) olmayıb, bəlkə ən gözəl və müstəhsən (xoşagələn) mübarizə təriqidir. Müsadimeyi-əfkardan bariqeyi-həqiqət parlar (fikirlərin toqquşmasından həqiqət qığılcımı parlar)".

Əsrin iki onilliyində görkəmli jurnalist və publisistlərin, ictimai-siyasi xadimlərin, mədəniyyət, sənət və bəzi işğüzar xadimlərin səyi ilə Azərbaycan mətbuatı Zərdabi ənənələrini ləyaqətlə davam etdirib, "millət həyatının aynası", "millət camesi"nin minbəri rolunu şərəflə yerinə yetirdi.

Lakin bu dövrdə "öz şəxsi və qədimi qərəzlərini büruzə verib camaat işinə fəsad salanlar", "kütbeyin mühərrirlər, yalançı millətpərəstlər" də ümumi azadlıq və tərəqqi işinə az ziyan vurmamışdılar. "İrşad" qəzeti yazırdı ki, "Gəlin əcdadlarımızın həqiqi nəvələri olduğumuzu bildirək, yoxsa alçaq həşəratlar bizim evimizi yıxacaqlar", anlayaq ki, "İş adamı, dərd babası olmaq hər kəsin hünəri deyil".

"Molla Nəsrəddin" jurnalı və onun redaktoru Mirzə Cəlilə qarşı böhtan kampaniyası ilə əlaqədar Ömər Faiqin vaxtilə yazdıqları indi də aktual səslənmirmi?

"Bildim ki, millətimizin hüququnu paymal edən, millət qəlbini kəsməyə çalışan baltanın sapı yenə bizdəndir". Yaxud "nə qədər ki, millətin hakimi olan əfkari-ümumiyyə bizdə oyanmamış - insan qiyafəsindəki iblislər, ilanlar, məlunlardan özümüzü mühafizə edə bilməyəcək, bəlamızı başımızdan dəf etməyə gücümüz çatmayacaq, gələcəyimiz keçmişlərimizdən daha qorxulu və qaranlıq olacaq".

Mətbuat tariximizdə xüsusi mövqe və çəkisi olan, milli dövlətçiliyimizin bərpası uğrunda ideya-siyasi mübarizənin bayraqdarı sayılan "Açıq söz" xalqın diqqətini əsas məsələlərdən yayındırmağa çalışan "qələm qoçuları"nı nəzərdə tutaraq yazırdı: "Millət-camesi"nin mənbə-

ri olan mətbuat səhifələrini murdar, yalançı, zərərli siyasətbazlara vermək olmaz".

Bu qısa qeydlərdən də görünür ki, zaman, dövr, şərait və adamlar dəyişsə də, əsri xəstəliklər qalmaqda, min-min təəssüf ki, yaşamaqdadır. Gəlin əsrin əvvəlində deyilmiş xəbərdarlıqları bir daha yadımıza salaq, yoxsa "gələcəyimiz keçmişlərimizdən daha qorxulu və qaranlıq" ola bilər.

***"Xalq qəzeti", 15 oktyabr 1993.***

## MƏKRLİ YALAN VƏ BÖHTAN KİMƏ GƏRƏKDİR?

Azərbaycan Respublikası Ali Sovetinin orqanı "Azərbaycan" qəzetinin 29 oktyabr tarixli nömrəsində "Xoruzun quyruğu görünür" sərlövhəli yazı dərc olunmuşdur.

Bizi nə "Müxalifət" qəzeti, nə də onunla söz savaşına qoşulan rəsmi orqanın növbəti ataşi maraqlandırır. Bizi təəccübləndirən elmi-siyasi-ictimai və hətta nəzəri mükalimənin, mübarizənin yalan və böhtanla müşayiət olunmasıdır. Ən dəhşətlisi isə qeyrət və namusla yaşayıb, Azərbaycan dövlətçiliyi və həqiqi istiqlaliyyət uğrunda fədakarlıqla mübarizə aparan, bu yolda həyatını belə əsirgəməyən Məhəmməd Əmin Rəsulzadənin ünvanına ədalətsiz və gərəksiz deyilən sözlərdir.

"Azərbaycan" imzası ilə dərc olunmuş yazıda deyilir: "Elçibəy və onun komandası Azərbaycanın var-dövlətini xaricə daşımaqda babaları M.Rəsulzadənin yolu ilə hərəkət etmişlər". Anonim donosçunun M.Ə.Rəsulzadə haqqında bu prokuror ittihamı və məhkəmə hökmünü andıran qarayaxması vaxtilə kimlər, hansı orqanlar tərəfindən uydurulduğu, xaricdəki agentlərə ötürülüb Azərbaycanın istiqlalı uğrunda mübarizəni davam etdirən mücahidləri və onların liderlərini gözdən salmaq məqsədinə "xidmət" etdiyi tarixdən xəbəri olanlara məlumdur. KQB-çilərin bu uydurmasını yenidən siyasət meydanına gətirmək istəyənlər gərək bilsinlər ki, o vaxtlar M.Ə.Rəsulzadənin Azərbaycanı kiminlə birlikdə tərk etdiyinin üstü vurulmurdu.

M.Ə.Rəsulzadənin "Azərbaycanın var-dövlətini xaricə daşımasına" gəldikdə isə bu uydurma və böhtanı yazan və yayanlara xatırlatmaq lazımdır ki, 1920-ci il aprelin 27-də Azərbaycanın istiqlalına son qoyulduqdan sonra M.Ə.Rəsulzadə gizli işə keçmişdi. 3 aydan artıq Lahıc və İsmayıllı rayonunun müxtəlif kəndlərində qeyrətli və qədirbilən



kişilərin evlərində qalmış, hətta "Əsrimizin Səyavuşu" əsərinin müxtəlif fəsillərini orada yazmışdır. Sonralar Qaraməryəmdə həbs olunub, Bayıl həbsxanasına salınmışdı. Onu ölüm hökmü gözləyirdi. Bu arada, yəni 1920-ci ilin noyabr ayının əvvəllərində İ.V.Stalin Bakıya gəlmişdi. Hətta noyabrın 6-da Oktyabr inqilabının 3-cü ildönümünə həsr olunmuş təntənəli yığıncaqda məruzə ilə çıxış da etmişdi. Həmin günlərdə İnqilab komitəsinin və Azərbaycan hökumətinin başçısı N.Nərimanov M.Ə.Rəsulzadənin həbsdə olduğunu İ.V.Stalinə xəbər vermişdi. Stalin onu Bayıl həbsxanasından çıxarıb, öz vaqonunda Moskvaya aparmışdı. Birinci Rus inqilabı dövründən M.Ə.Rəsulzadəni yaxşı tanıyan Stalin belə bir kişicəsinə hərəkət etmişdi. O, M.Ə.Rəsulzadəni namuslu, qeyrətli, əqidəli adam kimi tanıyırdı.

M.Ə.Rəsulzadə təxminən ilyarım Moskvada nəzarət altında işlədikdən sonra 1922-ci ilin payızında Peterburqa elmi ezamiyyətə getmiş və oradan Finlandiyaya qaçmağa müvəffəq olmuşdu. Əliboş, cibi boş.. Apardığı Azərbaycanın dərd-qəmi, milli qeyrəti, istiqlal məfkurəsi, xalqın gələcəyinə inam və inancı idi. Görəsən, M.Ə.Rəsulzadə "Azərbaycanın var-dövlətini" qaçqın çağında, həbsxanalarda özü ilə necə daşıya bilərdi? Fövqəladə komissiyanın nəzarəti altında olan Stalinin şəxsi vaqonundamı?

Təəssüf, qəzəb və nifrət doğuran budur ki, Şərq və Qərb M.Ə.Rəsulzadənin həqiqi demokrat, Azərbaycanın istiqlal məfkurəsinin yaradıcısı, AXC-nin tanınmış lideri kimi tanıyır, onun öz vətənində isə adına qara yaxılır.

Bircə nümunə: 1990-cı il iyun ayının 14-də Tehranda nəşr olunan "Keyhani-Həvayi" qəzeti yazırdı: "Rəsulzadəni tanıyanlar onu böyük inqilabçı, Şərqin mütəfəkkir və ağıllı, hətta bənzəri olmayan bir şəxsiyyət kimi tərif ediblər. Məlumatı çox, istidlalda (nəticə çıxarmaqda) qüdrətli, hövsələli və hər məsələdən intiqad edəndə (danışanda) insaflı olub, demək olar ki, tamam ömründə bir dəfə də yalan danışmamışdır. Həmişə sabitqədəm olmuş və heç vaxt acıqlanmaz idi, heç vaxt mübaliğə etməz idi. Xalq məfkurələrini aydınlaşdırmaqda, yəni ruznaməçilik yaratmaqda və başqa xidmətləri, o cümlədən məşrutə inqilabında etdiyi yardımlar yaddan çıxan bir şey deyildir".

Bu Tehranda verilən qiymət, bu da Bakıda Ali Sovetin orqanında totalitar rejim dövründə uydurulmuş saxtakarlığın təkrarından ibarət olan böhtan!

Xəcalət çəkiləsi, təəssüf ediləsi deyilmi?

**Bəxtiyar VAHABZADƏ,**
**Şirməmməd HÜSEYNOV.**

***"Aydınlıq" qəzeti, 5 noyabr 1993.***

## "EHTİYATLI OLMAQ LAZIMDIR" - KİMDƏN?

Son zamanlar Bakıda özlərini "ədalət" mübarizləri kimi qələmə verən xırda avantürist dəstələr əmələ gəlmişdir. Onlar "xidmət" sifarişləri qəbul edib "iş" görürlər. İstənilən ünvana, idarə və müəssisəyə daxil olub hay-küy qaldırır, istəklərinə nail olmağa çalışırlar. Bəzən nail də olurlar. Onlardan biri də özünü "fəxri jurnalist", "şəhid arvadı", "20 Yanvar qəhrəmanı" kimi qələmə verən, tanınmış liderlərlə guya daim əlaqədə olan bir qadındır. Neçə vaxtdır ki, müəyyən məqsədlər güdən "sifarişçilər" onu mənim ünvanıma yönəltmişlər. Həmin qadın mənim barəmdə yalan və böhtanla dolu məktublar yaymadığı yer qoymamışdır. Mən bu böhtançının məsuliyyətə cəlb olunması üçün Nəsimi rayon prokurorluğuna rəsmən müraciət etmişəm. "Şuşalı qaçqınlar" adı ilə mənzilimə hücum edənlər də onun dəstəsinin üzvləridir. Bu dəfə Nəsimi Rayon Daxili İşlər Şöbəsinə müraciət etmişəm. Nəticəsi yeqin ki, olacaqdır.

Hələlik isə sizi də ehtiyatlı olmağa çağırıram. Tanınmış liderlərin, hərəkatımızın adından şəxsi məqsədləri üçün istifadə etməyə çalışan belə adamları xalq qarşısında ifşa edin.

*"Səhər" qəzeti, 21 may 1992*

## İNANDIRA BİLƏCƏYİKMİ?

*Bu günlərdə ABŞ-ın Bakıdakı səfirliyində Amerikanın istiqlaliyyət qazanmağının 216 illiyi münasibətilə ziyafət keçirildi. Bu barədə respublika mətbuatında geniş məlumat verildiyi üçün təfərrüata varmırıq. Bizi maraqlandıran suallara bu əlamətdar hadisə iştirakçılarından bəzilərinin cavablarını nəzərinizə çatdırırıq:*

**- Azərbaycan və Amerika. Bunlar Dünya siyasəti müstəvisinin müxtəlif qütblərində yerləşir. Və bu gün Azərbaycan məqam tutduğu siyasi məkandan inkişaf meyllərinə beynəlxalq aləmdə inam yarada biləcəkmi? Azərbaycan müasir demokratiyanı, Qərb sivilizasiyasını, o cümlədən Dünya siyasətinin aparıcılarından ABŞ-ı inandıra biləcəkmi ki, Qafqazda onların mənafeyi məhz Azərbaycandan, onun əsas tutduğu siyasi prinsiplərdən xeyli dərəcədə asılıdır?**



**Şirməmməd Hüseynov:**

- Uzun müddət Amerikanın əsaslandığı dəyərlərlə keçmiş sovetlər birliyinin, o cümlədən Azərbaycanın əsaslandığı dəyərlər bir-birinə tamamilə zidd olub. İndi istiqlaliyyət qazanmışıq. İndi biz Dünya miqyasına müstəqil dövlət kimi çıxmışıq. Dünya ictimaiyyətinin isə öz dəyərləri var. İndi ABŞ istiqlalının 216 illiyini qeyd edir. Onların İstiqlal Bəyannaməsində deyilir ki, hər bir vətəndaşın yaşamaq, azadlıq, sərbəst güzəran keçirmək hüququ var. İndi biz bu dəyərləri rəhbər tutsaq, Amerika bizi başa düşəcək. O inanacaq ki, biz həqiqətən, demokratik prinsipləri rəhbər tuturuq, deməli, çox şeylərə nail olmuşuq. O Bəyannamədə bir şey də var - xalq özünü öz seçdiyi hökumət vasitəsilə idarə edir və o hökumət xalqın qarşısında cavabdehdir. Bizim potensial imkanlarımız var ki, xırda hissləri kənara qoyaq, dünya səviyyəsində, dünyəvi prinsiplərə əsasən hərəkət etməyi, addım atmağı bacaraq. Əgər belə etsək, Amerika da, Qərb də bizi başa düşəcək və bizim ölkələr arasında münasibətlər yaxşı olacaq.

*"Azadlıq" qəzeti, 11 iyul 1992*

## KEÇMİŞDƏN SƏHİFƏLƏR

**Əsrin əvvəllərində milli oyanış və istiqlal fikrinin çox böyük çətinliklə də olsa özünə yol açdığı illərdə Azərbaycanda dövri mətbuat da inkişafının yeni mərhələsinə qədəm qoyurdu. Tiflisdə nəşr olunan "Şərqi-rus"dan (1903-1905) sonra ilk gündəlik "Həyat" qəzeti işıq üzü gördü. 1905-ci ilin sonunda "İrşad", 1906-cı ilin aprelində məşhur "Molla Nəsrəddin" çıxmağa başladı. Göstərim ki, Şəki ziyalıları milli mətbuata çox böyük maraq göstərir, onun səhifələrində maraqlı, həm də demokratik mövqedən çıxış edirdilər. Ümumi milli azadlıq, tərəqqi və istiqlal fikrinin formalaşması və müdafiəsində Şəkinin aydın fikirli, uzaqgörən ziyalı və qələm sahiblərinin xidməti böyükdür. Bundan əvvəlki yazılarımda qeyd etdiyim kimi, bu mövzu öz tədqiqatçısını gözləyir. İndi isə "Molla Nəsrəddin" jurnalının 1906-cı il nömrələrində Şəkidən göndərilmiş və çap olunmuş iki yazı ilə tanış ola bilərsiniz. "Tırıqqa"nın kim olduğunu isə aydınlaşdırmaq lazımdır.**

## MÖCÜZƏ

Möhtərəm Molla Nəsrəddin baba! Bu günlərdə şəhərimizdə bir möcüzə görsənib, haman adətdən dışarı işi cənabınıza bildirməyi özümə vacib bildim.

Keçən bazar ertəsi günü Şəkidə bir neçə nəfər haramzadalar zabastovka deyirsiniz, tətil deyirsiniz, bilmirəm nə deyirsiniz, ondan etmişdilər. Belə ki, bir neçə nəfər partnoy şagirdləri sözlərini bir edib şüğüllərini (məşğuliyyətlərini) boşlayıb qərar qoyublar ki, bizim məvacibimiz artırılmasa biz işləyəsi deyilik!

Allah saxlaya! Gör dəxi nələr görəcəyik?!

Şəki camaatı - tətil??! Belə də iş olar?!!

Xülasə, bu haramzadalar gedib Soyuqbulaq adlanan pirdə samovar qoyub orada yığışıb cəmiyyət düzəldib mitinq qurublar! Şəkidə cəmiyyət?!!!

Haramzadalar Şəki camaatını lap rüsvay ediblər. Bilmirəm qeyrətli dabbaqlar harada yuxlayırlar ki, Şəkidə belə biqəyda işlər olur?!!

Xoşbəxtlikdən pristav ağa bu işdən xəbərdar olub o saat dörd yüz kazak, yüz doxsan draqun götürüb özü də atına səvar olub düz gedib Soyuqbulağa, haramzadaların dörd ətrafını bürüyüb kazaklara kamand verib, draquna marş verib haramzadaları diri tutub, bazar yolu ilə düz gətirdi daftərxanaya!

Daftərxanada bulara belə işlərdən tövbə etdirib azad etdilər!

Bu haramzadaları pristav ağa bazar ilə gətirəndə bazar əhli bunlara məsğərə edirdilər.

Kimi tüpürürdü, kimi gülürdü, kimi deyirdi ki, bunlar dəli olublar, kimi deyirdi xeyir, məşrutə olublar! Hər kəs ağzına gələni deyib gülürdü. Şəhərimizin ağsaqqallısından bir əmi bunları kazak qabağında bu halətdə görəndə bir ah çəkib dedi: Ax keçən günlər! Qabaqlarda kazak qabağında adam öldürənlərimizi, baş kəsənlərimizi, ev yıxanlarımızı görüb biz də fərəhlənirdik ki, bizim belə igidlərimiz var! Amma indi... İndi belə oğul-uşaqlar öz böyüklərinin üzünə ağ olub özlərindən iş düzəldirlər, bizi də xəcalətə batırırlar!

Allah bundan betərindən saxlasın!..

Bəli! Allah bundan betərindən saxlasın!..

***Tırıqqa.***
***"Molla Nəsrəddin" N35.***
***1 dekabr 1906.***



## ŞƏKİ

Hörmətli müdir əfəndi! Rica edirəm, aşağıda yazdıqlarım sözlərimi müqəddəs məcmuənizdə dərc edəsiniz, küstaxxanə olmağını əfv buyurasınız.

A Molla Nəsrəddin baba, Allah səni xaki-zəminə bağışlasın! Yazırsan ki, 23-cü nömrə məcmuəmizlə 9 aylıq müştərilərimizə "Usta Zeynal" kitabını hədiyyə göndərəcəyik. A kişi, allaha rəvadırmı ki, 9 aylıq müştərilər haman kitabı oxusunlar, biz qalaq baxa-baxa! Axı, biz də 9 aylıq müştəri olmasaq da, hər həftə məcmuənizi buradakı agentinizdən alıb oxuyuruq. Bizim dəftərinizə müştəri yazılmamağımızın ümdə səbəbi budur ki, bizim ümidimiz yoxdur ki, "Molla Nəsrəddin" 9 ay davam etdi! Çünki müsəlman nədi, başladığı işi axıra çıxartdı nədi!.. Müsəlman nədi, bir il -iki il qəzet, jurnal verdi nədi!..

Səndən böyükləri, səndən pulluları bu meydandan qaçdılar! İndi sənmi davam edəcəksən? Yazıqlar olsun!

Qabaqda rəhmətlik "Şərqi-rus" qəzeti nəşr olunurdu. Ölüm-zülüm iki sənə nəşr oldu, axırda davam eləməyib batdı!! Demək ki, "Şərqi-rus"un pulu yox idi, pulsuzluqdan batdı. Bəs "Həyat"a nə oldu?! "Həyat" ki, dalını dağa söykəmişdi?.. Nə tez yıxıldı?!!

Görünür ki, biz müsəlmanlara bir-iki ildən artıq qəzet nəşr etmək məqdur olmayıb! Nə etməli?! Qədər böylə imiş! Yazını pozmaq olmaz. Gərək məqami təslimdə duraq! Əlhökmulillah!!!

Qərəz səndən təvəqqi edirəm bizə də 9 aylıq müştərilərimiz kimi "Usta Zeynal" kitabını göndərəsən, yoxsa burada məşhur cadugər molla Qurqurun yanına gedib səni dua ilə bir tilsimə salaram ki, sənin xozeynin də (?) yorulub dəxi səxavət kisəsinin ağzını möhürlər, həyatın məmatə mübəddəl olar!

***"Tırıqqa"***
***"Molla Nəsrəddin" N25,***
***22 sentyabr 1906,***

**"Şəki fəhləsi" qəzeti, 14 avqust 1992**

## KÖHNƏ HAMAM, TƏZƏ TAS

*YAXUD, İXTİYAR BƏYİN HƏR ŞEYƏ İXTİYARI ÇATIR*

(Sənədli əhvalat)

Ağsunun Pirhəsənli kənd sakinləri sovxozun baş mühəndisi Nəzir Kərimova əhsən deyirlər. Bilirsiniz nəyə görə? Kişi kənddə otura-otura dörd ayın içərisində Bakıda iki otaqlı mənzilin sahibi olub. Özü də şəhərin lap mərkəzində, Respublika sarayının həndəvərində.

- Necə yəni, Ağsuda oturub Bakıda mənzil aldı?

- Aldı da.

- Axı necə?

- Qaynatası Ağəli kişi güclü adamdı!

- Ağəli kişi ev paylayandı, ya rəhbər vəzifə sahibidir, nədir?

- Yox, iş bacaran, dil tapan, yeri gələndə yazan, pozan, yazdırıb-pozduran adamdır. Bir də ki, o söz...

- Açıq danış görək, Ağəli kişi yeznəsi Nəzirə evi necə alıb, nə yolla alıb.

- Get Nəsimi rayonu, 3 nömrəli MİS-in rəisi Əhəd Musayevin, baş mühəndis İbrahim Hacıyevin yanına. Sənə bu sirri öyrətsinlər.

- İndi ki, sən bilirsən, danış səndən öyrənim. Axı mənzil istismar sahəsində pulsuz dərs yoxdur.

- Yaxşı, Ağəli kişiyə verilən dərsi danışım.

- Ağəli kişi çoxdan idi ki, qızı Aidanı, nəvələri Ramil və Güneli yeznəsi Nəziri öz yanında görmək, Bakıya, lap öz qonşuluğuna gətirmək istəyirdi. Allahdan belə bir fürsət ələ düşdü. Eşitdi ki, onlarla qonşu binada M.A.Əliyev küçəsi 229 nömrəli evin üçüncü mərtəbəsində 20-ci mənzildə yaşayan Sara Solitan İsrailə köçür, mənzilini satmağa müştəri gəzir. Ağəli kişi fürsəti fövtə verməyib, işə girişdi. Amma MİS-də dedilər ki, sənin üçotaqlı mənzilin var. Özünüz də üç nəfərsiniz. Hərənizə bir otaq düşür, həm də sən M. A.Əliyev küçəsi 227 nömrəli evin birinci mərtəbəsində yaşayırsan. Solitan isə qonşu binanın üçüncü mərtəbəsində, onu necə birləşdirmək olar?

- Bəs mən nə edim?

- Əgər qeydiyyatda olan ailə üzvlərinin sayını heç olmasa altı nəfərə qaldırsanız, bəlkə iş düzələ. Yəni yerdə qalanı bizim boynumuza.



Belə işlərdə çox böyük səriştəsi olan MİS rəisi Ə. Musayev Ağəli kişini başa saldı ki, evə əlavə adamın yazdırmağın yeganə yolu odur ki, qızı Aida gərək ərizə verib, rəsmən boşansın. Təcili gəlib uşaqları ilə sənin evinə düşsünlər.

Aida və Nəzir Kərimovlar 1990-cı il iyunun 26-da Ağsuda məhkəmə və VAQ vasitəçilərini görüb səssiz-səmirsiz boşandılar. 8 gündən sonra Ə.Musayevin vasitəçiliyi ilə Aida və uşaqları pasport qeydiyyatına götürüldülər.

- Yaxşı, Ağəli kişi məgər mənzil növbəsinə durmuşdu ki, yeni ev alaydı.

- Yox, durmamışdı, amma bu elə bir ciddi əsas deyil. Təki pulun olsun.

- Yox, adamın heç cür inanmağı gəlmir. Axı, deyirlər, 90 min adam on illərlə mənzil növbəsindədir. Məgər onlar qoyarlar ki, Pirhəsənli gəlib 4 aya şəhərdə 2 otaqlı mənzilə sahib olsun.

- Görmürsən ki, şəhərdə it izini, bağa başını tanımır, sathasatdır, Kimdir baxan? Ver pulunu, al mənzilini. Özləri hər şeyi qanuna salacaqlar.

- Axı necə?...

- 1990-cı il noyabrın 20-də Solitan haqqını aldı, qapının açarını Ağəli kişiyə verdi, özü də İsrailə getdi. 3 nömrəli MİS-in rəisi Ə.Musayev Nəsimi rayon icraiyyə komitəsi ilə sövdələşdi. Belə qərara gəldilər ki, Ağəli Tağıyevə ayrıca mənzil vermək olmaz. Növbədə deyil. Yeganə yol Solitanın evini Tağıyevin evilə birləşdirməkdir. Bunun üçün isə gərək sənədlər Vətəndaşların mənzil şəraitini yaxşılaşdırmaq üçün uçota alınması barədə qaydanın 52 bəndinə uyğun şəkildə tərtib edilsin.

- Necə yəni tərtib edilsin?

- A kişi, görünür, sənin heç şeydən xəbərin yoxdur, yəni yazsınlar ki, Solitanla Ağəli bir binada, bir həyətdə, bir mərtəbədə qapı-qonşu, lap elə ortaqlı mənzildə yaşayırlar.

- Yox, qardaş, bu ağ oldu. Heç kəsin buna gücü çatmaz.

- Eləyər, o yana keçər də. Sən Nəsimi rayon icraiyyə komitəsində-ki əjdahaları yəqin ki, tanımırsan.

Sənədlər məhz beləcə tərtib edildi. Solitanın boşalmış mənzilinin yerləşdiyi 229 nömrəli binanı elədilər 227. 20 nömrəli mənzili elədilər 6 nömrəli (axı Tağıyevin mənzil nömrəsi 5-dir), boşalmış mənzilin hansı mərtəbədə olduğunun üstünü vurmadılar. 3 nömrəli Mİ-in baş mühəndisi İbrahim Hacıyev elə bir sxem çəkib verdi ki, baxanda belə təsəvvür yaranır ki, hər iki mənzil qabaq-qabağa, yan-yanadır.

- Sonrası?

- Sonrası ildırım sürətiylə həll olundu. Dekabrın 5-də Tağıyev Nəsimi rayon Soveti İcraiyyə komitəsinə ərizə yazdı ki, Solitanın boşalmış mənzilini mənim mənzilimə birləşdirin, dekabrın 6-da 3 nömrəli MİS-in rəisi məlumat yazdı ki, Solitanın mənzili boşalıb, Tağıyev köçüb, haqq-hesab çürüdülüb. Qərar çıxardın, order verin. Dekabrın 7-də icraiyyə komitəsi qərar çıxartdı. Solitanın 2 otağını Tağıyevin 3 otaqına "birləşdirib" elədilər 5 otaqlı.

- Bəs sonra?

- Sonra Nəzir Kərimov yenidən arvadı Aida ilə təzədən VAQ-a getdi, təzədən evləndilər. Təzə alınmış mənzildə pasport qeydiyyatına düşdü. Oldu 2 otaqlı mənzilin sahibi.

- Bəs bu məsələdən heç xəbər-zad tutan olmadı? Axı demokratiyanın getdikcə pərvəriş tapdığı bir vaxtda belə iş olar?

- Olmağına olar, nə qədər desən, amma xəbər verən də tapıldı...

- Nəsimi rayon prokurorluğuna rəsmi ərizə daxil oldu. Yoxladılar, protest yazdılar, saxtakarların əlindən yüngülcə vurdular. İcraiyyə komitəsi 1991-ci il mayın 5 də əvvəlki öz qərarını ləğv etməyə məcbur oldu.

- Bəs bu boyda alış-veriş sahiblərinə bir cəza verən oldu, ya yox?

- Allah köməyin olsun, 4 ay yoxlamadan sonra bu qərara gəldilər ki, işçilər binanın nömrəsini sən demə səhv salıblar, ona görə xəta baş verib. Vəssalam.

- Necə yəni?

- Sən elə bilirsən ki, Tağıyevin yeznəsi təzə mənzili boşaltdı? Kişilər bir ətək pul tökmüşdülər.

- MİS-in rəisi Ə.Musayev məsləhət gördü ki, işi məhkəməyə verin.

- İki dəfə Nəsimi rayon məhkəməsi, hakimlər Qorban və Zeynalovanın sədrliyi ilə, iki dəfə Bakı şəhər məhkəməsi, Bakı şəhər prokurorluğu, Respublika Ali məhkəməsi, nəhayət, respublika prokurorluğu Tağıyevin şikayətlərinə baxdılar, onun qanunsuz iddialarını rədd etdilər. 1992-ci il mayın 5-də Nəzir Kərimov qaynatasının adına olan mənzili boşaltmalı oldu.

- Nə yaxşı ki, ədalət zəfər çaldı.

- Ay-hay, sən nə sadəlövh adamsan, a bala!

- Məgər mənzil alverçiləri Nəsimi rayonundan qovulmuşdular? Ə.Musayev 3 nömrəli MİK-dən getmişdi?

- Sonralar iş yenidən tərsinə dönməyə başladı,.

- Necə yəni, məgər respublikanın bütün məhkəmə və hüquq orqanlarından sonra da saxtakarlığa haqq qazandırmağa cürət edən oldu?



- Bu dəfə işə Respublika Ali Sovetinin hüquq komissiyasının sədri, hüquqi siyasət üzrə dövlət müşaviri İxtiyar bəy Şirinov işə qarışdı. Ə.Musayevin məsləhəti ilə Tağıyev yenidən mənzili zəbt etdi. Özünü yetirdi köhnə tanışları və himayədarları İxtiyar bəy Şirinovun yanına, ərizə verdi. İxtiyar bəy Nəsimi rayonunun icra hakimiyyətinə rəsmi göstəriş verdi ki, Solitanın mənzili Tağıyevin mənzilinə birləşdirilməlidir.

- Bu dəfə də dedilər və elədilər də. Nəsimi ispolkomunun keçmiş sədri, rayon icra hakimiyyəti başçısının birinci müavini, vaxtilə ilk qərarı ləğv etdirən və Tağıyevin qanunsuz ələ keçirdiyi mənzili boşaltması barədə sərəncam verən Eldar Əzimovu məcbur etdilər ki, Solitanın mənzilini yenidən Taqıyevin mənzilinə birləşdirmək barədəki sənədə qol çəksin. Özü də bu dəfə tək yox. İcra hakimiyyəti başçısının müavini, ev alış-verişinə qanuni don geyindirmək ustası Əbülfəz Hüseynov və bir-birini inkar edən sənədlərə qanuni, don geydirən hüquqşünas Cavanşir Məlikov hər şeyi yoluna qoydular.

- Nəsə adamın inanmağı gəlmir, axı demokrat bəylər hakimiyyətə gəlib, hüquqa, qanuna üstünlük verilməsi barədə çox danışırlar. Məgər bunun hər şeyə ixtiyarı çatan İxtiyara dəxli yoxdur?

***"Aydınlıq" 15 sentyabr 1992***

## HƏR VIZILDAYANDAN BAL ARISI, HƏR GƏDADAN BƏY OLMAZ

"Azadlıq" qəzetinin sentyabrın 22-si tarixli sayında teleşirkətin informasiya və ictimai-siyasi proqramlar studiyasının direktoru Xaliq Bahadırla müsahibəni diqqətlə oxudum. Bütünlüklə onunla şərikəm. Xaliqin cəsarətinə, prinsipinə, sədaqətinə, xalq işi üçün fədakarlığına söz ola bilməz. O ki, qaldı respublika teleşirkətində yaranmış indiki vəziyyətə, əlbəttə, nə məni, nə də Qabili "qovan" olmayıb. Biz həmişə getdiyimiz kollektivdən, jurnalist həmkarlarımızdan çox böyük hörmət və məhəbbət görmüşük. Bizim çıxışlarımızdan narazı olanlar telefon "hüququ" prinsipini yenidən bərpa edən iqtidar və ixtiyar sahibi olanlardır. Mən onları təxminən tanıyıram, lakin dəqiq bilmədiyim üçün adlarını çəkmirəm. Deyim ki, mən heç vaxt heç bir iqtidara yaxın da olmamışam. Hadisələrə, problemlərə pis-yaxşı öz münasibətim olub. Müəllimlikdən başqa də təmənnam yoxdur. Məni təəccübləndirən vaxtilə belə qayda-qanunlara qarşı iki əlli qılınc çə-

kən hörmətli şairimiz M.İsmayılın itaətkarlığıdır. Qoy teleşirkətin indiki rəhbərliyi televiziya tamaşaçılarının rəyini öyrənsin, əgər onlar mənim çıxışlarımdan narazıdırlarsa, heç prezident aparatından zəngə ehtiyac qalmaz.

Demokratiyadan, qanun və hüququn üstünlüyündən dəm vuran telefon hüququ bəylərinə ata-babalarımızın bir kəlamını xatırlatmaq istəyirəm: hər vızıldayandan bal arısı, hər gədadan bəy olmaz.

***"Aydınlıq" qəzeti, 25 sentyabr 1992***

XƏLİL İBRAHİM – 100

## TARİXİMİZİN İBRƏTAMİZ SƏHİFƏLƏRİ

***Son vaxtlar yaşadığımız əsrin birinci on illiklərində nəşr olunmuş mətbuat orqanlarının adlarını götürmək dəb düşüb. Hətta bəzi qəzetlər nəşr tirixlərini də onlardan başlayırlar. Nə olar, vərəsəlik, kökə bağlılıq, ənənəyə sədaqət, qədrbilmək yaxşı keyfiyyətdir. Lakin qalır əsas məsələ - yəni məzmunca, jurnalist sənətkarlığı cəhətincə, ən vacibi isə milli qeyrət, həyat həqiqətinə, istiqlal məfkurəsinə sədaqətdə onların yolunu davam etdirmək məsələsi.***

***Mən bu sözləri tarixən iki əzəmətli dövr keçmiş, indi isə üçüncü dövrə qədəm qoymuş "Azad Azərbaycan" qəzetinə də şamil etmək istəyirəm.***

***Jurnalistikamızın "Əkinçi", "Molla Nəsrəddin", "Açıq Söz" məktəbi kimi milli istiqlal məfkurəmizin bayraqdarı "Azərbaycan" jurnalistika məktəbi də mövcud olmuşdur. Təəssüf ki, hələlik bu zəngin mənəvi xəzinənin qapılarını geniş açа bilməmişik. Doğrudur, son vaxtlar "Azərbaycan" qəzetinə, onun 1918-1920-ci illər fəaliyyətinə, yazılarına maraq xeyli artmışdır. Lakin görüləsi işlər hələ qarşıdadır. Zənnimcə, ən əvvəl "Əkinçi" kimi "Azərbaycan" qəzetinin də 1918-1920-ci il nömrələrini yeni əlifba ilə transliterasiya edib nəşr etmə vaxtı çatıb. Qəzetin baş müharrirləri Ü.Hacıbəyov və C.Hacıbəyovun qəzetdə dərc olunmuş yazıları toplanır, yaxın zamanda işıq üzü görə biləcəkdir. Növbədə digər görkəmli qələm sahiblərinin, o cümlədən, zəngin və ibrətamiz irs qoyub getmiş qəzetin baş mühərrirlərindən Xəlil İbrahimin publisistik irsini toplamaq ona yeni həyat vermək borcu qalır. Mən "Açıq söz" və "Azərbaycan" qəzetlərinin nömrələrini nəzərdən keçirərkən X.İbrahimin çox ibrətamiz, sənətkarlıq və xeyirlilik baxımından bu gün də faydalı ola biləcək yazılarına rast gəlmişəm. Onlardan bir nümunəni oxuculara təqdim edirəm.***



## XALQ İSTƏYİR

Azərbaycan həyatında elə anlar var ki, tarix səhifələrində qeyd olunmağa layiqdir. Bilaxassə bunlar yalnız Azərbaycan həyatında deyil, sair məmləkətlərin də həyatında görülmüş şeylərdir. Tarixi-məşrutəyə baxıldıqda adətən iki böyük cərəyan müşahidə edilir: 1.Hüriyyət fikrinin ali siniflərdə doğub da aşağı təbəqələrə yayılması. 2.Aşağı təbəqələrdə oyanıb da yuxarı sinifdən istənilməsi.

Burası da isbat olunmuş bir həqiqətdir ki, ayıqlığı aşağı təbəqədən başlanmış olan məmləkətlər daha məsud, daha azad və daha müasir bir həyata nail olurlar.

Xoşbaxtana Azərbaycan hayatında dəxi bu ikinci cərəyan bütün qüvvəsi ilə müşahidə edilməkdədir. Həyatımızda sevinclə qeyd olunacaq cərəyanlardan birisi də xalq arasında istiqlal fikri və istiqlalı mühafizə çarələrinin düşüncələri və camaatımızın əsgərlik məsələsinə nə nəzərlə baxmasıdır. Quru fəlsəfədən isə fikrimizi dəlillər ilə anlataяım.

Qazax qəzası türkləri sahib-mənsəb bir zatın hüzuruna gələrək şikayət edirlər:

- Aclıqdanmı? Bahalıqdanmı?

- Xeyr!

Camaat şikayət edir ki, Azərbaycanın qoşunu azdır. Onların əsgərliyə yarayanlarını əsgər almayırlar. Əsgər əvəzinə onlardan pul istəyirlər. "Əgər bizdən doğruluqla əsgər yığsalar, həpimiz gedəriz və dövlətimizin qüvvəsi neçə qat artar. Amma, əsgər istəmirlər, bədəl (əvəz) yığırlar" deyə məmurlardan şikayət edirlər.

İkinci bir şikayət:

Suraxanı, Bülbülə, Əmircan və sairə kəndlərin əhalisi kərahətlə (nifrətlə) gəlib şikayət edirlər ki, onları əsgər almayıblar. Təqribən 100 nəfərdən 30-nu qəbul edib, yerdə qalanlarını "sağ-salamat" olduğu halda buraxdılar ki, "get, sən yaramazsan". Kəndlilər təəccüb edirlər, mütəəsir qalırlar ki, dövlətimizə əsgər lazım olan bir zamanda nə üçün əxz əsgər (əsgəryığma) idarələri belə edirlər?

Şayani diqqət qeyd fəqərələrin (hekayənin) ən ümdəsi bunlar da deyildir. Əsl mətləb Bakı dükançılarının bir təşəbbüsüdür.

Neçə vaxt bundan əvvəl Bakı dükançıları məqami-aidinə müraciətlə bütün azərbaycanlıların əsgəri nizama bilmərrə ehtiyacı olduğunu kəndiləri (özləri) dəxi əsgər düşmədikləri halda, nizam öyrənmək istədiklərini bildirmiş və onlara məşq vermək üçün müəllim zabitlər istəmişlərdi. Hərbiyyə idarəsi, əlbəttə bu xahişə laqeyd baxa bilməzdi.

Ona görə dükançıların iddiasını qəbul edib müəllimlər vermişdir. Bu cümə günündən etibarən Salyan qışlasında dükançılar əsgəri məşq almağa başlamışlardı. Eşitdiyimizə görə, birinci gün məşqə 600 adam gəlmişdir. Və bütün alış-verişçilər hər cümə gəlməyə qərar vermişlərdir. Gələn cümədən şübhəsiz, bunların miqdarı minləri təcavüz (həddini keçmə) edəcəkdir.

Millətin, camaatın böylə ayıqlığı hökumət məmurları üçün o qədər böyük bir ibrət dərsi olmalıdır.

Ayıqlıq, milli qayğıkeşlik və müdafieyi-milliyyə hissinin camaatın aşağı təbəqələrində bu qədər geniş və açıq surətdə təzahüri-ibrazi (aşkara çıxması) istiqlaliyyət fikrinin əsl demokratiya içərisində nə qədər möhkəm yerləşmiş, kök salmış olduğunu göstərməklə bərabər, istiqlalımızın əbəda (həmişəli) paydar olacağına və millət tərəfindən hər vasitə və vəchlə müdafiə və mühafizə ediləcəyinə əsaslı bir dəlildir.

Şayani-təqdir odur ki, yazılanlar cümləsində cümə günü məşqdə 65 yaşında qoca ilə 11 yaşında bir cocuq da varmış.

Allah tovfiq (köməklik) versin!

***X. İ. (Xəlil İbrahim)***
***"Azərbaycan" N 192, 1 iyun 1919.***

**"Azad Azərbaycan" qəzeti, 7 oktyabr 1992-ci il**



## YADDAŞLARDA YAŞAYAN SƏTİRLƏR

*Deyirlər ki, guya Azərbaycanda dessident ədəbiyyatı olmamışdır. Bunu təsdiq və inkar etmək üçün fakt, dəlil və nümunələr lazımdır. 70-ci illərdə üreyi yanan, halımızdan pərişan olub çıxış yolu arayanlar vardı. Onlardan biri də tanınmış şərqşünas alim Böyükağa Hüseynov idi. O, bəzi "məxfi" şerlərindən nümunələri mənə də verərdi. Onlardan ikisini oxuculara təqdim edirəm.*

### Liberalın himni

İstəsən ömrün uzansın liberal olmalısan,
Qulağı kar, gözü kor, nitqi də lal olmalısan.

Birisi rüşvət alır, vicdanı yoxdur, sənə nə,
Birinin ağzı zəhər, sözləri oxdur, sənə nə.
İşləri yoxdur səninlə dili bal olmalısan,
İstəsən ömrün uzansın liberal olmalısan
Qulağı kar, gözü kor, nitqi də lal olmalısan.

Boyayıb sərçəni turac eləyən qoy eləsin,
Xalqın əmlakını tərac eləyən qoy eləsin.
Doğrunu oğruya möhtac eləyən qoy eləsin,
Dil qanan dostlara, hal əhlinə hal olmalısan.
İstəsən ömrün uzansın liberal olmalısan,
Qulağı kar, gözü kor, nitqi də lal olmalısan.

İşdir iclasda çıxış etməli olsan da əgər,
Söylə rəhbərliyə tərif nə qədər varsa hünər.
Tənqidi qoy eləsin başqası sənsiz də keçər,
Kim deyir ki, sənə hər işdə fəal olmalısan.
İstəsən ömrün uzansın liberal olmalısan,
Qulağı kar, gözü kor, nitqi də lal olmalısan.

Hardadır səndə o güc sən qoyasan bunca şərə,
Tək gərək sən verəsən canını qurban bəşərə.
Ağlın olsun a yazıq girmə bu kol-koslu yerə,
Bu işi görmək üçün Rüstəmi-Zal olmalısan.
İstəsən ömrün uzansın liberal olmalısan,
Qulağı kar, gözü kor, nitqi də lal olmalısan.

Düzlüyə cəhd edənin halına qıl bir tamaşa,
O ya infarkt, ya da xərçənglə vurur ömrü başa.
Məqsədin dinc yaşamaqdırsa nə hacət savaşa,
İstəsən ömrün uzansın liberal olmalısan,
Qulağı kar, gözü kor, nitqi də lal olmalısan,
Müxtəsər, insana bənzər qaramal olmalısan.

## "Amma millət ha!.."

***Ruhun şad olsun, Sabir!***

Yayılıb aləmə çoxdan şanımız, şöhrətimiz,
Bərəkallah, necə fəxr etməlidir millətimiz!

İrəli getsə biri, tez ayağından çəkərik,
Diri ikən malına, mənsəbinə göz dikərik.
Onu yıxmaq həvəsilə çalışıb tər tökərik,
Yoğrulub sanki paxıllıqla tamam niyyətimiz.
Bərəkallah, necə fəxr etməlidir millətimiz!

Güclünün hər sözünə min dəfə "ləbbeyk" deyərik,
Gücsüzün ət-sümüyün ac canavar tək yeyərik.
Burda ajdahayıq, orda yazıq, ağciyərik,
Beləyik, çünki əzəldən belədir niyyətimiz.
Bərəkallah, necə fəxr etməlidir millətimiz!

Başımız ağrımamış dəsmal ilə bağlayarıq,
Özümüz bir kəsək ikən daş üçün ağlayarıq.
Qurda çatmaz gücümüz, aslanı cırmaqlayarıq,
Kim deyir yoxdu bizim qüvvətimiz, cürətimiz?
Bərəkallah, necə fəxr etməlidir millətimiz!

Sözdə-söhbətdə coşub hey asarıq, hey kəsərik,
Zənn edər gendə duran Rüstəmi-Zaldan betərik.
Amma iş görməyə gəldikdə nəzərdən itərik,
Çünki hap-gopdan ibarətdi fəqət hümmətimiz,
Bərəkallah, necə fəxr etməlidir millətimiz!



Vətənə, xalqa sədaqət deyə tüğyan edərik,
Amma düşmən malı tək mülkünü talan edərik.
Bir qəpik xeyrimizə məsləki qurban edərik,
Deyərik getməsin əldən təki öz nemətimiz.
Bərəkallah, necə fəxr etməlidir millətimiz!

Müxtəsər, fitnə-yalan, hərzə danışmaq bizdə,
Başımız çıxmayan hər karə qarşımaq bizdə.
Qızışıb öz-özümüz ilə vuruşmaq bizdə,
Varımızdır nə desən, yoxdu fəqət qeyrətimiz,
Bərəkallah, necə fəxr etməlidir millətimiz!

***"Xalq qəzeti", 15.X.92***

## KİMLƏRİN VARİSİYİK? VƏRƏSƏLƏRİMİZ ÜÇÜN NƏ QOYACAĞIQ?

*BDU-nun professoru Şirməmməd Hüseynovla əməkdaşımız Aynur Bəşirlinin söhbəti*

**- Şirməmməd müəllim, "Dövlətdə dəvə, övladda nəvə" rubrikasının ilk qonağı Sizsiniz.**

- Dövlətdə dəvə... İndi dəvənin dövlət olduğu zəmanə deyil. O ki qaldı nəvəyə, fikirləşək, görək kimlərin varisiyik. Vərəsələrimizə özümüzdən sonra nə qoyacağıq. Əhməd bəy Ağayev 1907-ci il noyabrın 30-da Bakıda izdihamlı bir matəm mərasimində - Həsən bəy Zərdabinin dəfnindəki çıxışında deyirdi ki, Həsən bəy bütün istedadını, varlığını, var-yoxunu Azərbaycan xalqının tərəqqisinə, cəhalətdən, fanatizmdən oyanmasına sərf etmişdir. O, dövlət dalınca heç vaxt qaçmadı. Ən böyük dövləti milli qeyrətdə, milli təəssübkeşlikdə görmüşdü. Çox təəssüf ki, belə adamlar nadirdir.

Həmişə onlar pul və ixtiyar sahiblərinin təqibinə və gülüşünə məruz qalıblar, Həsən bəy Zərdabiyə qarşı sürülən ən böyük ittiham bu olub ki, sən kasıbsan, sus, danışma. Bu millət üçün sözün, fikrin qiyməti heç dərəcəsindədir. Mənəvi zənginlik bu bazarda satılan və alınan mətah deyil. Hətta Əhməd bəy Ağayevin çıxışında belə bir düşündürücü cəhət



**Azərbaycan Milli mətbuatının yaradıcısı**
**Həsən bəy Zərdabi**

də var. Keçmişimizi, tariximizi çox yüksək qiymətləndirən, onunla fəxr edən mütəfəkkir həm də əcdadlarımızı, ata-babalarımızı düşünərkən onlara öz narazılığını da bildirirdi. Və deyirdi ki, Həsən bəy, o dünyadakı əcdadlarımıza salam de. Onlara de ki, bu nə torpaqdır, bu nə məmləkətdir qoyub getmisiz. Hər yanı cəhalət, istibdad, yalan...

Məni düşündürən budur ki, bizim arxamızca, görəsən, bu cür ittihamlar nə qədər olacaq? Deməyəcəklər ki, sizə qoyub getdiyimiz Qarabağı niyə qoruya bilmirsiniz, niyə yüz minlərlə adamın, arvad-uşağın, qocanın bədbəxtliyi ilə barışdınız. Vaxtilə Məmməd Əmin 20 yaşında ikən yazırdı ki, keçmiş mədəniyyətimizlə fəxr edən, islam bayrağının altına girən, özünü millət ağası sayan cahillərin keçmişin bayrağı altına girməyə haqları yoxdur. Məgər bu fikirlər Məmməd Əminin qaldırdığı istiqlal bayrağının altına girən bir sıra nadanlara, rüşvətxorlara aid deyil? Bayrağı qaldırmaq hər kişinin işi deyil, amma onun altına nadanları buraxmaq cahillikdir.

Ailə hər bir cəmiyyətin, dövlətin, millətin varlığının ilk rüşeymi, binasıdır. Bu binanın neçəliyi xalqın neçəliyini müəyyənləşdirir. Binanın



möhkəmliyi onun özülünün möhkəmliyi ilə müəyyənləşir. Çox təəssüf ki, bizdə Azərbaycan milli ailəsinin necə formalaşması, yaranması bu ailəyə xas olan maddi, mənəvi deyərlər, əxlaqi və etik normalar, ailə büdcəsi bu vaxta qədər sırf tarixi və milli zəmində tədqiq olunmayıb, olunubsa da Azərbaycanın bir milyon iki yüz min ailəsinin bu tədqiqatlardan nümunə götürəcəyi bir şey yoxdur. Yeni ailə yaranarkən ona hansı elmi əsərlə məsləhət verə bilərik? Cəmiyyətin pozulması onun bünövrəsini - ailəni dağıdır. Əxlaq, insaf, mərhəmət, halallıq, namus, qeyrət, ətraf mühitə münasibət, yaşlılara münasibət, milli deyərlər ailədə formalaşır. Kim bağçanı, körpələr evini, məktəbi vətəndaş tərbiyəsinin əsas mənbəyi hesab edirsə, yanılır. Ailənin vəziyyəti ictimai-siyasi vəziyyətlə müəyyənləşir. Asiya ailəsi ilə Avropa ailəsi məhz bu baxımdan fərqlənir, ictimai, siyasi, mənəvi, əxlaqi, dini təfəkkür müxtəlifliyi ilə fərqlənir. Asiyada, Şərqdə uzun müddət istibdad güclü olub. İctimai-siyasi həyatda istibdad, dində istibdad, o cümlədən ailədə istibdad, Həsən bəy Zərdabi yazırdı ki, bizim milli faciəmiz, yəni bizdəki istibdad təfəkkürünün özülü ailədə qoyulur. Böyük sözü qanundur. Digər tərəfdən bizdə məktəb tərbiyəsi ağıldan çox hissə əsaslanıb. Birinci sinifdən başlayaraq poeziya, bədii təfəkkür elmi təfəkkürü üstələyir. Çünki bədii təfəkkür maddi nemət yaratmaq fikri ilə yaranmır. Elmi təfəkkür isə əksinə, Əhməd bəy Ağayev deyirdi ki, Qərb- məğrib cənnəti bu dünyada görmək istəyir, məşriq o dünyada. Bu dünyanın əzabı şərqlilər üçün, rifahı qərblilər üçündür. Biz ailə məsələsində ictimai təfəkkürü ailə təfəkküründən ayırmamalıyıq. Kim bunu ayırırsa böyük səhv edir.

Uşağa imkan vermək lazımdır ki, fikirləşsin, düşünsün. Düşündüyü real gerçəkliyə uyğundursa, həyata keçirilə bilərsə ona imkan yaratmaq lazımdır. Bizdə uzun müddət "Oxumaq, oxumaq, oxumaq" deyiblər. Qərbdə isə "Düşünmək, düşünmək, düşünmək" deyirlər.

**- Uşaq sərbəst düşünür. Belə tərbiyə olunub. Cəmiyyət isə istibdad altındadır. Bu uşağın sabahı üçün qorxmursunuz?**

- O evdəki halallıq, düzlük var, etik və əxlaqi normalar gözlənilir və ətraf mühit bunun əksinədir, onda uşaq tufana, qovğaya düşür. Mən deyirəm ki, bu qovğa, bu tufan islahedici, ətraf mühiti yeniləşdirməyə yönələn qovğa, vuruş olacaq. Demək haqqın, ədalətin əsgərləri, mücahidləri yetişir. Tarix göstərir ki, həqiqət uğrunda, milli istiqlal uğrunda vuruşanların böyük bir qismi məhz ailədə tərbiyə olunub, yetişib çıxanlardır. Belədə irsiyyəti yaddan çıxarmaq olmaz. Yəni qorxaqdan çətin ki, qəhrəman yetişə. Adamlar var ki, bələkdən başlayıb oturduğu kresloya qədər rüşvətlə qidalanır. Səməd Vurğun deyir: "Söyüd yarpağında bar ola bilməz". Maraqlıdır ki, Rusi-

ya inqilabçılarının tərcüməyi-halı ilə məşğul olan alimlər belə müəyyən etmişlər ki, onların bir çoxu baba və nənələrinin tərbiyəsini görmüş uşaqlar idi. Baba və nənələr isə dünyalarını dəyişmək dövrünü keçirəndə kamilləşir, qəlbən təmizlənir, riyakarlıqdan, yalandan, dəhşətdən, vəhşətdən uzaq olurlar. Onlarda insana məhəbbət güclüdür. O uşaq ki, ağıllı babanın tərbiyəsini görür, onda mənəvi dəyərlər hər şeydən üstün olur.

**- Və o uşaq millət üçün yetişir?**

- Düzdür, amma gərək baba-nənə özü də bu səviyyədə olsun. Puşkin dayəsini xatırlayırdı, Lermontov nənəsini. Bunlar böyük bir tarixi görmüş nənələr, babalar idilər. Uşağın ən böyük səadəti nənə-baba yanında böyüməyidir. Cavanlar özləri də hələ uşaq olurlar, onlar bütün varlıqlarını uşağa vermirlər. İndi oğul evlənən kimi atadan ayrılır. Ailələri iki-üç otaqlı mənzilə salmaqla dağıtdılar. Qabaqlar onlar on-on iki otaqlı bir evdə yaşayardılar. Əlbəttə ki, ayrı-ayrı mənzillərdə. Həm gənc ailə, həm də uşaqlar - baba himayəsindən uzaq olmurdular. Bu isə ailənin möhkəmliyində əsas şərtdir.

**- Bəs siz və nəvələriniz necə?**

- Onlar mütəmadi mənim məktəbimi keçirlər. Nəvə gərək baba məktəbi, nənə məktəbi keçə. Belədə həyat məktəbinə hazır olurlar. Bu, təbiətin hikmətidir. Heç kəs öz övladını geniş mənada öz yerinə hazırlaya bilmir. Bu borcu nəvəsinə verir. Amma yaddan çıxarmayaq ki, xəta da ola bilər. Nəvə ərköyün öyrədilər. Fakt var ki, narkomaniyaya qurşanmış nəvə pul üçün babanı öldürür. Nəvəyə hədsiz dərəcədə imkan vermək, onu ata-ana tərbiyəsindən təcrid etmək tam xətadır. Birində ciddilik çoxdur, o birində məhəbbət.

**- Xalqımızın belə bir alqışı var, nənəli-babalı, atalı-analı olasan.**

- Yaxşı alqışdır. Amma real vəziyyət ayrı şeydir. Mən elə deməzdim. Deyərdim ki, biz gərək gələcəyimiz haqqında çox düşünək, iş görək, hərəkət edək ki, Əhməd bəy Ağayevin dediyi tənələrdən bizim üçün deyilməsin. Bəzən vətən məhəbbəti yaddan çıxır. Elə millətlər var ki, milli qeyrəti itirib, amma ailə qeyrətini saxlayır. Elə millət var ki, əksinə. Gərək hər iki qeyrəti, məhəbbəti vəhdətdə götürək. Qoruyaq, yaşadaq.

***"Dalğa" qəzeti, 3-9 noyabr 1992-ci il***





## HƏYAT DAVAM EDİR... YAXUD İKİ SİFƏT

*Son vaxtlar "həyat davam edir" - kəlamı müxtəlif səviyyələrdə tez-tez təkrar olunur. Bu deyimin mənasını dərk edənlər də onu deyir, fərqinə varmayanlar da. Sonuncu qəbildən olanlara hətta elə gəlir ki, guya bununla onlar faciə və zillətə düçar olanların dərdini azaldır, gələcəyə inam hissi yaradırlar. Əslinə baxsan, bu, növbəti xəyalpərəstlik və illüziyadan başqa bir şey deyil. Amma bu təfəkkür tərzindən faydalananlar da vardır. Fəlakət və zillətdən xeyir görənlərə "həyat davam edir" səfsəfəsini "şər olmasa xeyir gəlməz" - kimi meşşan və manqurt düşüncəsinə haqq qazandırmaqda kara gəlir. Bələləri üçün həyatın davamı əvvəlki kimi çapıb-talamaq, eyş-işrətlə ömür sürmək, bu cür həyat tərzinə ictimai məna vermək və ona haqq qazandırmaq üçün lazımdır. Bu bəla da yeni deyil. Sabiri yada salın:*

***Millət necə tarac olur-olsun, nə işin var,***
***Düşmənlərə möhtac olur-olsun, nə işin var?***

*Hər gün torpağımızda qan tökülür, xanimanlar dağıdılır. Qarabağ faciəsi ümummilli faciə səciyyəsi daşıyır, dərd-qəm minlərlə yiyəsiz, sahibsiz qapıları döyür. Keyfəmayəşə və vəzifə həvəsləri isə "həyat davam edir" pərdəsi altında dərdlərə və faciələrə təbiilik və qanunauyğunluq səciyyəsi verməyə, adamları bu reallıqla hesablaşmağa çağırırlar. Guya itirilən torpaqlara, yurdsuz-yuvasız qalmış yüz minlərlə soydaşlarımızın faciəsinə və minlərlə şəhidin matəm mərasimlərinə baxmayaraq, çalıb-oynamaq, yerli-yersiz şənliklər düzəltmək, bir sözlə, beş günlük ömrü yaşamaq da lazımdır. Toy-bayramdır, bu dünyanın əzabı, - demiş saray şairləri; deyəsən, indi də deyirlər.*

*Şərqdə, xüsusilə, son əsrlərdə əsiri olduğumuz Rusiyada, dözməklik, dözümlülük düşüncəsi aşağı təbəqələrin yaşayış kredosuna çevrilmişdi.*

*Qınamıram təşkilik tərəfdarlarını. Dövlətlə-hökumətin, bazarla-bazar iqtisadiyyatının fərqinə varmayanlardan, Azərbaycan dövlətinin beynini teleşirkətdə görənlərdən, buxovu-ruporla əvəz edənlərdən təşkilikdən başqa nə gözləmək olar?! Amma faciədən kef düzəltməyə də, doğrusu, üz lazımdır. Bu barədə neçə vaxtdır düşünürdüm ki, "Bakı həyatı" qəzetinin 2-ci sayında dərc olunmuş "İki sifət" sərlövhəli yazı yadıma düşdü. Onu oxculara təqdim edirəm. Müəllifinin kim olduğunu açmıram. Əvvəla ona görə ki, bu il "Bakı həyatı" qəzetinin nəşrə başlamasından 80 il keçir, deməli, qəzetin yubileyidir, ikincisi, yazının müəllifinin də anadan olma günü yaxınlaşır. Müəllifin yazısının xoşa gəlib-gəlməyəcəyi barədəki fikri bilmirəm. Qorxuram ki, mənim kimi onlar da teleşirkətin böyük bəylərinin qəzəbinə gələlər haqlarında danışmağı qadağan edələr.*

## İKİ SİFƏT

İnsanlar iki bir-birilə zidd olan sifətlər arasında olaraq, hər kəs öz təbiətinin və tərbiyəsinin xahişincə bir tərəfi qəbul edib. Məsələ: "adil-zalim", aqil-nadan", "alim-cahil", "ittifaq-nifaq", "ağ-qara", "azadtələb-xuliqan", "qoyun-qurd", "ağa-fəhlə" və i.a...

Millət və vətən uğrunda çalışaraq əlvan qanını həqqaniyyət üçün axıdıb həlak olan vətəndaşlarımızın yollarını bağlayan və öz azad olmağı üçün müadat "kin" və nifrətlər ilə yad olunmalı fikirləri ilə bir millәti, bir vətəni fənayə verdikdə, onun ətrafına cəm olmuş həmməsləklər xoşhal olmazlarda nə olarlar? Və habelə zalim adil ilə, nadan aqil ilə daima vuruşmadadır.

Odur ki, tədarükatımız pərakəndə və binalarımız məğlubiyyətə üz döndərib. Odur ki, gah yaxşı sifət-pis sifətə, gah pis sifət-yaxşı sifətə qalib gəlməkdədir.

Bunlardan əlavə olaraq bir para vücudlar da var ki, üzlərinə maska taxıb yelkən gəmisi kimi yel hansı tərəfə əsdi, o tərəfdən getməkdədirlər.

Əcəba, öylə zatların zahiri insan, batini şeytan deyilmi? İşıq və baharı tazə görmüş və onların varlığına möhtac olan güllər həcrində onları həlak edən həşərat nə olar? O gül və çiçəklərə o həşərati məlunəti-ifsad lazımmı? Həşa!

Bəs belə olan surətdə işığı zülmət edib bahar mövsümündə açılmış gülləri xəzan yelləri əsdirib fəna edərək onların məqsədini puç edən ədiaların (yaramazların) arzusu və məqsədi nədir?

Onların arzusu və məqsədi budur ki, dünyanı bərbad edib fəqət öz nəfəsləri üçün şən qazansınlar.

Bədihidir ki, bu növ zatlar heç bir pak olan millətə və vətənə heç bir insaf sahiblərinə layiq və lazım deyillər. Çünki onlar alim sifəti ilə maskalanaraq aləmi-insaniyyətə zərbələr vurmaqdadırlar.

Onlar alimdir? Fəqət bayquş kimi banlamağa, öz arzularının başa gəlməsi üçün dünyanı qan dəryasına döndərməyə nəinki məğribi əbədiyyətə, qanlı müharibəni sülh ilə başa gətirməyə qoymayanlardır. Gözəl məsəldir ki, deyərlər, "bir dəli quyuya bir daş saldı, onu yüz ağıllı çıxara bilmədi".

***M.Ə. "Bakı həyatı" N2 avqust 1912***

**"Aydınlıq" qəzeti, 27 noyabr 1992.**



## HƏR VAXTINIZ XEYİR!

Tariximizin XX əsrində əlamətdar hadisə və günlər çoxdur. İkisini xüsusi qeyd etmək istəyirəm. Bunlardan biri mayın 28-i, ikincisi bu gün - dekabrın 12-sidir. Mayın 28-i yenidən hamımız üçün milli istiqlal bayramıdır. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti elan edilib. Millət və istiqlal mücahidlərinin qaldırdıqları azadlıq bayrağı indi əzəmətlə dalğalanmaqdadır.

Bəs dekabrın 12-si hansı tarixi və ümummilli dəyəri ilə geniş qeyd və hətta bayram edilməyə layiqdir? Vətənimiz Azərbaycanın ərazi və əhalicə böyük qismi cənubdadır. Tariximizin və taleyimizin vəhdəti uğrunda hər iki tərəfin milli mücahidlərinin qeyrət və səyi əsrlərdən bəri davam edir. Zaman-zaman xalqın bağrından qopan istiqlal tufanı özünü büruzə verir. Səttarxan, Bağırxan, Məhəmmədəmin Rəsulzadə, Xiyabani ruhu torpağın və xalqın hafizəsində yaşamaqdadır.

1945-ci il dekabrın 12-də Şərqin inqilab mərkəzlərindən sayılan Təbrizdə Azərbaycan milli hökumətinin elan edilməsi tariximizin iftixar səhifəsi, yaddaşımızın əlamətdar hadisəsidir. 21 Azər hərəkatının (İran təqvimi ilə 1945-ci il dekabrın 12-i azər ayının 21-nə düşür) indiyədək məhdud dairədə qeyd olunmasına son qoyub, geniş milli bayram kimi keçirilməsi vaxtı çatmamışdırmı?

Vətənimizin şimalında Azərbaycan Xalq Cümhuriyyəti 23 ay, cənubdakı Azərbaycan milli hökuməti isə cəmi 11 ay ömür sürə bildi. Birincinin ömrünə 1920-ci ilin aprelində bolşeviklər, Moskva balta çaldısa, Azərbaycan milli hökumətini 1946-cı ilin noyabrın sonu və dekabrında Stalin və şah rejimi birgə süquta uğratdılar.

Mayın 28-i və dekabrın 12-si qoşa yadda saxlanılmağa layiqdir. Bu iki tarixin qovuşmasından doğacaq ümummilli istiqlal günü arzu olunan, ümidlə gözlənilən gələcəyimizdir.

***"Xalq qəzeti" 12 dekabr 1992-ci il.***

## BƏYLƏR BURADA VURNUXUR, BALAYANLAR XANKƏNDİNDƏ İŞ GÖRÜR

Teleşirkətin "Həftə" verilişinin sonunda Xankənddən kənarda əldə edilib göstərilən süjet başqalarını bilmirəm, məni sarsıtdı.


Beş il bundan qabaq erməni millətçiləri Stepanakertdə baş qaldıranda tarixdən xəbərsiz, siyasi kütbeyinləri başa sala bilmirdik ki, daşnaklar Yuxarı Qarabağı Azərbaycandan qoparmaq və Ermənistanla birləşdirmək işinə uzun illərdir hazırlıq görürlər, özü də hər cəhətli hazırlıq. Ağlından çox vəzifə kürsüsünə, rüşvətxor dəstəsinə arxalanan, bütün ümidlərini Moskvaya bağlayan respublika rəhbərliyi Yerevan- Moskva oyunundan qətiyyən baş çıxarmaq iqtidarında deyildi. Ermənilər isə riyakar və səriştəli şahmatçılar kimi addım-addım mövqelərini möhkəmlədir, rəqiblərini çaşdırır, aldadır, bir sözlə, iş görürdülər. Bizdə isə hay-küy, siyasi boşboğazlıq, ərizəbazlıq, yalançı hədə-qorxu baş alıb gedirdi. Bəzilərinə elə gəlirdi ki, mitinq və nümayişlərlə kimisə qorxutmaq olacaqdır. Respublika Ali Sovetində Bəxtiyar Vahabzadə təcili surətdə ordu yaratmağın vacibliyi haqqında məsələ qaldıranda adını millət vəkili qoyanlar görəydiniz nə oyun çıxarırdılar. Mən də orada idim, hadisələri özüm müşahidə edib görmüşəm. Göstərim ki, vay-şivən qoparanlar milli ordunu özlərinin hakimiyyəti üçün qorxulu hesab edirlər. O ki, qaldı erməni silahlı dəstələrinə, ümid rus ordusuna bağlanmışdı.

İndi şüurlu, yaxud şüursuz millət xainlərinin xalqı və torpağımızı nə günə saldıqları göz qarşısındadır. Keçən il AXC iqtidarı elə aldıqdan sonra ümid etmək olardı ki, buraxılmış cinayətkar səhvlər tezliklə aradan qaldırılacaq, xalqın bütün qüvvələri təcili surətdə səfərbərliyə alınacaq, itirilmiş vaxtın əvəzi çıxacaq, ölkə müharibə dövrü tələblərinə uyğunlaşdırılacaq. İlk addımlar atıldı, çox zəif də olsa ümid işığı görünməyə başladı. Lakin səriştəsiz vəzifə hərisləri arasında köhnə xəstəlik və bəlalar yenidən baş qaldırdı. Yenicə yaranmağa başlayan ordu, alış-veriş, ayrı-ayrı dəstə və qrupların rəqabət meydanına çevrildi. Adlar və əsaslandırılmamış rütbələr paylandı. Müvəqqəti və möhkəmləndirilməmiş yüngül uğurlar şişirdilməyə, geniş təbliğ olunmağa başlandı. Adını isə qoydular, biz əsgərlərdə inam və qələbə ruhu yaradırıq. Söz döyüşü silah döyüşünü üstələdi. Vaxtilə Şuşadan girib Ağdamdan çıxmaqdan dəm vuranlar. Şuşanı da, üstəlik Laçını da qoyub qaçdılar. Yuxarı Qarabağa aid olmayan kənd və yaşayış məntəqələrini bir-bir itirən millət "pəhləvanları" Xankəndə qələbə bayrağı sancmaqla lovğalanmaqdan yorulmurlar.


Lakin bir şey həqiqətdir ki, indiki bəylərin də daxili çəkişmələrdən, mənəm-mənəmlikdən başları ayılmır, əsas güclərini nəyin bahasına olursa-olsun iqtidarda qalmaq yolunda sərf edirlər. Bu isə daşnakların və balayanların işini yüngülləşdirir. Ümid deyəsən Allaha qalıb.

**"Aydınlıq" qəzeti, 26 fevral 1993**





**Şərqdə ilk demokratik Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcısı Məhəmməd Əmin Rəsulzadə**





## DÜŞMƏNİNİ TANI, MİLLİ İNTİBAHINI YÜKSƏLT!

**1925**-ci ildə İstanbulda M.Ə.Rəsulzadənin "İstiqlal məfkurəsi və gənclik. Əsbabi-həzimətimizə aid bir mütaliə" ("İstiqlal məfkurəsi və gənclik. Uğursuzluğumuzun səbəbləri haqqında bir araşdırma") adlı əsəri çapdan çıxmışdır. Bu əsər həmin il "Azəri gənclər ictimaində verilmiş bir konfrans"da M.Ə.Rəsulzadənin etdiyi məruzənin mətnindən ibarətdir.

Azərbaycan milli istiqlal məfkurəsinin, müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcısı və tanınmış lideri M.Ə.Rəsulzadə bu əsərində nəinki 1918-ci ilin 28 mayının - istiqlal və müstəqilliyə aparan yolun tarixi və elmi-nəzəri mənzərəsini bütün məziyyət və çətinlikləri ilə qarşımızda canlandırır, həmçinin bu müstəqillik məfkurəsini əsrlər boyu yaşatmaq, qorumaq və inkişaf etdirmək yollarını, istiqamətlərini, əsaslarını çox böyük elmi-siyasi uzaqgörənliklə müəyyənləşdirir.

M.Ə.Rəsulzadə yazırdı ki, "milli istiqlal məfkurəsi milli mənliyini dərk etmiş, mədəniyyətcə inkişaf etmiş millətlərdə doğar", "Azərbaycanımızda milli fikrin həyatı nisbətən əski olsa da sözün aydın mənası ilə istiqlalçı fikri çox yenidir", "etiraf etməliyiz ki, Müstəqil Azərbaycan hökumətini idarə edən ziyalılarımızdan bir çoxu belə bir gün gəlib də milli bir hökumət başında duracaqlarını düşünmüş deyillərdi. Milli hökumət və istiqlal məfkurəsi bir yana, bizim nəsil üçün yaşadığımız yerlərə Azərbaycan deyilməsi belə yenilik idi. Bu isim dəxi istiqlal məfkurəsi kimi başa gəlmiş hadisə olduğundan, sonra hər kəscə qəbul edilmiş, yoxsa Türk federalist "Müsavat" firqəsindən gərək sağda və gərək solda duran firqələr buna qarşı, bu ada qarşı az mübarizə etməmişdilər".

Gətirdiyimiz bu qısa tarixi-nəzəri mülahizələrdən də görünür ki, M.Ə.Rəsulzadənin böyük və zəngin milli nəzəri irsini oxumaq və öyrənmək nə qədər vacib və gərəklidir. Türkiyə Respublikasında Atatürk irsinə olan ehtiyac və məhəbbət necə isə, milli istiqlal məfkurəmizin və ilk cümhuriyyətimizin yaradıcısı Məhəmməd Əmin Rəsulzadəyə də eyni məhəbbət və ehtiyac şamil edilməyə layiqdir. Bir şərtlə ki, sözdə, bayraqda, şüar və şəkil asmaqda yox! İdeya və məfkurəsini, əqi-

də, məslək və əxlaqını, vətənə məhəbbət, iman və inancını nümunə götürmək, onun müqəddəs yolunu şərəf və namusla yerinə yetirmək əzmi və qətiyyəti ilə.

İndi isə adını çəkdiyimiz kitabın axırıncı, dördüncü fəsli ilə tanış ola bilərsiniz. 28 May - bayram ərəfəsində M. Ə. Rəsulzadə irsi ilə tanış olmaq onun özü və ruhu ilə mükaliməyə bərabərdir. Axı bu kitab da əslində məhz bizlərə müraciətlə yazılıb.

***"Ülfət" qəz., 22 may 1993***

## GÜRCÜSTAN VƏ AZƏRBAYCANI KİMLƏR VƏ NİYƏ ÇALXALAYIRLAR?

*Qafqazın ayrı-ayrı regionları od içindədir: Ümumi partlayış dünyanın bu gözəl guşəsini xarabazarlığa çevirə bilər. Əgər başa düşülməzsə və tədbirlər görülməzsə, "bu böyük qorxu hiss edilməzsə", "bu fəsad toxumunun verəcəyi acı meyvələrin yayacağı atəş gürcü və azəri xalqı qədər əskidən "qonşu" ünvanını almış yerli ermənilər də" yandıracaqdır. Əziz oxucu, yuxarıda dırnaq içinə aldığımız cümlə və fikirlər mənim deyil.*

*Onları 62 il bundan öncə, 1931-ci il oktyabrın 15-də Bakıdan Berlinə göndərilmiş bir məktubdan götürmüşəm. Bu dərin məzmunlu, əsri xəbərdarlıq məktubu M.Ə.Rəsulzadənin redaktorluğu ilə Almaniyanın paytaxtında istiqlal mücahidlərimizin nəşr etdikləri "İstiqlal" qəzetinin 1932-ci ilin yanvarın 10-nu tarixli nömrəsində dərc olunmuşdur. Məktuba "Rusların erməni siyasəti" sərlövhəsi verilmişdir. Diqqətlə oxuyun sizə təqdim etdiyimiz bu tarixi sənədi.*

*Bu gün cərəyan edən hadisələrin mahiyyətini araşdırmaq baxımından maraqlıdır. Orada çox mətləblərin üstü açılır. İmperiyanın yeni akademik kəşfiyyatçı başçılarının Gürcüstan, Azərbaycan və bütün Qafqazda oynadıqları qanlı oyunlar "təhlükəli millətlərə" dərs vermək təşəbbüsləri görəcəksiniz ki, yeni deyil, iki əsrə yaxındır ki, aramsız davam edir. Təəssüf doğuran budur ki, bu siyasətdən baş çıxarmayan, Qafqazdan dörd əlli yapışan imperiyada fitnə-fəsadçılarının əlində oyuncağa çevrilənlər meydanda at çapır. Onlar da Qafqaz "balalarıdır". Yadıma bir fars xalq məsəli düşür: başını yerə qoyub dalını göyə qaldıranlar bəzən elə bilərlər ki, guya Allaha dua eləmək elə bundan ibarətdir.*



## RUSLARIN ERMƏNİ SİYASƏTİ

*(Azərbaycandan məktub*

**İstila rejiminin Azərbaycan türklüyü üzərində icra etməkdə olduğu min bir vəhşət və imha (məhv etmə) əməliyyatının bu gün başında rusların "erməni siyasəti" durmaqdadır.**

İmperialist Rusiyanın Qafqazda, xüsusilə, Qafqazda Azərbaycan qismində ənənəvi siyasətinin təşkil edən bu erməni siyasəti indi daha bariz və açıq bir şəkildə meydana çıxmış bulunur.

Gərək daxildə, gərəksə xaricdə məsələnin artıq kimsə üçün gizli bir tərəfi qalmamışdır. Türkiyədə, İranda, Suriya, İraq, Balkanlarda və Avropanın digər ərsəmində (hissələrində) yaşamaqda olan ermənilər Qafqaza cəlb ediləcək, xüsusilə Azərbaycanın qərbi və cənubi-qərbi qəzaları ilə Gürcüstanın Qara dənizə çıxan cənub vilayətlərində yerləşdiriləcəkdir.

**Ermənilərin bundan qazancları aşkardır: rus süngüsünə istinadən Azərbaycan və Gürcüstan hesabına Batum təriqi (yolu) ilə Qara dənizə çıxacaq "Böyük Ermənistan" vücuda gətirilmiş olacaqdır.**

**Rusiyanın qazancı isə Azərbaycanla Gürcüstan kimi Qafqazın Rusiyadan ayrılmasına çalışan, milli istiqlal mücadiləsindən bir an üçün olsun vaz keçməyən "təhlükəli millətlərə" qarşı Qafqazda əmin bir müttəfiq əldə etmiş olacaqdır.**

**Hər kəsə, dosta və düşmənə apaşkar bəlli olan bu siyasət rusларla erməniləri Azərbaycanla Gürcüstana qarşı birləşdirməkdə olan bu "müştərək interes" kommunistlərin kəndilərinə (özlərinə) də kizli deyildir. Bunu, bu siyasətin iç üzünü ruslar və ermənilər qədər azəri və kürcü kommunistləri də bilirlər. Yavaş-yavaş kommunist, təşkilatlarında. müxtəlif sovet müəssisələrində çıxan etiraz və şikayət səsləri açıq ictimalara (yığışmalara), Hətta. konfranslara qədər əks etməkdən geri qalmır...**

Məlum olduğu üzrə, Azərbaycanda və Gürcüstanda olduğu qədər ruslaşdırma siyasəti Ermənistanda görünməz. Azərbaycan bolşevik mətbuatı bütün müəssisə və təşkilatların ruslar əlində olduğundan türklərə heç yerdə məmuriyyə verilmədiyindən köylərə (kəndlərə) qədər müamələtın (hüquqi hərəkət və əməllərin), ilk məktəblərə qədər rəsmi dilin rusca olmasından şikayət etməkdədirlər.

Bunun üzərinə ardı kəsilməyən və Azərbaycanın Bakı, Muğan, Mil, Şirvan və s. məntəqələrini doldurmaqda olan rus mühacirətini də ələ-

və edəcək olsaq, ruslaşdırma metodu haqqında səthi də olsa bir məlumat əldə edə bilirsiniz.

Bu rus siyasətinin vücüda gətirdiyi ümümi kin və nifrət üç sənədən bəri davam edən qanlı köylü (kəndli) qiyamları ilə münəvvərlər (ziyalılar), hətta, kommunist gənclər arasındakı müqavimət, müxalifət və protesto (etiraz) hərəkatını doğurmuşdur.

Zəngin Bakı nefti ilə pambıq yurdu olan Muğandan vaz keçmək istəməyən qalib Rusiya adam ağlı yerləşə bilmək üçün Qafqazın vəhdətini pozacaq və kəndisinə (özünə) yardımçı olacaq bir "alətə" möhtacdır. Belə bir "alət" olmazsa, Şimali Qafqaz, Azərbaycan və gürcü kimi, hürriyyət və istiqlalları uğrunda yorulmaz mücadilələri məlum olan millətlər arasında tutamıyacaqlar.

Həm imperialist dövlətin kəndi (öz) müstəmləkələrində tətbiq etməkdə olduqları bu "parçala və hökm et" siyasətini Rusiya bir əsrdən ziyadədir ki, Qafqazda tətbiq etməkdə, çarlıq Rusiyadan qətiyyən fərqli olmayan qızıl Rusiya Türküstanda, Şimali Qafqazda olduğu kimi cənubi Qafqazda daha eyni siyasəti təqib edir.

Rus və erməni bolşeviklərinin iddialarına görə ermənilər dünyadan Qafqaz daxilinə toplamaq və yerləşdirmək iki böyük fayda təmin edirmiş: biri sovetlər əleyhində olan daşnak-erməni fəaliyyətinə bu surətlə nəhayət verilmiş olacaq, ikinci də erməni kimi "müqtədir" istehsal qüvvələri qazanılmış olacaqdır.

Bu motiv azəri və gürcü kommunistlərini təmin edəcəkmi?

Bunu gərək aşağı, gərəksə orta və yuxarı kommunist məhafilində (məclislərində) artmaqda olan adəmi-məmnuniyyətin (insanlıq razılığının) ən yaxın zamanda ala biləcəyi cərəyan və istiqamət göstərəcəkdir.

Bu xüsusda görüşdüyüm rəsmi məqamlara yaxın türk kommunistlərindən biri mənə bu cavabı verdi;

- Moskva erməni məsələsini həll etmək və onları Qafqaza toplamaq üçün ən münasib və psixoloji zamanın indi olduğu qənaətindədir. Bir tərəfdən beynəlmiləl vəziyyət buna müsaiddir (əlverişlidir), digər tərəfdən daşnakların sarsılmış olan nüfuzu buna imkan verməkdədir.

- Pəki, dedim, ya-(bəs) Türkiyənin hüdudunda böyük bir Ermənistan vücuda gətirilməsi...

Sözümü kəsdi və dedi ki:

- Canım. Suriyadakı ermənilər də gəlirlər. Moskva zənn edir ki, Suriyadakı erməni hərəkətindən xilas olacağı üçün bu işə Türkiyə də məmnun qalacaqdır.

- Ya(bəs) Azərbaycan və Gürcüstan xalqı?



- Azərbaycan və Gürcüstan xalqının bu məsələyə qarşı alacaqları vəziyyət erməni xalqının müqəddəratı ilə oynayan erməni ricalının (kişilərinin) əqlisəlim (sağlam düşüncəli) imtahanında almış olduqları nömrə (qiymət) ilə çox əlaqədardır - dedi və güldü. Moskvanın Qafqazda bir fasad toxumu əkməkdə olduğunu hər kəs başa düşür. Bu fəsad toxumunun verəcəyi acı meyvələrin yayacağı atəş gürcü və azəri xalqı qədər əskidən "qonşu" ünvanını almış yerli ermənilər də qorxutmaqdadır.

- Qafqaza müsəllət (hakim) olmuş qanlı və təxribkar rus qüvvəti bütün Qafqaz millətləri üçün müştərək bir bəla olduğundan üsyan hərəkətlərində azəri, gürcü və erməni köylüləri (kəndliləri) müştərikən hərəkət etməkdədirlər.

- Moskvanın səpdiyi fəsad toxumunun hər kəsdən ziyadə yenə yerli erməni xalqının fəlakətinə səbəb olacağından qorxurlar.

- Fəqət bu böyük qorxunu hiss edənlər Moskvanın əlində kor alətdən ibarət olan azəri kommunistləridir. Rus-erməni təhlükəsinin yaratmaqda olduğu əksüləməl bu rus uşaqlarının "səltənətinə" nəhayət verəcək bir şəkil və qüvvətdə təzahür edəcəyindən kommunistlər belə şübhə etmirlər.

***Bakı, 15 oktyabr 1931.***
***DAŞ DƏMİR,***
***"İstiqlal" (Berlin), 10 yanvar 1932.***

**"Aydınlıq", 25 iyun 1993**

## HƏSƏNBƏY ZƏRDABİ
## ƏLDƏQAYIRMA "BƏYLƏR" HAQQINDA

Azərbaycanın milli-mücahidi H.Zərdabinin "Əkinçi" qəzetinin 1877-ci il martın 17-də dərc olunmuş yazısını oxuyun, görün dərd həmin dərddir, ya yox? Niyə dəyişmirik, yaxud ləng dəyişirik? Bilən yazsın.

"Dövləti-Rus bizim vilayəti zəbt edəndən irəli bizim Qafqaz müsəlmanları öz avamlığından dünyada bəylikdən artıq xoşbəxtlik bilmədiyinə dövlət onlar üçün elm təhsil etməkdən ötrü bina elədiyi məktəbxanalara məhz bu qəsd ilə giriblər ki, oxuyub bəy olsunlar, yəni basıbkəsmək ixtiyarını kəsb eləsinlər. Əlbəttə, belə bəylik axtaran kəs xalqın xoşbəxtlik fikrini çəkməz. Onun üçün pul gərəkdir ki, kef-damağa məşğul ola və millət əvəzinə heyvan gərəkdir ki, ona hakimlik edib, öz bəyliyini zahir edə. Bu səbəblərə zikr olan əşxaslar ol məktəbxanalarda elm təhsil etmək acı olduğuna onu heç dadmayıb ancaq adətlərin dəyişdiriblər, yəni yeyib, içib geyib durub-oturmaqda özlərini xaricilərə oxşadıb, əslən elmdən bixəbər qalıblar.

Bir tərəfdən xalq bu əşxasların (şəxslərin) təzə adətlərini görüb onlardan millət üçün heç bir səmərə görməyib. Nəki elm təhsil etməyə səy etməyib, hətta elm təhsil edən müsəlmanların hamısını kafir hesab edib, indiyəcən ol məktəbxanalara yabıq gəlmir. Bir tərəfdən məzkur bəylik axtaran kəslər işin belə olmağını özlərinin xeyiri hesab edir, xalqın gözü açılmağa səy etməyib, öz adətlərini dəxi ziyadə dəyişdirib, hətta onların bəzi həqiqət yolundan bilmərrə çıxıb, belə bəd əməllər ilə xalqın elm öyrənmək yolunun qabağını kəsib, onu dəxi ziyadə avam olmasına bais olublar.

Bilirəm, bu sözləri oxuyub həzarət bizdən rəncidə xatir olacaq. Amma, dustan (dostlar) insaf deyil ki, qeyrilərin eybindən danışıb, öz eybimizi xalqdan gizlədək. Əlbəttə, bu halda bizlərdən 5-10 elm sahibi və millət təəssübü çəkən olsaydı, bizim millət belə qara günə qalmaz idi".

***"Əkinci" 1877, 17 mart N6.***

**"Aydınlıq", 9 iyul 1993**



## YANAN AĞ EVDƏ
## ÜÇ BAYRAQ DALĞALANIRDI

Atalar deyib: Sən saydığını say, görək fələk nə sayır. Son iki gündə Moskvada bayraqlarına görə qırmızı, sarı, qəhvəyi adlandırılan qüvvələrin qərargahı kimi tanınan dünyanın 2-ci Ağ evində və onun ətrafında cərəyan edən hadisələrə planetimizin yüz milyonlarla sakini tamaşa edirdi. Amerikanın Si-En-En teleşirkəti bu şəraiti yaratmışdı. Ağ ev rus tanklarının atəşi ilə od tutub yanırdı. O qara evə çevrilirdi: Bu tarixi hadisəyə verilən şərhlərin, qiymətlərin, proqnozların sayı-hesabı yoxdur. Keçmiş SSRİ indiki Rusiya Federasiyası üzrə tanınmış mütəxəssislərin böyük bir qismi öz sözünü deyirdi. Ağ ev yanırdı. Qara dumana bürünmüş binanın üstündə üç bayraq dalğalanırdı. Birisi indi Kremlin də üstündə dalğalanan Rusiya Federasiyasının bayrağı, ikincisi SSRİ bayrağı, üçüncüsü isə son vaxtlar həkk olunmuş imperiya bayrağı. Burada da bir rəmz vardır. Bu Sovet imperiyasının Rusiya imperiyasının varisi olduğu rəmzi idi.

Bəzi şərhçilər Moskva hadisələrini 1990-cı ilin Bakıdakı qanlı yanvar, Tiflis və Vilnüsdəki qanlı hadisələrlə müqayisə edirdilər. Özü də bu şərhçilər əsasən hərbçilər idi. Deyirdilər ki, Rusiya əgər Bakı, Tiflis və Vilnüsdə Sovetlərin hakimiyyətini qorumaq üçün günahsız qan axıdırdılarsa, indi Sovetlərin baş qərargahını atəşə verir, qan axıdırdılar.

Deyirəm vallah-billah, atalar doğru deyiblər ki, nahaq qan yerdə qalmaz. İndi görək dünyanın yenidən ümid bəslədiyi həqiqi demokratiya Rusiyada bərqərar olacaqmı? Amma mənim zənnimcə, bu xəmir hələ çox su aparacaqdır.

***"Aydınlıq", qəzeti 8.X.93***

## TARİXİ XƏBƏRDARLIQ VƏ LAQEYDLİK

*62 il əvvəl 1931-ci ilin oktyabrında Bakıdan Almaniyaya bir məktub göndərilmişdi. Həmin məktub 1932-ci ilin yanvarında Azərbaycan mühacirlərinin Berlində nəşr etdikləri "İstiqlal" qəzetində dərc olunmuşdu. Söhbət Qafqazın, o cümlədən Azərbaycan və Gürcüstanın gələcək taleyi ilə bağlı məkrli planlardan gedir, ciddi xəbərdarlıq edilirdi. "Daşdəmir" imzası ilə verilmiş məktubda deyilirdi ki, sovet imperiyasının perspektiv planlarında Qafqazda erməni amilinin iqtisadi-siyasi və ərazicə möhkəmləndirilməsi sahəsində strateji siyasi xətt hazırlanır. "Azərbaycanın qərb və cənub-qərb qəzalarını", "Gürcüstanın Qara dənizə çıxan cənub vilayətlərini" qopartmaq nəzərdə tutulur. (Məktub "Aydınlıq" qəzetinin 1993-cü il 25 iyun tarixli nömrəsində tam dərc olunub). Müəllif göstərirdi ki, ermənilər özlərinin Qafqazda strateji və daimi müttəfiqi hesab edən imperiya tərəfdarları müstəqilliyə meylli "təhlükəli millətlər" hesab etdikləri gürcü və azərbaycanlıları bu yolla itaətdə saxlamağı qarşılarına məqsəd qoymuşlar.*

*Adı çəkilən məktubla tanışlıq ondan çox-çox əvvəl, 1919-cu il iyunun 4-də "Bakinskaya jizn" qəzetində dərc olunmuş "Böyük Ermənistan" xülyasına dair satirik felyetonu yadıma saldı. "Açıq danışmağın bəlası" sərlövhəsi ilə verilmiş həmin yazını oxuculara təqdim edirəm. Bəli, təhlükənin reallığını nəzərə almaq vacibdir. Tarixi xəbərdarlıqlara laqeydlik bizə baha başa gələ bilər.*

## AÇIQ DANIŞMAĞIN BƏLASI

Açıq danışmağın bəla gətirməyi çoxdan bəllidir. Bir gürcü məsəlində deyilir ki, həqiqəti söyləmək istəyənin gərək yəhərli atı hazır olsun.

"Axşatavor" qəzeti həqiqəti bütün açıqlığı ilə demək istəyirdi, buna görə də əməlli-başlı hazırlıq görmüşdü. Redaksiya bir ingilisdən yəhərli qatır kirələmişdi. Denikindən tanklar və iki aeroplan qopartmışdı.

Redaksiyada qələmləri itiləmişdilər və qəzetdə "açıq nitqlər" peyda oldu. Həmin nitqlərdən bəzi parçaları misal gətirirəm:

..."Orlando tələb edir ki, Fiume İtaliyaya verilsin. Bu, tamamilə haqlı tələbdir. Fiume İtaliyaya lazımdır, vəssəlam. İtaliya qələbə çalıb, buna görə də tələb etdiyi hər şeyi ala bilər.



...Biz də qalib gəlmişik. Bəs onda niyə bu qələbədən bizə az pay düşüb.

Bizim qonşularımız Türkiyə və Almaniya ilə vuruşmayıblar. Vuruşan biz olmuşuq. Ona görə bir yox, iki Fiume almalıyıq.

...Düzünü desək, bizim üçün Fiume rolunu iki şəhər: Bakı və Tiflis oynayır.

Bakı ən azı ona görə bizim olmalıdır ki, Azərbaycanın öz paytaxtı - Gəncəsi var. Bakı barədə hüquqlarımız gün kimi aydındır. Biz Bakını mərtdə almışıq. Hələ orasını demirik ki, bu şəhər barədə bizim tarixi hüquqlarımız da var. Elə buna görə də bizimki olmalıdır.

Öz səmimiyyətimizin ucbatından az qala Tiflisi itirmişdik. Fiumeni iki yerə bölmək, bir yarısını italiyalılara, o biri yarısını avstriyalılara vermək söhbəti olanda az qalmışdı ki, biz Tiflisin bir yarısını gürcülərə peşkəş etməyə razılaşaq. Amma bu bağışlanmaz səhv olardı...

İtaliya nümayəndəsi Orlando pis vətənpərvərdir. Deyilən sazişin şərtlərini o işləyib hazırlamışdı: Şəhərətrafı Sütar istisna olmaqla Fiume şəhəri Millətlər Cəmiyyətinin himayəsi altında müstəqil dövlət yaratmalıdır.

Yaxşı ki, bizim Orlando kimi açıq danışan diplomatlarımız yoxdur.

İndi fərz edin ki, bizim nümayəndəmizin hazırladığı şərtlərə görə Kakalovka istisna olmaqla Tiflis şəhəri Millətlər Cəmiyyətinin himayəsi altında müstəqil dövlət yaradır. Məgər bu açıq-saçıqlığın və sadəlövhlüyün son həddi olmazdımı. Bu özü də avamlıqdan doğan səhv olardı. Tiflis şəhəri və Tiflis qəzası Ermənistanın olmalıdır.

...Bir də soruşan gərək ki, bu Tiflis gürcülərin nəyinə lazımdır axı? Onların özünün xalis gürcü paytaxtı - Msxetisi var. Əgər başqa paytaxt istəyirlərsə biz həvəslə Okrakananı (qızıl zəmi) onlara bağışlayarıq. Əkinçilər və arabaçılar respublikasına elə yaraşardı ki.

Ticarətçi xalqa ticarət və liman şəhərləri lazımdır. Bizə Bakı, Tiflis, Batum, Trapezund, Konstantinopol (yəni, İstanbul - tərc.), bir də müttəfiqlərimiz fransızlar həmişəlik əl çəkiblərsə Odessa lazımdır. Bu məsələnin ən yaxşı həlli olardı. Əgər Odessanı bizə versələr, onda onun üstündə bolşeviklərlə könüllülərin savaşı da qurtarar...

Könüllülər və ingilislər Odessanı öz sadiq müttəfiqləri kimi bizə verməlidirlər. Don üzərindəki Naxçıvan isə həm allah tərəfi, həm də bəşəri qanunlara görə bizimdir.

Açıq danışaq. Bizə şəhərlərdən savayı, qəzalar da lazımdır. Gürcüstandan Tiflis, Borçalı, Axalkalaki və Axalsix qəzaları bizə keçməlidir. Azərbaycandan isə Bakı quberniyasının bütün qəzaları və Qarabağ bizim olmalıdır.

Ümumdünya konfransı İranı Konstantinopol da daxil olmaqla, Türkiyənin bütün vilayətlərini bizə verəndən sonra İran körfəzinə, Qara dənizə və Aralıq dənizinə çıxa bilərik.

Fiumedən də bir parça qopartmaq pis olmazdı. Amma neyləyək ki, müttəfiqimiz İtaliya ilə üz-göz olmaq istəmirik.

Siyasi tələblərdə təvazökarlıq işə keçmir. Müharibədə əl tutduğumuz və bu yolda misilsiz qurbanlar verdiyimiz bütün müttəfiqlərimizə qarşı tələblər irəli sürməliyik. İngiltərə Kəlküttəni, Yaponiya Port-Arturu, Amerika San-Fransiskonu, Fransa Marseli bizə verməlidir. Rusiya isə... Deyəsən, bolşeviklərdən bizə bir şey çatmayacaq. Biz heç özümüz onlarla oturub-durmaq istəmirik. Kolçaka da bel bağlamaq olmaz. Olan-qalan ümidimiz Denikinədir. O da ki, iki imperiyanı - vahid Rusiyanı və vahid Ermənistanı birləşdirmək istəyir. Bu iki dövlət arasında ikili ittifaq bağlanmalıdır.

**"Axşatavor"dan tərcümə edəni:**
**AŞOT.**
**"Bakinskaya- jizn" qəzeti. N 3, 4 iyun 1919**

**"Xalq" qəzeti, 23 oktyabr 1993**

## TARİX VƏ BUGÜNKÜ OKTYABR DÜŞÜNCƏLƏRİ

Rusiyada sovetlərin hakimiyyətinə, oktyabr çevrilişilə başlanan bolşevik eksperimentinə bir növ nöqtə qoyulur. 70 ildən artıq hər il təntənə ilə qeyd edilən oktyabr bayramının son sədaları eşidilir. Bəşəri inkişafın təbii məcrasını dəyişmək təşəbbüsünə girişmək - sən demə, xülya, əfsanə imiş.

Çox macəralar şahidi olmuş qoca dünya XX əsrin üstü bəzək, altı təzək girdabından da keçməli oldu. Eksperiment çox baha başa gəlib və indi də bu əsri faciələr davam etməkdədir.

Azərbaycanın keçirdiyi milli müsibətlər də dağılan imperiya və ondan faydalanmaq istəyən məkrli düşmənlərin cəhdləri ilə bağlıdır. 73 il bundan əvvəl, oktyabr bayrağı altında Azərbaycanın istiqlalına son qoyanlar bizim ümumi milli faciəmizin də əsasını qoydular. İki yerə bölünmüş Azərbaycan yenidən parçalandı, onun tərkibində dağlıq Qarabağ deyilən oyuncaq qurumla bu günün milli fəlakəti hazırlandı.



Sovet imperiyası dövründə qazanılan gözqamaşdırıcı iqtisadi-mədəni və elmi-texniki nailiyyətlərdən ağızdolusu danışanlar, neyi və nələri itirdiyimizdən də söz açsalar, tarixi həqiqət ortaya çıxar. Zamanın mizan tərəzisi ilə hər şey ölçülməlidir. Axı, hər şeyə son nəticə ilə qiymət verilir. İman və inancını, özünü müdafiə qabiliyyətini sayca artıb mənəvi əxlaqi cəhətdən zəifləyən bir ölkə və xalqın gələcəyi necə təmin oluna bilərdi?

Rusiyada oktyabrı hazırlayan dünyagörüşündən, ictimai-siyasi əqidə və dövlət sistemindən uzaqlaşırlar. Qızıl meydandan Lenin başda olmaqla bolşevik xadimlərin məzarlarını köçürmək məsələsi gündəlikdə durur. Bu tarixin, qəzavü-qədərin hökmüdür.

Bəs bizdə vəziyyət necədir? Təkcə onu deyə bilərəm ki, vaxtilə bolşevizmin Azərbaycana gətirdiyi faciəni görənlərə, xəbərdarlıq edənlərə münasibət yenə də üstüörtülü olsa da əvvəlki məcrasına qayıdana oxşayır. İstiqlal məfkurəsi, azərbaycançılıq, milli mənlik hissi tərəfdarları mərkəzəqaçan qüvvələrin zərbəsi altında qoyulur. M.Ə.Rəsulzadəyə münasibət bunu bariz şəkildə göstərir.

Rusiyada oktyabrı bayram edənlərə dəm tutanlar Azərbaycanda da az deyil. Bəlkə də qaytardılar səfsəfəsi dirçəlmişdir. Lakin tarixi və oktyabrın dərslərini unudanları növbəti uğursuzluqlar gözləyir. Milli faciələrdən xilas olmağın yolu - müasirləşməkdə, milli inam və inanca qayıtmaqda, istiqlal məfkurəsinə sədaqətdədir.

**"Aydınlıq" 12 noyabr 1993**

## ADLAR DƏYİŞİB, BƏS VƏZİYYƏT NECƏ?

Bu yaxınlarda bir neçə rayonda oldum. Vəziyyətin nə qədər ağır və dözülməz olduğunu təsvir etməyə söz tapmıram. Camaatın əli işdən soyuyur, inamı itir, dözümü tükənir, hamı şikayət edir. Dəyişən hələlik müraciət formasıdır. "Kişi" sözü dəbə düşüb, hamıya yox, başçılara belə müraciət edirlər.

Bu işlərin axırı necə olacaq, bizi hara aparırlar? Çıxış yolu nədədir? Elə beləcə qırılıb qurtaracaq, məhv olacağıqmı? - verilən suallar əsasən belədir. Onlara cavab vermək ağırdır, çətindir. Əvvəlcə demokratiya, suverenlik və istiqlaliyyət, sonra Türkiyə, İran və MDB eyforiyası, təskinlik və ümidverici şüarlar artıq mahiyyətini qeyb etmək-

dədir. Yetim qalmış millətə sözdə can-can deyən çoxdur, ürəyi yanan, dərdinə əlac edəni azdır. Bu birinci növbədə hakimiyyətdə olanlara aiddir. İlk baxışda başçılar gecə-gündüz iş yerlərindədirlər. Müşavirə və yığıncaqların, göstəriş və təlimatların, kadr dəyişikliklərinin sayı-hesabı yoxdur. Elə bil hamı ayaq üstədir. İcra hakimiyyəti binalarının qarşısı pullu maşın dayanacaqlarını xatırladır. Dövlət və onun iqtisadi mexanizmi isə bütün gücü ilə işləmir, bəzən boş-boşuna fırlanır. Pulsuz, rüşvətsiz iş görəni barmaqla saymaq olar. Qaz vurub özləri üçün qazan dolduranlar gözə kül üfürmək üçün arabir xeriyyəçi cildinə girir, pul verib reklam düzəldir, "kişi" ləqəbi qazanmaq iddiasına düşürlər. İqtisadi cinayətkarlığa qarşı mübarizə aparmalı olan keçmiş "obaxeyişçilər" indi hansı oyunlardan çıxmırlar. Tutduqlarından və aldıqlarından dövlətə bəzən adicə gəlir vergisi miqdarında pay da düşmür. Alanlar çoxalıb, verənlərin imkanı tükənir. Belə getsə, iqtisadiyyatdan da bir şey qalmayacaq, verilən şey də olmayacaq. İslahatlardan əsər-əlamət yoxdur. Müharibəni söz savaşı, televiziya tamaşası ilə udmaq olarmı? Qurban kəsməklə, bayraq öpməklə, rəsmi keçidlər düzəltməklə, dua oxumaqla erməni Azərbaycan torpaqlarından çıxacaqmı? Millətə, xalqa birinci növbədə onun bütün potensial gücünü, qüvvəsini səfərbər edə biləcək məfkurə, milli siyasət, fədakar mücahid və fədailər ordusu gərəkdir. Müharibəyə cəlb edilən ölkə müharibə dövrü qanunları ilə yaşamalıdır. Rüşvətxorluq, xalq və dövlət əmlakına qəsd, səfərbərlikdən, işdən yayınma, fərarilik, dəstəbazlıq, yerliçilik vətənə xəyanət kimi qiymətləndirilməlidir. Yalnız belə olduqda, torpaq və Vətən qarşısında hamı eyni məsuliyyət yükünü çiyninə götürdüyü təqdirdə fəlakəti dəf edib Azərbaycanı xilas etmək mümkündür. Əvvəlcə "yoldaşı" "bəylə", indi də "bəyi" "kişi" ilə əvəz etməklə iş düzəlsəydi nə vardı ki?

Belə çıxır ki, mafiyanın, əliəyrilərin yığdıqlarını qorumaq, varını artırmaq, mülkiyyətini, vəzifəsini mühafizə etmək siyasətləri var. Amma Vətən torpağını, soydaşları qorumaq, müdafiə etmək siyasətləri yoxdur. Hakimiyyətdə söz də onların olanda Vətəni qoruyacaq siyasət və real qüvvə də yaranmır.

Xalq isə yenə də öz xilaskarlarını, sədaqətli mücahid və fədailərini gözləyir. Axırıncı həyəcan təbili çalınmalı vaxtdır.

**"Azadlıq", 19 noyabr 1993**



## MƏYUS VƏ ÜMİDSİZ OLMAYAQ!

Xalqı inam yaşadır, ümid yaşadır. Hər şeyi itirmək olar, inam və ümiddən başqa!

İnamı qəlbində, ruhunda namus və qeyrət hissn olan ərlər, mücahid və fədailər daşıyır; əvəzsiz, təmənnasız.

İnam torpaqdan, onu yaradan tanrıdan, əcdadların ruhundan qüvvət alır, millətin varlığına hakim kəsilir, onu yaşadır, məhv olmağa qoymur. İnamını itirən hər şeyini itirir. Güneş enerjisi kainatda qeyri-bərabər paylandıqda zaman-zaman atmosferdə tufan və qasırğalar baş verdiyi kimi, sosial ədalət pozulub dünyanın nizamı itəndə siyasi atmosferdə də qlobal sırsıntılar, faciələr törənir, Rusiya, onun hökmü və təsiri altında olan regionlarda cərəyan edən hadisə və faciələr də bu qəbildəndir. Rus Pravoslav kilsəsi belə XX əsr Rusiya tarixini faciələr dövrü adlandırır.

Böyük faciələrdən kiçik milli faciələr törəyir. Keçmiş sosializm lageri ölkələri və xalqları bu əsri faciəni müxtəlif səviyyələrdə yaşayır. Bizim payımıza, bizim qədərimizə onun ən böyük qismi düşüb. Taledənmi, özümüzün əfəlliyindənmi - bu başqa məsələdir.

Faciə başımızın üstünü alıb, neçə ildir çabalayırıq, torpağın və xalqın taleyini öhdəsinə götürən naşılar, səriştəsizlər, inam və inancdan məhrum yarımçıq şöhrət və mənsəbpərəstlər Azərbaycanı milli fəlakətin son həddinə gətiriblər. Artıq geri çəkiləsi, tərk ediləsi torpaq qalmayıb. Deyəsən indi bu həqiqət dərk edilir. Rayonların əksəriyyətində cavan uşaqlar əvəzinə kişilər silaha sarılırlar. Könüllü hərbi hissələrin sayı artır, qorxu və vahimə hissini cəsarət, inam və inanc hissi üstələyir. Birlik və siyasi sabitlik reallaşana oxşayır. Mülkiyyət və hakimiyyət davası edənlər gərək dərk etsinlər ki, torpağın, ölkənin, xalqın taleyi həll olunmasa, mülkiyyət və hakimiyyət məsələsi həll edilməyəcəkdir. Xalqımızın əbədi düşməni erməni millətçi təcavüzkarları məhz belə hərəkət edirlər. Heç olmazsa bu dərk edilsin.

Vəziyyət çətin, yük ağırdır. Millət yükünü indi öhdəsinə götürənlərdən qətiyyət, cəsarət, uzaqgörənlik, böyük sərkərdəlik, təşkilatçılıq, istedad və bacarıq tələb olunur. Torpaqların xilası, Azərbaycanın xilası-məsələ belə durur. Hər şey cəbhə üçün, hər şey xilas üçün!

Məyus və ümidsiz olmayaq! İnam və inancla Azərbaycanı, onun istiqlaliyyətini xilas etməliyik! Başqa seçənək yoxdur.

**"Aydınlıq"**
**26 noyabr 1993-cü il**

## GƏLİŞİ GÖZƏL SÖZLƏR, REAL HƏQİQƏTLƏR

Bu günlərdə Moskva metrosu stansiyalarından birində polis sərnişinlərdən birinin qabağını kəsib kobudcasına rəftarla sənəd tələb edir. Özünü itirməyən sərnişin bu hərəkətin qanuni əsasını soruşub. Məlum olub ki, xarici görünüşünə görə Qafqazlılara oxşayan adamların saxlanması barədə ümumi göstəriş var, fərdi təqsirin və günahın olması şərt deyil. Saxlanılan və sorğu-suala çəkilən sən demə ABŞ vətəndaşı, Kaliforniya universitetinin professoru Vladimir Brovkin imiş. "Azadlıq" radiosu onun rus redaksiyasına verdiyi bəyanatda professor bu hadisədən çox böyük təşviş və həyəcanla danışdı. İnsan hüquqlarının bu cür kobudcasına pozulması, Rusiyanın yeni konstitusiyası layihəsində yazılanların həyata keçirilməyinə də inamı azaldır - amerikalı sovetoloq alimin gəldiyi nəticə belədir.

Həqiqət naminə Moskva televiziyası isə Rusiya hökumət başçısının birinci müavinlərindən Sergey Şaxrayın dediklərini də xatırlatmaq lazımdır. Milli ərazi və milli münasibətlər məsələləri ilə məşğul olan Şaxray seçkiqabağı çıxışında bəyan etdi ki, o, Moskva şəhər rəhbərliyinin paytaxtı qafqazlılardan təmizləmək xəttini və hərəkətlərini qətiyyətlə pisləyir. O dedi ki, "biz qafqazlıları ucdantutma xarici görünüşünə, etnik mənsubiyyətinə görə yığıb sürü ilə qovsaq, həmin regionlardakı rusların eyni şəkildə Rusiyaya qovulacağını yaddan çıxarmaq lazım deyil, həm də onları diri buraxacaqlarmı?". Çox yerində, həm də yüksək səviyyədə deyilmiş xəbərdarlıq deyilmi?

Nəhayət, Rusiya Federasiyası xarici işlər naziri Andrey Kozırevin ATƏM-in Roma yığıncağına yola düşərkən jurnalistlərə verdiyi qısa müsahibədə diqqəti cəlb edən bir məsələ barədə. Kozırev dedi ki, dünyada sülh və əmin-amanlığa təhlükə yaradan problemlərdən biri "təcavüzkar millətçilikdir". Tamamilə doğrudur. Lakin nümunə üçün nazirin Latviya və Estoniyada rusların təqib olunmasından, Qərbi Avropada neofaşistlərin fəaliyyətindən danışıb, qəddar erməni millətçiliyi və faşizmi barədə susması təəccüb və təəssüf doğurmaya bilməz. Öz gözündə tiri görməyib, başqalarının gözündə qıl axtarmaq - buna deyilir.

Nə qədər ki, insan hüquqları və ümumbəşəri dəyərlərin, ədalət və haqqaniyyətin meyarı dar və eqoistik mənafelər baxımında müxtəlif olacaq, dünyada həqiqi əmin-amanlığın bərqərar olacağına ümid azdır. Hər bir xalq gərək öz başının çarəsini birinci növbədə özü qılsın. Başqasına ümid olan şamsız qalar - demişlər.

Gəlişi gözəl sözlərə qulaq asmaq məcburiyyətindəyik, amma siyasəti real həqiqətlərə uyğun qurmaq lazımdır. Kimin kim olduğunu sözlə yox, əməllə yoxlamaq vacibdir.

***"Aydınlıq" qəzeti***
***3 dekabr 1993***

## MÜBARİZƏ VƏ DÜŞMƏNƏ NİFRƏT MƏKTƏBİMİZ VARMI?

Bir əsrə yaxındır ki, Azərbaycanın uzaqgörən qələm sahibləri, ictimai-siyasi xadimləri xalqımızın başının üstünü ala biləcək təhlükə barədə xəbərdarlıq edir, həyəcan təbili çalırlar. 1906-cı ilin avqustunda "İrşad" qəzeti yazırdı: "Ermənilərin Osmanlıdan çoxdan əlləri çıxdı. Ümidləri qaldı Qafqaz və İrana. İran da həmd olsun tez-gec oyanıb vətənin namusunu mühafizə edəcəkdir. Tək qalır ermənilər üçün Qafqaz. Budur ki, burada gecə-gündüz min hiylə və fənd ilə çalışacaqlar ki, müsəlmanları öz ticari davaları ilə, rus tüfəngləri ilə zəiflədib zamanın fürsətini gözləsinlər". Xəbərdarlıq edilirdi ki, "həmişə düşmənçilik, həmişə qətl və qarət ermənilərin birinci planıdır:

İndi burasını qəti surətdə biləndən sonra bizə lazımdır ki, düşmənin qabağına düşmən kimi çıxaq!". Düşmənin qabağına düşmən kimi çıxmağa hazırlaşdıqmı? Bugünkü fəlakətli halımız ata-baba vəsiyyətinə, vaxtilə deyilənlərə laqeyd qalmağımızın acı nəticələri deyilmi?

Düşmənini tanımayan, öz torpağını və ulusunu qorumağa hazırlaşmayan ölkə məhvə məhkumdur. Bu, aksiomadır. Soruşula bilər ki, zəngin tarixi keçmişi, fərdi qoçaqlığı və cəsarəti olan bir xalq niyə belə zəlil günə düşmüşdür? Bu mühüm həyati sual və problem üzərində lap gənclik çağlarından düşünən M.Ə.Rəsulzadə 1909-cu ildə "Tərəqqi" səhifələrində yazırdı: "Şəxsi həyatdan, xüsusi xanasindən zövq almaq istəyən bir müsəlman (azərbaycanlı) nədən novi vətəndən həzz almaq istəmir?" Başqa deyimlə, ailəsini, evini-eşiyini, varını-dövlətini ürəkdən sevən, onun üçün canını verməyə hazır olanlar, nə üçün bütöv vətəni, torpağı, xalqı eyni məhəbbətlə sevmir. M.Ə.Rəsulzadə yazırdı: "İştə bunu da Şərq istibdadından xəbər alınız, cavabı ondadır". Nədir bu cavab? Oxuyun: "Siyyasətcə istibdadda, ibadətcə istibdad-

da, məişətcə istibdadda və yenə də istibdadda qəhr olan bir məmləkətdə, həyati ictimaiyyənin azad və nəfis bir surətdə olmasını arzu etmək, qaranlıq bir otaqda aynabəndlik etməyə bənzər".

Millət və xalq o vaxt birləşər, vahid və yenilməz gücə sahib olar ki, gözü və düşüncəsi açılsın, sahiblik və varislik hissi qanına və canına hopsun. Xalqı zülmətdə, köləlikdə saxlayıb ondan birlik və fədakarlıq umanların səyləri əbəsdir.

"Qaranlıq bir şeydir ki, onun bulunduğu və hökmfərma olduğu məkanlarda və zamanlarda insan nə özünü, nə öz aynadakı surətini, nə də bulunduğu yerin daxili və xaricini görə bilməz. Bunları görmək və gördükcə istifadə edə bilmək ancaq işıq sayəsində ola bilər. Zülmətimənəviyyə ilə ziyayi mənəviyyə də bunlar kimidir" - mütəfəkkir qələm sahibi Əlibəy Hüseynzadə "Füyuzat"da belə yazırdı.

Qəddar erməni millətçilərinin on illiklər ərzində elə bizim torpaqdaca bizi məhv etmək üçün gecəli-gündüzlü hazırlaşdıqlarını görməmək mənəvi zülmətin, ziyasızlığın nəticəsidir. Daşnaklar ermənilərin neçə-neçə nəslini "nifrət məktəbindən" keçirərkən, biz qəflət yuxusunda uyuyurduq.

Düşmən artıq bütün qəddarlığı ilə məlumdur. Lakin "nifrət məktəbimiz" varmı? Bu məktəbin düşünülmüş, uzunmüddətli, elmi-tarixi-nəzəri təlim və tədris proqramı və planları işlənilirmi?

Düşmənin qabağına düşmən kimi çıxmaq lazımdır. Bu həqiqəti dərk etmək vaxtıdır!

***"Aydınlıq" qəzeti, 10 dekabr 1993***





## MİLLİ QURTULUŞ HƏRƏKATININ İDEOLOQU

Azərbaycan milli qurtuluş hərəkatının ideoloqu və tanınmış liderı M.Ə.Rəsulzadənin xalqımız, tariximiz və milli varlığımız qarşısında haqq-səyi hədsiz dərəcədə böyükdür. Azərbaycançılıq məfkurəsini işləyib hazırlayan, onu milli dövlətçilik səviyyəsinə yüksəltməyi bacaran, itirilmiş dövlətçilik ənənələrini yeni tarixi şəraitdə ən qabaqcıl, mütərəqqi demokratik təlim əsasında Azərbaycan Xalq Cümhuriyyəti formasında yaradılmasına başçılıq edən M.Ə.Rəsulzadə şəxsiyyəti, zaman keçdikcə yaddaşımızda daha əzəmətlə canlanır. Müstəqil Azərbaycan dövləti, Azərbaycan torpağı və xalq yaşadıqca xalqın fədakar və cəfakeş övladı M.Ə.Rəsulzadə də mənən və ruhən yaşayacaqdır. Son 74 ildə, elə bizim günlərimiz də daxil olmaqla onun pak və təmiz adına, ülvi qayə və məfkurəsinə qara yaxanların aramsız hücumları boşa çıxmış və gələcəkdə də boşa çıxacaqdır.

M.Ə.Rəsulzadənin və onun fədakar məsləkdaşlarının ən böyük əsəri Azərbaycan Xalq Cümhuriyyəti idi. Bilmək vacibdir ki, xalqın milli varlığının, yetkinlik və yaşamaq iqtidarının meyarı olan milli dövlətimizin ilk təməl daşlarını qoyanların xatirəsi xalqın qəlbində, ruhunda və əməlində həkk olunmasa, vətən də gücdən düşər, xalq parçalanar, istiqlal paymal olar. Dünya təcrübəsi bu həqiqəti çoxdan sübuta yetirib.

Azərbaycan aydınlarının tribunası olan "Aydınlıq" qəzeti M.Ə.Rəsulzadə irsinin təbliğatçısı, müdafiəçisi kimi şərəfli bir ad daşımağa da layiqdir. Əsrimizin bu böyük dövlət və siyasət adamının anadan olmasının 110 illiyinin yüksək səviyyədə bayram edilməsinə "Aydınlıq"çılar da öz töhfələrini vermişlər.

***"Aydınlıq" qəzeti, 14 yanvar 1994***

## BİR SƏRLÖVHƏ, BİR ƏHVALAT

Tanıdığım, özünə və jurnalist bacarığına hörmət etdiyim Emin Eminbəylinin baş redaktoru olduğu "7 gün" qəzetinin 15 yanvar tarixli nömrəsində "Murtuz Ələsgərov Bəxtiyar Vahabzadəni Ramiz Rövşəndən üstün tutur" sərlövhəli informasiya səciyyəli yazıya rast gəldim. Hadisənin, yazıda təsvir olunan əhvalatın məzmunu ilə işim yoxdur. Amma tanınmış ağsaqqal şairlə yaradıcılığına hörmət etdiyimiz orta nəslə mənsub şairi - qarşı-qarşıya qoymaq kimə gərəkdir? Nə üçün qaşınmayan yerdən qan çıxardırıq? Yadıma belə bir əhvalat düşür. Rəhmətlik Mir Cəlal cənublu bir gənci böyük təkiddən sonra istər-istəməz öz kafedrasına aspirant götürmüşdü. Amma şərt qoymuşdu ki, aspiranturanı qurtarıb müdafiə etdikdən sonra kafedrada müəllim yeri istəməyəcəksən. Üç il ötmüş zor-bəla ilə elmlər namizədi olan "gənc alim" iki ayağını bir başmağa dirəmişdi ki, mən Mir Cəlalın kafedrasında o istəsə də, istəməsə də mütləq müəllim olacağam. Bütün vasitələrə əl atandan sonra istəyinin boşa çıxdığını görən "alim" elan etdi ki, mən hər gün Mir Cəlal müəllimi əsəbləşdirib, onu hirsləndirib canını boğazına yığdıracağam. Bir dəfə belə bir hadisənin şahidi oldum. Universitetin köhnə binasında bufetlə Azərbaycan ədəbiyyatı kafedrasının yerləşdiyi otaq arasında cəmi bir otaq vardı.

Söhbət gedən "alim" bufetə gəldi. Bir stəkan çay aldı. Sonra elan etdi ki, Mir Cəlal müəllim indicə kafedraya gəldi.

Qoyun çay soyuyana qədər Mir Cəlalı hirsləndirim, sonra gəlirəm.

Hörmətli hacı Emin! Son vaxtlar ağsaqqal alim, yazıçı, hətta ictimai-siyasi xadimlərə qarşı beləcə qanqaraltmaq, hətta qarayaxmaq kampaniyası güclənib. Gəlin belə hərəkətlərdən çəkinək.

***"Aydınlıq" qəzeti, 22 yanvar 1994***





## MİLLƏT, İSTİQLAL VƏ MAARİF FƏDAİSİ

**1903**-cü il mayın 2-də -91 il bundan əvvəl -Tiflisdə nəşr olunan "Şərqi-Rus" qəzetində "Bakı. Öz müxbirimizdən" sərlövhəli bir məktub dərc olunmuşdu. Müəllifi 18 yaşı yenicə tamam olmuş Məhəmməd Əmin Rəsulzadə idi. Bakının Novxanı kəndində atası Hacı Axund Molla Ələkbərin mədrəsəsində əlifbanı, fars və ərəb dillərini, Qurani-Kərimi, sonra məşhur maarifpərvər S.M.Qənizadənin "rus-müsəlman" məktəbində rus dili və dünyəvi elmləri öyrənən, bir müddət Bakı texniki məktəbində təhsil alıb oradan inqilabi təbliğat üstündə qovulmuş gənc Məhəmməd Əmin "Səadətli Məhəmməd Ağa hüzuruna!" sözlərilə başlanan məktubunda nə yazırdı? Əvvəla müəllif "Şükr və min dəfə şükr!" edirdi ki, "illər ilə yolunu gözlədiyimiz və gecə-gündüz arzusunda olduğumuz türk Azərbaycan qəzeti" nəhayət nəşrə başlamış, "Qafqaz müsəlmanları da bir qəzet sahibi olmuşlar". Sonra yazırdı ki, "Allah millətimiz arasında qeyrətli şəxsləri çoxaltsın ki, bəlkə həddən artıq çox olan nöqsanlarımız yavaş-yavaş düzələ".

Həcmcə kiçik olan məktubda maraq doğuran digər cəhət 18 yaşlı gəncin "Qafqaz müsəlman əhalisindən ümumi və Bakı əhlindən xüsusi təvəqqesi" idi. Nə idi bu təvəqqe? Oxuyuruq: Valideynlərə "öz uşaqlarından balaca olan vaxtda elm və tərbiyə kəsb eləməkdən başqa bir şey mənzur tutmasınlar. Məsələn, hər kəsin ki, qüvvəsi çatır uşağını məktəbə qoysun, məbada-məbada palçıxçı, dükan şagirdi və qeyrəyə razı olsun".

Bu məktubdan 12 gün sonra "Şərqi-Rus"da M.Ə.Rəsulzadənin "Hümmət və qeyrət vaxtıdır" sərlövhəli ikinci yazısı dərc olunmuşdur. Burada müəllif çox böyük ictimai-siyasi, mənəvi-əxlaqi problemlərə toxunur, xalqının taleyi və tərəqqisi məsələlərinə dair düşüncələrini yığcam şərh edir.

M.Ə.Rəsulzadə yazırdı ki, millətimizin geridə qalmağına, tərəqqi etməməsinə bir səbəb "Hümmətsizlik, təkəbbür və yalançı qürur", "müsəlmanam deyib, oturub baxmaq" isə, digər səbəb "bir para əhli maariflərimizin yeri düşəndə köhnə islam mədəniyyətilə fəxr edib" özlərinin bir iş görməməsidir. Bu isə müəllifə görə "alim babası ilə fəxr edən cahil nəvənin gülünc halına bənzər".

Gənc mühərrir bu vəziyyətdən çıxış yolunu hər şeydən əvvəl maarifdə, üsuli-cədid məktəblərində, elmdə görürdü. "Hümmət edib elm öyrətmək və öyrətdirməyə səy və güşiş qılmaq", "ittifaq edib məktəbxanələr açmaq" zəruriyyətini qarşıya qoyan müəllif peyğəmbər Əleyhissəlamın bununla əlaqədar "elmi beşikdən qəbr evinədək öyrənməli", "elmi Çində olsa da axtar" hədislərini xatırladırdı. Həm də "din elmini öyrənməyə cəmi Rusiyada bir mədrəsə belə tapılmadığını" təəssüf hissilə qeyd edirdi.

M.Ə.Rəsulzadə yazısında "din elmi" ifadəsini çox geniş mənada işlədir və şərh edirdi: "məlumdur ki, bizim üləmalarımızın əksərinin ümumi riyaziyyatdan bilmərrə xəbərləri yoxdur. Hər ayinə üsuli-cədid ilə ruhani mədrəsəmiz olsa, mollalarımız da indiki elmlərə aşina olub, həm özləri doğrudan alim olarlar, həm də övladi-milləti müstəfid (faydalanmış) edərlər".

Bu ilkin yazılardan M.Əminin böyük fitri istedad, real düşüncə və sağlam milli düşüncə sahibi olduğu açıqca görünməkdədir.

Əsrin əvvəllərində Rusiyanı çulğayan dərin iqtisadi-siyasi böhran və inqilab, güclü milli intibah və çarpışmalar dövründə M.Ə.Rəsulzadə görkəmli mühərrir, ictimai-siyasi xadim kimi yetişir, tanınır, formalaşır. O, gecəli-gündüzlü oxuyub-öyrənir, cərəyan edən hadisələrin fəlsəfi və tarixi köklərini, məna və səbəblərini araşdırmağa, dərk etməyə, həmçinin bunları mümkün qədər daha çox oxucu kütləsinə, daim təmasda olduğu adamlara izah etməyə çalışırdı. Onun yaratdığı "müsəlman gənclik təşkilatı", bir az sonra "Müsəlman demokratik "Müsavat" cəmiyyəti, gizli "Hümmət" qəzeti və bu adda sosial-demokrat təşkilatı milli-mədəni və siyasi oyanışda mühüm rol oynayırdı.

Əsrin birinci on illiyində Azərbaycanda milli mətbuatın, siyasi publisistika və jurnalistikanın, maarifçilik, milli məktəb, ana dilində təhsil uğrunda mübarizənin fəal xadimləri və fədailəri sırasında gənc M.Əminin xüsusi yeri vardı. Təsadüfi deyildi ki, Bakıda yaradılmış "Nicat" mədəni-maarif cəmiyyətinə xeyli müddət M.Ə.Rəsulzadə başçılıq etmişdir.

M.Ə.Rəsulzadənin xüsusi olaraq maarif və məktəbə həsr etdiyi xeyli əsəri vardır. Onun 1903-1909-cu illər yaradıcılığını əhatə edən əsərlərinin 1-ci cildinə bunlardan - "Dəbistan", "İqnatyevin layihəsi", "Bürokratiya və müsəlman məktəbləri", "İkinci müəllimlər qurultayı", "Həftə məktəbi", "Cümə məktəbi", "Realnı məktəbində müsəlman əlifba sinfi", "Yerli məktəblər", "Xeyriyyə və maarif cəmiyyətimiz", "Tədrismi, ticarətmi?", "Müəllimlər gərək" "Gecə dərslərindən təəssüratım", "Hesab məsələləri" və s. daxil edilmişdir.



1907-ci ilin avqustunda Bakıda toplanmış müsəlman müəllimlərinin II qurultayı iştirakçılarına müraciətində M.Ə.Rəsulzadə yazırdı: "Haydı müəllim qardaşlar! Hümmət ediniz, burası cəmaət işidir, səmimiyyət istər, qeyrət tələb edir. Cəmaətimizin ehtiyacatı çoxdur... Hər bir taifə və millət üçün mədəni bir əhəmiyyəti olan milli ibtidai məktəblərin idarəsi və tədrisini öylə bir surətdə qoymağa çalışın ki, oralardan çıxan şagirdlər haman kəsb elədiyi elmlər bərəkətindən zəmanəmizdə mövcud üsuli-məişətdən bəhrədar ola bilsin. Çalışın ki, cəmaət məktəblərini aldığı ada layiq edəsiniz! Çalışın ki, cəmaəti təhlükəyə salan bəzi hissiyyat onu qəflətdə saxlayan mövhumata və bunlara meydan açan üsuli-tədris və təlim bilmərrə məktəblərdən qovulsun!"

Azərbaycan milli qurtuluş hərəkatının ideoloqu və liderliyi səviyyəsinə yüksəlmiş, Azərbaycan Xalq Cümhuriyyətinin banisi M.Ə.Rəsulzadə xalqa sədaqətin, istiqlal məfkurəsinə bağlılığın və bu yolda səbrin, fədakarlığın, əzm, söz və əhdindən dönməməyin timsalıdır. Onun bizə miras qoyub getdiyi böyük milli məfkurə indi də yaşayır, onun ilk dəfə qaldırdığı istiqlal bayrağı müstəqil Azərbaycan üzərində dalğalanır.

***"Azadlıq" qəzeti, 1 fevral 1994***

## TARİXİ ŞƏXSİYYƏTLƏRİ SİYASİ OYUNLARA QATMAYAQ

Siyasi və milli eyforiyadan uzaq durub tariximizi az-çox tədqiq edən hər bir mütəxəssisə bəllidir ki, istiqlaliyyətimizi itirdiyimiz son neçə əsrdə Azərbaycan güclü siyasət və dövlət xadimləri sarıdan korluq çəkmişdir. Əlbəttə, bunun obyektiv və subyektiv səbəbləri vardır. Lakin bu çətin və məşəqqətli dövrlərdə belə xalq tarixi yaddaşına, qüdrətli dilinə, zəngin ədəbi irsinə, torpağına, küçlü məişət mədəniyyətinə, inam və inancına söykənərək öz milli mövcudiyyətini hifz edə bilmişdir.

Dünyanın siyasi xaritəsini, bəşəri tərəqqi və inkişafın məcrasını dəyişən XX əsr bütün dünya kimi Azərbaycanı da milli intibah, siyasi oyanış, müstəqillik və istiqlal yoluna cəlb etmişdir. Əsrin birinci iki onilliyində sürətlə cərəyan edən milli istiqlal hərəkatı öz öndərlərini, görkəmli xadimlərini tarix səhnəsinə çıxartmışdı. Bütün varlığı ilə xalqına bağlı, dövrün tələbləri səviyyəsində duran bu istedadlı dövlət və

siyasət adamları iftixar mənbəyimiz, nümunə məktəbimiz, hətta səcdəkahımızdırlar. Onlar vətəni, milləti, torpağı hifz edib, bizə tapşırıb, dünyalarını dəyişiblər.

**Varislik millətin yetkinlik əlamətidir.** Tarixi səriştəsizlərin əlinə vermək, tarixi şəxsiyyətləri hakimiyyət hərislərinin siyasi oyunlarına cəlb etməyə imkan yaratmaq çox böyük xətadır. İman və İnanc, milli birlik və bütövlük əsrlərin və nəsillərin vəhdətindən yaranır. Tarixi yaddaşsızlıq, keçmişi təftiş və inkar bizə çox baha başa gəlmişdir. Böyük təəssüf və həyəcan hissi ilə qeyd edirik ki, belə cəhdlər indi də özünü büruzə verməkdədir. Son vaxtlar Azərbaycan milli qurtuluş hərəkatının tanınmış ideoloqu və lideri M.Ə.Rəsulzadə haqqında yazılan və yayılan məkrli yalan və böhtanlar bunu açıqca göstərir. Anlaşılması çətin olan müəmma isə budur ki, rəsmi dövlət qəzeti sayılan, əslində bu funksiyanı yerinə yetirmək səviyyəsindən çox-çox aşağıda dayanan "Azərbaycan" qəzeti bu şərəfsiz "missiyanı" öz öhdəsinə götürmüşdür.

Bir neçə vaxt bundan əvvəl, M.Ə.Rəsulzadəni riyakarcasına Azərbaycanın var-yoxunu oğurlayıb aparmaqda günahlandıran Ali Sovetin orqanına "Aydınlıq" qəzeti səhifələrində layiqli cavab verilmişdi. Məlumdur ki, bundan çox keçməmiş görkəmli ictimai-siyasi xadim M.Ə.Rəsulzadənin anadan olmasının 110 illiyini qeyd etmək haqqında Azərbaycan prezidentinin fərmanı elan edildi. Yubiley komissiyası M.Ə.Rəsulzadə irsinin dirçəldilməsi, tədqiqi və təbliği ilə bağlı tədbirlər planı hazırlayıb təsdiq etdi. Bütün şüurlu həyatını Azərbaycanın müstəqilliyi, milli varlığımızın qorunması və bəşəri dəyərlər səviyyəsinə yüksəldilməsi işinə sərf etmiş M.Ə.Rəsulzadənin təvəllüd gününün ilk dəfə öz doğma vətənində qeyd edilməsi ictimaiyyət tərəfindən rəğbətlə qarşılandı. Buna hamımız sevindik. Axı, süni surətdə, hətta tarixi şəxsiyyətlərin də "qarşıdurmasını" yaratmaq milli birlik və həmrəyliyə ziyan vura biləcək hərəkətlərdir.

Lakin rəsmi dövlət qəzetində özlərinə yuva salmış meydan qızışdıranlar bu dəfə də heç bir əxlaqi-mənəvi əndazəyə sığışmayan üsülla əl atdılar. Fevralın 3-də "Azərbaycan" qəzetində M.Ə.Rəsulzadə ilə bağlı bir-birini inkar edən iki iri yazı - M.Ə.Rəsulzadənin anadan olmasının 110 illiyinə həsr olunmuş yubiley gecəsində Azərbaycan Respublikası Baş nazirinin müavini Elçin Əfəndiyevin məruzəsi və mütəxəssis tarixçilər üçün kimliyi bəlli olmayan Namiq Fərəc Sığırlı adlı birisinin "Eks prezident Ə.Elçibəy cənablarına açıq məktubu" dərc olundu.

Əgər səriştəsiz, mövzu ilə əlaqədar ədəbiyyatdan və tarixi həqiqətlərdən uzaq olan məktub sahibinin cızmaqarası məsləki və sahibi bəlli olmayan qəzetciklərdə dərc olunsaydı, ona baş qoşmağa dəyməzdi. Lakin Ali Sovetin orqanı olan rəsmi dövlət qəzetində, həm də məlum rəsmi sənədlərdən və yubiley şənliklərindən sonra belə bir məkrli yazının dərc olunması M.Ə.Rəsulzadə irsinə, şəxsiyyətinə qarşı köhnə kin-küdurətin yaşadığından və yenidan dirçəldilmək meylindən və təhlükəsindən xəbər verir. **Bu ciddi məsələdir, yalan və böhtanı isə cavabsız qoymaq olmaz.**

Sığırlı öncə M.Ə.Rəsulzadəni **"ziddiyyətlərlə dolu həyat sürmüş bir xadim, "müxtəlif cərəyanlar içində bulunmuş", "sərgüzəştlərlə mali bir həyat yaşamışdır, firqəyi-siyasiyyəni təmsil etmiş"** adam kimi təqdim etməyə cəhd göstərir. Həm də inandırıcılıq üçün Ə.Hüseynzadəyə istinad edir. M.Ə.Rəsulzadənin 1920-1922-ci illərdə Moskva sürgünü dövründə yazdığı və 1923-cü ildə İstanbulda nəşr etdirdiyi "Azərbaycan cümhuriyyəti" əsərinə Hüseynzadənin əvvəlcədən yazdığı və adı çəkilən kitabda verilmiş rəyindən bir "ittiham çələngi" düzəltmək istəyir. Əvvəla, M.Ə.Rəsulzadə **"ziddiyyətlərlə dolu həyat sürmüş bir xadim"** deyildir. Bu, müəllifin kimlərəsə xoş gəlmək üçün uydurduğu məkrli yalan və böhtandır. 40 ilə yaxın bir müddətdə M.Ə.Rəsulzadəni tanıyan, onunla inqilab və milli istiqlal mücadiləsi məktəbi keçmiş İranın məşhur ictimai-siyasi xadimi S.H.Tağızadə yazmışdır: **"Rəsulzadəni tanıyanlar onu böyük inqilabçı, Şərqin mütəfəkkir və ağıllı, hətta bənzəri olmayan bir şəxsiyyət kimi tərif ediblər. Məlumatı çox, istidlalda (nəticə çıxartmaqda) qüdrətli, hövsələli və hər məsələdən intiqad edəndə (danışanda) insaflı olub, demək olar ki, tamam ömründə bir dəfə də yalan danışmamışdır. Həmişə sabitqədəm olmuşdur".**

Görünür, Sığırlı Ə.Hüseynzadənin M.Ə.Rəsulzadəyə müraciətlə **"Siz sərgüzəştlərlə mali (dolğun) bir həyat yaşadınız!"** sözlərinin mənasını ya anlamayıb, yaxud bilərəkdən təhrif edir. Axı, **"sərgüzəştlərlə mali bir həyat"** dedikdə söhbət macəralı, ziddiyyətli həyatdan getmir, söhbət **"fəal bir mücahidlik"**, təqib, təhdid və başına gətirilən əhvalat və hadisələrdən gedir.

Sığırlı Ə.Hüseynzadənin **"Siz Azərbaycanda bir tərəfi, bir firqəyi, bir firqəyi-siyasiyyəni təmsil ediyorsunuz"** sözlərindən bərk yapışıb M.Ə.Rəsulzadəni ümummilli zəmindən qopartmağa təşəbbüs edir, onu istiqlal hərəkatının digər xadimləri ilə qarşı-qarşıya qoymağa cəhd göstərir. Lakin digər siyasi firqə və qüvvələrin kimlərdən ibarət olduğunu, nə istədiklərini, kimlərə və nəyə qulluq etdiklərini açıqlamır. Halbuki, bu sualların cavabı elə "Azərbaycan cümhuriyyəti" kitabına M.Ə.Rəsulzadənin yazdığı "Müqəddimə"də vardır. Bu hər şeydən əvvəl, Azərbaycanın müstəqilliyinə, istiqlal məfkurəsinə, müsa-

vatçılığa balta çalanlar, onu yenidən imperiya boyunduruğuna çəkən bolşeviklər, Azərbaycan Kommunist Partiyası idi. Təəssüf ki, 20-ci illərin əvvəllərində Ə.Hüseynzadə kimi bir mütəfəkkir belə gəlişi gözəl şüarlara, müstəqil Sovet Azərbaycanı barədəki yalanlara uymuşdu. M.Ə.Rəsulzadə məhz belələrini nəzərdə tutaraq 1923-cü ildə adı çəkilən kitabında yazırdı: **"Milli Azərbaycan ilə şimdiki Azərbaycan arasındakı fərqi bir çoxları idrak etmiyorlar. Azərbaycanın müstəqil ikən get-gedə bütün hüququnu Rusiyaya nədən tərk edildiyini, azərbaycanlıların buna nə üçün razı olduqlarını soranlara rast gəldik. Bolşeviklərin Azərbaycan milləti tərəfindən çağırılmış olduqlarına inananlar var. Bolşeviklərə qarşı çıxarılan üsyanlar nasıl anlaşılmış, nasıl tələqqi (qiymətləndirmə) edilmişdi. Bu da pək fəci (faciəli) bir hekayə. Bolşevik idarəsində bulunan Azərbaycanı məsud görənlər də yox deyil. Xülasə cəhlidən müqəvvəllid (bilməməzlikdən hasil olan) bir çox süi təfəhhümlər, yanlış təsəvvürlər..."** Sonra **"Vətənim, Azərbaycan xalqı dəxi bolşevik istilası altında inləməkdə ikən Türkiyənin möcüzeyi-zəfərini mənimsəməklə sevinmişdir"**.

Tarixi hadisələrin və şəxsiyyətlərin qiymətini **"qələm pəhləvanları"** deyil, zaman özü verir. M.Ə.Rəsulzadənin müdafiə etdiyi **"bir tərəf"** bütöv Azərbaycan, onun xalqı, istiqlaliyyəti, gələcəyi idi.

Müəllif iddia edir ki, "Azərbaycançılıq məfkurəsini" Məmməd Əmin deyil, M.F.Axundov, H.Zərdabi, M.Şaxtaxtinski, Mirzə Cəlil yaratmışdır. **Əvvəla,** biz Azərbaycanın işıqlı adamlarının qarşı-qarşıya qoyulmasını yolverilməz hesab edirik. **Daha sonra** isə milləti yaşatmaqla, milli ideologiya yaratmaq arasındakı fərqi gərək dərk edəsən. Q.Zakir də, M.P.Vaqif də, M.F.Axundov da, H.Zərdabi də, M.Şahtaxtinski də, Mirzə Cəlil də, M.Ə.Sabir də və onlarca digər tanınmış ədib və şairlərimiz, publisistlərimiz millətin, xalqın ruhunu, mənəviyyatını yaşadan şəxslərdir. Dövləti olmayan millətin mövcudluğunun başlıca təminatı tarixi yaddaş, dil və ədəbiyyatdır. Yəni bu adamların böyük xidmətləri ondadır ki, onlar milləti ölməyə qoymadılar, bu böyük xəzinə zəminində tarix səhnəsinə çıxmış Məmməd Əminin böyüklüyü ondadır ki, o, millətə qurtuluş yolunu göstərdi. Azərbaycançılıq da daxil olmaqla bitkin bir istiqlal məfkurəsi, milli bir ideologiya yaratdı. Başçılıq etdiyi Milli Şura tərəfindən Azərbaycan Xalq Cümhuriyyəti elan edilməklə **"Azərbaycan kəlməsi sadə coğrafi, etnoqrafik və linqvistik bir kəlmə olmaqdan çıxaraq siyasi bir aləm oldu" ("İstiqlal" qəzeti, 28 may, 1933).**

Bayraq məsələsini də Sığırlı çox qarışdırır. Gərək bu məsələdən



söhbət açanda "bitərəf demokrat" unutmayaydı ki, üç rəngli, ay ulduzlu bayraq indi bizim parlament tərəfindən təsdiq edilmiş dövlət simvolumuzdur və onu təhqir etməyə, onun haqqında cəfəngiyyat danışmağa heç kəsin haqqı yoxdur. Buna "Azərbaycan" qəzeti icazə versə də, dövlət simvolları və rəmzləri haqda qanun icazə vermir. Tarixi həqiqətə gəldikdə isə Sığırlının **"Azərbaycanın istiqlal bayraqları daim birrəngli olmuşdur"** fikri yanlışdır və yanlış olduğu qədər də məkrlidir. Gərək ki, əlinə qələm alan hər kəs bilməmiş deyildir ki, qırmızı bez deyəndə hansı bayraq nəzərdə tutulur və bunun qırmızı türk bayrağına və eləcə də bayrağı qırmızı olan digər xalqlara qətiyyən dəxli yoxdur. Bayrağı rənglərlə qiymətləndirmək məsələni çox bəsitləşdirmək deməkdir. Bayraq elə bir dövlət simvoludur ki, orda millətin keçmiş tarixi deyil, gələcək inkişaf perspektivləri, yəni taleyi də təcəlla tapmalıdır. M.Ə.Rəsulzadə yazırdı: **"Yüz illik əsarət dərsi ilə iki illik hürriyyət qovğası bizi özümüzə tanıtdı. Birlik və istiqlaliyyətimizin işarəsi olaraq əlimizdə türklüyümüzü, müsəlmançılığımızı və çağdaş bir xalq olduğumuzu göstərən istiqlal bayrağı vardı... Yazıqlar olsun ki, ...canımız və malımız qorxusundan bu istiqlal bayrağını bir bezə dəyişdirdik"**. Bax bu bez qırmızı da ola bilərdi, sarı da, göy də və s. Lakin bizim bəxtimizə onun qırmızısı düşmüşdü. Digər tərəfdən "Difai"nin gizli hərbi birləşdirməsi tərəfindən Gəncədə ilk müstəqil Azərbaycan cümhuriyyətinin "Difai"-nin gizli hərbi birləşmələrinin əldə etdiyi istiqlaliyyət nəticəsində elan edildiyini yazmaq və belə yazını nəşr etmək bisavadlıqdan başqa bir şey deyildir. Azərbaycan cümhuriyyəti hökuməti öz qərarı ilə 1918-ci ilin iyun ayının 21-də dövlət bayrağı haqqında qərar qəbul etdi. Bu qırmızı rəngli, ağ ay ulduzlu bayraqdan ibarət idi. Bu bayraq 1918-ci ilin 9 noyabrına qədər simvol kimi qaldı. Lakin bu məsələ tarixilik, millilik, müasirlik baxımından ətraflı şəkildə öyrənilərək, 1918-ci ildə noyabr ayının 9-da Azərbaycan cümhuriyyətinin dövlət bayrağı haqda hökumət qərarı elan edildi. Yəni hələ Sığırlının general Tomsonun ayaqları altına atdığı qırmızı rəngli Azərbaycan bayrağı Tomson Bakıya gəlməmişdən bir həftə əvvəl göy, qırmızı və yaşıl rəngli, üzərində aypara və səkkizbucaqlı ulduz işarəsi olan üç rəngli dövlət bayrağı ilə əvəz edilmişdi. Az sonra Azərbaycan parlamenti də bu bayrağı dövlət simvolu kimi təsdiq etdi. **(Bax: Azərb.Resp. MDUTA f.895, s.1. iş 14. v.78).** O ki, qaldı, Sığırlının "al bayraq" haqqında Ə.Cavadın eyni adlı şerinə istinad etməsinə, burada da "müəllif saxtakarlığa yol verib. Hər halda heç kəsin rəngləri öz istədiyi kimi yazmağa haqqı çatmır və "al" ifadəsi "parlaqlıq" mənasını daşıyır. Al qırmızı da ola bilər, al yaşıl da, al mavi də.

Yəni hər bir rəngin parlağı da var, tutqunu da. Azərbaycan bayrağında hər üç rəngin parlaq çalarından istifadə edildiyi üçün bir sıra yazılarda buna al bayraq da deyirlər. Və Əhməd Cavad da 1919-cu ilin iyulunda yazdığı "Al bayraq" deyəndə məhz bunu nəzərdə tuturdu. Əgər Sığırlı zəhmət çəkib Ə.Cavadın "Al Bayraq" şerindən 3 ay əvvəl 1919-cu ilin aprelində yazdığı "Azərbaycan bayrağına" adlı şerini oxusaydı, böyük istiqlal şairimizi öz saxta fikirlərinə şərik etməyə cəhd göstərməzdi. Ə.Cavad 1919-cu ilin aprelində yazırdı:

***Türküstan yelləri öpüb alnını,***
***Söyləyir dərdini sana, bayrağım!***
***Üç rəngin əksini quzğun dənizdən,***
***Ərmağan yollasın, yara bayrağım!***

Rəsulzadə bayrağında qüsur axtarmaqla "müəllif" və onun arxasında duranlar nə demək istəyirlər? Bunun arxasında gizlənən təsəvvüf imperiyasına yarınmaq həvəsidir və bizi narahat edən budur.

Sığırlı yoldaş V.Çıraqzadənin kitabından yekə bir iqtibas gətirməklə sübut etmək istəyir ki, "istiqlal bəyannaməsini" elan edənlər arasında M.Ə.Rəsulzadənin adı yoxdursa, deməli, Xalq Cümhuriyyətinin yaradıcısı kimi onu qəbul etmək olmaz. O yazır: **"Göründüyü kimi, məhz "Məmmədəmin Rəsulzadə" adı bu tarixi qətnamənin mətnindən kənarda qalmışdır. Bunu bilərək, indi məhz Məmmədəmini milli istiqlal hərəkatımızın şəriksiz liderinə çevirmək nə dərəcədə insaflıdır?"**

Bizə belə gəlir ki, tarixə nəbələdliklə yanaşı, hələ bir çoxumuzun təfəkkürü Rəsulzadənin milli istiqlal ideologiyasını dərk etmək səviyyəsindən çox uzaq olması da bu məsələdə az rol oynamır. Sığırlı zəhmət çəkib M.Ə.Rəsulzadənin nəzəri irsini və əməli fəaliyyətini öyrənsəydi, liderlə onu əhatə edənlərin arasındakı fərqi özü üçün ayırd edərdi. O ki, qaldı, M.Ə.Rəsulzadənin adının İstiqlal bəyannaməsində olmamasına, tarixdən məlumdur ki, hadisələrin gedişini əvvəlcədən görən M.Ə.Rəsulzadə bu ərəfədə istiqlal bəyannaməsini imzalayan şəxslərin təkidilə nüfuzlu bir siyasi xadim kimi, Osmanlı imperatorluğu ilə Batumda danışıqlar aparırdı. 1918-ci il iyun ayının 4-də bəyannamədən 6 gün sonra M.H.Hacınski ilə birlikdə M.Ə.Rəsulzadə Azərbaycan Cümhuriyyəti adından Batum müqaviləsinə imza atdı. Bu müqavilə əsasında alınan əsgəri yardımın Azərbaycan xalqının taleyində necə böyük rol oynadığı, Azərbaycanın azad edilməsində nə kimi faydalı bir iş olduğu danılmaz həqiqətdir.



Əgər Sığırlının, "Azərbaycan" qəzetinin və bəzi dairələrin Ə.Elçibəylə ədavəti varsa, bunun üçün M.Ə.Rəsulzadəyə hücum çəkməyə, onun ruhuna toxunmağa haqqı yoxdur.

M.Ə.Rəsulzadə Azərbaycan milli ideologiyasının böyük yaradıcısı, milli hərəkatımızın fədakar öndəri olmuşdur. Gəlin tarixi şəxsiyyətlərimizi müasir siyasi oyunlara cəlb etməyək.

**Bəxtiyar Vahabzadə,**
**Şirməmməd Hüseynov,**
**Cəmil Həsənov.**

***"Aydınlıq" qəzeti, 25 fevral 1994***

Şərhçinin qeydləri

## SƏFƏRLƏR BARƏDƏ DÜŞÜNCƏLƏR

Müstəqil Azərbaycan böyük faciə və çətinliklərlə də olsa, beynəlxalq siyasət meydanına ayaq açır. Bu meydanı tanıyan, orada az-çox tanınan təcrübəli və səriştəli bir siyasət və dövlət adamının respublikanı təmsil etməsinin əhəmiyyəti şübhəsiz böyükdür. Respublika prezidentinin Moskva və Aşqabaddan sonra Fransa, Türkiyə, İngiltərə və indi Çin Xalq Respublikasına səfərləri gənc respublikanın qarşısında duran mühüm problemlərin həllinə yəqin ki, bu və ya digər cəhətdən müsbət təsir göstərəcəkdir.

Lakin xarici səfərlərdən möcüzə gözləmək də sadəlövhlük olardı. Milli dövlətimizin taleyi hər şeydən öncə onu yaşatmaq və qoruya bilmək qabiliyyətimizdən, bacarığımızdan, bütün xalqın və hər birimizin gərgin əməyi və şəxsi səyindən, birlik və vəhdətindən asılı olacaqdır. Bu həqiqəti dərk etmək vaxtıdır. Mənco indi əsas məsələ budur. Qələm pəhləvanlarının eyforiyası ilə problemlər həll olunsaydı nə vardı ki?!

Müstəqil Azərbaycanın iqtisadi və dövlət mexanizmi yenidən qurulmalıdır. Bu tarixi vəzifəni kimlərə etibar edək ki, yeni dövlət siyasəti və mexanizmini elmi əsaslar üzərində sistemli şəkildə, müasir səviyyədə yaradıb hərəkətə gətirmək işinə girişsinlər. Xaricə işgüzar səfərlərə, görüşlərə, danışıqlara gedənlər əksərən sosialist iqtisadi və dünyagörüşü məktəbi keçmiş adamlardır. Onların bir qismının əlifba

öyrənməyə, təfəkkür və düşüncə tərzini yenidən dəyişməyə imkanları, həvəsləri və bacarıqları olacaqmı?

Bazar iqtisadiyyatı, qanunun üstünlüyü zəminində demokratik dövlətçilik xüsusi mənəvi-əxlaqi keyfiyyətlər, ciddi qayda-qanun, nizam-intizam, işgüzarlıq tələb edir. Bunlar qısa müddətli iş olmasa da bu yolda heç olmazsa yuxarıdan real addımlar atılmalıdır. Şəxsi sədaqət və digər neqativ hallarla düzəldilən rəhbər dövlət aparatı qiymətli olan vaxtı itirmək demək olacaqdır. Tarixi həqiqətdən uzaqlaşdırmağa, elmi saxta vətənpərvərliyin quluna, vəzifəni varlanmaq vasitəsinə çevirməyə cəhd göstərənlərdən xalqa fayda olmayacaq.

Qərbdən və Şərqdən öyrənəsi şeylər çoxdur. Dünya gör-götür dünyasıdır. Fəda olmamış xalqdan qədr görmək istəyənlər yanılırlar. Vaxtilə böyük mücahidimiz Həsənbəy Zərdabi milli adət və təfəkkür tərzimizdə müşahidə etdiyi, tərəqqi və inkişafımıza maneçilik törədən bəla barədə yazırdı:

**"Əgərçi bizlərdə adətdir ki, ümurat əhlini (vəzifə sahibini) üzünə tərif edib, dalda qeybət edərlər və ümuratdan çıxanda ol kəs hamının yadından çıxar, amma Avropa vilayətlərində bu adət yoxdur. Onlar elm sahibləridir və elm yolu ilə hər kəs insandır və insanlığın əvvəlinci şərti insaf, doğruçuluq və əldən gəldikcə qeyrilərə yaxşılıq eləməkdir. Belədə ümurat əhli yaxşılıq elədiyinə onu tərif etmək Avropa qaydasına namüvafiqdir. Lakin Avropa vilayətlərində bir adət var ki, ondan biz bixəbərik. Onlarda bir kəs elm yolu ilə ümuratı dolandırmaqlıq ilə millət işlərinə rövnəq verə və millətin irəli getməyinə bais ola, ol kəs üçün yadigarlıqlar binə edib onun millət işlərinə elədiyi yaxşılıqları yazıb, məlum edirlər ki, onun ismi tarixlərə düşüb baqi olsun" (Əkinçi", N12, 25 iyun 1876).**

***"Aydınlıq" qəzeti, 11 mart 1994***





## 1918-Cİ İLİN MART-APREL FACİƏLƏRİ

"Tarix" və "elm" birləşəndə keçmişin həqiqət qapıları açılır, haradan gəldiyimiz məsələsi dəqiq müəyyənləşir, milli dəyərlər bütün cəhətləri və ziddiyyətlərilə üzə çıxır, qanunauyğun, obyektiv və subyektiv faktorlar göz önündə canlanır, səhvlər və nöqsanların mahiyyəti və təbiəti üzə çıxır. Əks təqdirdə, yəni tarixə elmdən ayrılanda peşəkarlar meydandan çəkilir, həvəskarlar, alimşünaslar tarixi istədikləri kimi, istədikləri yerə və səmtə yönəltməyə, şərh etməyə başlayırlar. İndi də vəziyyət bir növ belədir. Həvəskarlar və məzhəbi bəlli olmayanlar qollarını çırmayıb tarixə girişmişlər. Bürokratlar iqtisadiyyata girişib dövlət mülkiyyətini, maddi nemətləri dağıdıb sahibkarlıq sövdasına düşən kimi, onlar da bu yolla işbazlıq edib, yarınıb vəzifə və mənsəb sahibi olmaq istəyirlər. Siyasi oyun təcrübəsi və vərdişindən bixəbər məxluqun isə başı bir qarın çörəyə qarışıb. Qısası: faciə-faciə üstündən gəlir. Söz, ümid və vədə verən nə qədər desən, can-başla, fədakarlıqla, əqidə və məsləklə iş görən isə barmaqla sayıla bilər. Əsri xəstəliklər Azərbaycanı bu vəziyyətə salmışdır. Bizim tarixi yaddaşsızlığımızı, sadəlövhlüyümüzü, nəfsimizin itiliyini, mənzilimizi vətən, qohum, qardaş, əqrəba və bəzən də yerlilərimizi millət saydığımızı gözəl bilən və görən, bizi bir millət kimi zəif salıb, torpaqsız və vətənsiz etməyi qarşısına məqsəd qoymuş ermənilər və onların şimaldan olan müttəfiqləri isə öz "işlərini" görürlər. Bir əsrdə bir xalqın, bir məmləkətin başına nə qədər faciə, nə qədər müsibət gətirmək olar?

76 il bundan əvvəl, 1918-ci il martın sonu və aprelin əvvəllərində erməni-daşnak hərbi birləşmələri və imperiya ruhlu sovet qoşunları Bakıda və Zaqafqaziyada müsəlmanların yaşadıqları şəhər və kəndlərdə kütləvi qırğın siyasəti, əsil genosid həyata keçirməyə başlamışdılar. Bu barədə son illər ötəri olsa da yazılıb, ancaq onların təsir gücünü, çıxarılan nəticə və dərsin miqyasını ölçmək çətindir. Mən 76 il əvvəl, ölüm-dirim faciəsini yaşamış tarixi şəxsiyyətlərimizin və mətbuatın dili ilə o dəhşətli günləri oxucunun gözləri qarşısına canlandırmaq məqsədilə aşağıdakı yazını redaksiyaya təqdim edirəm.

*"Bakı şəhəri İslam ordusu tərəfindən alınmamış olsaydı və Bakı Quberniyası, şəhər ilə bərabər, allah göstərməsin, "sovetlər" əlində qalsaydı, bilirsinizmi binəva müsəlmanların başına nələr gələrdi? "hürriyyətpərəst"lərin "idareyi-anarşiyə"si altında həqarət, rəzalət, əziyyət, zülm və sitəm ki: məhz müsəlmanlara rəva görülən "mərhəmət"lərin bərəkətindən zənn etmirəm ki, Bakıda müsəlman naminə bir kəs qalmış ola idi.*

*Bir tərəfdən "sovetlər" başında olan "sosialist"lərin idarə işində göstərdikləri cəhaləti, digər tərəfdən həmin "sosialistlər"i əllərində oyuncaq aləti-məsğərə etmiş olan hiyləgər və xunxar (qan içən) daşnakların ibraz etdikləri fitnə və vəhşətanəti qalmamışdı. Şükürlər olsun bizi yaradan xaliqə ki: "hökumət siyasətiyyəsi" qətl və qarətdən idarət olan bu mənhus idarənin təhəmmülfərsa (dözülməz) ömrü ümumbakı müsəlmanlarının məhv və tələf olacağı müddət uzun çəkməyib qəhrəman islam ordusunun qılıncı ilə kəsildi və Bakı müsəlmanları azad edildi.*

*Bakı ilə bərabər Bakı quberniyasında olan Quba, Göyçay, Salyan və bədəz xərabi bəsrə" olsa da Şamaxı dəxi cahil müstəbid "hürriyyətpərəstlər"-in və erməni makiavellərinin (hiylə və böhtançılarının) pençəyi-zülmanələrindən xilas edilmək üzrə xoşbəqt (şad) və xoşbəxt oldular".*

***"Azərbaycan", 1 yanvar 1919***

**"Aydınlıq", 26 mart 1994**

## İNAM AZALIR, NARAZILIQ ARTIR. NİYƏ?

Rusiya Federasiyasının rəhbər dairələrində, xüsusilə Dövlət Dumasında Rusiyanın geosiyasi və geoiqtisadi strateji mənafelərindən, keçmiş SSRİ sərhədlərinin az qala Rusiya Federasiyasının strateji dövlət sərhədləri kimi qələmə verilməsindən açıqca söhbət edilir. Ötən həftə Dövlət Dumasında Liberal Demokrat Partiyası - Jirinovskiçilərin çoxluq təşkil etdikləri Geopolitika Komitəsinin iclasında məhz belə bir qərar qəbul edilmişdir. Komitəyə başçılıq edən LDP-çi general Ustinov jurnalistlərə açıqca bildirmişdir ki, nəyin bahasına olursa-olsun Rusiyanın imperiya torpaqları özünə qaytarılmalıdır. Dəlil isə bu olub ki, həmin torpaqlarda, yəni indiki müstəqil dövlətlərdə yaşayan xalqlar Rusiyasız yaşaya və keçinə bilməzlər.



Xarici müşahidəçilər bu xəttin müxtəlif bəhanələrlə yavaş-yavaş həyata keçirilməyə başladığını qeyd edirlər. Məsələn, Rusiya Ukraynadan enerji daşıyıcıları, qaz və neft məhsulları üçün külli miqdarda dollar tələb edir. Hətta Rusiya tərəfdarı, Ukraynanın keçmiş baş naziri Leonid Kuçma "Nezavisimaya qazeta"nın 23 mart tarixli nömrəsində bununla əlaqədar yazır ki, "70-ci illərdə Ukrayna Qərbi Sibirdə neft-qaz kompleksinin inkişafına təminən 100 milyard valyuta-rubl vəsait qoymuş, həmin rayona 500 minə yaxın işçi qüvvəsi göndərmişdi. İndi də Tümendə neft və qazı əsasən onlar çıxarırlar". Bundan başqa, sərt qış şəraitində Ukraynanı yanacaqsız qoymağı Rusiyada iqtisadiyyatı siyasətə döndərmək meylinin təzahürü hesab etmək doğru olmazmı?

Təzyiqin digər vasitəsi müstəqil dövlətlər daxilində separatçı meylərin gücləndirilməsi, onların müxtəlif yollarla dəstəklənməsidir. Bu sahədə ilk sınaq meydanına çevrilən Azərbaycan göz qarşısındadır. Dağlıq Qarabağ ermənilərinə, Ermənistana himayədarlıq edənlərin, silahlandırıb müstəqil Azərbaycanın üstünə salanların kimlər olduğu məgər sirdir? İndi Tacikistan, Gürcüstan, Azərbaycan od içindədir, Ukrayna, Moldova, Qazaxıstan, Pribaltika çalxalanır, elə Şimali Qafqazda da dinclik yoxdur.

Bununla əlaqədar, Rusiya Federasiyasının xarici işlər naziri Andrey Kozırevin ötən həftə verdiyi bəyanatları xaricdə təşviş və həyəcan hissini artırmışdır. Əgər əvvəllər Rusiya hərbçiləri ölçülüb-biçilməmiş, bir-birini təkzib edən ziddiyyətli, əslində hadisələrin məcrasını geriyə döndərməyə yönəldilmiş bəyanatlar və tələblər irəli sürürdülərsə, bu dəfə mülayim simalı Kozırev başqa bir dil və görkəmdə çıxış etməyə başlamışdır. "İzvestiya" qəzeti martın 22-də xarici işlər nazirinin "Nyu-York Taymz" qəzetində dərc olunmuş amerikalılara müraciətlə "Siz bizi qorxuda bilməzsiniz?!" sərlövhəli məqaləsinə xüsusi şərh vermişdir. "Rusiya demokratları dövlət şovinizminə tərəf meyl etməyə başlamışlar" - şərhin qısa nəticəsi belədir.

Nəhayət, "Azadlıq" radiosu xəbər verir ki, keçən həftə ABŞ senatı Rusiya Federasiyasının keçmiş SSRİ - indi BMT-nin üzvü olan müstəqil dövlətlərə qarşı müxtəlif bəhanələr altında siyasi, iqtisadi, hətta hərbi təzyiqinin artdığını qeyd edərək, Rusiyanın bu müstəqil dövlətlər üzərində hər hansı bir formada əlahiddə, hüquq, nəzarət və səlahiyyətini tanımadığını bildirmişdir.

Xülasə, ötən həftə belə bir sual doğurdu: Rusiyanın müəyyən dairələrinə yoluxmuş Jirinovski ruhu görəsən siyasi atmosferi uzun müddətmi korlamaqda davam edəcək?

***"Səhər" qəzeti, 29.3.94.***

## "İNQİLABİ ŞILTAQLIQ", YOXSA "YALANÇI PƏHLƏVANLIQ"

Hörmətli Mahal İsmayıloğlu! Çox sevinirəm ki, sənin "Aydınlıq" qəzeti səhifələrində ürək yanğısı, vətəndaşlıq qeyrəti və cəsarəti, sənətkar məsuliyyətilə yazdığın məqalələr böyük diqqət və maraqla oxunur, geniş əks-səda verir. Şükür edirəm ki, Azərbaycan jurnalistikası və publisistikasının xalqa, vətənə, həyat həqiqətlərinə bağlılıq ənənələri sənin kimi qələm sahiblərinin qanında, canında, ruhunda və əməlində yaşayır.

Tariximizin tufanlı və faciəli anlarında zəngin ədəbi xəzinəmizdən adda-budda parçalar əzbərləyən "qələm, mürəkkəb və kağızı müftə olan", "cəfəngiyyat yazan və danışan", "gözbağlıcalıq hiyləsilə ortaya atılan", "zatında elm və mərifətdən əsər olmayan" öz məkrli məqsədlərinə çatmaq üçün avam camaatın gözünə kül üfürən "yalançı millət pəhləvanları" həmişə olmuşdur, indi də var. Milli müqəddəslərimizdən olan Üzeyir Hacıbəyov vaxtilə "İrşad" qəzeti səhifələrində "ad-san qazanmaq üçün camaat işinə qatışıb böyük bir məsələni qalxızmaq və o məsələ yerindən qalxıb fil boyda olanda qorxudan siçana dönüb dəşiyə girən" və sonra yenidən üzə çıxan yalançı millət pəhləvanlarını amansızcasına ifşa edərək yazırdı: **"Bu yalançı pəhləvanlar yalançı pəhləvanlığı nədən ötrü eləyirlər!"**. Cavab verirdi ki, əvvəla **"bundan ötrü ki, camaat içində ad-san qazansınlar"**. Digər tərəfdən **"hakimlərin nəzərində ucalsınlar"** xalqı **"ay camaat hürriyyət filan istəməyin, qoyun hakimlər, filanlar sizi həmişəki kimi soysunlar!"**. Həm də bələləri üçün **"rüşvət almaq, xalqı aldatmaq, camaatın başını qırıb-cibini soymaq adəti bir işdir ki, yatıb-durmaq, yeyib-içməklə onların arasında heç bir təfavütü yoxdur"**, çünki, bələlərinin həyat fəlsəfəsi **"uyma dünyaya ey dili qafil!"**-dir.

Üzeyirbəy ürəkağrısı ilə yazırdı ki, "haqqın əl və ayağını yerdəngöydən üzən" belə ünsürlər yazıq milləti həqiqət yolundan sapdırır. Məhz buna görədir ki, **"bizim öz qüdrətimizə etiqadımız yoxdur. Varmışsa da itib", "biz cürət sahibi olduğumuzu meydana çıxara bilmirik, bizdə cürət də ölübdür", "bizi saxlayan tək bizim bəsələtimizdir ki, o da yavaş-yavaş itər və yox olar".**

Bəs "yalançı pəhləvanlar" millətə nə qazandıra bilərlər? - sualına Üzeyirbəy açıqca cavab verir ki, "acizlik", "ümidsizlik", "cürətsizlik", "yaltaqlıq" və "fəlakət".



**"Bu tövr ilə ad-san qazanmaq olmaz. Biabır olmaq olar"** - böyük qeyrət və məslək sahibi Üzeyir bəyin "yalançı pəhləvanlara" qəti sözü belə idi.

Tarixdən kül götürüb gözlərə üfürmək yox, ibrət dərsi götürüb xalqı fəlakət və faciələrdən xilas etmək vaxtıdır. "İnqilabi şıltaqlıq", "yalançı pəhləvanlıq", "saqqallı uşaqlıq" və ərköyünlük dövrü qurtarmayınca başımızın üstündən kəsif qara duman da əskik olmayacaq. Bunu yuxarılar da, aşağılar da nə qədər tez dərk etsələr, faciələrin miqyası da bir o qədər tez daralar, xalq özünə gələr, gələcəyinə sahib çıxar.

*"Aydınlıq" qəzeti,*
*15 aprel 1994.*

## "BİR OVUC" NƏ VAXT "BİR ORDU" OLACAQ!

**"İçimizdə bir ovuc millət qədrini bilən, öz milliyyətini sevən adamlarımız varsa da, bunların bu yoldakı səy və zəhmətləri ancaq özlərinə qalır", bəs millətin yerdə qalan əksəriyyəti necə olub! Bunlar da əsasən üç qismə bölünüblər, "bu tərəf puç, o tərəf bərbad, yerdə qalanlar da bisavad", "nə o tərəfdə qeyrətimilliyə var, nə bu tərəfdə! Millət və milliyyət nə olduğunu o tərəf anlamır, bu tərəf də anlamaq istəmir".**

**Hörmətli oxucular, 84 il bundan əvvəl - 1910-cu il yanvarın 14-də "həqiqət" qəzeti səhifələrində 25 yaşlı Üzeyir Hacıbəyovun ictimai-siyasi vəziyyətimizə verdiyi qiymət belə idi.**

**Gənc millət fədaisi çıxış yolunu nədə görürdü! Nə etməli! Nədən başlamalı! - suallarına nə cavab verirdi!**

**Onun fikrincə, bəlanın kökü millətin başsızlığında, rəhbərsizliyindədir. Bəs millətə kim və kimlər rəhbərlik etməlidirlər. Bu da həyat-məmat məsələsi kimi qarşıda durur. Üzeyir bəyin bu barədəki düşüncələri "Rəhbərlərimiz" məqaləsində şərh olunub. Onunla tanışlıq faydasız olmaz.**

Üzeyir HACIBƏYOV

## RƏHBƏRLƏRİMİZ

Hər bir millətin təkamül və yaxud inqilab təriqilə tərəqqi və təmədd-ümünə səbəb, o millətin başında duran, rəhbəri olan bir və ya bir neçə tərəqqipərvər və təcəddüdxah firqələrinin olması tarixi bir həqiqətdir.

Haman firqələrdir ki, öz millətini müxtəlif yollar ilə irəli aparmaq yolunda ciddi-cəhd edib və böyük mərdanəlik və fəaliyyət göstərib, qabaqlarına çıxmaq və hər bir cürə mümaniətlər ilə mübarizə və mücahidə etməklə biləkərə öz məqsudlarına nail olublar.

Firəng olsun, nemes olsun, yapon olsun bu tayfalar hamısı, bugünkü tərəqqi, təmeddün və rifahi hal ilə asudə məişət keçirmələri də haman başlarında duran və onları təriqi-səadət və tərəqqiyə tuş edən firqeyi mücahidlərinə borcludurlar.

Firqeyi mücahidindən məqsudumuz bir neçə adamın, özlərini millət rəhbəri hesab edib tərəqqi etmək adı ilə bilib-bilmədikləri işlərə mübaşir (başçı) olmaq deyildir. Bəlkə hər kəs, milləti tərəqqi etdirəcək bir sənət, bir əmələ öz qəlbində bir şövq və həvəs hiss etdiyi surətdə haman əmələn dalınca düşüb, onu xalq arasında nəşr və təmim etmək (yaymaq), onunla xalqın ya ağlını və yaxud hissiyyati-aliyəsini nəşvünüma etdirməklə xalqa maddi və yaxud mənəvi bir xidmət göstərmək işində davam etməkdir.

İştə mütərəqqi və mütəməddin millətlərin dərəceyi-tərəqqinin ali payəsinə nail olub da bizlərə nisbət xoş gün keçirmələri öz kargün (işcil) adamları sayəsindədir.

Bu gün o millətlərin tərzi-məişəti də bizimkindən dəfələrcə xoşraqdır. Orada hər bir fərd mənafeyi-ümumiyyənin nədən ibarət olduğunu və bu mənafeyi-ümumiyyə ilə hər kəsin də mənfəəti-şəxsiyyəsi təmin edildiyini dürüst anlayıb əsil insana yaraşan bir tərzlə ömür sürürlər. Orada hər bir fərd, hər kim olursa-olsun, öz-özlüyündə öz tərzi məişətində onu təzyiq edə biləcək və onun hüququna və hürriyyəti-şəxsiyyəsinə xələl yetirəcək şeylər ilə müqəyyəd deyildir. Məgərin ki, bunun hürriyyəti şəxsiyyəsi başqaların hüquqi şəxsiyyəsinə təcavüzdən ibarət olmasın, bu isə onlar üçün heç bir qeyd olmuyub, bəlkə özləri arzu edən şeylərdəndir. Çünki özgənin hüququna toxunmaq, ya hürriyyəti-şəxsiyyəsinə əl atmağın böyük bir şərr və zərəri olduğunu hər bir fərd çox gözəl anlayır. Xülasə onlar hamısı birlikdə hər bir yaxşını təqdir və hər bir yamanı təkdir (töhmət) və təqbih etməyə (pisləməyə) qa-



dirdirlər. Yaxşı ilə yamanı da dürüst anlamaq üçün elm və sənaye sahəsində tərəqqi etmək lazımdır. Bu elm və sənayenin, yəni tərəqqi yolunun xalq üzərinə açılmasına da səbəb başçı firqələridir.

Lakin bizlərdə hələ elə rəhbərlər yoxdur, yox olmalarına səbəb ümum camaatımızı bürüyən, əhatə edən ətalət və kəsalət ilə bərabər, rəhbərliyə layiq olan şəxslərimizin məişətcə dar gün keçirmələridir.

Bu halda bizim hər bir fərdimiz öz tərəqqisi üçün bir rəhbərə möhtac olduğunu hiss edir. Lakin bu rəhbərlər öz rəhbərlik işlərinə ehtimal və diqqət ilə məşğul olmaq üçün məişətcə təmin olunmalıdırlar. Doğrudan da rəhbər olmaq istedadına haiz olan şəxslərimizin öz aramızda qədr və qiymətləri bilinməsə, onlar təmini məişət üçün başqa yerlərdə, başqa tayfalar içərisində və ya başqa bir yolda işləməyə başlayıb, fayda verə bilməzlər.

*"Həqiqət", N13, 18 yanvar, 1910.*

**"Aydınlıq" qəzeti, 6 may 1994.**

## ŞAHNAZARYAN RİYAKARLIQ PƏRDƏSİNİ AÇIR

"Azadlıq" radiostansiyasının rus redaksiyası mayın 11-də səhər informasiya proqramında belə bir məlumat verdi ki, Ermənistanın milli təhlükəsizlik naziri vəzifəsini icra edən Şahnazaryan Yerevan televiziyası ilə çıxışında ilk dəfə etiraf edib ki, Qarabağda xeyli könüllü Ermənistan vətəndaşı vuruşur. Şahnazaryan Rusiya və dünya ermənilərini Qarabağ uğrunda Azərbaycanla vuruşmaq üçün səfərbər olmağa, həmçinin işğal olunmuş Azərbaycan torpaqlarına köçməyə çağırmışdır.

Deyəsən, riyakarlıq pərdəsi açılır. Altı ildir ki, Azərbaycan haray çəkir ki, Ermənistan Respublikası müstəqil Azərbaycana qarşı müharibə aparır, məqsəd Azərbaycanın Dağlıq Qarabağ və Ermənistanla həmsərhəd rayonlarını silah gücünə işğal etməkdir. Çox təəssüf ki, bir tərəfdən Ermənistanın MDB-dəki havadarları, digər tərəfdən beynəlxalq təşkilatlarda onları açıq və gizli dəstəkləyənlər gün kimi aydın olan bu həqiqəti görmək istəmirdilər, üstünü vurmurdular. Strateji xətt bu idi ki, səriştəsiz, cahil, şöhrətpərəst avantüristlərin idarə etdikləri Azərbaycan daxili münaqişələr, milli toqquşmalar, iqtisadi-siyasi böhranlar və hərbi təzyiqlə diz çökdürüləcək və beləliklə də "məsələ həll" olunacaqdır.

İndi daş qayaya rast gəlməkdədir. Azərbaycan ordusu mərdliklə vuruşur və vuruşacaqdır. Əgər millət kimi məhv olmaq, torpaqlarımızı əldən vermək istəmiriksə, məhz belə olmalıdır. Başqa yol yoxdur. Məsələnin siyasi yolla həlli yolu da açıqdır. Azərbaycanın fəal, məqsədyönlü xarici siyasəti də riyakarlıq pərdəsinin qaldırılmasında böyük rol oynamışdır.

Ermənistan Azərbaycana qarşı total müharibə elan etmişdir. Tarix və dünya indi bizə baxır. Bu torpaqları bizə miras kimi təhvil vermiş əcdadlarımızın, vətən şəhidlərinin ruhu da başımızın üstündədir, qaçqın və didərgin, evsiz-eşiksiz ana-bacılarımızın, qoca və körpələrin nəzərləri kişi adı daşımağa layiq olanlara dikilmişdir. Ölüm-dirim məsələsi həll olunur. Vətən, ləyaqət, torpaq, namus, ya ölüm - məsələ belə durur. Hamılıqla ayağa qalxmaq, silaha sarılmaq vaxtıdır.

***"Aydınlıq" qəzeti, 13 may 1994.***

## İSTİQLAL DÜŞÜNCƏLƏRİ

Tariximizin və milli taleyimizin, yenicə qazanmaq istədiyimiz, faciələrlə müşayiət edilən istiqlaliyyətimizin üzərini qara buludlar almaqdadır. Xalqı birləşdirəcək mənəvi bağların zəifliyi, maddi imkanların hərraca qoyulması, vəzifə və hakimiyyət davasının istiqlal məfkurəsini üstələməsi, əvvəlcədən düşünülüb planlaşdırılmış, xaricdən dəstəklənən erməni təcavüzü, silahlı və iqtisadi təzyiqlər 1918-1920-ci illərdə olduğu kimi yenə Vətəni və xalqımızı çətin imtahan qarşısında qoymuşdur. Müstəqilliyin şüarçılıq və hay-küy dövrü qurtarmış, onu yaşatmaq, möhkəmləndirmək, ən əsası qorumaq mərhələsi başlanmışdır. Bu vəzifənin öhdəsindən gələ biləcəyikmi? Heç olmasa bu ölüm-dirim məqamında 76 il bundan qabaq qaldırılmış istiqlal bayrağı Vətənin namus və şərəfini yüksək tutan həqiqi mücahidləri, qüdrət sahiblərini birləşdirə biləcəkmi? Məsələ bundadır. Əks təqdirdə bizi XX əsrin yeni faciələri gözləyir. Azərbaycan belə faciələri vaxtilə də yaşayıb. Lakin gələcəyə olan ümid ziyası heç zaman sönməyib, Vətən mücahidsiz, torpaq fədaisiz qalmayıb.

Bəlkə bu çətin və məşəqqətli günlərimizdə bir də geriyə baxaq, əsrin ilk istiqlal imtahanını verən ata-babalarımızın nəsihətlərini, fikir və düşüncələrini yada salaq, oxuyaq, fikirləşək, iş görək!

***"Xalq qəzeti", 27 may 1994.***





## GÜNÜMÜZ SİYASİ İCMALÇILARIN GÖZÜ İLƏ

-Ümumiyyətlə, indiki ictimai-siyasi vəziyyətdən fələk də baş açа bilməz. Ancaq onu deyim ki, hazırda respublikamızda informasiya qıtlığı olduğundan xalq arasında haradasa bir inamsızlıq yaranmışdır. Yəni insanların mənəvi birliyi pozulmuşdur. Mənəvi birlik olmayan yerdə isə siyasi birlikdən söz də gedə bilməz. Hazırda bizdə həm iqtidar, həm də müxalifət tərəfindən birliyə quru və boş çağırış var, birləşməyə isə heç bir səy göstərilmir. Bu da bütün uğursuzluqlarımızın başlıca səbəbidir.

Hələ 1920-ci ildə Məmməd Əmin Rəsulzadə demişdir ki, "İstiqlal məfkurəsi milli dövlətçilik ruhu, milli ruh bütün millətin canına yox, yalnız bir dəstənin canına hopmuşdur. Ona görə də biz istiqlaliyyətimizi itirdik... Gərək bu milli ruh istiqlal məfkurəsi, milli dövlətçilik ruhu xalqın əksər hissəsinin canına, qanına hopmuş olsun ki, bu millət özünün milli dövlətini qura və müdafiə edib saxlaya bilsin".

Bilirsiniz, indi xalqın bir hissəsi İrana meyl edir, söz yox ki, islamçılıq baxımından. Digər bir hissə türkçülük baxımından Türkiyəyə meyl göstərir. Başqa bir hissə isə, bu əsasən köhnə partokratlardır ki, uzun illər rus hökmranlığı altında fəaliyyət göstəriblər. Rusiyaya meyl edirlər. Başqa bir hissə də Qərbə və Amerikaya üz tutur ki, bu da xalqın istər-istəməz mənəvi cəhətdən parçalanmasına gətirib çıxarır. Ona görə də nə qədər ki, bütün bunlar bizim milli ruhumuza tabe edilməyib, milli məfkurə hakim məfkurə olmayıb və bu məfkurə həyat tərzinə çevrilməyib, bizim işimiz çox çətin olacaq.

Bilirsiniz, millətin başı onun düşünən ziyalısı, onun siyasi mədəniyyət səviyyəsidir. O mədəniyyət səviyyəsi nə qədər ki, müasir tələblər səviyyəsinə, yəni millətі müstəqil yaşada biləcək, millətin bütün potensial gücünü bir yerə yığa biləcək səviyyədə deyil, bizim keçəcəyimiz yol cəhənnəm yolu olacaq.

Bir şeyi anlamaq lazımdır ki, zorla qələbə qazanmaq olmaz. Yəni biz indiki vəziyyətdə hərbi siyasi yolu rəhbər tutmalıyıq. Mən televiziyada Rəsul Quliyevlə Səyyad Ağbabalının söhbətinə qulaq asdım və məndə belə bir təsəvvür yarandı ki, bu çıxışın məqsədi milləti qorxutmaq idi. Təhlükə böyükdür söhbəti yoxdur. Rusiyanın erməni ilə bir-

ləşib bizə qarşı müharibə apardığı da açıq-aydın görünür. Burda heç bir gizli şey yoxdur. Qraçov müdafiə naziri kimi Yeltsin, Çernomırdin, Kozırev tərəfindən oynanılmış fiqurdur. Onlar özləri kənara çəkilib, müdafiə nazirini qabağa veriblər. O da bizimlə yumruqla danışır. Azərbaycanı söyür, ağlına gələni danışır. Rusiya hərbçilərinin məqsədi Azərbaycana qayıtmaqdır. Respublikamızın sərhədlərini bağlamaqdır. Əlbəttə, Türkiyə və İranla, Rusiya öz hərbi mövqelərini Qafqazda itirmək istəmir. Bu aksiomdur. Onlar bu fikirdədirlər ki, Qafqaz Rusiyanın oylağıdır. Onu bilməliyik ki, biz razılıq verməsək, Rusiya Azərbaycana heç bir qoşun yeridə bilməyəcək, buna bütün dünya baxır. Ancaq əgər respublikamıza rus qoşunu yeridilərsə, onda Qarabağ məsələsi birdəfəlik erməninin xeyrinə həll ediləcək. Rus qoşunu ayağını bu torpaqlara qoymağıynan Qarabağı həmişəlik itirmiş olarıq.

Söz yox ki, indi Ermənistan rusları qabağa verib, özü isə dalda durub. Əgər Rusiya bu meydandan çəkilərsə, Ermənistan indi oynadığı oyunları oynaya bilməz. Ona görə də Ermənistan çalışır ki, özünü Rusiyanın sadiq qulu kimi göstərərək Qarabağ problemini Rusiyanın vasitəsi ilə öz xeyrinə həll etsin.

Fikir verin, Ermənistan ATƏM və BMT-nin bu işə qarışmasına hər vasitə ilə mane olmağa çalışır, çünki beynəlxalq təşkilatlar Azərbaycanın sərhədlərinin toxunulmazlığı prinsipini əsas götürürlər. Qarabağ anklavdır. İndi möhkəm oyun gedir, bizə təzyiq oyunu. Azərbaycana təzyiq etmək üçün bütün alçaq yollara əl atılır.

Bilirsiniz, hadisələrə əvvəlcədən qiymət vermək çox çətindir. Və hər şeyi açıb söyləmək də olmur. İndi respublika prezidentinə böyük ümidlər var. Ancaq onun ətrafındakılar demək olar ki, siyasi cəhətdən səriştəsizlərdir. Onların dünyagörüşü kommersant dünyagörüşüdür. Söz yox ki, müxalifət qüvvələr də onlardan qabağa getmirlər. Amma heç olmasa, bu işlərin mahiyyətini bilən var. Prezidentimizin komandası yoxdur... Bilirsiniz, bizim hamımız sovet tərbiyəsi almış, partiya aparatında rüşvətxorluğa öyrəşmiş adamlarıq. Ona görə də xalqa həqiqətən can yandıran yoxdur. Kimi vəzifəyə qoyursansa, başlayır özünün cibini doldurmağa, çünki əl öyrəşib, nəfsinə hakim kəsilə bilmir... İndi meydan cavanlarındır. Xalqa, millətə xidmət edən, onun yolunda ölümə belə hazır olan cavanlara meydan vermək lazımdır.

***"Qarabağ" qəzeti, 28 may 1994.***





## DƏRD YENƏ DƏ HƏMİN DƏRDDİR

**Əsrlərin və nəsillərin təcrübəsinə istinad edən atalar deyiblər ki, halhazırın kökü keçmişdədir, keçmiş isə gələcəyin iynəsidir. M.Ə.Rəsulzadə bu müdrik kəlamı şərh edərək yazırdı ki, keçmişdən namus, cəsarət və qətiyyət qoru götürüb üfləyib hürriyyət və istiqlal məşəli də alovlandırmaq da olar, yalan, riyakarlıq və harınlıq külü götürüb millətin gözünə üfləyib onu kor etmək, yaxud çaş-baş salmaq da olar. Ağıl, bilik, real düşüncə, inam və inanc sahibləri birinci yolu seçirlərsə, dövlət düşgünləri, harınlar əzələ gücünə, zora, silahlı qoçu dəstələri yaratmağa üstünlük verirlər. Təkcə Azərbaycan və Qafqazda deyil, hətta vaxtilə İranda da özünü büruzə verən bu zidd meyllər uzaqgörən siyasət adamı M.Ə.Rəsulzadənin nəzərindən qaçmamışdı. İctimai-siyasi nadanlıq - "qoçuluq" bəlasına qarşı dəfələrlə həm Bakıda, həm də Tehranda açıq çıxış etmiş, ona qarşı qəti mübarizəyə səsləmişdi. Nümunə olaraq M.Ə.Rəsulzadənin baş redaktoru olduğu və Tehranda nəşr edilən "İrani-növ" (Yeni İran) qəzetinin 1910-cu il 168-ci sayındakı "Bakı qoçuları" sərlövhəli yazını cüzi ixtisarla oxuculara təqdim edirəm. Zənnimcə bu yazıda kəskin ataş açılan bəlanın yenidən bütün Azərbaycanda dirçəldilməsinə yol verməmək baxımından bu gün də faydası ola bilər.**

### BAKI QOÇULARI

...Bütün Bakı varlıları başçaları üzərində üstünlük qazanmaq üçün qoçulardan istifadə edib, köməklik alırlar, onlar da öz ağalarının məqsədini yerinə yetirmək üçün küçədə, bazarda dəstə-dəstə olub bir-birini gülləyə tuturlar. Gecə-gündüz daş dalında, divar arxasında gizlənib bir-birini öldürüb, canlarına qəsd edənlər də onlardırlar. Azacıq pul müqabilində adamların başını qoyun kimi kəsməyə hazır olanlar da onlardır.

Bəli, mənim diqqətimi cəlb edən elə bunlardır, Bakı küçələrində baş verən haman bu mənzərələrdir.

Bir də görürsən dəniz kənarında gəzən qadın, kişi, uşaq bir-birinə dəydi, arvad, uşaq arasına çaxnaşma düşdü, hərə bir tərəfə qaçdılar.

Elə bil ki, yırtıcı bir vəhşi onlara hücum etmişdir. Soruşursan ki, nə xəbərdir?

Heç kəs sənə cavab vermir, hər kəs ancaq öz canının hayındadır, onların gözü sənin əlindədir. Əgər artıq ayağın olsaydı onu səndən kirayə edib tez qaçıb canlarını bu təhlükədən qurtarardılar. Əgər çox israr edib soruşsan dilləri tutular, danışa bilməzlər. Nəhayət, məsələ məlum olar. Sənin sualının cavabında deyərlər ki, o biri küçədən mauzer səsi gəlir. Əgər qəzetlərin sabahkı nömrələrində veriləcək məlumatdan daha geniş məlumat almaq istəsəniz, səs gələn tərəfə gedin. Bakı məşədilərinin qeyrətini öz gözlərinizlə görərsiniz. İki dəstə müsəlman cavanları üz-üzə durub rəşadət və şücaətlə bir-birlərinə güllə atırlar. Onlar anlamırlar ki, bura adamların gəl-get və ümumi gəzinti yeridir. Polis gələnə kimi müharibə dayanır. Çox vaxt bir neçə nəfər bu "rəşadət" meydanında qalıb xalqın nifrəti ilə üz-üzə gəlir, bəziləri də cəhalətlə dünyadan gedirlər. Mən uzun müddət Bakıda qaldığıma görə bu mənzərəyə adət etmişdim. Tehranlılara bu qəribə mənzərə təəccüblü görünər.

Buraya gələn kimi naxoşladım. Çünki "tərki-adət be mövcibi-mərəzəst". İndi şükür etməliyəm ki, qeyrətli mücahidlər neçə vaxtdır ki, mən "Niş"i bu əlacsız xəstəlikdən xilas ediblər. Bakıdakı qoçubazlığı buraya da gətiriblər.

Mən elə bilirdim ki, Bakıya gedib bir daha o mənzərələri görməyəcəyəm. Ona görə ki, deyirlər Bakıya çox zülmkar bir hakim təyin olunub, qoymur küçələrdə adamlara əziyyət versinlər.

Bütün Bakı məşədilərinin bir hissəsini həbs, bir hissəsini də sürgün ediblər. Əlhəmdülillah, qeyrətli mücahidlərin bərəkətindən bundan azad oldum. Məgər oturub bu sətirləri sərbəst yaza bilməyim o möhtərəm zatların sayəsində deyil?!

Xüsusilə bəzilərinin faytonda oturub divanə adamlar kimi gərdənlərini çəkən görəndə Bakı qoçuları yadıma düşür, az qalır deyəm ki, "sənin o hündür, yaraşıqlı qədd-qamətinə qurban".

Qoçularla bunlar arasında fərq budur ki, onlar öz silahlarını gizlədir və əyinlərində rəsmi paltarları da yoxdur. Bu da ondan irəli gəlir ki, Rusiyada istibdad, bizdə isə məşrutədir.

Mənim halımı dəyişən budur ki, Bakı qoçuları güllə atanda yapon qoşunu Tiflisdə deyildi... Amma demək lazımdır ki, indi rus qoşunu Qəzvindədir!..

**M.Ə.RƏSULZADƏ**

*"İrani-nov" qəzeti, 2 aprel 1910.*

**"Vahid" qəzeti, 19 noyabr 1994.**






## ZAMAN DƏYİŞİR, DƏRDLƏR QALIR

**Adətim üzrə hər il noyabrın 28-də istiqlal hərəkatımızın ilk və ən böyük mücahidi Həsənbəy Məlikov Zərdabinin vəfatı günündə tanınmış mütəfəkkir Əhmədbəy Ağayevin və digər maarif və mədəniyyət xadimlərimizin onun dəfn mərasimində ürək ağrısı və qəlb yanğısı ilə söylədikləri nitqləri dönə-dönə gözdən keçirirəm. "İrşad" qəzetinin 1907-ci il dekabrın 2-si tarixli nömrəsində dərc edilmiş bu tarixi sənədləri həyəcansız oxumaq olmur. İndi bu il "Vahid" qəzetinin 26 noyabr nömrəsindəki dünya şöhrətli bəstəkar, xalq artisti Arif Məlikovla müsahibə ilə tanışlıq mənim həyəcanımı daha da artırdı. Əvvəla elə bil tarix və onunla bağlı milli dərdlərimiz yenə də təkrar olunur. İkinci şükr edilməlidir ki, Zərdabinin hələ keçən əsrin 70-ci illərində başladığı xeyriyyəçilik ənənələri, elmə, maarifə, mədəniyyətə hamilik edənlərin, yiyəsizlərə əl tutanların Hüseynağa Qasımov kimi yeni nəsli yetişməkdədir.**

**Arif Məlikovun "müstəqillik əldə edəndən sonra millətimdən aldığım ilk mükafat" ona və xalqımızın iftixarı sayılan mədəniyyət xadimlərinin bir qrupuna təqdim edilmə mərasimində mən də iştirak etmişdim. Bu tarixi hadisəni gələcək qiymətləndirəcək. İndi isə gəlin 87 il bundan əvvəl Zərdabinin dəfn mərasimində söylənilmiş və bugünkü reallıqla da səsləşən nitqlərdən bəzi parçaları oxuyaq, düşünək.**

### ƏHMƏDBƏY AĞAYEV




*...Tam 50 il bundan əqdəm, yəni o vaxtlar ki, Qafqaz dairəsində elm və fənn nə olduğuna etina belə olunmuyordu, Həsənbəy mərhum, Moskva şəhərinə gedib orada darülfünunun ülumi riyaziyyat şöbəsini qurtarıb öz vilayəti olan Bakıya müraciət etmiş, Bakıya qayıdıb da bu mərhum nəylə məşğul olmuş? Yerlər qəsb etməyə? Dövlət qazanmağa? İsmi-rəsm, şöhrət və pul qazanmağa? Xeyr! Xeyr! Müəllimlik edib öz həmcinsi və qövmi olan taifəni düçar olduğu cəhalətdən, zülmətdən xilas etməyə!..*

*1875-ci ildə haman bu Bakıda bir "Əkinçi" adında qəzetə nəşr etməyə şüru etmiş. Bu qəzetənin nəşrindən mərhumun məqsədi nə? Öz millətini uyuduğu cəhalətdən, zülmətdən və onların qorxulu nəticələrindən xəbərdar etmək idi! Bu gecə haman "Əkinçi"nin əvvəlinci nömrələrini mütaliə edirdim. Onların birisində mərhum yazmış: "Ey*

*müsəlmanlar! Gərək zamanə ilə saziş etmək! Zəmanənin təqazasına görə iş görmək! Əgər görməsək, zəmanə özü-özünə bizsiz iş görüb, fəqət bizi əzər, bizi döyər, keçər"...*

*Həsənbəy bizə haqq söz dedikdə acığımız tutub... Ən əvvəlinci tənə və sərzəniş (danlaq) ki, ona edirdik onun kasıblığı, onun biçizliyi idi... Biz ona tənə edirdik ki, vaxtını pul qazanmağa sərf etmək əvəzinə, bizə, biz millətə qulluq etməyə sərf edirdi! Lakin bu mücahid, bu millətpərəst bizim heç bir cövri-cəfamızdan geri durmayıb öz tutduğu yolunda qəribə bir səbat ilə davam edib milləti ayıltmaq işilə, taifəsinə xidmət etmək üçün əlindən gələn cümlə səyi əsirgəmədən edirdi... Şimdi bu qədər böyük, bu qədər bir ali şəxsin təşyinə gəlib də biz ona nə deyək? Nə növ onunla vida edək? Əqidəmcə biz gərək o ruhi-paka xitab edib də deyək! "Ey ali ruh! Şimdi sən gedirsən ata-babalarımızın, əcdadımızın hüzuruna! Onlara bizdən salam yetirib də bizim bu şikayətimizi de: Ey əcdad, ey babalar! Bizə nə gün qoydunuz?! Bizə nə növ irs qoydunuz, getdiniz?! Stanlarımız (məmləkətimiz) xərabə, vilayətlərimiz viranə! Cümlə millətlər arasında sərnigün, xar, zəlil, məqhur (qəhr olmuş), məzlum, əhvalımız pozğun! Günü-gündən tənəzzül edib, günü-gündən puç və zay olmaqdayız. Əlan işimiz, sənə-timiz oğurluq, quldurluq, bir-birimizin canına, malına, irzi-namusuna qəsd etmək imiş! Ey kaş nə biz olaydıq, nə böylə irs".*



**QARABƏY QARABƏYOV**

*...Həsənbəy kasıb şagirdlərə kömək etmək üçün əvvəlinci şəxsdir ki, ianə heyətləri təşkilinə çalışmış ki, o səyin nəticəsi olaraq indi bizim Bakı şəhərində belə neçə-neçə cəmiyyəti-xeyriyyələr vardır...*

*Həsənbəy istəsəydi indi Bakının kapitalistlərindən ola bilərdi. Lakin o bunu eləmədi. Dünya malına göz dikmədi. Ancaq cəmaət dərdinə qaldı. Axırda da quru taxt üstə vəfat edib, öz əhli-əyalına heç bir şey qoymadı... Bizi onun fəqirlik içində vəfat etməsi də mükəddər etmiyor. Bizi mükəddər edən o hal və o zaddır ki, bu Həsənbəyin naxoşluğu cəhatinə cəmaət işinin səhnəsindən düşdüyü zamanda, bizim xatirimizdən çıxmışdı. Heç birimiz onun görüşünə belə*



*getməmişdik. Həmçinin bizim şəhərimizin nümayəndələri də onu saymırdılar.*

*Bu qızıl və dövlət adamları onun hər bir haqq sözünün müqabilində diyordular ki, sən danışma - pulun yoxdur! Sən danışma - kasıbsan!..*


*Möhtərəm Həsənbəy! Sənin məmatın, həyatın kimi bizə deyir ki, özünüzü yadınızdan çıxardın, gedin cəmaətinizi işıqlandırmağa, öz peyğəmbərimizin böyük vəsiyyətlərini əmələ gətirin ki, islamın iqtidar əzəmətindən ibarətdir.*

*Biz sənin qulağımıza oxuduğun nəfələri dərguş edib, sən hazırladığın yol ilə gedəcəyik!*

*Allah sənə rəhmət eləsin! - Amin!*

***"Vahid" qəzeti, 13.XII.94***

## MURTUZA MUXTAROVUN QEYRƏTİ, TARİXİN TƏZADLARI



**Xalqımız kimi, mətbuatımızın vəziyyəti də acınacaqlıdır. İndi abunə və satış hesabına qəzet nəşr etmək müşkül məsələdir. Bazar iqtisadiyyatının adı varsa da, hələlik adicə alverdən və alverçilikdən uzağa gedilməmişdir. Qərbdə kütləvi informasiya vasitələrini dolandıran, rəqabətə əsaslanan reklam hələ uzun müddət bizim üçün arzu olaraq qalacaqdır. Dövlət orqanlarının himayədarlığı isə məhdud olub, xüsusi məqsəd daşıyır. Bəs mətbuatımızın taleyi necə olacaq? Bu xüsusi tədqiqatın, geniş söhbətin mövzusudur. Göstərək ki, yaşadığımız əsrin əvvəllərində də Azərbaycan mətbuatı elə indiki kimi çətin vəziyyətlə qarşılaşmışdı. Doğrudur, o vaxt ana dilində nə hökumət və nə də dövlət qəzetləri var idi. Mətbuat bir qayda olaraq məxsusi adamlar tərəfindən maliyyələşdirilir, nəşr olunurdu. Hətta xüsusi**

**qəzet şirkətləri yaratmaq təşəbbüsləri də olmuşdu. Lakin Azərbaycan mətbuatının nəşri və varlığı yükünü qeyrətli iş adamları, birinci növbədə tanınmış vətənpərvər və xeyriyyəçi H.Z.Tağıyev, Murtuza Muxtarov, Aşurbəyov qardaşları, Orucovlar və b. öz çiyinlərinə götürmüşdülər. Bununla əlaqədar "Tərəqqi" qəzeti səhifələrində onun redaktoru, mütəfəkkir qələm sahibi Əhmədbəy Ağayevin bir yazısı xatirimə gəldi. Azərbaycanın qabaqcıl ziyalılarını öz ətrafına toplayıb, həqiqi milli tərəqqi uğrunda mübarizə aparan bir mətbuat orqanını nəinki xilas edən, onu Avropa tipli müasir gündəlik qəzetə çevirən Murtuza Muxtarovun bu xeyriyyəçilik və vətənpərvərlik əməli qeyd edilməyə, təqlidə layiqdir. İndi Murtuza Muxtarovun tikdiyi və yaşadığı mülkdə ("Elm və həyat" jurnalının redaksiyası burada yerləşir) fəaliyyət göstərən "Vahid" Xeyriyyə Cəmiyyətinin eyni adlı qəzetində bu tarixi yazının dərc olunması xüsusi məna kəsb edir.**

## TƏRƏQQİPƏRƏSTLƏRƏ GÖZAYDINLIĞI

*Bir neçə gündən bəri qəzetimizdə "İrşad-proqress" şirkəti tərəfindən "Tərəqqi" qəzetəsinin bağlanacağı xüsusunda verilən elan ümumi tərəqqipərəstləri qəm və yasa düçar etmişdi. Məzkur şirkətin nə növ vücuda gəlməsi cümlə oxucularımıza məlumdur! Bu barədə təfsilat verməyi artıq biliriz. Lakin bədbəxtanə müsəlman hər işində olduğu kimi, bu işdə də əvvəlcə səy və tələş edib, axırda yavaş-yavaş soyuyub iş pozğun oldu. 147 paydan ikinci hissəni iddia edən fəqət 40 nəfər oldu! Qalanlarına nə qədər elan, əcz və israr oldu isə bir səmərə bəxş etmədi! Meydanda Bəşirbəy Aşurbəyov, Qarabəy Qarabəyov və Bəhrambəy Axundov kimi üç-dörd səy edəndən başqa bir kəs qalmadı! Bunlar isə tam 10 ay müddətində ağır və böyük bir təşəbbüsün hər növ maddi və mənəvi zəhmət və məşəqqətinə qatlanıb işi aparıyor idilər! Lakin nəticədə heç bir tərəfdən himmət və kömək görməyib və var qüvvəmizi sərf etdikdən sonra qəzetəni bağlamaqdan başqa bir çarə qalmadı. Nabud və naçar şirkətin ümum üzvlərinə elan verilib bu yolda bir tədbir və çarə aramaq üçün üzvlər ümumi içlasa dəvət olundular!*

*İclasda çox danışıq və müzakirədən sonra qəzeti bağlamaqdan başqa bir yol görünmüyordu.*

*Lakin şirkətin üzvü və baisi, öz xeyriyyəçilik və gözəl işlərilə məş-*



*hur cənab Murtuza Muxtarov Qafqaz müsəlmanları arasında rəhbəri - tərəqqi və təməddün olan qəzetəmizin məhv olmasına razı olmayıb, qəzetəni öz xərci ilə daimi surətdə aparmağa hazır olduğunu iclasda bildirdi. İclas cənab Muxtarovun bu təklifini kəmali-məsarət-şadlıq ilə qəbul edib, cənablar - Bəşirbəy Aşurbəyli və Qarabəyovu bu barədə Murtuza Muxtarov ilə danışıb qəzetənin ona təhvil verilmək surətini təmin etmək üçün vəkil etdi.*

*İştə bu cənablar Murtuza Muxtarov ilə görüşüb işi tamam edib, bu gündən qəzetəmiz cənab Muxtarovun imza və adı ilə nəşr olunmağa şüru" etdi.*

*Əvət! Yas və ələmə qərq olmuş tərəqqipərəstlərin gözləri aydın olsun! Murtuza Muxtarov kimi bir zatın qəzetəmizin başında olması qəzetəmizin daimi olaraq baqi olmasını təmin edər!*

*Daha bundan sonra demək olar "Tərəqqi" var və olacaqdır!! Çünki qəzetənin ən böyük təhlükəsi maddi tərəfidir və Murtuza Muxtarov kimi bir tərəqqipərvər, bir səbat və dövlət sahibi bir qəzetənin başında olduqda haman qəzetənin hər bir təhlükədən toxunulmaz olması üçün yaxşıdır.*

*Bundan başqa, cənab Muxtarovun tələb və xahişinə görə qəzetəmiz bu düşənbə günündən sonra gündəlik olacaq, yəni sərlövhəsində təsbit olunmuş "Ədalət", "Hürriyyət", "Müsavat" mənilərinə qulluq edəcək, bu barədə naşirimiz ilə heyəti-idarənin arasında ittihad ara olduğundan qəzetəmizin sabiqdəki heyəti-təhririyyəsi də bərqərardır.*

*İştə tərəqqipərəstlərin ümidsizliyi sevincə çevrilmiş olsun! Məhv deyil, "Tərəqqi"miz tazə bir qüvvə ilə, daha zorlu, daha rövnəqli bir həyat tapdı!!*

*Yaşasın "Tərəqqi"pərəstlər!!*

**Əhmədbəy AĞAYEV,**
*"Tərəqqi", 7 sentyabr 1908.*

**"Vahid" qəzeti, 28.I.95**

## "MƏZLUM MİLLƏTİN MƏTBUATI DA MƏZLUM OLUR"

**Azərbaycan milli qurtuluş hərəkatının ideoloqu və lideri M.Ə.Rəsulzadənin ədəbi irsini tədqiq etdikcə, onunla bilavasitə təmasda olduqca qarşımda çox əzəmətli, dərin ictimai-siyasi, tarixi-fəlsəfi, mənəvi-əxlaqi fikir və düşüncə sistemi, əvəzsiz və uzun ömürlü dəyərlər xəzinəsi açılır. M.Əminin zamanı və məkanı adlayan baxışlarının yaşadığımız dövrlə həmahəng olduğunu görüncə bu möhkəm əqidə, inam və inanc sahibi tarixi şəxsiyyətin uzaqgörənliyinə heyran qalmamaq mümkün deyildir. Hörmətli oxucular M.Ə.Rəsulzadənin 85 il bundan əvvəl Tehranda nəşr olunan "İrani-nov" (Yeni İran) qəzetində dərc olunmuş satirik "Biçarə mətbuat" məqaləsini sizə təqdim edirəm. Oxuyun və yaşadığımız mühitə nəzər salın. Görün çoxmu şey dəyişib? Doğrudur, zamanə dəyişib, amma əsri mərəz və xəstəliklər indi də yaşamaqdadır, nə vaxta qədər davam edəcək. Məsələ bundadır.**

### BİÇARƏ MƏTBUAT

"Məzlum millətin mətbuatı da məzlum olur". Bizim əzəmətli vətənimiz İran düşdüyü bu biçarə vəziyyətdə hər tərəfdən - xarici və daxili tamahlara düçar olub, uzun müddətdir ki, ağır xəstələnib və indi də qansızlıq və gücsüzlükdən iztirablı, zəif haldadır. Şübhə yoxdur ki, biz-millətin dili adlanan jurnalistlər də zəif və aciz olacağıq.

Bəli, mümkün deyil ki, zəif bir adamın dili öz ehtiyaclarının öhdəsindən asanlıqla gələ bilsin. Onun üzülmüş bədəni, öz ehtiyaclarını ödəmək üçün nə qədər dad çəksə də zəiflikdən kar olan qulaqlar eşitməz. O, gərək həmişə nalə və fəryad çəkməsin. Şübhəsiz ki, belə halda onun öz çətin vəzifəsinin öhdəsindən gəlməsi mümkün deyil. Deməli, o, həmkarlarımızdan birinin başına gəldiyi kimi acından və susuzluqdan quruyub lal olmalıdır.

Çox təəssüflər olsun bizim milli qəzetlərdən biri pulsuzluqdan və az satıldığından, həm də əhalinin kömək etməməsi üzündən bağlanmağa məcbur oldu. Qəzetin bağlanmasının xaricdə və daxildə nə qədər pis təsiri olacaqdır!..

15 milyon əhalisi olan bir ölkə bir neçə gündəlik milli qəzetini saxlaya bilmirsə, öz yeniləşməsi barədə hansı yaxşı fikirlər yarada bilər?.. Bu elə bir sualdır ki, onun cavabını səhv iş görən fəsad əhli verməlidir.

Yerli mətbuatdan Nəcəfdəki ağalara hiyləgərliklə ona görə şikayət edirlər ki, millətin dili olan qəzetlər nüfuz sahiblərinin şəxsi mənafelərinin əleyhinə yazırlar. Buna görə də onlar mətbuatın ziddinə tədbir görürlər.



Bu sorğu səbəbsiz olaraq qəzetlərə hücum etməklə özlərini gözə soxmaq istəyən o qorxmaz, rəşadətli və şücaətli vəkillərdir.

Bu sorğumuz o şəxsə, o möhtərəm vücudadır ki, qəzetdə məqaləni oxumadan onu tənqid edir, qəzetlərin bağlanmasından sevinir və şükr edir.

Yüksək vəzifə sahibi bir şəxs soruşur ki, "Şərq" qəzeti niyə çıxmır?" Cavab verirlər ki, vəsaiti qurtarıb, ona görə çıxmır.

Başqa bir möhtərəm şəxs orada olanların narahatlığının əksinə olaraq çox sakit və rahatlıqla köksünü ötürüb (elə bil ki, Rəhimxan həbs edilib və rus əsgərləri İrandan çıxarılıbdır) deyir: Allaha şükr! İnşallah o günü də görərik ki, "İrani-nov"un da vəsaiti qurtarar.

Heç kəslə qərəzi olmayan mən - "NİŞ" bu barədə deyirəm:

***Nişi-əqrəb, nə əz rəhi kinəst,***
***İqtizayi təbiətəş inəst.***[1]

Mənim də təbiətim sancmaqdır. Mən də bununla həzrətlərin müvəffəqiyyətli halını qarışdırıb onun qəlbindəki düyünə bir neştər (iynə) batırmaq istəyirəm ki, bəlkə bu yolla onun ürəyi sağala. Mən o "Niş"əm ki, öz yazı heyətimizin adından aşağıdakıları elan edirəm:

- Xatircəm olun, əgər "İrani-nov"un vəsaiti o ali mənsəb sahiblərinin səyi sayəsində qurtarsa da o İdarə üzvlərinin vətənpərvərlik qeyrəti heç vaxt qurtarmayacaqdır. Və onlar vətənpərvərlik məfkurəsindən yeni doğulan uşağı - "İrani-nov"u hər cür fədakarlıqla qoruyacaqlar. "İrani-nov"çular öz zəhmətlərinin mükafatını heç kəsdən - nə Nəcəf əşrəfdə olan ağalardan, nə rəcəz[2] oxuyan vəkillərdən, nə də başqalarından gözləmirdilər.

Bütün millət gərək onları layiqincə qiymətləndirsin, indi bu diqqəti bu gündə görməsək də - yarın onlarındır.


Qərəzçilər indi milli mətbuat əleyhinə istədikləri fitvanı, ağır qanunları versinlər, qəzetlərin bağlanması üçün dua oxusunlar. Madam ki, millət biçarədir onun mətbuatı da biçarə olacaqdır. Fəqət borcu millətə kömək etmək olan şəxslərin onun biçarəliyinə xidmət etməsi çox qəribədir?!

Eyibdir!..

**NİŞ (M.Ə.Rəsulzadə)**
"İrani-nov" qəzeti, 17 yanvar 1910.
*(Məqaləni farscadan M.Müsəddiq tərcümə edib)*

1 - Əqrəbin sancmasının səbəbi kin deyil, onun təbiəti belədir.
2 - Rəcəz döyüşdən qabaq meydanda oxunan şer.

**"Azadlıq" qəzeti, 31 yanvar 1995.**



## ALDANMAYAN, ALDATMAYAN TƏKCƏ TARİXDİR

**Uzun müddət vətənindən, el-obasından ayrı yaşamağa məcbur olmuş böyük mütəfəkkir, istedadlı və uzaqgörən mədəniyyət və siyasət adamı Əlibəy Hüseynzadənin öz doğma yurdu Azərbaycan və bütünlüklə türk-islam dünyasının taleyi haqqındakı düşüncələri öz aktuallığı ilə bu gün də diqqəti cəlb edir. Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi ilk aylarda Gəncəyə gəlmiş Əlibəy 1918-ci ilin iyulunda İstanbula qayıtdıqdan sonra "Hilal-Əhmər" qəzetində "Azərbaycanda düşündüklərim" sərlövhəli bir yazı dərc etdirmişdir. Qənaətimcə, tarixin və zamanın gərdişindən xəbərdar böyük həyat təcrübəsinə malik bir müdrik qələm sahibinin vətəni Azərbaycan və onun gələcəyi haqqındakı düşüncələri "Vahid" qəzetinin oxucuları üçün maraqsız olmaz.**





Hilali-Əhmərriyyənin bayrağı bizimkinin eyni olan fəqət al rəngli milli bayrağında bəyaz hilal qarşısında beş şüali yerinə səkkiz şüali bir ulduz bulunan bir məmləkətdən, Qafqasiya Azərbaycanından, Azərbaycan Cümhuriyyətindən, daha doğrusu Qafqasiya Türk Dövlətindən bir az bəhs etmək istərəm. Daha iki həftə olmadı ki, bu gənc dövlətin müvəqqəti paytaxtı olan Gəncə şəhərini tərk etdim. Müvəqqəti paytaxt deyirəm, çünki, Azərbaycanın təbii paytaxtı, neft mənbəyi olan Bakıdır. Tiflissiz Gürcüstan nə isə, Bakısız da Azərbaycan odur. Bakını Azərbaycana çox görən kim olursa-olsun Azərbaycan xalqının ən mənfur düşmənidir!..

Gəncəyə gəlincə, bu şəhər ancaq mərkəzi bir mövqedə olmaqla əhəmiyyət kəsb etmiş, ilərdə Azərbaycanın maarif mərkəzi ola bilir. Gəncənin qırmızı kərpicdən ən gözəl binası olan bələdiyyə idarəsi də böylədir. Mühitin yaşıl zəmini üzərində suvaqsız qırmızı bir bina!.. Aman... nə riqqətavər mənzərədir. O binanın mərkəz qapısı üstündə ki, eyvanda hər axşam təmiz bəyaz paltarlar geyinmiş 20-30 yaralı osmanlı və azərbaycanlı türk nəfəri oturaraq hava alır. Küçədən gəlib keçən əhalini seyr edir, qarşıdakı baxçada çalınan osmanlı əsgəri musiqisini dinləyirlər... Və başları üzərində binanın ən uca bir nöqtəsində böyük möhtəşəm bir Hilali-Əhmər bayrağı dalğalanır!.. Riqqətli bir mənzərə deyirəm, çünki Hilali-Əhmər xəstəxanasına çevrilmiş bu bələdiyyə binasında osmanlı türk nəfəri ilə azərbaycanlı türk əsgəri yaralı olaraq yan-yana yatırlar, bir-birlərilə dərdləşir, danışır və cüzi şivə ixtilafına baxmayaraq bir-birini mükəmməl surətdə anlayırlar!.. Bəli anlayırlar, çünki Azərbaycan avam xalqı ilə Anadolu kəndlisinin dili lap bir-birinin eynidir. Bir-birini anlamayan rus məktəblərində yetişib dilləri ruslaşmış Azərbaycan oxumuşları ilə İstanbulun seçilmişlər ailəsinə məxsus istilahlar işlədən şəxslərdir.

Tarixin bəzi təbii cərəyanları olur ki, onları heç bir qüvvə saxlaya bilməz. Fərd nə qədər bilikli olursa-olsun şaşırır, yanılır, yanlış yollara düşə bilir, fəqət tarix əsla şaşırmaz və olacaq öz təbiətilə olur! Anadolu türkün Azərbaycan türkünə qovuşması da bu qəbil hadisələrdəndir. Cahan müharibəsinin doğurduğu bütün çətinliklərə baxmayaraq iki türk qardaş birləşir. Və bundan hər iki tərəf üçün də böyük fayda vardır. Çünki Azərbaycan və Anadolu bir-birini tamamlayırlar. Anadolu türkü coğrafi mövqeyi, tarixinin zərurəti üzündən dünyanın ən dəyərli əsgəri oldu. Fəqət eyni zamanda da çarəsiz ticarətini, sənaye və iqtisadiyyatını başlı-başına buraxdı. Digər tərəfdən azərbaycanlı türk

həddi-zatında əsgəri və cəngavər bir qövm ikən rus istilasından sonra rus hökumətinə əsgər verməkdən imtina etdiyindən zaman keçdikcə döyüş qabiliyyətini itirmiş, yaxşı tacir və iqtisadçı olmuşdur. Onun sərvət qazanmaq xüsusunda kəsb etdiyi keyfiyyətlər heyrətamizdir. Halbuki, silahlı qüvvəyə malik olmayan bir millət istiqlalını qoruya bilmədiyi kimi, eləcə də ticarətsiz, sənayesiz və iqtisadiyyatsız da yaşaya bilməz. Bu səbəbdəndir ki, Azərbaycana qovuşmaqla hər iki türk bir-birinə qarışacağından türk milləti müasirləşmiş olacaqdır.

Bu gün Anadolu öz hərbi üstünlük və xüsusiyyətləri sayəsində Azərbaycanı ən mənfur bir əsarətdən xilas edir və bu müqəddəs ölkədə qanını axıdır. Lakin sabah da Azərbaycan öz iqtisadi mənbələri və tərəqqi etmiş ticarəti sayəsində Anadolunu iqtisadi səfalətdən xilas edə bilər.

Bu gün bütün dünyanı sarsıtmaqda olan və bir-birilə çarpışaraq ortalığı hərc-mərc eyləyən üç mühüm cərəyanın, yəni imperializm, nasyonalizm və sosializm cərəyanlarının ən faciəli fəaliyyəti sahəsi Qafqasiya və xüsusilə Azərbaycan oldu, orası bir cəhənnəmə döndü. Oradakı türk qardaşlarımız bütün bu müxtəlif yaqıcı, yıxıcı, əzici cərəyanların altında sərsəmlədi, nə edəcəyini bilmədi, mühakiməsini qeyb etdi. Osmanlı türkü imdadına yetişməsə idi, məhv olub gedəcəkdi. Fəqət onun məhv olması ilə Anadolu da təhlükəyə düşəcəkdi. Azərbaycanı qurtaran Anadolu öz-özünü də qurtarır, buna şübhə etməyiniz! Deyirlər ki, dağ-dağa qovuşmaz isə insan-insan qovuşur! Xeyr, tarixin elə anları vardır ki, dağ da dağa qovuşur, bu gün Ərciyəs* dağı Qaf dağına qovuşur və qovuşduqca yüksəlir!..

**Əlibəy HÜSEYNZADƏ**

***"Hilal-Əhmər" qəzeti, 24 iyul 1918.***

---

* **Ərciyəs** - Türkiyədədir

**"Vahid" qəzeti, 18 fevral 1995.**



## TARİXİN DƏRSLƏRİ, GƏRDİŞİN TƏZADLARI

***(M.Ə.Rəsulzadəni xatırlayarkən)***

70 il əvvəl - 1955-ci il martın 5-də xalqımızın cəfakeş və müdrik oğlu M.Ə.Rəsulzadə Anadolu türk torpağında gözlərini həyata əbədi yumdu, dünyasını dəyişdi. Son nəfəsinədək onun bizdən xəbəri vardı, halımıza acıyırdı, qəlbi sızıldayırdı, lakin gələcəyə inamını da itirmirdi. "Rəsulzadə qırmızı istiladan sonra başda mütəraqqi gənclik olmaq üzrə millətin göstərdiyi şiddətli müqaviməti və verdiyi saysız qurbanları görərək, milli bayrağın torpaqlara deyil, millətin vicdanına enmiş olduğunu, hər kəsin bu bayrağı ruhunda, qəlbində və bağrında mühafizə etməkdə olduğuna inandığını bildirirdi".

Bizlərdən heç birimiz Azərbaycan torpağının XX əsrdə yetişdirdiyi bu böyük, mütəfəkkir siyasət və dövlət adamını şəxsən görməmişik, son illərə qədər nəinki onun qoyub getdiyi zəngin irslə tanışlıq imkanından məhrum olmuş, hətta adını belə, çəkməkdən ehtiyat etmişdik. Bu, bizim milli faciəmiz idi.

22 yaşlı M.Ə.Rəsulzadə 1907-ci il noyabrın 30-da "Çar mütləqiyyəti və istibdadının özülünü sarsıdan ocaqlardan biri olan Bakıda" Azərbaycan mətbuatının ağsaqqalı və yaradıcısı, ilk milli mücahidimiz Həsən bəy Zərdabinin dəfn mərasimində iştirak edərkən Əhmədbəy Ağayevin vida nitqinin son sözlərini eşitmişdi:

"Dünyadan cümləmiz böyləcə gedəcəyiz! Heç bir şey aparmayacağıq! Bizdən fəqət o insanlıq, o öz millətimizə, öz taifəmizə və ümumi insaniyyətə qulluq və xidmət qalacaq ki, əlan Həsən bəyin ruhunu bu qədər əziz və möhtərəm ediyor.

Həsənbəyi özünüzə nümunə edin və ələddəvam o ustadi-bihəmtanın (misilsizin) ruhuna rəhmət oxuyun!"

Azərbaycan milli istiqlal hərəkatının görkəmli xadimlərindən Mirzə Bala Məmmədzadə bu mərasimdən 48 il sonra M.Ə.Rəsulzadənin dəfn mərasimindəki nitqində demişdi: "Rəsulzadə... özündən sonra mübarizəni davam etdirəcək olanlara: demokratik azadlığın fərdin və əməyin azadlığı ilə bərabər, millətin də azadlığını içinə alan bir bütün olduğunu, bir vacib vəzifə olmaq üzrə milli bir məfkurə irsi olaraq vəsiyyət etməkdədir...

Milliyyətçi, istiqlalçı demokrat və inqilabçı Rəsulzadə: "İnsanlara hürriyyət, millətlərə istiqlal!" deyə gözlərini qapadı.

Rəsulzadə prinsipə sədaqətin, məfkurəyə bağlılığın və bu yolda

səbrin, fədakarlığın, əzm, söz və əhdindən dönməməyin da timsalı idi. Çünki o, tam mənası ilə fəzilət sahibi, kamil bir insan idi.

Onun bizə miras qoyub getdiyi böyük milli məfkurənin gerçəkləşməsi və Azərbaycanın yenidən istiqlala qovuşması uğrunda müqəddəs mücadiləni eyni əzm, qeyrət və mətanətlə davam etdirəcəyimiz haqqındakı andımızı təkrar edir və əziz xatirəsi önündə hörmətlə baş əyirik".

Mənca, qəlbində həqiqi vətən məhəbbəti, xalqına və istiqlalına sədaqət hissi olan hər bir vətən övladı, namus və qeyrət sahibi bu sözləri bu gün də təkrar edə bilər! M.Ə.Rəsulzadənin ünvanına atılan daşların, deyilən böhtanların qayıdıb milli naxələflərin öz başlarına düşəcəyinə isə qoy heç kəsin şəkk-şübhəsi olmasın!

***"Azadlıq" qəzeti, 2 mart 1995.***

## ÇEÇENİSTAN VƏ RUSİYADA DAXİLİ VƏZİYYƏT

*Rusiya kimi nəhəng bir dövlətin Çeçenistana qarşı apardığı amansız, həmçinin uğursuz müharibə çeçen xalqının azadlığa olan möhkəm inamını nümayiş etdirməklə yanaşı, bu müharibədən sonra Qafqazda və Rusiyanın özündə çox şeyin dəyişəcəyindən xəbər verir. Siyasi müşahidəçilərin fikrincə, Çeçenistan müharibəsi Rusiya daxilində demokratiyanın, dövlətçiliyin taleyi üçün böyük təhlükə yaratmış və ölkədə avtoritarizmin bərpası ehtimalını gücləndirmişdir. Əməkdaşımız bu məsələlərə münasibətini bildirməyi BDU-nun professoru, siyasi şərhçi* ***Şirməmməd HÜSEYNOVDAN*** *xahiş etmişdir.*

**- Şirməmməd müəllim, sizcə, Çeçenistan müharibəsi Rusiya ilə bağlı hansı həqiqətləri üzə çıxardır?**

- Bu suala B.Yeltsinin özü Federasiya Şurası və Dövlət Dumasının birgə yığıncağında ənənəvi illik hesabatla çıxış edərkən cavab vermişdir. B.Yeltsin açıqca demişdir ki, Çeçenistan müharibəsi timsalında Rusiya daxilindəki bütün problemlər, xəstəliklər üzə çıxdı. Həmin xəstəliklər isə hakimiyyət dairələrindən tutmuş, orduya və federasiyanın subyektlərinədək bütün sahələri bürümüşdür. Hələlik böhran ordu da və ordu rəhbərliyinin fəaliyyətində daha açıq şəkildə təzahür etmişdir.



**- Yeri gəlmişkən, Yeltsinin haqqında danışdığımız məruzəsi Rusiyanın özündə birmənalı qarşılanmayıb...**

- Rusiyanın siyasi həyatını, hakimiyyət dairələrinin, dövlət başçılarının fəaliyyətini tədqiq edib öyrənən tarixçilər qeyd edirlər ki, qanun və qanunçuluq ədalət və düzlük haqqında dünyanın heç bir ölkəsində Rusiyadakı qədər danışılmır, yazılmır. Nəhəng planlar cızmaqda, insanı heyran edəcək vədlər verməkdə Rusiya dövlət başçılarının əvəzi yoxdur.

B.Yeltsinin məruzəsində hər şey var. Amma dumanın deputatı Pamfilova deyir ki, bu məruzədə əsas suala cavab yoxdur. Yeni Rusiya hara gedir? O necə bir dövlət sistemi seçəcək? Axı, yerlərdə demokratiya deyilən şey yoxdur. Təkcə Moskva və Sankt-Peterburqla iş düzəlmir. Bütövlükdə Rusiyada regional siyasət yoxdur. Elə buna görə də xarici icmalçıların fikrincə, Rusiyanın qarşılaşacağı əsas çətinliklər hələ qarşıdadır.

**- Bəs, onlar bu çətinliyin əsas səbəblərini nə ilə izah edirlər?**


- Əsas səbəb Rusiyanın federal quruluşunda və onun müasir dövrlə uyğunlaşmayan prisiplərindədir. Yerli özünümüdafiə məsələsinə həsr edilmiş müşavirədə Soljenitsin də çıxış etdi. O bildirdi ki, federasiyanın mahiyyəti dəyişilir. Bildiyimiz kimi, Rusiyada bu vaxtadək 16 muxtar respublika vardır və bunlar milli ərazi prinsipinə görə müəyyənləşdirilmişdir. 49 vilayət, 5 diyar, 10 mahal da həmçinin... Bir neçə suala cavab tapılmalıydı. Məsələn, bölgü necə olmalıdır, hansı orqanlara seçki keçirilməlidir və bu orqanların funksiyası nədən ibarətdir? Yenədəmi hər şey mərkəzdən idarə olunacaq, yaxud məsələlərin böyük bir qismi yerli idarəetmə orqanlarına tapşırılacaq? Təəssüf ki, hələlik bu sualların tam, aydın cavabı verilməyib.

**- Çeçenistan böhranı Rusiya Federasiyasının ərazisində yeni, müstəqil dövlətlərin yaranmasına səbəb ola bilərmi?**

- Mütəxəssislərin fikrincə, dünyada müstəqil dövlətlərin sayı XXI əsrdə 300-ə çatacaq. əsrin əvvəllərində onların sayı 60 idi, indi 190-dır. Deməli, 110 yeni müstəqil dövlətin yaranacağı proqnozlaşdırılır. Bunun neçəsi Rusiyanın hesabına düşəcək? Bu suala cavab vermək çətindir. Hər halda icmalçılar yazırlar ki, Rusiyadakı indiki vəziyyət M.S.Qorbaçov dövründəki SSRİ-nin vəziyyətinə çox oxşayır.

Müsahibəni yazdı:
**Z.MƏHƏRRƏMLİ.**

***"Bakı" qəzeti, 11.III.1995.***



## ƏSRİ PROBLEMLƏR, KÖHNƏ MƏRƏZLƏR

Bu yaxınlarda oxuduğum kitablardan birində bu vaxta qədər təsadüf etmədiyim ibrətamiz bir ithafa rast gəldim. Tanınmış türk tarixçisi Mustafa Yazıçı türk dövlətlərinə, dövlət və hökumət başçılarına həsr etdiyi əsərini "Dövlət işlərinə yararlı adamlar seçməyi bilənlərə" ithaf etmişdir. Bu qeyri-adi ithaf məni maraqlandırdı. 1909-1910-cu illərdə çıxmış "Həqiqət" qəzetinin 1910-cu il yanvarın 5-i sayında qəzetin baş redaktoru Üzeyir Hacıbəyovun "Hər işi öz əhlinə tapşırmalı" sərlövhəli baş məqaləsini oxuduqda isə mənə məlum oldu ki, sən demə indi mənə yeni, ibrətamiz kimi görünən həqiqətləri - adlarını çox hallandırıb, yazdıqlarını isə az oxuyub-öyrəndiyimiz müdriklərimiz hələ çox-çox əvvəllər istiqlal mücadiləsinin başlanğıc dövrlərində söyləmişlər, yazmışlar.



Lakin bəla orasındadır ki, onlara qulaq asanlarımız, bu vəsiyyətlərdən hali olub onlara əməl edənlərimiz az olub.

Əsri problemlər kimi, əsri dərdlər də qalır, çoxalır, ağırlaşır. Nə qədər ki, rəhmətlik Üzeyir bəyin satirik qələmini tuşladığı naşılara meydan sulamağa imkan verilir, onların aradan qaldırılması müşkül məsələyə çevriləcək. Əsaslı surətdə yeniləşmədən, qətiyyət və cəsarətlə maneələri aradan qaldırmadan, milli birlik, inam və inanca söykənmədən XXI əsrə doğru addımlamaq çətin olacaq. Üzeyir bəy əsrin əvvəllərində bizi "XX əsrin səsinə səs verməyə", "XX əsrin tələzasına müvafiq iş görməyə" səsləyirdi. Bu çağırış qarşıdakı XXI əsr üçün də qüvvəsində qalır. Amma hər işi öz əhlinə tapşırmaqdan da çox şey asılı olacaqdır.

## HƏR İŞİ ÖZ ƏHLİNƏ TAPŞIRMALI

Çox vaxt bizim cəmiyyətlərimizin, ittifaqlarımızın camaatımıza heç bir mənfəət verməməsinə və bir tez zamanda pozulub dağılmasına səbəb odur ki, o cəmiyyətin başında duran və işlərinə məşğul olan adamlarımız əhl adamlar olmuyublar. Həmin üzərlərinə götürdükləri məsuliyyəti və vəzifəni layiqincə ifa edə bilmirlər. Edə bilmədiklərinə səbəb müsamihə (başıaşoyuqluq), səhlənkarlıq və etinasızlıq deyil, bəlkə öz vəzifələrinə əhl olmadıqlarıdır. Çox vaxt görürsən ki, bir iş başına qoyulmuş və ya öhdəsinə müəyyən bir vəzifə verilmiş adam haman işin üstündə o qədər çalışır ki, lap "qabıq qoyur". Amma yenə də iş irəli getmiyor. Bu isə işin irəli getmədiyini görüb daha da artıq çalışır, daha səyini artırır, amma yenə də bir nəticə hasil olmuyor. Axırda o qədər özünü əziyyət və zəhmətə salır ki, həm cismən, həm də ruhən yorulur, xəstələnir və axırda işə yaramaz olur. Deməli, binəva həm özünü əldən salır, bütün gücünü itirir, həm də işin irəli getməsinə mane olur. Bu nədəndir?

Çünki üzərinə götürdüyü işin əhli deyildir, o işdən başı çıxmıyor. Onun üçün də nərədə zəhmət çəkmək, qüvvət sərf etmək, fəaliyyət göstərmək lazım olduğunu bilməyib, lazım olmayan yerdə nahaq yerə o qədər zəhmət və əziyyət çəkir ki, axırda tamamilə yorulur. Halbuki əgər haman iş öz əhlinə tovdi olunsa, tapşırılsa, yəni o iş müxtəs (məxsus) bilən bir adama həvalə olunsa, əvvəla həm iş irəli gedər, həm də iş sahibi heç də özünü əbəs yerə yormaz.

Məşrutəli dövlətlərdə, yəni o dövlətlərdə ki, bütün dövlət idarəsindən məqsud əhaliyə olduqca artıq mənfəət yetirib ehtiyacatını rəf etməkdir, həmişə ona diqqət olunur ki, hər işin başında əhl adam olsun. Məsələn, nəqdiyyə və maliyyə işlərini gözəlcə bilən bir adama maliy-

yə vüzəratını qoyub da heç vaxt hərbiyyə vəzirliyi verməzlər. Yaxud nəşri və təmimi-maarif işlərində ixtisas sahibi olan bir kəsi maarif vüzəratını qoyub da heç bir halda xariciyyə vəziri etməzlər. Sair vəzifələr də bu nöqteyi-nəzərdən öz əhl adamını tapar. Ona görə də haman dövlətlərdə millət və dövlət getdikcə tərəqqi tapmağa və istirahətlə yaşamağa başlar. Amma o dövlətlərdə ki, onların tərzi-idarəsi camaat mənafeyini gözləmək əsası üzrə qurulmuyubdur, orada artıq əhl adamlara bir o qədər diqqət yetirməzlər və bir işə birisini təyin etdikdə onun bu işdə əhl olduğunu, ixtisas sahibi olduğunu axtarmazlar. Bəlkə camaata zərrəcə mənfəəti olmayan başqa fikirləri nəzərdə tutub hər kəsi haraya olsa soxarlar. Odur ki, o cürə dövlətlərdə də camaat həmişə miskin və zəlil bir halda olar. Məsələn, İranın, Türkiyənin keçmiş halları və sairə...

İştə bizlərə də lazım və vacibdir ki, hər bir işdə öz əhl adamını axtaraq və o işi ona tapşıraq. İndi o adam öz hal və övzainə görə nə payədə (rütbədə) olursa-olsun, heç fərqi yoxdur, təki öhdəsinə verilən işin əhli olsun.

Böylə mühüm bir yerdə xatir gözləmək, birisinin cah (mənsəb) və rütbəsini nəzərə almaq, birisinin xoşuna gəlmək kimi bir qəsd ilə meydana girmək haman mühüm işə və bütün millətə xəyanət etməkdir!

Madam ki, bir şəxs bir işi bacarmiyor, o işdən heç bir xəbəri yoxdur, o halda ona haman işi həvalə etməyin mənfəəti-ümumi yetirmək nöqteyi-nəzərindən heç bir məqul (ağılkəsən) mənası ola bilməz. Yox, əgər haman əziz şəxsin nə tövr olursa-olsun bir iş başında durması və ya bir işə təyin edilməsi lazım isə, o halda onun üçün öylə bir iş seçməlidir ki, o işi bilir, o işin əhlidir. Zənn edirəm ki, o surətdə haman əziz sayılan şəxs bizim içimizdə daha əziz və daha möhtərəm olar. Və illa bilmədiyi və bacarmadığı işə qoyularsa, daha da o izzət və hörməti itirər və xalq yanında məhcub (utanmış) olar.

Bundan başqa, madam ki, bir işə əhl adam seçildi və iş də ona tapşırıldı, ondan sonra haman əhl adamı tamam və kamal sərbəst buraxmalıdır. Heç bir halda onun işinə qatışmamalıdır. Onun əl-ayağına dolaşmamalıdır. Təəssüflər olsun ki, bizlərdə nərədə olursa-olsun öylə bədxülq (xasiyyəti pis) adamlar var ki, bilməyə-bilməyə özgəsinin işinə qarışmaq onun üçün bir adətdir. Gərək nə tövr olsa, hər yerə bir əl qatsın. Bu adamlar müzürrdürlər. Ona görə əhl adamları belə müzürr şəxslərdən qorumaq da ümdə şərtlərdəndir. Bundan başqa, bizim boşboğaz tənqidçilərimiz də az deyildir. Bu tənqidçilərin bəziləri öz boşboğazlıq adətlərinə görə, bəziləri də məhz qərəzi-şəxsi ucundan hər yerdə və hər zamanda oturub-durub əhl adamları tənqid etməyə başlarlar. Əlbəttə, həqiqi və doğru tənqid vacibdir və mənfəəti də çox-



dur. Lakin cahilanə tənqid çox zərərdir. Çünki cahil tənqidçi heç bir şey anlamıyor, yaxşı və yamanı seçə bilmiyor. İştə haman əhl adamları böylə tənqidçilərin şərindən də xilas etmək işin sürətlə irəliləməsinə səbəb olar. İndi hər işlərimizdə yuxarıda saydığımız şərtlərə riayəti tam olunsa, həqiqət, çox mənfəət görərik. Yox əgər olunmasa, mənfəət əvəzinə zərərə düçar olarıq, necə ki, oluruq da.

**ÜZEYİR (HACIBƏYOV)**
*"Həqiqət", 5 yanvar 1910.*

**"Vahid" qəzeti, 3 mart 1995.**

TARİX

## MİLLİ QƏTLİAM, VƏTƏNİ BİR MATƏM GÜNÜ

**1919-cu il martın 29-da Azərbaycan Xalq Cümhuriyyəti hökuməti dövlət orqanlarına belə bir telefonoqram vermişdi: "Hökumət İşləri İdarəsi rəisi-vükəlanın qərardadına görə elan edir ki, mart ayının 31-də mart hadisatı münasibətilə heç bir dövləti müəssisələrdə iş olmayacaqdır".**

**Bundan əvvəl siyasi partiyalar, həmkarlar təşkilatları, fəhlə kollektivləri martın 31-ni Azərbaycanda "vətəni bir matəm", "milli bir qital, bir qətliam" günü kimi qeyd etmək haqqında təşəbbüsdə bulunmuşlardı. 1918-ci il martın 18-21-də (köhnə təqvimlə) türk-müsəlman xalqlarına qarşı Bakıda başlanmış, sonra bütün Azərbaycan və Zaqafqaziyanı əhatə etmiş genosidin şahidlərinin, bu faciəni bilavasitə yaşayanların belə bir ümumi milli həmrəylik və yekdilliklə çıxışını, müraciətini Azərbaycan hökuməti və parlamenti də müdafiə etdi.**

**Qeyd edək ki, xalqın, ictimaiyyətin martın 31-ni vətəni bir matəm və qətliam günü kimi qeyd etmək tələbi, düşüncəsi həm də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin və parlamentin təşkil etdikləri Zaqafqaziyanın müsəlman əhalisinə qarşı həyata keçirilən cəbr və zorakılığı təhqiq edən fövqəladə komissiyanın zaman-zaman elan etdiyi konkret faktlara, şahidlərin ifadələrinə, bu genosidi gerçəkləşdirən qatı millətçi-irqçi "Daşnaksütyun" partiyasının və onun havadarlarının "fəaliyyətini" əks etdirən inkaredilməz sənədlərə əsaslanırdı. Komissiyanın tərkibində tanınmış hüquqşünaslar, dövlət və siyasət adamları vardı.**

**1919-cu il martın 28-də Türk Ədəm Mərkəziyyət Müsavat Partiyasının mərkəzi bürosunun binasında 300-dən artıq fəhlə nümayəndələri-**

**nin iştirakı ilə mart hadisələrinə həsr edilmiş bir konfrans keçirilmişdi. Konfransı giriş sözü ilə açan M.Ə.Rəsulzadə demişdi: "Mart hadiseyiəliməsini xatırlamalıyız. O gün bizim həyatımızda əbədiyyən unudulmaz bir gündür. Bir millət şadlıq günlərini yadında saxladığı kimi matəm günlərini də unutmamalıdır. O gün, o qital, o öldürüş bizə, biz türklərə bağlanmış idi", "... biz müsəlmanlara elani-hərb eləmişlərdi", "martda kəsilən minlərlə qurbanlar, fəda edilən şəhidlər həm də Azərbaycan fikri-hürriyyət və istiqlalının qurban və şəhidləridir".**

**"Biz onları martın 31-də xatırlamalı, o günü həyatı durduraraq matəmə girməli, ruhlarına fatihə oxumaqla qanımız bahasına alınan hürriyyətimizi, qanımızı tökməklə olsa da, mühafizə edəcəyik deməliyiz!"**

**76 il əvvəl deyilmiş bu sözlər bu gün də öz böyük əhəmiyyət və qiymətini saxlayır. İndi isə 1919-cu il martın 31-də - milli matəm günündə böyük öndərimiz M.Ə.Rəsulzadənin yazdığı və həmin gün "Azərbaycan" qəzetində baş məqalə kimi dərc olunmuş "Unudulmaz faciə" sərlövhəli məqaləni oxuculara təqdim edirəm.**

## UNUDULMAZ FACİƏ

Martın 31-i bizə Azərbaycan tarix siyasətində unudulmaz üç günü xatırlatıyor.

Günlər var ki, sevincinin böyüklüyü ilə, günlər də var ki, fəlakət və qüssəsinin əzəməti ilə unudulmaz.

31 Mart ikinci günlərdən idi. Bu gün tarixin qeyd edə bildiyi "Aşura", "Varfolomey gecəsi" kimi xainanə bir surətdə hazırlanmış siyasi faciələrdən birisi idi.

Bizə deyə bilərlər ki, hərbi-ümumi səfahəti (səhifələri) arasında mart hadiseyi-eliməsini dəfələrlə ötən əsəfli (təəssüf ediləcək) hadisələr vaqe olmuşdur. Bunun üçün dəxi mart günlərində Bakı soqaqlarında icra olunan məzalim və qitali Ərəbistanın qızğın çöllərində və yaxud Firəngistanın inqilabla qaynar şəhərlərində hadisə olan uzaq misalları ilə müqayisə etməyə nə hacət!

Əvət doğrudur, doğrudur ki, Belçikada, Serbiyada, Türkiyədə, Acarıstanda, nəhayət Kars, Muş, Van və sair yerlərdə, hətta hərbi-umumidən rəsmən xaricdə qalan İranda, Urmi, Səlmas və Xoyda şəklən Bakı hadisəsinə bənzər və bəlkə də bundan daha fəci hadisələr vaqe olmuşdur.

Bunlar doğrudur.

Biz Bakıdakı mart hadisələrini yada salarkən yenə o günlərdə icra olunan vəhşətə, zülmə, yaxılan xanimanlara, parçalanıb da divarlara mıxlanan yavrulara, hətk olunan (parçalanan), irz və namuslara dəxi ətfi-nəzər ediyor - insanın bir anda dönüb canavardan da bədtər hala



düşmək ləyaqətində dəxi olduğunu böyük bir hissi-infial (xəcalətçəkmə) və şərməndəlikdə görüyoruz.

Fəqət mart günlərinin əsl faciəsi təkcə bu cəhətində deyildir. Martda söylədiklərimizdən və söyləmədiklərimizdən daha böyük, daha şəni (çirkin), daha mərdud (hüquqa zidd), daha iyrənc bir hadisə vaqe olmuşdu.

İctimai bir inqilab nami və pərdəsilə ortaya çıxıb milli bir ədavət icra edilmişdi.

Burjuaziyaya elani-hərb edilib əmələ (fəhlə) və kasibə qırılmışdı.

"Müsavat"a xitabən elani-hərb edilib, nəticədə sosialist, bolşevik və müsavat - heç birisinə fərq qoyulmadan kəsilmək və atılmaq üçün müsəlman olmaq kafi gəlmişdi.

Bu nöqteyi-nəzərdən şaumyanların Bakıda çıxartdıqları hadisə leninlərin Petroqrad və Moskvadakı hərəkətlərinə qətiyyən bənzəməzdi. Orada sinfi bir hərb, burada isə sinfi hərb nami altında milli bir qətl, bir qətliam icra olunurdu.

Daşnaqlar intiqam alırdı.

Bu intiqam hər növ qonşuluq, inqilabdaşlıq, vətəndaşlıq hissini korlatıyor, yan-yana sülh və müsalimət ilə yaşayan millətləri sənələrlə bir-birindən ayırıyordu.

***

Bolşeviklər - "sizə muxtariyyət deyil, xarabalar verəcəyiz", - deyirlərdi, müttəfiqləri daşnaklar da indi izah ediyorlar ki, Bakını sahiblərinin əlindən çıxarmaları ilə onlar ermənilyi mühafizə ediyormuşlar.

Həqiqətdir ki, martın 18-dən 21-nə qədər (köhnə təqvimlə) Bakı türk demokratiyasının qafasında partladılan toplar, müsəlmanların haqqında rəva görülən məzalim Azərbaycan fikrini daşıyan, müxalifət və istiqlal əqidəsi ilə pərvərdə olan vücudları məhv etmək üçün idi.

Fikir öldürülmək istənilirdi. Millət kəsilirdi.

Fəqət kəndliləri (özləri) "inqilabçı" ikən, inqilabın böyük düsturunu unudurlardı:

Məşəli əfkari-əhraranə sönməz xunilə! (Azadlıq fikrinin məşəli qanla sönməz!)

**Martda tökülən qanlar türklərdəki milliyyət və hürriyyət fikrini, Azərbaycan atəşi-müqəddəsini söndürə bilmədi!**

Bakı küçələrində tökülən nahaq qanlar bir "pisuz", yaxılan "İsmailiyyə" isə bir "iplik" işini görərək ürəklərdə söndürülmək istənilən hürriyyət məşəlini daha ziyada tutuşdurdu.

**Qanlar içində boğdurulmaq istənilən Azərbaycan fikri bu kərə müstəqil bir hökumət şəkli ilə təcəlli etdi!**

**Bakı bir qan və bir fitnə ocağı deyil, paytaxtımız oldu!**

***

Bu gün mart hadisələri kimi böyük bir riyazət nəticəsində kəndi haqqını istirdad etmiş (geri almış) olan paytaxtımızda 31 mart şühədasının ruhi-məzlumuna fatihələr oxuyarkən bir şeyi xatırlatmaq istərəm.

Mart hadisəsindəki müvəffəqiyyətsizliyin ən böyük səbəbi, bunu artıq hər kəs təsdiq ediyor ki, cəmaətimizin başsızlığı, o vaxta qədər bildiyi camaat xadimlərinə və siyasi firqə rəislərinə deyil, qeyri-məsul adamlara, ağlından ziyadə hissiyyatına tabe şəxslərə uyduğu olmuşdur.

Lə əlhəmd (şükürlər olsun), bu gün o vəziyyətdə deyiliz. Millətin müqəddəratından məsul hökumətə, parlamana malikiz.

Hökumət və parlamanımızın bütün nöqsanı ilə bərabər bir məziyyəti var ki, böhranlı və məsuliyyətli dəqiqələrdə millətə başçılıq edər, onu hər hissiyyata qapılmış yol ötən "mücahid"lərin şərindən saxlaya bilər.

Bunun üçün lazımdır ki, biz bütün hərəkatımızda etidaldan (mötədillikdən) uzaqlaşmayıb sükun və intizamı pozmalıyım.

Tətil heyəti bizi bu gün matəmə dəvət ediyor. Bu dəvətə icabət edərək bütün həyatı dura-duraraq mart şühədasının ruhi məzlumi qarşısında diz çökəlim, çökəlim də deyilək ki:

- Siz məzlum oldunuz, biz sizin məzlumiyyətinizi təlafi etdirmək (əvəzini çıxmaq) üçün qanınız bahasına aldığımız hürriyyət və istiqlalı bərk saxlayacağız!

**M.Ə.RƏSULZADƏ**
***"Azərbaycan", 31 Mart 1919***

**Varfolomey gecəsi** - 1572-ci il avqustun 24-nə keçən gecə müqəddəs Varfolomey bayramı günü Fransa kralı və katolik ruhanilər hugenotların kütləvi qırğınına başlamışdılar. 3 gündə Parisdə neçə min nəfər öldürülmüş, sonra bütün Fransada hugenotları qırmağa başlamışdılar. Bu hadisə tarixə qətliam, genosid günləri kimi daxil olub.

***"Azadlıq" qəzeti, 4 aprel 1995.***



## BÖYÜK QƏLƏBƏ, BƏS SONRASI?

*(Düşüncələr)*

XX əsrin ilk onilliklərində Qərbi Avropada nasional-sosializm bayrağı altında baş qaldıran "Qərbin qara bəlası" - faşizmlə, beynəlmiləlçi-sosializm bayrağı altında iş görən "Şərqin və dünyanın qırmızı bəlası" - bolşevizmin dünya ağalığı uğrunda ölüm-dirim mübarizəsi və sövdələşmələri nəhayət, 1939-1945-ci illərdə, demək olar, bütün planeti qanlı döyüş meydanına çevirdi. İkinci Dünya müharibəsinin əmələgəlmə səbəbləri, təqsirkarları, faciəli nəticələri və qəhrəmanlıq səhifələri haqqında qalaq-qalaq kitablar yazılıb, tədqiqatlar açıqlanıb. Keçmiş Sovet İttifaqında da, hətta respublikamızda da bu sahədə xeyli iş görülüb. Lakin müharibə, xüsusilə onun faciəli və gizli müəmmaları yenə də qalmaqdadır. Əlbəttə, bunun da obyektiv və subyektiv səbəbləri var. "Nezavisimaya qazeta" haqlı olaraq yazır: "Son 70 ildə ölkənin tarixi ən azı 6-7 dəfə yenidən nəzərdən keçirilərək yazılıb və hər dəfə də yuxarıların göstərdikləri istiqamətdə saxtalaşdırılıb..." Axı hər hakimiyyət başına gələn özünə qədər keçilmiş yolun körpüsünü yandırmağa, bu yolun başçısını ləkələyib gözdən salmağa çalışıb. Buna görə də ölkənin və xalqın tarixi bir növ yaddaşsızlıq və unutqanlıq tarixinə çevrilib. Qəzetə görə, bəlkə də "Rusiyanın aramsız düçar olduğu bəlaların əsas səbəblərindən biri də məhz budur".

Müharibə dövrünü və ondan sonrakı yarım əsri yaşamış, hər ikisinin ağrı-acısının və gərdişinin şahidi olmuş sıravi bir vətəndaş kimi deyə bilərəm ki, faşizm məğlub edilsə də, dünyanın bizim payımıza düşən hissəsində həqiqi əmin-amanlıq bərqərar olmadı ki, olmadı. Müharibə əsirlərinin başına olmazın faciələr gətirildi. Krım tatarları, çeçenlər, inquşlar, qaraçaylılar və digər müsəlman türk xalqları öz ana yurdlarından qoparıldı və zorla köçürüldü. Eyni faciə "Ermənistan" adlandırılmış qədim Azərbaycan torpaqlarında məskunlaşan yüz minlərlə soydaşımızın da başına gətirildi. Mənəvi terror, aramsız izləmələr və təqiblər sistemi təkmilləşdirildi. Beynəlxalq miqyasda "soyuq müharibə" və onun ardınca lokal müharibələr planetin müxtəlif zonalarını bürüdü. Nasional-sosializmin görə bilmədiyini beynəlmiləlçi sosializm həyata keçirməyə girişdi. Dünyanın siyasi xəritəsində bir rəngin sahəsi genişlənməyə başladı. Bütün bunların əsas yükünü çiyinlərində daşıyan sovet adamlarının və ölkənin dizi əsməyə, imkanları getgedə tükənməyə üz qoydu. Öz iqtisadiyyatlarını, elmi-texniki və mədəni imkanlarını səfərbər edib demokratik ictimai-siyasi inkişaf yolu-

nu seçən məğlub ölkələr isə öz qədərini qısa bior müddətdə düzəltdilər. Nəhəng hərbi-sənaye kompleksinə və silahlı qüvvələrinə arxayın olan sosialist sistemi isə geriləmə, zülm ilə abad olanın axırı bərbad oldu, sovet qırmızı imperiyası dağılıb 15 müstəqil dövlətə parçalandı.

Lakin ürək ağrısı və böyük həyəcanla qeyd etməliyik ki, M.Ə.Rəsulzadənin vaxtilə "Şərqin və müsəlman-türk dünyasının qara bəlası" adlandırdığı imperiya ruhu hələ də Şimalda körüklənməkdə, od-alov saçmaqdadır. Yenicə müstəqillik qazanmış gənc dövlətləri daxildən parçalamaq və sarsıtmaq taktikası davam etməkdədir. Müstəqil dövlətçilik, idarəetmə təcrübəsi olmayan, siyasi mədəniyyəti hələ formalaşmayan mühitdə və yerdə köhnə siyasət tərəfdarlarının fəaliyyət imkanları da artıb.

Hər bir bayram tarixi həqiqət, tarixi yaddaşla bağlıdır. Xalq o hadisəni, o günü hafizəsində saxlayır, nəsildən nəsilə verir ki, onun varlığı, taleyi, cəsarət və rəşadəti, qeyrət və namusu, birliyi və xeyirxahlığı, bir sözlə, gələcəyi həmin hadisə və günlə bağlı olsun. Tarixi günlər xalqa həmçinin öz qara günlərini, onun səbəblərini, səlahiyyətini anlamağa, irəliləyişinə mane olan qüvvələri görməsinə yardım göstərməlidir.

Rəhmətlik Əhmədbəy Ağayev əsrin əvvəllərində yazırdı: "Tarix bir hökmirəbbanidir (ilahidir)", "Ən parlaq mədəniyyətə malik, "ülum və fünuni övciəlaya (yüksək zirvəyə) çatmış, fikrən və əsən hər bir mövhumati səfsətədən azad olan müqtədir şəxslər" onu dərk edə bilər, öz millətlərini tərəqqi və rifaha çatdıra bilərlər" ("Tərəqqi", N66,01.10.1908). Digər bir filosof mühərririmiz Əlibəy Hüseynzadəyə görə, "Həqiqətdə hər kəs öz millət və tayfasının şərəf və şanın bilmək istəsə və ya keçmişdə ata və babasının əməllərindən xəbər tutub öz əməlləri ilə müqabilə etmək istəsə, hər şeydən irəli millətin keçmiş əhvalatlarını bilməyi lazım gəlir. Və bir də təbiət və xasiyyəti tarix kitabından öyrənmək həqiqətə yavuqraqdır. Çünki hal-hazırın əhvalatı və hala həyatda olan şəxslərin söz və əməlləri nəql olunan surətdə çox vaxtda riya və təməllüq (yaltaqlıq) ilə, gizb (yalan) və iftira və müqabilə ilə qarışır və bulaşır, bu cəhətə hal-həyatda olan əşxasın əhvalatından nəticə hasil etmək qayda üzrə dürüst deyildir". ("Həyat", N19, 22.01.1906).

***"Azadlıq" qəzeti, 20 aprel 1995.***



## QAÇANI DA QOVMAQ ADƏTİMİZDİR

**Azərbaycanın mükəmməl təhsil görmüş, Şərqi və Qərbi gözəl bilən, dərin zəkası, fitri istedadı və real düşüncəsilə fərqlənən vətənsevər mütəfəkkir övladı Əhmədbəy Ağayevin anadan olmasının 125 ili tamam oldu. Bütün varlığını öz xalqına, vətəninin tərəqqi və təkamülünə, azadlıq və istiqlalına həsr etmiş Əhmədbəyin şəxsiyyəti və fəaliyyəti, ədəbi və fəlsəfi irsi zəngin və ibrətamiz xəzinədir. Azərbaycan tarixinin bütöv bir dövrü Əhmədbəysiz tam şəkildə təsəvvür edilə bilməz. Onun "Kaspi", "Həyat", "İrşad", "Tərəqqi" və başqa mətbuat orqanlarında dərc olunmuş külli miqdarda yazıları öz tədqiqatçılarını gözləyir. Lakin milli bəlaya çevrilmiş yarımçıqların, yarınanların, yaltaq və sifətdən-sifətə düşən "millət pəhləvanları" və qələm dəllallarının gözümçıxdıya saldıqları başqa mücahidlər kimi Əhmədbəy də 1909-cu ilin yazında vətəni tərk etməyə məcbur olmuşdu. Amma yenə də kin və nifrət, iftira və riyakarlıq "ustaları" ondan əl çəkmirdilər. Belələrinin varisləri: övladları, nəvə və nəticələri indi də yaşamaqda, meydan sulamaqdadırlar. Lakin sinəsini qabağa verən, həqiqi ziyalıları müdafiə edən qorxmaz, cəsarətli qələm əhli də vardı. Bunlardan ən birincisi Üzeyir bəy Hacıbəyov idi. Əhmədbəy Ağayevin 1909-cu ilin sentyabrında İstanbuldan Bakıya Üzeyir bəyə yazdığı və "Tərəqqi"nin səhifələrində dərc edilmiş məktub buna ən yaxşı nümunədir. Onu oxuculara təqdim edirəm.**

### İSTANBULDAN MƏKTUB

"Əzizim Üzeyir! "Zənbur" jurnalının bəndə əleyhinə icra etdiyi hücumata müqabilə olaraq bəndəni müdafiə üçün yazdığınız məqaləni oxudum!

"Zənbur" nə yazdığını, nə çəkdiyini bilməm. Fəqət müdafiənizdən təşəkkürlər edib də bundan sonra bir daha böylə şeylərə cavab verməməyinizi rica və tövsiyə edirəm! Sən işüvə məşğul ol, bacardıqca millətinə xidmət et, əhalinin xabi-qəflətdən ayılmasına çalış! Yazıqdır, vətənimiz, millətimiz! Böylə hədyanatla məşğul olmaq əvəzinə vaxtını, gücünü ciddi işlərə sərf et! Qoy hər nə yazacaqlar, deyəcəklər, çəkəcəklər yazsınlar, desinlər, çəksinlər! Bir gün olar bunlar da yorularlar, usanarlar, insafa gələrlər!

Mən vətəni, millətı, on dörd illik zəhmətimi və hətta qövm və əqrəbamı, çoluq-çocuğumu və əyalımı belə qoyub bu günə adamların əllə-

rindən qaçdım, ən qərib (kimsəsiz) çoluq-çocuğum da buraya gəlirlər, yəni bilmərrə (birdəfəlik) tərk və qəti əlaqə olunar!

Şimdi nə istiyorlar! Hansı vilayətdə, hansı din və məzhəbdə Bakıdan İstanbuladək bir adamı təqib etməklik görünmüş?! Bunlar özləri anlamıyorlar nə yapıyorlar!! Özləri vətənləri üçün nə quyular qazıyorlar!!

Fəqət sən sakit ol, cavab vermə! Əmin ol ki, əhali nə qədər avam olsa da, hər kəsi gözəlcə biliyor, tanıyor? Ona görə də hər kəsi qədərincə təqdir ediyor! Fəqət söz söyləməyə ehtiyac yox! Allah cümləmizi hidayət etsin (doğru yola sövq etsin) ki, bəlkə bir gün bizlərin də qəlbi düzəlib bir iş yapmağa müqtədir olaq!

**ƏHMƏD"**

*"Tərəqqi" N 212, 18 sentyabr 1909.*

**"Azadlıq" qəzeti, 25 aprel 1995.**

## YAZIQ QƏLƏM, OXUCULAR, ƏDƏBİYYAT...


Bu sözlər Üzeyir bəyə məxsusdur. 86 il əvvəl yazılıb. "Azadlıq" qəzetinin 25 aprel sayında Əhməd bəy Ağayevin gənc ziyalılar içərisində milli namus və qeyrətinə, istedad və bacarığına çox böyük hörmət və məhəbbət bəslədiyi, hətta vətəni məcburi tərk etdiyi məqamda "Tərəqqi"yə rəhbərlik etməyi tapşırdığı Üzeyir bəyə İstanbuldan göndərdiyi məktubla oxucuları tanış etmişdik. Maraqlısı budur ki, bu məktub "Tərəqqi"də Üzeyir bəyin doğulduğu gün - sentyabrın 18-də 24 yaşı tamam olan gün - elə bil tarixi bir tövsiyə və hədiyyə kimi dərc olunmuşdu. Bəllidir ki, bu ilin sentyabrında milli iftixar rəmzinə və müqəddəslik zirvəsinə yüksəlmiş, Azərbaycanla bütövləşmiş Üzeyir bəyin dünyaya gəlişinin 110 ili tamam olacaq.

Üzeyir bəy haqqında çox yazılıb, onun musiqi və ədəbi irsini tədqiq etmək sahəsində xeyli iş görülüb. Əsərlərinin böyük bir qismi toplanıb, çap olunub. Lakin "siyasi gömrükxana"dan buraxılmayan, ixtisar olunan, üstündən sükutla keçilən, yaxud həyat və yaradıcılığının təhrif olunan məqamları da az deyil. Bunlardan biri də Üzeyir bəyin Əhməd bəy Ağayev haqqında fikirləri, yazıları, qeydləridir. Əhməd bəyin İstanbuldan Üzeyir bəyə razılıq məktubu göndərməsinin əsas səbəbi 1909-cu il avqustun 24-də "Tərəqqi"də dərc olunmuş "Zənbur" jurnalı sərlövhəli xülasə-məqalə idi.



Bu yazı ciddi bir ixtisarla Üzeyir bəyin 1985-ci ildə nəşr olunmuş "Seçilmiş əsərləri"nə daxil edilib. Çıxarılan Əhməd bəyə aid hissələrdir. Mən böyük zəhmət və əmək sərf edənləri qınamıram, lakin belə ixtisarların xətalı unutqanlıq bəlası gətirdiyini də qeyd etməyə bilmərəm. Axı Üzeyir bəy "camaatımızın ən müşkül və qorxulu bir halında, yəni erməni-müsəlman facieyi-mənhusəsində mərd-mərdanə döşünü gərib qılıncdan kəskin və müəssir (təsirli) qələmilə üzərimizə olan hücumları dəf edən", "hər bir hökumət məsələlərində camaatı müdafiə edən, yol göstərən, əhalimizin hüququnun paymal olmamasına xidmət edən", "islami dövlət olan Türkiyənin mənafeyini qələm vasitəsilə müdafiə edən" Əhməd bəyi qoruyur, qələm qədalarını, onların fitva verənlərini cəsarətlə ifşa edirdi. Göstərim ki, 1909-cu il sentyabrın sonunda Bakıda erməni-müsəlman qırğınına dair məhkəmə prosesi başlanmalı idi. Bu ərəfədə Azərbaycanın tanınmış, savadlı ziyalılarının bir qismi müxtəlif yollar və vasitələrlə, o cümlədən "müqəddəs qələmi şəxsi-qərəz aləti edən", Üzeyir bəyin "Nifrət, nifrət!" deyərək lənətlədiyi "qəzet həşəratları"nın əli ilə vətəndən getməyə məcbur edilmişdi. İndi də kölgəsi qamçılanan, ünvanına olmazın qara böhtanlar yağdırılan M.Ə.Rəsulzadə İrana, Əlibəy Hüseynzadə Türkiyəyə, Qarabəy Qarabəyov Almaniyaya, C.Dağıstani Avstriyaya getmişdilər. Ana dilində yeganə milli-demokratik gündəlik "Tərəqqi" qəzetinin nəşrinin bütün ağırlığı Üzeyir bəyin öhdəsinə düşmüşdü. Həm də vətəni tərk etməyə məcbur olanların İstanbul, Tehran, Təbriz, Berlin və Vyanadan göndərdikləri məktublar "Tərəqqi"də dərc olunurdu. Bu da Üzeyir bəyin sayəsində mümkün olurdu. Elə Əhməd bəyin Üzeyir bəyə məktubu da onun avqustun 24-də "Zənbur" jurnalı barədəki məqaləsinə cavab olaraq qələmə alınmışdı. Məhkəmə prosesi ərəfəsində zənburçuların "Tərəqqi"yə və Üzeyir bəyə qarşı açdıqları qarayaxma, gözdəngalma kampaniyası da məkrli planların bir halqası idi. Bütün bu tarixi hadisələri araşdırarkən istər-istəməz yaşadığımız dövrün faciələri göz önünə gəlir. Axı, müasir "zənburçular" - qələmi "şəxsi-qərəz" və tayfaçılıq-mafiya silahına çevirənlər də az deyil. Belələrini nəzərdə tutaraq rəhmətlik Üzeyir bəy ürək ağrısı ilə yazırdı: "Yazıq qələm, yazıq oxucular, yazıq ədəbiyyat ki, tərbiyəsizlər əlinə düşübdür! Nifrət! Nifrət olsun!"

Üzeyir bəyin söhbət gedən yazısını oxuculara təqdim edirəm. Gəlin, gərdişin bütün sınaqlarından müzəffər çıxan, heç kimsənin ləyaqətinə toxunmağa cürət edə bilməyəcəyi milli müqəddəsimiz Üzeyir bəyin yazdıqlarını diqqətlə oxuyaq, düşünək və onun öz sözlərilə desək, "içimizdən təmizlənək"!



ABŞ-ın Moskva səfiri Cek Metlokun Bakıda jurnalistlər üçün təşkil etdiyi mətbuat konfransının iştirakçıları.
May, 1990.



## "MÜQƏDDƏS QƏLƏMİ QƏRƏZİ-ŞƏXSİ ALƏTİ EDƏNLƏRƏ NİFRƏT!"

***"Zənbur" jurnalı***

Bizim hər bir xeyir işimizi, hər bir nəfli (faydalı) və tərəqqimizə xidmət edəcək təşəbbüslərimizi ibtidasında boğub puç etməklə, bir qədəm irəli, iki qədəm geri qoymağımıza başlıca səbəb aramızda olan bəzi müfsidlərin (araqarışdıranların) meydani-mücahidəyə atılıb da millətpərəstlik maskası altında qərəzi-şəxsi və mənfəəti-xüsusiyyətlərini yeritmələridir, bir işin içində də ki, pak və xalis niyyət əvəzinə qərəzi-şəxsi hiyləsi oldu, o iş zərərdən başqa heç bir xeyir gətirməz.

Şəhərimizdə "Zənbur" adlı bir məzhəkənəvis jurnal nəşr olunacağı və böyle bir jurnalın başında intelligent və ürəfa (ariflər) qismindən hesab olunan doktor Əbdülxalıq Axundov cənabları olacağını eşidib də, əvvəlcə biz sevindik ki, bəli, camaatımızın tərəqqisinə xidmət edəcək bir qələm arkadaşımız dəxi artdı. Lakin minlərcə təəssüflər olsun: "Zənbur" jurnalının məqsədi millətə xidmət deyilmiş, bəlkə, bu ünvan altında gizlənib də öz qərəzi-şəxsisini yeritməklə, müqəddəs qələmi ehtiramdan salmaq və mətbuatı xalq nəzərində palçıqlamaq imiş.

Haman jurnal qərəzi-şəxsi oxunu bizim qəzetənin müdiri Əhmədbəy Ağayev cənablarına dəxi tuş edib, bu axırkı nömrəsində jurnalın üç səhifəsində müdirimizi nalayiq surətlərdə çəkibdir. Məzhəkənəvis jurnallar, zatən, hər bir kəsi hər bir tövrdə çəkməyə muxtardırlar, buna bir sözümüz yox, lakin bir şəxsi öylə jurnallarda çəkməyə mənafeyi-ümumi nöqteyi-nəzərincə bir bəhanə, bir səbəb lazımdır. Jurnalda o adamın şəklini çəkərlər ki, onun gördüyü işlər, tutduğu yol və məslək ümum camaatın mənafeyinə, hüququna, tərəqqisinə zidd və müxalifdir. Əcəba, Əhmədbəy nə iş görübdür və nə iş görür ki, ondan camaata zərər gəlsin? Əhmədbəyin qəbahəti nədir və Əhmədbəy kimdir? Əhmədbəy o adam deyilmi ki, camaatımızın ən müşkül və qorxulu bir halında, yəni erməni-müsəlman facieyi-mənhusəsində mərdmərdanə döşünü gərib qılıncdan kəskin və müəssir (təsirli) qələmilə üzərimizə olan hücumları dəf ediyordu? Və bu yolda onun bir nəfər də olsun köməkçisi yox idi. Əcəba, bunu "zənburçular" bilmiyorlarmı? Yoxsa o vaxt içinə soxulduqları siçan deşiyi o qədər qaranlıq imiş ki, heç bir şeyi görmüyormuşlar, deyilmi? Ondan başqa hər bir hökumət məsələlərində camaatı müdafiə edən, yol göstərən, əhalimizin hüququnun paymal olmamasına xidmət edən yalnız Əhmədbəy deyildimi? Hal-hazırda utana-utana, qızara-qızara görürük ki, Qafqazda təşkil

olunacaq zemstvo haqqında bütün erməni, gürcü, rus qəzetələri hər gün min cürə məqalələr yazmaqla hər kəs səy ediyor ki, haman zemstvo öz millətinə mənfəətli bir surətdə təşkil olunsun. Halbuki bir nəfər müsəlman meydana çıxmıyor ki, bu yolda müsəlmanların hüququnu gözləsin, qoymasın ki, zemstvo nemətlərindən müsəlmanlar məhrum qalsınlar. Haman zemstvonun söhbəti açılan kimi burada da bir-iki müəssir (işgörən) və nafe (faydalı) məqalə yazıb, lakin bədə (sonra) Bakıdan getməyə məcbur olan Əhmədbəy burada olsa idi, bu biarlığa razı olardımı ki, bu günləri biz dinməz-söyləməz oturub gözlüyoruq ki, görək insaflı qonşularımız məsələni öz istədikləri kimi həll edib, bəlkə, bizə də bir pay verələr...

İnsaf ediniz, bu gün Əhmədbəy İstanbulda nə qəbahət göstərir ki, onu nalayiq surətdə təsvirə səbəb olsun? Əcəba, Əhmədbəyin Bakıdan getdikdən sonra acından ölməyib bəlkə həmişə və hər yerdə vəzir-vüzəralar ilə dolanmağı və islam dövləti olan Türkiyənin mənafeyini qələm vasitəsilə müdafiə etməyi qəbahət sayılırmı?

Əcəba, qədrşünaslıq o yanda dursun, hansı insaf, hansı mürüvvət? Bu saatın özündə Əhmədbəy İstanbulda olub yenə öz millətinin qeydin çəkir, görünüz Türkiyənin sərvət və mədaxili-təbiisindən dünənki nömrəmizdə yazıb da təəssüflər ediyor ki, haman yerlər əcnəbilər əlinə keçib milyonlar qazandıracaqdır. Halbuki Bakının əhli-sərvət adamları oralara diqqət yetirmiyorlar ki, həm Türkiyə müsəlmanlarına, həm də özlərinə mənfəət verdirsinlər... Əhmədbəy məsələsi dursun.

Bir qələm sahibi olub da, bütün səy və küşişimizi (diqqətimizi) ona sərf ediyoruq ki, camaat arasında qələm etibardan düşməsin, qələmin hörməti baqi (əbədi) qalsın. "Zənbur" jurnalı isə haman müqəddəs qələmi palçığın içinə batırıb, camaat nəzərində bütün etibar və ehtiramını yerə soxur. Məzhəkə və rişxənd söyüş söymək və tərbiyəsiz sözlər istemal etmək deyildir. Məzhəkənəvis heç bir vaxt ədəb və tərbiyə dairəsindən çıxmamalıdır. Möhtərəm "Molla Nəsrəddin" jurnalı tərəqqi və təalimizə (yüksəlişimizə) mane olan bütün qəbahətimizi ən gözəl ədibanə və ləzzətli, dadlı, duzlu sözləri ilə yazmaqla bütün xalqın, hətta ondan incik olanların dəxi məhbubül qülubu (hamının istəklisi) olubdur. Çünki bu jurnal bir dənə olsun tərbiyəsiz və ədəbsiz sözü özünə rəva görmədi. Və bir də tərbiyəsizlik ədib və qələm sahibinə yaraşan şeylərdən deyildir.

Halbuki "Zənbur" jurnalında bir dənə də olsun məqalə çıxmayıbdır ki, ondan insan bir ləzzət anlasın, zövqü artsın. Məqalələrin hamısı dadsız, şit, insan oxuduqca əti tökülür, utanır islam dövləti olan Türkiyə - "Zənbur" jurnalı guya "Molla Nəsrəddin"ə təqlid ilə mollalara sataşmağı özünə qalxan edib, qərəzi-təxsisi olanlara pis-pis, ədəbsiz sözlər yazıyor.



Bütün Quba camaatının cəhalət və zillətinə səbəb olan Hacı babaları kənarda qoyub, Bakının tərəqqipərvər və məktəb yolunda çalışan mollalarına nalayiq bir surətdə sataşıb, onları itə, donuza təşbih etmək, heyvan demək kimi tərbiyəsiz və ədəbsizliyi rəva görür. Halbuki bütün qələm sahiblərinin borcu millətin tərəqqisinə mane olan mollaları - zəmm (həcv) və qədh etməklə, ədalət və mənafeyi-millət naminə olmaq üzrə, tərəqqiyə çalışan mollaları dəxi müraat (gözləmək) və müdafiə etməkdir, onların abrusunu gözləməkdir.

Söyüş söymək ilə nə xalqı güldürmək olar, nə də mənfəət vermək, bəlkə nifrət qazanmaq olar.

Məra be xeyre to ümmid nist şər mərəsan! (Səndən gələcək xeyirə ümidim yoxdur, amma zərər vermə).

Qələm sahiblərinin və oxucuların diqqətini "Zənbur"un axırkı nömrəsində yazılmış "Toyda" ünvanlı biabru (biabırçı) və bihəya (həyasız) sözlərə cəlb edirəm. O məqalənin heç bir ümumi mənası olmayıb, bəlkə bunu isbat ediyor ki, onu yazan tərbiyəsiz kimdirsə, bir adamla qərəzi-şəxsisi olduğuna görə, götürüb onun barəsində yazıbdır. O cürə şeyləri oxuduqda insanın əti əriyir, nifrətdən başqa heç bir hiss oyanmıyor! Bu nədir? Tərəqqiyə xidmətdir, yoxsa əhalinin əxlaqını pozmaqdır! Yazıq qələm, yazıq oxucular, yazıq ədəbiyyat ki, tərbiyəsizlər əlinə düşübdür!!! Nifrət, nifrət olsun! Müqəddəs qələmi qərəzi-şəxsi aləti edənlərə nifrət!

**Üzeyir bəy HACIBƏYLİ**

*"Tərəqqi", N190.24 avqust 1909.*

**"Azadlıq" qəzeti, 4 may 1995.**

## İKİ YOL AYRICINDA

ABŞ prezidenti Bill Klinton mayın 10-da M.V.Lomonosov adına Moskva Dövlət Universitetində ona fəxri doktor adı verilməsi mərasimindəki çıxışına çoxmənalı və ibrətamiz bir girişlə başladı. O dedi ki, böyük rus alimi Lomonosov 200 il əvvəl ruslara ədəbi dildə danışmağı öyrətmişdi. İndi isə siz demokratiya dilini öyrənməlisiniz.

Çox böyük və qlobal məsələdir. Demokratiya dilini, həyat və düşüncə tərzini öyrənmək üçün yüzilliklərin deyil, minilliklərin istibdad və zorakılıq sistemindən, vərdişindən, ənənələrindən, tədricən də olsa, əl çəkmək, bu sahədə qabaqcıl ölkələrin təcrübəsindən öyrənmək və bəhrələnmək vacibdir. Bu isə yalnız elm, bilik və geniş maarifçilik yolu ilə, sosial ədalətin, haqq və haqqaniyyətin bərqərar olması ilə mümkündür. Azərbaycanın qabaqcıl mədəniyyət və maarif xadimlərinin, dövlət və siyasət adamlarının bu yolda necə fədakarlıqla çalışdıqları tarixdən məlumdur. Mütəfəkkir filosof ədibimiz Əlibəy Hüseynzadə 1906-cı ilin yaz günlərində "Həyat" qəzetində "Milliyyət və insaniyyət" sərlövhəli məqaləsində yazırdı: "Biz bir sövqi-təbii ilə naqabil təğyir bir hökm qədərlə bütün ədyanın, əqvam və millətin getdiyi yollarla gediyoruz! O yolun ibtidası qaranlıq və tikanlı isə də, ilərisi işıq və çəmənlidir!.. Millətlərin bir qismi yolun ortasında getdikləri və ya nəhayətinə yetişdikləri halda, digərləri o yolu başlarlar!.. Bu, bir qanuni-təbiidir ki, adına (evolyusiya) təkamül qanunu deyərlər... Biz də bu yol ilə gediriz; məqsədimiz, amalımız ittihad, ittifaq, ictima, maarif, kəsbükar, sənaye, ticarət və sair qüvvətlər ilə kürreyi-ərz üzərində insanlara mövud (vəd vermiş) olan səadətə nail olmaqdır" (N 77,9 aprel 1906).

Qaranlıq və tikanlı yolla olmazın məşəqqətlər bahasına 1918-ci ilin mayında Azərbaycanın milli istiqlalını bərpa edib Şərqdə ilk demokratik xalq cümhuriyyəti yaradanların xalq və tarix qarşısındakı misilsiz xidmətləri sözlə ifadəyə gəlmir. Lakin qısa müddətdə parlayan bu işığı söndürdülər, çəmənlik tikanlı məftillərlə hörüldü, səadət əvəzinə fəlakət gəldi. Demokratik inkişaf məcrasından ayrı düşdük. İbtidai qaranlıq isə bizi bir kabus kimi təqib etməkdədir. Həm də faciəli cəhət budur ki, zorakılıq, zülm, avtoritarizm tarixi zərurət və hətta "ataların vəsiyyəti" kimi qələmə verilirdi. Söz və fikir ustası Üzeyir Hacıbəyli tariximizin qanlı-qadalı illərində "Koroğlu" operasında Həsən xanın dili ilə, görün, bu istibdad himnini necə səhnəyə gətirmişdi:



***Qamçıdır saxlayan bu rəiyyəti,***
***Qamçısız yaşamaz xanın dövləti.***
***Zülmə öyrənənlər sevməz mərhəmət,***
***Zülmsüz yaşamaz bizim məmləkət.***
***Döyməsən, söyməsən, malın almasan,***
***Dara çəkdirməsən, dama salmasan,***
***Rəiyyət bir daha xanı dinləməz,***
***Malımın, canımın sahibi deməz.***
***İstəsən xanlığı, əz rəiyyəti,***
***Söyləyib atalar bu vəsiyyəti.***

Qərb politoloqlarından biri sosializmdən kapitalizmə keçidi cəhənnəm körpüsündən keçməyə bənzədir, neokapitalizmi isə indiki formada "vəhşi kapitalizm" adlandırır. RF prezidenti B.Yeltsin əvvəlki çıxışlarından birində demişdir ki, kommunist rejimi xalqa bir quyu qazmışdır ki, oradan çıxmaq çox çətin olacaq. İndi Rusiya Federasiyası prezidenti artıq optimist tonda danışır. Rusiya əsl demokratiya yolu ilə addımlayacaq, ya yox - məsələ bundadır.

***"Azadlıq" qəzeti, 16 may 1995.***

Əks-səda

## "TƏRƏQQİ"NİN (1909) - "MÜHAKİMƏ"YƏ (1995) CAVABI

**"Mühakimə" adlanan, amma əslində adının mənasına müqayir olaraq" bir məsələni tədqiq edib müəyyən bir hökm vermək" əvəzinə böhtan və qarayaxma ilə məşğul olan qəzetdə akademik İmam Mustafayevə xitabən Mirzə Qalacıqlı adlı birisinin ədəb və əxlaqdan kənar "şerini" oxuduqdan sonra yazının arxasında duran arxalılara öz münasibətimizi ifadə etmək üzərində fikirləşdik. Son vaxtlar meydan sulayan qələm dəllalarının səviyyəsinə enmək bizə yaraşmazdı. O biri tərəfdən də bu cür ləyaqətsiz hücumları da cavabsız qoymaq olmaz. Bəs nə edək? Məlumdur ki, belə anlarda, istər-istəməz, tarixdə paralellər axtarırsan. Biz də belə etdik. Milli müqəddəsimiz Üzeyir bəy köməyimizə gəldi. İndi 1995-ci ilin qaraguruhçu "Mühakimə"sinə 1909-cu**

**ilin "Tərəqqi"sinin cavabını oxuyun. Aradan 88 il keçsə də mərəz həmin mərəz olaraq qalır. Yalnız familiyalar dəyişib. Tağızadə yerinə Mustafayev qoyulub, Tehran yerinə Bakı.**

## ORDAN-BURDAN

- Daha bəsdir, ay alçaq xuliqanlar, ey millətin xarı və zəlil olmağını özləri üçün mənfəət bilən alçaqlar! Daha bəsdir, milləti əlinizdə alət və oyuncaq qayırıb o fitnə və fəsadlarınızı əmələ gətirmək! Qorxun o gündən ki, camaat ayılıb siz dəlilərin nə cür şeytan olduğunuzu duya və başa düşə. Nə üçün xalqı iqva eyləyirsiniz? Neçin qoymayırsınız ki, xalq öz işinə, öz gücünə məşğul olsun? Nə üçün camaatı aldadırsınız? Nə üçün tazə tərəqqi başlamaq istəyən camaatın içinə pürxaşlıq və şuluqluq salmaq istəyirsiniz? Camaatın tərəqqisini sizin qurdlu və xain qəlbiniz qəbul etmirmi? Nə üçün işıq gələn yerə murdar barmağınızı tıxırsınız? Ey xain öküzlər! Vallah, əmin olun ki, çox meydan sürə bilməyəcəksiniz, zamanə öz işini edəcəkdir və pislik sizin özünüzə qalacaqdır.

Rəfiqim bu sözləri deyib dodaqlarını çeynəməyə başladı, soruşdum: Nə olub, nə üçün ağzından od yağdırırsan? Rəfiqim cibindən qəzetəni çıxardıb qabağıma qoydu və Tehrandan gəlmiş teleqramı (biz isə "Mühakimə" qəzetinin 9 fevral nömrəsini-red) göstərdi. Oxudum. Orada yazılmışdı ki, bəzi adamlar Tehran məscidlərində (bizdə isə qapalı qapılar arxasında-red) Tağızadə cənablarına qarşı sözlər və mövizələr söyləyirlər.

Doğrudan da bu əhval məni dəxi pəjmürdə və pərişan etdi.

Tağızadə ən tərəqqipərəst bir adam olub, millətin xeyirxahıdır. Özünün də elmi və məlumatı çoxdur. Avropada onu yaxşı tanıyırlar və onun sözlərinə etina edirlər və əhəmiyyət verirlər.

Bəs, belə olan surətdə nə üçün Tağızadəyə qarşı sözlər söyləyirdilər və nə üçün o cürə sözləri də camaat qəbul edir?

Nə üçün!.. Çünki Tağızadənin adı hər yerdə çox çəkilir, amma o birilərinki az. Ona görə də alçaq təbiətlilərə bu cürə əhval xoş gəlmir.

Elmli və mədəniyyətli məmləkətlərdə elə ki, gördülər bir adamın ümumi millətə mənfəət vermək qabiliyyəti var, o adama bacardıqca kömək edirlər, amma bizim yerlərdə və İranda ki, mədəniyyət yoxdur, o cür adamların qabağına bəxil (paxıl) və xain adamlar çıxıb fitnə və fəsad qurmaqla başından batırmağa səy edərlər.

O səbəbdəndir ki, mədəniyyətli məmləkətələrdə hər bir cürə hünər getdikcə tərəqqi eləyir, amma mədəniyyətsiz yerlərdə hünər və məharət sahibləri alçaq və dəni təbiət fitnəkarların fisqü-füçuruna qurban olurlar.



Bunun da səbəbi, yəni fitnəkarların meydan bazarlığının səbəbi, camaatın yaxşı və yamana təfavüt qoymamağından və öz xeyir-zərərini bilməməyindəndir.

Doğrudan da, əgər camaat öz xeyir və zərərini bilsə və xeyir gətirən ilə zərər yetirəni dürüst tanısa, o halda alçaq fitnəkarlara yol verməz...

**FİLANKƏS**
**(Ü.Hacıbəyov)**

*"Tərəqqi" 218, 28 sentyabr 1909.*

**"Aydınlıq" qəzeti, 19 may 1995.**

## KİTABDAN AD SİLMƏK OLAR, TARİXDƏN YOX

**Azərbaycan istiqlal hərəkatı, 28 May istiqlal bayramı M.Ə.Rəsulzadəsiz düşünülən bir şey deyil. Bu adlar tarixə elə həkk olunub ki, onu heç bir qüvvə, heç bir iddiaçı qopara bilməz. Təşəbbüslər isə olub və davam etməkdədir. Azərbaycan Xalq Cümhuriyyətini güdaza verənlər Müsavat və M.Ə.Rəsulzadəni az qala Azərbaycan xalqının düşməni kimi qələmə verdilər, minlərcə tərəfdarlarını qırdılar, zəngin ədəbi-siyasi və dövlətçilik irslərini dəmir qapılar arxasında gizlətdilər, yandırdılar, izlədilər. Hətta tarixdə misli çox az görünən ən sonuncu bir hərəkətin şahidi olduq. "Molla Nəsrəddin" jurnalının ərəb əlifbasından kirilə köçürülmüş 1-ci cildində C.Məmmədquluzadəyə hörmətsizlik edib jurnalın 1907-ci il sentyabrın 17-də çıxmış 35-ci nömrəsindəki "Yoldaş" sərlövhəli yazısından (səh.603) "Rəsulzadə", "Rəsulzadə cənabları", "Rəsulzadələr", "Cənab Rəsulzadə" ifadələrini pozub, yerinə "cənab müxbir", "müxbir yoldaş", "müxbir cənabları" və s. yazdılar və çap etdilər. Bu dəyişikliklərə transliterasiya müəlliflərini məcbur edənlər elə bilirdilər ki, rəhmətlik Üzeyir bəyin vaxtilə çox böyük uzaqgörənliklə yazdığı kimi, "o qara pərdəni tariximiz üzərinə örtməklə" iş bitəcək, "kəsif qabıqları yırtmaq və içində mövcud olan**

**sərvətü samanın zühuruna" imkan olmayacaq. Əbəs cidd-cəhddir. Nə qədər ki, M.Ə.Rəsulzadənin öz əqidə və məslək arkadaşları ilə qaldırdıqları üçrəngli istiqlal bayrağı vətənimiz üzərində dalğalanır, M.Ə.Rəsulzadə, onun istiqlal məfkurəsi, ədəbi-siyasi və elmi-nəzəri irsi də yaşayacaq, nəsillərin yolunu işıqlandıran mayak rolunu oynayacaq. Buna heç kəsin şübhəsi olmasın.**

**Bu bayram günlərində milli istiqlal məfkurəsi orqanı hesab etdiyimiz "Açıq söz" qəzetinin 1915-ci il 1-ci nömrəsinin "Tutacağımız yol" sərlövhəli baş məqaləsini oxuculara təqdim edirəm. Müəllifi M.Ə.Rəsulzadədir.**

## *TUTACAĞIMIZ YOL*

Dəhşətlərinə şahid olduğumuz böyük müharibə böyük bir həqiqəti - əsrimizin milliyyət əsri olduğunu isbat etdi.

"Dünyanın xəritəsi qəribə dəyişəcək" - deyə heyrətlə qarışıq bir cümlə indi bir çox ağızlardan eşidilməkdədir. Dünya xəritəsinin alacağı yeni şəkilə vətəndaşların fədakarlığı, dövlətlərin təşkilatı və orduların əzəməti ilə bərabər, heç şübhə yoxdur ki, vüzuh (aşkar) və rüsux (qətiyyətlə) peyda (zühur) etmiş milliyyət məfkurələrinin də böyük təsiri var və olacaqdır.

**Özünü lüzumunca bilib də istiqbal üçün müəyyən bir ideal (məfkurə) bəsləyən millət, şübhəsiz ki, böyük bir qüvvət təşkil edər.** Şübhəsiz ki, sözün tam mənası ilə deyiləcək qədər kuhəfkən (dağ dağıdan) topların hakim olduğu hərb meydanlarında təsirsiz qalmayan bu qüvvət yaşıl mahudlu barışıq masası üzərində də əsaslıca bir təsir yapacaq.

Hər hankı qalib tərəf az-çox sorunlu bir dinclik vücuda gətirmək istərsə, əsrin vicdanları üzərində ən çox təsir icra edən qüvvətli milliyyət məfkurəsini ehmal edəməz! Bunun böylə olacağı arabir gələcəyin sülhü haqqında söz söyləyən Avropa mütəfəkkirlərincə də təsdiq olunmaqdadır. Sülhyunə mənsub siyasilərcə, milliyyət əsasına riayət etməyəcək, millətlərin hüququnu gözətməyəcək bir sülh əqdnaməsi çox çəkməz yırtılar və sorunclu bir dinclik təmin edəməz.

Hüquqi-təbiisi paymal olmuş bir millət baqi (əbədi) qalıncaya qədər Avropa müvazineyi-düvəliyyəsi (dövlətlər müvazineti) hüquqi və sorunclu bir sülh üzü görməkdən məhrum qalacağı kimi, kəndi **(öz) vətəndaşları arasında ögey-doğmalıq gözədən bir dövlət də həqi-**



**qi** bir qüvvətə söykənməyəcək, mütərəqqi və qüvvətli bir təşkilata malik olmayacaqdır.

Demək ki, müəyyən bir məfkurəyə və əksər əfradınca (fərdlərcə) müşəxxəs (tanınmış) qayeyi-amala malik olan millətlər, dövlətlər arasındakı münasibətdə əhəmiyyət qazandıqları kimi, dövlətlərin daxili siyasətləri üzərinə də böyük təsirlər icra edəcəklərdir. **Bu surətdə ayrı-ayrı millətlər bir millət olaraq yaşaya bilmək üçün, hər şeydən əvvəl, özlərini bilməli, müəyyən fikir və amallar ətrafında birləşərək bütün bu məfkurəyə, qayeyi-xəyala hədəf olacaq o işıqlı yıldıza sahib olmalıdırlar. Çünki müttəhid bir ruh və müştərək bir yıldıza malik olmayan millətlərlə yeni əsaslar üzərində qurulacaq həyat həsablaşmayacaq və böylə silahdan məhrum qalan heyətlər kimsəyə söz eşitdirməyəcəklərdir!**

İştə millətimizin bir qəzetəçisi olmaq hesabilə öhdəmizə düşən rəhbərlik vəzifəsinin ifası üçün tutacağımız yolun nöqteyi-əzəmətini (məramını) təşkil edəcək əsas - milliyyət əsasıdır.

Fəqət sui-təfahümə (anlaşmaya) meydan qalmamaq üçün həmən ixtar edəlim ki, (xatırlayalım ki) bizim qəbul etdiyimiz milliyyət düsturu "Zemşina", "Novoye vremya"nın və sair bu kimi sağ qəzetə və məhfillərin (heyətlərin) bəhimi (vəhşi) millətçiliklərindən əlbəttə başqadır. Onlarca özgə millətlərin mənafeyi milləti-hakimənin mənafeyinə fəda edilməlidir. Halbuki bizim tərvic elədiyimiz əsas bütün milliyyətlər üçün bir dərəcə hürriyyət və müsavat tələb edir ki, bununla **biz rus camaatının da salim düşünür qismilə heç bir ixtilafda bulunmuyoruz.**

Hər bir millət azadə yaşayıb da tərəqqi edə bilmək üçün 3 əsasa istinad etmək məcburiyyətindədir: DİL, DİN və ZAMAN.

**Dilcə biz türküz, türklük milliyyətimizdir. Binaən əleyh (ona görə) müstəqil türk ədəbiyyatı, türk sənəti, türk tarixi və türk mədəniyyətinə malikiyyətimiz məqsədimizdir. Parlaq bir türk mədəniyyəti isə ən müqəddəs qayeyi-amalımız, işıqlı yıldızımızdır.**

**Dincə-müsəlmanız. Hər bir din öz mütədəyyinləri (inananları) arasında məxsusi bir təməddün (mədəniyyət) vücuda gətirmişdir ki, bu təməddün də bir beynəlmiləliyyət səbəbi təşkil edir. Müsəlman olduğumuz üçün biz türklər beynəlmiləliyyəti-islamiyyəyə daxiliz. Bütün islam millətlərilə şərikli bir əxlaqa, dini bir tarixə, müştərək bir yazıya, xülasə ortaq bir təməddünə malikiz. Qəlblər bir Allaha mütəvəcce (üz tutan) və dilimiz müəyyən virdlər (daim təkrar edilib söylənən), dualarla mütəzəkkir (yada salınan) olduğundan bütün müsəlmanlarla şərik bir ruha sahibiz. Bu şəriklik islamiyyətə daxil olan zərərli təsirlərdən bizi mütəzərrir etdiyi ki-**

**mi, bu yolda olacaq islahat feyzlərindən də bizi nəsibsiz qoymaz.**

**Zamanca da - biz texnikanın (alyatın), elm və fənnin möcüzələr yaradan bir dövründəyiz. türk və müsəlman qalaraq müstəqilən yaşamaq istərsək, mütləqa əsrimizdəki elmlər, fənnlər, hikmət və fəlsəfələrlə silahlanmalı, sözün bütün mənası ilə zəmanə adamı olmalıyız.**

**Demək ki, sağlam, mətin və oyanıq məfkurəli bir milliyyət vücuduna çalışmaq istərsək ki, zaman bunu iqtiza (tələb) ediyor - mütləqa 3 əsasa sarılmalıyız:**

## TÜRKLƏŞMƏK, MÜASİRLƏŞMƏK VƏ İSLAMLAŞMAQ

İştə millət'mizin həyati-ictimaiyyəsini islah üçün üzərinə dayandığımız se (üç) payeyi-mədəniyyət!

Şərikli vətənimiz Rusiyanın müqəddəratına gəlincə, bütün vətəndaşlarımızla bərabər biz də, hər şeydən əvvəl, Rusiyanın müzəffəriyyət və müvəffəqiyyətini arzu edəriz. Fəqət nə gizlədəlim, bütün tərəqqipərvər Rusiya ilə bərabər, biz dəxi arzu olunan bu zəfərin ancaq daxili islahat təriqilə hasil olacağına qaneyiz.

Rusiyada yaşayan bütün millətlər bu müharibə əsnasında ibraz etdikləri səmimanə əlaqələri ilə göstərdilər ki, hər bir şübhə və sui-zünunların (düşüncələrin) fövqündə saf bir niyyət və atəşin bir vətənpərvərlik hissi bəsləyirlər. Bunun mükafatı olaraq, şübhəsiz ki, bütün millətlər, o cümlədən də müsəlmanlar gözliyorlar ki, islah olunmuş Rusiya kəndi cənahi-şəfqətində (qanadı altında) yaşayan bütün millətlərə mədəni bir istiqbal ilə yaşamaq hürriyyəti-təbiisini müzayiqə etməsin. Böylə bir hürriyyətin, heç şübhəsiz ki, Rusiya istiqbalı nöqteyi-nəzərindən cəsur düşməni təpələyib də gəldiyi yerə qovmaq qədər böyük bir əhəmiyyəti vardır.

Oxucularımızı artıq yormamaq üçün "Açıq söz"ün təsisi ilə tutacağımız yolun əsli nöqtələrini muciz (qısa) bir surətdə zikr etdik. Şübhəsiz ki, bundan sonra burada müxtəsərən sərd (ötəri) etdiyimiz əsasları daha təfsilli və daha açıq bir surətdə yazacaq, fikirlərimizin ümumiləşməsinə çalışacağız. Ehtimal ki, türkləşmək, islamlaşmaq və müasirləşmək nəzəriyyələrini təşrih (müfəssəl şərh) edərkən bir çox nöqtələrdə bizə müarizlər (etiraz edənlər) bulunacaq və ehtimal ki, (bəlkə də yəqin - M.Ə.), Rusiya daxili siyasəti haqqında bəslədiyimiz məsləkə görə rus tərəqqipərvərləri ilə bərabər biz də bəzi əksülhərəkələrə tutulacağız.



Fəqət hankı fikir və qələm mübarizəsi bundan azad olmuş.

Sərd elədiyimiz fikir və nəzəriyyələrimizi tərhic üçün "Açıq söz" açıq bir dil ilə yazmağa səy etməklə bərabər, isminin müsəmmasına (adlandırılmasına) müvafiq olduğunu üslubunun aydınlığından ziyadə, nəşr edəcəyi fikir və mənaların açıqlığında göstərmək istəyəcəkdir.

Yazdığı şeylərə səmimanə surətdə müariz olanlarla qəzetəmiz böyük bir həvəs və ehtiramla mübahisə edəcək, fəqət "Açıq söz"də kəndi (öz) şəxsi mənfəətlərinin düşmənini görərək qərəzlə meydana girəcəklərə də sözün lap açığı ilə qarşı çıxacaqdır.

Xülasə, tutacağımız yolda önümüzə çıxacaq olanlara qarşı yeganə vasitəmiz olacaq açıq söz!

**M.Ə.RƏSULZADƏ**

*"Açıq söz", N 1,2 oktyabr 1915-ci il.*

***"Azadlıq" qəzeti, 27 may 1995.***

## EMOSİONAL DEMOKRATİYA - HAY-KÜYÇÜLÜK

**Son vaxtlar fəal siyasi mübarizə meydanına çıxmış Rusiya Federasiyasının baş naziri V.Çernomırdin elan etdi ki, ölkə emosional demokratiya mərhələsini aşıb işgüzar demokratiya ilə məşğul olmalıdır. Yaxşı tövsiyə, məqbul qayədir. Lakin bu məqsədə nail olmaq da asan deyil. Tarix boyu Rusiyanı obyektiv ziddiyyətlər,intahasız iştəhalar, ambisiyalar çalxalayıb, hay-küyçülük ölkənin həqiqi tərəqqi və təkamül yoluna düşməsinə imkan verməyib. Yuxarıdan inqilablar bu böyük və zəngin ölkəni neçə əsrdir ki, təqib etməkdə və sonda uçurum qarşısında qoymaqdadır. Amma Rusiya hər dəfə böyük məhrumiyyətlər və itkilər bahasına - əsrlərin və nəsillərin təcrübəsini öyrənmiş alimlərin də qeyd etdikləri kimi - hansısa bir möcüzə ilə yaxasını qurtarmağa müvəffəq olub. XX əsrin sonunda neca? Müəmmalı sual budur.**

**Azərbaycan da demək olar ki, iki əsrlik təpikaltı dövründə Rusiya ilə birgə bu qeyri-adi yolun müşahidəçisi və az-çox iştirakçısı olmuşdur. İnkişaf və tərəqqinin daşlı-kəsəkli və əzablı məcrası**

**bizi düz yoldan, mənəvi əxlaqi dəyərlərdən də nisbətən ayrı salmışdır. Hay-küyçülük, məsləksizlik bəlası bəzi düşünən başları belə korşaltmış, taqətdən salıb əsir-yesir etmişdir.**

**"Həyat" qəzeti 1905-ci ilin avqustunda ürək ağrısı ilə yazırdı: "Aman, nə yaman xasiyyətimiz var. Bir işin, bir tədbirin siftəsində cuşə gəlirik, barıt kimi alovlanırıq, göylərə qalxırıq. Lakin çox keçmiyor ki, yenə sükutlaşırıq. Yenə sönürük. Yenə diblərə enirik. Xüsusi işlərimiz kimi ümumi işlərimizi də "Allah kərim" quyusunun lap dərin yerinə tullayırıq... Bəli, bəzi məsələlər, xüsusilə ölüm-dirim məsələmiz... xüsusi şüarlarla qurtarılır".**

**Bundan 4 il sonra Üzeyir bəy "Həqiqət" qəzeti səhifələrində açıqca etiraf edirdi ki, "sürdüyümüz həyat deyildir, bəlkə həyat içində bir məmatdır", çünki "tərəqqi bulmaq yolunda heç bir fəaliyyət müşahidə olunmur", "tərəqqi fikri qövldən felə (sözdən işə) qoyulmur", ancaq hər yerdən "ləbbeyk səsləri eşidilir".**

**Kimlərdir millətə ləbbeyk öyrədənlər? Bu sualın cavabını M.Ə.Rəsulzadə belə verirdi: "Alim və mütəfəkkir babaların kölgəsində gizlənən və naxələf iş görən cahil nəvələr".**

**Hay-küyçülük istiqlal mücadiləsinin qarşısında duran ən böyük maneədir. Üzeyir bəy çox böyük uzaqgörənliklə bu bəlanı vaxtında görmüş və yazmışdı: "Adamların öz başlarına oynamaqlarına hələ bir çox vaxt istər, onları oynadan isə hər zaman tapılır". Bunu isə hay-küyçülər edə bilir. Onlarla tanış olmaq istəyirsinizsə, onun bu məsələyə dair yazısını oxuyub agah olun!**

## KÜYÇÜLÜK

Tək bir dava söhbətlərində küyçül deyilik, hər bir barədə küyçülük. Bir adamı pisləyəndə elə pisləyirik ki, eşidənlər o adamdan nifrət edirlər. Amma sonda yeri düşür ki, haman adam ilə görüşməyə və görüşüb danışmağa məcbur oluruq, baxıb görürük ki, xeyr a! Bu adam deyilən kimi bir o qədər də pis deyildir. Bir az da ora-burasını qurdalayıb görürük ki, hələ desək, bu adam onu pisləyənin özündən bir qədər də yaxşıdır. Bir az da dərin baxıb, ölçüb-biçəndən sonra məlum olur ki:

- Pis adam bu deyilmiş, bəlkə bunu pisləyənin özü imiş!

Həmçinin, birisini tərifləyəndə, onu götürüb ərşi-fələyə qalxızırıq və özümüz də deyirik:

- Dünya yaranandan bəri bu cürə adam dünyaya gəlməyib və bundan sonra da heç gəlməyəcəkdir!



O qədər tərif və tövsif olunur ki, (tanıdılar ki;) eşidənlər az qalırlar ki, onun kölgəsinə də salam versinlər. Amma sonra küyçülüyümüz məlum olur. "Məruf" (təriflənən) adamın bir o qədər də tərifə layiq olmadığı get-gedə aşkar olur. Və yainki elə bilirlər ki, bu məlakədir. Odur ki, sonra görüşəndə məlakə fikr etdiyimiz adamı lap adi bir insan görüb boşalırıq və keyfdən düşürük...

* * *

Belə-belə şeylərin və hər bir kələ-kötürlərimizin səbəbi odur ki, tənqidimiz yoxdur.

Hər kəs bildiyini eləyir, bildiyini işlədir, bildiyini yazır, bildiyini deyir, bildiyini əmələ gətirir. Bir adam da olmur ki, bu işlərin yaxşı tərəfini yaxşı ayağına, pis tərəfini pis ayağına verib yaxşını-yamandan ayırsın. Biləks bizdə "tənqidçi"lərimiz var, yəni yalançı tənqidçilər ki, yaxşıya pis və pisə də yaxşı deməyə insafı yol verir. Bu yalançı tənqidçilər iki cürədirlər:

birisi anlaya-anlaya pisi yaxşı və yaxşını pisləyir, qərəzi-şəxsisi var və o qərəzi-şəxsisini hər bir şeydən əvvəl tutur:

birisi də anlamadığına görə pis yaxşı və yaxşıya pis deyir, çünki başa düşmür və ağlı kəsmir.

Hər ikisinin cəmaətə zərəri vardır!

* * *

Dünyada iki şey var:

- Haqq və
- Nahaq.

Kişilik nədir?!

Kişilik ondadır ki, tutduğun işin nahaq olduğunu sənə bildirəndə boynuna almaq və bir də özgəsinin tutduğu işin də haqq olduğunu iqrar etmək. Hərgah hər bir işlərimizdə böylə mərdanə olsaq, böyük hünər sahibi olarıq.

**FİLANKƏS (Üzeyir bəy Hacıbəyli)**
*"Yeni iqbal", N 148,22 oktyabr 1915.*

**"Azadlıq" qəzeti, 6 iyun 1995.**



*Respublika Ali Sovetində:*
*professor S.Əliyarlı, Xalq şairi B.Vahabzadə, professor Ş.Hüseynov*
*Yanvar, 1990.*

## UTANILASI ZAMANDIR

Əlli illik məslək dostum Bəxtiyar Vahabzadənin oxuduğum son əsəri "Utanıram" adlanır.

Ürək ağrısı, ciddi həyəcan, milli sarsıntılar və faciələrin əks-səda-sı olan bu şer təsadüfi yazılmamışdır. O, həmişə özündən narazı olan, həyat həqiqətinə sadiq böyük sənətkarın 70 il "hay-haray içərisində əritdiyi ömrün" bir növ yekun simfoniyasıdır.

Müdrik el ağsaqqalı, mütəfəkkir ədib, istiqlal mücahidi şair nədən və niyə utanır, məyus olur, heyfsilənir və yenə də "sonuncumuz qala-nadək ya vuruşaq, ya utanaq! (məhv olaq!) - deyir.

Qəlbi göynədən, tarix və zaman, keçmiş və gələcək qarşısında ol-mazın məsuliyyət və cavabdehlik hissi keçirən hər bir millət övladı üçün şairin ürək yanğısı və çaldığı həyəcan təbili gərək ki, cavabsız qalmasın.



Keşməkeşli və faciələrlə dolu əsrimizdə və ondan qabaqkı illərdə də zəhmətlərini, fədakarlıq və səylərini nəticəsiz görən müdriklərimiz içərisində də xəyal qırıqlığına uğrayan, millət yerinə utanan sənətkar-larımız az olmayıb. Böyük həmyerlimiz xalqı fanatizm və cəhalət gir-dabından xilas etmək yolunda misilsiz xidmətlər göstərmiş M.F.Axun-dov da ömrünün qürub çağında Bəxtiyar kimi "utanmışdı". Canından çox sevdiyi milləti onu tək qoymuşdu. Milli intibahın böyük mücahidi Həsənbəy Zərdabi quru taxt üstündə can vermişdi. Əhmədbəy Ağa-yev 1907-ci il noyabrın 30-da Zərdabinin dəfn mərasimindəki nitqin-də mərhuma müraciətlə demişdi: "Ey ali-ruh! Şimdi sən gedirsən ata-babalarımızın, əcdadımızın hüzuruna. Onlara bizdən salam yetirib də bizim bu şikayətimizi de: Ey əcdad, ey babalar! Bizə nə gün qoydu-nuz? Bizə nə növ irs qoydunuz, getdiniz? Stanlarımız (məmləkətimiz) xərabə, vilayətlərimiz viranə! Cümlə millətlər arasında sərnigün, xar, zəlil, məqhur (qəhr olmuş), məzlum, əhvalımız pozğun! Günü-gündən tənəzzül edib, günü-gündən puç və zay olmaqdayız! Əlan işimiz, sə-nətimiz oğurluq, quldurluq, bir birimizin canına, malına, irz-namusuna qəsd etmək imiş! Ey kaş nə biz olaydıq, nə böylə irs".

Daha bir misal. Əhmədbəydən doqquz il sonra 1916-cı ildə dahi bəstəkar, böyük söz ustası, fikir bahadırı Üzeyirbəy Hacıbəyov "Yeni iqbal" qəzetəsində "Nəyimizin vaxtıdır" seriya məqaləsində yazırdı:

"İndi, bu on ilin ərzində (1905-1915-ci illər nəzərdə tutulur. Ş.H.) bu milli təşəbbüslərimizdən Qafqaz müsəlmanları tərəqqi və təkamül yo-lunda "bol-bol" mənfəətlər görməli idilər. Bu tərəqqi və təkamül mən-bələrindən saçılan işıqların dairəsi hər il getdikcə böyüyüb, cəhalət qaranlığının ən uzaq guşələrini də işıqlandırmağa başlamalı idi. Hal-buki, əksini görürük. İşıq dairəsi ildən-ilə qaralıb sönməyə maildir və bu sayaq ilə qalarsa bir gün dəxi sönəcəyi aşkardır".

Üzeyirbəy də bax beləcə həyəcan təbili çalır, utanırdı!

Son on ilin (1985-1995) həyəcan təbilini indi Bəxtiyar Vahabzadə çalır!!

Zamanın və tarixin gərdişi son neçə əsrdə elə cərəyan edir ki, Azərbaycan xalqı zaman-zaman öz milli varlığını, ata-baba torpaqları-nı, bəzən də dilini inam və inancını itirmək təhlükəsi qarşısında qalır. Nə üçün? Səbəb nədir? Nə etmək və nədən başlamaq lazımdır? Tale yüklü, çox mətləbləri özündə ehtiva edən bu əsri suallara bir mənalı cavab vermək əvvəllər də çətin olub, elə indinin özündə də çətindir.

Əsrlərin və nəsillərin təcrübəsi göstərir ki, yaşamaq və yaratmaq əzmi olan millətin hər bir nəsli öz tarix və tale borcunu yerinə yetirmə-yə borcludur. Bu borc millətin varlığını, torpağını, dilini, inam və inan-

cını, əcdadlarının qoyub getdikləri yaxşı nə varsa hamısını mühafizə və inkişaf etdirməkdən, zamanla ayaqlaşmaqdan, tərəqqinin bəşəri məcrasına qoşulmaqdan ibarətdir. Əlbəttə, bu həqiqətləri birinci növbədə xalqın ziyalısı: elm, mədəniyyət və birinci növbədə siyasət və dövlət adamları dərk etməli, iş görməlidirlər. Lakin milli dövlətçiliyini, istiqlalını itirib başqalarının qapazı altında ömür sürənlərin taleyi bambaşqadır. Bu şəraitdə söhbət "Olum, ya ölüm" alternativindən gedir. Xalq birdən-birə ölmür. Tarix səhnəsini bir anlıq tərk etmir. O, əvvəlcə əhaliyə, insan toplusuna çevrilir. Müstəqil düşünmək, birlikdə hərəkət etmək, müqavimət göstərmək, varlığını, bütün maddi və mənəvi imkan və vasitələri səfərbər edib qorumaq bacarığını itirir, parçalanır, əvvəlcə Vətən namusunu, qeyrətini itirir, sonra növbə iki əllə yapışdığı, fəxr və vəsf etdiyi ailə namusuna gəlir. Cəsarət və qeyrəti, işgüzarlıq və təmiz əxlaqı nifrət doğurucu bəd əməllər və hərəkətlər əvəz edir.

Bəxtiyar utanır, biz necə?

***"Şəki" qəzeti, 16 avqust 1995.***

## BİR DAHA ÜÇRƏNGLİ BAYRAĞIMIZ HAQQINDA

**Hər bir ölkənin müstəqilliyini təsdiq edən onun atributlarıdır. Himn, bayraq, gerb bu atributların ayrılmaz tərkib hissəsidir. Elçibəy iqtidarı birillik hakimiyyətində özünü Azərbaycan Demokratik Respublikasının varisi hesab elədi və təbii ki, o dövrün dövlət rəmzlərini də bütünlüklə bərpa etdi. Bu gün qəflətən bayrağımızın bir mövzu kimi "aktuallaşdığı bir dövrdə ötən tariximizə qayıtmağı məsləhət bilib professor Şirməmməd Hüseynova müraciət etdik:**

1918-ci il iyunun 21-də Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti müvəqqəti olaraq Milli Məclis çağırılana qədər Azərbaycan Bayrağını təsdiq etdi. Bu bayraq qırmızı rəngli, üstündə ağ hilal 8 guşəli ulduz olan eynən Osmanlı Türkiyəsinin bayrağıdır. Osmanlı bayrağı 1299-cu ildən o vaxta qədər Türkiyənin dövlət bayrağı olub.

1918-ci il noyabrın 9-da Bakıda Fətəli xan Xoylunun rəhbərliyi ilə Azərbaycan hökumətinin, Milli Şuranın bəzi üzvləri ilə birgə yığıncaq keçirilir. Bu yığıncaqda əsas iki məsələ müzakirə olunur.



Birinci məsələ Milli Şuranın iclasını çağırmaq olur. Məlumdur ki, 1918-ci ilin yayından Azərbaycan hökumətinin təşkilindən sonra 44 nəfər Milli Şura üzvü öz fəaliyyətini dayandırmış, səlahiyyətlərini Azərbaycan hökumətinə vermişdi. Noyabrın 9-da qərara alınır ki, 16-da Milli Şura çağırılsın, "Azərbaycan" qəzetində elan verilir. Məqsəd Milli Məbusan - parlament seçmək olur. Qərara alınır ki, ümumxalq nümayəndəliyi toplansın və Milli Şuranın 44 üzvü, bütün siyasi partiyaların nümayəndələri və milli azlıqların nümayəndələrindən 120 nəfər olsun. Həmin gün müzakirə olunan ikinci məsələ Milli Bayraq məsələsi olub. Fətəli xan Xoylu məruzə edib və məruzədə qeyd edib ki, müstəqil Azərbaycanın ilk parlament iclasında Azərbaycanın Milli bayrağı qaldırılmalıdır.

Xatırladırıq ki, Azərbaycan hökuməti Bakı azad olmadığına görə, Gəncədə yerləşəndə Osmanlı bayrağını qəbul etmişdi. O vaxt Azərbaycan hökuməti öz ərazilərini azad etmək iqtidarında deyildi. Ona görə də Məmmədəmin Rəsulzadə Osmanlı hökuməti ilə danışıqlar aparmaq üçün İstanbula gedir. İstanbulda aparılan danışıqlar nəticəsində Azərbaycan ərazilərini azad etmək üçün Qafqaz-İslam-Türk ordusu yaradılması haqda razılığa gəlirlər. Razılığa görə, ordu Osmanlı bayrağı altında vuruşmalı idi. Bir də Azərbaycan müstəqil dövlət kimi özünü qorumağa qabil olmadığına görə, Türkiyə ilə konfederasiya yaratmalı idi. Bakı azad olunandan sonra hökumət Gəncədən ora köçdü. Artıq Birinci dünya müharibəsi qurtarmaq üzrə idi. 9 noyabrda qərara alındı ki, Azərbaycan müstəqil dövlət kimi yaşaya bilər və belə olan halda istər Rusiya, istərsə də Qərb müstəqilliyi tanıyacaq, Azərbaycanın müstəqil dövlət kimi yaşama və taleyini həll etmək imkanını nəzərə alaraq müstəqil milli dövlət bayrağı yaradılsın. Məmmədəminin ideyasına görə, bayraq göy, qırmızı və yaşıl rənglərdən, ağ hilaldan və səkkizguşəli ulduzdan ibarət olmalı idi. Hələ 1919-cu ilin may ayının 28-də Üzeyir Hacıbəyov "Azərbaycan" qəzetində "1 yaş" sərlövhəli məqaləsində yazırdı:

"Al rəng türklüyün, yaşıl rəng İslamın, göy mədəniyyətin rəmzidir".

Ə.Cavad, C.Cabbarlı və başqaları bu üç rəngi başqa izahı ilə məzmunu saxlamış, öz fikirlərini söyləyiblər.

Bayrağı ilk dəfə 1918-ci ildə dekabrın 7-də parlamentin açılış günü M.Ə.Rəsulzadə qaldırıb və məşhur "Bir kərə yüksələn bayraq, bir daha enməz" sözlərini deyib.

Azərbaycan bayrağını ilk qaldıranlar Azərbaycan istiqlalını həm ideya, həm də nəzəri cəhətdən hazırlayıb həyata keçirən, əsasən də müsavatçılardan ibarət cümhuriyyətçilər qaldırıblar.

1920-ci il aprelin 28-də Azərbaycan Bayrağını parlament üzərindən endirib sovet bayrağını qaldıranda M.Ə.Rəsulzadə deyib: "Onların parlament binasında qaldırdığı əski parçasıdı. İstiqlal bayrağını xalqın qəlbindən çıxartmaq mümkün olmayacaq. Vaxt gələcək Azərbaycan gəncliyi, yeni istiqlalçılar nəsli bu bayrağı bağrından çıxarıb parlament üzərinə sancacaq".

Söhbətin sonunda Şirməmməd müəllim bildirdi ki, bayrağa hörmət tarixə hörmətdir. Hər şeyimizi siyasətə qurban vermişdik. Bircə bayrağımız qalmışdı. Bayrağı yaltaqlıq obyektinə çevirmək olmaz. M.Ə.Rəsulzadəyə böhtanlar yağdırılanda, bayrağımızın da aqibətinin belə olacağını bilirdim.

**"525-ci qəzet"**
*23 sentyabr , 1995*

## TÜRKİYƏ VARİANTI AZADLIQ YOLUDUR

*Tanınmış alim, siyasi şərhçi Şirməmməd müəllimlə görüşümüzün məqsədi xalqımız üçün taleyüklü sayılan aşağıdakı suala cavab almaq idi.*

**- Şirməmməd müəllim, oktyabrın 9-da Xəzərdən çıxarılacaq ilkin neftin nəqlinin daşınacağı marşrut barədə qəti qərar qəbul ediləcəyi gözlənilir. Sizin fikrinizcə, bu gün ilkin neftin daşınması ilə əlaqədar ortada olan 2 variantın - (Gürcüstan və Rusiya) siyasi yöndən hansı respublikamız üçün daha sərfəlidir?**

- Bilirsiniz, məsələyə qlobal yanaşmaq lazımdır. II Dünya müharibəsi qurtardı, Almaniya və Yaponiya məğlub oldular və iqtisadi cəhətdən böyük dağıntıya məruz qaldılar. Qərbi Avropa orientasiyanı ABŞ-a doğru götürdü, bazar iqtisadiyyatına, demokratiyaya üz tutdu. Şərqi Avropa isə yarıxoş, yarızor SSRİ-yə totalitarizmə, dövlət iqtisadiyyatına üz tutdu. Sosializm modelinə üstünlük verdi. Kim uddu? Qərbi Avropa. Qalib gələn Sovet İttifaqı, Şərqi Avropa və müstəqilliyini qazanan keçmiş SSRİ ölkələri ac yalavacdır, iqtisadi və siyasi böhran içindədirlər. Deməli, o vaxt Rusiya orientasiyasını götürənlər bəşəri inkişaf yolunu müəyyənləşdirə bilmədilər. Şərqi Avropa, Kuba, hətta Anqola və digərləri, totalitarizmə üstünlük verənlər uduzdular. İndi biz də müharibədən çıxmış ölkəyik və II Dünya müharibəsindən sonrakı ölkələrin vəziyyətindəyik. Hansı yolu seçək, hansı iqtisadi modelə üstünlük verək? Həm də söhbət demokratik, azad inkişaf yolunu seçməkdən gedir. Ona görə də neft kəməri marşrutuna yüz il sonrakı durumdan yanaşmaq lazımdır. Niyə? Çünki, bizim iqtisadiyyatımızı, təhsilimizi, həyatımızı modernləşdirmək üçün yeganə yol mütərəqqi, azad, demokratiyanı təmin edən varianta üstünlüg verməkdir. Ac ölkədə avtoritarizm, totalitarizm olar, hürriyyət, azad inkişaf isə olmaz. Neft bizim əsas sərvətimizdir. Biz bu nefti hansı yolnan Qərbə çıxara bilərik? Məsələnin siyasi əhəmiyyəti də məhz bundadır. Mən bütün varlığımla və tarixi təcrübəyə əsaslanaraq deyirəm ki, bizim neft kəmərinin yeganə yolu Gürcüstan vasitəsiylə Türkiyədir. Bu, azadlıq, demokratiya yoludur. Burada digər siyasi aspektlər də var. M.Ə.Rəsulzadə 7 dekabr 1918-ci il Azərbaycan parlamentinin ilk iclasındakı nitqində: "Biz Rusiya camaatının da düçar olduğu fəlakətdən qurtarmasını ürəkdən istəriz. Biz Rusiya hökumətinin həqiqi rus demokratiyası əlinə keçməsi tərəfdarıyıq. Çünki Qafqaziya dağlarının şimalında təşəkkül edən müstəbid və təcavüzkar bir hökumətə biz laqeyd qala bilmərik. Biz Rusiyanın səadətini istəriz, Rusiyanın səadətini səveriz, fəqət kəndi istiqlalımızı da hər şeydən əziz tutarız. Cəbr ilə qəbul edilən bir şeydə qətiyyən səadət olmaz. Çünki səadət hürriyyət və islamdadır" - dedi.

Bunu, bax, bu gün üçün deyib. İndi qardaş dediyimiz türk cümhuriyyətlərində hakimiyyətdə olanların başı Moskvada, mədələri Türkiyə, İran və Qərbdədir. Çünki Rusiyadan alınacaq bir şeyləri yoxdur. Ona görə də nə qədər ki, Moskvabaşlar M.Ə.Rəsulzadənin də dediyi kimi, cəbrinə açıq və gizlicə onların dediklərini oynamağa məcburdurlar, bu adamlar tarix qarşısında da cavabdehdirlər. Bu gün qəbul ediləcəg qərar Azərbaycan xalqının taleyi məsələsidir, təkcə neft məsələsi deyil.

Mən, B.Klintonun H.Əliyevlə telefon danışığının da əsas səbəbini bunda görürəm. Məhz bütün bu amilləri nəzərə alanda Azərbaycanın gələcək inkişafının Qərbə bağlı olmasının, neftin Türkiyə variantının həyata keçməsinin Azərbaycanın gələcək istiqlalı, azad, demokratik inkişafı üçün əhəmiyyəti göz qabağındadır. Əks halda bizi fəlakət gözləyir.

**Müsahibəni apardı: Əziz Mustafa**

***"Zaman" qəzeti, 7 oktyabr 1995-ci il***

## ADI TARİXƏ HƏKK OLUNMUŞ DÖVLƏT XADİMİ

Məşhur türk tədqiqatçısı Mustafa Yazıçının türk dövlətləri tarixinə dair kitabında* Azərbaycan dövlətlərinə həsr olunmuş xüsusi bölmə var. Bölmənin XX yüzilliyə həsr olunmuş hissəsi bu sözlərlə başlayır: "Tarixdə qurulan türk dövlətləri sıralamasında Azərbaycan cümhuriyyəti (1918-1920) 114-cü sırayı almaqdadır". Sonra: "28 may 1918-də Azərbaycan milliyyətçi Müsavat Partiyası lideri M.Ə.Rəsulzadə liderliyində bağımsız Azərbaycan dövləti qurulmuşdur". "Fətəli xanın başbakanlığında qurulan bağımsız cümhuriyyət ilk olaraq Türkiyə ilə bir anlaşma imzalamışdır".

İlk müstəqil Azərbaycan cümhuriyyətinin sədrini yaxından tanıyan məslək, əqidə və qayə dostu, həmkarı Xəlil bəy Xasməmmədovun oxuculara təqdim etdiyimiz xatirə məqaləsində yazdığı kimi "Fətəli xan əslən kübar, fəqət qəlbən demokrat olub dövlətşünas və qanunçu", "gözəl natiq, qüvvətli məntiq sahibi... mühüm və vacib dövlət məsələlərinin həllində dərin zəka göstərən bir kişi idi". O, "səmimi millətpərvərliyi, dönməz iradəsi ilə məmləkətinin müqəddəratına bağlı bir Azərbaycan dövlət xadimi idi.

1875-ci il dekabrın 7-də Şəkidə əsilli-nəsilli bir ailədə dünyaya göz açmış Fətəli xan cəmi 45 il ömür sürüb - ləyaqətli, namuslu, fədakar ömür. İxtisasca hüquqşünas idi. Moskva Dövlət Universitetinin məzunu, qanuna, ədalətə, millətinə sədaqətli, nəfsinə hakim, ziyalı hüquqşünas. Peşəkar inqilabçı deyildi. Siyasi hərəkata bilavasitə 1917-ci ilin fevral inqilabından, yəni çar mütləqiyyət idarə üsulu devrildikdən sonra maraq göstərmişdi. Doğrudur, 1907-ci ildə Gəncə quberniyasından 2-ci Dövlət dumasına deputat seçilmiş və dumanın müsəlmən" fraksiyasının üzvü kimi bəzən kəskin çıxışları da olmuşdur. Lakin 1917-1918-ci illərdə milli istiqlal mücadiləsi namuslu bir vətən övladı, həm də dövlət quruculuğu, qanunçuluq və idarəetmə işlərində səriştəli bir mütəxəssis kimi onu da özünə cəlb etmişdi.

Fətəli xan bütün varlığını Azərbaycanın müstəqilliyi yolunda fəda edən tarixi şəxsiyyətdir. Anadan olmasının 120 illiyi günlərində onun xatırlamağı, Xəlil bəyin də yazdığı kimi, "həm vicdanımız və həm də milli qürurumuz tələb etməkdədir"





*Fətəli xan Xoyski*

## 28 MAYIN BÖYÜK QURBANI

1918-ci ilin 28 Mayı azəri türklərinin milli varlığını yüksəldən bir gündür. Bu gün azəri türkləri yeni bir tarixə qədəm atmış və bu tarixdə Azərbaycan öz milli və müstəqil həyatının təməlini qoydurmuşdur.

Qəddar rus imperializminin bir əsrlik zavallı qurbanı Azərbaycan qaranlıq əsarətdə, inkişafdan məhrum qalmış və durmadan, usanmadan bu əsarətə qarşı canla, qanla mücadilə yürütmüşdür. Zaman və məkanla başqa-başqa cərəyan alan bu milli mücadiləmiz tarixi gələcək milliyyətçi tariximizin müvəffəqiyyətlə başaracağı şərəfli bir vəzifəsindən olduğunu anlatma bu gün mövzumuz xaricindədir. Yalnız burada bu tarixi bir daha anmaqda məqsədimiz onun o müqəddəs xatirəsini yenidən yaşatmaq və qovuşacağımız idealı canlandırmaqdır.

Nəhayət, 15 il bundan əvvəl, o müqəddəs 28 May günündə Rusiyanın keçirdiyi böhran və inqilabdan istifadə edən Azəri türkləri öz milli varlıqlarını əldə etmiş və bir əsrlik əsarət pəncəsindən milli türk Azərbaycanını xilas etmişdilər. Yalnız bu gün Azərbaycan milləti əlaqəsini Rusiyadan kəsmiş və yalnız bu gün Azəri idarəsi hakimiyyətini qurmuşdur. İştə 28 Mayda "Azərbaycan Milli Şurası"nın cahana elan etdiyi "İstiqlal bəyannaməsi" bu dönməz və sönmək bilməz milli Azəri türklərinin iradəsi əsəridir. Və bundan dolayıdır ki, 28 May hər bir Azərbaycan türkünün milli bayramıdır. Əlbəttə, başqa cür də ola bilməz.

Ancaq bu milli və tarixi günümüzü hər daim xatırlarkən, gözümüzün önündə bu milli idarə qurbanlarından biri olan və bu sətirlərin kəndisinə hörmətlə ithaf edilən mərhum Fətəli xan Xoyskinin əziz şəhid ruhu qəlbimizdə bütün acısı ilə canlanmaqdadır. Ona Azərbaycanla bərabər ağlamamaq mümkün deyildir. O, Azərbaycanda doğulmuş və Azərbaycanla sönmüş bir ulduzdur. Nə yazıq ki, keçirdiyimiz bugünkü durğunluq dövrü onun yüksək şəxsiyyətini və milli istiqlal mücadiləsindəki, milli Azərbaycan dövləti quruculuğundakı rolunu-xidmətlərilə ölçmək imkanı verməkdədir. Bununla birlikdə tarixçilərimizin bu nöqsanı da qisas alıb puç edəcək, düzəldəcəklərinə qüvvətlə əminik.

Mərhum Fətəli xan həqiqətən təbiətin də ona bəxş etdiyi bir çox müsbət keyfiyyətlərə malik qiymətli şəxslərimizdən biridir. Əslən kübar, fəqət qəlbən demokrat olub, dövlətşünas və qanunçu idi. Gözəl natiq, qüvvətli məntiq sahibi mərhum Fətəli xan mühüm və qüvvətli dövlət məsələlərinin həllində dərin zəka göstərən bir kişi idi. Səmimi millətpərvərliyi, dönməz iradəsi ilə məmləkətinin müqəddəratına bağlı bir Azərbaycan dövlət xadimi idi.

Xarici görünüşü ilə mütənasib ruhi zənginliyi mərhuma böyük bir cazibə bəxş etmişdi. Nəhayət, mərhum Fətəli xan özünü sevdirən bir şəfəq və əlaqə oyandıran bir arkadaş idi.

İştə bu qədər ali və müsbət keyfiyyətlərə malik kimsələr yalnız milli oyanış və milli qurtuluş anlarında həqiqi və milli qüvvələri öz ətrafında toplar və müştərəkən milli qurtuluşa sağlam bir təməl ata bilər. Mərhum Fətəli xan Mili Azərbaycan Cümhuriyyətinin quruluşunda həqiqətən belə bir rəhbər olmuşdur. Onun siyasəti vaxtında və bacarıqlı rəhbərliyi ilə "Milli Şura" yuxarıda bəhs etdiyimiz və Azəri münəvərlərilə bütün millətin duyğu və milli ülkisinə tərcüman olan, qətiyyən münaqişə götürməz "İstiqlal Bəyannaməsi" olan "milli pakt"ı elan etmişdir. Hətta onun rəhbərliyi ilə belə tənzim edilmişdir.

"İstiqlal Bəyannaməsi"nin (misaqının) emalına mütənasib "Milli Şura" ilk Azərbaycan cümhuriyyəti hökumətini qurarkən, mərhuma haqqını vermiş və onun əlinə ilk heyəti-vükəla riyasətini etibar etmişdi. Bu isabətli qərar, sırf onun həqiqi rəhbərliyi ilə dövlətimizin sarsılmaz bir təməl quracağından doğmuş idi.



Mərhum Fətəli xanın bu vəzifəni tutması ilə sabit oldu ki, artıq milli dövlət və cümhuriyyət əmin və sağlam əllərə təslim edilmiş bulunuyor. Xüsusilə Azərbaycan əhalisi deyil, ümum Qafqaziya millətləri arasındakı şöhrət və hörməti milli cümhuriyyətimizin yüksək prestijə malik olduğuna bir dəlil təşkil ediyordu. Bundan dolayıdır ki, mənhus istila, **Azərbaycan cumhuriyyətinin işğalını təqib arxasınca istiqlalın ən canlı və sağlam övladlarının canına qıymağa başladı.**

Bu qırğının ilk şəhidi mərhum Fətəli xan Xoyski idi. Azərbaycan istiqlalının düşmənləri, Azərbaycan məfkurəsinin zərərli qatilləri qanlı əllərini mərhuma uzatdılar. Və onu sırf öz millətinə xidmət etdiyindən və ölkəsinə olan dərin bağlılıq və eşqindən dolayı, **ana torpağından, uzaq qürbət ellərin küçəsində açıqlı bir surətdə qətl etdilər.** Milli cümhuriyyətimizin təməlli bir banisi, sevgili arkadaşımız, **küçə arxasından qətl edilmiş və mənhus bir millətin güllələ istiqlaliyyətə gözünü qapadı.**

Mərhum Fətəli xanın acı-açıq faciəsi Azərbaycanın ən əngin guşələrində dərin və acı bir əks-səda oyandırdı. Bu qeyd olunmuş milli **cümhuriyyətin ziyalı zümrəsinin kürəyinə endirilən zərbələrin ən əsası və ilki idi.** Buna rəğmən biz bu qaba intiqam hissindən uzaq olub, onun da canını qoyduğu milli ölkə uğrunda əmin addımlarla yürüməklə milli intiqamımızı almış oluruq.

Şübhəsiz, bir gün gələcək, Azəri türkləri də milli cümhuriyyətin bu keçid dövründən qurtulmuş olacaqdır. **İştə o zaman hürr məmləkətimizin minnətdar və həqiqətli övladları, qürbət ellərin tərk edilmiş yiyəsiz məzarıstanında istirahət edən mərhum Fətəli xanın ağlar nəşini, onun qəlbimizdə yaşayan əziz ruhu ilə bərabər milli yurda, çox görmüş və keçirmiş zavallı ölkəmizə nəql edəcək və şairin dediyi kimi, ona kimsənin irişəməyəcəyi iftixarlı bir abidə dikələcəkdir.**

***Bunu bizim həm vicdanımız və həm də milli qürurumuz tələb etməkdədir.***

**Xəlil Xasməmmədov**

*"Azərbaycan yurt bilgisi", 1933.*

**İstanbul**

*** "Tarixdə 128 türk dövləti ilə 318 dövlət - 356 hökumət başqanlarının özəllikləri" - Ankara, 1990.**

## DEKABRIN 7-Sİ İKİLİ ƏZİZ GÜNDÜR

Tarix və tale Azərbaycan xalqına yaşadığımız əsrdə iki dəfə müstəqil dövlət həyatını bərpa etmək şansı yaradıb. 1918-ci il dekabrın 7-də müstəqil Azərbaycan Cümhuriyyətinin ilk parlamentində hökumət başçısının gördüyü işlər barədə millət vəkillərinə hesabat verən Fətəli xan Xoyski nitqini aşağıdakı sözlərlə başlamışdı:

"Möhtərəm Azərbaycan parlamanı əzası! Bu gün öylə böyük, əziz və mübarək gündür ki, bunu biz azərbaycanlılar yuxumuzda da görəmməzdik. Bu gün o gündür ki, milli müqəddəratınızı öz əlinizə aldınız. Hökumət məni vəkil etmişdir, bu bayram münasibətilə sizi və sizinlə bərabər özümüzü təbrik edəm".

Ürəkdən gələn bu səmimi sözlərə 77 ildən sonra bir əlavə etmək istərdik: ilk milli parlamentimizin açıldığı əziz və mübarək gün həm də ilk müstəqil milli hökumətimizin başçısı, görkəmli hüquqşünas, dövlət və siyasət adamı Fətəli xanın anadan olduğu gün idi, həmin gün onun 43 yaşı tamam olurdu. Bu, tarixin xoş təsadüfü, yoxsa talenin gərdişi idi - onu deyə bilmərik. Amma hər iki mübarək gün milli salnaməmizə yazılıb.

***"Azadlıq" qəzeti, 9 dekabr 1995.***

## BÜRONUN QƏRARI. MSK-NIN MƏLUMATI

Noyabrın 12-də axşam saat 9-a qalmış Səməd Vurğun küçəsi 24 nömrəli binada yerləşən seçki məntəqəsinə səs verməyə getdim. Sakitlik idi, gələn-gedən yox idi. İkinci mərtəbədə qapının ağzında milis zabiti və mülki paltarda iki nəfər dayanmışdı. Ünvanımızı soruşub hörmətlə səsvermə otağını köstərdilər. Böyük, işıqlı, səliqəli otaqda masa arxasında 4 nəfər qadın əyləşmişdi. Pasportumu və seçkiyə dəvət çağırış vərəqəsini təqdim etdim. Xanımların qarşısında sərilmiş siyahı vərəqələrinin hərəsində 2-3 imza görünürdü, elə bilki seçki məntəqəsi indicə işə başlayırdı. Mənim imzalayıb bülletenlər aldığım vərəqədə də cəmi iki imza vardı. 20-22 adamdan yalnız ikisi səs verməyə gəlmişdi. Doğrusu hədsiz dərəcədə təəccübləndim. Müstəqil Azərbaycanın ilk parlamentinə, ilk Anayasasına belə münasibəti dərk etmək, şərh etmək çox çətin idi. Özü də Bakı şəhərinin lap mərkəzində - respublika sarayı, Ali məhkəmə, Respublika Dövlət Bankının əhatəsində olan seçki məntəqəsində. Bütün gecəni belə bir həyəcanla keçirdim. Səhər Mərkəzi Seçki Komissiyasının ilk məlumatını eşitdim... Sən demə seçicilərin 80 faizdən çoxu seçkidə iştirak edib. Gördüklərimlə eşitdiklərimi müqayisə etdim. Şanlı qırmızı bayraqlı illərdə şahidi olduğum bir əhvalat yadıma düşdü.

Oktyabrın ortalarında universitet tələbələrini təcili olaraq Saatlı-Sabirabad rayonlarına pambıq yığmağa göndərmişdilər. Demişdilər: pambıq var, yığan çatışmır. Mən də tələbələrdən bir qrupuna rəhbər təyin edilmişdim, rayon mərkəzindən 18-20 km aralı bir kolxozda pambıq yığmalı idik. 3-4 gün sahələrdə rast gəldiyimiz adda-budda pambığı yığdıq, sonra işsiz qaldıq. Xahiş etdik ki, bizi başqa yerə, yəni pambıq olan yerə dəyişsinlər. Rayon mərkəzinə toplaşdıq. Müəllimlərin əksəriyyəti vəziyyətin hər yerdə eyni olduğunu söylədilər. Məsələni götür-qoy edib rayon partiya komitəsinə getdik ki, yuxarılarla danışıb bizə şəhərə, öz işimizə, dərslərə dönməyimizə icazə versinlər. Raykomun birinci katibi çox sakitcə dedi ki, rayonda pambıq var, narahat olmayın. Sonra yeməyimizin-içməyimizin vəziyyətilə maraqlandı. Biz təşəkkür etdik ki, bu barədə şikayətimiz yoxdur. Qayıtmaq məsələsi ciddi qoyulanda katib ayağa durdu və "gedək mən sizə pambıq göstərim yığın" - deyib müəllimlərdən daha çox fəallıq göstərənlərdən 3 nəfərini, o cümlədən məni özü ilə aparacağını bildirdi. Qaş qaralandan xeyli keçənədək kolxoz və sovxoz sahələrini gəzdik. Biz rayon mərkəzinə qayıdanda müəllimlərin böyük əksəriyyəti artıq kəndlərə - tələbələrin yanına qayıtmışdılar. Katib bizi kabinetinə apardı, mənim qətiyyətlə "yoldaş katib gördünüz ki, sahələrdə pambıq yoxdur" - sözlərimə eyhamla qımışıb yarıciddi, yarızarafat - "ay yoldaş jurnalistlər, rəhbərimiz deyir ki, siz partiyanın əlaltısısınız (rusca da podruçnıye sözünü işlətdi). Az.KPMK-nın bürosu qərar çıxarıb ki, Saatlıda pambıq var, siz və biz indi necə bu qərarın əleyhinə çıxa bilərik? Büronun qərarı əsasdır, yoxsa sizin gördüklərıniz?!"

25 ilə yaxın bir müddət keçməsinə baxmayaraq bu əhvalat yadımdan çıxmır. İndi də belə bir alternativ qarşısında qalmışam: öz gördüklərimə inanım, yoxsa Mərkəzi Seçki Komissiyasının məlumatına? Deyəsən bu dəfə də katibin dediyi və bizi susdurmaq istədiyi "büronun qərarı var".

**"Azadlıq" qəzeti**
**21 noyabr 1995.**

## MİLLİ İSTİQLALIMIZIN BAYRAQDARI

Güzəranımız məşəqqətli, taleyimiz faciəli, günlərimiz ağrılı-acılı keçsə də başımız üzərində dalğalanan və yavaş-yavaş dünyada tanınan üçrəngli istiqlal bayrağı, nəfəs almağa başladığımız müstəqillik ab-havası gələcəyə ümidlə baxmağa, böyük arzuların əvvəl-axır çin olacağına hədsiz inam yaradır.

Əsrlərin və nəsillərin tarixi təcrübəsi də şahidlik edir ki, milli istiqlalını, müstəqil dövlətçilik həyatını itirən xalqların yenidən dirçəliş yoluna çıxması heç vaxt asan və hamar olmamışdır. İndi də belədir. Məhv olmağa hazır olmayan bir millət azad ola bilməz - böyük istiqlal mücahidlərinin tarixdən aldıqları ilkin dərs belə olub.

Yaşadığımız və yola salmağa hazırlaşdığımız yüzillikdə Azərbaycan xalqı da yenidən qəddini düzəldib ayağa durmağa dəfələrlə cəhd göstərmişdir. Onu bu yola sövq edən, qəflətdən ayıldan, kimliyini dərk etdirən, qüvvəsinə inam yaradan qeyrət və namus mücəssəməsi mücahid vətən övladları: M.F.Axundov, H.Zərdabi, Ə.Hüseynzadə, Ə.Ağayev, M.Sabir, C.Məmmədquluzadə, M.Ə.Rəsulzadə, Ü.Hacıbəyov və başqaları olub.

Azərbaycanda Milli dirçəlişin ən güclü kollektiv vasitəsi dövri mətbuat olmuşdur: "Əkinçi", "Həyat", "İrşad", "Molla Nəsrəddin", "Tərəqqi", nəhayət, nəşrinin 80 illik yubileyini qeyd etdiyimiz "Açıq söz" qəzeti.

"Açıq söz" təkcə jurnalistika tariximizə deyil, ictimai-siyasi, elmi-nəzəri, ədəbi-bədii fikir tariximizə daxil olmuş mübariz mətbuat orqanıdır.

1915-ci il oktyabrın 4-də Üzeyir Hacıbəyovun baş redaktoru olduğu gündəlik "Yeni iqbal" qəzetində "Qurtuluş" və "Açıq söz" sərlövhəli bir yazı dərc olunmuşdur. Burada oxuyuruq: "Sırağa gündən etibarən şəhərimizdə Hüseyn Sadiq (Seyid Hüseyn) cənablarının təhti idarəsində "Qurtuluş" adında iki həftəlik bir jurnal və M.Əli Əbdüləziz oğlu cənablarının naşirliyi ilə gündəlik "Açıq söz" qəzeti nəşrə başladı. "Qurtuluş"un da, "Açıq söz"ün də baş məqalələri Məmməd Əmin Rəsulzadə cənablarının asari qələmidir.

Gündəlik "Açıq söz"ün baş redaktor M.Ə.Rəsulzadə tərəfindən yazılmış "Tutacağımız yol" ünvanlı məqaləsində qəzetin məsləki xüsusunda deyirlər ki, "öhdəmizə düşən rəhbərlik vəzifəsinin ifası üçün tutacağımız yolun nöqteyi-əzimətini təşkil edəcək əsas-milliyyət əsası olacaqdır".

Üzeyir bəy sonra baş məqaləni geniş və tutarlı dəlillərlə şərh edir.



"Açıq söz" elan edirdi ki, o, siyasi, ictimai və ədəbi türk qəzetəsidir". Qeyd edək ki, bu qəzetə qədər Azərbaycanda nəşr olunan heç bir mətbuat orqanında "siyasi" sözü əvvəldə işlədilməmişdir. Bu səbəbsiz deyildi. 1911-ci ildə təşkil olunmuş "Müsavat" partiyası, 1913-cü ilin yazında M.Ə.Rəsulzadə Bakıya qayıtdıqdan sonra öz ilk proqramında əsaslı dəyişikliklər etmiş, bu qısaca: "türkləşmək, islamlaşmaq və müasirləşmək" şəklində formalaşdırılmışdı. Məmmədəmin və onun məsləkdaşları gördülər ki, 1914-cü ilin avqustunda dünya müharibəsinə girən Rusiyada "Açıq söz"ün də qeyd etdiyi kimi, elə bilirdilər ki, o, "3-4 aydan artıq davam edə bilməyəcək". Lakin müharibə uzanır, dəhşətli və fəlakətli səciyyə alırdı. Mütləqiyyət rejiminin süqutuna səbəb olacaq amillər görünməkdə idi. M.Ə.Rəsulzadə "Böyük vüquat qarşısında" sərlövhəli məqaləsində yazırdı: "Bu vüquatın pək yaxındamı, yaxud bir müddət sonramı zühur edəcəyi" zamanın işidir.

"Açıq söz" Azərbaycanın bütün vətənpərvər, açıq gözlü ziyalılarını öz ətrafına yığıb uzaqdan hənirtiləri hiss edilən, eşidilən "vaqieyi-əzimə"yə hazırlaşmağı qarşısına məqsəd qoymuşdu. Lakin bu strateji məqsədə çatmaq üçün həddindən artıq çətin, mürəkkəb, keşməkeşli yol qət etmək lazım idi. Qarşıda şiddətli "fikir və qələm mübarizəsi" dururdu.

1915-ci il oktyabrın 2-dən ta 1918-ci ilin mart faciəsi başlanan, yəni daşnak-bolşevik hərbi dəstələrinin Bakıda azərbaycanlıları kütləvi surətdə qırmağa başladığı günə - martın 18(31)-nədək "Açıq söz"ün 724 nömrəsi işıq üzü görmüşdür. Uzun illər dəmir seyflərdə gözdən və tədqiqatdan uzaq saxlanılan, yalnız xüsusi icazə ilə tanış olmaq imkanı verilən "Açıq söz"ün hər bir nömrəsi tariximizin kollektiv yaddaşı, canlı, düşünülmüş və həyat həqiqətlərini doğru və dolğun əks etdirən salnaməsidir. M.Ə.Rəsulzadə, Ü.Hacıbəyov, Ö.F.Nemanzadə, Ə.Cavad, Y.V.Çəmənzəminli, N.Nərimanov, A.Şaiq, S.Hüseyn, Ə.Haqverdiyev, S.Mənsur, B.A.Talıblı, Tağı Şahbazi, A.Səhhət, H.Mirzəcamalov, Ə.Cövdət, Hüseyn Tələt, S.Mümtaz, Ə.Həmdi, S.M.Qənizadə, Ş.Əfəndizadə, Ə.Səbri Qasımov, Ə.Əzimzadə, N.B.Vəzirov, M.Ə.Nasir, M.M.Axundov, Ə.Müftizadə, Ə.Razi, F.İsaxanov, M.N.Qaragözov, X.Sultanov, Ə.Əfəndizadə, C.Hacıbəyov və adlarını çəkməyə imkanımız olmayan yüzlərcə qələm əhli "Açıq söz" ətrafında cəmləşmişdi. Göstərək ki, "Açıq söz" nəşrə başlayanda artıq "Molla Nəsrəddin"in nəşri dayandırılmışdı. Jurnal 1915-1916-cı illərdə çıxmamışdır. 1915-ci il martın 20-dən "İqdam", aprelin 27-dən isə "İqbal" qəzetləri də çıxmırdı. Halbuki Yusif Vəzir Çəmənzəminlinin də "Açıq söz"də yazdığı kimi "bizə ciddi mətbuat çoxdan lazım idi".

Azərbaycan Milli istiqlal məfkurəsinin işlənib hazırlanması "Açıq söz" qəzeti və onun baş redaktoru M.Ə.Rəsulzadənin adı ilə bağlıdır. 1916-cı ilin oktyabrında qəzetin nəşrə başlamasının bir illiyi münasibətilə dərc olunmuş "Getdiyimiz yol" sərlövhəli baş məqalədə deyilirdi;

"İlk nömrədə "Açıq söz" tutacağı yolun istiqamətini göstərmək üçün 3 nöqtə bəlləmişdi: türkləşmək, islamlaşmaq, müasirləşmək.

Bu üç maddəni təhlil etmək istərsək əlhasil sonuncusu - müasirləşməkdən başlamalıyız.

Müasirləşmək - iştə bütün millətləri sülh və nicat yoluna çıxaran böyük vasitə! Müasirləşməyən, yəni zaman və əsrindəki maddi və mənəvi vasiteyi-mədəniyyə ilə silahlanmayan bir cameyət (toplum) gərək qan və dilcə birləşmiş milliyyət və ya din, ruh və vicdanca tanışmış beynəlmiləliyyət olsun - mümkün deyil..."

M.Ə.Rəsulzadə 1916-cı ilin son aylarında müasirləşmək məqaləsini nahaq yerə ön plana çəkmirdi. "Açıq söz"ün 1917-ci il 11 yanvar sayında baş məqalədə ciddi xəbərdarlıqla göstərilirdi: "Bəyanatlar və xəbərlər bəşər dünyasının irəlidə əqləgəlməz dəhşətli və qanlı bir mənzərəyi-vüquat qarşısında olduğunu göstərirlər".

Yanvarın 19-da "Açıq söz" "Millətlərin təmin hüququ" məqaləsinə dair baş məqalə dərc etmişdi. Burada oxuyuruq: "Bundan belə Avropadakı və Asiya Şərqindəki böyük-kiçik, güclü-gücsüz millətlərin həqqi-həyat və hürriyyəti-milliyəsi, tərəqqiyati-mədənisi haqqında Avropanın, Amerikanın, Yaponiyanın fikir və məqsədləri bəyan edilmiş, eşidilmiş oldu. Fəqət bütün bu bəyanatların, nitqlərin, ibarəsinə, məzmununa diqqət edilsə görülər ki, burada mətləb "Avropa" kəlməsilə qeyd olunmaqdadır...

Avropa mədəniyyəti Avropadakı üfaq millətlərin hürriyyət və hüququ mövzusunda pək olduğunu görəcəksiniz... fövqəladə diqqət ediləcək burasıdır ki, bütün bu qədər nitqlər və sözlərdə "Şərq əqvami" və xüsusən "Orta Şərq millətləri" haqqında bu günə qədər bir kəlmə ilə olsun "ifadeyi-məram" edilməmişdir... Əcaba orta Şərqdə hüquq və hüriyyəti - mədəniyyəsi təminə möhtac bir millət yoxmudur?.."

Əsrimizin ikinci on illiyində xalqımızın siyasi mədəniyyətinin, siyasi-milli təfəkkür tərzi və dünyagörüşünün formalaşması da birinci növbədə "Açıq söz" qəzetinin fəaliyyətilə bağlıdır. Təsadüfi deyildi ki, 1917-ci il fevralın sonunda çar mütləqiyyət idarə üsulu dağıdıldıqdan sonra keçən qısa bir müddətdə "Müsavat" partiyası Zaqafqaziyanın ən güclü siyasi qüvvəsinə, "Açıq söz" isə ən nüfuzlu mətbuat orqanlarından birinə çevrilmişdi. Bu barədə verilmiş bir yazıda deyildiyi kimi



"Açıq söz" qəzetəsi oxucularının hüsn-rəğbətini qazandığından daxili Rusiyadan, Varşava, Krım və Qafqazdan və Əndican təriqi ilə bütün Türküstan və Kvançiyə qədər özünə müştəri cəlb etməyə müvəffəq olmuşdur".

1917-ci ilin oktyabr çevrilişinə qədər milli-mədəni muxtariyyət, Milli-məhəlli muxtariyyə tələblərilə çıxış edən "Açıq söz" çevrilişdən sonra çox böyük ehtiyat və xüsusi taktiki gedişlərlə, hadisələrin cərəyanını diqqətlə izləyərək Milli İstiqlal problemini ehtiyatla gündəliyə gətirdi. 1918-ci ilin 28 may fütuhatı - Müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi "Açıq söz"çülərin qələbəsi idi. Təsadüfi deyildi ki, Üzeyir Hacıbəyovun baş redaktorluğu ilə 1915-ci il aprelin 28-dən nəşrə başlamış gündəlik "Yeni İqbal" qəzeti 1917-ci ilin avqust günlərində "Açıq söz"lə birləşmiş və İstiqlalın elanından sonra "Azərbaycan" adı ilə bərpa olunmuşdur. Tam siyasi fəaliyyətə keçən M.Ə.Rəsulzadəni müstəqil Azərbaycanın ilk nüfuzlu siyasi qəzetinə rəhbərlikdə Üzeyir və Ceyhun Hacıbəyov qardaşları əvəz etmişdilər.

Azərbaycan yenidən istiqlaliyyətinə nail olmuşdur. "Açıq söz" qəzeti indi "Bir kərə yüksələn bayraq bir daha enməz!" epiqrafı ilə, əsası 1915-ci ildə M.Ə.Rəsulzadə tərəfindən qoyulmuşdur" - qeydlərilə çıxır. Ənənəni yaşatmaq, istiqlalçılıq, dövlətçilik məfkurəsinə sədaqət, müasirləşmək uğrunda mübarizə "Açıq söz"çülərin yeni nəsli qarşısında duran amallardır. Bu bayram günündə "Açıq söz"çü mücahidlərin hər birinə səmimi qəlbdən min rəhmət oxuyur, yeni nəslinə isə uğurlar diləyirəm.

"Açıq söz"ü gündəlik, iri həcmli, sözün geniş mənasında siyasi qəzet kimi görmək istərdik.

***"Açıq söz", 22 dekabr 1995.***

## AZƏRBAYCANIN BÖYÜK GÜNLƏRİNDƏN BİRİ

**Həqiqi məhəbbət və sevinc həyatın və ömrün əbədi mayası, yaşamağın mənasıdır. Milli məhəbbət və ümumxalq sevinci yetkinliyin, cəsarət və fədakarlığın rəmzi, əlamətidir. Tarixi gerçəklikdir ki, Rusiyada olduğu kimi bizdə də əsrlərcə siyasi bayramlarımız olmamışdır. Halbuki milli siyasi bayramları olmayan xalqları əbədi yaşamağa qadir, dünyanın qabaqcıl toplumlarının layiqli üzvü saymırlar. Bizdə hakimiyyətdə olanları mədh etmək, fəaliyyətini şişirtmək, pərəstişkarlıq hissi yaratmaq, iqtidardan gedəndən sonra isə hətta istedadlı, namus və qeyrətli siyasət və dövlət adamlarına belə qarayaxmaq adəti mövcuddur. Qısası, faciəli günlərimiz çox, sevincli milli bayram günlərimiz azdır. Bu nisbətin dəyişməsi perspektivi də görünmür. Odur ki, heç olmazsa ata-babalarımızın, istiqlal mücahidlərimizin yaşadıqları tarixi sevinc günlərini yada salaq. Belə istiqlal bayramı günlərindən biri 1920-ci il yanvarın 12-14-də bütün Azərbaycanın qeyd etdiyi dünyaca tanınmaq günüdür.**

**"Azad Azərbaycan vətəndaşları, gözləriniz aydın!"**

1920-ci il yanvarın 14-də Müsavat Partiyasının "Azərbaycan" qəzetində dərc olunmuş xalqa müraciəti belə adlanırdı.

1920-ci il yanvarın 12-də Bakıya Tiflisdən teleqrafla belə bir şad xəbər gəldi: **"Lord Kerzon müttəfiqlər Şurayi-Alisinə Azərbaycan ilə Gürcüstan istiqlallarını felən qəbul və təsdiqini təklif eləmiş, Şura əzası (üzvləri) dəxi vaqe olan təklifi ittihadi-ara (yekdilliklə) qəbul eləmişdir".**

Yanvarın 13-də "Azərbaycan" qəzeti "Azərbaycan ilə Gürcüstanın təsdiqi" sərlövhəsi ilə bu xəbəri elan etdi. Qəzetin həmin nömrəsində oxuyuruq: **"Səşənbə günü yanvarın 13-ü Bakıda ən adi və təbii, həm də təbii olduğu qədər saf və səmimi bir bayram kimi keçdi. Hələ gecə yarısı "Azərbaycan" qəzetləri (Azərbaycan və rus dillərindəki qəzetlər nəzərdə tutulurdu - Ş.H.) mətbəədən çıxar-çıxmaz Antanta tərəfindən Azərbaycan istiqlalının təsdiq edilməsi xəbəri ildırım sürətilə bütün şəhərə yayılmışdı".**

Yanvarın 14-də Bakı və bütün Azərbaycan milli müstəqillik və istiqlalın 19 aylıq imtahan dövründən müzəffər çıxaraq dünyanın aparıcı iri dövlətləri tərəfindən tanınmasını böyük sevinc və ruh yüksəkliyi ilə bayram etdi. Müstəqil cümhuriyyətin istiqlalçı qəzetlərinin bayram nömrələri buraxıldı:

**"Azərbaycanın ən böyük günü", "Gözləriniz aydın!", "İstiqlal bayramı", "Azad Azərbaycanın vətəndaşları, gözləriniz aydın"**



başlıqları ilə çıxmış yazıları indi də həyəcansız oxumaq olmur.


Azərbaycan istiqlalının dünyaca tanınması münasibətilə cümhuriyyət hökuməti yanvarın 14-nü rəsmi bayram günü elan etdi. Teleqraf və telefonla Azərbaycanın şəhər və qəzalarına əvvəlcədən bu barədə rəsmi xəbər verilmişdi. Paris sülh konfransı Ali Şurasının qərarı ilə əlaqədar cümhuriyyətin paytaxtında Bakıda mitinq və nümayişlər, Azərbaycan ordusunun hərbi paradı oldu. Saat 12-də parlamentin təntənəli iclası açıldı. Millət vəkilləri ilə yanaşı bütün hökumət üzvləri, İngiltərə, Gürcüstan, Estoniya və Polşa diplomatik nümayəndələri də iclasda iştirak edirdilər.




Parlamentin iclasında sədrlik edən Həsənbəy Ağayev müstəqilliyin tanınması ilə bağlı Gürcüstan Müəssislər Məclisinin, Ermənistan hökumətinin, Gürcüstan Müsəlman Milli Şurasının, Qafqazda Alman Mərkəzi Şurasının, Azərbaycanda yaşayan polyakların, Norveç konsulunun, Azərbaycanda yaşayan Krım tatarlarının və b. göndərdikləri təbrik teleqramlarını oxudu. Təntənəli iclasda milli istiqlal hərəkatının tanınmış öndəri, ilk cümhur başqanı M.Ə.Rəsulzadə, A.B.Səfikürdski, S.Ağamalıoğlu, M.A.Quxman, S.A.Vensoviç, V.A.Bakradze təbrik nitqi söylədilər. "Azərbaycan" qəzetində Zaqafqaziyada bulunan Amerika fövqəladə komissarı Miralay Haskelin təbrik teleqramı dərc olunmuşdu.

76 il bundan əvvəlin böyük yanvar sevincini anarkən Versal (Paris) sülh konfransında iştirak edən başda Ə.Topçubaşov olmaqla Azərbaycan nümayəndə heyətinin böyük zəhmət və fədakarlığını qeyd etməyə bilmərik. Azərbaycanın siyasi istiqlalının dünyaca tanınmasına nail olanların xatirəsini yad edir və əmin olmaq istəyirik ki, bu tarixi gün müstəqil Azərbaycanın təqvimində layiqli yer tutacaqdır.

***"Azadlıq" qəzeti, 13 yanvar 1996.***



## HACIBƏYLİ UZAQGÖRƏNLİYİ, KOVALYOV HARAYI

**B**u sərlövhə ilk baxışdan müəmmalı görünə bilər. Hacıbəyli dedikdə, fevralın 3-də anadan olmasının 105 ili tamam olan Azərbaycan istiqlal hərəkatının tanınmış fədailərindən biri - hüquqşünas, Sarbona Universitetinin məzunu, istedadlı jurnalist və publisist, nəhayət, milli müqəddəsimiz Üzeyir bəyin kiçik qardaşı və ayrılmaz həmkarı Ceyhun bəyi nəzərdə tuturuq. Sergey Kovalyovu da məncə, təqdim etməyə ehtiyac yoxdur. İnsan hüquqları uğrunda mərd mübariz, qəlbində insanlıq və Allah eşqi, qanında haqqa və ədalətə sədaqət, əməlində təmənnasızlıq, ürəyindən keçənləri açıq-saçıq söyləməyi bacaran, qorxu-hürkü nə olduğunu bilməyərək hər cür təqibə sinə gərən Sergey Kovalyovu aləm tanıyır. Dünyasını 34 il bundan əvvəl dəyişmiş Ceyhun bəylə Kovalyovu ruhən, mənən yaxınlaşdıran onların Rusiyada demokratiyanın tarixi taleyi ilə bağlı baxışlarıdır. "İzvestiya" qəzetinin builki 24 yanvar sayında Dövlət Dumasının deputatı S.Kovalyovun RF prezidenti B.Yeltsinə açıq məktubu dərc olunmuşdur. Mən tarixi sənəd kimi qiymətləndirilməyə layiq bu məktubu diqqətlə oxuyarkən mərhum Ceyhun bəyin 1953-cü ildə Parisdə xaricdəki rus mühacirlərinin bəzi qruplarının öz demokratik əqidə və məsləklərini kənara ataraq müharibədən sonra daha da möhkəmlənən rus-sovet imperiyası haqqında necə canfəşanlıq etdiklərini ifşa edən məqaləsi yadıma düşdü. "Rusiya demokratları hansı məqamlarda bolşeviklərlə qovuşurlar?" sərlövhəli məqalənin məğzi belədir: "Bolşevizm xalqların tədriclə məhv edilməsi, onların həyat qüvvələrinin tükədilməsi deməkdir". S.Kovalyov isə "demokrat" libası geyib xalqları yenidən köhnə bolşevikcəsinə idarəetmə yoluna ustalıqla yönəltmək istəyən, "vahid və bölünməz Rusiya" şüarını bayraq edərək təcavüzkar millətçilərə meydan verənləri amansız atəşə tutur, demokratiya pərdəsi arxasında iş görən keçmiş bolşevik nomenklaturasının ölkədə yenidən növbəti totalitar-avtoritar rejimi bərpaetmə cəhdlərinin üstünü açır. Vaxtilə Gertsen Rusiya demokratiyasının şərəfini xilas edən şəxsiyyət kimi tanınırdısa, indi S.Kovalyov da bu ənənənin davametdiricisi kimi tanınır. Məncə, hər iki sənədlə tanışlıq "Azadlıq"ın oxucuları üçün faydasız olmaz.





## RUSİYA DEMOKRATLARI HANSI MƏQAMLARDA BOLŞEVİKLƏRLƏ QOVUŞURLAR?

Adını artıq unutduğum mütləqiyyət dayaqlarından biri (gərək ki, qraf Kokovtsev idi) birinci Rusiya inqilabının dolaşıq illərində Dövlət Dumasında əcaib bir ifadə işlətmişdi: **"Allaha şükür ki, bizdə parlament yoxdur!"**

İndiki "vahid, bölünməz" dövlət ideoloqları isə bir ağızdan deyirlər: **"Stalin sağ olsun ki, Rusiyada, yaxud SSRİ-də milli məsələ yoxdur".**

Demə, bütün bunlar mühacirətin uydurmasıdır; bolşeviklərin müdrik idarəçiliyi sayəsində SSRİ-də heç bir milli məsələ mövcud deyil, hamı "tarazlaşıb", daha azərbaycanlılar, gürcülər, dağlılar, özbəklər, türkmənlər, qırğızlar, qazaxlar, taciklər yoxdur, ukraynalılar yoxdur (onlar heç olmayıblar da, yalnız malorosslar olub), özlüyündə bəllidir ki, heç beloruslar da yoxdur, ortada olan Münhen "akademik" jarqonunda son dərəcə "uğurlu, ahəngdar" ləqəblə vəsf edilən rusiyalıdır.

Biz artıq bu versiyanı yeni qaçqınlardan - "o tərəfdən" gələnlərdən eşitmişik; o adamlardan ki, böyük dövlət şovinizminə və yerli millətçiliyə qarşı on illər boyunca sovet mətbuatı səhifələrindən düşməyən amansız kampaniyaya göz yumaraq, milli azlıqlar barədə çoxmilyonlu deportasiyanı və kütləvi soyqırımını "görməyərək" bizi inandırmağa çalışırlar: Sovet Arkadiyasında (Arkadiya qədim Yunanıstanda bölgə adı olub, məcazi mənada "xoşbəxt, cənnətsayağı ölkə" anlamında işlənir -Ş.H.). milli məsələ ilə əlaqədar hər şey qaydasındadır və orada qurd quzu ilə otlayır.

Az qala Bibliya mənzərəsidir! Beləcə, onlar həqiqətin ziddinə olaraq dünya ictimai fikrini azdırırlar.

Sual olunur, nəyin naminə? Bolşeviklərə qarşı barışmaz olan köhnə mühacirətin reaksiyası ilə tanış olduqda bunu anlamaq çətin deyil. Amma söhbət məhz milli problemə gələndə həmin bu barışmazlıq açıq-aşkar bir-birilə qovuşmaya çevrilir.

Budur, "Rusiyanın Azadlığı Uğrunda Mübarizə İttifaqı"nın orqanı "Rossiyski demokrat" məcmuəsi (N1, 1953, toplu 22) qarşımızdadır. Bu "demokratik" orqan aşkar məmnunluq hissi ilə yazır: ***"İnqilabdan əvvəl vahid ölkə olan Rusiyada, indi isə "Sovet İttifaqında" müxtəlif amillərin təsiri ilə çoxmillətli əhalinin vahid milli kompleks halında birləşdirilməsi prosesi gedir. Bolşeviklərin hökmranlıq et-***

***diyi son dövrdə sənayeləşmənin, müharibənin və hakimiyyət ekseslərinin təsiri ilə vahid millət yaratmaq prosesi xeyli güclənib".***

Az qala dillərin, milli xüsusiyyətlərin aradan qalxması və onların "oktyabr dili" və ...hakim xalqla eyniləşməsi barədə üzdəniraq nəzəriyyənin əks-sədasıdır. Kommunist Partiyasının ağuşundakı böyük dövlətçi şovinistlər bunu arzulayıblar və indi də arzulayırlar.

"Rossiyski demokrat"ı (ona "demokrat" demək mümkündürsə) dinləməkdə və ən başlıcası sətiraltı mənanı anladıqca açıq-aşkar görürsən ki, qovuşma müəlliflə onun "içəridən" olan əlaltılarının nə isə bir yığnağına, nə isə özünəməxsus sazişinə, hətta nə isə bir qəsdinə çevrilir: "Mühacirət şüuru vətəndə baş verən proseslərdən xeyli geri qalır və ölkənin daha da inkişafına bolşevik dövrünün təsirini qiymətləndirməyə qadir deyil. Bizim milli mühacirət xeyli dərəcədə hələ də bolşevik inqilabının ilk illərindəki təsəvvürlərlə yaşayır. Buna görə də bütün milli problem mühacirətdə, indi ölkənin daxilində olduğundan tamamilə fərqli şəkildə irəli sürülür".

Sonra "Rusiyanın çoxmilyonlu əhalisinin qovuşması prosesi faktını təsdiqləyən "müəllif" bu prosesin artıq başa çatdığını demək istəmir". "Xariclə əlaqədar mülahizələr (Sovet İttifaqının milli müttəfiq respublikalarının mövcudluğu - gör ha! - faktı ilə hesablaşan xarici ictimai fikir) deyil, məhz bu fakt Rusiya demokratiyasını "həm proqram, həm də təşkilat məsələlərində" milli mühacirətlərin nümayəndələri ilə (ümumi antibolşevik cəbhəsinin təşkili işində) "kompromisə getməyə" məcbur etmişdir. Halbuki Rusiyadakı demokratlar ölkə daxilində milli problemi özünəməxsus tərzdə "birləşdirmə" yolu ilə "həll edən" həmin o bolşeviklərə çox həvəslə qoşulurlar...

Rusiya demokratlarının nəzərinə çatdıraq ki, zülm altında olan xalqların kütləvi deportasiyaları, bəzən hətta fiziki cəhətdən məhv edilməsi də bolşevikcəsinə birləşdirmə proqramına daxildir... Onlar buna nə deyirlər?

İndiki bu təzadlı vəziyyəti məntiqi sonluğa çatdırmaq istəməzdik. Xüsusən ona görə ki, müəllif özü də başqa bir yerdə deyir: "Rusiya mühacirətinin milli qrupları ilə ünsiyyətin Rusiyanı parçalamağa can atanların şansını artıracağından qorxaraq belə bir ünsiyyətdən imtina etmək uzağı görməmək və hətta cinayət olardı. Ona görə cinayət olardı ki, söhbət Rusiya xalqlarının mövcudluğundan gedir. Bolşevizm xalqların tədricən məhv edilməsi, onların həyat qüvvələrinin tükədilməsi deməkdir".

Lakin belə bir haşiyədən sonra "Rossiyski demokrat" aşkar məmnunluqla yazır: ***"Bolşevizm hökmranlığı dövrü ruslarla qeyri-ruslar arasında bu əlaqələri zəiflətmədi, əksinə, gücləndirdi".***

Başqa bir müəllifin (N.Petrovski) məqaləsində də eyni leytmotivlə



rastlaşırıq: "Biz inanmırıq ki, Rusiyanın parçalanması təhlükəsi realdır. Nəticə e'tibarilə bolşevizm Rusiya xalqlarının daxili bağlılığını hətta gücləndirmişdir də".

"Rusiyanın Azadlığı Uğrunda Mübarizə İttifaqı" (yeri gəlmişkən, həmin təşkilat antibolşevik mübarizəni əlaqələndirmə mərkəzində çox fəal iştirak etmişdir) orqanının bütün bu mülahizələri və SSRİ-də milli məsələyə dair bir sıra digər məqalələr özlərini demokrat adlandıran, lakin demokratiya haqqında özünəməxsus təsəvvürü olan adamların yerlərdə milli məsələnin həlli metodlarına biz milli azlıqlarda tam qanuni inamsızlıq hissi oyada bilər.

Ümumiyyətlə etiraf etmək lazımdır ki, bolşeviklərin bəxti gətirir: **keçmiş Rusiya imperiyasının gələcəyi ilə bağlı ən mürəkkəb həyati problemlərdən birinin həllində əleyhdarlar arasında həmfikirlər tapmaq hər kəsə nəsib olmur, belə hallar hər gün baş vermir.** Qızıl ordaların zərbələri altında və müttəfiqlərin laqeydliyi şəraitində Qafqaz respublikalarının süqut etdiyi dövrdən başlayaraq bolşeviklər öz düşmənlərinin lap özəyində "həmfikirlər" tapa biliblər. "Poslednie novosti"də cənab Sirinin "Rusiya Zaqafqaziyada" sərlövhəli silsilə məqalələri xatirimizdədir. Həmin yazılarda müəllif ikiqat imperializm məngənəsində sıxılan bu xalqların Rusiya ağuşuna atılmasını sevincdən dili topuq vura-vura tərənnüm edirdi. "Poslednie novosti" üçün bolşeviklər özlərinin daim mürtəce xarici siyasətini cənab Milyukov qədər ardıcıl və qızğın müdafiə edən ikinci bir şəxs tapa bilmədilər. Daxili siyasətdə isə elə həmin orqanın hər iki cinsdən olan əməkdaşları dəlmə-deşiyi doldurmağa çalışırdılar.

İş o yerə çatıb ki, indi də sağ olan bir hörmətli professor Kremlin "nailiyyətlərindən" cuşə gələrək belə bir "kəlam" icad edib:

**"Əvvəllər rus antibolşevikləri düşünürdülər ki, bolşevizm Rusiyaya yaddır. Əslində isə bolşevizm Rusiyanın cisminə və ruhuna ən dərin köklərlə bağlıdır. Bu bağlı tellər slavyanofillərdən bolşeviklərə doğru uzanır. Rus tarixində və rus ruhunda Lenin Kerenskidən daha dərin kök salmışdır..."**

Amma bizim xatırladığımıza görə, müəyyən dərəcədə indiki "ittifaqçıların" sələfləri olan "vozrojdeniye"çilər bu kremlpərəst məddahlığı o vaxtlar bir o qədər də bəyənmirdilər. İndi isə onlar həmin o bolşeviklərin keçmiş Rusiya imperiyasının qeyri-rus xalqları ilə əlaqələrə aid siyasətinə xeyir-dua verirlər.

Bundan sonra kim deyə bilər ki, bolşeviklərin bəxti gətirmir?

**Paris, 1953.**
***Ruscadan tərcümə.***

**Sergey KOVALYOV,**
*Dövlət Dumasının deputatı*

## "RUSİYADA HƏMİŞƏ QAN SU QİYMƏTİNƏ OLUB"

### *B.YELTSİNƏ AÇIQ MƏKTUB*

*(ixtisarla)*

**Cənab prezident!**

...Son illər Siz hər bir kütləvi çıxışınızda dinləyiciləri hey əmin edirsiniz ki, demokratik ideallara son dərəcə sadiqsiniz, amma özünüz... dövlət siyasəti xəttini dəyişməyə başlamısınız. Hazırda Sizin başçılıq etdiyiniz qurum ölkənin inkişaf yönümünü 1991-ci ilin avqustunda elan olunmuş xəttin tam əksinə döndərməyə çalışır. Bu məni öz mövqeyimi açıq bildirməyə vadar edir.

Sizin çoxsaylı səhvlərinizi və yanılmalarınızı xatırlatmayacağam - bunu etmək həvəskarları istənilən qədərdir. Söhbət konkret uğursuzluqlardan deyil, onların səbəblərindən - dövlət siyasətində prioritetlərin və meyarların prinsipial olaraq düzgün seçilməməsindən gedir.

Azı 1993-cü ilin sonundan başlayaraq Siz ardıcıl olaraq elə qərarlar qəbul etmisiniz ki, onlar demokratik cəmiyyətdə hüququn gücünü möhkəmlətmək əvəzinə hüququn, qanunun, insanların fövqündə dayanan dövlət maşınının küt, insanlıqdan kənar qüdrətini dirçəltməyə yönəlib. Düşmənlərimiz deyirlər ki, Siz bunu öz şəxsi hakimiyyətinizi möhkəmlətmək naminə etmisiniz. Düşmən sözü olsa da, həqiqətdir.

1993-cü ilin faciəvi günlərində... mən belə güman edirdim ki, həmin anda qüvvə tətbiq olunması vətəndaş savaşı təhlükəsinin qarşısın almaq üçün son dərəcə zəruridir... Ümid edirdim ki, legitimlik böhranını aradan qaldırandan, Rusiya üçün ilkin hüquqi baza yaradandan sonra prezident və hökumət ölkənin dinc, azad inkişafına nail olmaq üçün əlindən gələni əsirgəməyəcək... Mən öz gümanımda yanılmışam.

1993-cü il konstitusiyası prezidentə sonsuz səlahiyyətlər verməklə yanaşı, onun üzərinə nəhəng məsuliyyət də qoyub; konkret olaraq bu məsuliyyət ondan ibarətdir ki, Siz vətəndaş haqlarının və azadlıqlarının, onların təhlükəsizliyinin təminatçısı olmalı, ölkədə qanunu və asayişi qorumalı idiniz. Bu səlahiyyətlərdən Siz necə bəhrələndiniz? Üzərinizə götürdüyünüz məsuliyyəti necə yerinə yetirdiniz?

Ədalət məhkəməsini hakimiyyətin başqa qollarının asılılığından qurtarmalı olan islahatı Siz faktik olaraq dayandırdınız, "qurunun oduna yaş da yansın" prinsipinə söykəndiniz.



Var səsinizlə elan etdiniz ki, ölkədə mütəşəkkil cinayətkarlıqla mübarizə başlanır - güc qurumlarına hədsiz, heç bir hüquq və qanun çərçivəsinə sığmayan səlahiyyətlər verdiniz. Axırı nə oldu? Axırı bu oldu ki, canilər əvvəlkitək yenə də azadlıqda gəzir, təhlükəsizliyi qorunmayan, qanuna tabe olan vətəndaşlar isə üstəlik, mundirli adamların özbaşınalığına da dözməli olurlar.

Siz demişdiniz ki, Federasiyanın ərazi bütövlüyünü saxlayıb möhkəmləndirəcəksiniz. Axırı nə oldu? Axırı bu oldu ki, bir ildən çoxdur, Şimali Qafqaz rüsvayçı vətəndaş müharibəsinin alovları içində od tutub yanır.

Rusiyanın müdafiə qabiliyyətini möhkəmləndirmək adı ilə Siz bütün hərbi islahat cəhdlərinin üstündən qələm çəkdiniz... Axırı nə oldu? Axırı bu oldu ki, ordu ölkəni basıb yeyir, generalların sayı durmadan artır; buna haqq qazandırmaq üçün xidmət müddəti uzadılır, çağırışçılara möhlət ləğv edilir. Əsgərlər və zabitlər dilənçi kökündədirlər, əyinlərinə paltar, qarınlarına yemək tapmırlar...

Siz bir yandan açıq siyasətdən, aşkarlıqdan, kütləvilikdən dəm vurur, bir yandan da mühüm dövlət işlərinə aid məxfi fərmanlar imzalayır, gizli qurumlar yaradır, hakimiyyət orqanlarının işi haqqında, ölkədəki durum barədə məlumatları məxfiləşdirirsiniz. Prezident qərarları, az qala Sov. İKP MK Siyasi Bürosunda olduğu kimi, xəlvəti qəbul edilir. Gizli deyil ki, Siz öz fəaliyyətinizdə get-gedə daha çox xüsusi xidmət idarələrinə, onların örtülü informasiya sisteminə arxalanırsınız. Doğrudanmı, Siz hələ də onların mötəbər və qərəzsiz olduğuna inanırsınız?

Sizin kadr siyasətinizin "quyruğu" günü-gündən daha aydın görünməyə başlayır. İlk vaxtlar ətrafınızda xeyli səriştəli və umacaqsız adamlar vardı. Hətta yeganə ləyaqəti Sizə şəxsi sədaqətdən ibarət olanlara da o qədər üz vermirdiniz. Tədricən bu sonuncu - partiya-sovet dövründən qalma prinsip Sizin əməkdaş seçiminizdə başlıca yeri tutmağa başladı; belə keyfiyyəti lazımınca olmayanlar isə prezident və hökumət qurumlarından uzaqlaşdırıldılar..

Moskvadakı oktyabr olaylarından təxminən bir il sonra Siz Çeçenistanda savaşa başladınız... Rusiyada həmişə, xüsusən də bolşeviklərin vaxtında, qan su qiymətinə olub. Siz isə bu bədnam ənənəyə yeni, "demokratik" və "humanist" bir şırım da artırdınız. Bütöv bir ildir ki, Çeçenistanda bomba və raketlərlə "konstitusiya qaydaları"nı, "vətəndaşların hüquqları"nı bərpa edirsiniz. "Azad seçki" oyunu bölgədə onsuz da kövrək olan barış ümidlərini tam iflasa uğratdı (uğratmaya da

bilməzdi). Eyni qayda ilə Pervomayskda da girovları azad etmək bəhanəsi ilə amansız cəza tədbirlərinə əl atdınız (və biabır oldunuz)...

Bütün olmuşlarda təkcə Sizi suçlandırmaq fikrindən uzağam. Totalitar quruluşa endirilən ağır zərbə, görünür, öldürücü olmayıb və həmin quruluş özünəməxsus üsullarla - böhranların təkrar "istehsalı", əhalinin pozğunlaşdırılması, ictimai dəyərlərin dəyişdirilməsi ilə özünü qoruyur. Sizin şəxsi təqsiriniz budur ki, bu təmayüllərə nəinki mane olmursunuz, əksinə, onlara daha da rəvac verirsiniz. Bəlkə, Sizə elə gəlir ki, vətəndaşların rifahı naminə Böyük Rusiya qurursunuz? Xeyr, Sizin bugünkü siyasətiniz yalnız qısa müddətdə hüquqsuzluqlar dövlətini bərpa etməyə qadirdir. Başqa sözlə, Siz köhnə bolşevik bataqlığını dirçəldirsiniz; fərq bircə burasındadır ki, kommunist ibarələrinin yerini antikommunist ritorika tutub. Sizin mümkün varisləriniz bu fərqi də aradan qaldırarlar.

...Siz xalq üçün dövləti yaratmağa and içmişdiniz, əvəzində xalqın fövqündə onun əleyhinə olan məmurlar piramidası ucaltdınız. Yorulmadan "demokratiya, demokratiya" deyə-deyə demokratik dəyərlərdən və prinisplərdən imtina etdiniz. Bəzi sadəlövhlərə elə gəlir ki, Kremldə hələ "demokratlar" oturur. Sizin siyasətiniz "demokrat" sözünün özünü də gözdən saldı və demokratiya Rusiyada qalacaq olsa (mən inanıram ki, qalacaq), bu Sizin xidmətiniz olmayacaq.

Mənim üçün acınacaqlıdır ki, Siz özünüz özünüzü uduzdunuz: obkom katibindən insana çevrilə bilmədiniz, amma çevrilə bilərdiniz.

Siz öz yolunuzu seçmisiniz. Tezliklə biz də seçəcəyik. Bu gün Siz özünüzü Züqanovun və Jirinovskinin yeganə alternativi sanırsınız. Nahaq: sizdə oxşarlıqlar daha çoxdur, nəinki fərqlər. Sizin üçünüzdən birinizi seçmək məcburiyyətində qalsaq, bizim seçki azadlığımız məhbəs seçmək azadlığına bənzəyəcək... Mənim şəxsən "qırmızılar"dan da, "qəhvəyilər"dən də zəhləm gedir, amma Sizə də səs verməyəcəyəm və başqalarına da məsləhət görməyəcəyəm.

**"Azadlıq" qəzeti,**
**6 fevral 1996.**



## XARİCDƏ MƏLƏK, DAXİLDƏ KƏLƏK

Ümumdünya iqtisadi forumunun Davosda keçirilən 26-cı sessiyası qurtardı. Xəbər verirlər ki, təxmini hesablamalara görə, 1996-cı ildə dünya ölkələri İqtisadi İnkişaf Proqramına iki trilyon dollar vəsait xərcləyəcək. Tavanı olanlar, əsasən, öz imkanları hesabına, tavansızlar alacaqları borclar və güzəştli kreditlər hesabına iqtisadi vəziyyətlərini tənzimləməyə çalışacaqlar. Deyəsən, Rusiyaya da bir neçə milyard düşəcək.

Davosda iqtisadi inkişaf məsələləri gözdən keçirilib qlobal iqtisadi problemlərdən söhbət getsə də, siyasi məsələlər də nəzərdən kənarda qalmayıb. İqtisadi siyasət və siyasi iqtisad eyni vaxtda müzakirə mövzusuna çevrilmişdi. Bu, xüsusilə, neçə illərdir çoxşaxəli böhranlar içərisində çabalayan Rusiya Federasiyası və onun peykləri rolunu oynayan bir sıra MDB ölkələrinə aiddir.

Rusiya Federasiyası Davosa yüksək səviyyəli, həm də ilk dəfə müxalifətin də təmsil edildiyi bir nümayəndə heyəti göndərmişdi. Qərbin inkişaf etmiş iqtisadi nəhəngləri Rusiyadakı mövcud vəziyyətdən cidd təşviş keçirirlər. Hərbi cəhətdən, xüsusilə atom-nüvə və raket silahları ilə müsəlləh Rusiya ciddi təhlükə kimi qalmaqdadır. Ölkənin hansı yolla gedəcəyi, kimlərin hakimiyyətdə qalacağı və ya hakimiyyətə gələcəyi Rusiyanın təkcə daxili işi kimi nəzərdən keçirilmir. Azad dünyanın ən çox ehtiyat etdiyi kommunistlərdir, onların yenidən hakimiyyət başına gəlmələri ehtimalıdır. Dövlət Dumasına son seçkidə kommunistlərin qələbəsi bu narahatlığı daha da artırıb. Bu baxımdan Dumada kommunist fraksiyasının başçısı Züqanovun Davosa gəlişi və çıxışı hay-küylü rəylərə və şərhlərə rəvac verib. B.Yeltsinin fərmanı ilə işdən yenicə azad edilmiş islahatçı Çubaysın Davosa gəlişi və iqtisadi forumda çıxışı da birmənalı qarşılanmayıb. Çubaysın foruma özxoşuna gəlməsi və yaxud kimlərinsə təkidilə təşrif gətirməsi də müzakirə mövzusudur. Çubaysın işdən kənar edilməsini kommunistlərin təzyiqinə məruz qalan Yeltsin iqtidarının geri çəkilməsi kimi qiymətləndirirlər.

Çubaysın çıxışında ən çox diqqət edilən cəhət onun Rusiya kommunist başçılarının xaricdə mələk kimi görünmək cəhdlərinin üstünü açmasıdır. Züqanovun Dumadakı çıxışı ilə Davosdakı çıxışının mətnlərini yanyana qoyub müqayisə edən Çubays keçirdiyi mətbuat konfransında dedi ki, "xaricdə mələk, daxildə kələk" ustalarını tanımaq lazımdır.

Çox yaxşı təklifdir. Çünki belə "ustalar" təkcə Moskvada deyil, yaxın xaricdə, özü də iqtidarda meydan sulayırlar.

***"Azadlıq" qəzeti, 10.II.1996.***

## ŞEYTAN HARADADIR?

*(Orucluqla bağlı bir rəvayət)*

"Tərəqqi" qəzetində (N 60, 1908) "Şeytan bağlıdır" sərlövhəli bir yazı 88 il keçməsinə baxmayaraq indi də maraqla oxunur. Düşünüb-daşınası məqamlar da çoxdur. Məğzi budur ki, iman və vicdana qayıdış real həyati gerçəkliklərə, insaf və mürvətə, sosial ədalətə, bəşəri əxlaqa söykənməzsə, boş hay-küyə, yalançı vədlərə, qorxu və hədəyə, çal-çapa əsaslanarsa, vətən torpağında əmin-amanlıq və rifah bərqərar olmaz, şeytan xislətlilər meydanda at çapar.

Yazıda nəql olunan əhvalat belədir: "Rəmazanül-mübarək xudavəndi-təbarəkə və təalanın rəhmət ayı olduğundan, insanları günah və cinayətlərə uyduran şeytan bu otuz günü qırılmaz zəncirlərə çəkilib əldən-ayaqdan kənar, insan üzü görməyən, təməddün (tərəqqi) səsi eşitməyən bir qeyri-məlum cəzirəyə (adaya) buraxılıb ta orucluq bayramınadək ona aradan çıxmağa imkan verməzlər.

Şeytan orada qalar da əllərini bir-birinə sürtərək müsəlmanların bu bir ay içində təhzibi-əxlaq etmələrinə və bu ibadət ayının tərbiyəbəxş nəticələrinə qibtələr edər, heyflər deyər.

Neçə vaxt idi ki, mən bu fikrə aludə olub məhbəsi-şeytan olan o vadiyi-qeyir-zizər olan cəzirəni axtarıb bilmək fikrində idim.

Bütün coğrafiya kitablarını axtardım, bütün səyyahların əsərlərini təftiş etdim, tarix səhifələrini vuruşdurdum, axırı yenə də məyus oldum - şeytanın bağlandığı yeri tapa bilmədim.

Amma şeytan bağlanan yer var, burası doğrudur. Buna şəkk edə bilməzdim. Çünki əfradi-islamın bütün də olmasa, qismi-əzimi buna etiqad etmişdir. Yəqin ki, bunun əsli vardır.

Özüm tədqiqat fikrinə düşdüm. Həmişə təqlid edib, müdam özgələrin məlumatı ilə dolanmaq olmaz ki, a!.. İnsan özü də gərək axtarsın!..

"Axtaran tapar" həqiqətinə ümid bağlayıb axtarmağa başladım. Nə xəyal edirsiniz? Axtardığım boşa çıxdımı? Xeyr! İki il təcrübədən sonra şeytanın bağlı olduğu yeri tapdım və artıq şəkkim də qalmayıb ki, səhv etmiş olam...

Şeytanın ramazan ayında məhbus olduğu yer Bakı imiş!.. Təəccübmü edirsiniz? İnanmağınız gəlmir?! İnanınız!.. Sübutmu istəyirsiniz?!..

İşdə sübut...



İki il təcrübəmdə mən gördüm ki, orucluq düşəli müsəlmanlar daha da bədəxlaq olurlar. Bir çox biri-birilə ədavəti olanlar özlərini saxlayıb-saxlayıb ancaq orucluqda küçələrdə part-part salırlar. Orucluq ayında axundların, vaizlərin minbərlərdə behişt vədləri ilə cəhənnəm təhdidlərinə heç kəs qulaq asmayıb ayrı vaxtlardan daha da şiddətli olaraq cinayətə, qətli-qarətə məşğul olurlar...

İşdə Şeytan Bakıda olub öz əfali-şənilərini (çirkin işlərini) icra etməkdədir!..

Ey bakılılar, şeytanla... cəhalətlə mübarizəyə gəlin!"

Şeytanla mübarizəyə çağıran qəzetin redaktoru həqiqət və ədalət mücahidi Əhməd bəy Ağayev, yazının müəllifi isə bütün ömrünü istibdad şeytanları, qırmızı şeytanlarla mübarizəyə həsr etmiş M.Ə.Rəsulzadə idi.

İndi mənə də yavaş-yavaş aydın olur ki, "qırmızı şeytan balaları"nın hər iki millət fədaisinə qarşı keçmişki və indiki hücumları nə ilə bağlıdır! Doğrudan da tarix üçün 88 il bir göz qırpımı imiş.

***"Azadlıq" qəzeti, 15 fevral 1996.***

## ÜST DAĞILIB, ÖZÜL NECƏ?

Akademik Ziya Bünyadov "Qırmızı terror" kitabının "Sovet həbs düşərgələrinin ilk məhbusları" fəslini belə başlayır: "Tarixən dəyirman daşını həmişə bizim başımızda fırladıblar. Əvvəl-əvvəl bizi çək-çevirə salıblar, siyasət ipini bizim boğazımıza keçiriblər. Sovet dövləti qurulmamışdan əvvəl Azərbaycanın qurğusunu qurmuşdular, bölüb-bölüşdürmək nəqşəsini cızıb hazırlamışdılar.

Azərbaycan mərdləri ilə bolşevik kələkbazlarının, gizli qəsbkarlıq siyasəti yürüdənlərin fikri, amalı başqa-başqa idi. Müsavatçı ziyalılar meydana mərdanə girmişdilər, mədəni səviyyələri, siyasi əqidələri, dünyagörüşləri, imanları, məsləkləri uca idi, saf idi, insanlıq naminə idi. "Ayır-buyur" siyasəti ilə "necə olursa-olsun" hökmü ilə, hədə-qorxu gəlməklə, qan-qada ilə Azərbaycanı ayaqlayanlar isə buqələmun kimi min dona girirdilər və indi də donlarını tez-tez dəyişirlər".

Bu sətirləri oxuyuram, yadıma 40 il bundan əvvəl dünyanın bir nömrəli kommunisti sayılan Xruşşovun sovet-bolşevik sistemi üzərindən ri-

yakarlıq və cinayətkarlıq pərdəsini ilk dəfə ən yüksək səviyyədə qaldırıb bütün rəzalət və dəhşətlərilə üzə çıxardığı Sovet Kommunist Partiyasının XX qurultayı, İ.V.Stalinin şəxsiyyətinə pərəstiş və onun nəticələrinin aradan qaldırılması ilə bağlı qapalı partiya iclasları düşür.

XX qurultaydan sonra yüz minlər və milyonlarla qətlə yetirilmiş günahsız, namuslu-qeyrətli vətən övladlarına bəraət verildi, "xalq düşməni" damğası onların və nəsillərinin üzərindən götürüldü. Cinayəti törədənlər və onların başçılarından da hər respublikada 5-10 nəfərini tapıb mühakimə edib cəzalandırdılar. Bəs sonra? Z.Bünyadovun göstərdiyi "buqələmunlar, məddahlıq ustaları bu dəfə Xruşşova girişdilər, yavaş-yavaş saqqızını oğurladılar, amma elə özünün də canında varmış. Xarici səfərlər başlandı. 1957-ci ildə Siyasi Büronu təmizlədi, respublikalardakı birinci şəxslərin bir çoxlarını işdən uzaqlaşdırdı. Kütləvi informasiya vasitələrində məddahlıq kampaniyası başlandı. Haqqında "Bizim Nikita Sergeyeviç" adlı xüsusi film çəkildi, ağzından çıxanlar, yazılmış nitqlər əsərlər toplusuna çevrildi. Şəxsiyyət olmasa da, şəxsiyyətinə pərəstiş yaradıldı.

Artıq xarici səfərlərə çıxanda yanına təkcə arvadı Nina Petrovnanı deyil, qızlarını, nəvələrini, yeznələrini, oğlunu, bir də ki, məddahlıq ustaları, bəzən də tanınmış yazıçı və artistləri, ziyalı nümayəndələri salıb aparırdı. Onlar da qayıdandan sonra gəzmək və kefin əvəzində nələr yazmırdılar! Xruşşovun ABŞ səfərindən sonra nəşr olunmuş "Amerika ilə üz-üzə" kitabı hətta ən ali mükafata layiq görülmüşdü. Hakimi-mütləq rəhbərin BMT-də ayaqqabısını çıxarıb stolun üstünə döyməsi faktının imperializmə vurulan zərbə kimi şərh edilməsindən isə olmazdı. İndi də bu beynəlxalq məclisin binasını ziyarət edən turistlərə bu "tarixi yeri" göstərirlər.

1964-cü ilin oktyabrında sovetlər tarixinin Xruşşov dövrü qurtardı. Ona üzdə ləbbeyk deyənlər arxada söydələşib hay-haraysız vəzifədən uzaqlaşdırdılar. XX qurultayın səmərəsi o oldu ki, bu dəfə vəzifədən atılanın canını almadılar.


Z.Bünyadov doğru yazır ki, donlarını tez-tez dəyişən kələkbaz buqələmunlar indi də az deyil. Avtoritar və totalitar idarə üsullarının üst qatı uçurulub, özülü saxlandıqca şəxsiyyətə pərəstiş bəlasından xilas olmaq mümkün olmayacaq!

***"Azadlıq", 27 fevral 1996.***





## ƏSRİN ƏVVƏLİ - ƏSRİN SONU: NƏ DƏYİŞİB, NƏ QALIB?



**Nəşrinin bir ili tamam olmamış 1907-ci il fevralın 17-də C.Məmmədquluzadə "Molla Nəsrəddin" jurnalının 7-ci sayında çox böyük bir uzaqgörənlik və fəhmlə yazırdı:**

**"Ay 100 il bundan sonra dünyada yaşayan nəvə və nəticələrimiz! Bəlkə 100 il bundan sonra "Molla Nəsrəddin"in köhnəlmiş və qat yemiş vərəqləri tozlanmış və çürümüş kitabların içindən çıxıb düşə əlinizə və oxuyasınız. Mən qorxuram ki, siz o vədə deyəsiniz ki, "bu rəhmətlik Molla Nəsrəddin bizim rəhmətlik babalarımıza böhtan deyib, çünki bu yazdığı əməlləri heç qədim əsrlərdə Germaniyanın çardaq altında yaşayan millətləri də tutmazdılar!"**

**Ey xoşbəxt nəvə və nəticələrimiz! Qorxuram belə deyəsiniz!"**

**Jurnalın nəşrə başlamasından 90 il keçib, doğrudan da kitabxanalarda toz basmış və bir qismi məhv olmaq təhlükəsində olan (hələ qoyulmuş vaxta 10 il qalıb) köhnəlmiş və qat yemiş vərəqlər saxlanılır. Həqiqət və insaf naminə indidən demək olar ki, rəhmətlik Molla Nəsrəddin bizim rəhmətlik babalarımıza əsla böhtan deməyib, real, acı həqiqətləri ürək ağrısı, vətəndaşlıq qeyrəti, heyrətamiz cəsarət və fövqəladə istedad və sənətkarlıqla açıb deyib, həm də bütün çılpaqlığı ilə göstərib. Bu rəzalətlərin bir qismi hələ də yaşayır, milləti göz açmağa, qəddini düzəltməyə, sivilizasiyalı bir həyat qurmağa və yaşamağa qoymur. Nədir bunlar?**

### "Molla Nəsrəddin"dən bir neçə nümunə:

*"Hərdənbir keçmiş günləri yad etmək lazımdır: salınız yadınıza o günləri ki, ananız sizi beşikdə yırğalaya-yırğalaya sizə türk dilində lay-lay deyirdi...*

*Hərdənbir ana dilində danışmaq ilə keçmişdəki gözəl günləri yad etməyin nə eybi var?"*

***"Molla Nəsrəddin", 7 aprel 1906, N1***

*"Rus padşahı Yaponiya ilə davanı təzə başlamışdı, Şamaxı məhkəməsinin üzvü Hacı Əbdürrəhim əfəndi öz tərəfindən ərəb dilində şerlə bir mədhnamə inşa edib, imperator Nikolay və imperatrisa adına Peterburqa göndərmişdi. Çox çəkmədi ki, bunun əvəzində padşah tərəfindən cənab qazıya bir ədəd qızıl saat, üstündə padşahın və əyalının surəti nəsb olunmuş göndərildi. Cənab əfəndi isə o hədiyyəni yadbud edib, o vaxtdan bəri hər işin tərk eləyib, yenə cənab imperatordan bir başqa hədiyyəyə nail olmaqdan ötrü bu neçə vaxtlarda tamah dişini gecə və gündüz itiləməyə məşğul club, tədbirlər və politikalar tökür..."*

***"Molla Nəsrəddin" 30 iyun 1906, N13***

*"Ey yari-bivəfa Qaloşanov! ...heç bilirsənmi ki, kimi qırırsan, kimin evlərini topa tutursan? Kimin məhəlləsinə od vurub yandırırsan? Məgər Qarabağ müsəlmanlarını tanımırsan?*

*Məgər bu onun əvəzidir ki, Rusiya dövləti bina tutandan indiyə kimi hər bir müsəlman küçədə getdiyi yerdə bir rus görəndə tez qaçıb düşüb onun ayaqlarına və deyib: "Fəda olum sənə, ey rus"?*

***"Molla Nəsrəddin" 28 iyul 1906, N17***

*"...Rusiya hökumətinin yolunda canü-dillə xidmət edən müsəlmanlara layiqincə vəzifə və ənam verilsin və bununla belə, Rusiyanın müstəbid idarəsinin tərəfdarı olmayan müsəlmanlar Saxalin cəzirəsinə göndərilsinlər".*

***"Molla Nəsrəddin" 16 iyun 1906, N11***

*"Zəhrimar olsun bir tikə çörək ki, insan onu qorxa-qorxa oğurluğunca yeyəcək..."*

***"Molla Nəsrəddin" 26 oktyabr 1906, N29***

*"Rusiyada və Yevropada neşr olunan qəzetlər ha yazırlar ki, müsəlmanlar çalışırlar "ittihadı-müslimin" (müsəlman birliyi) düzəldib birləşsinlər və ənəbi millətlərə zor edib bütün Yer üzünə sahib olsunlar.*

*Bir adam lazımdı ki, gedə yapışa bu qəzetləri yazanların əlindən və gətirə Qarabağa..."*

***"Molla Nəsrəddin" 3 noyabr 1906, N31***

*"Məscidlərimiz ibadətxanalıqdan çıxıb, dilənçixana olublar...*

*Bizim məscidlərə cəm olanlara diqqət eləsək, görərik ki, məscidə gələnlər ancaq fəhlə, hammal, kənkan, dilənçi, dəllək, pinəçi, nalbənd, çərçi və xırda-xuruş alış-verişçilər, baqqallar, kərbəlayı və məşədilər və kasıb Hacılardır. Əgər ənəbi millətin birinin yolu bizim məscidlərə düşsə, elə yəqin edər ki, müsəlman içində bir dənə də rəğbətli, dövlətli, səliqəli, təmiz və nəcib adam, bir dənə bəy, xan, qulluqçu, oxumuş və sahib-mənsəb yoxdur..."*

***"Molla Nəsrəddin" 24 noyabr 1906, N34***

*"Şvetsariya Zəngəzur mahalı böyüklüyündə ola-ola oranın qəzetlərinin iki milyon müştərisi olsun, "İrşad"ın 5 min də olmasın? Niyə Rusetdə "Novoye vremya"nın 3 milyon müştərisi, erməni "Mşak" qəzetinin 55 min müştərisi olsun, "İrşad"ın 5 min olmasın?"*

***"Molla Nəsrəddin" 1 dekabr 1906, N35***

*"İrəvan və Qarabağ vilayətlərinin aclarının dad-fəryadı sizin qulaqlarınıza çatmır?..*

*Bir neçə gün bundan irəli mən gedib, Qarabağ və İrəvan quberniyasını gəzib dolanmışam. Bu dəfə mən yəqin eləmişdim ki, bir dənə də qarnıyoğun adam görməyəcəyəm, ondan ötrü ki, İrəvan və Qarabağ aclarının vayıltısı Tiflisdə gürcüləri ağladır... Amma bu dəfə mən başıdaşlı nə gördüm? Heç birinin qarnı təfavüt eləməyib".*

***"Molla Nəsrəddin" 8 dekabr 1906, N36***

*"- Ay mənim gözlərim və qulaqlarım, Allah sizi mənə verib görməkdən və eşitməkdən ötrü. İndi kef sizindir. İstəyirsiniz görün və eşidin, istəyirsiniz kor və kar olun. Hər nə edirsiniz edin, amma qarnımnan işiniz olmasın".*

***"Molla Nəsrəddin" 15 dekabr 1906, N37***

"Ac-uc əmələlər gördülər ki, rus hökumətinin başı qarışıb və Şeytanbazar müsəlmanları deyən kimi yapışdılar xozeynlərin yaxasından ki, bizim muzdumuzu artırın. Şeytanbazar müsəlmanları doğru deyirlər ki, Rusiya iğtişaşı heç bir şey deyil, məhz məvacib davasıdır".

***"Molla Nəsrəddin" 29 dekabr 1906, N39***

*"25 manat məvacibində 50 min manatlıq ev tikdirmək olmaz... Bəs 50 min manatlıq, ya 25 min manatlıq ev məgər göbələkdir ki, öz-özünə yerin altından pırtlayıb çıxsın?"*

***"Molla Nəsrəddin" 21 aprel 1907, N16***

"Mən yaza billəm ki, Bakının küçələri dilənçilik edən müsəlman övrətləri və uşaqları ilə doludur?!"

***"Molla Nəsrəddin" 21 aprel 1906, N3***

"Bir gün deyirik: "qatıq ağdır" - deyirsiniz: "bəli". Sabah kefimiz istəyəndə deyirik: "qatıq qaradır" - deyirsiniz: "bəli".

Yazıq müsəlmanlar!"

***"Molla Nəsrəddin" 10 fevral 1907, N6***

"Müsəlman ədibi və mühərriri əlinə qələmi götürəndən bir böyük və nüfuzlu adamın barəsində mədh və səna yazmasa, yəqin ki, bijdi və atasından-anasından xəbəri yoxdu...

"Milli" ruznamədən bir nüsxə keçdi əlimizə. Bu nömrənin məzmunu başdan ayağa ibarətdir təzə padşaha dua və sənadan və ona ibadət etməkdən. Ruznamə sahibi həmin nömrədə yazır ki, bu nüsxə iranlılar üçün bir tilsimdir: hər kəs bunu bir parça içinə büküb, sol qolu üstə taxsa, cəmi xətadan və bəladan məhfuz olar.

"Milli" ruznamənin müştəriləri vaqeən çox xoşbəxtdirlər, o səbəbə ki, Avropa aləmində indiyədək heç bir ruznamə müştərilərinə bir belə hədiyyə göndərməyib".

***"Molla Nəsrəddin" 3 fevral 1907, N5***

"- Əgər son Dumada padşah tərəfdarı olsan, biz səni özümüzə vəkil seçərik, olmasan, bizə lazım deyilsən!

***"Molla Nəsrəddin" 17 fevral 1907, N7***

"Axırda ölmədik, bunu da gördük ki, şöhrətpərəstlik, tamahkarlıq, tərəfgirlik, tənpərvərlik (öz xeyrini güdən), müstəbidlik və mühibriyasətlik (yekəbaşlıq) kimi təbiətlərin sahibinə - məlazül-möminin və məlcəul-müslimin (möminlərin xadimi və müsəlmanların ümidi, pənahı) adı qoydular".

***"Molla Nəsrəddin" 21 aprel 1907, N16***

"Ax, Molla Nəsrəddin, lal ol, çox işlərə əl aparma! Çox sirləri açma, hərfləri qövzama, çox çirkləri qurdalama ki, üfunəti dünya və aləmə yayılsın!"

***"Molla Nəsrəddin" 12 may 1907, N19***

**"Azadlıq" qəzeti, 7 mart 1996.**








## BİZƏ QORODOVOY YOX, HƏQİQİ AZADLIQ LAZIMDIR

**"Zindanda olana azadlıq, qaranlıqda olana işıq gərəkdir" - M.Cəlil başda olmaqla "bir dəstə müsəlman ziyalısının" səyilə 1906-cı il aprelin 7-də işıq üzü görmüş "Molla Nəsrəddin" məcmuəsinin qayəsi bu sözlərdə yığcam şəkildə ifadə olunub.**

"Təbiət və zamanın özünün yaratdığı" Molla Nəsrəddin "bədbəxtlik əsri", "qovğalar əsri" adlandırdığı 20-ci yüzilliyin tufanlı, qarmaqarışıq, həm də ümid və inancverici bir dövründə mücadilə meydanına qədəm qoymuşdu. Vaxtı ilə dövri mətbuatın "bir dəstə müsəlman ziyalısı" adlandırdığı mollanəsrəddinçilərin milli oyanış və qeyrət qərargahında böyük həyat məktəbi keçmiş, əqidə və məsləkcə formalaşmış qələm ustadları M.Cəlil, M.Ə.Sabir, Ə.Haqverdiyev, Ö.Faiq, Ə.Nəzmi, Ə.Qəmküsar və başqaları cəmləşmişdi.

"Molla Nəsrəddin"in ilk saylarını diqqətlə oxuyub tədqiq edən milli mütəfəkkirimiz Əhmədğəy Ağayev "İrşad" qəzeti səhifələrində böyük uzaqgörənliklə və ürək genişliyi ilə yazmışdı:

***"Baxın "Molla Nəsrəddin"ə. Bu cəridə nə gözəl cəridədir. Nə qədər ağıl, zəka, məharət və zövq göstərir. Nəinki biz müsəlmanlar, bəlkə ən mədəni, ən mütərəqqi tayfalar belə cəridələr ilə fəxr edirlər".***

Çox dəqiq deyilib! Doğrudan da o taylı, bu taylı Azərbaycanın son 90 illik tarixinin ilk 25 ili bu və ya digər tərzdə bütün ziddiyyətləri, sevindiricalıları ilə "Molla Nəsrəddin"in səhifələrində "ağıl, zəka, məharət və zövqlə" zamanın və tarixin yaddaşında əbədi həkk olunmuşdur.

"Molla Nəsrəddin"in Azərbaycan istiqlalından əvvəlki çarizm dövrü fəaliyyətini yığcam, ensiklopedik tərzdə şərh edən və qiymətləndirən Krım türklərinin Simferopolda nəşr etdikləri "Millət" qəzeti 1918-ci ilin sentyabrında yazmışdı:

***"Azərbaycan mətbuatını zinətləndirən - "Molla Nəsrəddin" adlı həzliyyə (məzhəkə) məcmuəsidir. Bu məcmuə 12 sənədən bəri millətin bütün qüsurlarını meydana çıxarmışdı. "Molla Nəsrəddin"in uçurucu oxları qarşısında bir "müqəddəs" şey qalmadı. Millətə şanlı həyat yolu açdı. Məvhum möbidləri üst-üstə çöndərdi, batil fikirləri öldürdü, cahil üləmanı daşlayıb candan saldı...***

***"Molla Nəsrəddin" əski qanun və adətlər dairəsini pozub geniş bir vadiyə çıxdı və arxasınca da Azərbaycan söz və fikrini genişliyə sövq etdi".***

Milli istiqlal və Azərbaycanın dövlət müstəqilliyinin bərpası, həqiqi azadlıq və insan hüquqlarının gözlənildiyi bir cümhuriyyət idarə üsulunun bərqərar olması uğrunda aparılan mücadilədə "Molla Nəsrəddin"in çox böyük rolu və payı vardır.

Məlumdur ki, 1914-cü il oktyabrın 18-dən jurnalın nəşri dayandırılmışdı. 1915-1916-cı illərdə oxucular M.Ə.Rəsulzadənin yazdığı kimi, Azərbaycan satirik mətbuatının bu "şah əsərindən" məhrum olmuşdular. 1917-ci ilin ilk günlərindən yaxınlaşan tufanın həmirtisini duyan M.Cəlil və onun səfləri azalmış məslək dostları məcmuənin nəşrini yenidən bərpa etmək işinə girişdilər. "Kağız yox, rəng yox, əmələ yox, hürufat yox, mətbəələr pəjmürdə", "qəhətlik ovqatında", "bismillah" - deyib jurnalı çıxartmağa şüru etdik - oxuculara müraciətdə belə deyilirdi.

1917-ci il fevralın 9-da məcmuənin yenidən nəşrə başlaması hər yerdə "Molla Nəsrəddin" pərəstişkarlarının sevincinə səbəb oldu. M.Ə.Rəsulzadənin baş redaktorluğu ilə çıxan "Açıq söz", Ü.Hacıbəyovun rəhbərliyi ilə nəşr olunan "Yeni iqbal", "Kaspi", "Bəsirət" və digər mətbuat orqanlarında təbrik məktubları, xeyirxah xülasələr dərc olundu.

"Molla Nəsrəddin"in təkcə Rusiya tarixində deyil, ümumdünya tarixində silinməz iz buraxan 1917-ci ildəki dövri fəaliyyəti məlum səbəb-



lər üzündən lazımınca tədqiq olunmayıb. Halbuki M.Cəlil və gənc mollanəsrəddinçilər istibdad idarə üsulunun, çarizmin süqutu ilə yaranmış azadlıq şəraitində öz ürəklərini boşaltmaq, arzu və istəklərini açıq söyləmək imkanı əldə etmişdilər. 1917-ci il martın 23-də jurnalın "Vətəndaşlar"a müraciətində oxuyuruq:

***"Şükür Allaha, qurtardıq!***

***Qurtardıq Peterburq vəzirlərinin zülmündən, qurtardıq qubernatorların zülmündən, qurtardıq naçalnik və pristavların və bunlardan aşağıdakı pillə qurdlarının zülmündən.***

***Qurtardıq kənd yüzbaşılarının tatarından, qurtardıq strajniklərin şallağından, xilas olduq min-min zalımların zorbazorluğundan, - şükür Allaha ki, qurtardıq".***

Jurnal xatırladırdı ki, "bu xoşbəxtlik, bu azadlıq göbələk kimi yerdən göyərməyib: bunu qazanan var... müftə heç bir şey ələ gəlməz... dağ kimi Rusiya istibdadını yıxmaqdan ötrü minlərcə başlar işləyib, minlərcə canlar tələf olub və min şükürlər olsun ki, ölmədik, bu günləri gördük."

Rusiyada mütləqiyyət idarə üsulu süqut etdikdən sonra mollanəsrəddinçiləri hər şeydən əvvəl vətənin gələcək taleyi, müqəddəratı, seçiləcək idarə üsulu qayğılandırırdı. Mirzə Cəlilin 1917-ci ilin baharında qələmə aldığı "Cümhuriyyət"də Respublika haqqındakı görüşləri bu baxımdan maraq doğurur. Tarixin gərdişini, inkişaf meyllərini duyan və görən M.Cəlil yazırdı: "Cümhuriyyət idarəsinin bir zinəti var ki, o da tam azadlıqdır". Müəllif azadlıqların nədən ibarət olduğunu dəqiqləşdirir və belə sıralayırdı: ***"Əvvəlcə etiqad azadlığı", "ikinci, yığıncaq azadlığı", "üçüncü, birləşmək azadlığı", "dördüncü, çap etmək", "beşinci, danışmaq", "altıncı, siyasi partiyalar düzəltmək", "yeddinci, dilbir olub həmtədbir olmaq azadlığı".***

"Molla Nəsrəddin" yazırdı: "Əgər bizdə insanlıq hissi ölməyibsə - və güman edirəm ki, ölməyib, o vədə gərək uca səs ilə cümhuriyyət qəhrəmanlarını alqışlayıb deyək: Yaşasın cümhuriyyət!"

Maraqlı olan bir cəhəti də qeyd etməliyik. Cümhuriyyət idarə üsulunu seçmək məsələsində Qərb və Şərqin baxışları arasındakı fərqi görən jurnal göstərirdi ki, "Qərb azadxahlığı ilə bizim azadxahlığımız arasında təfavüt odur ki, tarixən ***"biz azadlıq binalarımızın bünövrəsini əşxas (şəxslər) üstündə tikdik, millət üstündə tikmədik... Özümüzə öz içimizdən bir şəxsi sultan qərar vermişik və o sultandan izn hasil olmamış dinməyə və danışmağa ixtiyarımız olmayıb və bunun adını da qoymuşuq azadlıq!... O ki qaldı millət, o da kənardan qalıb baxa-baxa, çünki kənardan baxmağa min-min illər adət edib".***

Təəccüblü burasıdır ki, "Molla Nəsrəddin"in vaxtı ilə atəş açdığı təfəkkür və düşüncə tərzi bizim günlərimizdə də yaşayır. Bu yaxınlarda **"Panorama"** qəzetində özünü politoloq adlandıranlardan birisi yazırdı ki, guya Azərbaycanda ***"siyasi əqidə ətrafında birləşmək mümkün deyil, prezidentə məhəbbət, hörmət, ona şəxsiyyət kimi yanaşma ölkəni müdafiə edə bilər".***

"Molla Nəsrəddin" öz oxucularını tarixin keçid dövrlərində həddən artıq ehtiyatlı olmağa, "öz içimizdən-atası, anası, məsləki və məzhəbi məlum olmayan zatların", "beşikdə yad millətlərin südünü əmmiş, vətənimizdən yadırğamış və millətimizin ruhundan xəbərsiz bir para millət başçılarının", "lotu cibgirlərin və müsəlman çinovniklərinin sinə vurmaqlarına" inanmamağa çağırırdı.

*"Bizə qorodovoy lazım deyil... Hər nə dərdimiz var, hər nə ehtiyacımız var, hər nə dini məsələlərimiz var, - hər birisi öz vaxtında danışılacaq və öz rəyimizcə həll olunacaq", "biz borcluyuq var qüvvəmizi o yolda işlədək ki, məmləkətimiz sakit və səlamət olsun". Gərək elə bir dinclik və fəraqətlə dolanaq ki, "köhnə zalım hökumətin tərəfdarları deməyələr ki, "bax, müsəlman pristavsız yola getməz".*

Ümumtürk aləminin sevimli məcmuəsi "Molla Nəsrəddin"in məsləhəti belə idi.

***"Azadlıq" qəzeti, 30 mart 1996.***

## "QIRMIZI QARANLIQLAR": QIZIL SÖZLƏR, QARA İŞLƏR

"Molla Nəsrəddin" məcmuəsinin fəaliyyəti tariximizin əlamətdar hadisələrinin şahidi üç şəhərlə bağlı olub: əvvəlcə Qafqazın inzibati mərkəzi, yeni dövr mədəniyyətimizin və mətbuatımızın beşiyi Tiflisdə (1906-1917), müqəddəs tarixi məbədimiz Təbrizlə (1921), istiqlal mücahidlərimizin Azərbaycan Xalq Cümhuriyyəti dövlətinin paytaxtı statusunu qazandırıb dünyaya tanıtdırdıqları Bakı ilə (1922-1931).

Bu üç dövr xronoloji baxımdan bir-birini tamamlasa da, hər biri "Molla Nəsrəddin" epopeyasının müxtəlif mərhələ və çalarlarını, təzadlarını özündə əks etdirir. 25 il müddətində daimi olan isə məcmuənin yaradıcısı, fikir və sənət bahadırı, qəddini heç vaxt əymməyən, kiminsə adamı olmaq səviyyəsinə enməyən, əqidə və məsləkində sabiqqədəm Cəlil Məmmədquluzadə şəxsiyyəti idi.



"Molla Nəsrəddin" mətbuat tariximizdə ən çox təsdiq olunan, ən çox öyrənilən mətbuat orqanıdır. Amma bu, əsasən, jurnalın Bakı nəşrinə qədərki, yəni 1906-1921-ci illər dövründə aiddir. Bütövlükdə çox böyük dəyəri olan tədqiqat əsərilərində hakim ideologiya ilə bağlı çalarlar, şərhlər, qeyri-dəqiq münasibətlər də mövcuddur.

"Molla Nəsrəddin" bütün çətinliklərə, açıq və gizli təqiblərə, hətta təhdidlərə baxmayaraq müstəqil mətbuat orqanı mövqeyini qorumağa, mühafizə etməyə çalışmışdır. M.Cəlilin öz sözünü, fikrini, ürəyindəkini demək formasını, vasitəsini tapmaq məharətinə heyran olmamaq mümkün deyil. Burada bir cəhəti qeyd etmək vacibdir. M.Cəlil əvvəllər bu əqidədə idi ki, ***"Bakıda "Molla Nəsrəddin" yazmaq, "Molla Nəsrəddin" çıxarmaq olmaz".*** Nə üçün? Jurnalın, onun redaktorunun Sovet Azərbaycanında başına gətirilənlər bu məchul görünən sualın mahiyyətini aydınlaşdırır.

Məlumdur ki, 1918-1920-ci illərdə C.Məmmədquluzadə ailəsi ilə birlikdə Qarabağda - Kəhrizli kəndində yaşayır, ədəbi yaradıcılıq və təsərrüfat işləri ilə də məşğul olurdu. O, Tiflislə əbədi vidalaşmalı olmuşdu. Sovet-rus qoşunları Azərbaycanı işğal etdikdən sonra M.Cəlil vətənin o tayında - Təbrizdə özünə sığınacaq tapmışdı. Çox böyük çətinliklə də olsa, jurnalın nəşrini bərpa etməyə müvəffəq olmuşdu. Bununla əlaqədar ədibin həyat yoldaşı və məsləkdaşı Həmidə xanım M.Cəlilin ***"Biz "Molla Nəsrəddin" jurnalını nəşr edəcəyik və siz görəcəksiniz ki, jurnal bu talesiz ölkəyə necə xeyir verəcəkdir"*** sözlərini öz xatirələrində xüsusi vurğulayır.

Azərbaycanda bolşevik idarə üsulu qurulduqdan sonra ziyalıların, tanınmış siyasət və dövlət adamlarının, istiqlal mücahidlərinin başına nə oyunlar açıldığı hələ lazımınca tədqiq olunub açıqlanmayıb. 1920-ci il mayın 17-də AK(b)P Siyasi Bürosu "ölüm düşərgəsi" (konslager) təşkili barədə məxfi qərar qəbul etmişdi, hər həftə xüsusi siyahı ilə 50-60 adam haqqında ölüm hökmü çıxarılırdı. Qırmızı terror vaxtilə məşhur ədibimiz Ə.Hüseynzadənin xəbərdarlıq etdiyi "qırmızı qaranlıqlar" mühitini bərqərar edirdi. Belə şəraitdə M.Cəlilin çox dəqiq ifadə etdiyi "qızıl sözlər, qara işlər" ustaları M.Cəlil və onun "Molla Nəsrəddin"i simasında özlərinə dayaq axtarmaq fikrinə düşmüşdülər. Bir-birinin ardınca Təbrizə dövət teleqramları gedirdi. "Qızıl sözlər" eşidən, lakin "qara işlər"dən hələ lazımınca xəbəri olmayan M.Cəlil 1921-ci ilin iyununda Bakıya dönmüşdü.

M.Cəlil "Molla Nəsrəddin"i yenidən nəşr etmək üçün 17 ay vaxt sərf etməli oldu. 1922-ci il noyabrın 2-də jurnalın Bakıda ilk nömrəsi çıxdı. Məcmuədə dərc olunmuş yazılar şahidlik edir ki, onu "qırmızı "Molla Nəsrəddin" etmək cəhdləri boşa çıxmışdı. Maraqlıdır ki, 1-ci nömrənin "Şura" sərlövhəli baş məqaləsi hələ indiyədək onun əsərlərinə daxil edilib çap olunmamışdır. Məharətlə qələmə alınmış bu proqram səviyyəli felyetonun ilk cümlələri hər yanda sitat gətirilir, çoxları onu əzbər bilir. ***"O şey ki, qoca "Molla Nəsrəddin" qəlbinə və məzağına hər babətdən müvafiqdir - onun adı Şuradır".***

"Bəs Şura, Şura nədir?" - sualına müəllif belə cavab verirdi. "Şura üsul-idarəsi, məsləhət və məşvərət üsul hakimiyyəti... vətən, məmləkət orada yaşayan əfradın hamısınındır".

Bəs M.Cəlil nə görürdü? *"Şura istilahının mənası zehnimdə bilmərrə çıxıb getmişdi ki, Allah rast saldı,vağzalların birində Bakıdan gələn maşın dayandı, mənə dedilər ki, bu vaqonda Şura vəkilləri qayıdıb gəlirlər.*

*Aha, haman saat xəyalıma gəldi ki, ey dili qafil, gir bunların yanına, haman sözün mənasını bunlardan soruş, sənə bəyan etsinlər.*

*Bəli, girdim, gördüm - bir neçə əşxas, bir neçəsi kəndli, bir neçəsi şəhərli, bir neçəsi əmələ,* ***oturub xiyar yeyirlər...***

*- Deyirlər siz Bakıya Şuraya getmişdiniz?.. Bəs orada nə ilə məşğul idiniz?*

*- Bəli, Molla əmi, Şura etdik.*

*- Xub, pəs arada dəxi nəyə məşğul idiniz?*

*- Molla əmi, ərz olsun ki, orada biz bir neçə gün avtomobilə mindik, gəzdik, sonra da hərəmiz başımıza Buxara dərisindən bir təzə papaq qoyduq gəldik. Doğrudur, Molla əmi, biz Bakıda Şura etdik, amma biz Şuranı indi burada da eləyirik ki, aya, bəs biz orada danışılan sözləri niyə anlamadıq?..*

*Pəs, ay mənim əzizim, haman Şuranın mənası budur ki, bir neçə millət vəkili vaqonda oturub öz aralarında Şura edirlər ki, aya, onlar hara getmişdilər, haradan gəlirlər və nədən ötrü getmişdilər və orada danışılandan nə anlayıblar.*

*Vəssəlam!.. Şura, Şura budur, ay mənim əzizim".*

**Avtomobillərdə gəzdirilən, başlarına Buxara papaq qoydurulan, xiyar yedizdirilən millət vəkilləri - Şura üzvləri nəsə indi də adama tanış gəlir.**

Maraqlıdır ki, "Molla Nəsrəddin"in söhbət gedən nömrəsi işıq üzü görəndən 5 gün sonra - 1922-ci il noyabrın 7-də "İsmailiyyə" binası yanındakı bağda M.Cəlilin yazdığı kimi, ***"Azərbaycan türklərinin sevgili şairi Sabirə dikəlmiş heykəlin açışı oldu". Amma "Sabirin təbinin atının iti qaçışına gözəl və geniş meydan hazırlayan Molla Nəsrəddin orada görsənmirdi, çünki bu açışın nə vaxt olması xəbərini ona heç bildirməmişdilər".***



1922-1931-ci illərdə Bakıda "Molla Nəsrəddin"in 366 nömrəsi buraxılıb. Əlbəttə, bu nömrələri Tiflis və Təbriz nömrələrilə müqayisə etmək çətindir. M.Cəlil 1925-ci ilin yanvarında M.S.Ordubadiyə məktubunda yazırdı: ***"Mənim qəti qərarım budur ki, dəxi "Molla Nəsrəddin" jurnalını çıxartmaqdan bilmərrə əl çəkim".*** 1926-ci ildən məcmuə C.Məmmədquluzadənin imzası ilə yox, "heyəti-təhririyyə imzası ilə çıxırdı. aydınlıq üçün göstərək ki, M.Cəlilin özünün də yazdığı kimi "bietibar" zəmanədə yaşamasına baxmayaraq heç vaxt əqidəsinə, vicdanına xələl gətirə biləcək addım atmamışdır. ***"Mən ikiüzlülüyü bacaran deyiləm". "Mən öz bəramdə bir şey yaza bilmərəm", "Mən özüm fitrətən həmişə qurultulu nümayişlərdən uzaq olmuşam, o dərəcəyə kimi ki, mənim özümə aid olan yubileyləri qəbul etməmişəm", "Maddi vəziyyətim ağırlaşdığı üçün hətta qəpikləri də saymaq və çox ehtiyatla tərpənmək lazım gəlir", "Bütün ümidimi ancaq Allaha bağlamışam!"*** - M.Cəlilin bu kəlamları onun şəxsiyyətini, "Molla Nəsrəddin"in kimliyini gözlərimiz önündə canlandırır.

"Molla Nəsrəddin" 1917-ci il oktyabrın 30-da canını vətənin azadlığı və istiqlalı yolunda fəda etməyə hazır olan böyük öndərimiz M.Ə.Rəsulzadə haqqında yazmışdı: ***"...Bakıda seçki məsələsi düşüb ortalığa və Məhəmməd Əmin Rəsulzadə həmişəki kimi çalış-vuruş, çalış-vuruş, nə var, nə var - mən millətin əlindən yapışacağam. Çox əcəb, yapış, vuruş, qəzet yaz, nitq söylə, o şəhərə get, yenə yaz, yenə yaz, yenə danış, amma bu işlərin iki nəticəsi var: biri budur ki, atalar demişkən "el üçün ağlayanın gözləri kor olar", nə qədər çalışırsan çalış, yenə axırda sənə qalacaq haman yazmaq, yazmaq. Və hələ çox danışsan, ata və analarından xəbəri olmayan müsəlman qardaşların arzusu yerinə yetsə - bəlkə dustaqxanalarda millət yolunda çəkdiyin günləri yenə ziyarət edəcəksən".***


1931-ci il yanvarın 7-də "Molla Nəsrəddin"in sonuncu nömrəsi çıxdı. Onun adını dəyişib "Allahsız" jurnalı qoydular. Bundan sonra M.Cəlil cəmi bir il yaşadı. 1932-ci il yanvarın 4-də Azərbaycan Molla Nəsrəddini əbədi gözlərini yumdu.

"Molla Nəsrəddin" - M.Cəlil və onun məsləkdaşlarının zəngin ədəbi-bədii, ictimai-siyasi irsi hələ neçə-neçə nəslin düşüncə qaynağı, ibrət məktəbi, iftixar mənbəyi olacaqdır.

***"Azadlıq" qəzeti, 6 aprel 1996.***

## "YENİ QAFQASİYA"NIN XÜSUSİ 27 APREL SAYI

*(69 ildən sonrakı əks-səda)*




**Ulu tanrı heç vaxt ata-anaya övlad dağı, azadxah millətə öz istiqlalını itirmək faciəsini göstərməsin! "Yeni Qafqasiya" məcmuəsinin 1920-ci il 27 aprel işğalının ildönümünə həsr etdiyi və "Azərbaycan matəmi ildönümü" adlandırdığı xüsusi sayın ürəkqanı, ülvi vətən məhəbbəti, əbədi kin, nifrət, həm də gələcəyə çox böyük inam hissi, müqəddəs ümidlə yazılmış yazılarını oxuyarkən məhz bu sözlər fikrimə gəldi.**

**Tarixi unutqanlıq milləti məhvə aparan bəladır, oriyentasiyanı itirməkdir, məcmuədə yazıldığı kimi, mələk cildinə girmişlərin "nitq bombardmanları" ilə əhalini keyləşdirməyə, onun müstəqil düşünmək, dostla-düşməni tanımaq istedadını məhv etməyə, avtoritar və totalitar polis idarə üsuluna aparan yoldur.**

**İstiqlal mücahidlərinin qardaş Türkiyə torpağında sığınacaq tapmış heyətinin 1923-cü ildən nəşr etməyə başladığı "Yeni Qafqasiya" məcmuəsi hər il tariximizin fəxarətli 28 May, faciəli 27 aprel günlərini qeyd edirdi. Vətənlə əlaqəni üzməyən, onun dərd-səri ilə yaşayan və nəfəs alan istiqlalçılar zaman keçdikcə Azərbaycanda müxalifətin, vətənsevərlərin, iqtidara baş əyməyənlərin, bolşevikcəsinə düşünməyən və məddahlıqla işləməyi bacarmayanların başına necə müsibətlər gətirildiyinə dair yazılara xüsusi yer verirdilər. 1927-ci ildə 27 aprel faciəsinə həsr olunmuş xüsusi say bu baxımdan səciyyəvidir. Tariximizin indiki məşəqqətli və təhlükəli keçid dövründə, 27 aprel faciəsinin yenidən yaşanması təhlükəsinin mövcudluğu şəraitində məcmuədə dərc olunmuş yazılarla tanışlıq, məncə, faydalı olar.**



## BÖYÜK FACİƏ

Böyük faciə! İştə türk müvərrixinin (tarixçisinin) bundan tam 7 sənə əvvəl Bakıda vüqu bulan hadisəyə verəcəyi ən müvafiq bir ism.

Yüz sənəlik bir əsarət dövrü, bu dövrdə yaşanan tarixin müxtəlif həyat səhifələri, məhkumiyyət və əsarət! Hər dürlü hürriyyət və istiqlal təsəvvürlərini xatir və xəyaldan silən ümidsiz günlər. Rus səltənətinin sarsılmaz təsəvvür olunan əzəmət və dəhşətinə qarşı qaranlıq yas və novmidi (yuxusu) acı müqəddəranə təslimiyyət dövrünün öz ağasından mütəvəllid bir təsirlə bu acıyı duymamaq bədbəxtliyi!..

Zaman keçiyor. Çar idarəsi sarsılıyor. Əsrin fikirlər üzərində təsir yapan hakim şüarları Rusiya əsarəti altında yaşayan millətlərə qədəri əks ediyor. Böyük hərəkət başlıyor. Bu hərəkatdan mütəəssir olan Azərbaycan türkü də kəndisini (özünü) bir millət olaraq hiss ediyor. Türk hars və millətçiliyinin cərəyan və inkişafı nisbətində Azərbaycanda siyasi istiqlal fikir və qayəsi də qüvvətləniyor. Azərbaycan xalqı xilas gününü bəkliyor.

Bu gün gəliyor. Hərbi-ümumi Şərqin qara bəlası, yəni türk və islam dünyasının əbədi düşməni Rusiya imperatorluğunun məğlubiyyəti mövcib (zərurət) oluyor. Millətlər kəndilərini (özlərini) saran bu məhbəsin barılarını yarıyor. Hürriyyət dünyasına çıxıyorlar. Azərbaycan da fürsəti fövt etmiyor. Türk və islam dünyasında ilk dəfə olaraq bir cümhuriyyət təsis ediyor... Azərbaycan Xalq Cümhuriyyəti!

*Azərbaycan Xalq Cümhuriyyəti - bu, cahan tarixində şübhəsiz pək böyük bir dövr təşkil edəcək hərbdən sonrakı milli Şərq demokratiyası cərəyanının bəlli-başlı bir hadisəsi, bu cərəyanın maddətən üç kəlmədən xülasə edilmiş rəmzi bir ifadəsidir!*

*Bu ilk türk cümhuriyyətinin bilxassə Türkiyəni də cəlb etdiyi əlaqə səbəbsiz deyildi. Çökən Osmanlı səltənəti yanında yüksələn bu xalq hakimiyyəti türk xalqının tarixi həyatiyyətə malik olduğuna bir işarətdi. Nitəkim öylə də oldu. Səltənətin batırdığı Türkiyəni cümhuriyyət fikri və sistemi qurtardı. Dörd gün əvvəl bütün Türkiyə iştə bu yüksəliş gününü təsyid (xoşbəxt) ediyordu.*

Fəqət tam bu sırada, istiqlalına hənuz qovuşan Azərbaycan, beynəlmiləl vəziyyətə zühur edən siyasi sağanağa (tufana) düçar oldu. Həyatının ikinci sənəsini daha tamamilə dərk etmədən, fəlakətin ən böyüyünə məruz qaldı, istiqlalını qeyb etdi.

Əvət, 1920 sənəsində bu günün misalında, qızıl rus ordusu tərəfindən təht işğala alınmaqla Azərbaycan Cümhuriyyəti hər dürlü hürriyyət və istiqlalını qeyb eləmişdir. Bolşeviklərin Azərbaycan hürriyyət

və istiqlalına təərrüz (təcavüz) etmədiklərinə vaxtilə inanan vardısa da, indi heç olmazsa Türkiyədə, bu əfsanəyi səmimi olaraq ciddi tələqqi edən tək bir zata təsadüf ediləməz!

Sənələrdən bəri bəklədiyi səadəti, əldə etdiyi günün fərdasında qeyb etmək kimi ani fəlakətə məruz qalan Azərbaycan xalqının düçar olduğu faciə həqiqətən də böyükdür. Bu fəcaət, kəndi (öz) düşmənin eyni irqdən və eyni harsdan birovz qardaşla dost olması ilə təzayüd edirdi ki, bu faciə, o dərəcədə olmasa da hala bərdavamdır.

*Azərbaycan faciəsi həqiqətən də böyükdür. Müsəllit olan (hakimiyyəti altına alan) qüvvət yeni şüarlar və yeni rənglərə malik olsa da, əski rus siyasətini təmsil ediyor və tətbiq etdiyi də nasionalizition rejimi ilə çarların ruslaşdırma siyasəti ilə müvəffəq olmadıqları nəticəyə gəliyordu.*

*27 nisan iğfalı (aldatması) ilə Azərbaycana girən qızıl ordunun məmləkətdə bərpa etdiyi dəhşət və iqa etdiyi (vurduğu) zülm və vəhşəti burada sayacaq deyiliz. Bu xüsusda bu sütunlarda vaxtilə çox yazılmışdır. İş bu nüsxənin digər sütunlarında dəxi qare bu babda azçox məlumat bulur.*

*Fəqət biz hürriyyət, milliyyət, ədalət və müsavat məfhumlarının kaffəsini (hamısını) tərsinə tavil edən zalim bir idarə altında, hər dürlü xüsusiyyət və haqqından təcridlə Moskvanın köləsi hökmünə düşən zavallı məmləkətin keçirdiyi böyük faciəni təsvir etməkdən ziyadə, böyük faciənin kəndisi ilə mütənasib olaraq doğurduğu əksüləməl hadisələrini təsbit etmək istəriz.*

27 nisan hadisəsi Azərbaycan xalqını ta qəlbindən vurmuş, təsəvvürü qabil olmayan bir təsirlə dağdar etmişdir. Bunlardan bir qismi duyduqları acının təsiri ilə gözlərindəki yaşlara yol vermiş, bu surətlə ələmin gövşətici təsirlərinə kəndilərini təslim etməklə işi təbiətə buraxmışsalar da, digər qism biləks böylə yanmamış, göz yaşlarını zəbtlə kin və qeyzini toplamış, günün birində dəhşətli intiqam taraqəsilə partlayacağını mühəqqəq bulunan milli ixtilal hərəkatını vücuda gətirmişdir.

Birinci qismin mübaşirlərincə həyatda əsl olan həm də vaqeələrlə uyuşmaqdan ibarətdir. Millətin təbii həyatını qurtarmaq - iştə onların düşüncəsi. Əsirlərin fəlsəfəsi! İkinci qism isə təbii həyatla qalmaz, şərəfli həyat istər və bunun üçün də o, uyuşmağı deyil, vuruşmağı düşünür.

Solovki mənfaları (sürgünləri), "çeka" bodrumları, Xəzərin qanlı dalğaları, Bayıl həbsxanasındakı yüksək divara dayanaraq soldat qurşunlarına açılan qəhrəman kökslər, südəmər cocuğundan ayrılaraq öldürülən analar, yanıq izləri ilə damğalanmış qanlı köynəklər - xülasə böyük intiqamı hazırlayan ilahi mətanətlər və qəhrəmanca müqavimətlər - iştə şərəfli həyat üçün vuruşmağı tərvic edən nəslin keçdiyi



qorxunc mücadilə yolları!

Böyük faciənin yeddi sənədən bəri Azərbaycanda icra etdiyi müdhiş təxribat yanında, kəndisini (özünü) yasa qapdırmayan vətəndaş, şübhəsiz istiqlal məfkurəsi uğrunda yapılan bu müqəddəs mücadilənin əksəriyyətlə məxfi qalan anatını bilməli, yarınki günün gətirəcəyi səadətə qüvvətlə inanmalıdır.

***Bu xüsusda bizi inandıracaq şahid kommunistlərin kəndisidir. Böyük Rusiya imperatorluğunun təbəkəsi ilə beynəlmiləl ixtilal təşkilatının şeytani mələkəsinə malik bulunan qanlı bir qüvvət yeddi sənə boyuna tətbiq etdiyi məzalim və vəhşiyanə icraatından sonra da, hala milliyyət cərəyanının kəndisi üçün bir təhlükə təşkil etdiyindən bütün sisteminin "ufaq burjuazi" namini verdiyi milli ixtilal təhlükəsinə məruz qaldığından bəhslə bilxassə cahanca məşhur komsomol və pioner təşkilatına rəğmən gənc nəslin "müsavatizm" təsiri altında olduğunu etiraf edirsə, - artıq verilən qurbanların bihudə deyil, məqsədi təmin edəcək bir şəkil və mahiyyətdə olduğuna qane ola biləriz.***

***Əvət, əfəndilər: şübhə etməyəlim: 27 nisan faciəsi Azərbaycan Cümhuriyyətinin də 23 nisan zəfərini hazırlayacaq o böyük və müqəddəs qəzanın (cahadın) qəhrəmanlarını doğurmuşdur. Azərbaycan istiqlalı bilfel (əslində) yıxılmışsa da, bilqüvvə tikilmişdir.***

***Yaşasın Azərbaycan istiqlalı!!***

**Rəsulzadə**
**Məhəmməd Əmin**
*"Yeni Qafqasiya",*
*27 aprel 1927, N10(84)*

## ZİNDANDAKI VƏTƏNDAŞLARA!

İstədim - arkadaşlara deyəm. Fəqət iş sözdə deyil. Vətənimizin üzərinə köçən bolşevik kabusu bütün əfradi-milləti bir-birinə təbii bir arkadaş sadiq bir sirdaş yapmışdır. Azərbaycan köylü (kəndli) və əmələsi (fəhləsi), tüccar və əsnafı, ağsaqqal məktəb müəllimləri ilə Bakı darülfununun gənc tələbələri, milli ordudan baqi qalan zabit və nəfərləri, çocuğuna nənni söyləyən ana ilə beşikdəki yavrusu - həpsi bir yolun yolçusu, bir süfrənin yoldaşı və arkadaşıdırlar. Bunları biribirinə bağlayan, müqəddəs bir yola çıxmış bu qafileyi (karvanı) vahid bir kütlə, səmimi bir ailə halında yaşadan nədir?

**- Vətən məhəbbəti, zalim məstulilərə (hakimlərə) nifrət!**

Düşmən nə yapasıydı: yıxdı, yaxdı; vətənin hər tərəfini ən sevgili övladlarının qanına boyadı. Nə qədər inqilabçı azəri millətpərvərlərini ivitdiyini bəhri Xəzər dalğalarına sovurmalı!..

Fəqət Azərbaycanda istiqlal və milliyyət fikri gündən-günə artır, böyüyür, hər tərəfə dərin köklər, geniş dall (əsaslı) və budaqlar atıyor və bu həqiqəti biz deyil, bolşevik liderləri böyük bir əndişə ilə söyləyir və etiraf ediyorlar. Bu mücadiləni hankı qüvvət durdura bilər. Gözəl ölkəmizin mərd övladlarının qanı ilə boyanmış hər guşəsində hər şəhidin qəbri üstündə qızıl güllər bitir və onların ətrafında pərvanələr kimi dolanan bülbüllər "istiqlal", "istiqlal" - deyə tərənnüm ediyorlar.

*Bakı və Gəncədə yeni yapılan son həbsləri yolda duydum. Listdəki ismləri təkrar-təkrar oxuyuram. Qaç sənədən bəri görəmmədiyim əziz, sevgili simalar, kağız üzərindəki bu ismlər qarşımda birər-birər canlanıyor, fikrim çox uzaqlara dalır, hisslərim pərişan, qarmaqarışıq oluyor. Həm acıyor, həm də bəlkə gizli bir sevinc duyuram...*

***Bu adamların qəbahəti nədir? Üsyanmı yapdılar? Bolşeviklərə qarşı bir tərtibatmı aldılar? Xeyr! Bütün günahları vətən və millətlərini sevmək və indiyə qədər bolşevik firqəsinə intisab etməmək cəsarəti göstərməkdir.***

*Bunların əksəriyyəti maarif və milli hars (mədəniyyə) sahəsində çalışan müəllim, mühərrir, ədib və darülfünun tələbəsidir. Məhbuslara dürlü-dürlü işgəncələr yapırlarmış. Zatən bolşeviklərin bu kimi vəhşilikləri bütün dünyaca məlumdur. Fəqət millətlərdə bir dəfə oyanmış olan hürriyyət və istiqlal fikri və arzusu heç bir zaman "Çeka" inkivizisiyonları ilə öldürülməz. Dörd tərəfləri sarılmış məxrasım (sıxıntılı) bir mühit içində boğulub getdiklərini hiss edən bolşeviklər qudurmuş bilməm nə kimi ətrafı saldırırlar. Fəqət bütün bu şiddət və zülmlər bihudə və əbəsdir. Son zəfər yenə hürriyyət fikrinindir.*

Tarixdən misallar göstərməyə lüzum varmıdır? İstiqlalları uğrunda qan tökmüş millətlərin bu gün hürr və müstəqil yaşadıqlarına şahid deyilmiyiz? Sonra uzaqlara getməyə nə hacət! Bu qədər yoxsulluqlar içində dün yalnızbaşına qəvi düşmənlərlə çarpışan türk millətinin yaratdığı xariqələrə bütün dünya halən heyrət etməyirmi?!..

Biz də türküz! Damarlarımızda eyni qan axır. Eyni mayadan yoğrulmuş çəlik kimi türk iradəsinə malikiz və hürriyyəti uğrunda türkün nə kimi xariqələr yarada biləcəyinə bu dəfə şanlı bir misal inşallah Bakı olacaqdır!..

**Vətənpərvər azərilər!** Biz biliriz zindan sizləri bükəməz, ancaq qıra bilər. Və vətəndə göstərilən bu əzim və mətanət bizlərin də, buralarda ümid və qeyrətimizi bilsəniz nə qədər artırır. Bilsəniz bu son 6-7 sənə mühacirət həyatı bizlərə nələr öyrətdi, nələr gördük, nələr bildik... Vətənin nə olduğunu bütün mənası ilə ancaq vətəncuda (vətəndən ayrı düşən) olanlar anlaya bilərlərmiş, böyük həsrətlər içində könlümüz daima oraları, o gözəl yurdumuzu arzu edir.



Bax, indi hər yanda bahar olmuş fəqət, Qarayazıda olduğu kimi başqa bir yerdə öylə gözəl bir elin baharı varmı, ola bilərmi? Bu uzaqlardan görüyorum, seçiyorum, orada yenə hər tərəf yarpaqlarla kölgələnmiş, keşid-keşid çiçəklərlə bəzənmiş, buradan eşidiyorum gecələr orada yenə bülbüllər "ana dillər" ötüyor.

**İştə bu məhəbbət və eşqi-vətən bizləri - İrana, Turana, Şərqə, Qərbə dağılmış azəri vətənpərvərlərini - qardaş kimi birləşdirmiş. Bəzi əski məruf (məlum) "xəstəliklərimiz"dən "ictimai vəhşiliklərimiz"dən əsər belə qalmamış kimidir. Firqələr, qruplar, şəxslər arasındakı çəkişmələr, mizalar yox, o tərəfdə əsir bir ana vətən, bu tərəfdə əl-ələ vermiş yekcəhət mücahid qardaşlar cəbhəsi! Bir fransız rəculinin (şəxsiyyətinin) söylədiyi kimi, "can verən ananın başı üstündə övladları qovğa edəmməzlər".**

Sonra, mücadiləmizdə bizimlə bir qayəyə doğru yürüyən bizimlə həmhüdud olan qonşularımız digər Qafqasiya millətləri də var və müqədəratlarının yekdigərlərinə nə qədər sıx rabitələrlə bağlı bulunduğunu müdrikdirlər (dərk edəndirlər). Bu xüsusda dünki tarixdən ibrət almayan qalmamışdır, - zənnindəyəm.

**Bolşevik idarəsinin mühəqqəq bir süquta doğru yuvarlanıb getdiyinə şübhə qalmamış.** Görürsünüz ki, nəhayət bütün dünya demokratiyası və əfkari-ümumiyyəsi bolşeviklərdən təmamən üz çevirmişdir.

**- Şərq nasıl?** - deyə soracaqsınız.

***Şərqin tarixi çox zaman talesiz olmuşdur. Onun kəndi (öz) təbii məcrası ilə yürüyüşünə maneələr çıxaran düşmənlər az olmamış. Fəqət unutmayalım ki, siyasi ziqzaqlar dövrü tarixdə keçici bir şeydir...***

***Zavallı azəri gəncliyi, bütün gənclik zindanlarda keçir. Bu talesizlik içində fəqət yenə taleliyik, çünki qayən vətənin hürriyyətidir.***

***Əvət qardaşlar, kəndimizi (özümüzü) fəzlə yasa qapdırmayalım, düşmənin həzimət (məğlubiyyət) saatı bəlkə bu gün, bəlkə də yarındır!***

**Paris. Nisan (aprel)**
**Mustafa**

***"Azadlıq" qəzeti, 25 aprel 1996.***

## "BOZ QURDLAR", YOXSA QIRMIZI ŞEYTANLAR?

Respublikamızda milli televiziya və xarici telekanallarla nümayiş etdirilən kino-filmlərin məzmunu, qayəsi, ümumi sənətkarlıq və xeyirlilik səviyyəsi televiziya tamaşaçılarına və hörmətli oxuculara bəllidir. Məqsədimiz indi bu vacib mövzuda söhbət açmaq deyil, qısaca söhbət açmaq istədiyimiz iyunun 13-də axşam Rusiya ictimai televiziya kanalı-ORT ilə nümayiş etdirilən "Boz qurdlar" filmi haqqındadır. Tanınmış artist və kinorejissor Nikita Mixalkov əvvəlcə film haqqında tamaşaçılara məlumat verdi və sonda dedi ki, 70 il müddətində hakimiyyətdə olan qəddar Allahsızlar dəstəsi ölkəni fəlakətli, faciəli vəziyyətə salmışdır. Çıxış yolu - haqq yoluna qayıtmaqdadır.

"Boz qurdlar" filminə mən də çox böyük diqqət və maraqla tamaşa etdim. Burada cərəyan edən hadisələri, onların acı nəticələrini bizim nəsil yaşamışdır. Film bədii olsa da tarixi faktlara, bu vaxta qədər üstüörtülü saxlanılan məqamlara və sənədlərə əsaslanır. İştirakçıların bir qismi isə sağdır. Söhbət 1964-cü ilin payızında partiya və hökumət başçısı, Stalindən sonra 11 il SSRİ deyilən "Şər imperiyası"nı idarə edən N.S.Xruşşovu hakimiyyətdən uzaqlaşdırmaq üçün sui-qəsdin təşkilindən və təşkilatçılarından gedir. Sui-qəsdçilər Xruşşovun özünün partiya baş qərargahına yığdığı, inandığı adamlardandır. Əsas təşkilatçılar sırasında boz qurdların belə "tülkü" adlandırdıqları satqınlıq mücəssiməsi Anastas Mikoyanı da görürük.

Müəlliflər haqlı olaraq hər şeydən əvvəl ölkəni və partiyanı idarə edən Siyasi Büro və ya Rəyasət Heyəti adlanan baş qərargahda oturan, özlərini rəhbər xadim hesab edənlərin əslində necə vəzifə düşgünləri, ikiüzlü, mənəviyyat və şəxsiyyətcə pozğun, intiriqa ustaları olduqlarını ön plana çəkirlər. "Balıq başından iylənər" kəlamını açıqlayırlar. Bu baxış, bu düşüncə tərzini bilmək bu gün hava və su kimi hər bir vətəndaşa vacibdir. Demokratik vətəndaşlıq cəmiyyəti, hüquqi dövlət və bazar iqtisadiyyatının hakim olduğu məkanda ölkənin idarəsi, bu kimi rəhbərliyin, boz qurdların əlinə keçə bilməz. İlkin nəticə belədir.

Diqqəti cəlb edən ikinci cəhət sui-qəsdən sonra kimlərin hakimiyyətə gəldiyi, ölkənin başına yeni boz qurd dəstəsinin nələr gətirdiklərinin tamaşaçıların yaddaşına buraxılmasıdır.

Nəhayət, filmin adı barədə. Məncə "boz qurdlar" müəlliflərinin nümayiş etdirdikləri adamlardan çox-çox yüksəkdə duran canlılardır. Onlarda ehtiyatlılıq varsa da, satqınlıq və xəyanətkarlıq yoxdur. Əslində filmdə nümayiş etdirilənlər boz qurd deyil, Allahsız, dinsiz-dəməli vicdansız, mələk libası geymiş qırmızı şeytanlardır. Doğrudur, onların



bir qismi ifşa edilmişdir. Amma ordu qalmaqda, MDB məkanında hakimiyyət uğrunda vuruşmaqda, meydan oxumaqdadır. Görünür, Rusiyada və yaxın xaricdə əmin-amanlığın, demokratiyanın həqiqətən bərqərar olması üçün uzun müddət çalışmaq-vuruşmaq lazım gələcək. Filmdən çıxarılan nəticə budur.

***"Liberal-Press" qəzeti, N2.21.VI.96***

## İNAM, ELM, ŞƏRAİT

Dünya şöhrətli, az danışıb çox iş görən, elmin müqəddəs sərhədlərini qorumağı bacaran hörmətli akademik Azad Mirzəcanzadənin "Hürriyyət" qəzetinin oktyabrın 1-i tarixli sayında dərc olunan müsahibəsini məmnuniyyətlə oxudum. Alim sözüdür, vətəndaş sözüdür, əsl vətənpərvər düşüncələri, fikirləridir. Müstəqil dövlətçilik həyatını yaşadığımız dövrün, şəraitin gələcəyinin elm və inamla bağlılığına dair böyük zəka və istedad sahibi olan alimin müdrikcəsinə dediyi kəlamlara, proqnoza diqqətlə qulaq asmaq vacibdir. ara qarışa bilər, amma məzhəbi itməyə qoymaq olmaz. Azad müəllimin "xalqın kapitalı" adlandırdığı Üzeyir bəy hələ 1910-cu ildə yazmışdı: "məsləksizlik-yolsuzluqdur, əxlaqın pozğunluğudur", "Məsləksiz insan müzürrüdür (zərərlidir)", "məslək hər kəsin etiqad etdiyi yoldur, ümumi xoşbəxtliyini, asayiş və aramını, rifah-halını, tərəqqi və təkamülünü təqib edən hər bir məslək sahibi müqəddəs ədd olunmalıdır".

Hörmətli alim, elmimizin gələcək taleyi üçün haqlı olaraq narahatlıq keçirir, "bu gedişlə elmimizin yaxşı gələcəyinə inanmaq olmur" - deyir, bir növ həyəcan təbili çalır. Əsrin əvvəllərində Üzeyir bəyin çox böyük uzaqgörənliklə xalqımızın potensial imkanları haqqındakı görüş və inamını günümüzün müdrik şəxsiyyətlərindən olan Azad Mirzəcanzadə yeni tərzdə ifadə edir. Üzeyir bəy yazırdı ki, "Allah-taala bizi qabiliyyətsiz, istedadsız yaratmayıb", "şərait bizim dahilər üçün müsaid deyildir", "bizdən ümuminsaniyyət dahiləri çıxmağa yol vermirlər və işıq gələn yerləri bərk-bərk bağlayırlar", "içimizdə dahilik üçün doğulmuş əfradımız (fərdlərimiz) belə cahil mühit içində tərəqqi edə bilməyib bütöv istedadları ilə itib-batıbdırlar", "vaxtdır ki, qara pərdəni üstümüzdən ataq, məharət və ustadlığımızın üstünü bürüyən kəsif qabıqlarını yırtaq və içimizdə mövcud olan sərvət və samanın (dövlətin) zühuruna və zühuru ilə həm özümüzə və həm də bütün insaniyyətə xidmətlər göstərməsinə mane olmayaq. Bəsdir ki, indiyə qədər xalqın ağıl və fərasəti ilə mənfə-

ətbərdar olurduq. Qoy bundan sonra da xalqın bizdən istifadə etməsinə yol açılsın", ("Həqiqət", N1, yanvar, 1910).

Gəlin heç olmazsa, əsrin əvvəli və sonlarında müdriklərimizin çağırışına diqqətlə yanaşaq. Əks təqdirdə 21-ci yüzillik və 3-cü minillikdə fənalıqla qarşılaşmalı olarıq.

**"Liberal-Press", 4 oktyabr 1996**

Müəllifin şərhi

## A.BOROVİK ERMƏNİ TƏCAVÜZÜNÜ NİYƏ GÖRMƏZLİYƏ VURUR?

"Ayna" qəzetində dəbdəbəli bir başlıq altında Artyom Borovik-lə geniş müsahibə dərc olunmuşdur (bax N 38). Tanınmış jurnalist, siyasi atmosferi vaxtında duyan, ondan xüsusi məqsədlər üçün istifadə etməyi bacaran A.Borovik son vaxtlar Azərbaycana da xüsusi maraq göstərməkdədir. "Ayna"nın istedadlı, hazırlıqlı, qələmi getdikcə püxtələşən əməkdaşı Nurani - Tofiqə xanım Qasımova həmin müsahibədə bu marağın köklü səbəblərini, onun görünən və görünməyən tərəflərini müxtəlif səmtlərdən, sistemli şəkildə, qlobal fonda aydınlaşdırmağa çalışmışdır. Gənc jurnalistin Genrix Borovik məktəbini keçmiş və onu təkmilləşdirmiş təcrübəli qələm qoçusu ilə müsahibədə qayəsinə nə dərəcədə nail olub-olmaması ilə işimiz yoxdur. Yalnız bəzi cəhətlərə öz münasibətimi bildirmək istəyirəm.

A.Borovik keçmiş SSRİ və Rusiya Federasiyasında son onilliklərdə cərəyan edən mühüm hadisə və problemlərə toxunur, çox şeydən danışır. Özlüyündə bunlar maraqlıdır. Lakin Azərbaycana gəldikdə o, iqtidarın ünvanına bir tərəfdən səxavətli fikirlər söyləyir, "hər şeyin yavaş-yavaş qaydaya düşməsindən" söz açır. "Azərbaycanı heç vaxt xarici dövlət kimi qavramıram", "Hamı mənim dilimdə danışır", "yenə də bir ölkə olaraq qalmaqdayıq" - deyir, digər tərəfdən, "Azərbaycanda qibtə ediləsi şey yoxdur", "hər şeyi sıfırdan başlamaq çətindir", "xalqın necə ağır vəziyyətdə yaşadığı göz qabağındadır" qənaətinə gəlir.

Azərbaycanın ağır vəziyyətə düşdüyünü, sayı milyona çatan qaçqınlarımızın fəlakətini, faciəsini dünya bilir. Bunun əsas səbəbkar və təqsirkarları da məlumdur. A.Borovikin Nurani xanımın çox gözəl və tutarlı dəlillərlə yazılmış "Yerevan Rusiyanın paytaxtı ola biləcəkmi?" sərlövhəli məqaləsi ilə tanış olub-olmadığını bilmirəm. Lakin təəccüb doğuran budur ki, iki səhifəlik müsahibədə "erməni", "Ermənistan" sözlərinə belə rast gəlinmir. Azərbaycana gələsən, bir saatlıq veriliş hazırlamaq məqsədində olasan, müsahibəndə Ermənistanın Azərbaycana hərbi təcavüzündən, torpaqların işğalından söz açmayasan-bu ağlasığan şey deyil.



A.Borovik bir yerdə keçmiş SSRİ məkanında münaqişə zonaları sırasında Dağlıq Qarabağın adını da çəkir, onu da "milli zəmində baş verən münaqişələr" sırasına daxil edir və iddia edir ki, guya "bu müharibələr bu və ya digər şəkildə "islam amili" ilə əlaqədardır". A.Borovikin kim olduğunu və Azərbaycana nə məqsədlə gəldiyini müəyyən etmək çətin deyil. Azərbaycana, türk-islam dünyasına münasibətdə Artyom Borovik atası Genrix Averyanoviç Borovikin "ənənəsini", "siyasi xəttini" davam etdirir.

Yadımdadır, 1988-ci ilin aprelində Genrix Borovik 10 nəfərlik bir dəstə ilə Bakıya gəlmişdi. O vaxt Azərbaycana və azərbaycanlılara qarşı erməni təxribatı və təcavüzü yenicə alovlanmağa başlamışdı. Respublika rəhbərliyinin əfəlliyindən istifadə edən ermənilər ərazi davasına milli rəng vermək üçün Sumqayıt hadisələrini törətmişdilər. Azərbaycana qarşı nifrət kampaniyasına Moskvadakı ermənipərəstlər də qoşulmuşdular. Mərkəzi televiziyada "Mövqe" (Pozisiya) verilişinin rəhbəri və aparıcısı, Sovet Sülhü Müdafiə Komitəsinin sədri, SSRİ Yazıçılar İttifaqının katibi, beynəlxalq şərhçi Genrix Borovik əvvəl Yerevana yollanmış və dəstəsini hər cəhətdən "hücuma" hazırlayıb Bakıya gəlmişdi. Onun verilişə cəlb etmək istədiyi adamlar sırasında mən də vardım. Genrix Averyanoviç ermənilərin ərazi iddialarına çox ustalıqla milli rəng verməyə çalışırdı. Söhbətlərimiz çox gərgin və mübahisəli keçirdi. Hətta xalq şairi Nəbi Xəzri verilişdən imtina edərək getdi. Vəziyyəti gərgin görən Borovik özünü respublika rəhbərliyinin yanına saldı. Nəticəsi bu oldu ki, xoşuna gəlməyən, onun fitinə oynamayanları, o cümlədən mənim çıxışımı verilişdən çıxartdı. Tezliklə Moskvada "Mövqe" verilişi efirə getdi. verilişdə nə hədyanlar, nə iftiralar yox idi"! Hətta Borovik Yerevanda xüsusi saxtakarlıqla hazırlanmış I Dünya müharibəsi dövrü "erməni genosidi"nə dair bədii filmin kadrlarını tarixi sənəd kimi tamaşaçılara təqdim edirdi.

Qonaqpərvərlik yaxşı keyfiyyətdir, xalqımıza xas olan tarixi mirasdır. Ancaq kimin nə məqsədlə, hansı qayə ilə gəldiyini, ümumi, gələcəyi məqsədlərə və təriflər arxasında nəyin gizləndiyini də bilmək vacibdir. Müstəqil dövlətin mənafeyi hər yerdə, hər işdə, o cümlədən müsahibələrdə də gözlənilməli, qorunmalıdır. Bunun formasını tapmaq sənətinə də yiyələnmək gərəkdir.

***"Liberal-Press" qəzeti, 4 oktyabr 1996.***

## QANIB YAŞAMAQ DƏRDİ

*Şamı qoydum şamdana,*
*şam qaldı yana-yana,*
*Ürəyimin dərdini*
*demədim,*
*mən qaldım yana-yana.*



**Uşaqlıqda eşitdiyim bir xalq mahnısındakı bu sözlər nədənsə yadımdan çıxmır. Ürəyinin, vətənin dərdlərini, arzu və istəklərini demək, həm də azad demək səadəti hər adama, hər nəslə qismət olmur. Bizim nəsil də bu vəziyyətdə olub. Rəsmi deyilənlər və yazılanlarla real həyat həqiqətləri arasındakı təzadlar zaman-zaman vicdanımızı incidib, varlığımızı sarsıdıb. Açıq deyə bilmədiklərimizi arabir şəxsi məktublarda ifadə etmişik. Həyatın lap qaynağından-çobanlıqdan öz fitri istedadı və çalışqanlığı ilə respublikamızın tanınmış ədəbi tənqidçisi, alim və publisisti, yazıçı və müəllimi, ən əsası isə qeyrətli və cəsarətli vətəndaşı səviyyəsinə yüksəlmiş elmlər doktoru, professor, əməkdar elm xadimi Qulu Xəlilov da bu dünyanı ürəyi dərdli tərk edənlərdən biridir. Vətənin və xalqın taleyi, gələcəyi onun qaynar həyatının mayası, mənası idi.**

**"Liberal press" qəzetinin oxucularını mərhum dostum Qulu Xəlilovun 28 il bundan əvvəl mənə yazdığı bir məktubla tanış etmək istəyirəm. Başa çatmaqda olan əsrin 70-ci illərində bir vətən övladı, ziyalı, alim-yazıçının ürək sözlərini oxumaq məncə elə bugünümüzü də dərk etmək baxımından faydasız olmaz.**

### YUXUM...

*Əzizim Şirməmməd! Dünən /28 sentyabr/ axşam sənə zəng vurandan və partiya iclasının yekunları barədə ötəri bir məlumat alandan sonra, bərk yorulduğum üçün tez yatdım. Şirin yuxuya getməmişdim, bir də gördüm ki, çox eybəcər bir neçə ifritə yavaş-yavaş mənə sarı gəlir. Əvvəlcə vecimə almadım, düşündüm ki, axı o qədər belə şeylər görmüşəm ki, qoy lap yaxın gəlsin, "qılıncımı" sıyırıb vuruşacam. Gördüm hərif lap yaxına gəldi, lakin mənim saymazyana yatdığımı, bir balaca qurcalandığımı görüb addımlarını çox ehtiyatla, qorxa-qorxa atmağa başladı. Bir balaca başımı qaldıran kimi məni boğmağa gələn ifritə götürüldü... və tapa bilmədim. Səhər oyandım və öz yuxumu sənə danışmaq istədim. Bəlkə sən bu yuxunu yozdun. Bu yuxu ilə əlaqədar yadıma bəzi şeylər düşdü.*



*Fikirləşdim ki, tam halda götürsək həyatda iki cür adamlar olur. Bir qrup adamlar yoluxucu xəstəliklərə oxşayırlar. Onlar yaxşı geyinir də, danışır da, bir çox rütbələri əldə edir də, ancaq ətəyini bir balaca qaldıranda, qəlb aləminə nüfuz edəndə çirkab və üfunət iyi verir. Çünki bələləri cəmiyyətin və xalqın sinəsində irinləmiş çibana bənzəyir. Belə adamlar "heyvanları da korlayırlar". Mənə görə, mədəniyyət pərdəsi altında mədəniyyətsizlik, təmizlik əvəzində natəmizlik, çirkab, xəbislik, namusluluq əvəzinə hiyləgərlik, dələduzluq, ədalət pərdəsi altında ədalətsizlik, qansızlıq, həqiqəti dəf etmək, ciddi iş əvəzinə pedantlıq, intriqa, dedi-qodu, yüksək amal əvəzində idealsızlıq, simasızlıq, riyakarlıq, ikiüzlülük, həqiqət uğrunda mübarizə əvəzində ölgünlük, süstlük, ətalət, üzdə gülüş-tərif arxada böhtan, badalaq, kirli təşviqat, ayıqlıq və sağlamlıq əvəzinə kütlük, xəstəlik... yayan bu cür adamcılara qarşı vurşumağın özü şərəfdir, insanlıq ləyaqətini qorumaqdır. Riyakarlıq və rəzillik zirehinə bürünmüş, vicdanı qarşısında bir dəfə də olsa sarsılmayan, titrəməyən və getdikcə heyvanlar dünyasına yaxınlaşan belə tiplərə qırmanc-şallaq-qamçı dəyməsə ətraflarına da üfunət yayar, zərər verərlər. Əqrəb kimi analarının ciyərini yeyib doğulan və bundan sonra dəhşətli qorxunun vahiməsindən irəli də gedəndə, geri də gedəndə zəhərini buraxan belə adam, Qorkinin qəhrəmanlarının birinin dili ilə desək, başını kif basmış hikmətlərin qırıntılarına bulaşmış ucuz həqiqətlərlə doldurub, xəsis bir evdar qadının ona tamamilə lazım olmayan və heç bir şeyə yaramayan hər cür zir-zibil saxladığı dəhlizə bənzəyir. Belə bir adama toxunduqda, onun qapısını açdıqda burnuna çürüntü üfunəti gəlir və tənəffüs etdiyin hava murdar bir qoxu ilə dolur. Bu bədbəxt adamcıqları ruhca möhkəm adamlar, prinsip və əqidə adamları adlandırırlar. Lakin heç kəs görmək istəmir ki, belə adamlar üçün əqidə öz bədənlərinin çılpaqlığını örtmək üçün tumandan və şalvardan başqa bir şey deyildir. Belə adamların alınlarında həmişə hamıya məlum olan "sakitlik və təmkin" kəlmələri, - saxta bir yazı oxunmaqdadır! Mən nə qədər belə adamlar görmüşəm. Belə xırdavatçı adamların dükanlarının sayı-hesabı yoxdur! Bu dükanlarda kəfən üçün müşənbə də, qatran da, nabat da və mətbəx qurdlarını qırmaq üçün dərman da tapsan, - ancaq təzə, qızğın və sağlam heç bir şey tapmazsan! Sən tənhalıqdan yorulmuş xəstə qəlbinlə onlara müraciət etsən, canlı bir şey eşitmək yanğısı ilə onların yanına gəlsən onlar sənə isti bir saqqız, özlərinin çeynədikləri və köhnəlib qıcqırmış, qıfşamış kitab düşüncələri təklif edəcəklər. Mənə elə gəlir ki, bələləri şəhər kənarına zibil daşıyan boynu zınqrovlu tox, lakin məst, öz taleyindən məmnun olan bədbəxt madyan, və ya yabı cinsini xatırladır.*

*Madam ki, belə "cinslər" var, onda həyat bizim doğma anamız ola bilməz, bizim tələbkar, mübariz sahibimiz ola bilməz. Belə çirkablar, rəzillər sıxlaşıb üstümüzə gələrkən sarsılmamaq, müvazinəti itirməmək üçün mərd, təmiz, vicdanlı, namuslu, ruhən sağlam, cəsur, cəngavər adamlar lazımdır. "Əgər yararsız insanlar birləşərək böyük bir qüvvə əmələ gətirirsə, namuslu insanlar da belə birləşməlidirlər. Axı, bu, çox sadə bir işdir" /Pyer Bezuxov/. Həqiqəti, işıqlı və mütərəqqi olanları qorumaq üçün, cəmiyyəti, insanlığı, bəşəriyyəti... çirkabdan, üfunətdən təmizləmək üçün, saf, təmiz, məsum, ləkəsiz, insani ürəkləri qorumaq üçün, yanan, yandıran, yaşayan, yaşadan, humanist vicdanları qorumaq üçün... Mənim barəmdə ürəyinə hansı bir hiss yol tapmaq istəsə də, açıq deyəcəm: mən səni bu cür təmiz və insani fikirlərin, ideyaların paklığını özündə cəmləşdirən adamlardan biri sayıram! Təkcə ona görə yox ki, mənə yuxuda ifritələr hücum edərkən onların səddini pozmusan, dağıtmısan, həm də ona görə ki, /bu ən vacibi və əhəmiyyətlisidir!/ mən sənin şəxsində, hərəkət və əməllərində öz istək və arzumun təcəssümünü görürəm. Axı indiki şəraitdə bu cür bütöv və saf xarakterə malik olmaq Suvorovun Alp dağlarını yarmasından heç də asan deyildir. Mənə elə gəlir ki, bu cür xarakterə sahib olmaq böyük qəhrəmanlıqdır, xüsusi istedad əlamətidir, insanlığın nəcib arzularına çatması üçün uzaq-uzaq məsafəsini xeyli ixtisara salmaqdır. Burada Çernışevskinin Rəxmetovu yadıma düşür. Böyük mütəfəkkir yazır ki, Rəxmetov kimi adamların yolu şəxsi sevinclər üçün kasıb olsa da, şərəflidir: "Bəli, onlar pis adam deyillər. Onlar azdır, lakin bütün insanların həyatını çiçəkləndirən onlardır. Onlarsız bu həyat çürüyərdi, turşuyardı. Onlar azdır, lakin onlar bütün insanlara nəfəs verirlər, onlarsız insanlar boğulardılar. Namuslu və xeyirxah insanlar kütləsi böyükdür, Rəxmetov kimi adamlar isə azdır. Lakin namuslu və xeyirxah insanların arasında onlar çayın ətri, gözəl şərabın atəşidir. Kütlənin qüvvəsi və gözəlliyi onlardır. Onlar ən yaxşı insanların yaxşısıdır, mühərriklərin mühərrikidir, dünyanın canının canı, cövhərinin cövhəridirlər". Mən, heç mübaliğə etmədən, qəlbimə heç bir qara hissi yaxın qoymadan sən Şirməmməd Hüseynovu da tərəddüdsüz, bu cür adamlardan, müasir rəxmetovlardan biri sayıram. Madam ki, beladir, onda yalançılığa, riyakarlığa, dələduzluğa, çirkaba, üfunətə, ikiüzlülüyə, yaltaqlığa... qarşı mübarizədə məni də özünlə çiyin-çiyinə gör. Arzu edirəm ki, bu şərəfli işdə sevinc və xoşbəxtlik, nəşə və müvəffəqiyyət daimi yol yoldaşın olsun!*

**Dərin hörmət və minnətdarlıq hissi ilə,**
**Qulu XƏLİLOV.**
Bakı, səhər saat 8.
29/IX-68.

***"Liberal-press" qəzeti, 11 oktyabr 1996.***



**Bəxtiyar VAHABZADƏ:**

## "MƏNİ SİYASƏTDƏ DEYİL, ŞERLƏRİMDƏ AXTARIN"

*Həmişə şerlərinə, məsləhətlərinə böyük mənəvi ehtiyac duyduğumuz sevimli şairimiz B.Vahabzadə son vaxtlar mətbuatda, televizor ekranlarında az görünür. Doğrusu, şair üçün çox qəribsəmişdik.*

*Bu yaxında fürsət tapıb onunla görüşdük və bəzi suallarımıza cavab verməyini xahiş etdik.*

**- Bəxtiyar müəllim, dünyanın tanıdığı Ç.Aytmatov Sizi əsrin şairi adlandırıb. Əsr başa çatır. Yeni yüzillik ərəfəsində əsrin şairi nələr düşünür, dünyaya necə baxır?**

- Qarşımıza gələn yeni əsr məni çox qorxudur. Yeni əsrdə xalqımızın malik olduğu bir çox mənəvi dəyərlərini itirməsindən qorxuram.



***Ş.Hüseynov və tanınmış ziyalılarımız B.Vahabzadənin 60 illiyinə gəlmiş qonaqlarla***

**- Tarixini bilməyən həddini də bilməz deyiblər. Tariximizə yenə də birtərəfli münasibət, onu cari siyasətə uyğunlaşdırmaq meylləri Sizi - tarixi mövzuda qiymətli əsərlər müəllifini narahat edirmi?**

- Tariximizə həmin dövrün öz tələbləri, öz gerçəklikləri baxımından baxmamağın, onu bu günün ölçüləri ilə ölçüb, bu günün tələbləri ilə

qiymətləndirməyin əleyhinəyəm. Bu, tarixi şəxsiyətlərimizi inkara gətirib çıxarır. Biz onları öz zəmanələrinin fonunda dəyərləndirməyə çalışmalıyıq. Elm də, sənət də siyasətə deyil, həqiqətə xidmət edəndə böyüyür və zirvələr fəth edir.

**- Hamımız bilirik ki, istiqlalın, müstəqil dövlətçiliyin yolu keşməkeşli, cəfalı, əzab-əziyyətli olacaq. Lakin ümid edirik ki, çətinliklər vətənin həqiqi övladlarının səyi ilə dəf olunacaq, məsuliyyət və cəfa yükü xalqın bütün təbəqələri arasında ədalətlə bölünəcək. İstiqlalımızın beş illiyi tamam oldu. Vəziyyəti necə görürsünüz?**

- Mən bu suala yenicə yazdığım şerdən bir parça ilə cavab vermək istəyirəm:

*Əsarət odunda bişdi nəslimiz*
*Azadlıq eşqinə yandıq, yaxıldıq.*
*Çatıb azadlığa bu məbəddə biz*
*Şükür namazını qibləsiz qıldıq.*

*...İndi biz azadıq, bizi bir zaman*
*Şeytandan qoruyan abır-həyadan*
*Azadıq düşmənə qəzəbdən, kindən*
*Millət hədəf olub öz nifrətinə.*

*Qurtarıb özgənin əsarətindən*
*Düşdük özümüzün əsarətinə.*
*İndi azadlığım mənə qənimdir*
*Bu gizli oyundan baş açmır fələk.*
*Məni kor quyudan çıxardan kəndir*
*İndi boğazıma keçib halqatək.*

**- Şair Bəxtiyarın poeziyadan, həqiqət yolundan, inamından və inancından sapdığını görmək çətindir. Lakin aktual siyasi məqamlarda bəzən bunu görmək olmur. Bunu nə ilə izah edərdiniz?**

- Millətin sözünü deyə bilən siyasətçilərimizin azlıq təşkil etdiyi 1988-92-ci illərdə millət vəkili kimi uca kürsülərdən danışar, demokratiyanın, milli istiqlalımızın qoruyucusu kimi çıxış edərdim. Amma mən peşəkar siyasətçi olmadığıma görə, sadəlövhlüyümdən bəzən aldanır və sonra bunun əzabını çəkirdim. Buna görə də hələ Elçibəy hakimiyyəti dövründə, dəqiq desək 1992-ci ilin payızında mən Milli Məclisin üzvlüyündən istefa verib, kürsülərdən masa arxasına keçdim. Mən başa düşdüm ki, siyasətdə səhv edə bilərəm, amma sənətdə yox. Bu



müddətdə bir pyes və xeyli şer yazmışam. Ona görə də sizdən xahiş edirəm, məni siyasətdə deyil, şerlərimdə axtarın...

**- Bəxtiyar müəllim, maraqlı müsahibə üçün Sizə "Liberal-Press" qəzetinin oxucuları adından təşəkkür edir, möhkəm cansağlığı, yeni yaradıcılıq uğurları arzu edirik.**

***"Liberal-Press" qəzeti, 18 oktyabr 1996.***

Əsrin sonundan əvvəlinə baxış

## ƏSL ZİYALI ÇAĞIRIŞI NÜMUNƏSİ

XX yüzillik hər şeydən əvvəl milli oyanış, milli özünüdərk əsridir. Əsrin əvvəllərindən başlayan bu proses indi də davam etməkdədir. Zəngin tarixi, böyük mədəniyyəti olan xalqımız da bu prosesdən kənarda qalmamışdır. Lakin, etiraf etmək lazımdır ki, bizim üçün başəri məcraya qoşulmaq həmişə çətin, ağrılı-acılı olub və yenə də olmaqdadır. Səbəbi nədir?

Ziyalılarımızın böyük bir dəstəsinin cəmləşdiyi ilk gündəlik qəzetlərimiz "Həyat", "İrşad" və digər mətbuat orqanlarımız da bu məsələ barədə çox geniş söhbət etmişdir. "İrşad"ın 1905-1908-ci illər fəaliyyətində bu aparıcı mövzulardan biri idi. "Bizim içimizdə həqiqi rəhbər varmı?", "Milləti qabağa aparmaq, hər yoldan ötənin işi deyil", "Bizim məsləkimizdə, tərəqqimizdə bomba, güllə yoxdur", "Biz inqilabçı olmayıb da tərəqqipərvəriz" - milli oyanış yolunda qarşıya belə problemlər çıxırdı. Bu baxımdan "İrşad" Azərbaycan tərəqqipərvər ziyalılarının ideya-siyasi qərargahı rolunu oynayırdı. Məhz buna görə "İrşad"a qarşı təcavüz milli məfkurəyə, milli birliyə, istiqlal düşüncəsinə qarşı yönəldilmiş təcavüz kimi qiymətləndirildi. Bu hücumları dəf etməyə "İrşad"ı yaşatmağa çalışanlar sırasında biz tariximizin ən işıqlı, ən fədakar ziyalılarını görürük. "Molla Nəsrəddin" jurnalı 1907-ci il avqustun 26-da bu qeyrətli ziyalıların səsinə səs verərək bütöv bir nömrəsini onların millətə müraciətinə həsr etmişdir. Bu müraciət tarixi sənəddir, öyrənilməsi, nəticə çıxarılası sənəddir. Bu müraciətdə səmimi etiraf, anlaşılmazlıqdan nəticə çıxarmaq, xalqın qeyrət və namus, ağıl və zəka mücəssiməsi olan xadimlərinin qədrini bilmək, onları hifz etmək, qayğısına qalmaq kimi nəcib hisslər öz əksini tapmışdır.

***"Liberal-Press" qəzeti, 8 noyabr 1996.***

## QORBAÇOV VAŞİNQTONDA KİTAB SATIR

ABŞ-ın informasiya agentlikləri xəbər verdilər ki, bu günlərdə axırıncı SSRİ prezidenti və dünyaya meydan oxuyan bir nəmrəli kommunist partiyasının baş katibi Vaşinqtonun iri kitab mağazalarından birində öz xatirələr kitabının satışı ilə məşğul olub. Amerikalıların axırıncı kommunist liderə maraq göstərmələri təbiidir. Şər imperiyasının dağılması ABŞ-ın dünyada yerini, rolunu və mövqelərini möhkəmlədib, nüfuzunu daha da artırıb. Qorbaçovun avtoqrafı ilə 500 kitab satılıb. Bununla əlaqədar reylərdə Qorbaçovun keçən illərdə pullu mühazirələr oxumaq üçün də ABŞ-a səfərə çıxdığı qeyd edilir. Kəsəsi Qorbaçov indi də bu üsüllla pul qazanmaq yolunu seçib. Axı neyləsin, onun təmsil etdiyi böyük bir ordu maaşla, pensiya ilə dolanmağa öyrənməmişdir. Hər yerdə hazıra nazir olmuşlar. Ona görə də hakimiyyətdən ikiəlli yapışır, iqtidara gəlmək və uzun müddət onu saxlamaq üçün hər cür vasitəyə əl atmağa hazır olurlar.

Baş katib, prezident olmuş Qorbaçov indi də bu yolla pul qazanır, axırıncı büro üzvlərinin nə işlə məşğul olduqları isə oxuculara məlumdur.

Deyirəm atalar yaxşı deyiblər ki, tarix bir hökmü-ilahidir, zaman tarixin məhək daşıdır. Hələ ki, tarixə kəf gəlməyi bacaranı görən olmayıb. Yəqin ki, olmayacaq da. Kiminin əvvəli, kiminin axırı - bu zərbməsəli də məddahların göylərə qaldırdıqları keçmiş kommunistlər gərək yaddan çıxarmasınlar.

***"Liberal-Press" qəzeti, 8.XI.96***



## MƏDDAHLIQ KÖHNƏ "SƏNƏTDİR", DAVAMÇILARI HƏR ZAMAN VAR

Tədqiqatçılar məddahlığı ən qədim qadın "peşəsi" ilə müqayisə edir, hətta onunla bərabər tuturlar. Zaman dəyişir, ictimai-siyasi quruluşlar bir-birini əvəz edir, informasiya axını qloballaşır, kosmosdan planetin istənilən nöqtəsini seyr etmək adicə hal alır, lakin qədim qadın peşəsi ilə məddahlıq mahiyyətcə qalmaqda davam edir, elə bil dəyişmir.

Məddahlıq belə çıxır ki, bəşəriyyəti, insanlığı daim müşayiət edən xəstəliklərdən biridir, əxlaqi mənəvi xəstəlikdir.

Hər şeyin əndazəsi olduğu kimi yaltaqlığın, yalanın və uydurma tərifin-məddahlığın da bir əndazəsi olmalıdır. Lakin məddahlıq yarışı bəzən ifrat dərəcəsinə çatanda əks nəticə də verir. Mən dəfələrlə bunun şahidi də olmuşam. Bir nümunə.

Moskva Dövlət Universitetində aspirant idim. 1950-ci ilin noyabrından universitetin Stromınka küçəsindəki yataqxanasında qalırdım. 4 mindən artıq tələbə, aspirant, doktorantın yaşadığı bu yataqxana millətlər sərgisini andırırdı. Həyat qaynayırdı. Akt zalında tez-tez görüşlər, mühazirələr, istirahət gecələri keçirilirdi. 1950-ci il dekabrən 21-də İ.V.Stalinin anadan olmasının 71-ci ildönümünə həsr edilmiş gecə xatirimdən çıxmır. İttifaqın ən məşhur və tanınmış bəstəkar, artist və musiqi kollektivləri tələbə şəhərciyinə qonaq gəlmişdilər. İlk söhbət Stalin və musiqiyə həsr edildi. Moskva Konservatoriyasının professoru sözə belə başladı: "Qori Ruhani məktəbi, uşaq xoru. Dini mərasim mahnısı səslənir. İfaçılar içərisində balaca gözəl Sosonun (Stalinin) səsi xüsusilə fərqlənirdi. Bu səsdə xüsusi əzəmət, xüsusi məlahət, xüsusi ilahi güc vardı". Müəllif Stalini az qala məşhur xanəndə, ifaçı edəcəkdi. Hamının nəzəri səhnədə oturmuş məşhur müğənnilər: Kozlovskiyə, Aleksandroviçə, Reyzenə və başqalarına dikilmişdi. Axı heç kəs dahi rəhbərin oxuduğunu eşitməmiş, bu qabiliyyətindən xəbərdar deyildi. Maraqlısı bu idi ki, etiraz edən, münasibətini bildirən də olmadı. Beləliklə, musiqi məddahı Stalinin daha bir "istedadını" nümayiş etdirdi.

Hər dövrün öz məddahları olur və olacaq. Təəccüblü burasıdır ki, xalqın, ictimaiyyətin gözü qarşısında mədh olunanlar tarixi təcrübəni və bu peşənin mahiyyətini anlaya-anlaya niyə səslərini çıxarmır, əksinə ona rəvac verirlər. Yaxşı deyiblər ki, xalqın bir hissəsini həmişə aldatmaq olar, ikinci yarısını müvəqqəti yolundan çıxarmaq olar, amma hamısını həmişə aldatmaq olmaz.

***"Liberal-Press" qəzeti, 15 noyabr 1996.***

## BÖHTAN XORUNU ZİYALILAR OXUMUR

"LP" qəzetinin noyabr nömrələrini diqqətlə oxuduqca ölkəmizin, xalqımızın gələcəyinə inam hissi güclənir. Nə qədər savadlı, qeyrətli, namuslu və ləyaqətli qələm əhlimiz var, ziyalımız var. ALP-nin sədri Lalə Şövkət xanım bu mürgüləmiş son illərdə müxtəlif yollarla bir-birindən, xalqdan təcrid olunmuş ziyalıları birləşdirmək yolunda səmərəli addım atmışdır. Böhtanlara, hədyanlara, "kağızı və mürəkkəbi müftə" peşəkar olan cızmaqaraçılara qoşulmağa ehtiyac yoxdur. Onların sənəti cəmiyyətdə üfunət yaratmaqdır. Amma deyim ki, iqtidar qəzetlərində birdən-birə başlayan hədyan və böhtan xoru uşaqlıq dövründəki bir təbiət hadisəsini yadıma saldı. Vaxtilə Şəkini dörd tərəfdən əhatə edən dağlarda çaqqal sürüləri meydan oxuyurdu. Hər gün qaş qaralan vaxtı Şəki ipək fabriklərinin eyni vaxtda fit səsi eşidilirdi. Və həmin anda şəhəri dövrələyən dağlardan çaqqalların elə bil bir dirijor çubuğu ilə ulaşması başlanardı. Çox qəribə bir mənzərə yaranırdı. Fabrik fitlərinin səsinə çaqqallar da qoşulurdu. O vaxt mən bu xora kimin və necə dirijorluq etdiyini anlaya bilmirdim. Çaqqallar xorunu təbiət idarə edirdi. İndiki xoru kimin və kimlərin idarə etdikləri isə...

Doğrudan da təbiət hadisələri bəzən cəmiyyət hadisələri ilə səsləşirmiş.

***"Liberal-Press" qəzeti, 7.XII.96***



## "TƏFƏKKÜR"ÇÜLƏR "ƏSRİN SƏSİ"NİN SUALLARINA CAVAB VERİRLƏR

Əsrin təzadlarla dolu son mərhələsində yaşadığımız üçün təbii ki, siyasi, sosial-iqtisadi tələtümlər öz əksini aparıcı sahələrdən olan elm və təhsil sistemində də tapmışdır. Bu məsələlərlə bağlı tərtib etdiyiniz suallar arasında ümumi bir vəhdət olduğu üçün həmin suallara ayrı-ayrılıqda deyil, birlikdə və konkret cavab vermək istərdim.

Tarixin ən nəhəng və sonuncu böyük imperiyası Sovet İttifaqı daxildən çürüyərək süqut etdi, dağıldı. Bu XX əsr və ikiminilliyin ən gözlənilməz tarixi hadisəsidir. Lakin sovet düşüncə və həyat tərzinin, təhsil sisteminin yetişdirdiyi yüz milyonlarca insan yaşayır, fəaliyyət göstərir. İdeoloji fanatizmi, tarixi təhrif və saxtakarlıqları və buna bənzər eybəcərlikləri kənara atsaq, təhsil, elm və mədəniyyət sahəsindəki nailiyyətləri inkar etmək də olmaz.

Bizim hamımız, o cümlədən "Təfəkkür" universitetinin indiki hazırlıqlı professor-müəllim heyəti, sovet təhsil sisteminin yetişdirmələriyik. Onu da qeyd edim ki, respublikada öz istedadı, ziyalı şəxsiyyəti ilə tanınan alim-pedaqoqların güclü bir seçmə dəstəsi "Təfəkkür" universitetində cəmləşib. Bura universitet rəhbərliyinin əzmkarlığını, tədris şəraitinin yaxşılaşması üçün qeyri-adi səylərini də əlavə etsək, yeni özəl təhsil sisteminin bərqərar olunması yolunda faydalı bir addım atıldığını da görməmək olmaz. Qeyd edirəm, bu ilk addımdır. Özəl təhsilin beynəlxalq standartlara və Azərbaycanın real şəraitinə uyğun formasını tapmaq asan iş deyil. Görüləsi, öyrəniləsi, diqqət yetiriləsi cəhətlər, problemlər çoxdur. Təkcə başa çatmaqda olan əsrin deyil, XXI əsrin nəfəsini duymaq, fəaliyyəti bu səmtə yönəltmək vacibdir.

***"Əsrin səsi" qəzeti, 29 dekabr 1996.***

## QIRXDAN BİRİ, YAXUD GERİLİYİN GÖSTƏRİCİSİ

İnformasiya agentlikləri müxtəlif elm sahələri üzrə bu ilki Beynəlxalq Nobel mükafatı laureatlarının adlarını böyük bir fəxrlə elan edirlər. Mükafatla bağlı verilən şərtlər içərisində diqqətimi iqtisadiyyat elmi ilə bağlı maraqlı bir fakt cəlb etdi. Sən demə, mükafatın təsis edildiyi 1901-ci ildən bu vaxtadək 650 nəfərdən artıq alim bu mükafata layiq görülüb, onlardan isə 40 nəfəri iqtisadiyyat elmi üzrədir. Bu 40 nəfərdən 26 nəfəri Amerika, 6 nəfəri İngiltərə, 7 nəfəri isə iqtisadi cəhətdən inkişaf etmiş digər ölkələrin elm xadimləridir. Yalnız bir nəfər keçmiş SSRİ məkanını təmsil edir. Məşhur riyaziyyatçı-iqtisadçı L.V.Kantaroviç 1975-ci ildə Nobel mükafatı laureatı olmuşdur. Bəs bu vəziyyətin səbəbi nədir? Müasir dünyanın iqtisadi-siyasi, elmi-texniki, ictimai-sosial, mədəni-rifah səviyyəsinə diqqətlə baxmaqla sualın cavabını tapmaq mümkündür.

İqtisadiyyat elmini siyasi iqtisadiyyata, demokratiyanı diktaturaya, ölkəni xaricdən təcrid edib nəhəng bir düşərgəyə, tarixi və elmi siyasətə qurban verənlərin və onların yetirmələrinin ölkə iqtisadiyyatını nə günə qoyduqları göz qarşısındadır.

Təəssüf doğuran odur ki, iqtisadiyyatın maarif və mədəniyyətlə, elm və elmi axtarışlarla, ictimai-siyasi atmosferlə, insan hüquqlarına sayğı və sosial ədalətlə bağlılığı əvvəllərdə olduğu kimi yenə də axırıncı planda durur. Axı "çal-çap", "ver-al", "ver-keç", "dağıt-get" kimi üzdəniraq "prinsiplərlə" iqtisadiyyat və ölkə dirçəlməz. Kəsərsiz qanun və fərmanlar da bu şəraitdə işləməyəcək. Rəhmətlik Həsənbəy Zərdabi "Əkinçi"də də hələ 1877-ci ildə Məğrib-zəminin (Qərb ölkələrinin) Məşriq (Şərq) ölkələrindən irəli getməyinin əsas səbəbini onda görürdü ki, qərblilər "bizdən artıq elm təhsil etməkdədir və ondan savayı bunun bir səbəbi də azadlıqdır".

İqtisadi dirçəlişin yolu elm və azadlıqdan keçir. İqtisadiyyat elmi sahəsində Nobel mükafatlarına dair rəqəmlər də bunu göstərir.

***"Liberal-Press" qəzeti,***
***11 yanvar 1997.***





## ZİYARƏT DÜŞÜNCƏLƏRİ




***Şirməmməd Hüseynov, Ülkər Hüseynova, Məhəmməd Kəngərli, Hacı Hacıyev və Əhməd Qaraca Ankaranın "Əsri" qəbristanlığında M.Ə.Rəsulzadənin qəbrini ziyarət edərkən.***
***Noyabr, 1988-ci il.***

Ankaranın Əsri qəbiristanlığında uyuyan M.Ə.Rəsulzadənin sinədaşı üstündə "Bir kərə yüksələn bayraq bir daha enməz!" sözləri həkk olunmuşdur. Üçrəngli Azərbaycan bayrağı da məzar daşını bürüyür.

Mən 1988 və 1996-cı illərdə bu müqəddəs qəbri ziyarət etmişəm. Hər dəfə də İranın və Cənubi Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərindən olan Seyid Həsən Tağızadənin M.Ə.Rəsulzadə haqqında onun vəfatından sonra yazdığı aşağıdakı sətirləri yadıma düşüb:

"Rəsulzadəni tanıyanlar onu böyük inqilabçı, Şərqin mütəfəkkir və ağıllı, hətta bənzəri olmayan bir şəxsiyyət kimi tərif ediblər. Məlumatı çox, istidlalda qüdrətli, hövsələli və hər məsələdən intiqad edəndə insaflı olub, demək olar ki, tamam ömründə bir dəfə də yalan danışmamışdır. Həmişə sabitqədəm olmuş və heç vaxt açıqlanmaz idi, heç

vaxt mübaliğə etməz idi. Xalq məfkurələrini aydınlaşdırmaqda, yəni ruznaməçilik yaratmaqda və başqa xidmətləri, o cümlədən məşrutə inqilabında etdiyi yardımları yaddan çıxan bir şey deyildir".

Tarixi şəxsiyyətləri məddahlar, yaltaqlar yaşatmır, xalq, zaman, Tanrı yaşadır. Amma bir həqiqət də var ki, tarixi şəxsiyyət iddiasına düşənlərin məddahlar sürüsü hər şeyi, o cümlədən tarixi keçmişi alt-üst etməyə də girişirlər. Yaşadığımız 20-ci yüzillik buna şahidlik edə bilər. M.Ə.Rəsulzadə də uzun illər belə hücuma məruz qalmış və qalmaqdadır da.

İstiqlal məfkurəmizin və milli dövlətçiliyimizin fədaisi M.Ə.Rəsulzadənin məzarı başına əslən gəncəli olan mühacir şair Kərim Yaycının bu müqəddəs məzarla bağlı yazdığı sətirləri də xatirimdən çıxmır:

*Yaşatmazdı qəlblərdə ümidsizlik və məlal,*
*Onun məfkurəsiydi Haqq, Musavat, İstiqlal!*
*Sar köksünə Ankara, yurdumun ziynətini,*
*Günü gəlincə istər səndən əmanətini.*
*Şükranını sunarkən bir gün hörmətlə sənə,*
*O gəmiklər gedəcək, gedəcək o vətənə!*
*Saxla qoynunda onu vermə yabanı ələ,*
*Bir hədiyyə olacaq yurdumdakı heykələ!*

Kərim Yaycının arzusu çin olmayıb. Hələlik vətənində bu əmanətə yiyə duran iqtidar yoxdur. Qardaş Türkiyədə - Ankarada isə Məmməd Əmin Rəsulzadənin xatirə məqbərəsi kompleksinin yaradılacağı barədə söhbətlər eşitdim.

***"Liberal-Press" qəzeti,***
***8 fevral 1997.***







***Müasir dünyamızı bir sıra qlobal problemlər didib parçalamaqdadır. Ən təxirəsalınmaz suallara cavab axtararkən özümüz də bilmədən cavabları keçmişimizdə tapırıq və burada bir daha belə bir fikri təsdiq etməkdən başqa əlac qalmır ki, tarix təkrar olunur və tarixdə həmişə öz zəmanəsini xeyli qabaqlayan şəxsiyyətlər olmuşlar.***

***Bu gün təzə bir rubrikanı açarkən bir daha Məmməd Əmin Rəsulzadə dühasına layiq olduğu qiyməti vermək istərdik: o, həmişə vaziyyəti düzgün qiymətləndirmək, səmti düzgün müəyyənləşdirmək bacarığı ilə fərqlənmişdir.***

***Qərb-Şərq münasibətləri, demokratiyanın sivil normalarının bərqərar olması, fövqəldövlətlərin xırda dövlətlərə təsir-təzyiqi, böyük siyasətdə ikili standartlar həmişə olub - həm XX yüzilin başlanğıcında, həm də onun sonunda...***

## "MİLLƏTİN TƏMİNİ - HÜQUQ" MƏSƏLƏSİ

Məlum olduğu üzrə müharibə ibtidasından bəri müttəfiqlər diplomasi nümayəndələri hər ittifaq düşdüyünce müharibədən təqib olunan, əməl və məqsədlər xüsusunda müxtəlif nitqlər söylədilər, bəyanatda bulundular.

Hökumət nümayəndəsi olan bu diplomatların sözləri yalnız mənsub olduqları məmləkətin daxilində deyil, hətta bitərəflər məmləkətlərində, böyük, kiçik millətlər arasında belə fövqəladə bir diqqətlə dinləniliyor. Hər kəlməsi, hər cümləsi dərin bir maraqla təqib olunub, hər mənaya təhvil və təfsir edilirdi. Bu sözlərdən kəndilərinə (özlərinə) ümidli və müvafiq birər kəlmə və cümlə tapan millətlər pək ziyadə xoşlanıyor, gələcəyinə əməl, xəyal bəsliyordu.

Fəqət bu nitqlərin özləri üçün "son qərar müstəbidiyyəsi" olduğunu anlayanlarda, ən dərin günlərindən infialə (iztiraba) gəliyor, tənfir (nif-

rət) və qələyan (təlaş) ediyordu. Çünki onlar üçün bu nitqlər bəşər vicdanının qəbul edə bildiyi yalanlardan ən çirkini, ən qarası və mənfuru kimi gəliyordu.

Hasili bu nitqlər ya elə, ya belə bütün cahan əfkarında böyük təsir yapıyorlardı.

Bu təsirin səbəbi isə, bu nitqdlərin hər birində, hər dəfəsində: "İndiki müharibədən məqsəd, bir çox digər gözəl mətləblərlə bərabər Avropada ufaq millətlərin hörmət və hüququnu təmin etməkdir"- deyə zikr edilməsidir. Bu "məqsəd" bütün Avropa diplomatları ilə bərabər, son günlərdə sülh təklifi ilə meydana çıxan Amerika rəisi-cümhurisi Vilson dəxi ətrafı ilə təkrar və təkrir elədi və hətta Polşa haqqında açıqdan-açığa sərt məxsusda "idareyi lisan" edərək, "Lehistanın təmamiyyət istiqlalı təmin olunmalıdır" - dedi.

Bu gözəl söz və arzuların bir tərəfdən məhkum millətlər və xüsusən polyaklar üçün nə qədər müqəddəs və ali bir mətləb təşkil edəcəyi və binaən əleyh (ona görə) onlarda nə qədər məhzuniyyət (kədərlilik) və ümid doğuracağı məlum olduğu kimi, digər tərəfdən bu sözləri "Russkie vedemosti" qəzetəsi "Türkiyə üçün bir cənazə nəğməsi"dir - deyir. Bunun mənası odur ki, Vilsonun istədiyi vəchlə məhkum millətlərin hürriyyətcə hüquq həyatı, istiqlal, inkişaf və tərəqqiyyatı-mədənisi verilərsə Türkiyə əlində olan cümlə millətlər bu hüququ alacaq və Türkiyə tabeətində daha kimsə qalmayıb, bu dövlət öz-özündən ölmüş olacaq deməkdir.

Binaən əleyhə Vilson sözlərinin təsiri orada başqa dürlü olmaq lazım gələcəkdir.

Bu surətlə bütün Avropa ilə bərabər Amerika cəmahiri-müttəhidəsinin (ABŞ-ın) də müharibə haqqındakı fikir və məqsədi məlum olmuş, bəyan edilmiş olur. Bu günlərdə Yaponiya baş vəziri dəxi eyni ilə millət məclisində bunun kimi ətraflı və əsaslı bir bəyanatda bulundu və bu bəyanatında nəfs Yaponiyanın müharibədən təqib etdiyi amal və mənafeyini Avropanınki ilə bərabər və bununla əlaqədar qılaraq Çin məmləkətinin də təmamiyyət və istiqlalı təmin və mühafizə olunması haqqında qəti və açıq ibarələr qollandı. Binaən əleyhə Çinin dəxi istiqlalı və təmamiyyəti əlbəttə Yaponiya iradəsi tərəfindən təmin edilmiş və onun mühafizə və təmini də Yaponiya iradəsi qəbul qılmış olur. Demək ki, Çinin də haqq istiqlal və təmamiyyəti Yapon diplomatisinin qəti və sərih lisanı ilə təsdiq edilə bilər.

Bundan belə Avropadakı və Asiya Şərqidəki, böyük-kiçik, güclü-gücsüz millətlərin həqqi-həyat və hürriyyəti-milliyəsi, tərəqqiyatı-mədənisi haqqında Avropanın, Amerikanın, Yaponiyanın fikir və məq-



sədləri bəyan edilmiş, eşidilmiş oldu. Fəqət bütün bu bəyanatların, nitqlərin ibarəsinə, məzmununa diqqət edilsə görülər ki, burada millət "Avropa" kəlməsi ilə qeyd olunmaqdadır. Müharibə ibtidaindən bəri söylənən nitqləri mütaliə ediniz, mütləqa orada bu kəlmənin qeyd edildiyini, bu dəfə də "Avropa mədəniyyəti, Avropadakı ufaq millətlərin hürriyyət və hüququ" mövzusu həkk olunduğunu görəcəksiniz.

Vilsonun nitqinin dəxi bu meyldə olduğu xüsusilə Polşa haqqında sərahət (aydın, aşkar) bəyan edildiyi məlumdur.

Lakin fövqəladə diqqət ediləcək burasındadır ki, bütün bu qədər nitqlər və sözlərdə "Şərq əqvamı" (Şərq tayfaları) və xüsusən "Orta Şərq millətləri" haqqında bu günə qədər bir kəlmə olsun "ifadeyi-məram" edilməmişdir. Bu qədər təkrarlanan nitqlərdə, bəyanatlarda bu nöqtəyə aid bir "kəlmə" olsun söz tapılmayacaqdır...

Bundan yalnız Yaponiya baş vəzirinin Çin haqqında söylədiyi bəyanat və təminatı müstəsnadır. "Orta Şərqlilər" haqqında bu da bir kəlmə zikr etməmişdir.

Əcəba bu diplomatlarca Orta Şərqdə hüquq və hürriyyəti-mədəniyyəsi təmininə möhtac bir millət yoxmudur?..

**M.Ə.RƏSULZADƏ.**

*"Açıq söz", N381, 19 yanvar 1917.*

**"Liberal Press" qəzeti, 15 fevral 1997.**

## DÜNYANIN ƏN BÖYÜK HADİSƏSİ

**Rusiyanı dərk edilməsi çox çətin olan müəmmalar ölkəsi adlandırırlar. Bu baxış elə-belə yaranmamışdır. Üç əsrdən artıqdır ki, Rusiyada hökmranlıq edən dairələr ölkəni dünyanın inkişaf etmiş sənaye ölkələri səviyyəsinə çatdırmaq, beşəriyyətə yeni idarəetmə üsulu nümayiş etdirmək iddiası ilə nələri sınaqdan keçirməmiş, hansı nəzəriyyə və üsullara, islahatlara, vasitələrə əl atmamışlardı. Lakin bu səylər ilkin nəticə versə də sonra daha kəskin böhranlara səbəb olmuşdur. Əsl demokratiya və insan hüquqlarından təcrid edilmiş, imperiya, hərbi-feodal təfəkkür tərzi ilə idarə olunan, sosial ədalətin tapdalandığı ölkədə uzunmüddətli tərəqqi və inkişaf mümkün ola bilməz - bu həqiqəti dərk etməyənlər və ya dərk etmək istəməyənlərin siyasəti rusiyalılara çox baha başa gəlmişdir. Təkcə son iki əsrdə Rusiyada hər 20-30 ildən bir kəskin vuruşlar, böhranlar, saray çevirilişləri, qətllər, qanlı müharibələr məhz bu səbəbdən baş verirdi. Alimlər keçən əsrdə 1801, 1825, 1856-1866, 1881, 20-ci yüzillikdə 1905-1907, 1917-ci ilin fevral və oktyabr inqilablarında 1937, 1956, 1985, 1989-1993-cü illərin hadisələrini xüsusilə nəzərə çatdırırlar.**

**Göstərək ki, Azərbaycanın beşəri inkişafın qanunauyğun məcrasını düzgün dərk edən və görən ictimai-siyasi xadimləri imperiyanın bu fəlakətli siyasətinin uzun zaman sürə bilməyəcəyini görür və Rusiyanın demokratik qüvvələri ilə əlbir fəaliyyət göstərirdilər. 80 illiyini qeyd etdiyimiz 1917-ci ilin fevral inqilabı da bu qəbildəndir.**

**304 il Rusiya taxtında hökmranlıq etmiş Romanovlar sülaləsinin hakimiyyətinə, mütləqiyyət üsul-idarəsinə bu inqilab son qoydu. Azərbaycanda həqiq milli demokratların "dünyanın bu ən böyük hadisəsinə" münasibətini dəqiq bilmək üçün milli istiqlal mücadiləmizin lideri M.Ə.Rəsulzadənin inqilabın qələbə xəbəri 1917-ci il martın 2-də Bakıya çatdıqdan sonra "Açıq söz" qəzetində dərc olunmuş məqalələrini nəzərdən keçirmək vacibdir. Tarix ədəbiyyatımızda fevral inqilabı haqqında yazılmışlarla onları müqayisə etmək də məncə faydasız olmaz.**



## BÖYÜK İNQİLAB

Əmsalı tarixlərdə görünməyən aləmşümul müharibənin ən müşkül bir zamanında **dünyanın ən böyük bir hadisəsi,** Rusiya inqilabı vaqe oldu.

Müharib və mübariz milləti iflic bir hala qoyan köhnə rus istibdadı yıxıldı. Neçə gündən bəri Petroqraddan alınan xəbərlər qaranlıq siyasət gecəsinin sübhi-hürriyyət ilə açıldığını bildirdilər.

Əski hökumət camaatın dərdi ilə yanan millət vəkillərini, Dövlət dumasını qovdurmaq istərkən nümayəndələr artıq səbr kasası daşdı, - deyə dağılmaq istəməyib öz aralarında müvəqqəti hökumət vəzifəsini icra edən bir komitə seçdilər. Dövlət dumasının sağlardan başqa bütün partiya və firqə nümayəndələrindən təşkil edilən bu komitə köhnə hökumətə qarşı elani-müqavimət edincə hökumət xarabkarlığından cana doyan camaat ilə dəxi rüşvətxor müstəbidləri deyil, vətəni müdafiə edən ordu haman duma tərəfini iltizam etdi və edincə nəticeyi-iflas haman bir-iki günün içində anlaşıldı. Köhnə vəzirlər həbsə tıqandılar. Əlahəzrət imperator ilə imperatriça mühafizat altına alındılar. Nəhayət son türk üsulu ilə icra olunan Petroqrad inqilabi-əzimi sabiq çar Nikolay Aleksandrov bilzat təxt və tacdan əl çəkib də hüquqi-hökmdarisini qardaşı Mixail Aleksandroviçə təhvil verməsi ilə nəticələndi.

Fəqət nəticə bundan da böyükdür. Mixail Aleksandroviç həzrətləri qardaşı əlindən aldığı səltəneyi-aliyənin əsl sahibi kim olduğunu layiqi ilə dərk edərək öz tərəfindən padşahlıq ixtiyarını Dövlət duması tərəfindən təşkil olunan müvəqqəti hökumətə tərk edilmiş və məmləkətin üsuli-idarəsini təşkil etmək üçün bir an əvvəl məclisi-müəssisan çağırılmasını əmr buyurmuşlardı.

Bugünkü əmri-ali ilə belə çağrılması təklif olunan məclisi-müəssisan geniş ümumi, müsavi və müstəqim seçki əsası ilə yığışacaq həqiqi millət nümayəndələrindən ibarət olub tazə Rusiyanın nə kimi əsaslarda qurulacağını təmin edəcəkdir.

**Hürriyyətpərvər Rusiyanın məşəl ümidinə yağ tökən** bu hadisənin xəbəri vilayətlərə yayılınca hər tərəfdə adəta bir bayram başlandı. Bilafərq millət və məzhəb, silk və sinif bütün camaat bir-birini təbrikə başladı.

Bakı dəxi bü bayramı keçirdi. Bütün mədənlər, dükanlar və kargahlar dayanıb xalq mitinqləri, məclisləri bir-birinin dalınca gəldi. Hər tərəfdə, hər yanda tazə hökumətə etimad teleqramları, Dövlət dumasına təbriklər, təhsinlər yollandı.

**Rusiya istibdadı əlində əzilən bütün təbəqə, sinif və millətlərlə bərabər Rusiya müsəlmanları da əzilir. Milliyyətcə təhqir və təzyiq olunurlardı.**

**İyunun 3-ü qanunu** (söhbət 1907-ci ilin 3 iyun dövlət çevrilişi, II Dövlət dumasının qovulmasından gedir - Ş.H.) **demək olar ki, Rusiya müsəlmanlarını adəta siyasi edama məhkum etmişdi.** Ümid etməlidir ki, tamam hüriyyət üzrə çağrılacaq məclisi-müəssisan çoxmillətli Rusiyanı ədalət və hürriyyət üzrə təmsil edəcək və hər kəs öz miqdarı nisbətində nümayəndəliyə malik olaraq tazə Rusiyanın əsasları ögey-doğmalıq deyil, qardaşlıq və vətəndaşlıq əsasları üzərinə təsis olunacaqdır.

Bu xüsusda bütün Rusiya cəmaəti ilə bərabər Rusiya müsəlmanlarının da imani kamil, etiqadları salim və Rusiya cəmaətçiliyinə etimadları qaimdir.

**Fəqət müvəffəqiyyət üçün bir şey lazımdır. O da sükunət, mətanət, hissiyyat və təsadüfata tabe olmayıb əql və tədbirlə hərəkət etməkdir.**

Müsəlmanlara lazımdır ki, sükunət üçün vaqeh olan tələbləri qulaqlarına alıb kamali-etina ilə öz işlərinə məşğul olsunlar və hadisata qarşı çaşmayıb, rahat qala bilmək üçün bütün cəmaət qüvvələrini birləşdirsinlər və birləşmiş qüvvələr ilə yeni hökumətə köməkçi dursunlar.

Ancaq bu vasitə ilə birləşmək və köməkləşməklədir ki, yeni Rusiya tamamilə müvəffəq olub, bütün millətlərin musaviyyatla yaşamasını təmin edə bilər.

Yaşasın tazə və azad Rusiya! Var olsun millətlərin bərabərliyi, birliyi!

**M.Ə.RƏSULZADƏ**

*"Açıq söz" qəzeti,*
*5 mart 1917-ci il N 418 (baş məqalə)*

**"Liberal Press" qəzeti, 1 mart 1997.**



## VƏTƏNİN MATƏM GÜNÜ NİYƏ YADDAN ÇIXIB?

**Yenidən müstəqilliyinə qovuşmuş Azərbaycan istiqlalının altıncı bahar günlərini yaşayır. Martı yola saldıq. Yiyəli və iqtidar üçün sərfəli olan mart yubileyləri, son illərin mart hadisələri müxtəlif səviyyələrdə qeyd edildi. Bayram şənliklərinə xüsusi səy göstərildi. Bunlar mövcud rejim daxilində təbiidir. Ancaq təəssüf doğuran Sovet dövründən miras qalmış tarixi yaddaşsızlıq, tarixi qısqanclıq, məddahlıq və yaltaqlıq naminə əsrlərə və nəsillərə örnək ola biləcək hadisələrə, təcrübəyə biganəlik bəlasının yenə də yaşadılmasıdır. Məlumdur ki, ermənilər hər il aprelin 24-nü özlərinin məharətlə uydurduqları, maya qoyub dünyaya haray saldıqları 1915-ci il genosidini milli matəm və tarixi yaddaş günü kimi qeyd edirlər. Nə vaxtdan? Hər halda Sovet dövründə Moskvanın dəstəyi ilə bu "təbliğata" geniş meydan və rəvac verildi. 60-cı illərdə Yerevanda və Sərdarabadda abidələr, səcdəgahlar ucaldıldı. Qeyd edim ki, tarix boyu türk xalqlarına dərin nifrət və düşmənçilik hissi bəsləmiş təcavüzkar erməni millətçiləri Qafqazda rus şovinistlərinin köməyi ilə Azərbaycan xalqına qarşı təkcə başa çatmaqda olan yüzilliklə dörd dəfə açıq təcavüzkar qətliam həyata keçirmişlər. Bunun ən dəhşətlisi 1918-ci ilin 30-31 mart günlərində həyata keçirilmişdir. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Qafqazda, o cümlədən Azərbaycanda erməni-bolşevik qətliamını tədqiq edib üzə çıxarmaq üçün 1918-ci ilin avqustunda X.Xasməmmədovun başçılığı ilə xüsusi hökumət komissiyası yaratmışdı. 1919-cu ildə isə 1918-ci ilin 31 mart qətliamı gününü bütün Azərbaycanda Vətəni matəm günü kimi qeyd etmək qərara alınmışdı.**

**Hörmətli oxucular! 1919-cu il martın 31-də milli matəm gününün ilk dəfə rəsmi surətdə Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı Bakıda necə ümummilli miqyasda qeyd edildiyini və bununla əlaqədar cərəyan edən siyasi hadisələri bilmək, öyrənmək və nəticə çıxarmaq istəyirsinizsə 78 il bundan əvvəl, aprelin 2-də "Azərbaycan" qəzetində ulu öndərimiz M.Ə.Rəsulzadənin dərc etdirdiyi "Nümuneyi-imtisal bir gün" ünvanlı məqaləsini oxuyun.**

**Eşitdiyimə görə, bəzi millət vəkilləri söhbət gedən gün və hadisə ilə əlaqədar, yəni 31 mart milli matəm və yaddaş gününün yenidən rəsmi surətdə qeyd edilməsi ənənəsini davam etdirmək üçün Milli Məclisdə məsələ qaldırmaq təşəbbüsündə olacaqlar. Məncə, bununla əlaqədar tarixi həqiqətləri bilmək baxımından da oxumaq və müstəqil düşünmək vərdişini mühafizə etmiş millət vəkillərinin də bu məqalə ilə tanış olmaları faydasız qalmaz.**

## NÜMUNEYİ-İMTİSAL BİR GÜN

"Müsavat" firqəsinin təşəbbüsü ilə çağırılan müsəlman əmələ (fəhlə) konfransı martın 31-ni vətəni bir matəm olmaq üzrə elan və o günü ümumi tətil ilə keçirməyə qərar vermişdir.

Müsəlman əmələsinin (fəhləsinin) bu qərarına Bakının bütün məhəllələri (yaşayış məntəqələri) kəza (həmçinin) tabe olub, matəmi-tətil komitəsi cənbində (yanında) məhəllə məscidlərinin nümayəndələrindən ibarət bir şəhər şöbəsi təşkil etdilər.

Bu günə məxsus qəzetələr nəşr olundu. Azərbaycan qəzetələri ilə müsavat vasiteyi-nəşri-əfkarları olan qəzetələr matəm nömrələri çıxardılar.

Matəm səhər saat 8-dən axşam saat 6-ya qədər təyin olunmuşdu.

Tətilə müsəlman olmayan əmələ təşkilatı nasıl baxacaq? Tətil müntəzəm və mütəşəkkil bir surətdə gedəcəkmi?

İştə Azərbaycan paytaxtını düşündürən bir məsələ!

Kəndlilərini (özlərini) bilməm hansı haqlara görə bütün Bakı füqərayi-kasibəsinin nümayəndəsi adlandıran "Raboçi konfrans" heyət idarəsi ilə keçmişdəki tətilləri idarə edən "Staçeçni komitet" ağızlarına su almışlardı.

26 bolşevik komissarlarından ötrü ümumi tətil etdirmək istəyən və əllərində qara bayraqlar və Şaumyanın fotoqrafı olaraq nümayişlər yapan "Fəhlə nümayəndələri" on minlərlə şəhid düşən bigünah mart qurbanlarını xatırlamaq üçün çox da tələsmək istəmirlərdi.

Nəhayət, müsəlman əmələlərinin (fəhlələrinin)

qəti qərarları təsirindən olmalıdır ki, "Raboçi konfrans" idarəsi ayın 31-ni deyil, 30-nu matəm günü və bu münasibət ilə mitinqlər tərtibini elan elədi. Fəqət nə mitinqlərə gələn oldu, nə də mitinqi çağıranlar özləri gəldilər.

Onlar bildikləri kimi mart faciəsinə gözəyarı baxa bilərlərdi. "Raboçi konfrans" idarəsində bardaş quran bolşevik biçarə "rəislər" mart gününü "matəm" deyil, bacarsalardı "bayram" edərlərdi. Onun üçün də onlar matəmin rövnəqlə keçməsinə çox əhəmiyyət verməmişlərdi.

Fəqət türk demokratiyası kəndi (öz) qərarında sabit qədəm idi. Onun macərapərəst politikanlarla işi yox idi. O, martın 31-də kəndi (öz) qüvvətini göstərəcək, mart şühədasının matəmi ilə müvəffəqiyyətsiz mitinqlər yapmaq surətilə oynamaq mümkün olmadığını isbat edəcəkdi.

O bu gün bütün həyatı durduracaq, bununla kəndisinin (özünün) nə kimi xatiri sayılan bir qüvvət olduğunu bildirməklə bərabər martda tökülən nahaq və məsum qanların dəxi ağız sürütdürmə bir "matəm"lə yad olunacaq "əhəmiyyətsiz" bir vaqəə olmadığını bütün cahana qarşı elan edəcəkdi.



Martın 31-i yaxınlaşırdı. "Raboçi konfrans" rəisləri içlərində mövcud olan az-çox mətləb anlayanların "sözünə baxaraq" martın 30-da matəm mitinqləri elan etmiş ikən bir də 31-ni matəm günü və eyni zamanda da tətil elan etdilər. Fəqət tamamilə "Müsavat"a tabe olmamaq üçün tətilə saat 8-dən deyil, 12-dən etibarən qərar verdilər. Fəqət gecə saat 1-də çap olunan bu elan batəbii (təbii ki) rayonlara da saat 12-dən sonra çatacaq, əmələlərin əksəri tərəfindən bir türlü anlaşılmayacaqdır. Çünki bir gün əvvəl nəşr olunan müfəssəl vərəqələrində tətildən bir kəlmə olsa da bəhs olunmamış, bilaəks (əksinə olaraq) məsələdən tamamilə başqa bir ruhla danışılmışdı.

Matəm günü gəldi. Səhər saat 6-dan bütün əmələ rayonları "xəbərdar borusunu" çalaraq mədənlər dayandı. Şəhərdə bir danə olsa da açıq dükan yox, fayton, araba, hambal tapılmaz. Gəmilər matəm əlaməti olaraq bayraqlarını yarıya endirmiş, şəhərdə və mədənlərdə böyük bir sükut...

Məscidlərdə pəs məzar məclisləri. Saat iki radələrində Tazəpir məscidinin həyəti cəmi fəğir ilə dolmuş, yasin, fatihə, nitqlər, matəm tətil komitəsinin bəyani-təziyəti!..

Bilafərq millət və məzhəb şəhərlə mədənlərin bütün sakinəsi matəm halında...

Zabastovka tarixi ilə aşna olanlar söyləyirlər ki, Bakı bu vaxta qədər belə bir tətil görməmişi!.. Aşura günü belə bu dərəcədə keçməmişdir. Hər zabastovkada az olsun, çox olsun işə şəltə qatanlar daima görülmüşdür. Fəqət bu dəfə bilaixtilaf hər kəs vaqe olan dəvətə ləbbey demiş, işindən əl çəkmişdir...

Aşura yalnız müsəlmanlara məxsus ikən bu gün Azərbaycanın Vətəni bir matəmi olduğundan bütün azərbaycanlılar matəm saxlamışlardı.

Bu günə mən matəm günü deyil, birlik günü deyəcəyəm.

Türk demokratiyası bu gün kəndi (öz) idarəsinin nə dərəcədə nafiz (nüfuzlu) və kəndi (öz) təşkilatının nə qədər müessir (iş görən) olduğunu təcrübə edirdi. Təcrübə əliyləla dərəcədə müvəffəqiyətli çıxdı.

Görüldü ki, türk demokratiyası istər ittihadla bir məqsədə əzm edirsə, digər kəndisi (özü) ilə həmkar olan demokratiya dəxi onunla bərabər olur. Ayağının altını boş görən "Raboçi konfrans" son saatda əqlə gəldisə, rus əmələlərindən (fəhlələrindən) bir çoxu rayonlarında daha iki gün əvvəl müsəlman yoldaşlarının yanına gələrək onlarla bərabər tətil edəcəklərini bildirmişlərdi.

Tətil yalnız əzəməti, istisnasızlığı ilə deyil, intizam və asayışpərvərliyi ilə də təmayiz ediyordu.

Zabastovka texnikasını bilənlər belə bir tətil keçirmək nadirətən mümkün olur deyirlərdi.

Bütün gün kimsəyə təərrüz edilməmiş, cüzi də olsa bir hadisə çıxmamışdır!..

Tətil ideal bir şəkildə icra edilmişdir. Tətilin idrak və intizam üzərinə icra edildiyini körpü hamballarının əsəri-həmiyyətləri kimi parlaq vaqeələrlə isbat edilmişdir.

Müstəcil (təcili) bir yükün paraxoddan çıxarılması üçün körpülərdən birinin hamballarına 6 min rublə təklif olunduğu halda onlar təklifi rədd eləmiş, matəmi tətil heyətinə müraciət etmələrini cavabən bildirmişlərdir.

Bugünkü tətil türk demokratiyasının, müsəlman cəmaətinin nə dərəcədə təşkilat və intizam qabiliyyətinə malik olduğunu aşkar etmişdir. Bu qabiliyyəti tərbiyə edən, onu doğru və salim bir yola salan həqiqi millət mənfəəti ilə çalışan siyasi firqələrimiz fəaliyyət və təşəbbüslərini artırar və hərəkətlərində ciddi olurlarsa o zaman Azərbaycan paytaxtında, füqərayi-kasibə naminə işləyib də hərəkətlərində Azərbaycan ruh və məqsədi ilə uyuşa bilməyən təşkilat əhəmiyyət və mənasını qayib edər.

1919 sənəsi mart matəmində xalqımızda görülən təşkilat istedadını hüsn istifadə etmək, heç şübhəsiz ki, 1918 sənəsi mart şühədasının (şəhidlərinin) ruhi-məzlumini razi salacaq ən böyük mükafat, ən gözəl ehsandır!

Buna çalışalım!

1919-cu il martın 31-i bizə birlik və ittihad üçün bir nümuneyi-imtisal təşkil eləsin!

**M.Ə.RƏSULZADƏ**

*"Azərbaycan" qəzeti, 2 aprel 1919, N 148.*

**"525-ci qəzet", 2 aprel 1997.**



## "CÜMHURİYYƏT"

Məclisi-Müəssisan yığışdıqda Rusiya məmləkəti üçün hansı üsuli-idarəni qəbul edəcək?

İştə bu gün əfkari-ümumini düşündürən bir məsələ. Bu məsələnin ümumi cavabını əlbəttə ki, Məclisi-Müəssisan özü verə biləcəkdir. Fəqət əhvalın nə yolda cərəyan etdiyini və xalq əfkarının nə mərkəzdə dolandığını görərək bu xüsusda indidən dəxi bir taqım təxminlərdə bulunmaq mümkündür.

Bilməlidir ki, Cümhuriyyət əsası tə əskidən bəri Rusiyada demokratik və sosialist firqələrin qırmızı bayraqlarında yazılmış bir şüar idi. Bu gün o bayraqlar kəmali-hürriyyətlə ortaya çıxmış, üzərində "var olsun cümhuriyyəti-ənam!" (var olsun xalq cümhuriyyəti) şüarı yazılmışdır.

İstelalın (yüksəliş, hərəkatın yüksəlişinin) əvvəlinci günlərində elə təsəvvür olunurdu ki, bu şüar ancaq əmələ (fəhlə) qismi, demokratiyanı ruhlandırır və bayraq altına yalnız sosialistlər toplaşarlar. Fəqət ildırım sürətilə gələn günlər, əsrdidə binaları alt-üst eləyən yel, əhəmiyyətli saatlar keçdikcə monarxiya əsasına yanaşan məhfillərin (heyətlərin) yoxaldığı meydana çıxmışdır. Digəl əmələ (fəhlə) vəkilləri şurası, sosial-demokratlar, sosialist-revolyusionerlər, məşrutiyyəli padşah tərəfdarı olan kadet firqəsi belə cümhuriyyət tərəfdarı olduğunu bildirmişdir. Güman olunurdu ki, ordu belkə əski ənənəsinə mərbut (bağlı) qalıb da yeni bir tacdar istəsin, fəqət ordu naminə cümhuriyyət əsası aşkar elan olunmursa da, bu əsası elan edənlərə qarşı heç bir növlə narazılıq da göstərməyir. Bilaəks əmələ vəkilləri şurası ilə soldat vəkilləri şurası arasında sıxı bir rabitə və əlaqə mövcud olduğu hiss olunur.

Rusiya çarizmi nə çürük bir zəmin üstündə dayanır, nə özəksiz bir qoz təşkil edirmiş ki, ən şiddətli tərəfdarları belə bu gün "monarxizm"ə yanaşmaq istəmirlər. Tanrının (Allahın) "Novoye vremya"sı belə cümhuriyyəti daha müvafiq hal bulur.

Nədir bu əqilləri heyran buraxan inqilab? Əvət, böyük inqilabdır! Fəqət təsəvvür olunduğu kimi gözlənilməz bir şey dəxi deyildir.

Əvvəlcə tərəqqipərvər rus cəmaət xadimləri arasında məşrutiyyətli padşah fikri qüvvətli idisə, səbəbi o idi ki, sülaləni yıxmaq, padşahı taxtdan salmağın müşkül olduğunu bilir, daha yaxın və daha müvafiq bir yol olmaq üzrə ancaq məsuliyyətli vəzarətə (nazirlik idarəsinə) qane olurlardı.

"Ədu şod səbəb xeyr əgər xüda xahəd" (Əgər Allah istəsə, düşmənçilik xeyrə çevrilər), əgər Nikolay bir az əqilli olsa, əgər müqəddarati-hökuməti Rasputin kimi şöhrətpərəst bir dərbədərin (avaranın) əlinə verib də Protopoviç kimi bir macəracuya tapşırmasa idi, məmləkət nümayəndələrinin yalvar-yaxara istədiklərinə əməl etsəydi, heç şübhəsiz ki, yerində qalacaq, işlər bu şəkildə bitməyəcəkdi.

Fəqət:

*"Gələndə çün qəza quş damı görəməz,*
*Gözünü kor edər, əncamı görəməz".*

Rusiya cümhuriyyəti haman o zaman təmin olunmuş idi. Tarixi bir zaman keçirdiyimiz bu böyük, bu dəhşətli günlərdə sər hökumətdə (hakimiyyət başında) "əncamı görməz", iradəsiz bir çar ürüyordu.

"Nahaq" qandan, "rəhmsiz" həyəcandan qorxan və yalnız buna görə məşrutiyyətli padşah əsasına tərəfdar olanlar üçün artıq təğyirməsləк etməyə bir hail (maneə) qalmamışdır.

Əksəriyyət köhnə padşahdan keçə bilmədiyi üçün cümhuriyyət istəmirdi. İndi köhnəsi yox, təzə padşah seçmək əvəzinə rəisi-cümhur seçmək daha iyi deyilmidir?

Demokratiya nöqteyi-nəzərindən Rusiyada yaşayan və çarizmin təcavüzkar siyasətinə məruz qalan sinif, silk və millətlər üçün cümhuriyyətdən daha münasib bir üsuli-idarə təsəvvür olunamaz. Fəqət cümhuriyyətdən-cümhuriyyətə də fərq var. Cümhuriyyət elə əsaslar üzərinə qurula bilər ki, yenə cümhuriyyəti-ənam məhkum millətlərin hüququnu tamamilə təmin etməyib xalqın mümtaz (imtiyazlı) qismi mənafeyinə uydurulsun, biistilah cümhuriyyəti-xass olsun. Ola da bilər ki, bu gün Müvəqqəti hökumət tərəfindən elan olunan əsaslar üzərinə ümumi, müsavi, gizli və doğru surətdə icra olunan seçkilərin iqtiza (tələb) edildiyi hürriyyətlərə bina olunub ammeyi xəlqin (ümumxalqın) mənafeyini gözətsin, qanun nəzərində xassı-əvam (imtiyazlı avam kütlə) görməyib, cümhuriyyəti-ənam (xalq cümhuriyyəti) şəklini alsın.

Məhkum sinif və millət gözü ilə baxıldıqda işıqlı (kübar) istibdad-qarasından, məşrutiyyət-işıqlı istibdaddan, cümhuriyyət-məşrutiyyətdən, cümhuriyyəti-ənam da (xalq cümhuriyyəti də) cümhuriyyəti-xassdan (imtiyazlı cümhuriyyətdən) daha faydalı və daha müvafiq məramdır.

Fəqət Rusiya bugünkü dərəceyi təməddünü (inkişaf səviyyəsi) və tərəqqisi ilə cümhuriyyətlə idarə olunacaq bir hala gəlmişdir. Dünyanın ən böyük istibdadını ən kiçik bir zərbə ilə devirən bir cəmaətin özünüidarəyə hazır olub-olmadığı haqqında şübhələnmək insafsızlığın ən böyüyüdür. Rusiya xalqı o dərəcəyə gəlmiş ki, istədiyi üsuliidarəni qura bilsin, istərsə cümhuriyyəti-ənam (xalq cümhuriyyəti) paydar edə bilər.

Var olsun cümhuriyyəti-ənam!

**M.Ə.RƏSULZADƏ**

*"Açıq söz" 17-30 mart 1917, N-426.*

**"Cümhuriyyət" qəzeti, 3-9 aprel 1997.**





## İSTİQLAL UĞRUNDA YANIB-YAXILANLAR

Beş ildən çoxdur ki, yenidən sevincli-kədərli, ağrılı-acılı müstəqil Azərbaycan dövlətçiliyi həyatını yaşayırıq. İstiqlal məfkurəsini, "milli Şərq demokratiyası cərəyanını" işləyib hazırlayan, türk və islam dünyasında ilk dəfə olaraq bir cümhuriyyət - Azərbaycan Xalq Cümhuriyyəti dövlətini yaradan və dünyaya tanıdan böyük vətən mücahidələrini tez-tezmi yada salırıq? Onların zəngin və ibrətamiz mənəvi xəzinəsindən lazımınca bəhrələnirikmi? Müxtəlif ölkələrdə qürbət məzarlarda uyuyan qeyrət, namus, fədakarlıq mücəssəməsi böyük dövlət və siyasət adamlarımızın nəşinin vətənə gətirilməsi və milli səcdəgah yaradılması barədə düşünürükmü? Mən bu və bu səpgidən olan suallara müsbət cavab verə bilmirəm. 1918-1920-ci illər fütuhatını yaradan, istiqlal düşüncəsini qanımıza-canımıza hopduran, tarixi yaddaşımıza həkk edənlər çoxdan dünyalarını dəyişmişlər. Onların hər biri ömrünün son anınadək Azərbaycanı, bizləri, gələcəyimizi düşünmüş, vətənin taleyilə yaşamış, vətən həsrəti və gələcəyinə böyük inam və ümidlə nəfəs almışlar. Onların bizə, millətə, vətənə məhəbbəti, bizim isə onlara münasibətimiz necədir? Mənim qəlbimi ağrıdan, ruhumu göynədən həmişə bu müəmmalı suallar olub.

Böyük istiqlalçılarımızın 1920-ci il aprelin 27-də Azərbaycanın tarixin ən böyük fəlakətinə məruz qalması, istiqlalını qeyb etməsi hadisəsini, faciəsini yaşamaqla öz mübarizə və mücadilələrini qətiyyətlə də davam etdirmiş, "yarınkı istiqlal gününün gələcəyinə" inam hissilə də yaşamışlar. İstiqlal uğrunda yanıb-yaxılanların, gələcəyimizə işıq tutub türk və islam düşmənlərini ifşa edənlərin ürək sözlərini, düşüncələrini, kin və nifrətlərini əks etdirən mühacirət mətbuat orqanlarından "Yeni Qafqasiya" jurnalının 70 il bundan əvvəl 27 aprel faciəsinə həsr etdiyi xüsusi nömrəsinin materialları ilə tanışlıq dediklərimizi əyani surətdə nümayiş etdirir. Jurnalın bu xüsusi matəm nömrəsi 27 aprel faciəsinin 7 illiyinə həsr edilmişdir. Jurnalın yaradıcısı və baş redaktoru unudulmaz öndərimiz və əbədi milli fəxrimiz M.Ə.Rəsulzadə idi. Xüsusi matəm nömrəsinin "Böyük faciə" sərlövhəli baş məqaləsi də onun qüdrətli, müdrik qələminin məhsuludur. Aprelin 27-nədək qəzetin hər nömrəsində hörmətli oxucuları çox böyük tarixi, nəzəri və əməli qiymətə malik əsas yazılarla tanış etmək fikrindəyik.

***"525-ci qəzet", 9 aprel 1997.***

## MÜƏLLİM MƏSƏLƏSİ
## HƏR MİLLƏTİN ÖLÜM-DİRİM MƏSƏLƏSİDİR

**"Hər millətin tərəqqi dərəcəsi müəllimlərinin dərəcəsi ilə bilinər", "millətimizin həyatı müəllimlərimizi bu günlərə salan sui-tərbiyə və təlimin, hökumət zülmünün məhvindədir. Bu gün bizim üçün heç bir məsələ, heç bir ehtiyac yoxdur ki, müəllimlərimiz qədər əhəmiyyətli olsun", "müəllimsizlikdən məktəblərimiz viran, işlərimiz pərişan, halımız yamandır", "müəllim məsələsi yalnız bizim deyil, hər millətin ölüm-dirim məsələsidir". Bu həyəcan təbili 91 il bundan əvvəl - 1906-cı ilin aprel günlərində "İrşad" qəzeti səhifələrində səslənirdi. Əks-sədası bizim günlərdə daha gur səslənməkdədir. 21-ci yüz illik əsnasında dünyanın ən inkişaf etmiş ölkələrində belə təhsil sistemini dövrün, gələcəyin qlobal inkişaf və tərəqqisi tələbləri baxımından təkmilləşdirilməsi problemi ələ alınmaqda, diqqət mərkəzində saxlanılmaqdadır. Bu yaxınlarda BMT-nin araşdırmaları nəticəsində örnək götürüləcək təhsil sisteminin Yaponiyada həyata keçirildiyi fakt aşkarlanmışdır. İnkişafın yapon "möcüzəsi"nin də sirrini bunda görürlər.**

**"Millətlərinin canlı "qradusları" olan müstəqil Azərbaycanda müəllimlərin vəziyyəti necədir? Kəsəsini desək əgər indiki laqeydlik, saymamazlıq, özbaşınalıq, biganəlik davam etsə, əsrin əvvəlindəki vəziyyətə enmək təhlükəsi ilə qarşılaşmalı olacağıq. Əsrin əvvəllərindəki vəziyyəti isə qeyrətli, cəfakeş ustad müəllimlərimiz, istedadlı qələm sahiblərimiz təhlil edib, yazıb qoymuşlar. Bu yazılardan birini - Ömər Faiq Nemanzadənin "Müəllimlərimiz nə üçün Bakıya qaçırlar" sərlövhəli məqaləsini oxuculara təqdim edirəm. Bəlkə oxuyub-düşünüb təhlükəni dərk edək!**

## MÜƏLLİMLƏRİMİZ
## NƏ ÜÇÜN BAKIYA QAÇIRLAR

Bizdə, yəni məlumatsız millətdə adətdir, deyilməmiş, suyu çıxmamış bir sözü deməzlər. Başlanmamış bir işə, bir sənətə başlamazlar. Amma vəqta ki, (elə ki), biri başladı zahirən qara pulca xeyri göründü, gerisi corab söküyü kimi gedir. Hər kəs o işin, sənətin üstə tökülür. Lakin bugünkü bu karlı iş bir az sonra köhnələşər, xeyirsiz olarmış, zamana görə özgə təzə işə, təzə sənətə başlamaq lazım imiş, burası kimsənin işi deyil. Elmsiz, xəbərsiz sövdəgərlərimizin əksərində olan bu naxoşluq təəssüf ki, oxumuşlarımızda dəxi vardır.



Bir sahibi-fərasət təzə bir şey yazar. Çox sürməz. Cümləmiz o havaya oxumaqla, yazmaqla boş vaxt keçirmək istəriz, amma "Müəllimlərimiz nə üçün kəndlərdən qaçırlar?" məqaləsi nəzər-diqqətə alınaraq yazılan yazılar əlbəttə ki, o cür müqəllid (təqlidçi) yazılarından deyil, bu məsələni yazmağa hərçəndi böyük fikir istəməz, amma yenə yada gətirək ki, bu məsələ meydana qoyulan kimi hər tərəfdən bu barədə də yazılmağa başlandı. Cənab Firudinbəy Köçərlinin yazdıqları nəzər-diqqətə alındı. "Yarımçıqlardan biri", "Bir şəxs", "Axund" imzaları ilə gözəl-gözəl bəndlər yazıldı. Bir çox örtülü işlərin, zorlu səbəblərin üstü açıldı. Müəllimlərdə ki, qüsur və günahın cümləsi darülmüəlliminin əksiliyində, müəllim adındakı missionerlərin üsulitərbiyə və təlimlərində göründü. Doğrusu, çox-çox şükür ki, bərabərimiz Firudin bəy meydana çıxardığı lazımlı bir məsələ havayı oxunub keçilmədi. Dərdlərimiz barəsində yazılan zahiri acı yazılara qarşı dodaq bükülüb oturulmadı.

Dərdlərimizin, naxoşluqlarımızın gizli səbəbləri axtarılmağa üz qoyuldu. Cümləmizin "qülhüvəllah"dan artıq əzbərlədiyimiz: "Nəyimə lazım, aləmin dərdi sənəmi qalıb, keyfinə bax" kimi həmiyyətsizlik nişanələri yavaş-yavaş içimizdən götürüldüyü anlaşıldı. Hər kəsin qüdrətinə görə millət qeydinə qaldığı bilindi. Bizim də maarif baharımızın yavuqlaşdığını göstərən çiçəklərin yavaş-yavaş açılmağa başladığı göründü. Şükür Allah sənə! Şükür ki, "nəyimə lazım" dövrlərimiz keçir, "hər kəsə lazım çiçəklər açılır". Buna görə ümidvaram ki, bu çox əhəmiyyətli məsələmiz layiq ilə kəşf və həll edilmədən qapanmaz".

Yazıçılıramız bu barədə yazsalar, çox görünməz. Çünki millətimizin ruhu bu məsələnin ruhudur. Millətimizin tərəqqisi bu məsələnin həllindədir. Millətimizin həyatı müəllimlərimizi bu günlərə salan suiterbiyə və təlimin, hökumət zülmünün məhvindədir. Bu gün bizim üçün heç bir ehtiyac yoxdur ki, müəllimlərimiz qədər əhəmiyyətli olsun. Bu gün camaatımız, həmd olsun, az-çox milli məktəblər açmağa başladı. Hətta bəzi yerlərdə mövcud olan məktəbləri böyük hümmətlə böyütmək istəyirlər. Lakin müəllimsizlikdən, mürəbbisizlikdən aciz qalıb hümmət əllərini aciz qoltuqlarına soxurlar. Bəli, müəllimsizlikdən məktəblərimiz viran, işlərimiz pərişan, halımız yamandır.

Müəllim məsələsi yalnız bizim deyil, hər millətin ölüm-dirim məsələsidir, bir ovuc inqilislərin topsuz, tüfəngsiz dünyanın yarısına sahib olmaları, Misirdəki və ya Hindistandakı bir neçə piyan əsgərlərilə deyil, Londondakı müdəbbir (uzaqgörən), alim, durbin və fədakar müəllimləridir. Müəllimlərin yetişdirdiyi müdəbbir-siyasiyunlar ilədir. İşin iç üzünə baxmaq istəyənlərə məlumdur ki, rusları pərişan edən cahil rus generallarını basan yapon müəllimləri, yapon müəllim əsgərləri idi. Bilməm bir vaxt hansı qəzetdənsə oxudum: yapon davasından bir ne-

çə il əvvəl Yaponiyadakı rus səfiri bir bağda qonaqlıq verir. Qonaqlıq münasibətilə o bağa gələn yapon ibtidai məktəb uşaqlarına da çay verirlər. Uşaqlar çayı içən arada xəbərdar olurlar ki, çay rus səfiri tərəfindən verilib, bunu duyan kimi uşaqlar: "Biz, bizə düşmən olanların çayını içirik..." - deyib çayları buraxırlar. Halbuki, bizim müəllimimiz, balalarımız ingilislərin beş-on qızılına, fransızların şirin dillərinə, yalançı dostluqlarına, rusların maladeslərinə, iki şahlıq medallarına millətlərinin üzü sularını, millətlərinin vətənlərini yağlı qoyun kimi satırlar. Nədən? Məhz məlumatlı, həmiyyətli müəllimsizlikdən! Uzaqlara nə hacət: erməni hamballarının belə başlarını millət məhəbbətilə, vətən qeydilə, istiqlala xəyalilə dolduran kimlərdir? Millətlərini mühafizə etmək üçün əldə ən gözəl bəhanə etdikləri kilsələrini Rusiya kimi -vaxtilə dünyanı titrədən bir hökumətdən güclə almağa çalışıb milləti uğrunda "Arxangel" qaranlıqlarına, Sibiryanın buz obalarına gedən və nəhayətdə, millətlərinin canı demək olan kilsə mülklərini, kilsə pullarını hökumətdən geri alan kimlərdir? Köhnə erməni keşişlərimi? Qoca erməni avamlarımı?.. Bu gün Rusiyanın vəziyyətindən, zəmanənin təqazasından (tələbindən) istifadə edib müntəzəm qoşunlarını aşkar bir surətdə rus generallarının qabağında gəzdirən, bir sözlə, hökumət içində hökumət təşkil edən daşnaksütyunların müddəbirləri (uzaqgörənləri), komitet rəisləri, üzvləri kimlərdir? Quru dua və lənəti-məzhəbin rükni zənn edən keşişlərmi və ya pisarlıqdakı iki şahı artıq məvacibə müqəddəs xidmətini satan müəllimlərmi?.. Xeyr, xeyr!

Demək ki, hər millətin tərəqqi dərəcəsi müəllimlərinin dərəcəsilə bilinər.

Demək ki, müəllimlər millətlərinin canlı "qradus"larıdır. Bu halda, bizim bəzi müəllimlərimizin kəndlərdən qaçmalarına əlbəttə, aldıqları sui-tərbiyə və təlimin də dəxli vardır.

Əlbəttə, bəzi müsəlman müəllimlərinin müsəlman məktəblərində öz millətlərinin ziddinə rəftarları "xainanə öyrəndiklərini xainanə öyrətməyə çalışmaq" üsulunun acı meyvələridir. Bu sözü dedim də yadıma gəldi. Çox vaxt görülmüşdür ki, şəhərdə cəmaət milli məktəbin xeyrini düşünər, min bəla ilə məscid yaxınında bir məktəb meydana gətirər. Yüz məşəqqətlə bir müsəlman dərsi müəllimi tapar, bir neçə il içində camaat məktəbin və təzə üsulun xeyrini daha ziyadə qanar.

Məktəbin daha artıq tərəqqisi üçün rus dərsinə, rus dərsinin müəlliminə lüzum görürlər. Direktora yazırlar. Qospodin direktor da harda bir ixlaslı (xalis), medal və "malades" dəlisi varsa, tezdən seçib bura göndərir.

Bir az vaxt keçər, məktəbin divarlarında olan türkcə xəritələr, şkafda görünən türkcə kitablar inspektorun buyruğu ilə yerlərindən uçar. Müəllim cənabları gizli-gizli aldığı əmrləri, öyrəndiyi təlimi yavaş-ya-



vaş tətbiq etməyə himmət buyurur. Şapkasındakı iki böyük kokardanın (dəmir nişanın), çiyinlərindəki üç girvənkəlik bəzəkli çinlərin hüzuri-hişmət mabeynlərində uşaqların ədəbsizcə, yəni başı örtülü oturmaları müəllimin qəlbi-alisini əzməyə başlar, ciddi bir bəhanə axtarar. Axtarar, amma tapmaq sayeyi-qeyrətində çətin bir işmi? Görürsən inspektor bu alicənab hökumətpərvər müəllimin ürəyinin ortasından məftilsiz tel ilə xəbərdar olur. Çox sürməz, "fütuhatın", keşiş ağaların, müqəddəslərin, cənabların bir sürü şəkilləri divarları bəzər. Cənab müəllim ətrafına baxdıqca qəlbində özgə cür hissi-ali duyar. İxlas (məhəbbət) və sədaqətini artıq ürəyində saxlaya bilməz. Bir gün uşaqlara: "Bundan sonra zakona görə məktəbdə başlarınızı açmalısınız..." deyə buyurur, bu əmr, bu səs yarım saat içində şəhərin hər tərəfini tutar. Hər kəsin üzündə qəlbinin narazılığı, hökumətdən şikayəti görülər. Ertəsi gün məktəbdə uşağın yarısı qalmaz. Məktəb hər kəsin nəzərindən düşməyə başlar. Bir gün də gələr, əvvəlki xidmətlərindən ötrü inspektordan razılıq kağızı alan cənab müəllim ispektorun zakonuna-sirkulyarına görə müsəlman dərslərindən: həftədə dörd dəfə Quran, üç dəfə xətt (yazı), iki dəfə dua dərslərindən savayı müsəlman dərslərinin oxunmasına rüsxət almadığını, fərəhini saxlaya bilməyib - sevinə-sevinə elan edər, amma ertəsi günü də məktəbdə öz tanışlarının dörd-beş uşağından başqa özgəsini görməz.

Məktəbin tərəqqisinə də, ümidinə də fatihə oxunub qurtarar. Bəli, budur "yarımçılıqlardan biri". "Bir şəxsin" şikayət etdikləri sui-tərbiyənin bir əsəri, bir nəticəsi də. Burası məlum. Lakin arxayınam ki, həqiqi müəllimlərin üzlərini qızardan bu kimi həmiyyətsiz müəllimlər əlbət ki, çox-çox azdır. Əlbət ki, bunlar da insafa gəlmişlərdir. Qaldı ki, kəndlərdən şəhərlərə qaçanlardan bir çoxlarının qaçmalarına səbəb nə sui-tərbiyədir, nə də həmiyyətsizlik.

Bunlardan elələri də vardır ki, bəlkə sui-tərbiyəyə qurban və həmiyyətsizliyə alət olmamaq üçün yaxalarını qurtarmağa qaçırlar. Amma çoxunun kəndlərdən şəhərlərə, şəhərlərdən Bakıya, o qara pul dəryasına, o üz ağardan qara şəhərə qaçmalarına səbəb məhz məişətin darlığıdır. 3-4 baş bir ailəni ayda 25-30 manat ilə dolandırmaq asan dərd deyil, gələcək üçün də heç bir ümid yox ki, biçarə bugünkü sıxıntılara baxmayıb səbr etsin. İnsan 5 il bir yerdə fəhlələk edəndə ağası sədaqətinə görə 5-10 qəpik yenə məvacibini artırır. Amma müəllimlikdə - o da müsəlman olasan - 10 il ömür tükətsən, axmaqaldadan "malades"dən savayı bir şey görülməz. Binəva təcrübəsiz müəllimi bir tərəfdən məişətin darlığı, digər tərəfdən mürüvvətsiz starşinaların, polisin əziyyəti, camaatın söz anlamaz halı sıxdıqca sıxır.

Məktəbdən təzə qurtarmış cavan rəhbərlərə, məişət və camaat dərdi görməmiş cavan müəllimlərə "millətin xatiri üçün hər cür zəhmət

və məşəqqətə səbr etsinlər" demək asandır. Amma onların yerində olub iş görmək çətindir. Lazımdır millət böyüklərimiz də, millət rəislərimiz də millətin qeydinə qalıb övladi-milləti vəhşilikdən qurtaracaq cavan müəllimlərimizə kömək etsinlər. Arxasız, ümidsiz, məişətinin, qarnının dərdinə qalan bir müəllim, mücəssəm-həmiyyətdə olsa, layiqi ilə bir iş görməz.

Özgələrə dil ilə iş örkətmək, vəd və nəsihət eləmək asandır. Amma onların yerinə keçib iş adamı, dərd babası olmaq hər kəsin hünəri deyildir. "Millətin qeydinə qalan həmiyyətli müəllimlər hər cür bəlaya səbr etməlidirlər" - demək üçün bir az da müəllimlərin qeydinə qalmaq şərtdir. Yoxsa hər kəs öz cibinin, öz dərdinin peşinə (ardına) düşüb hər işi məişət dərdi ilə qovrulan binəva biciz müəllimlərdən gözlərsə, işlərimiz bir addım da irəli getməz. Lazımdır ki, kənd müəllimlərinin məvaciblərini artırmaq və onları məişət dərdindən azad etmək üçün rəislərimiz, nüfuzlularımız, xüsusilə dumaya vəkil seçilənlərimiz indidən lazımi təşəbbüsə iqdam etsinlər. Yoxsa 4-5 ildən sonra kəndlərdə bir qabil müəllimimiz də qalmaz. Bunu bugünkü halımız, pərişanlığımız, ən birinci dəlil deyilmişdir ki, bir çox qabil, həmiyyətli müəllimlərimiz müqəddəs xidmətlərini buraxıb qara pul tərəfinə, yəni Bakıya qaçırlar. Bəzi yazıçılarımızın "müəllimlərimiz şəhərlərə nə üçün qaçırlar?" deməklərindən bir şey qanmıram. Ondan ötrü ki, hansı şəhərdə, hansı müəllim yerlərimiz var ki, oraya qaçılsın? Baxın Şamaxıya, Şəkiyə, Gəncəyə, İrəvana, Şuşaya, Naxçıvana və hətta Tiflisə, əcəba buralarda neçə müəllimimiz vardır? Halbuki, bu şəhərlərdə olan tək-tək müəllimlərimiz də yenə o qara pul məcmeyi olan Bakıya qaçırlar. Hətta Tiflisin gözəl havasını, lazımlı xidmətini Bakının istisinə, tozuna tərcih edirlər. Çünki orada həm qara pul çox, həm də irəlisi var. Demək ki, Bakıya qaçanlarımızın bir qismi sui-tərbiyədən və ya həmiyyətsizlikdən deyil, müəllimin bizdə rəğbətsizliyindən, hökumətin zülmündən, məvacibin azlığından, irəlisinə ümid olmamağından qaçırlar. Mən mütləq belə fikir edirəm.

Türk balası, müsəlman oğlu, əksər imüəllimlərimizin missioner müəllimlərin iğva (başdan çıxartma) və şeytanətinə aldanıb millətinə xəyanət edəcəklərinə ümidim azdır. Arada əskik olmayan bir-iki bihəmiyyətin vücudu isə də hesab deyil. Xülasə, Qoridəki müsəlman şöbəsini özgə bir şəhərə köçürtməklə bərabər, müəllimlərin məvaciblərinin artmağına mütləq çalışmalıdır ki, Bakıya qaçmağın qabağı alınsın. "Müəllimlərimiz nə üçün kəndlərdən qaçırlar?" şikayətlərinin axırı alınsın.

***"İrşad", (13 aprel 1906,N-87, N-88)***
**"525-ci qəzet", 14 may 1997.**





## TƏZADLI BAYRAMLAR, TƏZADLI GÜNLƏR

**62 il bundan əvvəl 1935-ci ilin yaz günlərində Azərbaycan təzadlı iki tarixi hadisəni qeyd edirdi. Ölkənin daxilində və xaricində istiqlal mücahidləri öncə Müstəqil Azərbaycan milli dövlətinin varlığına son qoyan 27 aprel faciəsinin 15 illiyini, onun ardınca neçə-neçə nəslin səyi və fədakarlığı ilə kəskin döyüşlərdə qazanılmış milli dirçəliş - 28 may futuhatının 17-ci ildönümünü gələcəyə ümid və sonsuz inamla, bayram əhvalı ilə yaddaşlarında canlandırdılar. Rəsmi dairələr Sovet Azərbaycanının 15 illiyini qeyd etdi. İndi üzdə belə bir təzad gözə çarpmır. Amma uzun illər xəbərsiz olduğumuz, gözdən və könüldən uzaq saxlanılan tarixi sənədlərlə tanış olduqca çox mətləblərin yaşadığımız mürəkkəb, ziddiyyətli dövrdə də eyni ssenari ilə tamamilə başqa səpkidə davam etdiyinin şahidi oluruq. Forma əlbəttə ki, zamanın tələbi ilə hər cür şəraitdə simalarını dəyişməyi bacaran, nəfslərinə hər şeyi qurban verməyə hazır olanlar tərəfindən ustalıqla dəyişdirilir. Amma əslində Azərbaycan onu 1920-ci ildə fitvaya verənlərin yeni nəslinin əlinə keçib. İstiqlal mücahidlərinə, onların sınanmış liderlərinə nifrət və kin üstüörtülü şəkildə olsa da əvvəlki kimi davam etməkdədir. Hər şeyi hakimiyyətdə olanların adı ilə bağlamaq, tarixi bu səpgidə yenidən alt-üst etmək, xalqı mənəvi-siyasi, inzibati-amirlik məngənəsində saxlamaq üçün yeni üsullar işlənib hazırlanmaqdadır. Nə nəticə verəcək, daha hansı yeni faciələrlə üzləşməli olacağıq-düşünüləsi məsələ budur. XX əsrdə həqiqi ziyalılarımızın bir neçə nəsli Azərbaycanın həqiqi azadlıq və istiqlalı, demokratik sivilizasiyalı dövlət quruculuğu yolu ilə irəliləməsi yolunda can fəda etmişlər. Bu müqəddəs mücadiləni əks etdirən və Berlində nəşr olunan "Qurtuluş" jurnalının 1935-ci ilin may nömrəsində dərc olunmuş bəzi yazılarla oxucuları tanış etmək istəyirik. 28 may ərəfəsində istiqlal mücahidlərinin ruhunu heç olmazsa beləcə yad edək!**

## AZƏRBAYCAN İSTİQLAL ƏRƏFƏSİNDƏ



Nəsibbəy Usubbəyovun təşkil etdiyi Nazirlər Şurası

**İl 1918.** İnqilab köpürmüş (coşmuş), yürüyor. Hərbin gürzü (toppuzu) vurmuş çarlığın dəmir çənbəri parçalanmış, imperatorluq qorxunc bir çartıltı ilə çökür. İllərdən bəri yığılan inqilab seli, onu tutan sədləri yıxaraq aşıb daşır. Məmləkətdəki məmnun olmayan (narazı) bütün qüvvələr çoxdan bəri gözlənən məqsədlərə çatmaq üzrə hərəkətə gəlmiş, qonuşurlar. İxtilalık yüyəni artıq Kerenskinin zəif əllərindən çıxmış, Leninin azğınlığı yelləyən yaxşı demoqogiyasına verilmişdir.

Əsgər cəbhəni buraxaraq evə dönür. Dış (xarici) hərb felən bitmişsə də, iç (daxili) hərb başlamışdır. Yoldaş alman əsgəri ilə öpüşülmüş, silah kəndlilərin qanını içən "əsil düşmənə" - mülkədara qarşı çevrilmiş; bütün Rusiya od tutub yanır - "talanmış mallar talanır".

Qoca Rusiya, sadə ictimai təzadlar deyil, siyasi təzadlar baxımından dəxi qaynaşmaqdadır. Millətlər öz müqəddəratlarına özləri sahib olmaq istəyirlər. Hər tərəfdə milli hərəkatlar başlamış, şəkilləşir. Konqresslər toplanır, milli komitələr qurulur.

Hərəkat bütün təzahürləri ilə Qafqasiyaya da əks etmişdir. Bir tərəfdən Türkiyə və İrandakı rus saldatları cəbhələrindən qalxaraq "evə" dönürlər. Dönürlər deyil, adətən axırlar. Digər tərəfdən də Qafqasiyalı millətlər, öz müqəddəratlarını düşünmək üzrə, milli təşkilatlar yapmaqla məşğuldurlar.



Bakı, Milli Azərbaycan Hərəkatının mərkəzi həyəcanlı günlər keçirir. Milli Komitə təşəkkül etmiş, hər cür yoxluqlara rəğmən və min bir növ əngəl içində bir varlıq göstərmək istəyir. Çətin vəzifə. Şəhərdəki rus fəhləsinin, erməni təşkilatının və Xəzər dənizindəki donanmanın müxalifəti bu çətinliyi bilavasitə qatılaşdırır. Bunlar azmış kimi, bir də İran cəbhəsindən "evə" getmək üzrə buraya gələn rus saldatları düşmən ünsürlər tərəfində məxsusi surətdə təşviq olunaraq şəhərdə saxlanmaq istənilir.

Gəncədə qanlı hadisələr: Türkiyə cəbhəsindən dönərək Tiflis - Bakı dəmir yolu ilə keçən saldat eşalonları Gəncə Milli Komitəsi tərəfindən Şəmkir stansiyasında durdurularaq silahları boşaldılır.

İrandan dönmüş saldatlara bu dəfə Gəncədə "soyulanlar" əlavə olunur. İş bununla qalmayır. Gəncə təcrübəsi Xaçmazda da təkrar olunacaq - deyə şayiə çıxarılır. Bu şayiə üzərinə hər tərəfdən gələn saldatlar Bakıda birikib dururlar. Hava elektrikləşir. Şəhər provakasiyaya əlverişli yapdırımla dolu. Qundaqçılar da az deyil. Müsəlmanlar həyəcanlı günlər yaşayır...

**M.Ə.RƏSULZADƏ.**
*"Qurtuluş", N12, 1935,s.342.*
**"Liberal Press" qəzeti, 17 may 1997.**

## M.Ə.RƏSULZADƏNİN TEHRAN "VƏSİYYƏTNAMƏ"Sİ

**Başqalarını bilmirəm, mən artıq şükr etməyə başlamışam ki, gözləri dumanlanmış, cibləri dolmuş məddahlar hələlik 28 Maya dəymirlər, bayrağımızı və dövlət himnimizi dəyişdirilməsi məsələsini qoymurlar. Son vaxtlar müşahidə etdiyim istiqlal mücahidlərinə, 1918-1920-ci illərdən cərəyan edən hadisələrə, xüsusilə Azərbaycan milli qurtuluş hərəkatının ideoloqu və lideri M.Ə.Rəsulzadəyə onun zəngin, bu gün və gələcəyimiz üçün də gərəkli və misilsiz əhəmiyyətli irsinə, şəxsiyyətinə laqeyd və bəzən düşmənçilik münasibəti belə bir təşviş üçün əsas verir. Bu günlərdə qəzetlər xəbər verdilər ki, Naxçıvanda yüksək vəzifəli şəxslərin göstərişi ilə M.Ə.Rəsulzadənin portreti tarix muzeyindən çıxardılıb. Tarixi yenidən "müasirləşdirmək", sovet tarixini qara və fərəhli al-yaşıl rəngdə təsvir etmək, hətta 1918-1990-cı illəri "bəlalı illər"**

**kimi qələmə vermək meylləri nəzərə çarpmaqdadır.**

**Digər tərəfdən məddahlıq kampaniyası baş alıb gedir. Bu günlərdə "Ya həqiqəti yaz, ya sus!" epiqrafı ilə nəşr olunan bir qəzetdə 14 xətlik bir abzas da dilimizdə mövcud bütün dəbdəbəli istilahlara rast gəldim: "müdrik şəxsiyyət", "qüdrətli sərkərdə", "mahir siyasətçi", "xilaskar", "vətən-övlad təntənəsini nümayiş etdirən", "təkrarsız lider" və s. Bədbəxtlik budur ki, həqiqi, səmimi tərifin yöndəmini, çərçivəsini belə bilməyənlər meydanda sinə vururlar.**

**Məncə əsas bəlanın, çaş-baş qalmağın səbəblərindən də biri də budur ki, istər iqtidarda və istərsə də müxalifətdə olanların böyük əksəriyyəti istiqlal mücahidlərinin, o cümlədən M.Ə.Rəsulzadənin adını bilir, irsindən, yazıb qoyduqlarından, 55 il müddətində millət, istiqlal yolunda göstərdiyi fəaliyyətdən xəbərdar deyillər. 28 May ərəfəsində nümunə üçün M.Ə.Rəsulzadənin bu vaxta qədər işıq üzü görməmiş, ana dilində çap olunmamış bir əsərini - 26 yaşlı vətən oğlunun, 1909-1911-ci illərdə Tehranda baş redaktoru olduğu "İrani-Növ" qəzetinin 1910-cu il mayın 17-də çıxmış nömrəsində dərc olunmuş "vəsiyyətnamə"sini oxuculara təqdim edirəm. Bu "Vəsiyyətnamə" bizim günlərimiz üçün də nəzərdə tutulub ya yox? Oxuyaq, düşünək!**

## VƏSİYYƏTNAMƏ

*Sabah vəd olunan quyruqlu ulduzun görünəsi gündür. O, çox sürətlə bu başıbəlalı, həsrət çəkən Erə yaxınlaşır. Bizim yazıq Yer kürəsinin həsrəti ürəyində qaldı. Ədalət və bərabərlik naminə nə qədər qanlar töküldü, nə qədər rəzalətlər çəkdik. Yenə də nəticəsi olmadı. Həmin zülmlər, qeyri-bərabərlik və biganəlik hökm sürməkdədir. Həyat zorluların, fəlakət isə yoxsullarındır. Hələ də azlıq dünyanın çoxluğuna hakimdir. İndi tənbəllər şad, zəhmətkeşlər isə kədərlidirlər.*

*Tamam dünya bir parça bədbəxtlik, vətən övladı səadətdən məhrum...*

*Alimlərin çoxu təsəlli verir ki, bu ulduzun bizim Yerə heç bir zərəri olmayacaq. Buna baxmayaraq hər halda vəsiyyət yaxşı şeydir, xoşagələndir, uzunömürlülüyün səbəbi, can rahatlığıdır.*

*Mömin gərək vəsiyyətsiz ölməsin. Odur ki, möhtərəm oxucular mən "Niş"də vəsiyyət edirəm.*

*Əvvəla, heç qorxmayın, əvvəl-axır hamımız öləcəyik. Belə olan tərzdə yaxşı olar ki, elə hamımız birdən ölək. Bu ona görə yaxşıdır ki,*



*ikinci dəfə qiyamət vaxtı gələndə bəlkə ağıllanaq, bir-birimizlə doğru rəftar edək, qərəzi kənara qoyaq, bir yerə toplaşıb bir azad İran məmləkəti yaradaq, rus və ingilisi də yaddan çıxarmayaq!..*

*Amma əgər elə şəxslər tapılsa ki, rüşvət, yaltaqlıq və tanışlıqla, mədhiyyə və qəsidə deməklə özlərini başəriyyətin bu təhlükəsindən xilas edə biləcək, İran ərazisində qalacaq və yenidən insan övladını yaradacaq, onlardan xahiş edirəm mənim təcrübəmi nəzərə alıb bir neçə maddədən ibarət olan aşağıdakı vəsiyyətnaməmə əməl etsinlər.*

*1. Yüksək vəzifəyə layiq görmədiyiniz şəxsi həm özünüzü, həm də başqalarını aldadıb böyük tarixi şəxsiyyət tərz etməyin. Çünki, bu cür etsəniz öz təcrübəm əsasında deyirəm. Öz başınıza bəla gətirərsiniz.*

*2. Əgər təzə təşkil edəcəyiniz məmləkətin əsasları köhnədirsə, labüd olaraq inqilabdan keçərək bir milli hökumət təşkil edin.*

*Öz aranızda meydana gələn siyasi nəzəriyyələr və professional ixtilafları şəxsi ixtilaflara çevirməyin və bir-birinizi tənqiddə sağlam ağlı əldən verib fitnəkarların təsiri altına düşməyin ki, bizim kimi "etidal və başqaları"na (mühafizəkarlığa) düçar olmayasınız və qeyri-məlum ibarələrin müəllifləri kimi gözübağlı olub bir-birinizin canına düşüb düşmənləriniz üçün məsxərə alətinə çevrilməyəsiniz.*

*3. Siyasi nəzəriyyələr meydanında nə qədər bacarırsınız fikir atınızı oynadın. Amma bu at oynatmaq İrançılıq çərçivəsindən kənara çıxmamalıdır.*

*4. Siyasət meydanında nə qədər mühafizəkar olsanız da orta yol seçin və ya həddən artıq qızğın olmayın, bir-birinizi ittiham etməyin! Çünki, gördük və yəqin etdik ki, əgər quyruqlu ulduz gəlməsəydi, qarşılıqlı ittiham və intriqa bizi boğardı.*

*5. Əgər nazir olsanız və ya İranda təzə yüksək vəzifəyə çatsanız, öz hərəkətlərinizdə mülahizəli olun. Elə etməyin ki, sizin məlumat və üzrxahlıqlarınız məmləkətə və onun azadlığına xələl gətirsin.*

*6. Əgər millət vəkili olsanız öz vəzifənizi bilin və heç vaxt ondan kənara çıxmayın. Heç vaxt nazirlik kabinetlərinə biri üçün vasitəçi kimi getməyin. İcra sahibinin işlərinə müdaxilə etməyin ki, öz icra qüvvənizi öz hüdudlarında saxlaya biləsiniz.*

*7. Əgər Allah eləməsin çətinliyə düşüb gözlədiyinizin əksinə olaraq jurnalist olsanız, ən azı sərxoş halda heç bir şey yazmayın, yoxsa öz milli mətbuatımızın bədnam olmağına bais olarsınız.*

*8. İdarəyə və ya Milli Məclisə vəkillər seçilən zaman, elə adamı seçin ki, onun özünün müstəqil fikri olsun, vicdanla rəy versin. Gözləməsin ki, görək filankəs nə rəy verəcək, mən də onun əksinə rəy verim.*

*9. Əgər bir hadisə zamanı siz öz millətinizə layiqli xidmət etsəniz*

*və məşhur qəhrəman olsanız çalışın ki, hərəkətləriniz ad-sanınıza uyğun olsun. Belə olmazsa sabah xidmətiniz bir qara qəpiyə dəyməz.*

*10. Öz çalışqanlığınıza görə bir yerə hakim təyin olunsanız, elə etməyin ki, sizə baxıb zalımlara rəhmət oxusunlar.*

*11. Bizim əlimiz daha çatmayacaq, amma "İrani-nov" (Yeni İran) da dünən yazılmış suallara siz cavab verin. "Həyya əla xeyril-əməl" (ən yaxşı işlər görməyə tələsin!) ruhunu özünüzdən razı salın!*

*Ulduzun vaxtı çatır, əlim əsir, halım dəyişir, üzr istəyirəm. Əgər bu 10-11 maddəyə əməl etsəniz kifayətdir.*

**Niş (M.Ə.RƏSULZADƏ) "İrani-nov"**
*(Yeni İran) qəzeti, 17 may, 1910, N206.*

**"Liberal Press" qəzeti, 24 may 1997.**

## AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN BƏRQƏRAR EDİLMƏSİ UĞRUNDA MÜBARİZƏ

Ölkənin ictimai-siyasi həyatını son illər bürümüş populist çıxışlardan cəmiyyət getdikcə azad olmaqdadır. Onun yenidən öz tarixi keçmişinə, elmi mənbələrinə müraciət etməsi, zənnimcə, yaxşı hal sayılmalıdır. Çox sevindiricidir ki, elmi öz naminə deyil, Azərbaycan naminə düşünən adamlar üçün bu gün Azərbaycan torpağı mövcuddur, bu torpaqda yaşayan millət mövcuddur. Millət üçün hakimiyyət lazımdır. İndi bu hakimiyyət də var. Lakin həmin hakimiyyət ölkəni dünya sivilizasiyası səviyyəsinə qaldırmalı, sosial-hüquqi dövlət yaratmalı, dövlətçiliyimizi qorumağı bacarmalıdır. Biz - bugünkü nəsil - cavanlar qarşısında məsuliyyət daşıyırıq ki, əcdadlarımızın təhvil verdiyi torpaqları, yaratdıqları istiqlaliyyəti yaşatmalı, ona dayaq durmalı və gələcək nəslə çatdırmalıyıq. Bu sahədə milli cümhuriyyətimizin öndərlərinin irsinin öyrənilməsini vacibdən-vacib sayırıq. Bu gün M.Ə.Rəsulzadədən ona görə danışmırıq ki, süni surətdə təzim etməyə bir büt yaradaq. Bu fikirdə deyilik. Tarix də onu göstərir ki, sabun köpüyü kimi üfürdülüb şişirdilən, göylərə qaldırılan siyasətçilərdən, dövlət xadimlərindən gələcək üçün heç nə qalmır. Şərəfinə yüzlərlə, minlərlə abidələr ucaldılan adamların heykəlləri 50 il keçməmiş xalq



tərəfindən dağıdılır. O şəxslər ki, millətin mayasını təşkil edir, onun ürəyində yaşamaq üçün hakim kəsilir, onları yaşatmaq millət üçün vacibdir. Bu baxımdan M.Ə.Rəsulzadə bir ümmandır. O deyirdi ki, "ölənləri xeyrə yad etmək mədəniyyətimizin və ictimai tərbiyəmizin vacib tələbidir". "Milli-mədəni yüksəliş olmadan milli qurtuluş ola bilməz".

M.Ə.Rəsulzadə bir siyasətçi kimi, öz əxlaqı, öz mədəniyyəti ilə bu gün də hamıya örnəkdir. Onun N.Nərimanovla cümhuriyyət haqqında çox mədəni, çox ləyaqətli, ziyalıya xas olan fikir mübadilələri buna misaldır. O, Nəriman bəyin "məqsədimiz, fəaliyyətimiz, idealımız cümhuriyyətdir" fikrinə belə cavab verirdi: "Hörmətli doktor, cümhuriyyət çox yaxşıdır. Hər millət öz yolunu tapmalıdır. Bu təbiidir. Ancaq cümhuriyyət ideal və məqsəd ola bilməz, o bir vasitədir. Bizim idealımız sosial-ədalət olmalıdır, cəmiyyətdə ədalət olmadan dövlətin adını cümhuriyyət deyil, nə qoyursan qoy, ona dövlət demək olmaz".

1916-cı ildə dahi Üzeyir Hacıbəyov 1905-1906-cı illərdə xalqın milli oyanışından sonra tədricən sönməsini müşahidə edərək qeyd etmişdir ki, həyat eşqi, mübarizə eşqi sönür. Əfsus ki, biz qızışdıq, sonra söndük. Həmin dövrün bugünkü günümüzlə oxşarlığı göz qabağındadır. O zaman da müxtəlif təqiblərə məruz qalan mütəfəkkirlər 1909-cu ildən başlayaraq ölkəni tərk edirdilər. Belə bir məqamda ruh düşkünlüyünü bir kənara qoyan M.Ə.Rəsulzadə inamla deyirdi ki, millətin işığı heç vaxt sönməyəcək.

Məddahlıqdan başı dumanlanmış bəzi nadanlar bu gün M.Ə.Rəsulzadə və digər istiqlal mücahidlərinə qara yaxmaqdan çəkinmirlər. Nə üçün? Nəyin naminə? Hər bir canlının orqanizminə daxil olan mikrob kimi, bələri də xalqın bədəninə daxil olublar. Milli cümhuriyyətimizin öndərlərinin miras qoyduğu dövlətçiliyi bərqərar etmək, işğal altında qalan ərazilərimizi azad etmək vaxtıdır.

* * *

Konfransa yekun vuran Şirməmməd Hüseynov sonda aşağıdakıları qeyd etdi: Mən M.Ə.Rəsulzadə əsərlərini ona olan məhəbbət əlaməti olaraq toplamışam, toplayıram və toplayacağam və bu məsələdə maddi məqsəd güdməmişəm. Bu heç vaxt ola bilməz ki, oğlun öz əcdadından təmənnası olsun. Digər tərəfdən, vəsait üçün heç bir təşkilata getməmişəm, getməyəcəyəm də. Bu saat polis rəisinin müavini bir ildə beş kitab çap etdirir. Bunu ondan soruşan yoxdur ki, bu kitabları hansı pulla buraxdırır, sənin maaşın nə qədərdir, bu pulları haradan alırsan? Ancaq mən bilirəm ki, o, bu kitabları əqidəsinə görə de-

yil, daha çox pul qazanmaq üçün buraxdırıb. Bu kitablar onun üçün bir şirmadır, yəni gələcək rüşvətlər üçün, soyğunlar üçün, dağıntılar üçün bir şirmadır. Mən rüşvət pulu ilə M.Ə.Rəsulzadəyə həsr olunmuş kitab buraxmaq niyyətində deyiləm. Bu cinayətdir. M.Ə.Rəsulzadə və onun məsləkdaşları halal adamlar olmuşlar və bunların da əsərlərini sidqi-ürəklə, halallıqla çıxarmaq lazımdır. M.Ə.Rəsulzadə deyirdi ki, "bizim İstiqlal mücadiləmizi Azərbaycan ziyalısının böyük əksəriyyəti müdafiə elədi". Türkiyədə milyarderlər böyük universitetlər, məktəblər tikir, pul qazanır, millətin yolunda xidmət edir. Məndən İstanbulda keçirilən konfransda ikinci cildin aqibətini soruşanda pulun olmadığından təxirə salındığını bildirdim. Onlar dedilər ki, sizin azərbaycanlılarınızın burada milyonlarla dollar pulu var. Ancaq siz orada kitab üçün pul tapa bilmirsiniz. Bu söhbətlərdən mən o qənaətə gəldim ki, M.Ə.Rəsulzadə fondu ancaq namuslu adamların fondu olmalıdır.

***"Liberal Press" qəzeti, 31 may 1997.***

## BİZƏ YAZIRLAR

Dünya azərbaycanlılarının həmrəylik günü təntənəli surətdə qeyd edildi. İnsafən camaatı coşdurmuşdular. Lap 1917-ci ilin sentyabrında Bakıda keçirilən müsəlmanların Qafqaz qurultayını andırırdı. Xüsusilə "öpüş" əhvalatı. "Hümmət" qəzeti 26 sentyabr tarixli 13-cü sayında "Öpüşdülər" sərlövhəli yazı da vermişdi. Məqalə belə başlanırdı: "Bakıda əvvəlinci Qafqaz qurultayı! Nələr söylənilmədi! Nələr meydana qoyulmadı! Zərif sözlər! Dərin mətləblər! Fəsahət, bəlağət! Fəlsəfə! Tarix, din, millət, məzhəb! Birlik! İttifaq! Març, març, öpüşmək!" Bundan sonra kim deyə bilər ki, tarixi ənənələri davam etdirmirik?! Amma əvvəllər öpüşürdülər, indi öpürdülər! Özü də bu əhvalatın təşəbbüskarı Qafqaz qurultayında o vaxt heç yaxına buraxılmayan ünas tayfası nümayəndəsi idi.

***"525-ci qəzet" 7.I.98.***





## TƏZƏ İL, TƏZƏ MEYDAN, DİRİ PİRLƏR, FİTVA ZAVODU...

*Yeni il seçmələri*

**Müasir kütləvi informasiya vasitələrini inkişaf etmiş demokratik ölkələrdə "dördüncü hakimiyyət" adlandırırlar. Bundan öncə mətbuatı xalqın və tarixin kollektiv yaddaşı, qələm əhlini isə dövrün, zamanın salnaməçiləri hesab etmişlər. Bizim əcdadlarımız isə demişlər ki, "hal-hazırın kökü keçmişdədir, keçmiş isə gələcəyin iynəsidir".**

**İstiqlalımızın və dövlət müstəqilliyimizin 7-ci ilinə qədəm qoyduğumuz günlərdə məni belə bir məqam maraqlandırdı: yüzillik sona yetir, ikinci minillik qurtarır, cəmisi 123 il tarixi olan Azərbaycan mətbuatında yeni ili necə qeyd ediblər, nələr düşünüblər, nədən yazıblar?**

**Göstərək ki, bizdə 1920-ci ilin mayınadək ana dilində 140 adda mətbuat orqanı nəşr olunub. "Molla Nəsrəddin" jurnalı istisna olmaqla onlardan heç biri nəinki 10 yaşına, hətta 6-7 yaşına belə çata bilməmişdir. Odur ki, yeni il nömrələrinin miqdarı da o qədər çox deyil. Digər tərəfdən milli-demokratik mətbuat adını daşımağa layiq olanlar da çox deyil. İndi isə ilin sonu və yeni il nömrələrindən bəzi seçmələr.**

**"Əkinçi" 1 yanvar 1876**

"Altı ay yoxdur ki, bir bizim "Əkinci" qəzeti çap olunur, artıq ingilisin paytaxtı London şəhərində onun çap olunmağı məlumdur. Oradan bir kitabın fəslinin türk dilində olan tərcüməsini bizə göndəriblər ki, onun qələtini düzəldək. Əlhəq bu çox ziyadə gözüaçıqlıq istər. Londan şəhərində bir neçə yüz qəzet çap olunur. Onunla belə kişilər dünyanın ucunda bizim qəzet kimi bir kiçik qəzet çap olunmağını eşidib istəyirlər ondan da nəfbərdar olsunlar, amma bizim adamın çoxu nə ki, bucağadək bizim qəzeti oxumayıblar, bəlkə bəzi kəslər onun bina olunmağının xəbərini də eşitməyiblər. Hətta elə adam var ki, qəzet pulu verib onu almaq istəmir".

**"TƏKAMÜL" 1 yanvar 1907. N 4**

"Seçkilər yaxındadır! Budur neçə gündən sonra hər bir ixtiyar sahibi olan vətəndaş seçki qutusuna yavuqlaşıb vətənin səadətini təmin edəcəkdi. Yəni bu qutuya bir taqım vəkillərin adı yazılmış olaraq kağız salacaqdır ki, o vəkillər ya köhnə idarə tərəfdarı olub, voenni polevoy sud, cəza və cəfa üsuluna qədəm etməyə çalışacaqdır. Yaxşı ki, hürriyyətpərəst bir kimsəni qərarlayıb elpərəstliyini göstərərək, məmləkəti həqiqi bir vəsilə ilə anarxiya halından qurtarmağı və bürokratların cəngəli-qəddarənələrini sındırıb amali-fəsadlarını puç edəcəkdir..."

**"MOLLA NƏSRƏDDİN"**
**30 DEKABR 1907, N49 İLİN AXIRI**

1907-ci il axıra çatdı.

İndi lazımdır ki, həmin ilin ərzində dünyada hər bir böyük itki vaqe olub hamısını yazaq ki, oxucularımız bilsinlər.

Həmin 1907-ci ilin müddətində şöhrətli vüquatın lap şöhrətlisi rus və ingilis əhdnaməsi idi. Dəxi burada təfsilat lazım deyil, çünki bu iş hamıya məlumdur.

Həmin ilin müddətində Bakıda ianə komissiyası əmələ gəlib və Zəngəzur və Qarabağ aclarına 45 min manat göndərib (amma qorxuram inanmayalar).

Tehranda Əzizüllah xan İbnüşşəhid rus səfarətxanasında cüzi əməliyi-xəlvət olub və çox məvaciblər alıb.

Üçkilsədə Katalikos və Tiflisdə Şeyxül-İslam vəfat ediblər.

Naxçıvanda və Şamaxıda diri pirlər əmələ gəliblər və çox kəramətlər göstəriblər...

...Tehranda "Məclis" ruznaməsi Məhəmmədəlinin barəsində çox "mərhəbalar" yazıb, Ordubadda Seyid Murtəzanın təhtisədarətində fitva zavodu açılıb...

*Töhmət edir qəzetçilər*
*Məşəri-nasi bir belə...*
*Özlərinin inanki, yox,*
*Fəhmü zəkası bir belə...*

*Mən kimi aqil olsalar,*
*Tüğl edələr oğurluğu.*
*Zəhməti, rənci bir belə...*
*Zövqü səfası bir belə...*



*Cümlə maarif əhlinin,*
*Halәti göz önündədir.*
*Vəchi-məaşı bir belə...*
*Dərdü bəlası bir belə...*

**"HƏQİQƏT" 3 YANVAR 1910, N-2**
**TƏZƏ İL, TƏZƏ MEYDAN**

Pəncşənbə künü Qəməri (Hicri) il, cümə günü də Şəmsi (astronomik) il təzələndi.

Köhnə il bizə nə verdi, təzə il nə verəcəkdir?

Bu sualı edənlər o adamlardır ki, özlərini zaman nəhri içində cərəyan edən həvadisə (hadisələrə) tabe buraxıb, nə mövclər (dalğalar) ilə mübarizə etmək, nə də ki, sahili-səlamətə çıxmaq fikrində deyildirlər.

Cərəyani-həvadis (hadisələrin cərəyanı) bunları nərəyə sövq edəcəksə - etsin, heç fərqi yoxdur.

Lakin belə olmaq yaxşı deyildir. Çünki hər bir nəhrdə şiş-şiş daşlar, qayalar olmaqdan başqa bir çox nəhrin də axırı dəryanın qərinayabıdır (dibidir).

Doğrusu, biz belə sual verməliyik: köhnə ildə nə qazandıq, təzə ildə nə qazanmalıdır?

İnsan ildən-ilə böyüyür, irilənir, lakin bu böyüməklik yalnız bir bədənimizin cismani böyumekliyi deyildir. İnsan mənən də böyüyür. Hər il insanın təcrübəsi artır, biliyi çoxalır, daireyi-nəzəri genəlir. Əvvəlcə inanmadığı bir çox şeylərə inanır, əvvəlcə inanmış olduğu bir çox şeylərdən soyuyur, bir çox qaranlıq şeylər onun üçün işıq olur, belə olmaqla bərabər, hər bir təzə il hülul etdigdə (kirdikdə) köhnə il insan üçün bir dərsi ibrət olur...

Hüşiyar insan təzə ilə qədəm qoyduqda köhnə ildə başına gələn qəziyyələri, giriftar olduğu fənalıqları, o fənalıqların nədən və nerədən əmələ gəldiklərini xatirinə gətirib səy edir ki, təzə ildə özünü belə fənalıqlardan qorusun, o fənalıqların zühuruna mane olsun. Vay o adamların halına ki, köhnə ilin dərsi ibrətlərini nəzəri-etibarə almayıb fəramuş edələr! Keçən ilin dərslərini dürüst öyrənməmiş şagird təzə ildə cürbəcür çətinliklərə düşən kimi, bunlar da təzə ildə müxtəlif məşəqqətlərə düçar olub, belə məşəqqətlərdən xilas olmaq yolunu bilməyəcəklər və özlərini çaşırıb onsuz da ağır olan məişətlərini daha da müşkülata salacaqlar. Belə olan surətdə yaxşı deyilmişdir ki, hər bir il özümüzü təzə il üçün hazırlayaq, yəni məişətimizi yüngül edəcək, özümüzü ağıllandıracaq və tərəqqi verəcək olan hər bir yaxşını inadlıq etməyib öyrənmək və özümüzə zərər yetirən hər bir fənalığın dəfinə çalışaq, zühuruna razı olmayaq.

Heç kəs istəməz ki, bir dəfə düçar olduğu məşəqqət, fənalıq bir də təkrar olunsun. Lakin onu istəməyən şəxs haman o bollu məşəqqət və fənalığın dəfi yolunu da bilməlidir. Bilmək üçün da öyrənmək lazımdır. Öyrənmək də məlum olduğu üzrə elm və təcrübə ilə nəşvü-nüma edər (böyüyüb artar).

O adamlar ki, onların "günü keçibdir", yalan doğru təcrübələr sayəsində bir noi gün keçirirlər. Lakin o insanlar ki, onların gələcəyi qabaqdadır və hal-hazırda qəyyumlar əli altında yaşamağa məcburdurlar, onların damı elmsiz, biliksiz buraxmalıdır?! Xeyr, onları, o balaca insanları gələcək həyat üçün hazırlamamaq insaf deyildir. Və illa (əgər) gələcəkdə onların işinə hər nə fənalıq gəlsə, hər nə məşəqqət üz versə, hamısının məsuliyyəti indiki qəyyumlarının üzərindədir. Allah-təala birisinə bir övlad kəramət etdikdə, onun qəlbinə övladına qarşı bir hissi-məhəbbət qoyur ki, o məhəbbət onun üçün balanı baldan şirin edir. Lakin balaya yalnız bir quru məhəbbət göstərmək azdır, çünki əgər iş yalnız məhəbbətə qalsa, onda bala öz valideynindən heç bir mənfəət görməz. Halbuki valideyn isə haman hissi-məhəbbətindən ruhani bir ləzzət almağa başlar. Balanın canını sevən ana, onun qeydinə də qalmalıdır ki, bu şirin və əziz bala dünyada sərbəst yaşamağa qədəm qoyduqda meydanında qorxudan bağrı yarılmasın. Mübarizəyə məişətinin tikanlı yolundan qorxmasın, mübarizeyi-həyatiyyə meydanında qorxudan bağrı yarılmasın, Mübarizəyə girişməyə məcbur olduqda həvadisin (hadisələrin) birinci zərbəsi altında tələf olmasın... Qərəz...

Hər bir təzə il insan üçün təzə bir meydani-mübarizə təşkil edir. Bu meydanda həyat mübarizəsi vaqe olur. İnsanlar ilk meydana atıldıqda cərəyani həvadis ilə mübarizə və müharibə eliyirlər. Vay o adamın halına ki, bu meydani mübarizəyə əvvəl dəfə qədəm qoyduqda nə qılıncı ola, nə qalxanı.

***Üzeyir (Hacıbəyov)***

**"AÇIQ SÖZ" 2 YANVAR 1916, N 366**

"Bir qanlı il daha. Bu qanlı ildə məmləkət nə kimi hallar keçirmiş, dünya nə kimi zərbələr yemiş, 3-4 aydan artıq davam edə bilməyəcəyinə bir növ inanılmaq istənilmədiyi halda üçüncü ili haqlayan aləmşümul müharibə nə kimi mərhələlər atlamış? 1917-ci ilə girdikdə bu sualların mütəəzzimən (ağrılı) olduğu əhvalatı müxtəsərən də olsa mütaliə edəlim...

İslam aləmi, Rusiya müsəlmanlığı da... keçən illər müharibənin doğurduğu ağır şərtlər altında keçirmişdir. Digər məmləkəti islamiyyətin halı haman 1915-ci ildəkindən pək də fərqi bir hal olmamışdır. Fəqət Rusiya müsəlmanları bu il qeyri rusların müharibə işçiliyinə çağırılmaları münasibəti Zühur edən müfsid (fəsad törədən) hadisələrə məruz qalmışlardır. 25 iyunda çıxan fərmani-humayun ilə bu vaxta qədər əsgərlik xidmətindən məful olan Türküstan, Qırğızıstan və Qafqasiya müsəlmanları dəmir yollarında, xəndək işlərində və xüsusi zavodlarda "biyar" surətilə əməliyə (fəhləliyə) dəvət olunurlardı. Fəqət bu dəvətin qövldən-felə gətirilməsində göstərilən tələsiklik... cəmaətçilik gölünü dəxi bulandırmış oldu ki, bu hal gölün durulması üçün bəlkə də lazım idi..."

**"AZƏRBAYCAN" 1 YANVAR, (QANUNİ-SANİ) 1920**

Müasir dövlət və millətlərin, ümumiyyətlə təəmmül (tədqiq) etdirdikləri tarixin, tarixi-miladın bu gün 1920-ci ili doğdu.

Həzrəti İsanın tarixi-təvəllüdündən sonra keçən əsrlər, bu gün iyirminci əsr deyilən zəka, elm, mədəniyyət, qovğa, cəhl və vəhşət ilə davam olaraq bəni-adəmi həddi-kəmalin zirveyi-intihasına isad (bəxtiyar) etdiyi kimi, dərgi səfilinə də sürükləyib gətirmişdir.

Bəşər tarixi miladdan əvvəl nur ilə zülmət arasından payan olub.

**"Azərbaycan", 1 yanvar 1919**

"Hürriyyətpərəst"lərin "idarə anarşiyəsi" altında həqarət, rəzalət, əziyyət, zülüm-sitəm kimi məhz müsəlmanlara qarşı rəva görülən "mərhəmət"lərin bərəkətindən zənn etmirəm ki, Bakıda müsəlman namına bir kəs qalmış ola idi! Bir tərəfdən "sovetlər" başında olan "sosialist"lərin idarə işində göstərdikləri cəhaləti, digər tərəfdən həmin "sosialistlər"i əllərində oyuncaq və aləmi-məsğərə etmiş olan hiyləgər və xunxar daşnakların ifraz etdikləri fitnə və şeytanəti müsəlmanları bir halətə salmışdı ki, yaşamaq imkanı qalmamışdı.

Şükürlər olsun bizi yaradan xaliqə ki, "hökuməti-siyasi" qətl-qarətdən ibarət olan mənhus idarənin təhəmmülfərsa (dözülməz) ömrü, ümumbakı müsəlmanlarının bilkülliyyə məhv və tələf olacağı müddət ərzində uzun çəkməyib qəhrəman İslam Ordusunun şanlı qılıncı ilə kəsildi və Bakı müsəlmanları azad edildi...

**"Azərbaycan", 2 yanvar 1919**

Azərbaycan hökuməti, Azərbaycan dövlətinin istiqlalını gözünün bəbəyi kimi mühafizə və müdafiə edəcəkdir... Azərbaycan torpağı Azərbaycan türkləri ilə məskən bir yerdir. Bu türklərin nisamsevən, asayişə riayət edən alicənab bir irq olduğunu müşahidə edir!..

***"525-ci qəzet", 7 yanvar 1998***

## BİNƏSİBLƏR, TALESİZLƏR, MƏZLUMLAR
## *BƏS TƏQSİRKARLAR?*

Millət vəkili, alim və publisist Vilayət Quliyev "525-ci qəzet"də dərc olunmuş bütövlükdə nikbin ruhlu müsahibəsində (24.XII.1997) qəlbimizi göynədən bir həqiqətə də toxunaraq demişdir: "Ətrafımızda talesizlər və binəsiblər çoxaldıqca adamın öz taleyindən razı qalması çox çətindir".

Acı həqiqətdir!

Ancaq gərək görən göz, eşidən qulaq, duyan qəlb, ən başlıcası milli vətəndaş vicdanı və heysiyyəti, insaf və mürüvvət sahibi olasan ki, günümüzün hay-küylə müşayiət edilən məddəhlıq şəşəəsində varlığımızın bu gününü və gələcəyini təhdid edən bu tarixi faciəni görəsən, onu şəxsi taleyin ilə bağlayasan! Zənnimcə hörmətli millət vəkili milli vicdan, qeyrət və namus mücəssəməsi Mirzə Cəlilin əsrin əvvəllərində yazdığı bədii publisistik "Binəsiblər" və "Xeyir-dua" oçerkləri ilə tanışdır. Tarixi yaddaş doğrudan da vicdanın güzgüsüdür, əsrlərin və nəsillərin həmişəyaşar nəfəsidir!

Talesizlik və binəsiblik başa çatmaqda olan 20-ci yüzillikdə də xalqımızın böyük bir qismini aramsızlıqla təqib etməkdədir. Elə əsrin ilk illərini yada salaq. "Hiyləgər və xunxar daşnakların rus çinovnikləri ilə birgə ibraz etdikləri fitnə və şeytanətin" (Ü.Hacıbəyov) nəticəsində nə qədər xanımanlar dağıdıldı, günahsız insanlar qətlə yetirildi, kəndlər yandırıldı- xarabazarlığa döndərildi, günahsız, yiyəsiz talesizlər və binəsiblərin ah-naləsi Qafqazı bürüdü.

Qafqazda müsəlman-türk varlığını heçə endirmək məqsədilə planlı şəkildə həyata keçirilən bu cinayətkar siyasət nəticəsində vətənimizin ikiyə bölünməş hər tərəfində milli bir faciə yaşanırdı. 1905-ci ilin ikinçi yarısından cənubu fəhlələrin kütləvi surətdə vətənlərinə dönməyə məcbur edilməsi də bunun ayrılmaz tərkib hissəsi idi. C.Məmmədquluzadənin yuxarıda adını çəkdiyimiz bədii publisistik oçerkləri də bu həyat həqiqətini əks etdirirdi. Böyük düşüncə və məslək sahibi bu faciəyə laqeyd qala bilməzdi də.

Bununla əlaqədar bir talesizlik əhvalını da xatırlatmaq yerinə düşər. Mirzə Cəlil "Binəsiblər" və "Xeyir-dua" oçerklərini 1905-ci ilin noyabrında, özü də rusca yazmışdı. Tiflisdə bu vaxt ana dilində mətbuat orqanı yox idi. Bütün Qafqazda ana dilində olan yeganə qəzet, "Həyat" qəzeti Bakıda çıxırdı. 1905-ci il noyabrın 20-dən sosial-demokratlar Tiflisdə gündəlik "Qafqazski raboçi listok" qəzetini nəşr etməyə başlamışdır. İnqilabçı demokratların orqanı olan bu qəzet redaksiyası ilə Mirzə Cəlil də əlaqəyə girir. Qəzetin 24 noyabr tarixli 3-cü nömrəsində lap birinci səhifədə "Məmmədquluzadə" imzası ilə onun "Obezdolenniye" sərlövhəli qısa, yığcam, tutarlı, çox böyük tarixi problemə həsr olunmuş siyasi oçerki dərc olunur.



M.Cəlilin söhbət gedən oçerki 5 gündən sonra Bakıda gündəlik "Həyat" qəzetinin 1905-ci il noyabrın 29 tarixli 109-cu sayında "Binəsiblər" sərlövhəsilə dərc edilmişdir. Bu faktı tədqiqatçılar müxtəlif vaxtlarda ya görməməzliyə vurmuş, yaxud da oçerkin kim tərəfindən tərcümə edildiyinin üstündən sükutla keçmişlər. Məsələn, görkəmli ədəbiyyatşünas professor Əziz Şərif 1944-cü il dekabrın 13-də "Kommunist" qəzetində "Cəlil Məmmədquluzadənin bolşevik mətbuatında iştirakı" adlı məqaləsində adı çəkilən məqalələrə ilk dəfə rast gəldiyini yazır. "Obezdolennıye" oçerkinin "Məzlumlar", "Naputstviye"ni isə "Gəldin, yaxşı yol" kimi tərcümə edir. Sonralar "Həyat" qəzetində "Binəsiblər"in dərc olunduğu faktı tədqiqatçılar tərəfindən göstərilir. Lakin "Həyat" qəzetində yazılmış "Mütərcim M.Ə.R-zadə" sözləri yaddan çıxarılır. Halbuki böyük ədibin çox mühüm bir məsələyə həsr olunmuş siyasi oçerkini anındaca oxuyub qiymətləndirməyi bacaran, təcili surətdə ana dilinə tərcümə edib "Həyat"da dərc etdirən gənc milli mücahid Məmmədəmin Rəsulzadə idi. Oçerkin əvvəlində onun verdiyi qısa qeyddə oxuyuruq: "İctimaiyyun-ammiyun (sosial-demokrat) firqəsinə mənsub Qafqaz fəhlə vərəqəsi" ünvanlı qəzetdə "Məmmədquluzadə" cənablarının fövqdə adlanmış mütəəssir (təsirli) məqalələsini oxuduq. Bu binəsiblər nəhayətdə çoxdur".


M.Cəlil talesizləri, binəsibləri nəinki görmüş, onların faciəsinə acımış, həmçinin həyəcan təbili çalmış, müqəssirləri, səbəbləri açıqlamışdı. "Bir tikə çörək qazanmaq üçün vətənini, arvadını və uşaqlarını qoyub qaçmaq" məcburiyyətində qalanların bu milli faciələrdən xilas edilməsi üzərində də düşünmüşdü. Gənc M.Ə.Rəsulzadə də ustad qələm sahibi M.Cəlilin "Mütəəssir məqaləsini" anadilli oxucuya çatdırmağı borc bilmişdi, onunla həmrəy olduğunu nümayiş etdirmişdi.

Talesizlik, binəsiblik, bir tikə çörək dalınca vətəni tərk etmək bəlası indi də xalqımızı təqib etməkdədir. M.Cəlil "Binəsiblər nəhayətdə çoxdur. Tək Zaqafqaziyada yüz minlərcə hesaba gəlirlər" yazırdı. İndi söhbət milyonlardan gedir.

"Ətrafımızda talesizlər və binəsiblər çoxaldıqca adamın öz taleyindən razı qalması çox çətinləşir". Doğru etirafdır. Amma nə etməli? Kimlərdir müqəssir? Ümidimizi kimə bağlayaq göy Allahına, yoxsa M.Cəlilin yazdığı "diri pirlərə"? Yoxsa özümüzün birgə səyinə? Məsələ bundadır.

***"525-ci qəzet"***
***10.01.98.***

## MÜƏLLİM VƏ DOSTUN VİDA SÖZÜ



Allah heç bir valideynə övlad dağı göstərməsin, - demişlər ata-babalarımız. Allah heç bir müəllimə də istedadına, biliyinə, çalışqanlığına, qeyrət və namusuna heyran olduğu, övladı qədər istədiyi tələbə dağı göstərməsin!

İkicə il bundan əvvəl Tofiq Rüstəmovun 60 illik yubileyini ailə çərçivəsində qohumlar və dostlarla birgə mehribancasına qeyd etmişdik. Təbiətcə təvazökar olan Tofiq deyəsən, heç buna da razı olmurdu ki, indi yubileylər vaxtı deyil. Universitetin "Dil və ədəbiyyat" elmi məcmuəsində həddən artıq hörmət etdiyim Tofiq müəllim haqqında ürək sözlərimi qısaca yazdım və jurnalın 1996-cı il 3-cü nömrəsində dərc olundu. Yanvarın 20-də ümumxalq matəmi günü dünyasını dəyişən və əbədiyyətə qovuşan tələbəm və dostum haqqında yazdığım həmin sətirləri təkrar etmək istəyirəm.

"Tarixin və taleyin əsrarəngiz qanunları, təzadları var. Hər nəsil bu intəhasız, əvvəl-axırı bilinməyən əbədi və müvəqqəti həyat adlanan məkanda öz rolunu oynayır, keçib-gedir. Lakin hələlik daimi görünən vətən torpağıdır, xalqdır, maddi və mənəvi mirasdır. Hər kəsdən qalan isə məncə inam və inancdan doğan vətəndaş ad-sanı, doğruluq və dürüstlük, həqiqi milli qeyrət və namusudur. Tofiqin həyat yolunu gözlərim önündə canlandırarkən məhz qəlbimdən, fikrimdən bu hisslər keçdi.

Tofiq Rüstəmov yaşadığımız cəmiyyətin, bizi əhatə edən mürəkkəb ictimai mühitin bütün əsrarəngiz təzadlarına baxmayaraq daim öz müvazinətini, əxlaqi və insani keyfiyyətlərini saxlamağa müvəffəq olmuş, tanınmış alim, müəllim, jurnalist və nadir şəxsiyyətlərdən biridir. Məncə millətimizin varlığını, mədəni simasını hifz edən də məhz bu siqlətli insanlardır. Bu məsuliyyətli sözləri mən elə-belə, gəlişi gözəl demirəm. Fəaliyyətinə yaxşı bələd olduğum, uzun müddət bir yerdə işlədiyim, inandığım və fəxr etdiyim bir həmkarım haqqında qənaətim belədir. Müstəqil Azərbaycanı, onun elmini də, mənəvi dəyərlərini də belə ziyalılar təmsil etməli, yaşatmalıdır. 60 illik yubileyin mübarək, ƏZİZ TOFİQ MÜƏLLİM!"

İndi isə dilim gəlməsə də deməliyəm ki, məzarın nurla dolsun əzizimiz TOFİQ!

***"525-ci qəzet", 24.1.98***



## BİZƏ YAZIRLAR

Məşhur təmsilçi Krılovun "Ayı və şir"ini çoxumuz əzbərdən bilirik. Nə üçün, hansı məqam üçün yazıldığını, nə vaxtlar yada düşdüyünü müəyyənləşdirmək hər kəsin öz işidir. Məsələn, bu günlərdə ekranda bir tragikomik səhnəyə baxanda həmin təmsili başladım əzbər deməyə, amma özüm də bilmədən təmsilçinin bir balaca səhnəyə sığışdırdığı çox böyük mətləblərə görə ona rəhmət oxudum:

***Əlbir olub bir Ayı bir Şirilə,***
***...Ovladılar dövləti tədbirilə,***
***Olmadılar razı onu bölməyə,***
***İş çıxıb indi ölüb-öldürməyə.***
***Çeynədilər, dişlədilər, diddilər,***
***Özlərini efirdə xar etdilər.***
***Dığa uzaqdan görüb bu halәti,***
***Baxır ki, yox heç birinin taqəti...***

İndiki məqamda təmsilin sonu Krılovun yazdığı kimi bitməyib. Baxaq görək axırı nə olacaq? Sonluğu yüz "şirvanlıq" şairlər, yoxsa "çörək puluna möhtac qalan" şairlər yazacaqlar?! Amma hələlik mən öz tərəfimdən 1920-ci il aprelin sonunda Azərbaycanda hakimiyyəti ələ keçirən bolşeviklər Əsgəranda dığaların əngini əzən Azərbaycan əsgərlərini Qarabağdan çıxardığı günlərdə "Qarabağın şair qəsəbəsi Ağdam" küçələrindən müntəzəm addımlarla keçən Cavanşir alayı əsgərlərinin oxuduqları mahnıdan ("Yeni Qafqasiya" jurnalı (1927) bir parçanı xatırlatmaq istəyirəm:

***Qarabağda qan olacaq,***
***Tarixlərə şan olacaq.***
***Bu yerlərdə Moskov deyil,***
***Azərbaycan xan olacaq.***

Şeri indi belə də oxumaq olar:

***Görünür ki, qan olacaq,***
***Tarixlərə şan olacaq.***
***Bu yerlərdə Ayı deyil,***
***Yap-çılar sultan olacaq!***

"Yeni Qafqasiya"da belə bir beyt də var:

***Zənn etmə bu tövr ziyanlı işlər,***
***İmanlı yolçunu yolundan eylər.***

**"525-ci qəzet", 28.1.98**

## O TAYLI BU TAYLI VƏTƏNİN BÖYÜK ÖNDƏRİ

Sabah xalqımızın böyük oğlu, müstəqil Azərbaycan dövlətinin qurucusu, o taylı, bu taylı vətənimizin cəfakeş mücahidi M.Ə.Rəsulzadənin anadan olmasının 114 ili tamam olur. Peşəkar istiqlalçı, bütün həyatını müstəqilliyimiz uğrunda gərgin vuruşlara həsr etmiş, dünyanın hər tərəfinə dağılmış həmvətənlərini vahid bir milli amal uğrunda birləşdirən bu böyük məslək adamının nurlu siması, qoyduğu zəngin irs əbədidir, ölməzdir. Milli istiqlal savaşında, həqiqi demokratik Azərbaycan uğrunda vuruşlarda müvəffəq olmaq istəyənlər M.Ə.Rəsulzadənin müqəddəs prinsiplərindən və göstərdiyi "İnsanlara hürriyyət, millətlərə İstiqlal!" yolundan ayrılmamalıdırlar. Rusiyada, İranda, Zaqafqaziyada demokratik xalq hərəkatının öncül xadimlərindən və bayraqdarlarından sayılan M.Ə.Rəsulzadəni təsadüfi deyil ki, o taylı böyük mücahidlərdən Seyid Həsən Tağızadə "Azərbaycanın Qandisi" adlandırmışdır.

Əsrlərin və nəsillərin təcrübəsi göstərir ki, tarixdə dövlət xadimləri az, dövlətli xadimlər çox olub... Və ikincilər birincilərin yerini tutmaq üçün dəridən-qabıqdan çıxmışlar. Dövlətli xadimlər ailə və yerliçilik mafiyalarının, korrupsiya və rüşvətxorlar dəstələrinə arxalanıb, silah və dəyənək gücünə şan-şöhrət sahibi olmağa can atıblar. Bu vuruş dünyamızda davam etməkdədir. Həm də haqqın və şərrin bu əbədi savaşında bütün vasitələrdən istifdə edilib və edilir. M.Ə.Rəsulzadə 1909-1911-ci illərdə Tehranda "İrani-nov" qəzetinin baş redaktoru olanda xalqı quyruqlu ulduzun gəlişi ilə itaətdə saxlamaq istəyirdilər. İndi əsrin sonunda bizi Rəsul Quliyevin gəlişi ilə qorxudurlar. Gəlin böyük qələm ustadının anadan olduğu gündə onun itaət müsibətilə əlaqədar yazdıqlarını oxuyaq.

***"525-ci qəzet"***
***30 yanvar 1998***



## FƏDAKAR MÜCAHİD, BÖYÜK ÖNDƏR

20-ci yüzillik başa çatır. Əbədi dünyanın daimi və müvəqqəti sakinləri olan bizlər də ikinci minilliyin zirvəsindən geriyə, fəxarətli və faciəli tariximizə ötəri də olsa nəzər salmağa borcluyuq. Yeni əsrə, yeni minilliyə müstəqil dövlət kimi qədəm qoyuruq!

Əlbəttə, ikinci minillikdə dəfələrlə müstəqil dövlət həyatını kərən-kərən yaşamışıq. Ancaq zaman-zaman itirmişik də. Tarix yola saldığımız əsrdə milli dövlətçiliyimizə, müstəqilliyə qovuşmağımıza iki dəfə şans yaratmışdır. Hər ikisindən də istifadə etməyi bacarmışıq! Nəyin bahasına? Başqa məsələdir. Faktdır ki, bacarmışıq! Nəzərə alsaq ki, yaşadığımız dünyada hazırda 3 mindən artıq millət, xalq, toplum sakindir, onlardan yalnız 200-ə qədərinin müxtəlif formalı statuslu müstəqil dövləti mövcuddur. 20-ci yüzilliyin ən böyük kəşflərindən olan Birləşmiş Millətlər Təşkilatının cəmi 185 üzvü vardır. Onlardan biri də Müstəqil Azərbaycan Respublikasıdır! Fəxr ediləsi, öyünəsi deyilmi?!

Anadan olmasının 115 illiyini qeyd etdiyimiz Məmmədəmin Rəsulzadə hələ əsrin əvvəllərində yazırdı ki, "istiqlal verilmir -alınır".

Millət, din və müasir düşüncənin üzvi surətdə birləşməsindən ibarət mühiti yaradan fədakar nəsl də istiqlal uğrunda çarpışırdı.

M.Ə.Rəsulzadə yazırdı ki, "milli Azərbaycan öz bağrından fədakar mücahidlər yetişdirir". Bu sözləri milli siyasi mədəniyyətimizin formalaşmasında əvəzsiz xidmətləri olan, ilk həqiqi milli siyasi partiyamızı - "Müsavat"ı yaradan, onun rəhbərliyi ilə istiqlal savaşını, milli qurtuluş hərəkatını qələbəyə yetirən Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması işinə bilavasitə başçılıq etmiş M.Ə.Rəsulzadəyə mücahidlər mücahidi, dahi Üzeyir bəyin təbirilə desək "qüdrətli vətən övladı"na da şamil etmək olar.

Məşhur azərbaycanşünas alim, dünyaca tanınmış Amerika tarixçisi professor Tadeuş Svyatoxovski M.Ə.Rəsulzadənin XX əsr tarixində tutduğu yeri və mövqeyi səciyyələndirərək yazmışdır: **"Corc Vaşinqton Amerika üçün kimdirsə, M.Ə.Rəsulzadə də Azərbaycan üçün həmin şəxsiyyətdir".**

Məncə nə şərhə, nə də əlavə izaha ehtiyac yoxdur. Tarix gec-tez hər şeyi və hər kəsi öz layiqli yerinə qoyacaq!

***"Açıq söz" qəzeti N1-2,***
***28.1.99***

## İSTİQLAL TARİXİMİZƏ DAİR ÖNDƏR SÖZÜ

**1922-ci ilin payızında bolşevik Rusiyasını gizli şəkildə tərk etdikdən, bütün varlığı ilə sevdiyi və yolunda fəda olmağa hazır olduğu doğma Azərbaycandan uzaqlaşdıqdan sonra, həyatının son anına qədər elə bir il olmamışdı ki, M.Əmin bəy 28 may fütuhatını canıdildən anmasın, xalqının keçmişi və gələcəyi haqqında düşünməmiş olsun, 35 illik siyasi mübarizə dövrü onun əvvəlki mübarizələrlə zəngin 36 illik ömrünün davamı, ayrılmaz hissəsidir. M.Ə.Rəsulzadənin istiqlal mücadiləmiz tarixinə dair, bütövlükdə Azərbaycan tarixinə dair əsərləri öz orijinallığı, elmi nəzəri səviyyələri, obyektiv baxış tərzi ilə seçilir. Onun 1918-ci il 28 may İstiqlal Günü münasibəti ilə qələmə aldıqları da bu qəbildəndir.**

**1954-cü ildə Əmin bəyin 28 maya həsr etdiyi "Azərbaycan davası" əsəri onun son sözü, bir növ vəsiyyəti hesab edilə bilər. Xalqımızın 70 yaşlı müdrik ağsaqqalı, fikir bahadırı Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixini, onun milli müqəddəratımızdakı yerini və rolunu, bu böyuk hadisəni izah və şərh edib qiymətləndirmək, həm də "İnsan və ədalət hissindən ayrılmaq" şərtilə bu tarixin öyrənilməsini məsləhət görürdü.**

**Bu il Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsinin 80 ili tamam olur. Artıq bu barədə rəsmi fərman da elan edilmişdir. Zənnimcə, bu dəfə cümhuriyyət haqqında, o dövrün tarixi hadisələri və şəxsiyyətləri haqqında alim sözü, tədqiqatçı fikri ön planda olacaq, keçmiş siyasətbazların və onların züy tutanlarının, "qələm qoçularının, yaltaqlıq və məddahlıq mərəzinə tutulanların oyuncaq sınaq meydanına çevrilməyəcək. Digər tərəfdən milli mənbələrdən xəbərsiz, hətta yaranmış dövlətin dəqiq adını belə bilməyənlərə də məsləhətdir ki, heç olmazsa M.Ə.Rəsulzadənin bu gün təqdim etdiyimiz "Azərbaycan davası" məqaləsini oxusunlar.**

**Sonda M.Ə.Rəsulzadə irsini səbatla öyrənən gənc həmkarlarım Nəsiman Yaqublunun bu günlərdə hazırlayıb eyni ad altında nəşr etdirdiyi M.Ə.Rəsulzadənin mühacirətdə yazdığı son məqalələrindən ibarət toplunun da çıxdığını oxucuların nəzərinə çatdırmaq istəyirəm.**



## AZƏRBAYCAN DAVASI

**28** may 1918 - Milli Azərbaycan hərəkatının ən böyük günüdür. Bundan 36 il öncə, Milli Şura tərəfindən Azərbaycanın İstiqlalı elan olunmuşdu. Bu tarixdə türk və islam aləmində ilk dəfə, milli xalq hakimiyyətinə dayanan bir cümhuriyyət qurulmuşdur.

Yüz il öncə ayrı-ayrı 9 xanlıq halında çarlığın hakimiyyəti altına düşən Azərbaycan birinci dünya hərbi nəticəsində çökən Rusiya imperatorluğunun ənqazı (xarabalıqları) altından siyasi bir bütöv, bir millət, bir dövlət olaraq qalxdı.

12 ocaq (yanvar) 1920-də böyük dövlətlər tərəfindən istiqlalının tanınması üzərinə, Azərbaycanın davası millətlərarası bir məsələ halına gəldi.

Azərbaycan Cümhuriyyəti sadəcə dünya ensiklopediyaları ilə birinci dünya hərbindən bəri dürlü lisanlarda (müxtəlif dillərdə) nəşr olunan kitab, xəritə və atlaslarda qeyd edilməklə qalmayıb, eyni zamanda böyük-kiçik, uzaq-yaxın, ilgili bütün dövlətlərin arxivlərində Azərbaycan davasına aid dosyelər (sənədlər qovluqları) vardır.

Siyasi "vizit kartoçkası" 1918-də dünyaya təqdim olunan Azərbaycan hərəkatının ömrü sadəcə 36 il deyildir, əlbəttə!

Azərbaycan türk xalqının tarixi gəlişmə seyrində 28 may 1918- siyasi bir olqunluğunun (varlığının) mühüm bir mərhələsidir.

Aləmşümul mədəniyyət dəyərlərinə və dürlü çağlarda yaşanmış siyasi istiqlal və hakimiyyət xatirələrinə malik olan Azərbaycanın tarixi bilxassə Yaxın Şərq islam şərtləri daxilində inkişaf etmişdir. Son yüz il içində bu inkişaf Qafqasiya müqəddəratı ilə əlaqədar olaraq müəyyan özəlliklər ərz etmişdir.

Cümhuriyyətin qurulmasına təqəddüm edən dövrdə (irəliləmək dövründə) Azərbaycan topluluğunda (cəmiyyətində) əsaslı üç fikir cərəyanı formalaşmaqda idi. Bunlardan biri dini düşünüş gərəyincə milliyyət fikrinə xor baxan islami ittihadçılıq (birlik) idi.

Buna müqabil, yenə milliyyət ayrılığını rədd edən kosmopolit bir fikir cərəyanı - sosializm vardı.

Biri sağçı, digəri solçu bu hər iki kosmopolit cərəyana Azərbaycan çərçivəsi daxilində qalmaq çox dar gəlirdi. Azərbaycan məfhumu onları təmin etmirdi. Onlar üçün ya "Rusiyada müsəlmanlıq" ya da "Rusiyada sosializm" vardı. Milli olmayan bu cərəyanların arasında milli Azərbaycan millətçiliyi mərkəzi bir mövqedə bulunurdu.

Tarix və mədəniyyət anlayışında türkçü olan bu millətçi zümrə (ictimai təbəqə) siyasi alanda (meydanda) Azərbaycan muxtariyyət və

istiqlalını hədəf tuturdu.

Azərbaycan türk özəlliyinin (özünəməxsusluğunun) formulunu verən və Rusiya hakimiyyətindəki halında öz müqəddəratlarını müstəqilən idarə etmək tələbini irəli sürən canlı bütün qüvvələr Azərbaycanda "Müsavat", "Xalq firqəsi" ətrafında birləşmiş bulunurlardı.

1911 ilindən bəri gizli fəaliyyətdə bulunub, Rusiyada partlayan inqilab üzərinə, 1917-də təşəkkül edən "türk ədəmi mərkəziyyət firqəsi" ilə birləşən "Müsavat" partiyasının Bakıda toplanan ilk konqresi sadəcə Azərbaycan tarixində deyil, Rusiya məhkumu bütün türk ellərinin yaxın tarixində də mühüm bir hadisə olmuşdur. Qəbul etdiyi proqramda Azərbaycan muxtariyyətini cəsarət sərahətlə (aydınlıqla) təsbit edən bu firqət o gündən etibarən gürcülərdə menşevik, ermənilərdə daşnak partiyaları kimi Mavərayi Qafqasiya (Zaqafqaziya) həyatında Azərbaycan türklüyünü təmsil edən üçüncü bir qüvvə halına gəlmişdi.

Daşnak, menşevik, müsavat isimləri dost, düşmən, bütün dillərdə dastandı. Bu üç ismi təsrif etmədiyi (zamana görə istədiyi kimi dəyişən) bolşeviklər bilxassə sevərlər. Gərək (istər) düşmən, gərəksə Azərbaycandan əlaqə ilə bəhs edən dostlar üçün "müsavatizm" Azərbaycan patriotizminin bir müradifidir (sinonimidir).

1917 ilinin aprelində Bakıda toplanan "Qafqasiya müsəlmanları qurultayı" ilə eyni ilin mayında bütün Rusiya müsəlmanlarının Moskvada toplanan qurultayında bu tezisi müdafiə edənlər "Müsavat" firqəsinə mənsub idi.

Rusiya qurucular (müəssislər) məclisinə keçirilən seçkilər əsnasında bu seçkilərdə iştirak edən Azərbaycan partiyalarından yalnız "Müsavat" firqəsinin bəyənnaməsində Azərbaycan muxtariyyətindən bəhs edilirdi.

Sonra 1918 Mavərayi Qafqasiya (Zaqafqaziya) Seymində eyni Azərbaycan tezisini yalnız "Müsavat" firqəsi ilə "tərəfsizlər bloku" namına oxunan açıqlamada rast gəlirik.

Seymin dağılması üzərinə, Azərbaycan Cümhuriyyətinin istiqlalını elan edən Şurayi -Millidə bütün partiyaların artıq istiqlalçı olduqlarını görürüz.

Azərbaycan davasının yaxın tarixində müəssir (təsirli) bir rol oynayan fikir cərəyanları ilə müəssisələrinin tarixi məsnədləri (dayaqları) bunlardır.

Davamızın yaxın tarixindən bəhs açanların hər şeydən əvvəl, bu abyektiv hadisə və vaqeələr üzərində durmaları lazım gəlir. Böylə yanılsara dava tarixi əsaslara, fikirlərə və fikir müəssəsələrinə bağlanmış olur.



Milli böyük bir davanı şəxslərə bağlamaq və onu parlament və ya hökumətdə bulunmuş olan bir düzənə (nizama) münfərid (tənha) insanların vərəsəlik malı kimi ədd etmə (saymaq) xatalı bir anlayışdır. Şurayi millidən də, parlamentodan da öncə Azərbaycan muxtariyyət və istiqlal fikrini təvəssə etdirən (vüsətləndirən) və bunun sağdan-soldan gələn bütün müxalifətə qarşı savunan (müdafiə edən) bir müəssisənin varlığını inkar və ya ehmal etmək (saymazlığa salmaq) milli davaya zərərdən başqa bir şey verməz.

Davamızı fikir müəssəsələrinə deyil, münfərid (tək-tək) şəxslərə bağlayanlar, mənsub olduqları millətin inkişaf etməmiş ibtidai bir cəmiyyət olduğunu belirtmiş (müəyyan etmiş) olduqlarının fərqində olmayanlardır.

Davamızın yaxın tarixini, tariximizdəki fikir müəssəsələrindən (idarə və təşkilatlardan) təcrid edərək izaha qalxışanlar, bilərək və ya bilməyərək, tarixi təhrif edənlərin ta özləridir.

Tarixdə fikirlərin əhəmiyyəti var da şəxslərin heç bir dəyəri yoxmudur? Əlbəttə vardır. Fəqət, bu dəyər şəxslərin fikirlərə sədaqətləri və fikir müəssəsələrinə bağlılıqları nisbətindədir. Bu sədaqət və bağlılığın şəkil və dərəcəsi ancaq, bir şəxsi bir şəxsiyyət mərtəbəsinə ulaşdırır.

Tarixdə dəyər və əhəmiyyət kəsb edən şəxslər, işdə müəyyən fikir cərəyanlarına və müəssisələrinə bağlanan, onların simvolu olan şəxsiyyətdir.

Davamız anılarkan onu hal-hazırda yalnız "Üç kişi"nin baqi (daimi) qaldığı siyahıya bağlamaq və bu yaşayanları o ölənlərin siyasi yeganə varisi kimi görmək sağlam bir düşüncənin əsəri sayıla bilməz, təbii!..

Davamız Azərbaycan davasıdır; bu, tarixi və milli bir davadır. Yuxarıda qeyd etdiyimiz kimi, bu davanın tarixi fikir müəssəsələri və onların qanları ilə, canları ilə təqdis etmiş qəhrəmanları vardır. Bu qəhrəmanlar sadəcə Milli Şura, parlament və ya hökumətə mənsub olan şəxslərə inhisar etməz. İçərilərində milli ideala, Azərbaycan fikrinə, yəni davamıza xəyanət etmiş olanların da təəssüf ki, bulunduğu bu təşəkküllər xaricində, şairimizin "buzlu cəhənnəm" dediyi sürgün yerlərində şəhadət camını içən, Xəzərin qanlı sularında ayaqlarına daşlar bağlanaraq boğdurulan neçə qurbanlarımız, şəhidlərimiz vardır.

Sadəcə hökumət və ya parlament üzvü olmaq, insana özəl (xüsusi) bir imtiyaz və şərəf verməz. Əsil imtiyaz, əsil şərəf ideyaya sədaqətdə və ona hüsniyyət və səmimiyyətlə bağlı qalmaqdadır.

Parlament və hökumət xaricində:

Firidun Köçərli

Piri Mursəlzadə

İslam Qabulzadə
Mirzə Abbas
müəllimə: Vəsilə xanım
Qasımzadə, Qasım bəy
Rəfibəyli Xudad bəy
şairlər: Hüseyn Cavid
Əhməd Cavad
Gənc tələbə və zabitlərdən:
Ağa Kərim Əlizadə
Ağa Səlim Rəhimzadə
Salman Rəhimzadə
İbrahim Axundzadə
doktor: Dadaş Həsənzadə

və başqaları kimi, nam-nişanı (ad-sanı) yada salınmayan daha neçə qurbanlarımız və şəhidlərimiz vardır.

Azərbaycan cəlladı Bağırovun bir raportunda qeyd olunduğu kimi 52-dən ziyada qanlı xalq üsyanlarında fədakarane ölən minlərcə igid partizanlarımızı da unutmayalım.

Gənc ordumuzun şəhid komandanları:
Həmid Qaytabaşı
Süleyman Paşa Sulkeviç
Dilxas Murad Gəray
İbrahim Ağalar
Səlim Həbib

bəyləri və bir çox digərlərini də zikr edəlim - yada salalım. İsimləri və xatirələri hamımıza əziz olan:

Fətəlixan,
Nəsib bəy
Həsən bəy,
Səmədpaşa
Əbuzər bəy
Məmməd Bağır bəy,
Müseyib bəy
Murtuza bəy,
Rəhim bəy

və başqaları kimi keçmiş və milli iradəyə xəyanət etmiş Qarayevlər, Qarabəyovlar kimi bədbaxtlar da, təəssüf gi, parlamentin üzvləri olmuşlardır.

Ümumi bir xülasə yapılarkən, ana fikir müəssəsələrindən və bunları təmsil edən şəxslərdən bəhs etmək qaçınılmaz bir zərurətdir.Tarixdə isimlərini fikir müəssəsələri ilə sımsıxı bağlamış şəxsiyyətlər vardır. Bunlardan bəhs etmək qədər təbii və normal bir şey ola bilməz. Bu bütün fəaliyyətləri bir tək şəxsə ətf etmək demək deyildir, əlbəttə!..



Davanı əsas fikir sistem və müəssəsələrindən ayıraraq, avtomatik surətdə, müəyyən dövrdə, rəsmi hər hansı bir sifət və ya ünvan daşımış insanlara ancaq bağlarsaq, fani olan bu dərdlərin meydandan qalxmasıyla dava da bitmiş olur. Halbuki, Azərbaycan davası belə üçbeş kişinin həyatı ilə ölçüləcək bir dava deyildir. Onun şühəda (şəhidlər) qanı ilə təqdis (sitayiş) edilmiş fikir müəssəsələri vardır. Bu müəssəsələr baqidir (əbədidir). Azərbaycan parlamentini də, hökumətini də doğuran bu fikir sistemi, qırmızı istila altında bilxassə qüvvətlənmiş gənc nəslin müqaviməti ilə çəlikləşmiş və mühacirətdə illərdən bəri davam edən mücadilə sayəsində açıq formulunu bulmuşdur.

Milli nəşriyyat və müəssəsələr tərəfindən bu davanın ideoloji bütün səhifələri incədən-incəyə işlənmişdir. Böylə bir hərəkatın müqəddəratı, şübhəsiz ki, üç-beş faninin həyatına münhasir (həsr edilib) qala bilməz.

Bütün ciddi davalar kimi, Azərbaycan davasının da qüvvət və həyatiyyəti, bu böyük fikrin, istiqlal ideolojisinin nəsildən-nəslə keçməsindədir.

Yeni nəsil, əski nəslin savunduğu (müdafiə edib qoruduğu) idealı mənimsər və bu ideal uğrunda çalışmış başlıca fikir müəssəsə və şəxsiyyətlərini idealizə edərsə bunu, dava naminə, müsbət bir hadisə olaraq qəbul etməliyik.

Yaxın tariximizdə davanı haqq ilə təmsil edən fikir müəssəsələrini ehmal ilə sadəcə münfərid şəxslərə mal etmək, Azərbaycan cəmiyyətini inkişaf etməmiş ibtidai səviyyədə olduğunu söyləmək olur, halbuki, 1918-də istiqlalını elan edərkən, Azərbaycan türklüyü, siyasi fikir cərəyanlarına malik yetişmiş bir cəmiyyət idi. Orada Rusiya əsarətindəki bütün türk topluqlarına (ictimaiyyətlərinə) örnək olacaq milli demokratik ideologiyası ilə siyasi bir firqə vardı ki, türklüyün federalist cərəyanını təmsil edirdi.

O zamankı şərtlər daxildə türkçülüyün "Müsavat" firqəsində təmsil olunan bu cərəyanı, hadisələrin gəlişməsi ilə Türkiyədə Atatürk Cümhuriyyətinin, əski Rusiyada isə dürlü türk cümhuriyyətlərinin qurulması ilə həyatiyyətini isbat etmişdir.

Bulunduğumuz mühacirət şərtləri daxilində, Azərbaycan davası naminə birləşmək, milli davanı yaşatmış və ya yaşadan fikir sistem və müəssəsələrinə hörmət etməklə olur. Bunun üçün hər türlü kiçik hesablardan və mərəzi hisslərdən sıyrılaraq ana fikrə önəm vermək lazımdır.

Yaxın keçmişi inkar və mütəxəss (tanınmış) ideya və şəxsiyyətləri çürütmək cəhdi ilə meydana atılanlar, bilərək və ya bilməyərək, böyük davanı kiçildənlərdir. Bu xüsusda hamımızın titiz (prinsipial) və diqqətli olmamız icab edər.

Bunu bilməliyik ki, davamız fani (gəldi-gedər) üç kişinin inhisarına alınacaq qısır bir dava deyildir. O, nəsildən-nəslə dövr edilən fikir müəssəsə və şəxsiyyətlərinə sahibvələd (məxsus) bir davadır. Təcrübəli böyükləri ilə dəliqanlı gənclərini qopmaz ideal və fikir təsanüdü ilə birbirinə sımsıx bağlayan bir dava!..

Dünkü idealçı nəsil ilə bu günkü idealçı nəsli bir-birinə bağlayan, bundan 36 il öncə, 28 may 1918-də İstiqlal Bəyannaməsini intac etdirən (Zühura gətirən) böyük fikir hərəkatıdır.

İstər ölmüş olsun, istər həyatda bulunsun, istər yaşlı olsun, istər gənc olsun, bütün azərbaycanlıların bu müəzzəm (böyük) hərəkatdakı mövqe və şərəfləri, əsas ideolojiyə göstərdikləri və ya göstərəcəkləri sədaqət, bağlılıq və hizmətləri ilə mütənasibdir.

Bütün məsələ, bu xüsusda titiz (prinsipial) davranmaqla bərabər, mötədil bir ölçüyə malik olmaq, hadisə, müəssəsə və şəxsiyyətləri təqdirdə vətənsevərlik icabı olaraq, ədalət və insaf hissindən ayrılmamaqdır.

**M.Emin Rəsulzadə**
*"Azərbaycan" jur.*
*May-iyun 1954, N-2-3 Ankara*

**"525-ci qəzet" 7 fevral 1998**





## NƏRİMANOV VƏ "ATA", "VƏTƏN BAŞI" DEYİB KƏLLƏ VURANLAR

**Bəşəriyyəti min illər boyu təqib edən bioloji xəstəliklərlə yanaşı ictimai-siyasi mərəzi hisslər, itaətkarlıq, qorxu və istibddadan qaynaqlanan şəxsiyyətə pərəstiş azarı, fanatizm bəlası da müşayiət etmiş və etməkdədir. Qərb 20-ci yüz illiyin sonuna doğru həqiqi demokratiya, insana hörmət, onun hüquqlarına sayğı, hüququn üstünlüyü prinsiplərinə rəvac verərək pərəstiş bəlasını önləyə, qarşısını ala bilmişdir. Bu proses şəxsiyyətə hörmət, təcrübəli böyüklərə inam, "istər həyatda bulunsun, istər bulunmasın, istər yaşlı olsun, istər gənc olsun" anılma ənənəsi ilə təzad təşkil etmir. Məsələ M.Ə.Rəsulzadənin də qeyd etdiyi kimi "bu xüsusda prinsipial davranmaqla bərabər mötədil bir ölçüyə malik olmaq, hadisə təşkilat və şəxsiyyətləri təqdirdə vətənsevərlik icabı olaraq, ədalət və insaf hissindən ayrılmamaq" şərtindədir.**

**Bu baxımdan 80 il bundan əvvəl N.Nərimanovun "Hümmət" qəzetinin 13 fevral tarixli nömrəsində dərc olunmuş "balaca felyeton"u hədsiz maraq doğurur. Şimalda Leninin "dahi rəhbər" kampaniyasını bütün gücü ilə qızışdıranlar, İranda "ata", "vətən başı", - deyib nalə çəkənlər doktor Nərimanı narahat edirdi. O, bu ictimai-siyasi xəstəliyi görür və belə hallara qarşı mübarizənin vacibliyini də hiss edirdi. Felyetonun sonluğuna diqqət verin: "İndi mən çaşıb qalmışam: bilmirəm "Ədalət" firqəsimi vətəni çox istəyir, yainki ölü cəmdəyə yüz kəllə vuranlar".**

**Doktor Nərimanov nə biləydi ki, sonralar kəllə vuranların, boğaz yırtanların yeni bir nəsli onun elə öz vətənində də yenidən peyda olacaq, hətta yarışacaqlar da.**

## BALACA FELYETON

*Mən gərək ki, uşaq idim, yadıma gəlir iranlıların bir padşahı vəfat etmişdi. Camaat dəstə-dəstə konsulxanaya yığılırdı. Bu dəstələr yolda gedə-gedə sinələrinə vururdular, ağlayırdılar: "Vay atasız qalan canımız, vay! Başsız qalan vətənimiz vay!" deyərdilər.*

*Sonra mən tarixdən-zaddan oxudum gördüm ki, haman bu "ata", bu "vətən başı" vətənindən, oğul-uşağından sərgərdan düşmüş, quru yerlərdə, quyularda can verən iranlı fəhləsinin qan-təri ilə qazandığı pulları bu "ata", bu "vətənin başı" fransız qızlarına yedirdirmiş. Bu "ata", bu "vətən başı" vətəni elə bir dərəcəyə gətirmiş imiş ki, camaat sevgili vətənindən qaçırmış.*

*Daha bir çox şeylər bu "ata"nın barəsində oxudum. Mən öz-özümə deyirdim. Hər gah doğrudan da tarix yazan şeylər düzdürsə bu "ata" vətənin əvvəlinci xaini gərəkdir hesab oluna idi. Göz yaşı ilə islanmış İranın torpağı çoxdan gərək idi bunun üstünü örtə idi, bunu öz altında bərk-bərk basdıra idi.*

*Bununla belə bu "ata"nın vəfatında bədbəxt, vətəni tarmar olan camaat sinəsini açıb vururdu, göz yaşı tökürdü. "Atasız, sahibsiz, köməksiz qalan canım vay!" deyib ağlayırdı!?"*

*Sonralar Məhəmmədəli faciələri meydana gəldi. İranlılar bütün cahana az qalmışdı göstərsinlər ki, bunlar daha hüquqlarını düşünüblər, bunlar vətən xainlərindən ötrü nəinki, göz yaşı tökmək istəmirlər, hətta onları özləri topa bağlamağa hazırdırlar...*

*Bu da bir çovğun, yel idi, əsdi getdi. Bu da bir qəzəbli sel idi, aşdı-daşdı. Fəqət bu yel və seldən sonra "İsmailiyyə" binasında iranlıların iclasını görüb yenə də şaşdım qaldım.*

*"Biz konsulu istiyor, biz konsulu və üsul-idarəsini axır nəfəsimizədək müdafiə edəcəyiz, biz "Ədalət" firqəsi-zad tanımırız, hanı o "Ədalət" firqəsini meydana gətirənlər, veriniz onları bizə, biz həmin bu "İsmailiyyə" zalında onların dillərini ağızlarından çıxarıb yerə atarıq, tainki, bir də bildikləri, düşündükləri şeyləri intişar edə bilməsinlər..." Ədalət" firqəsinin bildiyi, düşündüyü budur: camaat gərəkdir özü-öz dərdinə qala. Bu da o vaxt olar ki, hökumət camaatın ixtiyarına keçə. İndi "İsmailiyyə" zalında yığılan "camaat"da deyir: bu sözləri kökündən gərək yox edək, yəni elə bir üsul-idarə ilə vətəni dolandırmaq ki, İranın "atası" öləndə bu camaat yenə küçələrə düşüb sinəsinə vursun, "sahibsiz canım vay" - deyib ağlasın...*

*İndi mən çaşıb qalmışam: bilmirəm "Ədalət" firqəsimi vətəni çox istəyir, yainki, ölü cəmdəyə yüz kəllə vuranlar.*

**Arı bəy (N.Nərimanov)**

*"Hümmət" qəzeti, 13 fevral 1918, N 31*



## İKİ SİFƏT

*İnsanlar iki bir-birilə zidd olan sifətlər arasında olaraq hər kəs öz təbiətinin və tərbiyəsinin xahişincə bir tərəfi qəbul edib.*

*Məsələ: "adil-zalim", "aqil-nadan", "alim-cahil", "ittifaq-nifaq", "ağqara", "azadtələb-xuliqan", "qoyun-qurt", "ağa-fəhlə" və i. a...*

*Millət və vətən uğrunda çalışaraq əlvan qanını həqqaniyyət üçün axıdıb həlak olan vətəndaşlarımızın yollarını bağlayan və öz azad olmağı üçün maneət və nifrətlər ilə yad olunmalı fikirləri ilə bir milləti, bir vətəni fənaya verdikdə onun ətrafına cəm olmuş həmməsləkləri xoşhal olmazlarda nə olarlar? Və habelə zalim-adil ilə, nadan-aqil ilə daima vuruşmadadır.*

*Odur ki, tədarükatımız pərakəndə və binalarımız məxruqiyyətə (dağılmağa) üz döndərib. Odur ki, gah yaxşı sifət pis sifətə, gah pis sifət yaxşı sifətə qalib gəlməkdədir.*

*Bunlardan əlavə olaraq bir parə vücudlar da var ki, üzlərinə maska taxıb yelkən gəmisi kimi yel hansı tərəfə əsdi, o tərəfdən getməkdədirlər.*

*Əcəba öylə zatların zahiri insan, batini şeytan deyilmi? Işıq və baharı təzə görmüş və onların varlığına möhtac olan güllər həcərində onları həlak edən həşərat nə olar? O gül və çiçəklərə o həşərati - iftizah (biabırçılıq - Ş.H) lazımmı? Haşa!*

*Bəs belə olan surətdə işığı zülmət edib bahar mövsümündə açılmış gülləri xəzan yelləri əsdirib fəna edərək onların məqsədini puç edən ədnaların (yaramazların - Ş.H.) arzusu və məqsədi nədir?*

*Onların arzusu və məqsədi budur ki, vətəni bərbad edib fəqət öz nəfisləri üçün şən qazansınlar.*

*Bədihdir ki, bu növ zatlar heç bir pak olan millətə və vətənə və heç bir insaf sahiblərinə layiq və lazım deyillər. Çünki, onlar xadim sifəti ilə maskalanaraq aləmi-insaniyyətə zərbələr vurmaqdadırlar.*

*Onlar xadimdir? Fəqət bayquş kimi banlamağa öz arzularının başa gəlməsi üçün dünyamızı qan dəryasına döndərməyə, nəinki, məxrubiyyəti (xarabalığı) əbədiyyətə, qanlı müharibəni sülh ilə başa gətirməyə çalışanlardır. Gözəl məsəldir ki, deyərlər: "Bir dəli quyuya bir daş saldı, onu yüz ağıllı çıxara bilmədi".*

**M.H.**

*"Bakı həyatı", avqust 1912, N2*

**"525-ci qəzet", 12 fevral 1998**

## MÜQƏDDƏS ADLAR, İSTİQLAL MÜCAHİDLƏRİ UNUDULMASIN KƏRƏK!

Çox böyük həssaslıq, sarsılmaz inam, heyrətamiz analitik təfəkkürlə yazılmış və dərc olunmuş aşağıdakı məqalənin müəllifi mənə məlum deyil. Baş məqalədir, imzasızdır. Məcmuənin məsul müdiri doktor Əhməd Yaşat, təsisçisi Azərbaycan Kültur dərnəyidir. 1952-ci ildən M.Ə.Rəsulzadənin yaratdığı məcmuənin 1956-cı ildə Azərbaycan İstiqlal gününə həsr olunmuş qoşa 2-3-cü nömrələrində dərc olunmuş digər yazıları sizə xatırladıram: "Molla Nəsrəddin" əlli il əvvəl intişar etmişdir" (Mirzə Bala), "Milli bayrağımıza" şer (Əhməd Cavad), "19 mayıs gənclik və spor bayramı" (A.V.Y), "Bağırovun edamı" (Vahab Yurdsevər), Şeyx Sənan" mənzum pyes (Hüseyn Cavid), "Bir edamdan alınacaq dərs" (Əli Azərtəkin), "Azərbaycan istiqlal savaşından səhnələr" (A.Vahab Yurdsevər), "Hop-hopnamədən parçalar" (M.Ə.Sabir), "Azərbaycan el ədəbiyyatından örnəklər" (Nəcdət Tamer), "27 nisan (aprel) münasibəti ilə İstanbulda yapılan ixtilaf", "Köçmən türklərin milli oyun göstəriləri" (Əziz Üzər), "Azərbaycan gecəsi", "Xalama" (şer) (Turan Daşdəmir), "Azərbaycana həsrət" (Nəsrin Öztəmir), "İktibaslar".

*Fikirləşirəm ki, 1956-cı ilin may-iyun aylarında bizlər nə yazırdıq, nəyi təbliğ edirdik, mühacirətdəki ziyalı mücahidlərimiz hansı müqəddəs amal və qayə ilə yaşayırdılar. Fərq yerlə göy qədərdir. Tarix və zaman biz tarixçilərin XX əsrə aid yazdıqlarımızı istisnalarla göyə sovurdu, yelə verdi. Doğrudur, alınmış elmi ad-sanlar indi də çoxumuzda durur. Bəzilərinin alimlik iddiaları, bəlkə də qaytardılar xülyaları da yaşamaqdadır. Hazıra nazir olanlar, əqidə və inanclarını deyil, siyasi adlarını dəyişənlər, dövrə uyğunlaşanlar, yeni məfhumlarla danışmağı bacaranlar hələ ki, hakimiyyət zümrəsində fəxri yerlər tuturlar. İstiqlalçıları lənətləyənlər, təqib və təhdid edənlər müstəqillikdən dəm vururlar. Bəzilərı az qalır ki, lap beşikdən türkçü, istiqlalçı olduqlarını bəyan etsinlər. Vaxtilə, hətta kölgələrini qılınc1adıqları, bu zəmində Moskvaya, kommunist ideologiyasına hər an sədaqətlərini nümayiş etdirənlər, indi istiqlal taxtında fəxri yer tutmaq üçün ləyaqət və savaddan kəm olanların əli ilə həmin dövrün müqəddəs sayılacaq dövlət və siyasət adamlarının ünvanlarına iftira və böhtanlar yağdırırlar.*

*Azərbaycanın XX əsr tarixi başdan ayağa milli intibah, milli istiqlal, müstəmləkə əsarətinə, ideoloji fanatizmə, inzibati amirlik sisteminə, hər cür diktaturaya qarşı həqiqi azadlıq, demokratiya və suverenlik uğrunda mübarizələr əsridir. Bu milli davanın öndərləri milpi Azərbaycan məfkurəsini işləyib hazırlayanlar, onu Azərbaycan Xalq Cümhuriyyətinin timsalında həyata keçirənlər, bütün həyatlarını bu müqəddəs amal yolunda fəda edənlərdir. Təəssüf ki, indi onları arayıb-axtaranlar, hətta məslək və əməllərini mühaciretdə davam etdirənlərin bir qismini belə saya salanlar yoxdur. Başları hakimiyyət və mülkiyyət davasına qarışan keçmiş kommunistlərdən əslində belə bir addım gözləmək də yersizdir. Hələ dünyanın bir sıra ölkələrindəki məzarıstanlarda uyuyan vətən xadimlərini demirəm. Müstəqil cümhuriyyətimizin 80 illik yubileyi ərəfəsində bu barədə düşünməmək olmur. Axı onlar təqdim etdiyimiz məqalədən də göründüyü kimi, belə düşünürdülər ki, düşmən nə yaparsa yapsın və nə düşünürsə düşünsün, digər məhkum türk ölkələri ilə birlikdə Azərbaycan da yenə bir gün öz hürriyyət və istiqlalına qovuşacaqdır".*

*Altı ildir ki, nəsillərin, istiqlal mücahidlərinin arzusu çin olmuşdur. Amma mahiyyətcə bir qrup nəzərə alınmazsa, xalqın geniş kütləsinə qaçqınlıq və köçkünlük, əzab-əziyyət, maddi və mənəvi təzyiqdən başqa real bir pay düşməmişdir. Əksinə, ümidsizlik, inamsızlıq, itaətkarlıq ruhu bərqərar olmaqdadır. Süni surətdə şadlıq və toy-bayram əhvalı yaratmaq istəyənlər, hər şeyi öz arşınları və həyat tərzi ilə qiymətləndirmək xülyasına düşənlər yanılırlar.*

*İqtidarda meydan oxuyan, xalqa ağıl-kamal öyrətmək istəyənlərin kimlər olduqları son zamanların ifşalarında bütün çılpaqlığı ilə üzə çıxır. Əslində bu, hələlik dairədən ilk qoparılanlardır. Dairənin əsas oyunçuları isə əl-ələ verib bərk durmaq meylindədirlər. Onlar saydıqlarını saysınlar, görək fələk nə sayacaq!*



## VAR OLSUN MİLLİ AZƏRBAYCAN MƏFKURƏSİ!

Azərbaycan istiqlalının Milli Şura tərəfindən elan edildiyi 28 may 1918-ci il tarixindən bu günə qədər 38 il keçmiş olduğu halda, bu böyük hadisənin bu gün yaşayır kimi güvən dolu bir inamla gələcəyə doğru baxmaqdayız. Çünki bu böyük tarixi gün bizi bir millət olaraq, bir dövlət olaraq dünyaya tanıtmışdır. O gündən bəri artıq özümüzü hər növ siyasi, iqtisadi müstəqillik haqlarına malik bir millət olaraq hiss etməkdəyiz.

1920 sənəsi 27 aprelində bu müqəddəs müstəqillik haqlarımızın işğalçı ruslar tərəfindən çeynənmiş olması hüququ vəziyyətimizdə heç bir dəyişiklik yarada bilməz. Çünki bir haqq qəsb edilməklə haqq olmaqdan çıxmaz! Əksinə, qəsb olunan bir haqq bəşəri vicdanın daha qüvvətli himayəsinə nail olur.

Azərbaycan istiqlalını qeyb etdikdən sonra, mədəni dünyanın mənəvi rəğbət və himayəsinə daha artıq nail olmuşdur. Zira, bütün dün-

ya, milli istiqlal uğrunda durmadan və qorxmadan döyüşən oyanıq və şüurlu bir millətin dipdiri ayaqda durduğunu və haqlarından heç bir surətlə vaz keçmək istəmədiyini görməklə bu şanlı mücadiləni təqdir və heyranlıqla qarşılamaqdadır.

İstiqlal və suverenlik haqları qəsb edilən millətlərin ilk sıralarında Azərbaycanın adı anılmaqda və bütün dünyada azadlıq nizamının qurulması üçün aparılan ümum-bəşəri savaşda yurdumuzun yeri və önəmi təqdir edilməkdədir.

Bu günkü dünya bir-birinə düşmən iki cəbhəyə ayrılmışdır: kommunist və demokratiya cəbhələrinə. Bu iqi cəbhənin uzun müddət bir arada yaşaması imkanı təsəvvür edilə bilməz. Çünki hər iki cəbhə bir-birini hər baxışdan inkar etməkdədir. Həyata keçirilən siyasi manevralar və yapılan müxtəlif dostluq təzahürləri bu haqiqəti əsla dəyişdirə bilməz.

Azərbaycan rus məhkumu digər millətlərlə birlikdə, ta qurulduğu andan etibarən mədəni dünya cəbhəsində və demokratiyalar tərəfində heç tərəddüd etmədən öz yerini almışdır.

Biz sadəcə qazandığımız və bütün dünyaya rəsmən tanıtdırdığımız qanuni haqlarımızın ifadəsini tələb edirik. Azərbaycan felən və hüquqən qurulmuş və tanınmış bir dövlət statusuna malikdir. Bu statusu heç bir qüvvət inkar edə bilməz.

Azərbaycan bütün Qafqasiya ilə birlikdə 1918 sənəsi İstiqlal Bəyannaməsi ilə əbədi surətdə Rusiyadan ayrılmışdır. Rusiyanın Qafqasiya üzərində qanuni heç bir haqqı olmamışdır. Qafqasiyada bulunan və ya bundan sonra gələcək hər hansı bir rus qüvvəti yalnız imperialist qəsbkar bir qüvvət olaraq orada cəbr və zülmə dayanaraq müvəqqəti yerləşə bilər. Rusluğun nə Qafqazda, nə Türküstanda, nə Krımda və nə də digər məhkum ölkələrdə heç bir kökü olmamışdır və bundan sonra da olmayacaqdır.

Rus məhkumu ölkələrdə hər rus əsgəri yabançı və qəsbkar bir idarənin nümayəndəsi olaraq tanınmaqdadır. 38 sənədən bəri ardı-arası kəsilməyən üsyanlar və mücadilələr bunu isbat etməkdədir. Quzey Qafqasiyada və Krımda yapılan ümumi sədlər əlbəttə, bu durumda heç bir dəyişiklik əmələ gətirə bilməz. Bu sədlər və qətliamları yapanlar gec-tez bəşəri ədalət məhkəməsinin hüzuruna sövq ediləcəklərdir.

Düşmən bu 38 sənə zərfində Qərb dünyasının dözümlülük və yumşaqlığından süi-istifadə edərək Asiya və Avropada bir çox yeni məmləkətləri qəsb etmək və ya nüfuzu altına almaq surətilə hərəkətini genişlətmişsə də, ideoloji sahədə təzaddan-təzada düşərək sənaye və kənd təsərrüfatına tətbiq etdiyi üsulların bir-birinin arxasınca iflas etməsi nəticəsində siyasi və iqtisadi baxımlardan çıxılmaza girmişdir.

Bolşevizmin dünya inqilabı pərdəsi altında müəyyənləşmiş Avropa və Asiyaya hakimolma siyasəti istənilən nəticəni verməmişdir. İş o yerə



gəlmişdir ki, bu gün Sovet Rusiyası 25 illik Stalin dövrünü və öz tarixini inkar etməkdə və bütün dünyanın ona qarşı yönəlmiş mənəvi baykot və nifrətini bir qism də olsa yayındırmaq məqsədi ilə bir-birilə uyuşmayan siyasi manevralara və yalançı sülh təbliğatına təvəssül etməkdədir.

Öz qurucularını və ən fəal öndərlərini dircə-dircə və toplu bir halda 38 ildən bəri gülləyə tuş edən Sovet rejimi daxildəcə xaricdə heysiyyət və etibarını sürətlə qeyb etməkdədir. Rusiyada Lenin ilə birlikdə Sovet rejimini qurmuş və yaşatmış olan bütün kommunist partiyası və hökumət rəhbərləri Stalin və arkadaşları tərəfindən edam edilmiş olduğu kimi, dünən və bu gün də Azərbaycana, Şimali Qafqaza, Gürcüstana, Türküstana, Ədil-Urala, Krıma, Ukraynaya, Belorusiyaya və digər məhkum məmləkətlərə xəyanət edərək Moskvaya alət vəzifəsini görmüş olan vəzifə və mənsəb sahibi bütün kommunistlər tarixin amansız qədəri nəticəsində özləri öz hamiləri tərəfindən gülləyə tuş edilmiş və edilməkdədirlər.

Qısası düşmən öz-özünü təmizləməklə, öz-özünü yox etməklə məşğuldur. Dəmir pərdə arxasında məchuliyyət və riyakarlıq sisinə bürünərək öz rejimini sağlam və istiqrarlı göstərmək istəməyən Sovet Rusiyası həqiqətdə əmin addımlarla süquta doğru yuvarlanmaqdadır. Sözdə, işə marksizimlə başlayan bolşeviklər, onu tamamən təhrif edərək leninizmə çevirmişlər, sonradan bu sonuncusunu da Stalinizm qəlibinə soxaraq Stalinin ölümündən sonra onu da lənətləyərək buraxmış və marksizm-leninizmi yenidən təfsirə tabe tutmaq surətilə, indilik adını açıqca tapmamış olduqları halda xruşşovizm yoluna sapmışlardır.

Beləcə, Sovet idarəsinin başçıları getdikcə yolu da dəyişir. Kommunizm əski mahiyyətini tamamilə qeyb etmiş və rus imperializminin kor bir aləti halına gəlmişdir.

Bildiyimiz və tanıdığımız hansı milləti ələ alacaq olursanız, hər biri öz hürriyyət və istiqlalı uğrunda əsirlərcə qorxmadan döyüşmüşdür. 38 il tarix məhvərində uzun bir zaman ifadə edə bilməz. Hürriyyət və istiqlal məfhumu və davası zamanla bağlı deyildir. Bu mütləq bir haqdır.

Düşmən nə yaparsa yapsın və nə düşünürsə düşünsün, digər məhkum türk ölkələri ilə birlikdə Azərbaycan da yenə bir gün öz hürriyyət və istiqlalına qovuşacaqdır. Bu dəyişməz bir qayəmiz və yolumuzu daim işıqlandıran sönməz bir məşəlimizdir.

Yaşasın 28 may!

Var olsun Milli Azərbaycan məfkurəsi!

***"Azərbaycan" jur, may-iyun 1956,***
***N 2-3 (50-51), Ankara.***

**"525-ci qəzet", 19 fevral 1998**

## KÜLƏK YARADANLAR MÜTLƏQ TUFANA DÜŞÜRLƏR

"Sovet Azərbaycanına başçılıq edənlər tərəfindən neçə yüz min şəxsin həyatının məhv edildiyini hesablamaq çətin və bəlkə də qeyri-mümkündür". Tarixi ittiham səciyyəli bu sözlərin müəllifi müəmmalı bir şəkildə aradan götürülən və qatilləri məchul, bu günlərdə 75 yaşı tamam olan akademik Ziya Bünyadova məxsusdur. Doğrudanda vaxtilə "qırmızı terrorun", onun müasir davamçılarının xalqın və onun ziyalılarının başına açdıqları oyunlar, faciələrin üstü tam mənada açılmamış qalır. Açılmağa da qoymurlar. Arxivlərdə, məxfi seyflərdö, üstüörtülü sənədlər, mərkəzə göndərilmiş məxfi dosyelər, cinayətkar planlar, siyahılar yatıb qalmaqdadır. Nə qədər ki, əsri düşmənlərlə əlbir olub öz həmvətənlərinə, onu düşünən qeyrətli nümayəndələrinə qarşı "qırmızı terroru", xəyanət və zülmü həyata keçirənlər və onların yetirmələri meydandadır, Azərbaycanda demokratik üsuli-idarənin bərqərar olacağına və yeni açıqlamalara ümid bəsləmək də əbəsdir. Ziya Bünyadov yazırdı qi, "külək yaradanlar tufana düşürlər". Bu istiqlal tufanını yaratmaq üçün səy göstərənlərdən biri də elə Ziya Bünyadov özü idi. Aradan götürdülər. Son illərdə Azərbaycanda cərəyan edən hadisələri diqqətlə, tərəfsiz bir şəkildə müşahidə edərkən belə bir yəqinlik hasil olur gi, əsrin əvvəlki onilliklərində olduğu kimi, əsrin sonuncu onilliyində də qarşı-qarşıya duran qüvvələrin ön cəbhəsində yenə də əsl istiqlalçı müsavatçılar və avtoritar kommunistlər dururlar. Fərq bundadır ki, yeni müsavatçılar əski müsavatçılar kimi hələ ideya-siyasi və təşkilati cəhətdən möhkəmlənməyib, xalqın böyük qismini öz arxasınca apara bilmirlər. Əslində buna imkan vermirlər. Kommunistlər isə demokratiya cildinə girib, dövrə uyğunlaşıb inzibati-amirlik sistemini başqa adla bərqərar etmişlər. Z.Bünyadov yazırdı: "aldatmaqla, oyunbazlıqla, yalanla, böhtanla, sıxma-boğma ilə hədə-qorxu gəlməklə, qan-qada ilə Azərbaycanı ayaqlayanlar büqələmun kimi min dona girirdilər və indi də donlarını tez-tez dəyişirlər".

"Müsavat"a, onun tarixinə, liderlərinə hücum çəkənlər, "bu partiyanın dağılması labüddür"- deyib şivən qoparanlar öz bolşevik sələflərinin şərəfsiz yolunu davam etdirmək xülyasına düşənlərdir. 70 il bundan əvvəl 1929-cu ilin fevralında Azərbaycan istiqlal mücahidlərinin Türkiyədə nəşr etdikləri "Odlu yurd" jurnalında dərc olunmuş "Müsavatçılar və kommunistlər" sərlövhəli dəyərli bir məqalədə də bu problemə toxunulurdu. M.B.Məmmədzadənin yazdığı həmin məqaləni 70 ildən sonra oxusalar faydasız olmaz.



**R.S.** *Mən bu yazının son nöqtəsini qoyarkən Mirşahinin yazıçı Çinkiz Abdullayevlə telemüsahibəsi başladı. Kriminal dunyaya və fantastika aləminə yaxşı bələd olan hörmətli Çinkiz müəllimin XX əsr Azərbaycan tarixindən deyəsən, əməlli-başlı xəbəri yoxdur. Son 30 ildə gördüklərini əsl tarix bilir. Elə ziyalılar və ziyalılıq anlayışı barədə gətirdiyi misallar da fantastikaya yaxındır. O ki qaldı Azərbaycan istiqlalının, dövlətçiliyimizin XXI əsrdə məhv olacağı haqqında "mülahizələrə" bu fikir də yeni deyil, M.Ə.Rəsulzadənin dediyi kimi, Moskvalı "rus uşaqları"nın köhnə arzusudur, xülyasıdır. Qızıl meydanda bir kommunist məbədgahı movzoleyi var, rusiyalı demokratlar xalqa çox faciələr gətirmiş kommunizm və onun simvolundan canlarını qurtarmaq yollarını axtarırlar. Ç.Abdullayev bizə yenisini yaratmağı təklif edir. Həm də bunu sağ olan adama indidən vəd edir. Doğrudan da fantaziya adamı həm də yoldan çıxaran peşədir. Fantastlar bildiklərini saysınlar, körək fələk və tarix nə sayacaq!*

***"525-ci qəzet", 20 fevral 1999***

## HƏSƏN KEÇƏL, KEÇƏL HƏSƏN, KÖHNƏ BİNA, TANIŞ ÜZLƏR

Başqalarını deyə bilmərəm, mənə elə gəlirdi ki, müstəqillik bizə halallıq, düzlük, işgüzarlıq, ləyaqət, namus və qeyrət gətirəcək, milli birliyimizi, vətəndaşlıq hissimizi gücləndirəcək, keçmiş və gələcək qarşısındakı nəsli məsuliyət hissimizi artıracaq, əl-ələ verib səmimi-qəlbdən iş görəcək, Azərbaycan adlı müqəddəs vətənə, əzabəziyyətlər və faciələr görmüş xalqa xidmət göstərəcəyik.

Mənə elə gəlirdi ki... amma indi mənə elə gəlmir. Son illərdə gördüklərim, müşahidə etdiklərim 1917-ci ilin iyununda sovetlərin birinci qurultayında qurultaya başçılıq edən Sereteli ilə Leninin deyişməsini yadıma salır. Menşeviklərin lideri çoxpartiyalı koalisiya hökumət yaradılması zərurətini qeyd edib deyəndəki: "Rusiyanı hazırki şəraitdə təkbaşına idarə edə biləcək bir partiya yoxdur", Lenin yerindən "belə bir partiya vardır!" deyib ayağa durmuşdu. Bizim nəsil bu ifadələri əzbər bilir. Lakin bəs əvəzində Sereteli nə demişdi? Mən bunu "İzvestiya" qəzetinin 1917-ci il iyun nömrələrini vərəqləyərkən oxuyub heyran qalmışdım: "Cənablar, bolşeviklərin simasında arxa qapıdan Rusiyaya elə bir diktatura daxil ola bilər ki, biz II Nikolay rejiminin həsrətini çəkə bilərik!"

Tarix eynən təkrar olunmasa da oxşar vəziyyətlərin təkrarını görmək çətin deyil. Rusiya və planetimizdə cərəyan edən hadisələri diqqətlə izləyən əsrin salnaməçiləri hesab olunan A.Soljenitsin və Ç.Aytmatovun son vaxtlar elə "525-ci qəzet" səhifələrində dərc olunmuş müsahibələrində diqqət veriləsi, üzərində düşünüləsi çox məqamlara rast gəlirik. Soljenitsin keçmiş sovet məkanı üçün səciyyəvi olan cəhətlər barədə deyir: "Həyasızlıq həddini aşır. Cəzasızlıq rüşvətxorluğu və dövləti oğurluğu genişləndirir... Hər şeyə icazə var: yalan danışmağa da, şər atmağa da, yalandan şahidlik etməyə də", "kütləvi məyusluq hissi hakim olur", "hər şeyi alan, hər şeyi satan nəsil yetişir" ("525-ci qəzet" 20.1.1998)

Respublikamızı yaxşı tanıyan, türk cümhuriyətlərindəki vəziyyətdən də lazımınca hali olan Ç.Aytmatov yazır ki, "Mahiyyət etibarı ilə biz latın Amerikası tipli diktatura rejiminin astanasında dayanmışıq", "hakimiyyət get-gedə sadə adamlardan daha çox uzaqlaşır", "hansısa məmurun rüşvət alması, o birilərinin də oturduğu yerdəcə milyardlarla hesablanan mülkiyyətə sahib olması uşağa da bəllidir".

Hörmətli oxucular! Düşdüyümüz bəla, düçar olduğumuz mərəz təzə deyil. Onun kökləri dərin, əhatə dairəsi xərçəng kimi genişdir. Mərhum akademik Z.Bünyadovun "bolşevik kələkbazları" adlandırdığı zümrə əvvəllər "keçəl Həsən" idi. İndi "Həsən keçəl" olub. Köhnə binadakı indiki üzlərin çoxu da bizə tanışdır. "Böyük qələbələr", "Kommunizm quruculuğu dövrünün nəhəng raportları" dövründə mərhum dostum, "Yaşamaq istəyirəm" əsərinin müəllifi, professor, əməkdar elm xadimi, yazıçı tənqidçi, ən əsası isə qeyrətli, düşünən, görən, hiss edən vətəndaş Qulu Xəlilov bəzən ürək sözlərini mənə ünvanlayıb yazırdı.

***"525-ci qəzet"***
***26 fevral 1998***



## İKİ ÖNDƏR, İKİ TALE

*Martın 6-sı M.Ə.Rəsulzadənin vəfatı günüdür*

**1918-ci ilin mayında M.Ə.Rəsulzadənin öndərliyi ilə türk-islam aləmində birinci türk cümhuriyyəti doğmuş, 1920-ci ilin yanvarında dünyanın iri dövlətləri tərəfindən rəsmən tanınmışdı. Bu münasibətlə yas və düşmən istilası içində inləyən məğlub İstanbul mühitində böyük bir bayram təşkil edilmişdi. İstanbul darülfunun salonlarında türkçülüyün ixtiyar şeyxi Yusif Akçura bəy çıxışında demişdi:**

**"Bu böyük hadisə münasibətilə türk aləmində birinci dəfə qurulan türk cümhuriyyətini təbrik edirəm.**

**Sizə, Azərbaycan türkləri, ey əziz qardaşlar, sizə təvəccəh və xitab edərək, hər millətin həyatında ən böyük səadət olan istiqlala nail olmağınızla təbrik edirəm".**

**Tədqiqatçılar yazırlar ki, iki əkiz türk qardaşından biri- Azərilər Cümhuriyyət yaratdılar, yeni türk dövləti doğdu, amma ixtiyar tarixin imtahana çəkdiyi Osmanlı imperiyası həmin dövrdə köçdü. Bir az keçdi. Azərbaycan istiqlalı türkün əlindən alındı, yeni doğan gənc cümhuriyyət çəkiclə orağın arasında qaldı. Amma bu dəfə Qazi Mustafa Kamalın öndərliyi ilə Türkiyə Cümhuriyyəti yarandı. Türklük müstəqil dövlətsiz qalmadı.**

**Hörmətli oxucular, yuxarıdakı fikir və mülahizələrdən sonra günümüzün reallıqlarını, əsrin sonunda dünyamızda yaranmış siyasi atmosferi nəzərdən keçirdikdə sevindik. Şükür edirəm ki, tariximizin böyük, mütəfəkkir dövlət və siyasət adamları varmış. İndi türk cümhuriyyətlərinin varlığı artıq zəmanəmizin reallığıdır.**

**Şərqdə Cümhuriyyətçiliyin ilk öndəri M.Ə.Rəsulzadə olub. İlk cümhuriyyət, özü də Xalq Cümhuriyyəti Azərbaycanda yaranıb.**

**Qardaş türklərin öz öndərlərinə - Mustafa Kamal Atatürkə sevgi və məhəbbətləri sonsuzdur. Bizim öndərimizə indiki rəsmi münasibəti siz yaxşı bilirsiniz. Sabah, M.Ə.Rəsulzadənin vəfatından 43 il keçir. Onun və istiqlal mücahidlərinin əziz xatirəsini hörmətlə yad edir və ümid edirik ki, bizim də kəmalə yetişəcəyimiz, qədirbiləcəyimiz zaman gələcək! Sözü yenə böyük öndərə verək, görək nə deyib, nə düşünüb, nə yazıb!**

## MİLLİ AZƏRBAYCAN HƏRƏKATININ XARAKTERİ[1]

**İdeoloji mənşəyi etibarı ilə Milli Azərbaycan hərəkatı Şərqdəki milli qurtuluş idealları və Qərbdəki mədəniyyət və demokratiya cərəyanlarını özündə birləşdirmiş bir hərəkatdır.**

Müsəlman və türk məmləkəti olması etibarı ilə Qafqaz Azərbaycanı nə din, nə irq, nə də mədəniyyət baxımından onunla qətiyyən əlaqəsi olmayan Rusiya tərəfindən ancaq silah gücünə tutulmuşdur. Və məlum olduğu üzrə tarixi ənənəsi, türk və islam düşmənliyinə dayanan və dövlətə heç bir zaman isinişə bilmədiyindən gərək türkçülük və gərəksə islamçılıq ideyaları burada canlı inikaslar bulmuşdur.

Zamanın keçməsi və ictimai qüvvətlərin açılması sayəsində cəmiyyət hərəkatına geniş xalq təbəqələrinin daha ziyadə qovuşması nisbətində, müsəlman Şərqin digər hər hansı bir məmləkətindən daha əvvəl Azərbaycandakı milli hərəkat avropayı bir şəkil almışdır.

Öz dairəsində türk dünyasının ən böyük şairi Füzuli kimi dahi ustadlara malik bulunan Azərbaycan ədəbiyyatı 19-cu əsrin başlarından etibarən əsrisləşməyə başlamışdır.

Böyük mücəddid (yenilikçi) Mirzə Fətəli Axundzadə ümumxalq lisanında yazdığı ölməz əsərləri ilə Azərbaycan cəmiyyətinə yeni bir istiqamət vermişdir. O, şəkilcə də yeni olan - müsəlman dünyasında ilk pyes yazan odur - əsərlərində 18-ci əsrin liberal məktəbindən alınmış tamamilə yeni fikirlər tərvic etmişdir.

Mirzə Fətəlidən başlayaraq Azərbaycan ədəbiyyatı Avropa ideallarına alışaraq, həyat hadisələrini tədqiq və tənqid gözü ilə görməyə başlamışdır.

Mirzə Fətəlidən sonra liberal məktəbinə mənsub bir sıra şairlər, mühərrirlər və dramaturqlar yetişərək, xalqı Avropa məfhumlarına alışdırmağı və ona cəmiyyətçilik ruhunu aşılamağı özlərinə qayə etmişlərdi.

1875 ilində Bakıda ilk dəfə olaraq Azərbaycan qəzetəsi təsis olunmuşdur. "Əkinçi" adını daşıyan bu qəzetə Rusiya müsəlmanları arasında çıxan ilk qəzetə idi: Mirzə Fətəlinin oyandırıcı fikirləri zərdablı Həsənbəyin bu qəzetəsində davamlı bir surətdə müdafiə olunurdu.

Mirzə Fətəli ilə "Əkinçi"dən əvvəlkilərdə bu oyandırıcı fikirlər müəyyən siyasi məqsəddən kənar olaraq, mücərrəd bir şəkildə qoyulduğu halda, ilk Azərbaycan qəzetində isə o fikirlər artıq müəyyən siyasi bir məqsədə xidmət edirdi. Mərhum Həsənbəy **"Azərbaycanlılar müasir mədəniyyəti öyrənməli və Avropa elmlərini əxz etməlidirlər, yoxsa həmişə başıqapazlı qalacaqdır..."** deyirdi.

Mirzə Fətəlinin mücərrəd yazılarına dözən, səbr edən çar hökuməti, ilk siyasi qəzetin təmayüllərinə laqeyd qalmadı və "Əkinçi" bağlandı.



1905 sənəsinə qədər Azərbaycan cəmiyyətçiliyi təzyiqdə və Azərbaycan fikri çarlığın sıxı senzurası altında qaldı. Yalnız, Mancuriyada məğlubiyyət nəticəsində gələn ilk rus inqilabından sonra Azərbaycanın ictimai həyatında yeni bir dövr başladı.

Gündəlik qəzetlər və digər dövri nəşriyyat təsis olundu. Ədəbiyyat qol-budaq ataraq çiçəkləndi, musiqi və teatr səhnəsi inkişaf etdi, mətbəələr açıldı, bir çox maarif cəmiyyətləri siyasi qruplar və partiyalar yarandı.

**Ayaqları altında zəmini möhkəm görən cəmiyyət hərəkatı bütün açıqlığı ilə milli bir şəkil və mahiyyət aldı. İmperatorluq daxilində cərəyan edən liberal və istiqlalçı cərəyanlarla həmahəng olaraq yürüyən bu hərəkat** bir tərəfdən də bütün Rusiyadakı müsəlmanlara məxsus olmaq üzrə milli-mədəni haqların təmin olunmasını istəyirdi. Eyni zamanda bu hərəkatda başlıca iki cərəyan gözə çarpırdı: Yaş etibarı ilə daha böyük nəslə mənsub, Rusiyada ali təhsil görən əksəriyyətlə əski zadəgan siniflərindən çıxan **ziyalılar rus liberalizmi ilə bərabər halda, daha ziyadə milli tərbiyə görən gənc nəsil Rusiya cəmiyyətçiliyinin radikal və inqilabçı cərəyanlarına təmayül göstərirdi.**

Müsəlman əleyhdarlığına meyl etməkdə olan Rusiya imperatorluğunun ümumi sıxıntısı altında bulunduqlarından **Rusiyadakı türk ölkələrinin siyasi fəaliyyəti eyni istiqamətdə yeriyərək, gərək ideoloji və gərək təşkilatı cəhətdən bir-birilə sıxı surətdə bağlı idilər. Rusiyadakı bu ümumi müsəlman hərəkatında Azərbaycan cəmiyyətçiliyinin nümayəndələri bu və ya digər şəkildə rəhbər rolunu oynayırdı.**

**İki tarixi hadisə Rusiya** müsəlmanlarının siyasi həyatlarındakı inkişafın iki mühüm mərhələsini təsbit edir:

1905 ilində Nijni-Novqorod şəhərində toplanan müsəlman konqresi ilə 1917 ilində Moskvada toplanan konqres. Bu iki konqresdə rusiyalı müsəlmanların siyasi istəkləri formalaşır.

Nijni-Novqorod konqresi, taktika etibarı ilə rus liberalizmi ilə "müştərək çalışma" şüarı altında gedərək siyasətən milli mədəniyyət, mədəni və hüquqi mahiyyətdə bir sıra tələblər irəli sürürdü. Moskva konqresi isə Rusiyanın milli-ərazi muxtariyyət üzərində parçalanması tələbində bulundu. İstər birinci, istərsə ikinci konqreslərdə olsun, siyasi müqəddəratın formulunu Azərbaycan nümayəndələri vermişdirlər[2].

Nijni-Novqorod konqresi zamanında əksəriyyət sadə konqresdə deyil, mahallarda və o cümlədən Azərbaycan da daxil liberallarda idi. Moskva konqresində isə liberallardan əsər belə qalmamışdı. Fəqət, buna müqabil inqilabçı rus demokratiyası ilə "müştərək çalışmaq" tərəfdarları vardı, bunlar da əqəliyyətdə - azlıqda qaldılar.

**Əksəriyyət isə imperatorluq daxilindəki bütün məhkum millətlərin öz torpaqları üzərində siyasətən milli bir varlıq halına gəlmə-**

**sini tələb edən inqilabçı milliyyəçilər idi.**

Moskva konqresində qəti rol oynamış olan inqilabçı Azərbaycan milliyyətçiləri "Müsavat" firqəsi ilə təmsil edilmiş ki, daha 1917 ilinin aprelində Bakıda toplanan Qafqasiya müsəlmanları konqresində öz proqramını elan etmiş idi. Bu proqrama görə təkcə Azərbaycanın deyil, Rusiyaya daxil olan digər türk ellərinin də birər siyasi təşəkkül halına gəlmələri zərurəti elan olunmuşdu.

"Müsavat" firqəsində çalışanlar, ilk rus inqilabı əsnasında böyük (yaşlı) nəslin əksinə, Rusiya cəmiyyətçiliyinin inqilabçı cinahına meyl edən gənc nəsil içindən çıxanlardan ibarət idi. Çarizmə qarşı mücadilədə inqilabçı sosializmi onlar, ən sadiq olmasa da, ən münasib bir müttəfiq olaraq görürlərdi.

Məmləkətlərini istila və istismar edən Rusiyaya qarşı bəslədikləri kinlə onlar pozğunçu hərəkətləri daha irəli gedən ifratçı firqələrin taktikasını təbii ki, daha məqul (ağılkəsən) hesab edir, daha asanlıqla qəbul edirdilər.

**Əsirləşmiş türkçülük və islamçılıq ənənələrini mühafizə edən milli ideologiyanın xalqçı sosialist növündən ictimai bir proqramın və Azərbaycan ilə bütün Qafqasiyanın Rusiyadan ayrılması mənasında anlaşılan inqilabçı bir taktikanın təlifindən (tərtibindən) ibarət olan Müsavatçılıq, qısa bir zamanda Azərbaycan xalqı arasında geniş bir etibara malik oldu.**

Rusiya məclisi-müəssisan seçkilərində Zaqafqaziya Seymində, Azərbaycan deputatları içərisində, hətta, Bakı Fəhlə Şurasında "Müsavat" firqəsi və onunla bərabər gedən müstəqil qrup daima əksəriyyət təşkil etmişdi. **Bu andan etibarən "Müsavatçılıq" Azərbaycan millətçiliyinin sinonimi olmuşdur.**

Milli Azərbaycan ədəbiyyatı tərəfindən rəvac verilən, siyasi və ictimai bir çox qurumlar tərəfindən müdafiə və nihayət, siyasi formulunu "Müsavat" firqəsinin proqramında tapan Azərbaycanın milli dövlət halında öz müqəddəratına sahib çıxması fikri, bütün xalqın ümumi istəyi halına gələrək meydana çıxmışdı.

Milli iradəyə müvafiq Azərbaycan Şurayi-Millisi-1918 ilinin 28 mayında Azərbaycan Cümhuriyyətinin istiqlalını elan etmişdir.

**"Azərbaycan Yurd Bilgisi"**
*28 may 1934 N 29*

**1.** *Bu məqalə müəllifin ingiliscə olaraq çap edilməkdə olan "Azərbaycan" adlı əsərindən eynən iqtibas edilmişdir.*

**2.** *İlk konqresdə Rusiya Duması müsəlman fraksiyasının rəisi Ə.M.Topçubaşı, 2-ci konqresdə isə A.T.F "Müsavat" Xalq firqəsi rəisi M.Ə.Rəsulzadə bəylərin təklifləri eynən qəbul edilmişdir.*







**Şirməmməd Hüseynov tələbələri**
**Zərxanım Əhmədli və mərhum Elmira Əhmədova ilə**

Özünü jurnalist adlandıranlar çoxdur. Nə olar, qoy adlandırsınlar. Axı, hər parıldayan qızıl deyil!

Elmiranın istedadı, cəsarəti, qeyrəti, jurnalist məharəti üç yüz illik şərr imperiyasının süqutunun başlandığı, quduzlaşıb kinini, nifrətini xalqımızın üzərinə tökdüyü qanlı yanvar günlərində, çoxunun meydanı tərk edib guşənişin olduqları bir tufanda üzə çıxdı. "Azadlıq" radiosu dalğalarından "...Mən, Elmira Əhmədova, Bakıdan, mən jurnalistəm..." harayı ilə başlayan müraciəti, çağırışı illər keçsədə həmişə tarixi bir sənəd kimi qalacaq, zaman-zaman səslənəcək!

Çünki Ana Vətənin namuslu bir vətən qızının dünyaya müraciəti idi bu çıxış!

Elmiranın, Mirzə Xəzərin və "Azadlıq" radiosu Azərbaycan redaksiyasının 90-cı illər fəaliyyəti, səriştəliyi, obyektivliyi, operativliyi, həqiqi milli demokratik ruhu, sənətkarlığı baxımından ana dilli radiojurnalistikamız tarixində yeni bir mərhələdir.

Biz Elmiranı tez itirdik. Müəllim üçün öz tələbəsinin dəfn mərasimində iştirak etmək çox ağırdır. Axırıncı dəfə Elmira ilə fevralın 1-də "Azadlıq" radiosu rəhbərliyinin Gülüstan sarayında təşkil etdiyi qəbulda görüşdüm. Hətta birgə şəkil də çəkdirdik. Təşəbbüs də iki keçmiş tələbəm və həmkarım Elmira və Zərqələm tərəfindən oldu.

Elmiranın "Azadlıq" radiosundakı Mirzə Xəzər başda olmaqla bütün jurnalist həmkarlarına, qədirbilən pərəstişkarlarına onun mənəvi atası kimi təşəkkür etmək istəyirəm. Çünki əsl matəm mərasimi Praqada, "Azadlıq" radiosu redaksiyasında idi. Fevralın 27-si və sonrakı günlərdəki verilişlərdə biz bunun şahidi olduq. Bakıda sadəcə dəfn mərasimi keçirildi.

Elmira Əmrah qızının "...Mən jurnalistəm..." deməyə haqqı vardı. Adi, sadə, təvazökar, səmimi - həm də prinsipial, sənətkar, ustad jurnalist!

HEYF SƏNDƏN, ELMİRA!

***"Liberal" press qəzeti N14, mart 1998***


MİRZƏ BALA MƏMMƏDZADƏ - 100

## İSTİQLAL MÜCADİLƏSİNİN BÖYÜK VƏ UNUDULMAZ QƏHRAMANLARINDAN BİRİ

"Mirzə Bala Azərbaycan istiqlal mücadiləsinin böyük və unudulmaz qəhrəmanlarından biridir". Bu sözlər "Azərbaycan istiqlal mücadiləsi tarixi" əsərindən götürülmüşdür. Mən əsəri hələ 1977-ci ildə oxuyub öyrənmişdim. Necə? Tanınmış bəstəkar və dirijor Niyazi 1977-ci ildə Türkiyədən növbəti səfərdən qayıtmışdı. İstanbulda olarkən əslən gəncəli olan görkəmli hüquqşünas, həm də vətən həsrəti ilə ürəyi döyünən Hüseyn Baykara ilə də görüşmüşdü. H.Baykara 1975-ci ildə İstanbulun "gənclik nəşriyyatı"nda çap edilmiş yuxarıda adı çəkilən kitabını "Əziz Niyaziyə bir qürbət xatirəsi. 27.X.77" sözləri ilə hədiyyə etmişdi. Maestro kitabın bəzi səhifələrini vərəqləyib qeydlər etmiş, sonra Bəxtiyar Vahabzadəyə vermişdi ki, bəlkə bir tənqidi şey yazasan. Əslində məqsəd şairi mücadilə tarixi ilə tanış et-






mək idi. Çünki Niyazi Bəxtiyarın tarixçi olmadığını bilməmiş deyildi. Bəxtiyar müəllim də kitabı mənə verdi ki, bəlkə sən bir tənqidi şey yazasan. Mən də indi yazıram ki, H.Baykara adı çəkilən əsərində Şimali Azərbaycanın coğrafiyası və iqtisadiyyatı, 19-cu əsrin sonu və 20-ci əsrin əvvəllərində Azərbaycan mədəniyyətinin vəziyyəti, Azərbaycan tarixində "qaçaqlar hərəkatı, 1-ci rus inqilabı, 1917-ci il inqilabından sonra Qafqazın idarəsi, Azərbaycan istiqlalının durumu və s. məsələlərlə yanaşı nəzərdən keçirdiyi dövrlərdə millətimizin adını və şərəfini ucaldan tarixi şəxsiyyətlər barədə, o cümlədən M.F.Axundov, H.Zərdabi, M.Ə.Rəsulzadə, Ə.M.Topçubaşov, İ.Ziyadxanov və b. ilə yanaşı "Mirzə Bala Məmmədzadənin bioqrafiyası (1898-1959)" sərlövhəsi ilə ona xüsusi bölmə də həsr etmişdir.

Orada oxuyuruq: "Mirzə Bala Bakıda, Abşeron yarımadası kəndlərindən birində (Zirədə) çox fəqir bir balıqçı-qayıqçı ailəsində doğulmuşdur (12 mart 1898). Atasını uşaq ikən itirmiş, iki qardaşı ilə anasının himayəsində böyümüşdür... İbtidai və orta məktəbi bitirdikdən sonra texnikuma daxil olmuşdur, çalışqanlığı, natiqliyi, yazı yazmaq eşqi məktəbdə arkadaşları ilə yanaşı, müəllimlərin də diqtətini cəlb etmişdir... Məktəbdə gizli "Məhəmmədiyə" təşkilatına qoşulmuşdu... Məşhur ədib və dramaturq Cəfər Cabbarlı M.Balanın məktəb yoldaşlarından biri idi".

Qeyd edək ki, 1912-ci ildə 14 yaşlı Mirzə Balanın İsabəy Aşurbəyovun "Kaspi" mətbəəsində "Nəfi elm və yaxud elmin sonu" adlı kitabçası çap olunmuşdur.

1915-ci ildə M.Ə.Rəsulzadənin nəşr etməyə başladığı "Açıq söz" qəzetində M.Balanın da yazıları dərc olunurdu. Sonralar isə qəzetin gənc mühərrirlərindən biri kimi tanınır. Hətta müəyyən müddət "Bəsirət" (1914-1920) qəzetinin baş redaktoru da olmuşdur. 1917-ci ilin fevral inqilabından sonra M.Balanı Azərbaycan gənclərinin liderləri sırasında görürük. "İttifaqi-mütəəlimin" (Tələbələr İttifaqı") (1917-VI) və "Gənclər Səsası" (1917, X-XI) qəzetlərinin nəşrində yaxından iştirak edir, "Müsavat" partiyasının üzvü kimi fəal iş görür.

M.Bala 1918-ci ilin əvvəllərində Tiflisə gedir, partiya işinə qoşulur. Azərbaycan istiqlalının elanını alqışlayanlar arasında 20 yaşlı M.Bala da var idi. 1918-ci il iyulun 13-də Tiflisdə nəşrə başlayan "Gənclər yurdu" həftəliyinin təşkilatçısı və redaktorlarından biri M.Bala idi. Müsavatçılıq - Azərbaycanlıq ideyasını təbliğ edən, milli ruhda yazılmış "İki inqilab arasında" kitabçasını da Tiflisdə nəşr etdirmişdir.

1918-ci ilin sonunda Mirzə Bala Tiflisdən Bakıya qayıdır. Azərbaycan parlamentinin 1918-ci il dekabrın 7-dəki tarixi açılış mərasimində nəinki bilavasitə iştirak edir, həm də stenoqrafist kimi onun sənədlərini tarixin yaddaşına həkk edir.

Bütün varlığı ilə müstəqil Azərbaycana xidmət edən M.Bala 1919-da bu istiqlalın təşkilatçısı və ideya-siyasi rəhbəri olan "Müsavat" partiyası Bakı komitəsinə üzv seçilir. "Azərbaycan" qəzetində onun çox mühüm problemlərə həsr olunmuş məqalələri dərc olunur. Hətta bir müddət qəzetin redaktorunu əvəz də etmişdir.

Gənc siyasi xadim, jurnalist və publisist M.Bala, hətta qələmini dram janrında da sınamışdır. 1919-cu ilin sentyabrında Bakının ermə-ni-rus işğalından azad edilməsinin ildönümü münasibətilə Bakı şəhər teatrında məşhur artist və rejissor Abbas Mirzə Şərifzadənin hazırladığı iki tamaşa göstərilmişdi: sentyabrın 16-da 20 yaşlı C.Cabbarlının "Bakı müharibəsi", sentyabrın 17-də onun dostu 21 yaşlı M.Balanın "Bakı uğrunda mübarizə" tamaşaları.

H.Baykara yazır: "Azərbaycan tarixdə ikinci dəfə olaraq, bu dəfə qırmızı bolşevik ruslar tərəfindən işğal edildikdən sonra M.Bala bir müddət tutularaq həbs edilmişdi. Bəzi təsadüflərə borclu olaraq geri verildikdən sonra "Müsavat" partiyası yeraltı (gizli) təşkilatını arkadaşları ilə birlikdə qurmuşdur. "Müsavat" partiyasının gizli təşkilatı Azərbaycanın hər vilayət və qəzasında təşkilatlandığı üçün sovet rus kommunist rejiminin diqqətini çəkmiş və əndişə qaynağı olmuşdu. Bir çox



təqiblərdən, kütləvi həbslər və edamlardan və üsyanlardan sonra 1923-cü ilin sonlarında "Müsavat" partiyası gizli təşkilatının gizli mətbəəsində "İstiqlal" qəzetinin növbəti nömrəsi nəşrə hazırlandığı vaxt mürəttib və korrektorlarla birlikdə yaxalanmışdılar..."

1924-də M.Bala təqiblər üzündən İrana sığınmağa məcbur olmuşdu.. İranda Ənzəlidə, sonra Tehranda və Təbrizdə fəaliyyətini davam etdirmiş, M.Ə.Rəsulzadə ilə əlaqəyə girərək Azərbaycandakı hadisələr barədə ona məlumat verməyə başlamışdı. Onun İstanbulda M.Əmin tərəfindən 1923-cü ildən nəşr olunan "Yeni Qafqasiya" səhifələrindəki yazıları bunu sübut edir.

İranın Sulduz mahalında şose yolu inşaatında nəzarət məmuru işləyən M.Bala İstanbula gəlmiş və böyük öndər M.Ə.Rəsulzadə ilə birlikdə h.Baykaranın da yazdığı kimi, "bütün ömrünü Azərbaycan istiqlal mücadiləsinə ayırmış və çox qüvvətli qələmini bu uğurda xərcləmişdir. "Yeni Qafqasiya", "Azəri türk", "Odlu yurd", "Bildiriş", "İstiqlal", "Qurtuluş", almanca "Die Bereinq" "Müsavat" adlı bülletenində, "Azərbaycan" jurnallarında çalışmış, yazılar yazmışdır".

1932-ci iddən M.Bala Varşavaya gələrək orada fəaliyyətini davam etdirmiş, 1939-da Polşa faşist Almaniyası ilə Sovet İttifaqı arasında ikiyə bölünərkən M.Bala yenə İstanbula dönmüş, "Milliyyət" və "Cümhuriyyət" qəzetlərində rus əsiri türklər haqqında mühüm yazılarla çıxış etməyə başlamışdı.

M.Balanın siyasi məqalə və kitabları içərisində H.Baykara onun "İslam ensiklopediyası"ndakı, "Türk islam ensiklopediyası"ndakı elmi məqalələrini, "Azərbaycan misaqi-millisi" (1927), "Milli Azərbaycan hərəkatı, Müsavat partiyasının tarixi" (1938 Berlin), adlı elmi əsərlərinin adını çəkir.

Mirzə Bala daxildə Müsavat partiyasının gizli təşkilat lideri olduğu kimi, xarici ölkələrdə də M.Ə.Rəsulzadənin ölümündən sonra 1955-1959-cu illərdə Müsavat partiyasının lideri - başqanı olmuşdur.

H.Baykara sonda yazır: "Mühacirət həyatında doğma yurddan uzaq olaraq yaşadığı ölkələrdə heç bir zaman yoxsulluqdan özünü qurtara bilməmiş və bu maddi sıxıntılar onu idealından ötrü mücadilə etməkdən kənarda qoymamışdır.

Mirzə Bala Azərbaycan istiqlal mücadiləsinin böyük və unudulmaz qəhrəmanlarından biridir".

Hörmətli oxucular, iki vətən övladı birisi Bakıdan, digəri Gəncədən - vətən dərdi və həsrəti ilə dünyalarını dəyişmişlər. Biri digərinin həyat yolunu, istiqlal mücadiləsi tarixi fonunda qələmə alıb bizə çatdırmışdır. Hər ikisi tariximizin ən az öyrənilmiş, təhrif və tənqidə məruz

qalmış dövr hadisələrini qələmə almışdır: M.Bala "Milli Azərbaycan Hərəkatı" (1938), H.Baykara "Azərbaycan istiqlal mücadiləsi tarixi" kitablarında (1975) hər ikisi İstanbulda dünyalarını dəyişmiş, dəfn olunmuşlar. İstiqlalımızın 80 illik yubileyi ərəfəsində, Mirzə Balanın anadan olmasının 100 ili tamam olur. Ümid edirəm ki, hələlik nəşləri vətəndən uzaqda, ruhları daima başımızın üstündə olan mücahidlərimizin vətən torpağında uyuyacaqları gün də gələcək!

MİRZƏ BALA

## AZƏRBAYCAN SOVET CÜMHURİYYƏTİNİN MƏNŞƏYİ HAQQINDA

Rəsmi sovet sənədlərinə görə Azərbaycan sovet cümhuriyyətinin yaranma tarixinin 28 aprel 1920-ci il olduğu halda, yerli və moskvalı kommunistlər birgə sözləşəndə, bu cümhuriyyətin hüquqi mahiyyət və təşəkkül tərzi mövzusunda ixtilaf halındadırlar.

Yerli kommunistlər, 28 aprel "inqilab günü" bəzəyini verməkdə, moskvalı kommunistlər isə Azərbaycan Cümhuriyyətini qızıl ordunun bir əsəri olaraq göstərməkdədir ki, doğrusu da budur.

Bu rəsmi quruluş tarixindən başqa Azərbaycan Sovet Cümhuriyyətinin mənşəyi olmaq üzrə 30-31 mart tarixi göstərilmək, istənməkdədir.

Bu tarixdə doğrudan-doğruya Lenindən aldıqları direktivlə, Bakıda 14 min günahsız azərinin şəhadətindən sonra, Stepan Şaumyan və 25 arkadaşı tərəfindən eyni ilin iyul ayına qədər yaşayan qısa ömürlü bir "Bakı Sovet Hökuməti" qurulmuşdur.

Lenin və Stalin tərəfindən imzalanaraq Şaumyana 30 dekabr 1917-də verilən qərarnaməyə görə, Şaumyan Qafqasiyada Sovet rejimini təsis edəcək, buradakı milli istiqlal hərəkatını önləyəcək, rus ordusunun işğalı altında olan Şərqi Anadoluda Sovet Rusiyasının himayəsində milli bir Ermənistan dövləti quracaqdı. Halbuki, hadisələrin inkişafı buna meydan verməmişdir. Zira:

Bolşeviklərin iqtidarı əllərinə aldıqları günlərdə Tiflisdə, rus dövlət duması(parlamenti)nın qafqaziyalı (azəri, gürcü və erməni) vəkillərindən ibarət "Xüsusi Zaqafqaziya komitəsi" hökumət sürürdü. Ayrıca, bütün Qafqaziya işçi, kəndli və əsgər Sovetinin mərkəzi komitəsi vardı ki, bolşeviklərlə mücadilə halında idi. Bunlardan başqa Azərbaycan, Gürcüstan, Şimali Qafqaz və Ermənistanda milli komitələr və milli şuralar mövcud idi. Eyni zamanda bolşeviklərin hakimiyyətə gəlməsindən əvvəl Rusiya müəssislər məclisinə seçilmiş və fəqət Petroqrada gedə bilməmiş deputatlar fəaliyyətə keçmək üçün fürsət gözləməkdə idilər.



Bolşeviklərin iqtidara gəlişlərindən bir neçə gün sonra, yəni 11 noyabr 1917-də yuxarıda adları çəkilən Qafqaz qurumları Qafqaz cəbhəsindəki əsgər komitələri və ordu başçılarının iştirakı ilə təşkil olunmuş bir toplantıda "Zaqafqaziya komissarlığı" adı ilə müvəqqəti bir hökumət yaradılmasına qərar verildi. Qurucular məclisi toplanıncaya qədər Qafqazı idarə edəcək olan müvəqqəti hökumət bolşevik üsyanını tanımamış və hərbi nihayət vermək üçün Türkiyə ilə doğrudan-doğruya sülh müzakirələrinə girişərək 5 (18) dekabr 1917-də Ərzincan müvəqqəti barışıq sənədini imzalamışdı.

Türkiyə "Müstəqil Qafqaz Dövləti"nin baş şəhərinə bir heyət göndərmək istəmiş, fəqət bu müraciətinə bir cavab ala bilmədiyinə baxmayaraq, Qafqazı Brest-Litovsk sülh konfransına rəsmən dəvət etmişdi. Zaqafqaziya komissarlığı özünü mövcud olmayan demokratik Rusiyanın bir qismi hesab etdiyi üçün Türkiyənin bu təklifini qəbul etməmiş, Rusiya nümayəndələr məclisinə seçilmiş olan azəri, gürcü və erməni deputatlarına dəvətlə bütün səlahiyyətlərini bu deputatların təşkil etdiyi Seym məclisini dərk edərək çəkilmişdi. 15 fevral 1918-də toplanan Zaqafqaziya Seymi, ilk iş olaraq çarların başlamış olduğu hərbə nəhayət vermək üzrə, Türkiyə ilə doğrudan-doğruya müzakirəyə başlamışdı. Zaqafqaziya Seyminin üç böyük partiyasından biri olan Milli Azərbaycan "Müsavat" xalq partiyası, öz bəyənnaməsində Seymi Qafqaz millətlərinin milli istiqlal əməllərini gerçəkləşdirmək səlahiyyətinə malik bir müəssislər məclisi hesab etdiyini açıqlamış, Seymin 26 fevral tarixli toplantısında Türkiyə ilə müzakirə apara bilmək üçün Qafqazın müstəqil hüquqi bir dövlət olaraq təşəkkül etməsinin şərt olduğunu irəli sürmüş və 25 mart tarixində keçirilən Seym iclasında Qafqazın istiqlalının elanını tələb etmişdir.

Nəhayət, Müsavat partiyasının lideri və Seymin Azərbaycan fraksiyanın sədri Rəsulzadə Məhəmməd Əmin bəyin tarixi nitqindən sonra Seym Şimali Qafqazı da içinə almaq təmənnası ilə Zaqafqaziyanın tam istiqlalına qərar vermişdi.

Fəqət bu tarixi qərardan sonra Seymdə 31 mart böhranı vaqe olmuşdu. Brest-Litovskdə Rusiya sovet hökuməti ilə Türkiyə arasında imzalanan müqavilənin Batum, Ərdəhan və Karsa aid qismlərini tanımaq istəməyən Seym Hökuməti bu tarixdə hərbə qərar verərkən, Sey-

min Azərbaycan hissəsi hökuməti tərk etmək məcburiyyətində qalmışdı. Türkiyo ilə müharibə ehtimalının qüvvətləndiyi bu tarixdə Bakıda da qanlı 30-31 mart hadisəsi vaqe olurdu. İştə belə bir zamanda qurulan "Bakı Sovet Hökuməti"nin başında duran Şaumyan, Şamaxı və Gəncə üzərindən Tiflis üzərinə hücum etmək xəyalına düşmüşdü. Bu təsəvvürün nəticəsi olaraq, bütün Şərqi Azərbaycan Şaumyanın hərəkətinə məruz qalmış, şəhərlər dağıdılmış, mal və yurdlar talan edilmiş, Bakıda yalnız türklərə aid olduğu üçün məktəblər, kütubxanələr, teatrlar, mətbəə və qəzet redaksiyaları, mədəniyyət sarayları, məscidlər, camilər və ticarətxanələr atəşə verilmiş, tarixi abidələr təxrib edilmişdi.

Zaqafqaziya Seym Hökumətinin Türkiyə ilə sülh bağlaşması, Zaqafqaziya Cümhuriyyətinin milli Cümhuriyyətlərə ayrılması, Azərbaycan istiqlalının elan edilməsi (28 may 1918) və milli Azərbaycan Cümhuriyyəti Hökumətinin onunla bağladığı ittifaq müqaviləsi gərəyincə Türkiyə dövlətindən bolşeviklərə qarşı əsgəri yardım alması, Şaumyanın Sovet Hökumətini hücum vəziyyətindən müdafiə vəziyyətinə keçməyə və məğlubiyyətə məhkum etmişdi.

Bakını əlindən qaçırmaq istəməyən Sovet Rusiyası 27 avqustda Berlində Almaniya ilə bağladığı və Brest Litovsk müqaviləsinə "Zeyl" (əlavə) adlanan anlaşmaya görə Almaniya Kür çayına qədər olan Azərbaycan ərazisinin Sovetlərə tərk edilməsinə yardım edəcək, buna müqabil Bakı neftinin yarısı ona veriləcək idi. Fəqət bu anlaşma imzalandığı zaman Şaumyanın "Bakı Soveti" devrilmişdi. Burada 25 iyuldan etibarən iqtidarı öz əlinə almış "Sentrokaspi" Hökuməti İrandakı ingilisləri yardıma çağırmış və 6 sentyabr mübadilə edilən alman-sovet anlaşmasının hökmünü çürütmüşdü. Hətta, 9 gün sonra 15 sentyabr 1918-də Bakını qurtarmağa müvəffəq olan Azərbaycan Cümhuriyyətinin Sovet Rusiyası tərəfindən tanınması mövzu olmağa başlamışdı.

Nə "Bakı Soveti" Hökumətində və nə də "Sentrokaspi" hökumətində Azərbaycanı təmsil edən və Azərbaycan adına danışan nümayəndələrə rast gəlmək olmaz. Bu hökumətlərin Azərbaycanla əlaqəsi sırf Azərbaycan torpaqları üzərində qurulmuş olmalarından ibarət olaraq qalırdı. Bu hökumətlər Azərbaycan adını belə işlətməmişlər. "Bakı Soveti" evlərinə getmək üzrə cəbhədən dönən və təsadüfən Bakıda toplanmış olan rus və erməni dəstələrinin yardımı ilə vücuda gəlmişdi. "Sentrokaspi" isə Xəzər dənizindəki rus donanmasına dayanmışdı. Böyük Sovet ensklopediyası, bu iki hökumətin Azərbaycan xalqı ilə heç bir əlaqəsi olmayan və sosial-iqtisadi motivlərdən ziyadə milli ix-



tilafları görükləmək surətilə iş başına gələn qeyri-normal bir təşəkkül olduğunu etiraf etməkdədir. Başqa cür də ola bilməzdi.

Çünki 30-31 mart qətnaməsinə qədər Bakı bələdiyyəsi tamamilə və Bakı fəhlə Sovetinin 75% milli qüvvələrin əllərində idi. Bolşeviklər Bakı Sovetinə seçkilərdə Müsavat partiyasına məğlub olmuşlardı. Bakı neft mədənlərindəki müsəlman işçilər mart hadisələrindən əvvəl olduğu kimi, milli hökumət dövründə də Milli Azərbaycan Müsavat xalq" partiyasının arxasınca getməkdə idilər. 1920-nin aprelində Sovet Rusiyasının qızıl orduları Azərbaycanı istila etdiyi zaman ölkə bu vəziyyətdə idi.

Əksəriyyəti bu istila ordusu ilə bərabər gələn və işğalın ertəsi iş başına gətirilən Azərbaycan kommunistləri bu işğal hadisəsinə "inqilab" adını verməyi adət etmişdirlər. Onlara görə Azərbaycan proletariatı üsyan edərək milli Azərbaycan hökumətini devirmiş və 28 aprel 1920-də Sovet rejimini elan etdikdən sonra, milli qüvvələrə qarşı qoya bilmək üçün qızıl ordunu köməyə çağırmışlar. Halbuki hadisəni xüsusi bir işğal və ilhaq şəklində təsvir edən rəsmi Sovet qaynaqları Azərbaycan kommunistlərinin bu iddialarını rədd edirlər.

Məsələn, Bakıya ilk girən Sovet qızıl ordusu zirehli qatarının komandiri Yefremov yazdığı xatirələrində Bakı üzərinə hərəkət əmrini 20 apreldə aldığını və 26 apreldə Azərbaycan sərhəddini keçərək Bakıya girdiyini, işğaldan bir gün sonra Bakı neft idarəsinin başına keçən A.Serebrovski nəşr etdiyi xatirələrində bu vəzifəyə məxsusən Lenin tərəfindən 17 aprel 1920-də təyin olunduğunu açıqca yazmışdır.

Bakıda nəşr olunan türkcə "Kommunist" qəzeti yazdığı xronoloji də Bakı bolşeviklərinin tək başlarına bir inqilab yapacaq durumda olmadıqlarını göstərən vəsiqəni nəşr etmişdir.

***"525-ci qəzet", 12 mart 1998***

## HEYVANDARLIQ MƏHSULLARI HARA, MİLLİ İDEOLOGİYA HARA?

"Azərbaycan" qəzetinin martın 12-si sayında iri həcmli gurultulu "Milli ideologiya: müsavatçı baxışların erroziyası" sərlövhəli bir yazı dərc olunub.

İstiqlalımızın 80 illik bayramı yaxınlaşır. Düzü, zənn edirdim ki, rəsmi dövlət qəzeti bu tarixi hadisəyə prezidentin fərmanında göstərilən qiyməti nəzərdə tutan tərzdə tədqiqatlara, mütəxəssis fikir və mülahizələrinə əsaslanan yazılara geniş meydan verəcək. Lakin adı çəkilən başdan ayağa səriştəsiz, uydurma, tarixi həqiqətlərdən uzaq yazını oxuyub bu qənaətə gəldim ki, səhv edirəm.

Diqqətimi cəlb edən yazının müəllifinin ixtisası oldu. Çünki respublikada heç bir filosof və tarixçi, hətta iqtisadiyyat tarixçisi belə, bu boyda qərəzli, hər şeyi qızışdırıb siyasi oyuna çevirən yazı yazmaz. Öyrəndim, məlum oldu ki: "Azərbaycan" qəzeti milli ideoogiya ilə əlaqədar çox mühüm və vacib bir mövzuda söz deməyi, fikir söyləməyi iqtisad elmləri namizədi Əvəz Bayramova əbəs yerə tapşırmayıb. Axı Ə.Bayramov hansı problem üzərində işləyir, nə üzrə iqtisad elmləri namizədi olub? Avtoreferatı qarşımdadır: "Heyvandarlıqməhsulları bazarının təşəkkülü və inkişafı xüsusiyyətləri" (1905).

Mən istəyirdim geniş bir cavab yazım. Amma müsavatçılıq anlayışı haqqında lüğətdən oxuduğum "bərabərlik"dən başqa təsəvvürü olmayan adamla nə mübahisəsi edəsən?

"Azərbaycan"ı maraqlandıran yazıda qarşıya qoyulan məqsəd nəyin hesabına olursa olsun, "Müsavat"ı ifşa etmək, müsavatçılığın məğlubiyyətini göstərmək, əsaslandırmaq, həm də şəxsiyyətləri bilavasitə deyil, bilavasitə gözdən salmaqdır.



**Ə.Bayramov yazır:**

"Bizim araşdırmaq istədiyimiz problem ayrı-ayrı şəxslərlə deyil, bütövlükdə ideologiyanın özü ilə bağlıdır".

Heyvandarlıq bazarı arşını ilə ideologiya və tarix meydanında at oynatmaq adamdan cürət istəyir. Ə.Bayramov və "Azərbaycan", deyəsən, meydanı yiyəsiz görüblər.

**525-ci qəzet, 19.03.98**

**Əks-səda**

## AĞACI QURD, MİLLƏTİ MANQURT İÇİNDƏN MƏHV EDƏR

*Eldar Namazova açıq məktub*

Hörmətli Eldar müəllim! Sizin "Panorama" qəzetinin 12 mart sayında dərc olunan "Millət keyfiyyətsiz olmur, keyfiyyətsiz adamlar olur" sərlövhəli məqalənizi dönə-dönə oxudum. "Monitor" jurnalını da tapıb nəzərdən keçirdim. Təəssüf edirəm ki, sözügedən jurnalı vaxtında oxumaq imkanım olmayıb. Yoxsa mən də sizin kimi həyəcanlanar, sakit dura bilməzdim. Söz və mətbuat azadlığı xalqa, onun tarixi keçmişinə, bu günü və gələcəyinə böhtan atmaq, iftira söyləmək, onu ləyaqətsiz etmək azadlığı deyil. Son vaxtlar bu qəbildən olan kəmsavad yarımçıqların, milli varlığımıza, sağlam kökümüzə balta çalanların sayı artmaqdadır. Tariximizi, tarixi şəxsiyyətlərimizi alt-üst etmək hesabına, kiminsə "rəğbətini" qazanmaq istəyən bu şəxslər heç nədən çəkinmirlər. Doğru yazırsınız ki: "...hər hansı bir sivilizasiyalı ölkədə bu cür yazıların müəlliflərini hüquqi məsuliyyətə cəlb edirlər".

Sizin elmi, məntiqi, səriştəli, tutarlı dəlillərinizə şərik olur və arzu edirəm ki, gələcəkdə də məhz hər şeydən yüksəkdə duran milli mənafe və milli dəyərlərimizin, milli heysiyyətimizin keşiyində belə cəsarət və qətiyyətlə durasınız.

**Redaksiyadan:**

*"Monitor" jurnalında dərc olunmuş məqalələrin məzmununu kənara qoyaraq Bakı Baş Polis İdarəsinin jurnalı köşklərdən yığışdırmasının qanunsuzluğunu bildirir və arzu edirik ki, istər orqanın, istərsə də hər hansı müəllifin məsuliyyəti məsələsi ancaq qanunla həll edilsin.*

***"525-ci qəzet", 19.03.98***

## İSTİQLAL MÜCADİLƏSİ VƏ GƏNCLİK

*(tarixdən səhifələr)*

Məşhur türkoloq alim, böyük vətənpərvər, gəncəli Əhməd Cəfəroğlunun redaktorluğu ilə 1932-ci ildən İstanbulda nəşrə başlayan "Azərbaycan Yurd Bilgisi" məcmuəsinin 28 may İstiqlal gününə - bayramına həsr olunmuş nömrələrini vərəqlədim. Heyran qalmışam. Vətəndən ayrı düşmüş, lakin onu bütün varlıqları ilə sevənlər doğma yurdu, onun tarixi keçmişini, zəngin ədəbi irsini, gələcək taleyini bir an belə yadlarından çıxarmamışdır. Əksinə daha böyük əzm və qətiyyətlə gecəli-gündüzlü axtarışlar aparıb doğma vətənlərini türk dünyasına, gənc nəslə tanıtmaq üçün qibtəediləcək bir səylə çalışmışlar. Mən məcmuədə dərc olunmuş yazıları diqqətlə oxuyandan sonra belə qənaətə gəldim ki, proletarlar vətəndə qalmış, düşünənlərin böyük bir qismi isə vətəni tərk etmişlərdi. Məcmuənin 1934-cü il 28 may tarixli 29-cu, yəni Azərbaycan istiqlalının 16-cı ildönümünə həsr olunmuş sayındakı yazılara diqqət verin: "28 may 1918" (baş məqalə), "Milli Azərbaycan hərəkatının xarakteri (M.Ə.Rəsulzadə), Azərbaycan istiqlalı" (Təkin), "Sinopda Candar oğulları zamanına aid tarixi əsərlər" (M.Şakir), "Azəri aşıqlarından aşıq Nəbi" (Mirzadə M.Fəxrəddin), "Ərzurum şairlərindən Natiqi" (Ziyəddin Fəxri), "İran Azərbaycanı, Təbii Coğrafiyası II" (Həbib Sahir), "Dövlətlərarası münasibətlərə dair vəsiqələrdə (sənədlərdə) Azərbaycan" (M.Məmmədzadə), "Şərqdə və Qərbdə Azəri ləhcəsi tədqiqləri II" (Ə.Cəfəroğlu).

Diqqətimi cəlb edən müəlliflərin içərisində tələbə gənclərin tədqiqatları oldu. İstanbul Universiteti hüquq fakültəsinin tələbəsi M.Məmmədzadə "Dövlətlərarası münasibətlərə dair sənədlərdə Azərbaycan" sərlövhəli məcmuədə dərc olunmuş həcmcə ən böyük ciddi tədqiqat səciyyəli yazısında "Yeni Azərbaycan tarixinin siyasi qismini meydana gətirmək" zərurətini, "Milli savaşın elm və fikir cəbhəsində" çalışmağın "mühüm və həyati bir əhəmiyyət daşıdığını" xüsusi qeyd edir və üzünü həmyaşıdlarına tutaraq ciddi bir şəkildə bildirirdi ki, "Azərbaycan məsələsi yeni bir məsələ deyildir. Və Azərbaycanın beynəlmiləl münasibətlərdə iştirakı yalnız cahan (dünya) savaşından sonra başlamış bir hadisə də deyildir".



**"Azərbaycan Yurd Bilgisi"nin Azərbaycan Xalq Cümhuriyyətinin 15 illik yubileyinə həsr olunmuş nömrəsində (1933, №17) diqqətimi ən çox cəlb edən Mirəziz Seyidlinin "Azəri tələbələri istiqlal yolunda (bir xatirə)" yazısı oldu. Çox qiymətli tarixi sənəddir. 1917-1918-ci illər hadisələrinin bilavasitə, gənc iştirakçısının qələmindən çıxan, onun düşüncələrini əks etdirən bu həyat salnaməsi müasir gənclərimiz üçün də ibrətamizdir. Oxucular özləri də yazı ilə tanış olub bunu yəqin edə bilərlər. Mirəziz Seyidlinin xatirəsini şükranla yad edir, İstiqlal savaşında can-dillə vuruşanları minnətdarlıqla anır, onların da qədir-qiymətinin veriləcəyi günün uzaq olmadığını güman edirəm.**

## AZƏRİ TƏLƏBƏLƏRİ İSTİQLAL YOLUNDA

*(Bir xatirə)*

### 1. 1917-ci il

*Böyük rus imperatorluğunun son nəfəsi idi. Bu il dünyanın ən müstəbid imperatoru, rus çarı II Nikolay taxtından salınmış və əzəməti ilə qonşularını təhlükə altına qoyan Rusiya imperatorluğu da yıxılmışdı.*

*Əski taxtı "Vremennoye pravitelstvo" adını daşıyan müvəqqəti rus idarəsi təmsil edirdi. O, imperatorluğun min bir müxtəlif millətlər üzərində itirilmiş hakimiyyətini qurmağa çalışırdı. Lakin nə ona fikir verən, nə də yardım edən vardı. Çünki bu yeni hökumətlə bərabər digər bir qeyri-rəsmi hökumət də vardı ki, bu da sovetlər (fəhlə və əsgər deputatlar soveti) adlanırdı.*

*Bu sovetlər bütün cəbhələri başlı-başına buraxan, pozğunlaşmış rus əsgərlərini yenidən təşkil edib öz əmrlərinə tabe etdirməyə çalışırlar. Odur ki, əhali çox vaxt iki bir-birinə zidd əmrlər qarşısında nə edəcəyini bilməyərək çaşıb qalmışdı.*

*Vəziyyətdən istifadə edən bolşeviklər daha da fəallaşaraq Rusiyanın bəzi şəhərlərində öz mövqelərini möhkəmləndirdilər.*

*Beləcə anlaşılmazlıq baş alıb getməkdə davam edirdi. Rus əsgərləri içki mağazalarını dağıdaraq küçələrdə sərxoş dolaşaraq bolşevik agentlərinin təbliğini günahsız zabitlərə qarşı zorakılıq etməklə ifa edirdilər.*

## 2. QAFQAZ ÜZƏRİNDƏ QARA BULUDLAR

Yavaş-yavaş Qafqaz üzərində də qara buludlar görünməyə başladı. Günü-gündən evdən qorxulu məktublar gəlməkdə idi. Türkiyə cəbhəsini buraxıb qaçan rus və erməni əsgərləri zəngin Azərbaycana dolmağa və buraları ələlərinə keçirməyə çalışırdılar. Bir xeyli hazırlıq görən də bunlar idi. Türkiyədən yedikləri zərbələrin intiqamını silahsız azəri türklərindən almağı düşünürdülər.

Bu vəziyyət qarşısında milli düşüncəli azəri tələbələri də ali məktəbləri buraxaraq Rusiyanın hər tərəfindən ana yurdlarına gəlirdilər. Çünki bunlar artıq bu dəfə millətə elmləri ilə deyil, canları ilə lazım olduqlarını anlayırdılar.

## 3. QAFQAZ MÜSƏLMAN TƏLƏBƏLƏRİ KOMİTƏSİ

Bakıda dərhal "Qafqaz müsəlman tələbələri komitəsi toplandı və vaxt itirmədən fəaliyyətə başladı. Vəziyyət o qədər təhlükəli idi ki, artıq durmaq zamanı keçmişdi. İlk toplanışın qərarı ilə hər tələbə öz mahalına gedib çalışmalı idi. O zaman qarşımızda həll olunası üç məsələ vardı: Qafqaz müsəlmanları qurultayında iştirak, Nargin adasındakı Türkiyə əsirlərini qaçırmaq, əsgəri nizam görməmiş azəri türklərindən könüllü əsgər toplamaq. Bunların ən asanı qurultay idi.

## 4. QAFQAZ MÜSƏLMANLARI QURULTAYI

Qafqazın hər tərəfindən gələn nümayəndələr "İsmailliyyə"nin böyük salonunu doldurmuşdular. Arkadaşlarımın fikrini bildirmək üçün növbəm çatdıqda kürsüyə çıxdım və rusca danışmaq üçün icazə istədim. Ancaq... "olmaz, olmaz! Bildiyin qədər türkcə danış" - deyə hər tərəfdən bağırtılar eşitdim. Bu hal məni sevindirdi və ilham verdi. Sözümü bitirərək, kürsüdən endiyim zaman, rəhmətlik Nəsib bəy yaxınlaşdı və əlimi sıxaraq, bizimlə eyni fikirdə olduqlarını anlatdı və birlikdə çıxış etməyimizi təklif etdi. Bundan sonra firqəçi olmadan "Ədəmi Mərkəziyyət Müsavat" firqəsində birlikdə çalışmağa başladım.

## 5. ŞEYXÜLİSLAM İLƏ MÜFTİ

Bu qurultayda ən sevincli və unudulmaz bir hərəkət Şeyxülislam ilə Müftinin çıxışı idi. Onlar birlikdə kürsüyə çıxaraq bərabər nitq söylədilər və ikisi də əskidən bəri türk millətinə minlərcə bəlalar gətirən məzhəbçiliyin nə qədər zərərli olduğunu anladılar və qucaqlaşıb öpüşdülər. Bu gündən etibarən artıq aramızda məzhəb məsələsi qalmadığını titrək səslərlə elan etdilər.



O sevinc kurultusunu, o sevinc göz yaşlarını görmək lazım idi ki, millətimizin fanatizmdən nə qədər uzaq olduğu anlaşıla bilinsin. Dəqiqələrcə alqışlar bitmirdi.

Bundan sonra həqiqətən də bir azəridən "sünnimisən", "şiəmisən" dəyə soruşmaq böyük bir həqarət və tərbiyəsizlik sayılırdı.

Əskidən bəri ruslar, azəri türkləri arasında bu məzhəb ayrılığını dərinləşdirməyə çalışmışlar. Bol-bol pul sərf edərək iki tərəfin mollalarına iltifat göstərərək aralarını vurmaqda idilər. Dövlət tərəfindən şiələrə, sünnilərə məxsus ayrı-ayrı ruhani məktəbləri belə qurulmuşdu. Hətta, rus litseylərində oxuyan türk tələbələri arasında da bu niyyəti təqib etməyə çalışırdılar.

Yaxşıca xatirəmdədir ki, təhsil aldığım Tiflis litseyində 1912-1913-cü illərdə müdriyyət eyni siyasəti yürütmək istəyərək bizə iki molla göndərmişdi. Birisi şiələrə, digəri isə sünnilərə ilahiyyət dərsi verəcəkdi. Bu hal hamımızı düşündürdü. Necə olur ki, can-ciyər bir millət, eyni bir dil sahibi iki qardaş bir-iki uydurma sözlə bir-birindən ayrılacaqdı?.. Mərhum atamın bu işə müdaxilə etməsi nəticəsində litseyin içində olan kiçicik məscidə toplaşdıq, 80-ə qədər tələbə idik. Məsələni müdriyyətə sezdirmədən ikiyə ayrılmayacayıq - deyə qərar verdik. Mollaların birisi türkcə, digəri isə ilahiyyət dərsi deyəcəkdir. Bu qısa, lakin əhəmiyyətli qərarımızı dərhal mollalara və müdriyyətə bildirərək, nəhayət, qələbə qazandıq.

## 6. NARGİN ƏMƏLİYYATI

Qurultay bizim ikinci məsələnin həllinə də maneə deyildi. Türkiyə əsirlərinə yardım edən gizli cəmiyyət sırf tələbələrin deyildi. Biz orada yalnız bir neçə nəfər idik. Nüfuzlu ailə qadınlarının da bir çoxu öz faydalı işləri ilə cəmiyyətə kömək edirdi. Onlar ərzaqla bərabər əsirlərə silah və elektrik fanarları keçirməyə nail olurdular.

Gecə yarısı ada ətrafında pusquda duran təşkilatımızın qayıqları, fanar işarələrinin köməyi ilə adaya yanaşaraq bir neçə əsiri səssiz qaçırtdı. Bir gün ərzində 16 zabit qaçırıldı. Zığ burnunda bağlanan qayığı dalğalar gecə qoparıb dənizə aparmışdı. Səhərisi rus qəzetləri sevinclə belə bir xəbər verirdilər: "Bu gecə Nargin adasından 16 türk zabiti qaçmaq təşəbbüsündə olmuşlarsa da, fırtınanın şiddətindən qayıqlar çevrilmiş və özləri də boğulmuşlar".

Halbuki, qaçqın zabitlər "Cəmiyyəti-Xeyriyyə (İsmailliyyə) binasında istirahət etməkdə idilər.

Demək, qaçanların izini Xəzər dənizi yumuşdu.

## 7. SİLAHSIZLIQ VƏ ƏSGƏRLİK DƏRDİ

Ən böyük dərdimiz silahsızlıq və əsgərlik idi. Halbuki, gündən-günə yurdumuzu təhlükə sarmaqda idi. Cəbhədən çəkilən və türklük əleyhinə təhrik edilən ağılsız rus əsgərləri keçdikləri dəmiryolu boyunca türk kəndlərinə atəş açaraq əhalini qətl və qarət etməkdə idilər. Hər tərəfdə bu səbəbdən böyük hazırlıqlara başlandı. Hər kəs varını -yoxunu silaha verməyə başladı. Və el bütövlüklə bu işə girişdi. Hacı Zeynalabdin kimi varlılardan pul toplandı. Və "İsmailiyyə"nin bir küncündə gurultusuz könüllü əsgər qeydinə başlanıldı.

İlk həftə 50-60 könüllü yazıldı. Onların arasında dostlarıma örnək olmaq üçün məndə vardım.

Təşkilatın başında atlı minbaşısı İskəndərbəyli dururdu.

Könüllülərimizin içərisində çoxlu dağıstanlı qardaşlarımızdan da var idi.

Bakının Çəmbərəkənd məhəlləsində bir məktəb binasından tələsik kazarma düzəldildi və dərhal əsgəri təlimlərə başlandı.

Ancaq silahsız idik. Kazarma düzəldikdən sonra daha 20-30 əsgər alındı. Bunların arasında milyoner Hacı Zeynalabdinin oğlu Məhəmməd də var idi. Bu gənc millət yolunda özünü qurban verməyə qarşımızda and içdi. Və o gündən səmimi dostumuz oldu.

Əsgər toplamaq çətin deyildi. Könüllü yazılan, öz millətinə xidmət etmək arzusunda olanlar çox idi. Ancaq silah və eyni zamanda zabit yoxluğu böyük nöqsanlarımızdan biri idi. Zabit məsələsini həll etmək üçün polkovnik Tabasaranlının idarəsi altında Çəmbərəkənddə bir hərbiyyə məktəbi quruldu və tələbə dostlarımızdan bir çoxu oraya yazıldı.

Girişdiyimiz bu ciddi hazırlıqlar Bakıda da fəaliyyət göstərən sovetlərin heç də xoşuna gəlmirdi. Eyni zamanda ermənilərin də rus əsgərləri arasında bizə qarşı apardıqları şiddətli təbliğat zatən gərgin olan aramızı bir qat daha gərginləşdirirdi. Nəhayət, göz önündən çəkilməyə qərar verdik.

## 8. LƏNKƏRAN OLAYLARI

Bizə ən uyğun yer Lənkəran şəhərini seçdik və bir gün axşama doğru Lənkərana 80-ə qədər nizami əsgərlə yola düşdük. İlk dəfə olaraq Lənkəran əhalisi sevincə, göz yaşları ilə milli əsgərlərini salamlayırdı.

Özümüzü qüvvətli, daha doğrusu, silahlı göstərə bilmək üçün 12-13 silahlının ön sıralarda minlərcə əhalinin bizi əhatə etməsi, gurultulu türk əsgəri şərqisi, nizamla yürüş, zabitlərin salam verən parlaq qılınçları və əhalinin ardı-kəsilməz alqışları həqiqi rəsmi keçidi andırmaqda idi.



Silahsız olduğumuzu kimsə hiss edə bilmədi. Lakin, vaxt itirmədən silahlanmamız lazım gəlirdi. Bu isə Lənkəranın iki kazarmasının yerləşən və hər kazarmada yüzdən artıq olan rus əsgərlərinin silahlarını almaq, kazarmaları isə ələ keçirməklə mümkün idi. Apardığımız kəşfiyyata görə bu kazarmalarda tüfəng və pulemyot bol idi. Bu isə çox mühüm idi, belə ki, artıq Bakıdan silah toplamaq ümidini itirmişdik.

Ermənilər bizdən daha əvvəl stansiyanı ələlərinə keçirərək buradan keçən rus əsgərlərini qarşılayaraq onların silahlarını satın alırdılar.

Təəssüf ki, o zamam ermənilərdə olan qüvvətli milli təşkilat bizdə hələ yox idi.

Çox az bir zamanda bu işdə də müvəffəq olduq. Lənkəranın qaranlıq, yağmurlu, çamırlı gecələrinin birində, əvvəlcə öyrəndiyimiz yollar ilə müəyyən vaxtlarda səssizcə hücum edildi. Bir damla qan axıtmadan kazarmaları əlimizə keçirdik. Təslim olan rus əsgərlərinə bir şey edilmədi, yalnız silahları alındı və özləri də buraxıldı. Kazarmalarla birlikdə əlimizə 200-dən çox tüfəng, saysız patron, 11 pulemyot, yük arabaları, bir neçə əsgər mətbəxi və 40-a qədər minik atı keçdi. Artıq durmadan silahlara görə əsgər götürməyə başladıq.

Sayımız tezliklə 200-ə çatdı. Atlı, pulemyotçu hissələr ayrıldı. Topçu zabitimiz vardısa da, topumuz yox idi. Onu da gözləmədiyimiz yerdən Tanrı bizə yetirdi.

## 9. ASTARA ƏMƏLİYYATI

Bir gün adamlarımız sevincli bir xəbər gətirdilər. Astara limanında ruslar sərhəd boyundan qaldırdıqları topları paraxoda yükləyərək Bakı Sovetinə göndərmək niyyətində idilər.

Dərhal "erkani-hərbimiz" toplanaraq topların ələ keçirilməsini qərara aldı. Bu qərarın icrasını topçu yüzbaşısı, mərhum Kaçmarjevski öz üzərinə götürdü və 10 nəfər seçmə əsgərlə Astaraya yollandı.

Bu gənc zabit qısa bir zamanda bizləri o qədər sevdi ki, bizimlə tam qardaş olmaq arzusu ilə dinimizi belə qəbul eti. Onlar dan yeri ağaranda Astaraya çatdılar.

Paraxod yola düşməyə hazırlaşırdı. Dərhal paraxod ələ keçirildi və Kaçmarjevskinin əmri ilə Lənkərana doğru yol aldı. Özü əsgərlərinin bir qismi ilə Lənkərana xəbər göndərərək, bir neçəsi ilə paraxodda qalmışdı. Əlindəki bombası ilə ruslara, - paraxodun yolunu dəyişdiyini anlasam son bombanı top mərmilərinin içinə atacağam, əgər canına qıyan varsa -deyə and içdi. Bu dəfə topçu hissəsi də quruldu.

Təşkilatımız ad qazandıqdan sonra sıralarımıza təəssüf ki, bir bölük şux, lakin fitnəkar gənclər yavaş-yavaş sızmağa başladı.

## 10. İPƏK YORĞANLI MİLYONER BALALARI, İLK ŞƏHİD

Bakı milyonerlərinin oğulları quru yerdə, başları altında atının yəhəri, paltosuna bürünüb yatmaqda ikən, bu yeni gəlmə gənclər ipək yorğanları ilə gəlirdilər. Bunların şux geyimləri, inqilab dövründə olan Bakıya gedib sıx-sıx düşmən gözünə görünmələri hər iki tərəfdə də çox pis təsirlər buraxırdı. Odur ki, zavallı dostumuz Məsimədin vaxtsız ölümü fəlakətimizin banlanğıcı oldu.

O zaman ştabımız tərəfindən bəzi əsgəri məsələləri həll etmək üçün Bakıya göndərilmişdim. Dostumuzun faciəli ölümü səbəbindən cənazəni gözləmək üçün Bakıda qalmağım lazım gəldi.

Dəfn mərasimində zabitlərimizdən Əsədullazadə ilə 18 əsgər iştirak edirdi. Bu azlıq belə ermənilər-ruslar arasında çox böyük həyəcan oyandırdı. Onlar kinlərindən dəli olurdular və "az bir zamanda bu vəhşilərdən belə bir nizami əsgər?" deyirdilər. Bu hal dişlərinə qədər silahlanmış erməni-rus və yarıbolşevik əsgərləri bərk düşüncəyə saldı.

Qara buludlar yazıq Vətənimizi bürüyürdü.

## 11. QARA MART GÜNLƏRİ

Hamımıza bəlli olan qara mart günləri gəldi. Silahsız başıpozuq bir neçə hərbçi zabit və 18 əsgərə qarşı hərb görmüş, son sistem düşmən alayları döyüş vəziyyəti aldılar.

İstehkamları birinci gecədən buraxıb gedənlər yenə də o şux gənclər oldular.

Nizam görməmiş əhalidə daha çox cəsarət və hövsələ olması bu qanlı günlərdə anlaşıldı. Eyni zamanda Azərbaycanın Muğan çölündəki qara yarası olan rus kəndləri də rus ordusu ilə birləşərək Lənkərandakı əsgərlərimizə hücum etdilər.

Gəncə tərəfdən yardıma qoşulan qardaşlarımız hələ gəlib yetişməmişdilər. Aramız kəsilmişdi. Axşama qədər sürən qeyri-bərabər qanlı döyüşdən sonra qalan qəhrəman əsgərlərimiz İran sərhəddini keçmək məcburiyyətində qaldılar və minbir fəlakətdən sonra dağınıq bir halda İranın Gilan vilayətinə gəlib çıxdılar. Yoxsulluğa baxmayaraq burada da tutduğumuz yoldan çəkilmədik.

Gilan qəhrəmanı Mirzə Küçük xan ilə bərabər Rəşt, Ənzəli vasitəsi ilə Bakıya rus bolşevik ordularına yardıma gedən qüvvələrin yolunu kəsməyə çalışdıq.

## 12. İSTİQLAL ULDUZU GƏNCƏDƏ DOĞDU

***Azərbaycan istiqlalı uğrunda çalışmanın qanlı səhnəsinin birinci pərdəsi Lənkəran hadisələri ilə bitdi. Bundan sonra fəaliyyət***



***Gəncə və Gilan tərəfə keçmişdi. Və bir neçə ay sonra Azərbaycanın istiqlal ulduzu burada, Gəncədə doğdu.***

***Unutmamalı ki, bu istiqlalın təməlini iki qardaşın müqəddəs qanı boyamışdı.***

***Uzun illər çəkdiyimiz bəlaların sonu yaxınlaşır. Ancaq hər kəs bilməlidir ki, qurtuluş göydən düşəcək bir şey deyil və sözlə qazanılmaz!***

**Mirəziz Seyidi**

*"Azərbaycan Yurd Bilgisi" məc.*
*28 may 1933, N17 ("Elm", 17.XI.1990)*

**"525-ci qəzet" 26 mart 1998**

# 1918-Cİ İLİN MART SOYQIRIMI RƏSMƏN NİYƏ QEYD EDİLMİR?(Dİ)

***Hörmətli toplanış, mühüm məsələ, boş nəticə***

*1995-də ermənilər genosid günü kimi hər il qeyd etdikləri 24 aprelin 80 illiyini böyük hay-küylə böhtan və iftira kampaniyası ilə qeyd etməyə hazırlıq görürdülər. Bizim də ünvanımıza olmazın ittihamlar irəli sürülürdü. Fevralda bununla əlaqədar olaraq televiziyanın "7 gün" proqramında 1918-ci ilin 31 mart qırğınını, ermənilərin vəhşiliklərini, Azərbaycan Xalq Cümhuriyyətində bu hadisəyə verilən hüquqisiyasi qiymәti xatırlatdıq. Qeyd eim ki, hələ əvvəlki bir neçə ildə də müstəqil mətbuat orqanlarında bu genosidlə əlaqədar xeyli yazılar dərc olunmuşdu. Bu dəfə söhbət 31 martı müstəqil Azərbaycanda da matəm, genosid günü kimi rəsmi qeyd etməyi yenidən bərpa etməkdən gedirdi. Prezident aparatında H.Orucov bu məsələ ilə əlaqədar çox böyük fəallıq göstərdi. Tarixçilər, mövzu ilə əlaqədar olan mütəxəssislər, hətta millət vəkilləri toplaşdı, geniş fikir mübadiləsi oldu. Millət Məclisinə layihə təqdim etmək üçün xüsusi komissiya ayrıldı. Sonda fikirlər haçalandı. Milli matəm günü, döndü oldu. "Yaddaş günü", 31 mart döndü oldu 28 noyabr. Nə üçün? 28 noyabr, toplanışda millət vəkillərindən birinin təklifi idi.*

*O deyirdi ki, 31 marta az qalıb, biz tədbir görməyi, nəsə çap etməyi çatdırmarıq, gəlin vaxt qazanmaq üçün noyabrın 28-ni nəzərdə tutaq. Mən hesab edirəm ki, elmi və tarixi cəhətdən tamamilə əsssız olan bu*

*məsuliyyətsiz yanaşma və gün seçmək qərar layihəsinə ələbələ salınmışdı. Tarixçilərin bir qismi vaxtı ilə yazdıqlarının indi açıqsaçıq əksinə getmək istəmirdilər, aparatda olanlar, rəhbərliyin Müsavata olan münasibətini bilirdilər. Genosidi ermənilərlə yanaşı bolşeviklər, ruslar həyata keçirmişdilər, bu da üstündən keçiləsi şey deyildir. Qısası, layihə hazırlandı, onun bir nüsxəsi məndə durur. Yığışdıq, danışdıq, dağıldıq. 31 mart məsələsi beləcə açıq qaldı. İndi həmin layihəni tarixi sənəd kimi oxuculara təqdim edirəm. Sonrakı isə... sizə məlumdur.*

LAYİHƏ

## *YADDAŞ GÜNÜNÜN ELAN OLUNMASI BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN QƏRARI*

Siyasi müstəqilliyini öz ərazisində bərqərar etməkdə olan Azərbaycan xalqına qarşı millətçişovinist dairələrin təhrikilə genişlənən erməni təcavüzü milli faciə səviyyəsinə və açıqaşkar soyqırımı həddinə çatmışdır. Dənizdəndənizədək, türksüz, monoetnik "Böyük Ermənistan" xülyasını reallaşdırmaq məqsədilə erməni təcavüzkarları yaranmış əlverişpi fürsətdən istifadə edərək əzəli Azərbaycan torpaqları olan indiki Ermənistan ərazisində, yuxarı Qarabağda və onun ətraf rayonlarında azərbaycanlılara qarşı sön yeddi ildə misli görünməmiş cinayət və vəhşiliklər, kütləvi qırğınlar və daha dəhşətli qətl-qarətlər tərətmiş, yüz minlərlə silahsız və günahsız insanın məhv edilməsi və yeni-yeni torpaqların işğal olunması ilə kifayətlənməyərək mənəvi soyqırımına əl atmış və maddi-mədəniyyət abidələrimizi yer üzündən silib yox etməyə başlamışlar. Müxtəlif dövrlərdə, müxtəlif dairələr tərəfindən dəstəklənən bu məkrli siyasət XIX əsrin əvvəllərindən başlayaraq bu günədək gah gizli və açıq mübarizə, gah da milli qırğın və müharibələr vasitəsilə mərhələ-mərhələ, həm də müstəsna çevikliklə həyata keçirilməkdədir.

Qafqazın Rusiya tərəfindən işğal edilməsindən dərhal sonra ermənilərin Yaxın Şərqdən köçürülərək mütəşəkkil qaydada əzəli Azərbaycan torpaqlarında yerləşdirilməsinə və azərbaycanlıların ellikcə sıxışdırılıb bu torpaqlardan qovulmasına başlanmışdır. Qısa müddət ərzində İrandan və Türkiyədən 130 minə yaxın erməni əsasən Şimali Azərbaycanın İrəvan, Naxçıvan və Qarabağ xanlıqları ərazisinə və Qafqazın başqa bölgələrinə köçürülmüşdür. 1828-ci ildə İrəvan və Naxçıvan



xanlıqları ərazisində yeni bir inzibati bölgə Erməni vilayəti təşkil edilərkən bu ərazidəki 752 yaşayış məntəqəsindən cəmi 62-si erməni kəndi olmuşdur. Dağıdılmış 359 müsəlman kəndinin əhalisinin bir hissəsi məhv edilmiş, bir hissəsi də təqiblər və irqi-ayrı seçkilik siyasəti üzündən İrana və Türkiyəyə qaçmışdır. 20-ci yüzilliyin əvvəllərində xaricdən gələn ermənilərin sayının bir milyona çatması demoqratik vəziyyətin əsaslı surətdə dəyişilməsinə gətirib çatdırmışdır.

1905-ci ilin əvvəlində Bakıda, Naxçıvanda, İrəvanda, Zəngəzurda, Gəncədə, Qarabağda erməni silahlı dəstələri şəhər və kəndləri yandırmış, əliyalın əhalini, qocaları, qadınları, uşaqları təsəvvürə gəlməyən qəddarlıqla qılıncdan keçirmişlər. Təkcə Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarında 75 müsəlman kəndi dağıdılmış, İrəvan və Gəncə quberniyalarında 200-dən artıq yaşayış məntəqəsi viran qoyulmuş, əhalisi vəhşicəsinə qətlə yetirilmişdir. "İrəvan mahalı bir yanar dağa, vulkana dönüb azərbaycanlıları boğmaqda idi". 1914-cü ildə Andranikin silahlı dəstələri Xoy, Dilman, Səlmas əyalətlərində 150 minə yaxın, Şərqi Anadoludakı Qars, Ərdəhan və Ərzurum bölgələrində 200 mindən artıq azərbaycanlını qətlə yetirərək həmin əraziləri müsəlmanlardan təmizləmişdir, Nəzərdə tutduqları Ermənistan dövlətinin əsasını qoymaq üçün erməni silahlı dəstələri İrəvan, Naxçıvan, Zəngəzur, Zəngəzur-Qarabağ istiqamətində bütün yaşayış məntəqələrinin azərbaycanlı əhalisini qırmaq və yaxud silah gücünə qovmaq, bu yerlərdə erməniləri məskunlaşdırmaq planını hədsiz amansızlıqla həyata keçirirdilər.

Ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri soyqırımı 1918-ci ildə daha geniş miqyas almış və daha böyük qəddarlıqla davam etdirilmişdir. Mart-aprel aylarında Bakıda, Şamaxıda, Qubada, Muğanda, Lənkəranda ermənilər 50 mindən artıq azərbaycanlını qətlə yetirmiş, evlərini talan etmiş, yüz minlərlə silahsız və günahsız əhalini didərgin salmışlar. Təkcə Bakıda 30 minə yaxın soydaşımız qanına qəltan edilmiş, Şamaxı qəzasının 58 kəndi dağıdılmış, 7 minədək adam, o cümlədən 1653 qadın, 965 uşaq öldürülmüş, Quba qəzasında 122 müsəlman kəndi yerlə-yeksan edilmişdir. Qarabağın dağlıq hissəsində 150-dən çox, Zəngəzur qəzasında 115 müsəlman kəndi vəhşicəsinə dağıdılmış, əhalinin xeyli hissəsi qılıncdan keçirilmişdir. İrəvan quberniyasında 211, Qars vilayətində 82 müsəlman kəndi yandırılmışdır. İrəvan müsəlmanlarının bir müraciətində göstərilir ki, orada 88 kənd dağıdılmış, 1.920 ev yandırılmış, 131.970 nəfər öldürülmüşdür. Erməni caza dəstələri, zinvarları tərəfindən törədilən vəhşiliklər, daşnak hakimiyyəti dövründə yeridilən "türksüz Ermənistan" siyasəti nəticəsində İrəvan quberniyasının Azərbaycanlı əhalisinin sayı 1916-cı ildə 373582 nəfər əvəzi-

nə 1922-ci ildə cəmi 70 min nəfər olmuşdur. Ümumiyyətlə, 20-ci yüzilliyin I rübündə ermənilərin törətdikləri kütləvi qırğınlar, azərbaycanlılara qarşı yönəldilmiş soyqırımı zamanı öldürülən, bədən xəsarəti alan, əsirlikdən qovulan, vəhşiliklərə və zülmə məruz qalan əhalinin sayı 2 milyon nəfərdən çox olmuşdur. Bunu nəzərə alaraq Azərbaycan Xalq Cümhuriyyəti hökuməti erməni təcavüzü qurbanlarının xatirəsini əbədiləşdirmək məqsədilə 31 martı vətəni milli matəm günü elan etmişdir. Həmin gün iki dəfə 1919 və 1920-ci illərdə qeyd edilmişdir...

...Təkcə XX yüzilliyin ötən onilliklərində bir milyondan artıq azərbaycanlı ermənilər tərəfindən vəhşicəsinə öldürülmüş, 1,5 milyondan çox soydaşımız indiki Ermənistan ərazisindən qovulmuşdur. 1918-ci il Batum müqaviləsinə görə cəmi 9 min kv.km. ərazisi olan Ermənistan bu gün ən azı 40 min kv. km. əzəli Azərbaycan torpaqlarını öz nəzarəti altına almışdır. BMT Baş məclisinin 1948-ci ildə qəbul etdiyi 9 dekabr tarixli Beynəlxalq Konvensiyasına göra bu qəbildən olan cəza aksiyaları hüquqi baxıdan soyqırımı sayılmalıdır.

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. Davakar erməni dairələrinin ərazi iddialarını, qızışdırdıqları milli ədavəti, 1905-1907, 1918-1920 və 1988-1995-ci illərdə törətdikləri kütləvi qırğınları, Azərbaycan xalqının başına gətirilən və bu gün də davam etdirilən müsibətləri gələcək nəsillərə çatdırmaq, təcavüz qurbanlarının xatirəsini əbədiləşdirmək məqsədilə 28 noyabr "Tarixi Yaddaş Günü" elan olunsun və hər il dövlət səviyyəsində qeyd edilsin.

2. "Tarixi Yaddaş Günü"nün qeyd edilməsi, erməni təcavüzünün Azərbaycan xalqına, onun genefonduna, maddi və mənəvi dəyərlərinə vurduğu ziyanın tədqiqi, azərbaycanlılara qarşı yönəldilmiş soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsilə bağlı tədbirlərin həyata keçirilməsinə dair respublika Prezidentinin rəsmi fərmanının verilməsi məqsədə uyğun sayılsın.

3. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə tapşırılsın: Azərbaycan xalqına qarşı törədilən faciənin miqyası və formalarının hüquqi baxımdan soyqırımına uyğun olduğunu nəzərə alaraq bu barədə BMT və müxtəlif beynəlxalq təşkilatlara, ayrı-ayrı dövlətlərə məlumat versin.

**Redaksiyadan:** *Bu yazı redaksiyaya 10 gün qabaq təqdim edilib. Dünən qəzetlərdə "Azərbaycanlıların soyqırımı haqqında" prezidentin fərmanı elan olundu. Yaxşıdır ki, 34 ildən sonra ictimaiyyəti maraqlandıran, tarixçilərin üzərində qətiyyətlə durduqları mühüm bir məsələ rəsmiləşdirildi, həllini tapdı.*

***"525-ci qəzet"***
***28 mart 1998-ci il***



## NİYƏ BİZ ƏZAB ÇƏKİRİK, DÜŞMƏN SEVİNİR?

Daşnaklar Ermənistanda qatı millətçilik təbliğatının, açıq və gizli hamilərinin güclü yardımı sayəsində hakimiyyəti yenidən ələ keçirdilər. Azərbaycanın Dağlıq Qarabağ və ətraf rayonları da artıq 6 ilə yaxındır ki, onların silahlı işğalı altındadır.

Qatı, təcavüzkar, ifrat şovinist "dar bir milliyyət və inaniyyət (fanatizm)", mücəssəməsi olan bu siyasi, hərbi, terrorist qurum əvvəllər Osmanlı imperatorluğu torpaqlarında özünə Ermənistan adlı dövlət yaratmaq xəyalında idi. Odur ki, Qərbin "Şərq məsələsi" nə bir "erməni məsələsi"də calaşdırmaq ümidində idi. Başa çatmaqda olan 20-ci yüzilliyin ilk illərinə qədər daşnaklar Rusiyanın hakim dairələrinə arxalanaraq Türkiyəyə qarşı səlib yürüşü kampaniyasının carçıları sırasında gedirdilər. Bütövlükdə "panislamizm" hər şeydən əvvəl Türkiyə və türk xalqlarına qarşı çevrilmiş, ermənilərin canfəşanlıqla təbliğ etdikləri, xristian dünyasını qorxudub öz tərəflərinə çəkmək istədikləri şüar idi.

Birinci rus inqilabı ərəfəsi və inqilab dövründə Rusiya imperiyasının zəif düşdüyünü, ciddi böhran keçirməkdə olduğunu görən daşnaklar üzlərini Osmanlı torpaqlarından Qafqaz səmtinə döndərdilər. Qafqazın "panislamizm" vətəni, dayağı olduğu barədə genişmiqyaslı ideoloji təxribata, təbliğata başladılar. 1905-ci ilin 9 yanvarında Peterburqda qanlı bazar hadisəsindən az keçməmiş Bakıda və Qafqazın bir sıra yerlərində müsəlmanlara qarşı soyqırımı planlaşdırıb həyata keçirməyə başladılar. "Erməni-müsəlman qırğını, davası" beləcə siyasi leksikona daxil oldu.

Diqqət veriləsi cəhət budur ki, daşnaklar əsrin əvvəllərində işləyib-hazırladıqları torpaq işğalı, türk-müsəlman əhalisini sıxışdırıb, lazım gəldikdə məhv edib ərazilərini zəbt etmək strategiyasını bütün əsr boyu bu və ya başqa taktiki gedişlərlə davam etdirməkdədirlər. Həm də bu təcavüzkarlıq xəttinə Rusiya və Qərbin xristian dünyasının tarixdən gələn düşmənçilik meyilli dairələrini cəlb etmək sahəsində canfəşanlıqla əməli iş də görülür.

Digər diqqət verilesi cəhət daşnakların, təcavüzkar erməni millətçiliyi planlarını vaxtında görüb ifşa edən uzaqgörən, xəbərdarlıq edən mütəfəkkir alim və siyasət adamlarımızın müxtəlif bəhanələr və uydur-

ma ittihamlarla bəzən öz əlimizlə tariximizdən silinməsinə, cismən məhv edilməsinə, unudulmasına nail olmalarıdır.

Hətta indinin özündə də bu bədnam və zərərli vərdişlər bu və ya başqa şəkildə davam etməkdədir. Məsələn, indiki nəslin dünyamiqyaslı mütəfəkkir Əlibəy Hüseynzadənin panislamizm barədə ermənidaşnak mətbuatının yazdıqlarına tutarlı, elmi cavablarından, əsərlərindən geniş mənada xəbərləri varmı? Elə siyasətlə məşğul olanlarımız xəbərdardırlarmı? Müsbət cavab vermək çətindir.

Azərbaycanın varlığını, mövcudiyyətini, maddi və mənəvi dəyərlərini qoruyub hifz edən, inkişaf etdirən, əsrin ikinci onilliyində milli dövlətçiliyimizi yenidən bərpa etməyə hazır olan nəslin mənəvi ustadları sırasında Əlibəy Hüseynzadənin xüsusi mövqeyi, xüsusi yeri vardır. M.F.Axundov, H.Zərdabi ilə yanaşı istiqlalçı nəslin mənəvi atalarından olan Əlibəy Hüseynzadə Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyi günlərində anılmalı, şükranla yad edilməlidir.

*"525-ci qəzet",*
*16 aprel 1998*

## AZƏRBAYCAN SİYASİ MÜHACİRƏTİ

**Tədqiqatçı Xaləddin İbrahimli "Azərbaycan siyasi mühacirəti (1920-1991)" adlı əsərində Azərbaycan siyasi mühacirətinin tarixi köklərini, onu yaradan şərait və səbəbləri, xüsusilə, Azərbaycan Xalq Cümhuriyyətinin varlığına 1920-ci il aprelin sonunda xitam verildikdən sonra siyasi mühacirətin yeni mərhələsini, onun xaricdəki fəaliyyətini ölkənin daxilində gedən fiziki və mənəvi qətliamlarla şərh edir, aydınlaşdırır. Bunlar indiki müstəqilliyimizin qədr-qiymətini bilmək, onun yenidən "bolşevik kələkbazların" əlinə keçməsi təhlükəsini sovuşdurmaq, M.Ə.Rəsulzadənin də qeyd etdiyi kimi istiqlaldan xalqın, vətənin faydalanmasına, insanlara həqiqi azadlıq verilməsi üçün istifadə edilməsinə alışmaq üçün lazımdır. Müəllif yazır ki, "XX əsr Azərbaycan tarixi yenidən işlənməlidir.**

**...Azərbaycan mühacirətinin yaratdığı irs azad Azərbaycan uğrunda döyüşən irsdir və bütövlükdə Azərbaycan tarixinin, mədəniyyətinin tərkib hissəsidir. O, əsaslı şəkildə öyrənilməli və öyrədilməlidir".**

**Mən bu fikirlərə şərik olur və onların çin olmasını arzu edirəm. Siyasi mühacirət indi də var, bu, daxili mühacirətdir və müstəqil mövzudur.**

**İndi isə mühacirətin uzunömürlü, mübariz orqanı, indi də fəaliyyətini davam etdirən, M.Ə.Rəsulzadənin yaratdığı "Azərbaycan" jurnalında 43 il bundan əvvəl dərc etdiyi "Tarixdə mühacirətin rolu" məqaləsi ilə oxucuları tanış etmək istəyirəm.**

*"525-ci qəzet,"*
*16 aprel 1998*

## TARİXDƏ MÜHACİRƏTİN ROLU

Məhkumiyyət altında bulunan millətlərin fikri mücadilə sahəsində yetişən idealçı bir zümrəsi, məmləkətləri daxilində hökm sürən yabancı İstibdad idarəsinə qarşı son imkanlarına qədər döyüşdükdən sonra, sırf milli istiqlal savaşını daha əlverişli şərtlər daxilində davam etdirmək məqsədi ilə, yurdları dışına mühacirət edərlər. Bu təmiz və sağlam milli mücahidlərin şəxsi və maddi mənfəətlərlə heç bir bağlılığı ola bilməz. Məmləkətlərinin nə zaman və hansı şərtlər içində qurtulacağını bilmədikləri üçün, özlərini heç bir şöhrət və iqbal hisslərinə qaptıramazlar. Bu idealçı zümrənin bir tək amacı (qayəsi) vardır ki, o da əziz yurdlarının (vətənlirinin) səadət və iqbalı (gələcəyi yolunda) canlarını və bütün mövcudiyyətlərini fəda etməkdir. Onlar özlərini şanlı istiqlal ordusunun növbə gözləyən bir əsgəri olaraq hiss edərlər və düşmən zərbəsi və ya əcəl səbəbli silahları bir gün əllərindən düşüncə, - yəqin olaraq onu yeni bir qəhrəman növbətçi-əsgər arkadaşlarının qaldıracağını bilirlər.

Böyləcə, bəzən savaş nəsildən-nəslə heç durmadan eyni əzm və həyəcanla davam edib gedər və nəhayət, şanlı və qəti bir zəfərlə nəticələnir. Milli müstəqil Polşanı bir neçə əsr döyüşdükdən sonra bu idealçı mücahidlər vücuda gətirmişdir. Əski müstəqil Çexoslovakiya dəxi belə bir idealçı camaatın əsəridir. Pilsudski və Masarik, bu iki məmləkət, idealçı məmləkət mücahidlərinin böyük öndərləri (rəhbərləri) idi. Bismark zamanında Alman Birliyinin hər cür əngəllərə rəğmən meydana çıxmasına müvəffəq olan da belə bir zümrə idi. Türki-

yə tarixində məşrutiyyət inqilabını və istiqlal savaşlarını müzəffər qılan, başda böyük Atatürk olmaq üzrə, şanlı milli qəhrəmanlar da bu idealçı zümrə içindən çıxmışlardır.

Tarixdə bütün böyük inqilabların və yeni qurulan milli dövlətlərin inkişaf və meydana çıxmasını təqib və seyr edəcək olursaq, qayə və vəzifə hissi ilə məmləkət xaricinə çıxmış olan idealçı mühacirət zümrələrinin öz millətlərinin həyatlarında nə qədər bariz və şanlı bir rol oynamış olduqlarını açıqca görürük.

Azərbaycan mühacirəti bir-birinə sımsıq bağlı iki qismə ayrılmaqdadır. Birinci qismi, 1920 sənəsi aprelində məmləkətləri rus bolşevik ordusu tərəfindən istila edildikdən sonra, yurd xaricinə çıxmağa məcbur olmuşdu. İkinci qismi, bolşevik idarəsinə qarşı yapdıqları mücadilənin müxtəlif dövrlərində tədricən məmləkətdən ayrılmaq məcbüriyyətində qalmışlardı. Fəqət hər iki dəstə sırf milli istiqlal qayəsi uğrunda savaşmaq əzmi ilə vətənləri xaricinə çıxmış olduqları üçün, dünyanın ümumi vəziyyətinin zaman-zaman üzə çıxardığı müəzzəm güclüklərə və mühacirət şərtlərinin ağırlığına baxmayaraq, bir an üçün belə olsa, savaş qeyrətlərindən geri qalmamışlardır və hər şeyin üstündə fikir və prinsiplərinə sımsıq bağlılıqlarını isbat etmişlərdir.

Dünyanın hər tərəfinə dağılmış olan Azərbaycan siyasi mühacirət kütləsinin bütün məhkum millətlərə parlaq və şanlı bir örnək təşkil edəcək ən yüksək və canlı tarixi siması mərhum Məhəmməd Əmin Rəsulzadə idi. Onun fədakarlıqlarla dolu 71 sənəlik zəngin həyatı Azərbaycan siyasi mühacirətinin yeganə, dəyişməz yolunu cızmışdır.

Milli istiqlal savaşında müvəffəq olmaq istəyən Azərbaycan türk gəncliyi Əmin bəyin müqəddəs prinsiplərindən və şanlı yolundan əsla ayrılmamalıdır.

Fərd olaraq və mücahid olaraq Əmin bəyə bənzəmək ən yüksək idealları olmalıdır.

Davamız daha çox çətin və ağır mərhələlər keçirə bilər. Fəqət ideala və prinsiplərə bağlılıq davam etdikcə, davamızda müzəffər olacağımız yəqindir!

***"Azərbaycan" jurnalı N4-5,***
***iyun-avqust 1955***

**"525-ci qəzet", 16 aprel 1998**



## MİLLƏT SİZƏ MİNNƏTDARDIR

**"Üç sözdən ibarət olan bu cümləni Azərbaycan durduqca hər bir azərbaycanlı türk qəlbində yaşadacaq və dilində təkrar edəcəkdir".**

80 il bundan əvvəl Nəsib bəy Yusifbəylinin Azərbaycan gənclərinə müraciətlə dediyi bu sözlər uzun illər boyu unudulsa da, tarixdə əbədi həkk olunaraq qalmışdır.

Azərbaycan xalq cümhuriyyətinin yaradıcıları M.Ə.Rəsulzadə, F.X.Xoyski, N.Yusifbəyli, Ə.M.Topçubaşov, H.Ağayev və başqaları cümhuriyyət dövründə, həmçinin mübarizələrini 1920-ci il bolşevik aprel işğalından sonra davam etdirənlər isə sonralar milli dövlətçiliyimizi yenidən bərpa etmək, xalqımızı fiziki cəhətdən məhv olmaq təhlükəsindən qorumaq, Bakını və Azərbaycanı düşmən işğalından azad etmək uğrunda qanlı çarpışmalarda Azərbaycan hökumətinin rəsmi çağırışı ilə qardaşlıq köməyinə gələn türk ordusunun təmənnasız yardımını yüksək qiymətləndirmişlər.

"Millət sizə minnətdardır!" sözləri xalqın qəlbindən gələn, hətta yaşlı nəslin son nəfəslərinədək yad etdikləri, pıçıltı ilə də olsa ümidlə təkrar etdikləri şüar idi. Mən uşaqlıqda ağsaqqallarımızdan bu sözləri dəfələrlə eşitmişdim.

Azərbaycan və Bakı uğrunda vuruşlarda səkkiz yüz, bəzi mənbələrdə hətta min bir yüz türk əsgər və zabitinin şəhid olduğu göstərilir. Bakı uğrunda vuruşlarda həlak olmuş türk hərbçiləri Çəmbərəkənd (indiki Şəhidlər Xiyabanı) qəbristanlığında izdihamlı, rəsmi matəm mərasimi ilə dəfn olunmuşlar.

**1919-cu il sentyabrın 15-də** Azərbaycan Cümhuriyyətində, o cümlədən Bakıda şəhərin daşnak, menşevik-eser işğalçılarından azad edilməsinin ildönümü çox böyük tarixi hadisə kimi qeyd edilmişdi. "Azərbaycan" qəzetində "rəsmi şöbədə" dərc olunmuş yazıda deyilirdi ki, sentyabrın 15-i iş günü deyil, həmin gün saat 10-da parlamentin təntənəli iclası olacaq, saat 11-də dənizkənarı bulvarda qoşun hissələrinin rəsmi paradı keçiriləcək, saat 1-də isə döyüşlərdə həlak olmuş və müsəlman qəbristanlığında dəfn olunmuş şəhidlərin məzarları üstündə anma mərasimi keçiriləcək, onların şərəfinə ucaldılacaq abidənin təməl daşı qoyulacaqdır.

**Sentyabrın 15-də** "Azərbaycan" qəzeti bu tarixi gün münasibətilə baş məqalə, "Bakının azad edilməsinə dair", "Bu necə olmuşdu", "Olmuşlar", "Tarixi sənədlər", sentyabrın 17-də "Abidənin təməlinin qo-

yulması" məqalələrini və bu münasibətlə keçirilmiş məclisdəki çıxışlardan parçalar dərc etmişdir.

Buradan görünür ki, matəm mitinqində şeyxülislam Axund Molla Ağa Əlizadə, parlament sədri əvəzi Həsənbəy Ağayev, hökumət başçısı Nəsibbəy Yusifbəyli, "Musavat"ın sədri M.Ə.Rəsulzadə, həmçinin Q.Qarabəyov, Q.Qasımzadə, Ə.Pepinov, M. Əfəndizadə, d-r Seyidov, M.Mahmudov və b. çıxış etmiş, türk və Azərbaycan şəhidlərinin xatirəsini minnətdarlıqla yad etmiş, onlara möhtəşəm bir abidə ucaldılması zəruriyyətindən söz açmışlar.

Şair Əhməd Cavad məşhur şerini oxumuşdu:

*Qalx, qalx sarmaşıqlı məzar altından,*
*Gəlmiş ziyarətə qızlar, gəlinlər.*
*Ey karvan keçidi yollar üstündə,*
*Hər gələn yolçuya yol soran əsgər.*

*Qovduqların sənin yabançı xanlar,*
*Qurtardı ölkəmi tökdüyün qanlar.*
*Bax nasıl ölmədə tozlar, dumanlar,*
*Qərib məzarına bəndə bərabər.*

Mitinqdə çıxış edən İstanbullu türk həkimi bir müddət əvvəl Balkan hərbi zamanı şəhid olmuş azəri türkləri könüllülərinin İstanbuldakı dəfnini xatırlatdı.

Qəzet baş məqaləsində yazırdı ki, "Əgər 28 may Azərbaycan müstəqilliyinin rəsmən elan edildiyi gündürsə, türk-Azərbaycan qoşunlarının Bakını azad etdiyi 15 sentyabr Azərbaycanın öz istiqlalını faktik olaraq əldə etdiyi gündür".

**1920-ci il aprelin 27-də** işğalçı sovet-bolşevik qoşunları Azərbaycanı işğal etdi. Bu dövrdən işğalçılar xilaskar, xilaskarlar işğalçı elan edildilər. Tarixi həyasızcasına təhrif və saxtakarlıq dövrü başladı. Şahidlər, istiqlalçılar kütləvi surətdə məhv edildi, sürgünə göndərildi. Lakin siyasi mühacirətin fəaliyyəti və daxildə müqavimət heç vaxt üzülmədi.

**30-cu illərdə Çəmbərəkənd və Bibiheybət məzarlıqları dağıdıldı. O, cümlədən türk və Azərbaycan əsgərlərinin qardaşlıq məzarları da yerlə-yeksan edildi, yerində park salındı, iz itirildi. Lakin Əhməd Ağa oğlu demişkən, "tarix bir hökmü-rəbbanidir-ilahidir"...**

Cümhuriyyətimizin 80 illik yubileyi yaxınlaşır. Əgər biz özümüzü müstəqil dövlətçiliyimizi 1918-1920-ci illərdə bərpa edib yaşadan



nəslin varisləri hesab ediriksə, tariximizə sahib çıxmaq əzmindəyiksə, ata-babalarımızın qoyduqları təməl daşının yerini tapmalı, abidəni məhz orada ucaltmalıyıq. Türk qardaşlarımıza, xilaskarımız türk əsgərlərinə vaxtilə deyilmiş "Millət sizə minnətdardır!" sözləri bu gün də və yarın da dilimizdən düşməməlidir.

**P.S.** *Türkiyə Silahlı Qüvvələri Baş qərargah nəşriyyatı "Birinci dünya hərbində türk hərbi, Qafqaz cəbhəsi, 3-cü ordu hərəkatı" adlı çox sanballı bir sənədli tədqiqat əsəri çap etmişdir. Bu qiymətli kitabda 1914-1920-ci illərdə Qafqaz və Azərbaycanda cərəyan edən hadisələrə dair də zəngin tarixi material verilmişdir. Bunların sırasında "Türkiyənin Azərbaycana əsgəri yardımı" bölməsi xüsusi maraq doğurur. Müstəqil Azərbaycan Xalq Cümhuriyyəti dövlətinin elan edilməsinin 80 illik yubileyi ərəfəsində bu sənədlərlə tanış olmaq çox böyük əhəmiyyət kəsb edir. "Zaman" qəzeti redaksiyasının belə təşəbbüsünü ancaq alqışlamaq olar.*

***"Zaman", 25 aprel 1998***

UNUTSAQ, UDUZARIQ

## TÜRKLƏRİ NARGİN ADASINDA KİMLƏR QIRIRDI?

**Ermənilər hər il aprelin 24-nü hay-küy və türklərə qarşı kin və nifrətlə qeyd edirlər. Adını genosid "qurban"larını anma günü qoymuşdular. Böyük uydurmalar, külli vəsaitlər, saxta sənədlər hesabına, ağlayıb sızıldamaqla, hadisələrin əsl mahiyyətindən xəbərsiz dairələri xristian təəssübkeşlərini, islam düşmənlərini inandırmağa çalışmışlar və çalışırlar da. Neçə illərdir türkləri genosiddə ittiham edən qətnaməni BMT-dən keçirmək istəyirlər. Bu məsələni aydınlaşdırıb tarixi həqiqəti üzə çıxarmaq üçün BMT-də xüsusi alim mütəxəssislərdən ibarət komissiya da təşkil olunmuşdu. Erməni uydurma və hiyləsi baş tutmamışdır. İndi daşnaklar ayrı-ayrı ölkələrdəki lobbilərinin köməyilə parlamentlərdə bu barədə xüsusi qətnamələr keçirməyə cəhd edirlər. Məqsəd BMT-ni, necə deyərlər, fakt qarşısında qoymaqdır.**

**Türkiyə tarixçiləri erməni uydurmalarını ifşa etmək üçün çox iş görmüşlər və görürlər. Bunu bizim haqqımızda demək olmaz. Uzun müddət tarixçilərimizin xeyli hissəsi məcburiyyət qarşısında qoyulub ermənilərə züy tutmuşlar. Azərbaycan Sovet Ensiklopediyasına baxmaq kifayətdir. 80 ildən sonra Bakıda mart soyqırımı haqqında rəsmi məsələ qaldırılıb. O da əsasən ötəri təbliğat xarakteri daşıyır. Amma ermənilərin bolşeviklərlə, çar şovinistləri ilə birlikdə Qafqazda müsəlman türklərə qarşı əsrlərcə davam edən qətliamını tarixi sənədlərlə, faktlarla, sistemli elmi dəlillərlə üzə çıxarmaq vəzifəsi həll olunmayıb qalır.**

**"Hümmət" qəzetində N.Nərimanovun imzası ilə dərc olunmuş "Göz yaşı tökdürən cəzirə" sərlövhəli yazını oxuculara təqdim edirəm. 1915-1917-ci illərdə Türkiyəyə qarşı işğalçılıq müharibəsi aparan çar Rusiyası qoşunları Sarıqamış, Ərzurum, Trabzon və digər türk torpaqlarını işğal etmişdilər. Rus qoşunlarında xidmət edən ermənilər, həmçinin daşnakların təşkil etdikləri quldur dəstələri birinci növbədə silahsız dinc türk əhalisinə divan tuturdular. Minlərcə türk hərbi əsiri ilə yanaşı qoca, qadın, uşaq əsir kimi ölüm düşərgələrinə gətirilmişdi. Onlardan ən irisi 7 mindən artıq əsirin aparıldığı Nargin adasındakı ölüm düşərgəsi idi. Buradakıları cəlladlar əzab-əziyyətlə qətlə yetirirdilər. Həm də uzun müddət bu düşərgədən camaatın böyük qisminin xəbəri yox idi.**

**Türklərə qarşı erməni-çar genosidini ifşa etmək üçün "Hümmət", "Açıq söz", "Kaspi" və digər mətbuat orqanlarında istənilən qədər faktlar, materiallar var. Özümüzə, keçmişimizə xoşları gəlməyənlərə böhtan və uydurma dolu qərəzli yazılar dərc edən iqtidar qəzetləri, "qələm qoçuları"nın da bunlardan nə xəbəri var, nə də bu işlərə marağı. Alimlərimizin böyük bir qismi isə çörək hayındadır. Düşmənsə öz işini görür. Genosiddən danışır, əvvəllər olduğu kimi indi təkcə Osmanlı türklərini deyil, bizi də "bədnam" etmək üçün dəridən qabıqdan çıxır. Bizim başımız nə vaxt ayılaçaq - deyə bilmərəm!**

## GÖZ YAŞI TÖKDÜRƏN CƏZİRƏ

Kaş mən bu cəzirəyə getməyəydim. Kaş bir dəri, bir sümük bədənləri, sifətsiz gözləri, ah-zar edən insanları görməyəydim. Kaş "əfəndim su!..", "əfəndim yemək!", "əfəndim paltar" sözlərini eşitməyəydim. Kaş çılpaq, dodaqları soyuqdan titrəyən, üzləri bozarmış atasız-anasız balaca balalarla söyləşməyəydim. Kaş xəstəxanada başları kərpic üstə can verən igidlərə rast gəlməyəydim!



Min iki yüz insan balası hazır ölüm növbəsində durubdular. Altı mində bu növbəyə hazırlaşır. Tifmi, vəbamı və ya bir qeyri sirayətedici mərəzmi bunları cəzirəyə qurban edəcəkdir?

Yox! Yox!

Aclıq! Susuzluq və soyuq!

Müsəlmanlar: əfəndim su!.. - deyib gözlərinizə baxdıqda guya demək istəyirlər: Siz insanmısınız? İnsaniyyətə dair qanunlarınız varmı? Siz millət balasısınızmı? Zavallı millət balalarına cavabınız nədir?

Sizə baxan, sizi mühakiməyə çağıran bu gözlərdə siz bu sözləri oxuyursunuz? Oxuyub da ürəyiniz sıxılır, gözləriniz ixtiyarsız yaşarır.

Mən ağladım... mən... gündə mərəzlər arasında gün keçirən, gündə dürlü-dürlü xəstələrin ah-naləsini eşidən, anların axır dəqiqələrinə öyrənmiş, tab gətirə bilməyib ixtiyarsız ağladım...

Ağlamamaq mümkündürmü? Vaxtında ata-ananın göz işığı və sonra uşaqlar pərəstdarı və daha sonra vətən qəhrəmanı bir insan indi ilanlar məskəni olan susuz bir cəzirədə can verirkən, quru, partlamış dilini çıxarıb deyir: "əfəndim su!", "əfəndim, yemək".

İndi mən də qulaqları eşidənlərə, vicdanları oyanmışlara üzümü tutub da o zavallı cəzirə əsirlərinin sözlərini təkrar edirəm: "əfəndim, su!", "əfəndim, yemək", "paltar".

Bu göz yaşı tökdürən cəzirə sizi gözləyir, sizə ümid bağlayır. Əmin olunuz siz də mən gördüyümü görsə idiniz və bir şey əlinizdən gəlməməyini düşünsəydiniz, siz də mənim kimi deyərdiniz: kaş bu cəzirəyə getməyəydim.

**N.Nərimanov**

*"Hümmət" qəz. 28 noyabr 1917*

**"525-ci qəzet", 25 aprel 1998**

## QARA BİR İLDÖNÜMÜ

**78** il bundan öncə müstəqil Azərbaycan Cümhuriyyətinin varlığına son qoyuldu. 70 il Azərbaycan ziddiyyətli, keşməkeşli, acılı-ağrılı, sevincli-kədərli illər yaşadı. Bütün təqiblərə, həbslərə, sürgünlərə, ölüm düşərgələrinə baxmayaraq, istiqlal məfkurəsi, müstəqillik ruhu qanımızdan-canımızdan çıxmadı. Azərbaycan siyasi mühacirəti öz fəaliyyətini qətiyyətlə davam etdirdi. Yaranmış şəraitdə belə milli mədəniyyətimizi, maarifimizi inkişaf etdirmək yolunda fədakarlıq göstərənlər də az olmadı. Millət də, xalq da özünü itirməsə, gələcəyə ümidlə yaşadı. İşğalçılarla əlbir olub xalqı soyanlar, qıranlar da oldu, onun başını uca edib tanıdanlar da. Biz 70 illik tariximizdən nə qədər acı olsa da, ayrılmaq tərəfdarı deyilik. Tarixi, keçmişi inkar və ittiham etmək yox, ondan dərs almaq, təkmilləşmək, bəşəri inkişafın məcrasına qoşulmaq şərtdir, vacibdir.

Əlbəttə, kommunist-sovet keçmişinə münasibətə də birmənalı yanaşılmır. Azərbaycanın XI ordu tərəfindən işğalının təqsirini Azərbaycan Xalq Cümhuriyyəti rəhbərlərinin üzərinə yıxmaq istəyənlər də son vaxtlar peyda olmuşlar. Ə.Bayramov adlı birisi "Azərbaycan" qəzetində iddia edir ki, "Əsrin əvvəllərində respublikamızda (?) hakim mövqe tutan müsavatçılığın məğlubiyyəti də əsasən onun sırf liberal (?) məzmunu ilə bağlı olmuşdur". Və yaxud başqa birisi Sovet dövrü tarixini 1920-1969, 1969-1982 və s. dövrlərə bölür. Maraqlı olanı, əslində təəccüb doğuranı odur ki, hər iki "kəşf" müəllifinin tarix elmilə əlaqələri yoxdur.

Sovet dövrü tarixinə verilən son qiymətlər içərisində diqqətimi cəlb edən Sov.İKP-nin sonuncu baş katibi M.S.Qorbaçovun "Trud" qəzetinə verdiyi müsahibəsində (6.X.97) söylədiyi mülahizələr olmuşdu: "Sovet adamlarının bir neçə nəsli üçün Sov.İKP yalan məktəbi, prinsipsizlik, nökərçilik universiteti, siyasət, əxlaq və etikada ayrı-seçkilik akademiyası idi".

Azərbaycanda da bu məktəbdə, bu universitetdə, bu akademiyada təhsil-təlim görmüşlər az deyil. Elə əslində başımıza gətirilən bəlalar, düşdüyümüz faciəli vəziyyətlər göydən düşmə deyil. Biz hər şeydən əvvəl 70 ilin yaratdığı ab-havanın, yetişdirdiyi kadrların zülmünü çəkməyə hələ ki, məhkumuq. Ümid yeni gəncliyədir, onu da ki, köhnə ruhda, köhnə ədəb-ərkanla yetişdirmək üçün ciddi-cəhd göstərilir.

27 apreldə hakimiyyət, mərhum dostum akademik Z.Bünyadovun yazdığı kimi "bolşevik kələkbazların" əlinə keçmişdi. Azərbaycanın müstəqilliyi yolunda fədakarlıq göstərən, can qoyan müsavatçı-Azərbaycançı mücahidlər bir an belə bu istila ilə barışmamış, əksinə, qətiyyət və cəsarətlə mübarizə aparmışlar. İstilanı qara il, böyük faciə adlandıran böyük və unudulmaz öndərimiz M.Ə.Rəsulzadənin başçılıq etdiyi müsavatçılar - istiqlalçılar nəsli hər il bu qara ildönümünü də qeyd etmiş "Yaşasın 27 aprel faciəsi ilə əsarətə düşən Azərbaycanın xilası" haqqında son zəfər sözünü söyləyəcək mübariz nəsil!" - demişlərdi.

İndi müsavatçıların arzu etdikləri zaman gəlmişdir. Gənc istiqlalçı nəslin Azərbaycana sahiblik etmək, vətənin taleyinə biganə qalmamaq vaxtı gəlmişdir. Azərbaycanın namus, qeyrət, milli vicdan, cəsarət, həqiqi demokratiya məktəbi keçmiş vətən övladlarına ehtiyacı var.

71 il bundan əvvəl 27 apreli xaricdə necə qeyd etmişdilər? - "Yeni Qafqasiya" jurnalı (Türkiyə) 1927-ci ildə bu istilaya xüsusi nömrə həsr etmişdi. Həmin nömrədən bir yazını oxuculara təqdim edirəm.



## BU GÜN

Bu gün Azərbaycan vətəninin qəlbi qaynayır, bu gün minlərcə Azərbaycan münəvvəri divarları yosun tutmuş zindanlarda Sibiryanın buzlu tundralarında ölümü bir nemət kimi təmənna etdirən qorxunc işgəncələrə təhəmmül edərək (dözərək) böyük qurtuluş günü bəkləyir.

Bu gün tarixdə şərəf və namusla yaşamaq üçün əsl qanı böyük bir firaqətlə (hicranla) döyünən Azərbaycan xalqı çalınmış hürriyyətini böyük bir iztirabla xatırlayır. Zira, bu gündür ki, Şimalın o mənhus kabusu vətənimizin ən məsud bir parçası üzərinə köçmüşdür. Orada fəlakətli sənələrdən sonra yenidən hürriyyət və səadətə qovuşan bir məmləkəti müzlim (qaranlıq) günlərə və qanlı vəhşətlərə uğratmışdır.

Bu gün, Azərbaycanın parlaq səmasında dalğalanan üç rəngli müəzzəz (əziz) bayraq düşmüş və qaralara bürünərək azəri gəncliyinin qəlbinə gömülmüşdür.

Bu gün Moskvanın xəyanətkar əlində parlayan ihanət bıçağı yaşamaq haqqı və qabiliyyətini hər vəsilə ilə isbat edən Azərbaycan türk xalqının bağrına saplandı.

Rusiya, carçı olsun, kommunist görünsün, siyah olsun, qırmızı olsun mahiyyəti, əsla dəyişməyən bir qara qüvvətdir.

Rusiya Asiyanı mütəəddid (saysız) qolları ilə sarımış bir oqtopod (səkkiz ayaqlı)dır ki, məzlum millətlərin qanını əmir.

Rusila şəamətli (uğursuz) sərgüzəştləri ilə əsirləri təlvis edən (qarışdıran) bir yağmagərdir.

Rusiya dişlərini haqqın bədənində bəlləyən qırmızı bir canavardır.

Rusiya "islahat" yapar, fəqət insaniyyətçi maskasının altında insaniyyətin tərəqqilərinə ağzından qanlar sızan bir ifritə kimi seyr edir.

Rusiya "inqilab" yaparsa da, bundan məqsədi bəşəriyyətin təkamülünə xidmət etmək deyil, sülh müvazinəsini pozmaq üçün yeni bir rahzənliyə (quldurluğa) çıxmaqdır.

Rusiya qardaşlıqdan bəhs edirsə, bu bükə bilməyəcəyi qolu çevirmək, zorla keçə bilməyəcəyi hüdudu nəğzəhd edərək (yaxşı söz verərək) aşmaq - irzə, mala, cana əl qoyaraq doymaq bilməyən hirs (acközlük) ilə neft quyularına qayıtmaq üçündür.

Hər azərbaycanlı bu tarixi düşməni tanıyır, namuslu bir fərd yoxdur ki, 27 aprel fəlakətini unuda bilsin.

Fəqət Rusiya 27 aprelin zərbəsi ilə Azərbaycanın həyatını əbədiyyən məhv edə bilmədi.

Qırmızı Rusiya bu təcavüz siyasəti ilə qafqasiyalıların gözünü açdı və bununla özünün Qafqaz dağları arxasına atılacağı böyük günün müvəffəqiyyətini təmin etmiş oldu.

Əvət, ən kiçik hərəkətlərini əfv etməyəcək bir kin ilə idama edəcək azərilərin milli şüurunu şiddətləndirdi. Yarın qəhrəman bir həmlə ilə qalxacaq vətən Moskva istilası haqqındakı qəti və son hökmünü verəcəkdir.

Azərbaycan Rusiyadan qorxmayır, fəqət Rusiya Azərbaycan həmləsinin ən kiçik təzahürü, üzləşməsindən titrəyir, yaxdığı məzlum canlar və yıxılan türk xanimanları onu bu qorxuya sövq edir. Zira, zülm qorxağın işidir.

İstiqlal məfkurəsini yaşatmaq əzmi ilə ölən və ölümünü qorxusuzca qarşılayan gənclik - işdə hakim rus qüvvətini sarsıdacaq bir nəsil!

Yaşasın 27 aprel faciəsi ilə əsarətə düşən Azərbaycanın xilası haqqında son zəfər sözünü söyləyəcək bu mübariz nəsil!

Yaşasın Azərbaycan istiqlalı!

**"Yeni Qafqasiya",**
*27 aprel 1927, N-10 (84)*

**"525-ci qəzet", 28 aprel 1998**



## ƏSLSİZ UYDURMA İDDİALAR AZƏRBAYCAN DÖVLƏTİNİN MÖVQEYİDİRMİ?

Martın 12-də "Azərbaycan" qəzetində "Milli ideologiya: müsavatçı baxışların eroziyası" sərlövhəli iri həcmli bir yazı dərc olunmuşdu. Cümhuriyyətimizin 80 illik yubileyi ərəfəsində rəsmi dövlət qəzetində belə bir mühüm mövzuya hərs olunmuş məqalə diqqətimi cəlb etdi. Oxudum. Populis səciyyəli tərif və mədhiyyələri, yarınmaq meyllərini kənara atıb tarixi-nəzəri cəhətdən yanaşsaq, müəllifin səriştəsizliyi, milli ideologiyanın elementar nəzəri əsaslarından və keçilmiş tarixi yoldan xəbərsizliyi göz önündədir.

"Azərbaycan" qəzeti hər nömrəsində yazır ki: "Rəsmi sənəd və çıxışlarda ifadə olunmuş fikirlərlə bərabər digər yazılardakı mülahizələr də Azərbaycan dövlətinin mövqeyinə uyğun gəlməlidir". Mən heç cür inana bilmirəm ki, fəlsəfə və tarixlə bilavasitə əlaqəsi olmayan, 1995-ci ildə "Heyvandarlıq məhsulları bazarının təşəkkülü və inkişafı xüsusiyyətləri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş, ən əsası isə hər şeyi qarışdırıb siyasi oyuna çevirmək iddiasında olan bir nəfərin əsilsiz uydurma iddiaları "Azərbaycan dövlətinin mövqeyinə uyğun gəlsin".

Onu da əvvəlcədən qeyd edək ki, Azərbaycan dövlət başçısının heç bir çıxışında Ə.Bayramovun iddialarından əsər-əlamətə belə rast gəlmək olmaz.

"525-ci qəzet"in martın 19 sayında dərc olunmuş "Əks-səda"da yazmışdım: "Mən istəyirdim geniş bir cavab yazım. Amma müsavatçılıq anlayışı haqqında lüğətdən oxuduğu "bərabərlik"dən başqa təsəvvürü olmayan adamla nə mübahisə edəsən?"

Martın 26-da "Azərbaycan" qəzeti "Yazdıqlarımıza qayıdırıq" rubrikası ilə Ə.Bayramovun "Müsavatçı baxışlarda eroziya dayanıbmı?" adlı cavab yazısını dərc etmişdir. Bu dəfə "Milli ideologiya" sözləri deyəsən bilərəkdən yaddan çıxarılıb. Digər tərəfdən qəzet və müəllif məni "tənqid etməyi bacarmamaqda" təqsirləndirirlər.

Bunu nəzərə alaraq Ə.Bayramovun yazısı ilə mütəxəssisləri tanış edib ümumi rəyi bilmək, öyrənmək qərarına gəldim.

## MEYDAN YİYƏSİZ DEYİL, XƏBƏRSİZDİR

"Əks-səda"da yazmışdım ki: "Ə.Bayramov və "Azərbaycan" deyəsən meydanı yiyəsiz görüblər". Vəziyyətlə bilavasitə tanışlıqdan sonra belə bir qənaətə gəlmişəm ki, mütəxəssislərin əsas hissəsinin qəzet almağa maddi imkanı, deməli həm də nə yazıldığından bəzən xəbərləri olmur.

Rəsmi dövlət qəzetində milli ideologiyaya dair söhbət gedən məqalə barədə fikirlərini öyrənmək üçün Akademiyanın fəlsəfə İnstitutuna getdim. Akademik, tanınmış filosof F.Köçərli ilə görüşdüm. Məqaləni oxuyana, ondan xəbəri olana institutda rast gəlmədim. Akademiyanın tarix institutuna getdim. Direktor müavini akademiyanın müxbir üzvü, tarix elmləri doktoru M.İsmayılovla və digər əməkdaşlarla söhbətdən məlum oldu ki, onların da həmin yazıdan xəbərləri yoxdur. İşlədiyim M.Ə.Rəsulzadə adına BDU-nun ictimai elmlər kafedralarında da vəziyyəti ela-beləcə gördüm.

"Azərbaycan"ın 12 mart tarixli nömrəsində dərc olunmuş yazı ilə filosof və tarixçiləri tanış etmək məqsədilə qəzet köşklərinə baş çəkdim. Artıq aprelin əvvəlləri idi. Qəzetin satılmamış nömrələrini mətbuat yayımı idarəsinin anbarına təhvil verdiklərini bildirdilər. Anbara getdim. Məlum oldu ki, "Azərbaycan" qəzetinin bir hissəsi hər ay buraya qaytarılır, makulaturaya çevrilir. İstədiyim nömrədən istədiyim qədər tapıb verdilər. İnsafən heç pul da almadılar. Çox sağ olsunlar. Mən də qəzetin nömrələrini tanışlıq üçün mütəxəssislərə payladım. "Azərbaycan" qəzetinin bir növ təbliğatçısına çevrildim. Artıq xeyli alim-mütəxəssis Ə.Bayramovun söhbət gedən məqaləsi ilə tanışdır. Əsasən rəyləri də mənə məlumdur.

İndi "Azərbaycan" müəllifinin yazdıqları bəzi iddiaları nəzərdən keçirək.

## İDELOGİYANIN "QURBANLARI"

Məqalədə iddia olunur ki, "XX əsrdə Azərbaycanın ən azı iki mütəfəkkiri (Nəriman Nərimanov və Məmməd Əmin Rəsulzadə) kommunist ideologiyasının və müsavatçılığın qurbanı olmuşlar".

Tarixdən az-çox xəbəri və ümumi savadı olanlara məlumdur ki, N.Nərimanov və M.Ə.Rəsulzadə böyük axtarış, zəhmət bahasına zehinlərinə, qəlblərinə, əməllərinə hakim kəsilmiş ideallarına sonadək sadiq qalmışlar. Müəllifin "Nərimanov arxalandığı ideologiyanın puçluğunu gec də olsa, başa düşmüşdü" iddiası əsilsizdir, uydurmadır, N.Nərimanovun xatirəsinə və adına hörmətsizlikdir. Nərimanovun tədqiqatçılarının fikri də belədir.

Bizdə belə bir qənaət hasil olur ki, "Azərbaycan" müəllifinin Nərimanovun əsərlərindən, onun haqqında yazılanlardan deyəsən xəbəri yoxdur.

Nərimanov vəfatına ay yarım qalmış oğlu Nəcəfə və gələcək nəsilə ünvanlanmış vida məktubunda yazırdı: "Я был сосиал демократом, но эта организация все более и более отдаляется от идеала. Я принял программу болшевиков с особенным удовольствием, так как в ней Я ВИДЕЛ И ВИЖУ СКОРОЕ осуществление моей именно программы: уничтожить рабство на земле.

Быть может, ты прочтешь эти строки, когда и большевизма не будет. Но это не значит, что большевизм не годиться, это будет означать, что мы не сумели его удержать, мы недостаточно оценили его, мы плохо взялись за дело. Откровеннее сказать: мы настолько стали надменными от власти, что, занимаясь пустяками, дрязгами, упустили главное из рук".

"Azərbaycan" müəllifi yazır ki, "N.Nərimanov təkcə "millilik" məsələsinə görə köhnə silahdaşlarından ayrıldı...

Bu iddia da əsilsiz və uydurmadır. Nərimanovun "köhnə silahdaşları" içərisində şovinist rus, erməni güruhuna qoşulub Azərbaycanın müstəqil dövlətçiliyini sarsıdanlar, hakimiyyət və vəzifə hərisləri vardı. Söhbət "millilik"dən yox, qazanılmışı itirmək təhlükəsindən gedirdi. N.Nərimanov oğlu Nəcəfə yazırdı:

"Дорогой мой Наджаф! Не гонись за властью, потому, что она портит человека. Если хочешь изучить человека, если хочешь узнать весь его внутренний мир, то поставь этого человека у власти на некоторое время, и этот человек обнаружит все свои достоинство и недостатки. Ввиду этого, если ты не подготовлен к тому, чтобы успешно, без обмана и лжи вести массу за собой, лучше откажись от нее..."

Nərimanov inandığı ideologiyanın puçluğunu yox, bu ideologiya altında Nikolay rejimindən də qəddar, insafsız, yalan və riyakarlıqla hökm sürən dəstənin şərəfsizliyini görürdü. O görürdü ki, M.Ə.Rəsulzadənin də yazdığı kimi "Sovetlərdə müdhiş bir rus-bolşevik şovinizmi zühur etmişdir". Həm də o inanırdı ki, idealları əvvəl-axır zəfər çalacaq. N.Nərimanov qətiyyətlə oğluna yazırdı:

"Обо всем этом ты узнаешь из моего обширного доклада в ЦК. Этот доклад даст тебе возможность разобраться во всем этом и

из этого же доклада узнаешь, что твой отец имел смелость говорить то, что многие другие не могли этого делать из боязни лишиться службы и власти..."

Nərimanov çox böyük əxlaq sahibi, insaf sahibi, insancıl şəxsiyyət idi. Zülm və cəbrə, haqsızlığa, qanunsuzluğa, xalqı talayıb-çapanların özbaşınalığına dözə bilmirdi. O, vaxtilə yazmışdı ki, "Rusiyada nazirlərdən başlamış axırıncı çaynikə qədər bütün hökumət məmurları vicdansız, qəddar və avam müftəxor quldurlardan ibarətdir". Aktual səslənmirmi?! Nərimanovu oxumaq, öyrənmək, sonra isə onun haqqında söz demək lazımdır.

"Azərbaycan" müəllifi N.Nərimanovu "qurban"lıq edib, "arxalandığı ideologiyanın puçluğunu gec də olsa" boynuna qoyduqdan sonra M.Ə.Rəsulzadəni, müsavatçılığı "qurban"lıq və puç etməyə girişir.

## *HÜCUM HƏDƏFİ M.Ə.RƏSULZADƏ VƏ "MÜSAVAT"DIR*

"Azərbaycan" qəzeti 1993-cü ilin oktyabrından başlayaraq M.Ə.Rəsulzadə və "Müsavat"a qarşı "ifşa" və hücum kampaniyasına davam etməkdədir.

Əvvəlcə dəlil-sübut gətirmədən bütün varlığını Azərbaycanın müstəqilliyi, istiqlalı uğrunda mübarizəyə həsr etmiş, dünyaca tanınmış dövlət və siyasət xadimini "Azərbaycan" qəzeti redaksiya məqaləsində məsuliyyətsizcəsinə "Azərbaycanın var - dövlətini xaricə daşımaqda" ittiham etdi. O vaxt B.Vahabzadə ilə mən bu uydurma böhtana qarşı çıxdıq. Onu "məkrli yalan və uydurma" kimi qiymətləndirdik. ("Aydınlıq" XI.93)

1994-cü il fevralın 3-də, 1995-ci il oktyabrın 17-də və sonrakı illərdə də bu şərəfsiz hücum davam etdi. Qayə, məqsəd M.Ə.Rəsulzadəni xalqın gözündən salmaq, öndər kimi tarixdən silməkdir.

Diqqət veriləsi cəhət budur ki, "Azərbaycan" bu şərəfsiz, nalayiq işi "qələm qoçularına", tarixlə, M.Ə.Rəsulzadə irsi`ilə tanış olmayan "qələm dəllallarına" tapşırır. Ə.Bayramov onların içərisində elmi dərəcəsi olan ilk tapıntıdır. O da ki, heyvandarlıq məhsulları bazarının mütəxəssisi çıxıb. Qəzetin bu sətirlərin müəllifinə qarşı son hiddəti də deyəsən həm də elə bu "sirrin" açılması ilə bağlıdır. Amma əvvəlki çıxışlara verdiyimiz cavablar kimi bu dəfə də yeni məddahları cavabsız qoymayacağıq. "Azərbaycan"da buna əmin ola bilərlər.



Yeni məddah iddia edir ki, "müsavatizm XX əsrdə iki dəfə məğlubiyyətə uğrayıbdır", "M.Ə.Rəsulzadə müsavatçılığın qurbanı olmuşdur", "əsrin əvvəllərində respublikamızda hakim mövqe tutan müsavatçılığın məğlubiyyəti də əsasən onun sırf liberal məzmunu ilə bağlı olmuşdur", nəhayət hər şeydən "xəbəri" olan və bizə "dərs" vermək iddiasına düşmüş marketinq baş müəllimi elan edir ki, "müsavatçı təfəkkürün tarix səhnəsindən silinəcəyi labüddür".

Bax beləcə, nə az, nə çox! Mən bunu xəstə təxəyyülün məhsulu hesab edirəm. Müəllif başa düşmür ki, M.Ə.Rəsulzadənin dəfələrlə dediyi və yazdığı, "Müsavat"ın proqramında təsbit olunduğu kimi "Müsavatçılıq - vətənçilik, azərbaycançılıq, milliyyətçilik, milli dövlətçilik, istiqlalçılıq, cümhuriyyətçilikdir". Heyvandarlıq bazarı mütəxəssisi bilmir ki, "müstəqillik uğrunda mübarizəyə rəhbərlik edən, onu istiqamətləndirən bu yola işıq saçan məhz "Müsavat" olmuşdur.

Gənc tədqiqatçı-alim, tarix elmləri namizədi S.Məmmədli haqlı olaraq yazır ki, "Müsavatçılıq ideologiyasından başqa Azərbaycanda heç bir nəzəri dəyər özünə yol tapıb kök sala bilməz", "Müsavatçılıq dövlətçilik şüurudu, milli-mənəvi dəyərlərə yiyələnməkdir", "Müsavatçılıq totalitarizmdən demokratiyaya keçid dövründə daha çox lazımdır".

M.Ə.Rəsulzadə uzaqgörənliklə yazmışdır: "Bundan sonra müstəqil və milli Azərbaycanın müqəddəratını, sövqi-tarixlə idarəyə məmur olacaq partiyanın adı "Müsavat" olmaya bilər, fəqət o partiyanın mütləq müsavatçı olması zəruridir. Çünki müsavatçılıq milli dövlətçilikdir..."

1995-ci il fevralın 25-də "Aydınlıq" qəzetində "Azərbaycan"ın M.Ə.Rəsulzadəyə növbəti yolverilməz hücumuna verdiyimiz cavabda - xalq şairi B.Vahabzadə, tarix elmləri doktoru, professor C.Həsənov və bu sətirlərin müəllifi yazmışdıq: "Əgər "Azərbaycan" qəzetinin və bəzi dairələrin Ə.Elçibəylə (indi əlavə edirəm İ.Qəmbərlə) ədavəti varsa, bunun üçün M.Ə.Rəsulzadəyə hücum etməyə, onun ruhuna toxunmağa hacət yoxdur.

M.Ə.Rəsulzadə Azərbaycan milli ideologiyasının böyük yaradıcısı, milli hərəkatımızın fədakar öndəri olmuşdur. Gəlin tarixi şəxsiyyətlərimizi müasir siyasi oyunlara cəlb etməyək!" Biz indi də bu fikirdəyik.

## *"MÜSAVAT"A DAİR YENİ "KƏŞF"LƏR*

"Müsavat" ərəb mənşəli sözdür və hərfi mənası səhv etmirəmsə "bərabərlik" deməkdir, yəni bu baxımdan onu sırf milli xarakter daşıyan ideologiya kimi qəbul etmək olmaz". "Azərbaycan" müəllifinə elə gəlir ki, kim "bərabərlikdən" danışırsa o, ən azı sosial demokratdır. Həm də o, "Müsavat"ın hərfi mənasından istifadə edərək müsavatı cəmiyyətdə bütün sahələrdə bərabərlik əldə edilməsi tərəfdarı kimi təqdim edirlər. Halbuki bu partiya haqqında az-çox məlumatı olanlar bilir ki, "Müsavat" qətiyyən bu fikirdə olmayıb. "Müsavat"ın proqramı demokratik, hüquqi, plüralist cəmiyyət qurmaq idi. Və indi də belədir. Demokratik cəmiyyət isə bütün sahələrdə bərabərlik demək deyil.

Müsavatı milli zəmindən qoparıb süni və gülünc şəkildə, naşıcasına sosial demokratiyaya calayan "Azərbaycan" müəllifi görün nə nəticəyə gəlir: "Sosial demokratiya isə qərb mədəniyyətinin məhsuludur. Qərb mədəniyyətinin əsasında isə xristian dəyərləri durur..

Bax beləcə, "Müsavat" oldu "xristian dəyərlərinin" daşıyıcısı!

Hələ bu harasıdır. "Azərbaycan" müəllifi hələ heç bir elmi ədəbiyyatda təsadüf edilməyən "kəşf"lə oxucuları "heyran" edir. O yazır: "Bir görün hara kedib çıxırıq! Deməli, türklər vaxtilə xristian əxlaqını tələqin etdikləri millətlərdən ictimai davranışın əsaslarını öyrənməlidirlər. Necə deyərlər burada dairə qapanır!"

Azərbaycanda tarixi milli dəyərlərə söykənən Avropa tipli demokratik cəmiyyət qurmaq proqramına görə, Ə.Bayramov "Müsavat"ı "milli varlığımızın kökünə balta çalmaq"da ittiham edir. Doğrudan da, dairə buradaca qapana bilərdi. Amma təəccüb doğuran cəhət: doğrudanmı bu iddialar Azərbaycan dövlətinin mövqeyinə uyğun gəlir? - Məsələ bundadır.

"Müsavat" və milli qurtuluş hərəkatı tarixindən bixəbər müəllif vaxtilə əzbərlədiyi marksizmin "üç mənbəyi", "üç tərkib hissəsi" barədə yadında qalanları xatırlayıb iddia edir ki, guya müsavatçılar da "milli ideologiyamızın "dəyər təminatına üçlü mövqedən baxırlar! Müasirlik, türkçülük və islam milli ideologiyamızın "üç mənbəyi", "üç tərkib" hissəsi kimi qəbul edilir".

Əsilsiz iddiadır, uydurmadır. M.Ə.Rəsulzadə və "Müsavat" irsinin istedadlı gənc tədqiqatçısı Nazim Cəfərov bu münasibətdə yazır:

"M.Ə.Rəsulzadə ilk dəfə ictimai fikrimizə "türkləşmək, islamlaşmaq və müasirləşmək" kimi üç yeni fəlsəfi anlayış gətirmişdir. Bu anlayışları türkçülük, islamçılıq və çağdaşlıq kimi işlətmək səhvdir".

"Azərbaycan" müəllifinin "Müsavat"ı parçalamaq, müsavatçı nəsilləri bir-birinə qarşı qoymaq təşəbbüsləri də əbəsdir. Müsavatçı baxışların əsasında Azərbaycanın istiqlalı, müstəqil demokratik dövlət kimi var olmaq haqqı durur.



## *"MİLLİ AZADLIQ MÜBARİZƏSİ" UYDURMASI, "BULANLIQ SUDA BOĞULMAQ" HƏDƏSİ*

"Azərbaycan" müəllifi keçmiş liderləri - N.Nərimanov və M.Ə.Rəsulzadəni qurban edib haqq-hesabı çürütdükdən sonra əsas hədəfə - müxalifətə, birinci növbədə müsavatçılara hədə-qorxu gəlməyə başlayır: "Allah köməyiniz olsun! Amma sizi gözləyən bir təhlükəni də həmişə göz önündə saxlamağınız məsləhətdir. "Bulanlıq" suda təkcə balıq tutmaq yox, boğulmaq da mümkündür..."

Təkcə Azərbaycan müxalifəti deyil, heç müxalifətdə olmayan bizlər də indi hakimiyyətdə olanların nəyə qadir olduqlarını hələ müstəqilliklərdən əvvəlki illərdə də görmüşdük. Ə.Bayramovun xəbəri olmasa da "Azərbaycan"a başçılıq edənlərin gərək ki, bunlardan xəbəri olmamış deyil. İndi yenidən köhnə çağırışları eşidirik, oxuyuruq: "Yeri gələndə gücdən istifadəyə istinad etməlidir", "körpüdən keçənə qədər hətta şeytanla da əməkdaşlıq mümkündür", "mübarizənin təkamül variantı yoxdur və ola da bilməz".

Bu əcaib-qəraib müddəalar müəllifin yazısı boyu istinad etdiyi marksist ədəbiyyatdan, sinfi mübarizə konsepsiyasından gəlir. O, hətta çox ciddi şəkildə altını cızmaqla nəzərə çatdırır ki, "Azərbaycanın (söhbət Azərbaycan respublikasından gedir) milli azadlıq mübarizəsi davam etməkdədir".

"Milli azadlıq mübarizəsinin" mahiyyətini bilməyən müəllif unudur ki, müstəqil milli dövlətdə milli azadlıq hərəkatından söhbət gedə bilməz. Əgər "milli azadlıq mübarizəsi" gedirsə, hansı hakim istilaçı, zülmkar millətə qarşıdır bu mübarizə?

1967-ci ildə "Правда" qəzetində "Buzovna gözəlləşir" sərlövhəli bir yazı dərc olunmuşdu. Müəllifi də azərbaycanlı idi. O yazırdı ki, Buzovnada bir çox millətlərin nümayəndələri: azərbaycanlılar və ruslar, ukraynalılar və beloruslar, naxçıvanlılar və ermənilər əl-ələ verib dostcasına işləyir və yaşayırlar. O vaxt B.Vahabzadə ilə bu sətirlərin müəllifi "Правда" redaksiyasına çox ciddi etiraz məktubu yazdıq.

Cavab da aldıq ki, redaksiyada işləyənlərin səhvi nəticəsində belə anlaşılmazlıq olub. Bizə isə qəzetin xüsusi müxbiri rəhmətlik L.Tahirov dedi ki, "naxçıvanlılar" sözünü redaksiyada işləyən erməni mətnə əlavə edib.

Bəlkə "Azərbaycan" qəzeti də yan-yörəsinə yaxşı baxsın, görək biz hansı hakim millətə qarşı milli azadlıq mübarizəsi aparmalıyıq?! Göstərsinlər, işimizi bilək!

## *"PAS ATMIŞ" FİKİRLƏRİN "KANALİZASİYASI"*

"Azərbaycan"ın heyvandarlıq bazarı mütəxəssisi milli ideologiya sahəsinə girib əsl peşəsinə uyğun istilahlar da işlədir "arabanı atdan qabağa keçirmək", "Fatıya tuman tikmək", "müsavatçılığın qurbanı olmaq", "bazarın Azərbaycan modelini formalaşdırmaq", "ümumxalq mülkiyyəti bazarı", "обжалованию не подлежит", "qəlibləşmə xəstəliyi", "modelçilik azarı", "maddi asılılığın anatomiyası", "mühümlülük dərəcəsi", "iqtisadi aspektin prioritetliyi", "bazara həm keçid, həm də inkişaf prizmasından baxmaq", "ideoloji qazan", "milli dəyərlərlə "zarafat", "suyu bulandırmaq", "potolokdan götürülən rəqəmlər"... Nəhayət, "pas atmış" fikirlərin "kanalizasiyası" və s.

Mən müəllifin başqalarına ünvanladığı "cəfənglik səviyyəsi" ifadəsinin onun öz yazdıqları və rəsmi dövlət qəzetinə yol tapan uydurma iddia və ittihamlarına aid edirəm. Yeri gəlmişkən aldığım rəylərin çoxunda da elə bu məzmunda sətirlər vardır: "Məqalə tənqid səviyyəsindən çox-çox aşağıda durur, cəfəng şeylər çoxdur", "müəllif qələmə aldığı mövzunu əməlli-başlı öyrənməyib", "marksist təlimlə müasir baxışların qarışığıdır", "indi milli ideologiya adı ilə hər cürə cəfəngiyyatı cəmiyyətə sırımaq dəb düşüb. Xəbəri oldu-olmadı hər kəs qələmini bu sahədə sınayır. Ə.Bayramovun "Müsavatçı baxışların eroziyası da" bu baxımdan səciyyəvidir", "müəllif milli ideologiyanın elementar nəzəri əsaslarından xəbərsizdir" və s.

Azərbaycan dövlətinin mənafeyi hamımız üçün müqəddəsdir. Türkiyənin hörmətli prezidenti, xalqımızın böyük dostu Süleyman Dəmirəl çıxışlarının birində Dövlətin əsaslarına bilərəkdən və ya bilməyərəkdən hücum edənlərə müraciətlə dedi ki, "dövlət başdır, hökumət şapka. Şapkanı dəyişmək lazım gələn yerdə, başla nə işiniz var? Atatürkün əsəri müstəqil demokratik Türkiyə cümhuriyyəti dövlətidir". Eyni sözləri Azərbaycan Xalq Cümhuriyyəti, M.Ə.Rəsulzadə irsi haqqında da demək olar. "Azərbaycan" və onun "qələm qoçuları"nın xoşuna gəlsə də, gəlməsə də tarixin hökmü belədir ki, şapka əvvəl-axır dəyişəcək. Dövlətimiz isə qalacaq! Onu yaradanlar, qoruyanlar da əbədi yaşayacaqlar!

***"525-ci qəzet", 12 may 1998***





## 80 İL ƏVVƏL - 80 İL SONRA KİM İDİK, NƏ OLMUŞUQ?

**1918**-ci il mayın 28-i. Tiflisdə Canişin sarayı qarşısında minlərcə soydaşlarımız, şəhər əhli nümayəndələri toplaşmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin yarandığını elan edən İstiqlal Bəyannaməsi oxundu. Qoca Tiflis iki gündə, iki müstəqil- Gürcüstan və Azərbaycan dövlətlərinin yarandığının şahidi oldu. İstiqlalın ideya rəhbəri və təşkilatçısı, müteqilliyi elan etmiş Azərbaycan Milli Şurasının rəisi M.Ə.Rəsulzadə bir il sonra 1919-cu ilin mayın 28-də yazırdı: "Bundan iki sənə əvvəl biz türkçülər Azərbaycan şüarını böyük gül dəstəsinin zəngin bir gülü kimi təsəvvür etdikdə, yalnız rus kadetləri ilə sosialistlərindən deyil, öz kadetlərimizlə sosialistlərimizdən dəxi müqabilə (qarşı çıxma) görürdük. Bir sənə sonra bütün firqələr bunu bir zərurət kimi qəbul edərək Azərbaycan İstiqlalının elanında iştirak etdilər".

M.Ə.Rəsulzadə və "Musavat"ı "Milli varlığımızın kökünə balta çalmaqda" ittiham edən nadanlar, Azərbaycan kadet və sosialistlərini istiqlalımızın təşkilatçısı və öndərləri kimi qələmə vermək istəyənlər M.Ə.Rəsulzadənin vaxtilə onların öz üzlərinə dedikləri və bu tarixi həqiqəti əks etdirən bu sözlərini oxusalar yaxşıdır. Ə.M.Topçubaşov, F.Xanxoylu çox böyük şəxsiyyətlər idilər ki, bir sənə sonra əvvəlki mövqelərini dəyişərək bir zərurət kimi Azərbaycan istiqlalını qəbul etdilər, cümhuriyyətin M.Ə.Rəsulzadə və "Musavat" tərəfindən hazırlanmış proqramının həyata keçirilməsinin fəal iştirakçıları oldular.

Azərbaycan istiqlalını vətənin namus və qeyrət sahibi istedadlı övladları, fədakar millət mücahidləri və fədailəri uzun zəhmət və fədakar fəaliyyətləri ilə hazırlamış, həyata keçirmişdilər. Milli müqəddəslərimizdən Üzeyir bəy 79 il bundan əvvəl 28 mayın birillik yubileyi-dövlət bayramı münasibəti ilə yazdığı "Bir yaş" məqaləsini belə başlamışdı: "Bu gün istiqlalını elan etmiş olduğumuz və istiqlalı qazanmaq yolunda çaylarca qanlar axıdıb, minlərcə xanimanları xaraba qoyulduğu bir dövlətin, Azərbaycan türk dövlətinin bir yaşı tamam olub da ikinci yaşa qədəm qoyduğu gündür".

80 il bundan öncə Azərbaycan istiqlalını hazırlayanlar, bu hərəkata başçılıq edənlər kimlər idi? Akademik Ziya Bünyadov yazmışdır: "Tarixən dəyirman daşını həmişə bizim başımızda fırladıblar. Əvvəl-əvvəl bizi çox çək-çevirə salıblar, siyasət ipini bizim boğazımıza keçiriblər. Sovet dövləti qurulmamışdan əvvəl, Azərbaycanın qurğusunu qurmuşdular, bölüb-bölüşdürmək nəqşəsini hazırlamışdılar.

Azərbaycan mərdləri ilə bolşevik kələkbazlarının, gizli qəsbkarlıq siyasəti yürüdənlərin fikri, amalı başqa-başqa idi. Musavatçı ziyalılar meydana mərdanə girmişdilər, mədəni səviyyələri, siyasi əqidələri, dünyagörüşləri, imanları, məsləkləri uca idi, saf idi, insanlıq naminə idi".

Azərbaycan Xalq Cümhuriyyətini məhz milli iftixar və hər cür anılmağa layiq vətən övladları, namuslu, qeyrətli kişilər yaratmışdılar. Ənənəvi tarixi milli ərazisi və adı, demokratik parlamenti, hökuməti, ordusu, pulu, bayrağı və digər dövlət atributları olan Milli Müstəqil Azərbaycan Xalq Cümhuriyyətini dünyaya tanıdan da onlar idi. Biz fəxr edə bilərik və etməliyik ki, Şərqdə, islam və türk dünyasında ilk həqiqi demokratik cümhuriyyət dövləti Azərbaycan torpağında təşəkkül tapmış, yaranmışdır. 28 mayın mənası və mahiyyəti də budur.

28 may bayramlar bayramıdır, onu ilk dəfə bu şəkildə də çox təntənə ilə dövlət səviyyəsində qeyd etmişlər.

## İLK İSTİQLAL BAYRAMI

Valideynlər üçün övlad toyu, millət üçün istiqlal bayramı əvəzedilməzdir. 1919-cu il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin bir yaş təntənələrində iştirak edənə, onu xatırlayana indi rast gəlmək çətindir. Amma dövrün mətbuat səhifələrində, bu fütuhatı vücuda gətirənlərin, bu sevinci yaşayan qələm əhlinin yazılarından çox şey əxz etmək, duymaq, öyrənmək mümkündür.

"Azərbaycan" qəzetinin 1919-cu il 1 iyun nömrəsi qarşımdadır. Vətənin hər bir guşəsində rəsmi, ümumxalq istiqlal bayramının sevinci, hərarəti bütün təfərrüatı ilə mahir vətənpərvər qələmlərlə tarixə həkk olunmuşdur. "Mayın 27- də Bakı bayraqlar ilə müzəyyən edilmişdi. Hər kəsdə bir təlaş görünməkdə idi. Paytaxtımızın yuxarı hissələrində belə alaqapılar qayrılmaqda idi. Küçələr boyu məftillər çəkilərək əlvan işıqlar, rəngbərəng bayraqlar asılırdı. Türk əftalı (uşaqları) da bu bayramın əzəmətini, hörmətini iyicə düşündüyündəndir ki, bir gün əvvəl rəsmi keçidə hazırlanırdılar...



Gözlənilən 28 may günəşi tulu etdi. Artıq paytaxtın bəzəyi on qat artmışdı. Küçələr boyu aşağı -yuxarı baxacaq evlərdən üç rəngli, hilali, yıldız nişanlı bayraqların yellənməsi, insanın qəlbində fərəh oyadırdı. Yaşıllıqlarla müzəyyən (bəzədilmiş) balkonlardan asılmış qiymətli xalılar, ipək örtüklər, "Yaşasın İstiqlal!", "Yaşasın Azərbaycan!" yazılı bayraqlar millətdəki ruhu , vətən və millət məhəbbətini layiqincə göstərirdi.

Marşrut qərarı ilə məktəbli cocuqlar Məclisi-Məbusən qarşısına getməli idi. Bazar ipək parçalar, xalılar, və rəngbərəng bayraq idə müzəyyən edilmişdi...

Məclisi-Məbusən binası bir gün əvvəldən istiqbal libasına müləbbəs olunmuşdu (geyindirilmişdi). Damında elektrikdən "Yaşasın İstiqlal!", şüarı yazılmış, böyük qapısı üstündə məşhur türk nəqqaşı (rəssamı) Əzim Əzimzadə tərəfindən yazılmış İstiqlal Bəyannaməsi embleması elektrik lampaları ilə bəzədilmişdi.

İş bu rəsm olduqca mənalı və calibi-diqqət idi. Bir gün əvvəl buradan keçənlər biixtiyar durub rəsmə baxır, gözəlliyini və mənidar olduğunu tanımadığı başqa bir tamaşaçıya söyləyirdi.

Rəsmdə Azərbaycan tarixi nümunələri mahiranə bir surətdə təcəmmö etmişdi (toplanmışdı).

Qız qalası üzərində üç rəngli Azərbaycan bayrağı, Suraxanıdakı tarixi Ateşgədə sentyabr müharibəsində xüsranət almış (ziyan çəkmiş) yanar dağ, digər tərəfdə minarələrində ay-ulduz rəkz edilmiş (sancılmış) Xan məscidlərini tülu etmiş istiqlal günəşi işıqladır, zənbəq kimi İstiqlal səmasında Vətən, İstiqlaliyyət və məhəbbət nişanı (simvolu), bütün Azərbaycan üzərini üç rəngli hilal ulduzlu "Yaşasın İstiqlal!" şüarı, bayrağı tutmuş.

Həqiqətən iş bu rəsmi-şayani təhsin idi: Bələdiyyə idarəsi bayraqlar içində idi. Bir sözlə: bayraqlar, bayraqlar! Yaşıl ot, əlvan parçalardan alaqapılar bəzədilmiş idi. Küçəyə çıxan balkon elektrik ilə çırağban edilmişdi. Şəhər bağı və bulvarda da Bələdiyyə idarəsi tərəfindən alaqapılar bəzənib hesabsız milli bayraqlar asılmışdı.

İçərişəhərdəki bütün məscidlərin minarələri başında milli bayraqlar rəkz edilərək (sancılaraq) elektrik ilə çırağban edilmişdi. Xan sarayları üzərində də milli bayraqlar asılmış, məşhur Qız qalası çırağban edilmişsə də üzərində iki böyük bayraq rəkz edilmişdi.

Təzəpir camei çırağban edilmiş, bayraqlar asılmış idi. Bütün paytaxtdakı minarələr elektrik ilə tənvir, milli bayraqlar ilə təzyin edilmişdi. Dövlət dairəsi, nazirliklər, xüsusilə Daxiliyyə nazirliyi olduqca qəşəng bəzədilmişdi...

Saat 9 radələrində Məclisi-Məbusan qarşısında izdiham, qələbəlik bir dərəcədə idi ki, artıq keçməyə yol tapmaq namümkün idi. Bütün o dairədəki evlərin damları, pəncərə və balkonları tamaşıçılar ilə doluşdu.

Damda qoşa zurna çalınır. Qarşıdakı balkonda məşhur tarzən Şirin, məşhur xanəndə Cabbar Qaryağdıoğlu çalıb-oxuyurdu.

Saat 10 radələrində mədən dəvairindən "Musavat" və "Hümmət" firqələri tərəfindən təşkil edilmiş fəhlələr bayraq və musiqi ilə gəldilər: "Hümmət" firqəsinin bir çox al və Milli bayraqları ilə bərabər embleması, "Musavat"ın bir çox bayraq və emblemaları aralığı təzyin edirdi.

Bir az keçmədən minlərlə məktəb şagirdləri havada kiçik Milli bayraqları yelləyərək "Yaşasın" sədaları ilə dairəyə gəldilər.

Ətfalın (uşaqların) səsləri asimanə-büləndolurdu. İzdiham da cocuqların sədalarından cünbüşə gələrək "Yaşasın!" - deyə onlara qoşuldular. Tam 15 dəqiqə iş bu kütleyi-əzm "Yaşasın!" sədaları, əl şaqqıltıları- bütün ətrafı gümburdatdı...

Bir az keçmədən "Musavat"ın bəzəkli avtomobili, türk mürətiblərinin avtomobili dairəyə gəldi...

Bir az keçdikdən sonra Məclisi-Məbusan qarşısında M.Ə Rəsulzadə cənabları kürsü xitabinə (xitabət kürsüsünə) çıxaraq xalqın alqışları altında bir nitq irad edərək camaatı milli böyük bayram və bəxtiyarlıq ilə təbrik etdi: "Bizim düşmənlərimiz azadlıq və istiqlaliyyətimizi gözləri götürməyən rəqiblərimiz deyirlər ki, Azərbaycan istiqlaliyyətini xanlar, bəylər elan etmişdir, xalq onu istəmir. İştə camaət bu günki izdiham, bu günkü bəşaşət istiqlaliyyətin xanlar deyil, bəylər deyil, xalq tərəfindən elan edildiyini düşmənlərimiz artıq görsünlər". (xalqın alqışı altında nitqinə xitam verir.ondan sonra başqa natiqlər də nitq etdilər)...

### *FƏDA OL-QƏDR GÖR!*

### *FƏDA OLDULAR, BƏS NƏ GÖRÜRLƏR?*

Yuxarıdakı fərəh və qürur dolu sətirləri oxuduqdan sonra istiqlal bayramının qərargahı olan keçmiş parlament binasına, indiki Əlyazmaları İnstituna getdim. Burada həmin tarixi günləri yada salacaq heç bir əlamətə rast gəlmək olmur. Bütün dünyanın demokratik, qədirbilən ölkələrində ilk parlament binaları millətin səcdə etdiyi müqəddəs məkanlardan sayılır. Məddahlıq xəstəliyi, hakimiyyətdə olana yarınmaq, gedəni söymək bəlası canımızdan çıxmır ki, çıxmır.



Azərbaycanın Məclisi-Məbusan binası elə bil matəm içindədir. Elə küçə də həmin küçə, binalar da həmin binalardır. Nə yada salan var, nə fərəhli anları anan! Lakin yeganə diqqəti cəlb edən binanın zirzəmisində düzəldilmiş yeni restorandır.

Görəsən vətən yolunda, onun istiqlalı uğrunda can fəda edən, sonadək mücahidə aparanlar necə, yada düşürlərmi?

Onu bilirəm ki, böyük öndər, milli iftixarımız, cümhuriyyətimizin yaradıcısı M.Ə.Rəsulzadənin məzarı Ankarada Əsri məzarıstanındadır. Əvvəllər Türkiyədə səfərdə olan dövlət adamlarımız onu ziyarət edərdilər. İndi tərgidiblər. Musavat Partiyasının liderlərindən biri, ikinci hökumət başçısı N.Yusifbəylinin məzarı hələ ki tapılmamışdır. İlk hökumət başçısı F.Xan Xoylunun qəbri Tiflisdə, Milli Məclisin sədri Ə.M.Topçubaşovun qəbri Parisdə, XX əsr Azərbaycanın mütəfəkkirləri Azərbaycandan getməyə məcbur edilmişlər Ə.Hüseynzadə və Ə.Ağayevin qəbirləri İstanbuldadır. Dövlətçiliyimizi yenidən bərpa edib yaradanlardan Azərbaycan torpağında uyuyanı demək olar ki, yoxdur. İlk bolşevik fəxri xiyabanında onlara yer qalmayıb və deyəsən, hələlik olmayacaq da.

Amma qürbət məzarlarda uyuyanlar vətən torpağı həsrətində deyillərmi?! Sibir ölüm düşərgələrində, Qazaxıstan çöllərində on minlərlə istiqlal mücahidi Quransız və kəfənsiz dünyadan getmişlər. Onların xatirəsi nə vaxt əbədiləşdiriləcək?

M.Ə.Rəsulzadə hələ 1908-ci ildə "İrşad" qəzetində "Mənəvi kar və mənəvi kor" olanları, "məzlumların naləsini, yetim uşaqların fəryadını, zülm altında əzilən əhalinin sitəmini", "acılıq və fəlakətini" görməyənləri, "el üçün ağlayan iki gözdən olar" - deyib xalqın və vətənin faciəsini kənardan seyr edənləri ifşa edərək yazırdı ki, "kişi gərək camaat üçün hər bir şeyindən keçsin, hətta canından da" M.Ə.Rəsulzadə "camaət öz mücahidlərinin qədrini bilmir" deyənlərə cavabında yazırdı. "nə vaxt bir mücahid özünü fəda etdi ki, camaət onun qədrini bilmədi. Camaətə qədr bilməyi fədakarlığın ilə gərək öyrədəsən. Əvəzsiz heç nə alınmaz. Fəda ol, qədr gör!"

Üzeyir bəy istiqlalın bir illiyinin təhlilinə həsr etdiyi məqaləsində yazırdı: "Azərbaycan torpağı bir xarabazara, bir viranəyə dönəcək idi. Onun, o madəri- mehribanın (ana vətənin) nazik sinəsi, zərif bədəni üzərində gəzən qəbə ayaqlar həm anasını, həm də bətnindəki balasını çəkmələrinin təpikləri altında tapdalamaq, əzmək və xurt-xəşil etməklə anasını da, balasını da öldürmək istəyirdilər...

Lakin bu zəif sinə içində gizlənmiş olan eşq və məhəbbət o dərəcədə böyük bir qüvvəti - haiz idi ki, zəif cism qüvvətli ruh sayəsində

düşmən zülmü qarşısında tab və taqətdən düşməyib yaşamaq və yaşatmaq iqtidarını qeyb etmədi.

Ana vətən doğdu... "

Əsrin əvvəlində Azərbaycanda "zəif cism, qüvvətli ruh" vardı. Bəs indi nə görürük. Əhalimizin sayı əsrin əvvəlinə nisbətən dörd dəfə artıb. Amma ərazimiz 1920-ci ilə nisbətən 34 min kv. km azalıb, savadlıların faizi də təxminən 15 faizdən 99 faizə çıxıb. Bəs azalan nədir? Qeyrət, vətənə olan eşq və məhəbbət, Üzeyir bəy demişkən qüvvətli ruh! Deməli indi "güclü cism, zəif ruh" hökmfərmadır. Milli ruhu, milli qeyrəti hakimiyyət hərisləri, çapıb talayanlar yerlibazlıq edənlər, intriqa ustaları, bir sözlə "bolşevik kələkbazları" hər vəchlə boğmağa, üstələməyə çalışırlar. M.Ə.Rəsulzadəyə, "Müsavat"a hücum çəkənlər, hətta tarixi də öz mənafelərinə saxtalaşdıranlar da onlardır.

M.Ə.Rəsulzadə 1919-cu ilin mayın 28-də "Azərbaycan" qəzetində yazırdı ki, "Azərbaycan Milli-mədəni müstəqillik təməlinə, türk Milli demokratik dövlət qurumu zəminə əsaslanır".

Bizdə milli müstəqillik var, amma müasir milli mədəni müstəqillik hələlik yalnız istək və arzu olaraq qalır.

Lakin bu bayram günlərində ulu öndərin sarsılmaz inamına qoşulmaq, onunla həmrəy olmaq istəyirəm. O, yazırdı: "Mən Azərbaycanın həyat qabiliyyətinə inanıram. Öz təbiətinə və potensial sərvətlərinə görə bənzərsiz olan bu diyar yerin təkində fəvvarələr və alovlar saxladığı kimi öz vətəndaşlarının qəlblərinin ən dərin guşələrində də elə bir yaradıcılıq ruhu yaşadır ki, bu yaradıcılıq ruhu türk xalqının azad inkişafı şəraitində mənim dərin əqidəmə görə dünyaya orjinal bir mədəniyyət nümunəsi bəxş edəcəkdir".

Bu arzunun çin olması üçün isə həm qüvvətli cism, həm də qüvvətli ruh lazımdır. Hər ikisi nə vaxt olacaq, - söhbət bundadır.

**REDAKSİYADAN:** *bir neçə aydan bəri qəzetimizin səhifələrində hörmətli müəllimimiz, professor Şirməmməd Hüseynovun Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyi ilə bağlı dəyərli yazıları çap olunur. Çox böyük zəhmət tələb edən bu işi istəkli müəllimiz böyük həvəslə, gənclik enerjisi ilə görmüşdür. Şirməmməd müəllimin redaksiyamıza bu silsilədən təqdim etdiyi yazıların indiki və gələcək nəsillər üçün qiyməti əvəzolunmazdır. Cümhuriyyətimizin 80 illiyini bayram etdiyimiz bu günlərdə biz hörmətli müəllimimizi bayram münasibəti ilə təbrik edir, ona bütün istəklərinin həyata keçməsini arzulayırıq. Və bir daha bütün dəyərli yazılarına, gərgin zəhmətinə görə minnətdarlığımızı bildiririk.*

***"525-ci qəzet", 28 may 1998***



## ONLARI QINAMAĞA HAQQIMIZ VARMI?

***"Bəzən bizim çox şeydən xəbərsiz, tariximizi kifayət qədər bilməyən və hər şeydə ləkə axtarmağa çalışan bəzi üzdəniraq tədqiqatçılarımız 1918-1920-ci illərdə mövcud olan Azərbaycan Xalq Cümhuriyyəti barədə "nağıllar" uydururlar. Mən başa düşə bilmirəm ki, 23 ay ömrü olan və Yaxın Şərqdə yeganə demokratik bir dövləti - AXC-nin qurulmasını hansı əsaslarla təsadüfiliklə əlaqələndirməyə çalışırlar. Axı zərurət olmadan heç bir irəliləyiş ola bilməz. Həyatda hər bir hadisə zərurətdən doğur".***

**Şirməmməd Hüseynov**

**- Şirməmməd müəllim, belə bir fikir vurğulanır ki, 81 il əvvəl AXC-ni Rusiyada baş verən inqilab doğurdu...**

- AXC-ni Rusiya inqilabı deyil, ictimai inkişafın, dövrün özü doğurub. Çünki Azərbaycanda o dövrdə dövləti idarə etməyə qadir, milli ruhda köklənmiş, Avropa və Rusiya təhsili görmüş, həyatın ağır sınaqlarından çıxmış ziyalı təbəqəsi var idi. Bunlarsız Yaxın Şərqdə Avropa tipli bir respublika qurula bilməzdi.

**- AXC-nin lideri, xalqımızın öndəri Məmməd Əmin Rəsulzadənin Azərbaycanın müstəqilliyi elan edilərkən guya xaricdə olmasını söyləyənlər də var. Bu, nə dərəcədə doğrudur?**

- Bunu tarixi yaxşı bilməyənlər deyə bilərlər. Azərbaycanın istiqlaliyyəti elan edilməsi ərəfəsində Milli Şuranın sədri kimi Rəsulzadə Türkiyə ilə Seym arasında gedən sülh danışıqlarında iştirak etmək üçün Türkiyəyə yola düşmüşdü. Nə üçün və niyə Türkiyə ilə sülh müqaviləsi imzalanmağa məhz M.Ə.Rəsulzadənin özü getmişdi? Çünki o dövrdə ABŞ ermənіləri, Almaniya isə gürcüləri dəstəkləyir, onlara hərbi yardımla köməklik göstərirdi. Azərbaycan isə tək və müttəfiqsiz qalmışdı. Ona görə də Rəsulzadə Türkiyədə apardığı danışıqlar zamanı qardaş ölkənin rəhbərlərinə bildirdi ki, əgər Azərbaycana gəlməsəniz, Qafqazı həmişəlik itirəcəksiniz. Nəticədə danışıqlardan bir ay sonra Türkiyə qoşunları qan qardaşlarının köməyinə gəldilər, xalqımız, millətimiz məhv olmaqdan qurtuldu.

1918-20-ci illərdə yaşamış AXC-nin fəaliyyətilə Məmməd Əmin Rəsulzadənin rolunun kiçildilməsi Azərbaycan xalqına qarşı böhtan və iftiradır.

Belə şeyləri yalnız bizim düşmənlərimiz və onlara satılan, millətə xəyanət edənlər deyə bilərlər.

**- AXC-nin məğlubiyyəti, hakimiyyəti əlində saxlaya bilməməsi barədə də ziddiyyətli və mübahisə doğuran fikirlər söylənilir...**

- Mən yuxarıda dedim, yenə də təkrar edirəm ki, AXC-nin məğlubiyyəti və ya hakimiyyəti əldə saxlaya bilməməsini ora-bura yozanlar, bu hökumətin adını indiyə kimi düzgün tələffuz edə bilməyənlər ona ADR (Azərbaycan Demokratik Respublikası) deyən milli xəyanətkarlarımızdır.

Azərbaycan 1918-ci ilin may ayından başlayaraq dünyada tanınmağa başladı. Amma Rusiya və İran bu dövlətin mövcudluğunu istəmirdilər. İran uzun müddət tələb edirdi ki, biz özümüzü Azərbaycan deyil, Aran adlandıraq. Amma M.Ə.Rəsulzadə bu təklifi qəbul etmədi. Onda Rusiya bolşevizmi və İran yerli satqınlarla birləşdilər. 1920-ci ildə isə bütün vasitələrdən istifadə edərək bu hökuməti devirdilər. Burada başqa hansı səbəblərdən danışmaq olar? Səbəb elə Rusiyanın işğalçılıq siyasəti idi də. O dövrdə bizim hökumətimiz təzəcə ayaq tutub yeriməyə çalışan uşağa bənzəyirdi. İndi durub bəzi ağzıgöyçəklər süqutun səbəbini başqa şeydə axtarmaqda nə dərəcədə haqlıdırlar? Hətta belə bir fikir söyləyənlər də tapılır ki, guya o dövrdə biz neftimizi Leninə versəydik, ərazilərimiz işğal olunmazdı. Yalandır. İllüziyadır bu. Rusiya işğalçılıq siyasəti yeridirdi. Tutaq ki, bizimkilər səhv eləyib, hakimiyyəti əldə saxlaya bilmədilər. Bəs Rusiya tərəfindən işğal olunan Ermənistan, Gürcüstan, Ukrayna da səhv etmişdi?

**- 1918-20-ci illərdəki müstəqil hökumətimizlə hazırkı hökumətimiz arasında oxşar və fərqli cəhətlər barədə nə deyərdiniz?**

- Bilirsiniz, pişik pələngə necə oxşayırsa, indiki hökumət də o dövrdəki hökumətə elə oxşayır. 1918-20-ci illər hökuməti ideoloji mənşə etibarı ilə Şərqdəki milli qurtuluş idealları və Qərbdəki mədəni-demokratik cərəyanları özündə birləşdirən bir hərəkat idi.

23 ay yaşayan bu dövlət xalq tərəfindən seçilmiş parlamentli respublika idi. 18 yaşından yuxarı bütün vətəndaşlar dilindən, dinindən, cinsindən asılı olmayaraq parlamentə seçilə, seçə bilərdilər. Ona görə də adı Xalq Cümhuriyyəti idi. Xalq tərəfindən seçilən hökuməti parlament qarşısında məsuliyyət daşıyırdı. Burada siyasi plüralizm var idi. 120 nəfərlik parlamenti icra orqanlarının fəaliyyətinə nəzarət edirdi. Bu hökumətdə sosial ədalət prinsipi önə çəkilmiş, torpaqlar kəndlilərə verilmiş, 6 ay ərzində heç vaxt əlinə silah almayan vətəndaşlardan güclü bir ordu düzəldərək Qarabağda ermənilərin burnunu ovmuşdu. Millətin adını, dilini özünə qaytarmış, Bakı Dövlət Universitetini yaratmış, ağır vəziyyətinə baxmayaraq öz hesabına qərbdə təhsil almaq üçün onlarla tələbə göndərilmişdi. Qərbin idarəçilik sistemindəki bütün müsbət təcrübədən istifadə edərək demokratik bir idarəetmə sistemi qurulmuşdu.



***O dövrdə, sonralar bolşeviklərin ləkələməyə çalışdıqları adamlar, xalq üçün, millət üçün çalışırdılar, öz cibləri üçün yox. Amma biz, bu gün onların qədrini bilmirik. Hətta Rəsulzadə kimi bir dahinin abidəsini ucaltmamışıq, onların qəbirləri də yad ellərdə, qəriblikdədir. İndi biz hansı üzlə o dövrlə bu dövr arasında müqayisə aparaq. Biz onlara çox borcluyuq, lap çox...***

***Ancaq mən əminəm ki, gec-tez Azərbaycanda Məmməd Əmin ruhunu həqiqi mənasında yaşadan nəsil yetişəcək.***

**Əziz Mustafa**
*"Zaman" qəzeti, 1999*



## KEÇMİŞİN İBRƏT DƏRSLƏRİ

**"İ**ndinin kökü keçmişdədir və keçmiş gələcəyin iynəsidir", - demiş ata-babalar. Tarixi keçmişimizi, kökümüzü dəqiq və dürüst öyrənməyin ən mötəbər mənbələrindən biri - zamanın kollektiv yaddaşı hesab edilən mətbuatdır. Çoxillik mətbu irsimizin bu vaxta qədər üstüörtülü saxlanılan, təhrif edilən, saxtalaşdırılan bir çox mətləblərinin gün işığına, həqiqət və aşkarlıq meydanına çıxarılması tariximizin "ağ ləkələrinin" aradan qaldırılması üçün zəngin mənbə, qiymətli və əvəzsiz məxəzdir. 1919-cu il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının ilk ildönümü geniş şəkildə bayram edilmişdir. Bu münasibətlə qəzetlərin, o cümlədən Üzeyir və Ceyhun Hacıbəyov qardaşlarının redaktor olduqları, Azərbaycan və rus dillərində nəşr olunan "AZƏRBAYCAN" qəzetlərinin xüsusi bayram nömrələri buraxılmışdır. Hər biri 12 səhifə həcmində nəşr olunan bu qəzetlərdə xeyli tarixi sənəd, xatirə, ciddi publisist və bədii yazılar və s. dərc olunmuşdur. Onlarda diqqəti cəlb edən cəhətlər çoxdur. Məsələn, "AZƏRBAYCAN istiqlalını mübəyyin əqdnamə", (ruscası - "Акт о независимости Азербайджана").

Hər iki dildə çap olunan bu sənəddə eyniliklə yanaşı, tərcümədə diqqəti cəlb edən fərqlər də vardır. Məsələn, Azərbaycan mətnində

müstəqilliyi elan olunan dövlətin adı hər yerdə "Azərbaycan Xalq Cümhuriyyəti" kimi təqdim olunur. Rusca mətndə isə bu, "Азербайджанская Демократическая Республика" kimi işlədilir. Yəqin buna görədir ki, bizim tarix ədəbiyyatında və məqalələrdə rus mətnindən istifadə edildiyi üçün "Azərbaycan Demokratik Respublikası" adı sabitləşməkdədir. Halbuki, ana dilli mətbuatda və sənədlərdə belə ada rast gəlməzsiniz, hər yerdə ya "Azərbaycan Xalq Cümhuriyyəti" və yaxud "Azərbaycan Cümhuriyyəti" adlarına rast gələrsiniz. Məncə, bu səhvi düzəltmək, yəni əsas mətn kimi ana dilindəki adı işlətmək, rus dilində isə "Azerbaydjanskaə Narodnaə Respublika" kimi yazmaq və işlətmək lazımdır.

Yaxud ana dilindəki mətndə oxuyuruq: "Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyət həqqinə malik olduğu kimi, Cənubi-Şərqi Zaqafqaziyadan ibarət Azərbaycan dəxi kamil müstəqil bir dövlətdir".

Rus mətnində bu maddə belədir:

"Отныне народы Азербайджана являются носителями суверенных прав, и Азербайджан, состоявший из Восточного и Южного Закавказья, полноправное, независимое государство".

1-ci mətndə "Azərbaycan xalqı", 2-ci mətndə "Azərbaycan xalqları" şəklində verilir. Ana dilindəki mətndə "Azərbaycan" xalqın adıdır, rus mətnində "Azərbaycan" coğrafi məfhumdur. Yaxud 1-ci mətndə Azərbaycan "Cənubi-Şərqi Zaqafqaziyadan", 2-ci də "Şərqi və Cənubi Zaqafqaziyadan" ibarətdir. Hansı daha dəqiqdir? Məncə, hər iki halda ana dilindəki mətn daha dəqiqdir.

***"Zaman" qəzeti", 13 iyun 1998***



## 15 SENTYABR 1918 - BAKI VƏ AZƏRBAYCANIN XİLASI GÜNÜ

***Sentyabrın 15-i Azərbaycan tarixinin ən əlamətdar günlərindən biridir. 80 il öncə müstəqil Azərbaycanın yenicə yaradılmış silahlı birləşmələri qardaş türk ordusunun hərtərəfli yardımı və bilavasitə iştirakı ilə Azərbaycanın paytaxtı Bakını daşnak-bolşevik bandalarından xilas etmişdilər.***

**Məlumdur ki, mərhum akademik Ziya Bünyadovun da yazdığı kimi "hələ Sovet dövləti qurulmamışdan əvvəl Azərbaycanın qurğusunu qurmuşdular, bölüb-bölüşdürmək nəqşəsini cızıb hazırlamışdılar." 1917-ci ilin oktyabr silahlı çevrilişindən sonra Şaumyanın və onun dəstəsinin başçılığı ilə daşnak-bolşevik guruhu Bakını və Abşeronu Azərbaycandan ayırıb Rusiyaya birləşdirmək üçün çox böyük ciddi-cəhd göstərirdilər. 1918-ci ilin martında azərbaycanlılara vəhşicəsinə divan tutulması, əsl qətliam həyata keçirilməsi də bu mənfur məqsədə xidmət edirdi. Vaxtı ilə Stalin iddia edirdi ki, guya Bakı Azərbaycanın yetirməsi, təbii məhsulu deyil, onu yuxarıdan gəlmələr "qurub yaratmışlar". Şaumyan Leninə böyük bir təşvişlə xəbər verirdi ki, "Müsavatçılar Bakını müstəqil Azərbaycanın paytaxtı etmək istəyirlər".**

**Milli istiqlal hərəkatımızın lideri və böyük öndəri M.Ə.Rəsulzadə daşnak-bolşevik guruhunun Bakı iddialarını ifşa edərək yazırdı: "Bakı Azərbaycanın, Azərbaycan da Bakınındır. Bakını Azərbaycandan ayırmaq istəyən kim olursa Azərbaycan həyatına qəsd etmişdir. Bakısız Azərbaycan təsəvvür olunmaz. Bakı tarixən də halən bir türk şəhəri və müsəlman bəldəsidir... Bakı Azərbaycanın qapısıdır... xülasə Türkiyə üçün İstanbul, Almaniya üçün Berlin, Rusiya üçün Moskva nə isə, Azərbaycan üçün də Bakı ondan daha artıq olmasa da, odur".**

**1918-ci il sentyabrın 15-də Nuru paşanın başçılıq etdiyi Azərbaycan türk islam ordusu Bakını düşmənlərdən azad etdi. Bu münasibətlə Azərbaycan hökumətinin baş naziri Fətəli xan Xoylu Nuru paşaya, Şərq orduları qrupu komandanı Xəlil paşaya göndərdiyi təbrik teleqramlarında (teleqramlar təqdim olunur) Azərbaycan xalqının qardaş türk xalqına, "dünyanın ən nəcib əsgəri olan türk oğullarına", "türkün cəngavər, namuslu övladlarına" millət adından şükranlarını izhar edirdi.**

"Millət sizə minnətdardır", "Üç sözdən ibarət olan bu cümləni Azərbaycan durduqca hər bir azərbaycanlı türk qəlbində yaşadacaq və dilində təkrar edəcəkdir", "qədir bilən Azərbaycan xalqı türk silahlı qüvvələrinin öz doğma qardaşları ilə birgə Bakını azad etmək uğrunda göstərdiyi qəhrəmanlığı heç bir zaman yaddan çıxarmayacaq və bu, Azərbaycan xalqı tarixinin ilk səhifələrində həkk olunacaqdır" - bu sətirlər milli müqəddəsimiz Üzeyir Hacıbəyovun redaktoru olduğu "Azərbaycan" qəzetindən götürülmüşdür.

Hörmətli oxucular! Mən hələ 8 il bundan əvvəl sentyabrın 15-də 1918-1920-ci illər "Azərbaycan"ının davamçısı olan qəzetdə yazmışdım ki, Azərbaycanın öz istiqlalını faktik olaraq əldə etdiyi sentyabrın 15-ni "paytaxt günü", onu düşmənlərdən azad edib, xalqımıza qaytaran qəhrəmanların xatirəsini yad etmək günü, Türk-Azərbaycan dostluğu və qardaşlığı günü kimi qeyd etmək vacibdir. 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyətində sentyabrın 15-i məhz ümummilli bayram, çox böyük tarixi hadisə kimi qeyd edilmişdir. Sentyabrın 15-i iş günü deyildi. Həmin gün parlamentin xüsusi təntənəli iclası, qoşun hissələrinin hərbi paradı keçirilmiş, döyüşlərdə həlak olmuş türk və Azərbaycan döyüşçülərinin xatirəsi yad edilmiş, onların şərəfinə ucaldılacaq abidənin təməl daşı qoyulmuşdu. Teleşoulardan macal tapıb əsl görüləsi işlərlə məşğul olmaq vaxtı deyilmi?!

15 sentyabrın qədir-qiymətini bilənlərin nəzərində "Azərbaycan" (rusca) qəzetində dərc olunmuş "Bakı, 15 sentyabr 1919" sərlövhəli baş məqalə ilə də tanış olmağı məsləhət bilirəm. Bu vaxta qədər yazılmış hədyanları alt-üst etmək üçün elə təkcə bu məqalə də kifayətdir. Məncə, onun da müəllifi Hacıbəyov qardaşlarıdır.

**Bakının azad edilməsi münasibətilə M.Ə.Rəsulzadənin İstanbuldan göndərdiyi təbrik teleqramı**

*"Paytaxtımızın istirdadından (geri alınmasından) dolayı təhti-idareyi alilərində bulunan hökümətimizi səmimi təbrik ilə Bakının yeni türk ellərini istixlas üçün sarsılmaz bir qalayı-mətin olması ümidi ilə bütün arkadaşlarımla öpüşərsiniz.*

***Azərbaycan heyəti müəxxəssəsi naminə***
**Rəsulzadə Məhəmməd Əmin**

*"Azərbaycan", 3 oktyabr 1918, N5*



**Qafqaz İslam Ordusu Komandanı, sədaqətli Nuru Paşa Həzrətlərinə!**



*Təhti-komandanızda olan cəsur türk əsgərlərimiz tərəfindən Azərbaycanın paytaxtı Bakının düşməndən xilas edildiyi münasibətilə millətin Zati-aliyi-həmiyyətpərvəranələrizə və dünyanın ən nəcib əsgəri olan türk oğullarına minnətdar olduğumuzu ərz etməklə iftixar edirəm- Əfəndim!*

**Heyəti-vukəla rəisi Fətəli xan**
*"Azərbaycan" qəzeti, 3 oktyabr 1918, N5*

**Şərq Orduları Qrupu komandanı Xəlil Paşa Həzrətlərinə!**



*Bakının, Azərbaycanın istiqbalını, səadətini iqtisadətən və siyasətən təmin edəcək və türk aləminin ikinci bir İstanbulu olmağa layiq bir mərkəzin türkün cəngavər, namuslu övladlarının qəhrəmanə hücumları sayəsində düşmənlərindən xilası münasibəti ilə Zati-aliyi-həmiyyətpərvəranələrini ən səmimanə bir surətdə təbrik edirəm!*

**Heyəti-vukəla rəisi Fətəli xan**
*"Azərbaycan" qəzeti, 3 oktyabr 1918, N5*

**BAKI, 15 SENTYABR 1919-CU İL**

Bu, təşkilatlanmış daşnak-bolşevik qüvvəsi tərəfindən nəinki Azərbaycanın və digər Zaqafqaziya respublikalarının müstəqilliyinə, həm də Zaqafqaziyadakı türk xalqlarının fiziki mövcudluğuna olan ölüm təhlükəsini aradan qaldırıldığı gündür. Bu, Şamaxı uyezdini bürümüş və Azərbaycanın digər uyezdlərinə də od ələyən böyük bir yanğının söndürüldüyü gündür. Bu, Azərbaycan xalqının düşmənləri tərəfindən hazırlanmış böyük bir planın ləğv olunduğu gündür.

Azərbaycanın siyasi müstəqilliyinin elan edildiyi gün bütün xalqa aydın idi ki, Azərbaycan özünün mədəni, milli, iqtisadi və siyasi mər-

kəzi olan Bakısız mövcud ola bilməz. Hamıya aydın idi ki, Azərbaycanın ürəyi, onun milli mövcudluğunun mənbəyi olan Bakının alınması gənc Azərbaycan hökuməti və bütün xalq üçün condito sine qua non (latınca- "mütləq şərt" - red.) deməkdir.

Maddi vəsait, sursat və təşkilatlanmış ordusu olmadan gənc respublikanın qüvvələri əzəli mərkəz saydıqları Bakıya daxil olmaq üçün sayca özlərindən qat-qat çox olan daşnak-bolşevik bandaları ilə mübarizəyə girdilər. Gənc respublika bu mübarizənin nə ilə nəticələnəcəyini görə bilməsə də, möhkəm əmin idi ki, ədalətin və oyanmış xalqın milli, mədəni və siyasi hüquqlarının müdafiəsi işi kobud fiziki güc üzərində qələbə çalacaq.

***Türkiyə qoşunları Azərbaycan Respublikasına köməyə hansısa imperialist məqsədlər naminə və işğalçılıq üçün gəlməmişdi. Onlar özlərinin qardaşlarını xilas etmək məqsədilə gəlmişdilər və Azərbaycanın savaş meydanında qanlarından fədakarcasına keçərək qardaşları qarşısında borclarını yerinə yetirdilər.***

Alicənab Azərbaycan xalqı Türkiyə qoşunlarının əvəzsiz xidmətlərini heç vaxt unutmayacaq və onların Azərbaycan qoşunları ilə Bakıya birgə girişi xalqımızın tarixinin ilk səhifələrinə həkk olunacaq.

Biz bilirik ki, Bakının alınması günahsız qurbanlarla da müşayiət olunub. Biz bunları dərin kədərlə xatırlayırıq, amma müharibənin təbiəti və onun nəticələri belə hallarsız ötüşmür.

Tarix həmişə öz hüquqlarını müdafiə edən xalqa xeyirxah münasibət bəsləyib. Və tarixin Azərbaycana kömək göndərdiyi Osmanlı imperiyasının mərd oğulları öz qan qardaşlarına yardım etmək üçün dağ və dərələrdən keçərək, hər cür çətinliyə, aclığa və əzaba dözərək bolşevik cəbhələri üzərinə şığıdılar.

O vaxtdan bir il keçib. Bu vaxt ərzində Azərbaycan dövlətçiliyi siyasi çaxnaşmada, xarici və daxili təhlükələr içərisində yavaş-yavaş cücərib və möhkəmlənib. Və indi fikrən bir il əvvələ qayıdaraq gənc respublikanın necə özünü qoruduğunu, özünün siyasi gücünü təsdiq etdiyini düşünəndə, bir illik müstəqil siyasi həyat dövründə əldə olunmuş nailiyyətləri analiz edəndə, möhkəmlənən dövlətçiliyi və gənc respublikanın həyatının bütün sahələrində qurulmuş qayda-qanunu görürük. Bu zaman aydın olur ki, Azərbaycan dövlətinin və xalqının zəifləməyən inkişaf tempi gələcək siyasi həyat və dövlətçilik quruculuğunda indiyədək görünməmiş qabiliyyət vəd edir.

***"Azərbaycan" (rusca)***
*15 sentyabr, 1919, N197*
**"Zaman", 15 sentyabr 1998**





## ÖMƏR FAİQ NEMANZADƏNİN CAMAATA MÜRACİƏTİ

**Azərbaycan, tarixinin ən böhranlı və məsuliyyətli günlərini yaşayır. Əsri və ikinci minilliyi necə başa vuracağıq, yeni əsrə və minilliyə nə ilə, kimlər ilə qədəm qoyacağıq, taleyimizi hansı qüvvələrin ixtiyarına verəcəyik - düşünüləsi, qərar veriləsi məsələlərdir.**

**Hadisələrin gedişini diqqətlə izləyənlərə, gərdişin nəbzini duymaq hissindən məhrum olmayanlara aydındır ki, Azərbaycan dəhşətli bir dilemma qarşısında durur. Köhnəlik, zorakılıq, yalan və riyakarlığımı, "üstü bəzəkli", "içi zərərli" konfetimi camaatımız qəbul edəcək, seçəcək, yoxsa "səlamət və nicatı üçün əsirlik və həqarətdən azad olmaq üçün köhnə zülmlü idarənin dəyişilməsini" intixab edəcək!**

**Hörmətli oxucular, yuxarıda gətirdiyim ifadələr Mirzə Cəlillə birlikdə "Molla Nəsrəddin" jurnalını yaradan və idarə edən məşhur jurnalist və publisist, böyük vətənpərvər Ömər Faiq Nemanzadənin 1906-cı il aprelin 17-də "İrşad" qəzetində dərc olunmuş "Nə vaxta qədər?" sərlövhəli məqaləsindəndir. Oxuyun, bu gün üçün də hədsiz dərəcə faydalı olan bu müraciəti; "Daha bəsdir mənfəətxorlara, dinini, millətini iki qəpiklik xeyrə satanlara boyun əymək", "Öz-özümüzə balta vurmağımızın təqsiri yalnız camaatımızda deyil, bəlkə beş-on manat məvacib-aylıq alan elmsiz, hünərsiz, başı sarıxlı qulluqçularımız ilə başı şapkalı həmiyyətsiz qara qarğalarımızdadır!" "Nə vaxta qədər ümumi və milli nəfimizi buraxıb, bəzi sədrdə əyləşən, minbərə (tribunaya) çıxan həmiyyətsizlərin keyflərinə qulluq edəcəyik!" "Nə vaxta qədər xeyir və şərimizi qanmayacağıq?! Ətrafımızı əhatə edən, dəhşətli vaqiələrdən daşlar belə mütəəssir olur, aya biz nəyik?". - Ürək dağlayan bu sözlər 92 il bundan əvvəl-əsrin əvvəlində yazılıb, əsrin sonunda necə, aktual səslənmirmi? Müraciəti özünüz oxuyun, nəticəni özünüz çıxarın!**

## NƏ VAXTA QƏDƏR?

Qafil camaatın içində ciddi iş görmək, xüsusilə politikayı-məmləkətin idarəsinə aid işə köçürmək - çox çətindir. Həqiqət, bir çox təcrübələr ilə görülübdür ki, nadan camaat yaxşı-yamanı qanmıyan xırda uşaq kimidir. Hər kəsə məlumdur ki, uşağa üstü bəzəkli, içi zərərli konfet verəndə, o saat üstünə baxıb aldanar. Konfet sonra bunu naxoş edəcəkmiş orasını, gələcəyin əsla mülahizə etməz. Halbuki, uşağın qızdırması üçün "kinə" verəndə, acılığını eşidib içməyə yaxın durmaz, ağlar, yenə konfet istər. Kinə vermək istəyənə küsər, ürəyində düşmənlik bağlar. İştə bizim nadan, əsir camaatımızın bir qismi də tamamilə bu uşaq kimidir: Səlamət və nicatı üçün, əsirlik və həqarətdən azad olmağı üçün köhnə zülmlü idarənin dəyişilməsini, milli maarifimizin tərəqqisini, hürriyyət və birliyin verilməsini yeganə əlac olmaq üzrə göstərirlər. Mümkün deyil, qəbul edilməz. Hürriyyət və ədalətin nəticəsi "erməni buntu" zənn edilər. Rusların hürriyyət və insanlıq yolundakı davaları ermənilərin millət davalarına qarışdırılır. Bilinmək istənilməz ki, o hara, bu hara? Buraları qanmadığı üçündür ki, camaatımızın bir qismi ən ziyadə yerə zərərli olan köhnə idareyi candan (?) xahiş edirlər. Bununla bərabər biçarə nadanları çox qınamaq olmaz: insanlığı, güzəranı, səadəti o köhnə rəzalət, o alçaq əsirlik şəklində görüblər. Dərd budur ki, Rusiyada bizdən çox döyülən, söyülən, bizdən artıq zəlil və həqir olan heç bir tayfa olmaya-olmaya yenə bizdən artıq o köhnə zülmləri xahiş edən qafil bir tayfa görünməyir fə Sübhanəllah! Bu nə mərtəbə cəhalət! Bu nə mərtəbə cəhalət ki, o köhnə zəlliliyin, o cür əsirliyin, o xalis heyvanlıq sənəti-rahatlıq və insanlığın ağır dərəcəsi bilinir. Neçün bilinməsin ki, burunlar o köhnə murdar iy (qoxu) ilə dolub. Qəlblər bir eşşəyə boyun əymək duyğusu ilə bəslənib. Başlar və beyinlər zülm və istibdadın verdiyi tərbiyə ilə böyüyüb. Arxa dəriləri (kürəkləri) köhnə idarənin vurduğu matraqlar (qamçılar) ilə qalınlaşıb. Gözlər başa döyülməklə kor olmaq halətinə düşüb. Budur ki, bu səbəblədir ki, bu zamanın-bu zamanın ha!- bəzi müsəlmanları yenə qədim idareyi-hökuməti kor-koranə xahiş edirlər və o qədər özlərini itiriblər ki, Rusiyada "hürriyyət"in hər tayfadan artıq bizə gərək olduğunu zərrə qədər də olsa başa düşmək istəmirlər. Köhnə idarə səbəbilə qonşumuz ermənilərin, piyan rus qulluqçularının başımızda nə oyunlar oynadıqlarını, bizi nə həqarətlərə saldıqlarını birdəfəlik də olsa mülahizə etmirlər. Etmirlər ki, bugünkü iki çürük qəpiklik şəxsi mənfəətlərini gələcəkdəki ümumi mənfəətlə, millətin səlamətliyi ilə əsla dəyişmək istəmiyorlar. Doğrusu, onlarca tək özlərinin indi iki qəpikləri getməsin, tək indi özlərinin bir xırda başları ağrımasın, gələcəkdə istərsə millətin cümlə malı yox olsun, bütün övladı-millət qırılsın! Kimin nə işinə? Öz çulunu sudan çıxaran zəmanəmizdə əqilli igid hesab edilir!?



Ey oxucu! Zənn etmə ki, "Ümidvar" bu kimi sözləri düzəldib təbeh üçün yazır. Yox vallah! Dayana bilməyib odlanıram.

Hələ bir para oxumuşlarımızın xeyir-şərini qanmayan bəzi avama qatışıb islamın əsası olan hürriyyət və müsavata lənət oxuyub köhnə idareyi-zaliməyi arzu etdiklərini duyub parçalanıram. Bilməm nə vaxta qədər böylə kor və qafil qalacağız? Nə vaxta kimi siyasət və ticarətdə özgələrə uşaqlar təki əsir olacağız? Neçün öz politikamızı milli xeyrimizi qanmayırıq? Nə dəlil ilə aramızda hürriyyət və müsavat istəyənlərə lənət oxuyuruq? Görürsünüz, ermənilər 20 ildən sonra özlərinə zərər gələcək deşikləri indidən nə tez qapayırlar. Görürsünüz ermənilər-Rusiya rusların olmaq şərti ilə Rusiyada hürriyyət və müsavatı əsla istəmiyorlar. Neçin də istəsinlər ki, ol vaxt biz də onlar ilə bərabər olarıq. Xeyr, bəlkə biz çox işlərdə onlardan artıq ixtiyar sahibi olacağız! Hər yerə, hər idarəyə kök salan ermənilərin bugünkü hiylə və təpiklərindən qurtaracağız.

Buna görə gərəkdir ki, ermənilərin tərsinə və öz millətimizin səlamətliyi naminə Rusiyada hürriyyət və müsavatın "doğru" vücudunu, idareyi-məşruteyi - ammiyənin həqiqi təşkilini cani-dildən arzu edək.

Lakin burası var ki, idareyi-məşrutənin şirin meyvələrini dadmaq üçün bir neçə il gözləyəcəyik. Hərçəndi burası bizim xasiyyətimizə bir az ziddir. Çünki biz hər şeyi əcələ (tələsik) görməyə, əcələ yeməyə öyrənmişik. Gələcəyi əsla mülahizəyə almarıq. Gözümüzün qabağındakına baxarıq. İstədiyimiz tez əmələ gələrsə, nə yaxşı! Olmazsa, min-min yaman sözlər ilə pisləməyə, nöqsan tapmağa hazırıq.

Yox, yox, əzizlər böylə olmamalı! Böyük bir hökumətin hər tərəfə, xüsusilə, avam camaatın qəlblərinə kök salan köhnə idarənin dəyişilməyi, düzəlməyi asan deyil! İndi bəlkə bir neçə il köhnə sənədən daha artıq zəhmətlər çəkəcəyik, daha çox pullarımız gedəcəkdir. Amma burası bilinməlidir ki, köhnə zəhmətlərimiz, pullarımız başımıza vurulan yumruqların qüvvətlənməsinə, özümüzün, tərsinə zəiflənməyimizə xərc olunurdu. Lakin indi zəhmətlərimiz, xərclərimiz gələcəkdə millətimizin rahat və səlamətliyinə bais olacaqdır. Gorürsünüz aradakı təfavütü, elm ilə cəhalət arasındakı təfavüt nə qədər böyükdur!

Yuxarıda camaatımızın nadanlığından, hürriyyət və müsavatın xeyrini qanmadıqlarından şikayətlənmişdim. Burada bunu artırmaq istəyirəm ki, bu dərəcə nadanlığımızın, bu öz-özümüzə balta vurmağımı-

zın təqsiri yalnız camaatımızda deyil, bəlkə beş-on manat məvacib-aylıq alan elmsiz, hünərsiz, başı sarıxlı qulluqçularımız ilə başı kokardlı həmiyyətsiz qara qarğalarımızdadır. Bu kimilərin köhnə idarəni istəmələrinə səbəb məhz özlərinin iki qəpiklik şəxsi mənfəətləri olduğunu camaatımız başa düşməlidir. Daha bəsdir, mənfəətxorlara, dininə, millətini iki qəpiklik xeyrə satanlara boyun əymək! Nə vaxta qədər ümumi və milli nəfimizi buraxıb bəzi sədrdə əyləşən, minbərə çıxan, kokarda taxan həmiyyətsizlərin keyflərinə qulluq edəcəyik. Biz də insanıq! Biz də bir millətik!

Nə vaxta qədər xeyir və şərimizi qanmayacayıq? Ətrafımızı əhatə edən dəhşətli vaqiələrdən daşlar belə mütəəssir olur, aya biz nəyik?

**Ö.F.NEMANZADƏ**

*"İrşad", 17 aprel 1906 N-91*

**"525-ci qəzet", 10 oktyabr 1998**

## TÜRK DÜNYASININ İFTİXAR VƏ ÜMİDGAHI

**Bu il türk dünyasında ilk cümhuriyyətin - Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik Yubileyini qeyd etdik. Uzun illərin əzab-əziyyət, işğal və məhrumiyyətlərindən sonra Azərbaycan xalqı 1918-ci il mayın 28-də Tiflisdə istiqlalını elan etdi. Amma faktik olaraq istiqlal Azərbaycan torpaqları erməni-sovet silahlı birləşmələrindən təmizləndikdən, Bakı azad edildikdən sonra qanuni və hüquqi qüvvəyə mindi. İstiqlalımızın, cümhuriyyətimizin varlığına görə biz birinci növbədə xalqımıza dar vaxtında kömək əli uzatmış türk qardaşlarımıza, qəhrəman türk silahlı qüvvələrinə borcluyuq, özü də əbədi borcluyuq. Türkiyə Cümhuriyyətinin ildönümünü xalqımız rəsmi şəkildə olmasa da, ürəyində, qəlbində xatırlamış bolşevik-erməni dairələrin qərəzli düşmənçilik təbliğatına, onlarla züy tutan dairələrin cidd-cəhdinə baxmayaraq, nəzərlərini türk dünyasının mövcud olan ilk müstəqil dövlətinə, bu dövlətin varlığını yaşadan xalqa iftixar və ümid nəzəri ilə baxmışlar. Şükürlər olsun ki, indi türk cümhuriyyətlərinin, müstəqil türk dövlətlərinin sayı çoxalmış - 6-ya çatmışdır. Bu Yubiley günlərində Azərbaycan-türk əlaqələrinin möhkəmlənməsində xüsusi xidmətləri olan xalqımızın bö-**



**yük sənətkarları H.Cavid, M.Hadi və A.Şaiqin tariximizin və taleyimizin ən çətin anlarında -1917-1918-ci illərdə türklərə həsr etdikləri şerlərdən nümunələri oxuculara təqdim edirəm. Bu şerlər onların külliyatlarına məlum səbəblər üzündən daxil edilməmişdir. Azərbaycan istiqlalçılarına dayaq olmuş, təzyiq və hədələrə baxmayaraq, onları himayə etmiş Türkiyə Cümhuriyyətində azəri mühacirlərinin nəşr etdikləri "Azərbaycan" dərgisində cümhuriyyət bayramı münasibətilə verilmiş bir redaksiya məqaləsi ilə də tanışlıq məncə, faydalı olar. Sonda isə deyirik: qardaş Türkiyə Cümhuriyyəti dövləti əbədi olsun, min illər yaşasın!**

**Abdulla Şaiq Talıbzadə**

### İNTİZAR

*Neçin böylə gecikdin?*
*Sənsiz qəlbim qırıq, sönük, çeynənmiş, xırpalanmış,*
*Ömür şüşəm daşa dəymiş, həyatım parçalanmış.*
*Qırıq bir saz kimi sızlar, qanlı, yorğun telləri,*
*Yakılır da, yakar bütün qayğı vurmuş elləri.*
*Şu vətənin oksüzləri, gəlinləri, dulları,*
*Göz yaşı ilə sulamış həp, keçdiyiniz yolları.*
*Yolunuzu bəkləməkdən bənizləri saralmış.*
*Nöş gəlmədin! O şən gülər ürəkləri qəm almış,*
*Sən gəlməsən, doluxsunmuş ürəklər heç şad olmaz.*
*Sən gəlməsən, xarabaya dönən qəlb, abad olmaz,*
*Sən gəlməsən, günəş doğmaz, ümid gülüm açılmaz.*
*Dodaqlarım gülməz, sönük bəxtimə nur saçılmaz.*
*Başqasını istəməm də ey türk cabuq sən gəl, sən!*
*Bəkləməkdən yoruldum eh, işdə gec qaldın nədən?*
*Yollarına daşmı qalanmış, ya azğın quldurlar buraxmıyor?*
*Daş, dəmir, ya polad olsa da onlar,*
*Ürəyində şölələnən mətin, qızğın atəşlə,*
*Yak onları erit, sondür, çeynə, boğ, əz, qırpala*
*Xain, alçaq düşmənlərə, qol gücünü həm göstər,*
*Aç yolları, cabuq gəl ki, qəlbim səni pək istər!*

***"Açıq söz", 20 sentyabr 1918.***

Hüseyn Cavid

## TÜRK ƏSİRLƏRİ

*Başıbozuk, əsgər, cocuq, ixtiyar*
*- Əsir - deyə minlərcə türk övladı*
*İzsiz bir adanın qoynunda sızlar*
*Sorulmaz dərdi, duyulmaz fəryadı.*
*İştə kinli bir məzarlıq ki, hər gün,*
*Yığın-yığın insan udar da doymaz.*
*Sağlam vücudlar belə düşgün, ölgün,*
*Ümidsiz bir heykəldən fərq olunmaz.*
*Gülümsərlər fəqət həp gözlərində*
*İntiqamlı şimşəklər çaxar, durur,*
*Çırpınırlar, solmuş bənizlərində.*
*Bir çox gizli sönük əməllər uyur.*
*Yalnız sovuq, yağmur, boran, fırtına*
*Oxşar durur. Şu məhzun könülləri*
*Üryanlıq, xəstəlik, aclıq bir yana,*
*Susuzluqdan həp qurumuş dilləri.*
*Amansız qartalın vəhşi dırnağı,*
*Məsum yavruları didib parçalar.*
*İştə ədalət! İlanlar yatağı,*
*İnsanlara məskən verilmiş qərar.*
*Nərədə o sərxoşlar ki, həp "qardaşlıq,*
*Birlik, bərabərlik" - deyə sayıqlar.*
*İştə bir vəhşət ki, çəkilməz artıq,*
*Dost deyil, duşmən belə görsə ağlar.*
*Ey türk eli! Ey milyonlar ölkəsi,*
*Saqın duyma nədir bu hal, bu dəhşət,*
*Titrətməsin səni şu qardaş səsi?*
*Korluq, sağırlıq o da bir səadət?..*

***"Açıq söz" qəzeti,***
***12 dekabr 1917, N-627***

***Bakıda, Nargin adasında.***



## DEMOKRATİYA VƏ İSTİQLALİYYƏT AXTARIŞINDA

**Bu yaxınlarda Tehranın "Spehri nəqş"** nəşriyyatı **"M.Ə.Rəsulzadə. İran məşrutə inqilabından məlumatlar"** kitabını nəşr etmişdir. Məlumdur ki, M.Ə.Rəsulzadə 1909-cu ilin əvvəllərində İranda, o cümlədən vətənin cənubunda cərəyan edən hadisələri bilavasitə müşahidə etmək, anlamaq, mümkün olan mənəvi və əməli yardımı göstərmək qayəsi ilə Arazın o tayına yollanmışdı. Tanınmış qələm əhli, gənc istiqlalçı mücahid, "Tərəqqi" qəzetinin xüsusi müxbiri kimi martın 18-dən başlayaraq, bu qəzet səhifələrində "İran məktubları" ümumi başlığı altında müntəzəm təəssürat yazıları ilə çıxış edirdi. 1909-cu il avqustun 16-nadək "Tərəqqi"də 50-dən artıq belə məktub dərc olunmuşdur. İrandan, o cümlədən vətənin cənubundan göndərilib işıq üzü görmüş bu analitik, səriştəli yazılar çox böyük maraq doğurmuş, geniş əks-sədaya səbəb olmuşdur. İstibdada qarşı, milli azadlıq, demokratiya, hər cür zülm və cəbrə qarşı mübarizə ruhlu yazılar həm də xeyli tarixi hadisə və faktlarla zəngindir. "İran məktubları" M.Ə.Rəsulzadənin 1992-ci ildə işıq üzü görmüş əsərlərinin 1-ci cildinə daxil edilmişdir. Rəhim Rəisniya xeyirxah bir iş görmüş, bu məktubları fars dilinə tərcümə edərək Tehranda yuxarıda göstərdiyimiz kitab şəklində nəşr etdirmişdir. Kitaba verdiyi müqəddimədə M.Ə.Rəsulzadənin əsərlərinin 1-ci cildi barədə maraqlı qeydləri də var. Biz öz tərəfimizdən böyük və əvəzsiz öndərimiz M.Ə.Rəsulzadənin əsərlərinin Tehranda nəşr olunmasında məmnunluq duyur, böyük və faydalı zəhmətinə görə Rəhim Rəisniya cənablarına öz dərin və səmimi hörmət və şükranlarımızı bildiririk.

Rəhim Rəisniya xəbər verir ki, yaxın vaxtlarda onun **"M.Ə.Rəsulzadə demokratiya və istiqlal axtarışında"** adlı kitabı da nəşr olunacaq, işıq üzü görəcəkdir.

M.Ə.Rəsulzadə irsinə maraq dünyanın bir sıra ölkələrində müşahidə edilməkdədir. Hətta bu günlərdə ABŞ-da bu mövzuda xüsusi elmi məclis keçirilməkdədir.

Təəssüf doğuracaq hal Azərbaycan rəsmilərinin bu irsə laqeyd, bəzən də düşmənçilik mövqeyidir. Son 5 ildə iqtidaryönlü mətbuatın M.Ə.Rəsulzadənin ünvanına uydurmadığı böhtan və yalan qalmamışdır. Fitva verən şəxsən mənə məlumdur. Doğrudur, özü açıq-açığına hücum çəkmir, atmacalar atmaqla, işarələr verməklə iş görür. Amma iqtidar gədələri böhtan və iftira yazılarını zaman-zaman işə verirlər. Elə "Yeni Azərbaycan" və "Naxçıvan" qəzetlərinin son bir neçə ayda dərc etdikləri cızmaqaralar bu qəbildəndir. İş o yerə çatıb ki, hətta

M.Ə.Rəsulzadəni, onun irsini gözü götürməyən, ünvanına adları çəkilən qəzetlərdən də çox böhtan yağdıran dövlət qəzeti "Azərbaycan" "M.Ə.Rəsulzadə adam öldürən olmamışdır" sərlövhəli yazı vermişdir. Fürsətdən istifədə edib professor Şamil Qurbanova və qəzetə bu münasibətlə öz razılığımı bildirməyi borc bilirəm.

Tehranda M.Ə.Rəsulzadənin əsərləri, ona həsr olunmuş kitablar nəşr olunur. Vətənində isə onun əsərlərinin nəşrinə yaxın duran yoxdur. **Acınacaqlı hal deyilmi?** Nə qədər ki, demokratiya cildinə bürünmüş bolşevik-kommunistlər meydandadır, M.Ə.Rəsulzadə irsinə bolşevik düşmənçiliyi də davam edəcəkdir.

***"525-ci qəzet", 10.12.98***

## "YENİ MÜSAVAT" 9 YAŞINDA

Son 9 ildə Azərbaycanda çox qəzet çıxıb. Amma həqiqi mənada "Açıq söz" qəzetinə, yəni əsrin əvvəlində müsavatçıların buraxdığı qəzetə layiq qəzeti çıraqla axtarmaq olar. "Yeni Müsavat" "Açıq söz"ə, "İqbal"a, "Həyat"a, "İrşad"a az-çox yaxınlaşan qəzetdir. "Yeni Müsavat"ın jurnalistləri, yaradıcıları öz babalarına, atalarına layiq adamlardır. Qəzeti həvəslə oxuyuram. Tirajın yüksəkliyi məncə, hər şeydən əvvəl qəzetin qayəsi, məqsədi ilə əlaqədardır.

Son vaxtlar mətbuatla bağlı hadisələri təcavüz adlandırıram. Bu təcavüz də qəzetin məzmununa, qayəsinə görədir. "Yeni Müsavat"dan qorxurlar. Kim qorxur? Bu milləti soyanlar, bu ölkəni talan edənlər, zülm və istibdadı bərpa edənlər, kommunistlər, bolşeviklər qoy qorxsunlar! Bu hücumlar, təqiblər hamını üzür. Amma "Yeni müsavat"ın qayəsi alidir. Həmişə əski müsavatçılarla yeni müsavatçılar arasında oxşarlıq görmək istəyirəm.

Son 3 ildə "Yeni müsavat" təkmilləşib, müdrikləşib. Əvvəlki qəzetlə indiki arasında fərq çoxdur. Çünki redaksiya cavanlardan ibarətdir. Cavanlar bu mübarizədə kommunist məktəbindən çıxan, məkr, böhtan məktəbindən dərs alan, qaşınmayan yerdən qan çıxaranlarla vuruşda möhkəmlənibər. "Yeni Müsavat" bu yolunu davam etdirsə Azərbaycanın bir nömrəli qəzeti olacaq.

*"Yeni Müsavat" qəzeti,*
**271 (634) 22 dekabr 1998**



## BU GÜN TARİXİN YUBİLEYİDİR

Yubileylərdə, necə ki, məlumdur, sevinməkdən, bayram eləməkdən öncə olub-keçmişlər və olacaqlar barədə düşünmək, müəyyən yekunlaşdırmalar aparmaq daha münasibdir. Deyilən niyyətlə bağlı araya gəlmiş saysız sualların içindən üçünü seçmək qərarına gəldik:

***1. Ötən yüzillikdə ziyalıların simvolu kimdir? Nə üçün?***
***2. Ötən yüzillikdə Azərbaycan ziyalıları nələri edə bilmədilər?***
***3. Yeni ildə Azərbaycan mədəniyyətinin hansı möcüzəyə ehtiyacı var?***

**Şirməmməd Hüseynov:**

1. Məmmədəmin Rəsulzadə. Çünki əsas olan cümhuriyyətdir, müstəqil dövlətdir. Əslində ən böyük mədəniyyət - siyasi mədəniyyətdir.

Məmmədəmin Rəsulzadə bugünümüzə gəlib çatsaydı, amma tək yox, öz partiyası və məsləkdaşlarıyla birgə yaşasaydı, Azərbaycan Şərqin ən inkişaflı dövlətinə çevrilərdi. Rəsulzadə dövlətinin 23 ayda qəbul etdiyi qanunlar ki var, müstəqil dövlətçiliyimiz elə o istiqamətdə də inkişaf etsəydi, indiki problemlərdən heç biriylə qarşılaşmazdıq.

2. Ötən yüz ilin böyük əskəriyyətini təzyiq altda yaşamışıq. Təzyiq altda olan millətdən nə ziyalı yetişə bilərdi? Müstəmləkə dövlətin ziyalısı da ayrı cür olur. Əsrin əvvəllərində rus təlim-tərbiyəsi imperiyaya xidməti təbliğ edirdi. Sonralar sovet hökuməti qondarma ziyalılar yaratmağa başladı. Əsli-nəsli olmayandan, fəhlə-kəndlidən, ac-yalavacdan nə ziyalı? O təhsillilər arasında müstəqillik haqda fikirləşən təktük olardı, onları nə maraqlandırırdı? Vəzifə, deputatlıq, fəxri ad. Əsl ziyalının isə əsas amalı milli istiqlaliyyət məsələsi olmalıdır.

3. Elə arzular, elə niyyətlər var ki, onları qabaqcadan açıqlamırlar. İndiki məqamda mən bəndədən heç bir möcüzə gözləmirəm. Çünki bizim möcüzəmiz Allaha qalıb. Sağlıq olsun!

**"Azadlıq",**
**31 dekabr 1999 - 3 yanvar 2000.**

## "BİZİ DİZ ÇÖKDÜRÜBLƏR"

*Professor Şirməmməd Hüseynov sovetlər dövründə Məmməd Əminin adını çəkmədən ondan sitatlar gətirərmiş. Azərbaycanda milli şüura malik ziyalılar hələ məhv edilməmişdi. Şirməmməd Huseynovun qanına, canına hopan təmənnasız ziyalılıq buradan qaynaqlanıb. O, ömrünün 50 ilini təkcə jurnalist kadrları hazırlamağa həsr etməyib, həm də tələbələrində milli hissləri oyadıb. Bəlkə də çoxları bilmir. Amma Universitetin jurnalistika fakültəsinin məzunları Ş.Hüseynovu yaxşı tanıyırlar. Biz ona öz borcumuzu qaytara bilməmişik.*

*O, Lenin ölən il, yəni 1924-cü ildə anadan olub. O zaman Azərbaycanda hələ də müstəqil Azərbaycan Xalq Cümhuriyyətini yaradanların ideyalarını yaşadan, H.Zərdabidən, C.Məmmədquluzadədən, Üzeyir bəydən, Əhməd bəy Ağayevdən, Əli bəy Hüseynzadədən dərs almış Azərbaycan jurnalistləri həyatdaydı.*

**- Şirməmməd müəllim, necə oldu ki, siz sovet adamı kimi düşünmədiniz?**

- Bir dəfə Moskva arxivində bolşeviklər partiyasının 1920-ci ilin mayında imzalanan qərarına rast gəldim. Qərarda ölüm düşərgəsinin yaradılması partiya tapşırığı kimi verilirdi. Bundan sonra məhkəməsiz kütləvi qırğınlar başlandı. Yaxşı yadımdadır, 1930-31-ci illərdə Şəkidə hökumətə qarşı üsyan oldu və şəhər qaçaqlar tərəfindən alınaraq üç gün onların əlində qaldı. Onları məğlubiyyətə uğradan bolşevik hökuməti xalqın gözləri qarşısında üsyançıların qəbirlərini özlərinə qazdıraraq güllələdilər.

Ziyalıların güllələnməsi əsasən 37-ci ildən başlandı. Xalq onları sevir, onlara inanırdı. Ona görə də əvvəlcə ziyalıları xalqın gözündən salmağa çalışdılar. M.Müşfiqi, S.Mümtazı, H.Cavidi, Y.V.Çəmənzəminlini burjua elementi kimi damğalayaraq məhv etdilər. Ədəbiyyatda gənc nəsil ilə qocamanlar arasında ədavət yaradılır, nəsli nəslə qarşı qoyurdular. S.Rüstəm o zaman "Qaçaq Nəbi" əsərində yazırdı: "Bəy oğlusan, demək köpək oğlusan".

Yəni bu ideologiyaya görə varlısansa, deməli xalqın düşmənisən. Bizə orta məktəbdə dərs deyən müəllimlərin çoxu inqilabdan əvvəlki müəllimlərdən dərs almış ziyalılar idi. Onların da çoxu 1937-38-ci illərdə qurban getdi.



**- Səhv etmirəmsə, uzun illər universitetdə mətbuat tarixi kafedrasının müdiri olmusunuz...**

- Bilirsənmi qızım, mən əslində riyaziyyatçıyam.

**- Doğrudan?**

- Bəli, 1943-ci ildə Şəkidə ikiillik müəllimlik institutunun fizika-riyaziyyat şöbəsini bitirib, riyaziyyat müəllimi işləmişəm. 1944-cü ildə məni "Şəki fəhləsi" qəzetinə işləməyə dəvət etdilər. 1945-ci ildə Universitetin jurnalistika fakultəsinə qəbul olunub, 1950-ci ildə oranı bitirdim. Oxuduğum dövrdə əlaçı tələbə kimi "Nizami" təqaüdü alırdım. Həm də "Azərbaycan müəllimi" qəzetində şöbə müdiri işləyir, eyni zamanda yazılarım "Kommunist" qəzetində dərc olunurdu. Sonra Universitetin çoxtirajlı qəzetinin redaktoru, Universitet nəşriyyatının direktoru oldum. İlk buraxılış 50-ci ildə oldu. Mən həm də jurnalistikanın ilk aspirantı kimi təhsilimi davam etdirdim. Dörd il Moskva Dövlət Universitetinin aspiranturasında oxudum. 1954-cü ildən BDU-nun jurnalistika fakultəsinin müəllimiyəm. Jurnalistika, mətbuat tarixi və xarici mətbuatdan dərs deyirəm. 1961-ci ilin oktyabr ayından televiziya və radionun siyasi icmalçısı, 25-30 il "Dünya həftə ərzində" verilişinin aparıcısı olmuşam. Azərbaycan qəzetlərində, radiosunda, televiziyasında ilk dəfə olaraq müstəqil icmalları biz yazmışıq.

**- 1988-ci ildən başlayaraq siyasi proseslərin dəyişməsi bütün həyatımızı əhatə etdi. Mənim də tələbəlik illərim həmin dövrə təsadüf edib. Çox qəribə bir vəziyyət yaranmışdı. Məsələn biz bir semestr ateizmdən dərs keçib, o biri semestr islamşünaslıqdan imtahan verdik. Hadisələr sürətlə dəyişirdi...**

- Elə mətbuat da dəyişdi də.

**- Təhsildəki bu dəyişməni biz tələbələr heç də asanlıqla qəbul edə bilmirdik. Məncə uzun illərin müəllimləri üçün bu dəyişmə daha çətin idi...**

- Necə dəyişdik, eləmi?

**- Bəli...**

- Moskvada aspiranturanı bitirəndə dissertasiyamın mövzusu "1917-20-ci illərin mətbuat tarixi" olub. O vaxt tələbələrə bu mətbuatı oxumağa icazə vermirdilər. Mən bu mətbuatla Moskva arxivlərində tanış olmuşam. Dissertasiyamı yazanda mətbuat tariximizi öyrəndim. Ərəb və fars dillərini bilməyimin mənə böyük köməyi dəydi. O zamam gördüm ki, inqilabdan əvvəl jurnalistlər necə olub, qəzetlərdə hansı problemləri qaldırıblar. Mən yaxşı öyrəndiyim, bildiyim bir mətbuat tarixini tədris etmişəm. Eyni zamanda, mətbuatımızın ayrılmaz bir hissəsi olan bolşevik mətbuatını öyrənmişəm. Bir də tədris etdiyim mət-

buat tarixini obyektiv işıqlandırmağa çalışmışam. O vaxt dərc olunan məqalələrimdə M.Ə.Rəsulzadənin adını çəkmədən ondan sitatlar gətirirdim. Məqaləmi çap edən də, oxuyan da bilməyib ki, bu sitatların müəllifi kimdir. Çünki elələri vardı ki, inqilabdan əvvəlki qəzetləri əllərinə almağa qorxurdular.

**- Şirməmməd müəllim, deyirsiz ki, dissertasiyanızın mövzusu inqilabdan əvvəlki mətbuat olub. Yəqin ki, o dövrə açıq-aşkar tənqidi baxımdan yanaşsaydınız, elmi işiniz qəbul olunmazdı...**

- Əlbəttə, siyasi-ideoloji tondan kənara çıxmaq olmazdı. Kim deyir ki, mən kənara çıxmışam, yalan söhbətdir. Amma Leninin, partiyanın, Stalinin dediklərinə arxalanaraq, istinad edərək yazmaq olardı. Məsələn, Lenin deyirdi: "Biz publisist işi görüb, zamanın tarixini yazmalıyıq". Mən də deyirdim gəlin görək inqilabdan əvvəl jurnalistlər zamanın tarixini necə yazıblar. Lakin bu o demək deyil ki, mən partiya xəttinin əleyhinə getmişəm. Boş sözdür. Mən partiyanın üzvü olmuşam. Amma bir var dərs proqramı, bir də var dərs prosesində müəllimin canlı danışıq dili ilə dünyagörüşü yaratmaq məsələsi. 90-cı illərin əvvəllərində bəzi jurnalistlər mənə hücüm çəkdilər. Hətta "Mozalan"da birisi yazmışdı: "Şirməmməd Hüseynov, sənin 37-38-ci illərdə kimləri satdığın yadımızdadır". Cavab olaraq yazmışdım ki, onun xəbəri yoxdur ki, mənim o vaxt 12-13 yaşım olub. 6-7-ci sinif şagirdi kimi sata bilərdi ki? O, məni kiminləsə qarışdırırdı.

**- İndi isə həmin adamlar sizə olan simpatiyalarını gizlətmirlər...**

- Yox, bilirsənmi, söz ayrı məsələdir, əməl ayrı məsələ.

**- Biz tələbə olanda danışırdız ki, siyasi proseslərin dəyişdiyi həmin günlərdə Universitetin həyətində "Şirməmmədə ölüm " plakatı tutmuş tələbə dəstəsi ilə qarşılaşmısınız. Onların kimlərinsə fitvasına getdiyi aydındır. Lakin o vaxt dediniz ki, mən sevindim ki, orada digər fakültələrin, eləcə də jurnalistikanın tələbələri yox idi. Əksəriyyəti hüquq fakültəsinin tələbələri idi ki, universitetə soyğunçu olmaq üçün daxil olmuşdular...**

- İndinin özündə də hüquq fakultəsinə gələnlərin 99 faizi Azərbaycanda hüquqi dövlət yaratmaq, bu millətə hüquqi xidmət etmək, hüququn üstünlüklərini təmin etmək üçün deyil, hüquqşunas olub, milləti soymaq üçün gəlirlər. Niyə? Çünki bunlar ölkədə hakimlərin, prokurorluq işçilərinin, polisin necə dolandığını görürlər. H.Zərdabi "Əkinçi"də yazırdı: "Bizim bəzi oxuyanlar ona görə Peterburqdan başqa yerlərə gedib oxumaq istəmirlər ki, gəlib xalqa xidmət etsinlər. Oxuyub qurtarıb gəlirlər ki, bəy olsunlar, vəzifələri olsun və milləti soyub, kefi istədikləri kimi yaşasınlar. Millətin ayılmağı, öz hüququnu bilməyi onlara



sərf deyil. Çünki millət savadlı olub, öz hüququnu qansa, onlar ac qalacaq. Camaat avam olduqca oğruların işi gətirir". Ona görə oğruların marağı odur ki, xalq ancaq oxumağı, yazmağı öyrənsin. Amma savadlı, bilikli olub hüququnu anlamasın.

**- Təhsilimiz elə bu gün də o vəziyyətdədir...**

- Təhsil var, amma bu təhsil əqidəyə çevrilmir. Savad əqidəyə, dünyagörüşünə çevrilməsə, onun millətə xeyri yoxdur.

**- Jurnalistika fakültəsində müəllimin təmizliyi prinsipi ənənəyə çevrilib...**

- Jurnalistika fakültəsində heç kəs rüşvət almaz. Biz fakültədə təmizlik uğrunda mübarizə aparmışıq. Başqa müəllimlər buraya gəlib rüşvət almaq istəsələr, onlar ya həbs olunublar, ya da Universitetdən qovulublar.

Bunun üçün hamımız mübarizə aparmışıq. Çünki bizdə bu atmosfer olub. Biz oğru deyil, jurnalistlər yetişdiririk. Jurnalist təmiz əqidə sahibi olmalıdır. İstedadlı jurnalist oğurluqla deyil, düz yolla özunə çörək qazanmağı bacarmalıdır. Çox təəsüf edirəm ki, indi jurnalistlərin bir qismi vəziyyətin ağırlığından oğru olur, bir qismi adətkərdə olur, bir qismini buna sövq edirlər, bir qismi də bununla məşğul olmasa redaksiyaya qoymurlar. Keçid dövrüdür. Lakin bu gün elə jurnalistlərimiz var ki, onların qələminə, dünyagörüşünə, savadına həsəd aparıram.

**- Ümumiyyətlə, mətbuatımızın bugünkü vəziyyəti sizi qane edirmi?**

- Mətbuatı ictimai-siyasi quruluş, dövlət quruluşu, iqtisadi bazis müəyyənləşdirir. Yəni ölkədə ümumi iqtisadi, ictimai və siyasi vəziyyət necədirsə, mətbuat da həmin gündədir. Amma mətbuatın bir üstünlüyü var ki, mubarizə aparmaqla düzələ bilər. Təəssüf ki, mətbuatımızın bir hissəsi mühafizəkardır. "Azərbaycan", "Xalq" qəzetlərindən nə gözləyirsən? Bir də ki bəzi qəzetlər inqilabdan əvvəlki qəzetlərin adını götürsələr də, onun məqsədini, amalını, ideyasını qəbul etmirlər. Məgər "Azərbaycan" qəzeti 1918-ci ildə dərc olunan Üzəyir bəyin qəzetidir?

Bu gün qəzet bolluğu içərisində bir qəzet yoxsulluğu da var. İngiltərədə çıxan qəzetlər iki yerə bölünür. Bir var keyfiyyətli qəzetlər, bir də var kütləvi qəzetlər, yəni bulvar qəzetləri. "Tayms" qəzeti düşünənlər üçün, elita üçün nəzərdə tutulub. Tirajı da çox deyil - 300-400 min. Amma digər qəzetlər 6 milyon tirajla çıxır. Hərəsinin də öz oxucusu var. Biz də yavaş-yavaş ələnərək ona getməliyik. Bizdə ən zəif cəhət odur ki, elmi-texniki jurnalistka yoxdur. Siyasi jurnalistika var. Amerikada nəşr olunan jurnalların 80 faizi elmi-texniki jurnallardır. Xalq ye-

niliyi haradan öyrənsin? Bu, jurnalistikada lazımdır və yaranacaq.

**- "Sarı mətbuat " adlanan qəzetlər yəqin ki, Sizin üçün də yenilik idi...**

- Yüz faiz qızıl da yoxdur. Hər şeyin qarışığı var. Xaricdə mətbuatın birinci vəzifəsi informasiya verməkdir. İnformasiya oxucunu cəlb edən yenilik deməkdir. İkincisi, əyləndirmək. Qəzet yaşamaq üçün reklam da verməlidir. Eyni zamanda, mətbuat cəmiyyət içərisində olan ziddiyyətli problemləri, konfliktləri hər iki tərəfin mövqeyini verməklə həqiqətin ortaya çıxmasına köməklik etməlidir. Xaricdə belə mətbuat var. Lakin onu acgözlüklə alıb ümumi mədəniyyət kimi təbliğ etmək olmaz. Bir də ciddi qəzetlər elə yazsın ki, oxucunun diqqəti elə qəzetlərə deyil, onlara yönəlsin.

**- Müstəqilliyimizin ilk illərində yazılarınızın birində üzünüzü xalqa tutub soruşurdunuz: "Biz hara gedirik?". İndi həmin sualı sizin özünüzə ünvanlamaq istəyirəm: Biz hara gedirik?**

- Biz getmirik, bizi aparırlar. Fransa inqilabının məşhur xadimi Sen Just deyirdi: "Bizi idarə edənlər bizim gözümüzdə nəhəng və böyükdürlər. Çünki bizi diz çökdürüblər. Gəlin ayağa duraq". Bizi də diz çökdürüblər. Bu millətə gərək kömək edəsən ki, ayağa dursun. O zaman qarşısındakının heç də böyük olmadığını görəcək. Diz üstə getmək yox, sürünmək olar. Millət ayağa durduğu zaman biləcək ki, hara gedir. Diz üstə çökmüş milləti haraya desən sürümək olar. Xalqın içərisində ayıq adamlar var. "Molla Nəsrəddin" jurnalının ilk nömrəsinin 1-ci səhifəsindəki karikaturanı xatırlayırsınızmı? Xalq yatıb. Pəncərədən düşən zamanın işığında tək-tük adam oyanmaq istəyir. Bu günsə biz yatmamışıq, diz üstəyik. Xalqı ayaq üstə qaldırmaq üçün onun sözünə və əməlinə inandığı adamlar olmalıdır. Bu gün nə hökumət adamları, nə də siyasi partiyaların xadimləri xalq içərisinə getmir. Bu, elə jurnalistlərə də aiddir. Bir qəzetdə də rast gəlmirəm ki, jurnalistlərdən biri uzaq kəndlərə getsin. Oradan yazılar gətirsin. Xalqın ağır yükünü çiyinlərində çəkməyi bacaran oğullar, qızlar lazımdır. İctimai rəyi formalaşdırmaq, xalqı düzgün istiqamətləndirmək üçün çalışmaq lazımdır. Bizdə "KİV haqqında" Qanun var. Fransada isə mətbuat haqqında qanun belə adlanır: "Jurnalist azadlığı qanunu". Bizdə də belə olmalıdır.

**Zöhrə FƏRƏCOVA,**

*Hürriyyət N146(548), 23 dekabr 1999*



## XALQ BAŞSIZ QALIB

*HAKİMİYYƏT ZİYALILARI*
*ORDEN-MEDALLA, MÜKAFATLA XALQIN BAŞINDAN DAĞIDIB*

*Şirməmməd müəllim Gənclər Teatrının direktoru Hüseynağa Atakişiyevin qapısını ərklə açdı. Telefonla danışan rejissoru başıyla salamlayıb ərklə stol çəkib oturdu və mənə də yer göstərdi. "Sən nədən başlamaq istəyirsən?"*

**- Elə dünən tamam olan 75 yaşınızdan...**

- Yox, gəl burdan başlayaq.

*"Yox" və "başlayaq" sözləri arasında mən Şirməmməd müəllimi auditoriyada xatırladım. Soyuq qış günündə beş-altı tələbə və Şirməmməd müəllim elə qışın özü kimi bumbuz otaqlar içində bir az istisini gəzirdi. Qapısını açdığı otaqlar Şirməmməd müəllimin beyninə batmadığından, tələbələrini dekanın kabinetinə apardı. Akif müəllim yoxuydu. Şirməmməd müəllim dekanın yerində əyləşib bizim də rahatlanmağımızı gözlədi. Deyəsən, bu sətirlərin müəllifinin soyuqdan göyərmiş sifətini, öləzimiş gözlərini birdən gördü, "qızım, sən o "plitka"nın yanında otur" dedi.*

*Ancaq "plitka"nın hamıdan balaca olan bu tələbə qızı isitməyi canına sinmədi. Ayağa qalxdı: "Dayan, sənə isti bir çay düzəldim". Ağzımda dörd il öncə içdiyim çayın təmini duyub gülümsədim.*

***- Bax bu şəklə, 33-cü ildə Şəkidə çəkilib.***

*Saralmış şəkildə iyirmiyə yaxın uşaq bir-birinə sıxılmış, mehribahcasına oturmuşdu. Şirməmməd müəllim Şəki ləhcəsiylə şirin-şirin dedi:*

- Bu oğlan mənəm. Bu qız da bilirsən kimdi? Tahirə xanım, İsa Qəmbərin anası. Ancaq ən maraqlı olan bilirsən nədi? Bu uşaqlardan biri Müsavat irsinin tədqiqatçısı oldu, birinin də oğlu Müsavatın başqanı. Bu uşaqlardan biri də məşhur tərcüməçi Cəlil Xəlilovdu. Tahirə xanım da kimya elmləri doktoru oldu. Söhbət adamlardan getmir. Niyə Şəkidə, Gəncələrlə məhləsində böyüyən uşaqlardan biri Müsavat tədqiqatçısı oldu, o birisinin oğlu Müsavatın rəhbəri. 1933-cü ildə Şəkidə bolşeviklərə qarşı üsyan qalxdı. Üsyançılar əski müsavatçılarıydılar. Bolşeviklər şəhəri mühasirəyə aldılar. Bax, indi Çeçenistandakı kimi, şəhəri pulemyot atəşinə tutdular. Evimizin divarlarında güllə yerləri hələ də durur. Hər dəfə evimizə gedəndə, o divarları görəndə 33-cü ildə dağda sıraya düzülmüş adamların güllələnməsi yadıma düşür. Qaçaqları öldürdülər, şəhərin yuxarısından aşağısına kimi sürüyürdülər, sonra da gətirib milis



*Ş.Hüseynov, İ.Qəmbərin anası Tahirə xanım. 1933.*

idarəsinin həyətinə atırdılar. Camaatı da məcbur edirdilər ki, gəlib meyitlərə baxsın. Ona görə də nə qədər Lenindən, Stalindən şer əzbərləsəm də, gördüklərim beynimə hopmuşdu, unuda bilmirdim.

*Uşaqlıqda bunları görən Şirməmməd müəllim sonradan gördüklərini tarix kitablarında axtardı. Amma bu kitablarda bolşeviklərin qəddarlığından əsər-əlamət belə yoxuydu. Əksinə, müsavatçılar qaniçənlər kimi təqdim edilirdi. İndi hamı özünü demokrat, sovet rejimindən dad deyən kimi qələmə verir. Amma Ş.Hüseynov arxivlərdə əski Müsavat tarixini araşdıranda 50-ci illəriydi.*

- Burda arxivdə işləməyə qoymurdular. Moskvada aspiranturada oxuyandasa arxivi bir-birinə qatmışdım.

**- Bəs orda nə əcəb sizə arxivə girməyə icazə verirdilər?**

- Əlimdə sənədim varıydı. Partiyanın üzvüydüm. Mən "Açıq söz" qəzetini hələ o vaxtdan oxumuşdum, qeydlər aparmışdım. Bir də arxivdə əlimə bir sənəd keçdi. 20-ci ildə Azərbaycanda ölüm düşərgəsinin yaradılmasıyla bağlı faktlar varıydı. Sənədi çıxarmaq istəyirdim. Amma açıq şəkildə onun üzünü köçürə bilməzdim. Çünki arxivə keçəndə bizə bir dəftər verirdilər, o dəftərin də vərəqlərini işarələyib möhürləyirdilər. Özü də tapşırırdılar ki, bir üzünə yaz. Çünki arxivdən çıxanda senzor yoxlayır, lazım olanda kəsib götürürdü. Həmin dəftərlər durur. Eləsi var ki, on iki vərəqli dəftərdən səkkiz vərəq yoxdu. Hə, sə-



nəddən danışırdım. Başladım sənəddən cümləni əzbərləməyə, sonra da çay içmək adıyla çıxıb cümləni köçürürdüm, kağızı da qoyurdum Leninin kitabının arasına. Eləcə, həmin sənədin cümlə-cümlə üzünü köçürdüm. Lap quş dimdiyində bala apardığı tək... (Gülümsəyir). Rəsulzadənin yazılarını, bilirsiz, necə çıxarırdım? Məqalələrini köçürürdüm, altından imza qoymurdum.



*Ş.Hüseynov Ümumittifaq Olimpiya qaliblərinin arasında. Soçi, 1940.*

**- Şübhələnmirdilər?**

- Yox, çünki Leninin də, Stalinin də, Nərimanovun da məqalələrinin üzünü köçürürdüm. Mən əsrin əvvəlində çıxan məqalələri təhlil edirdim, görürdüm ki, Rəsulzadənin yazılarında yüksək siyasi mədəniyyət var.

**- Gördüklərinizi kiminləsə bölüşürdüz?**

- Yox, qətiyyən. Auditoriyada zarafatla deyirdim ki, hər beş tələbədən dördü "KQB"-nin agentidi. Heç kəsə bildirməmişəm. Bilirsən, həmin vaxt bəlkə də məndən soruşsaydılar ki, bu yazıları neyləyirsən? Cavab verə bilməzdim. Qadağan olunmuş şeylər məni özünə dartırdı. Həm də mən özümçün çox şeyləri aydınlaşdırırdım. Həmin vaxtlar yazdığım kitablarda da Rəsulzadənin məqalələrindən sitat gətirmişəm. Düzdü, onun adını çəkməmişəm, məsələn, "Təkamül" qəzeti o vaxt belə yazırdı" deyirdim. Mən publisistəm, orda ezop dilində danışmaq mümkün deyil, məqalələrimdə poetik təsvirlərdən də istifadə edə bil-

məzdim. Ona görə demək istədiklərimi Bəxtiyar Vahabzadəylə bölüşürdüm, onu qızışdırırdım, mövzular verirdim. Bir hadisə olmuşdu, ikimizin arasında sirr kimi qalırdı. Amma özü açdı deyə, mən də danışım.

86-cı il, dekabrın 17-də Alma-Atada etiraz mitinqləri qalxdı. Bəxtiyarla görüşdük, bu hadisədən danışdıq. Dedim ki, indi bunu qələmə ala bilən bir oğul istəyirəm. Bəxtiyar dedi ki, sən indiyə kimi mənə bir neçə mövzu, həm də tutarqa vermisən. Bunun üçün də bir tutarqa ver, gör nə yazıram! Əlimi cibimə atıb pasportumu çıxardıb ona doğum günümü göstərdim. Həmin gün Bəxtiyar mənim ad günümə bir şer yazdı. Şer "Kommunist" qəzetində dərc edilməndən sonra Nurəddinlə Xudu ondan soruşublar ki, Şirməmməd müəllim doğrudan dekabrın 17-də anadan olub, yoxsa bu sənin növbəti qalxanındı?

*Şirməmməd müəllim hələ bizə dərs deməmişdən biz onu tanıyırdıq. Televiziyadan, müəllimlərimizin söhbətindən, məqalələrindən. Bir də onu bilirdik ki, çox hazırcavabdı. Müəllimlərimizdən biri danışırdı ki, Şirməmməd müəllim universitetdə cavan vaxtından dərs deyir. Savadlı olduğuna görə hətta onun imtahan götürməsinə də mane ola bilməyiblər. Ancaq Şirməmməd müəllimi gözü götürməyənlər onun barəsində artıq-əskik danışmaqdan qalmayıblar.*

- Sovet rejimi laxlayanda hərəkata hamı qoşuldu. Amma hamı eyni məqsədi güdmürdü. Eləsi varıydı ki, hakimiyyətdəkiləri yıxıb bu milləti soymaq üçün özü oturmaq istəyirdi. Məsələn, İxtiyar Şirinov baş prokuror olanda mən dedim ki, o, buna layiq deyil. Kolxoz dağıdanın oğlundan hüquq qoruyucusu çıxmaz. Arif Hacıyev mənə dedi ki, elə deyil. Dedim, baxarsız! Mən deyən oldumu? Azərbaycanda kişilər vardı, dövlətin xəritəsini cızmışdılar, istiqlal məfkurəsini yaratdılar, Azərbaycanı müstəqil dövlət kimi dünya dövlətləri tərəfindən tanıtdılar. Məni yandıran budu, indi bu məfkurəyə şərik çıxıb deyirlər ki, istiqlal bayrağı Naxçıvanda qaldırılıb. Bizim bəlamız ondadı ki, yeni qurduğumuz bir şeyi köhnə adamlara tapşırırıq. Kommunist olan kəslər bizə təzə heç nə verə bilməyəcəklər. Yeni, gənc nəsil lazımdı.

**- Bir vaxtlar uğrunda qan tökülən bu müstəqillik gözdən düşdü elə bil...**

- Dövlətimizin müstəqilliyi hakimiyyətdə oturanlara sərf eləyib, geniş xalq kütləsi bu müstəqillikdən nə əldə edib ki? Bəzisi sovet rejimini nostalgiyayla xatırlayır ki, heç olmasa onda şikayət eləməyə yer varıydı. Amma indi nə şikayət eləməyə yer var, nə də şikayətə baxan. İşsizlik, aclıq...

**- Bəs camaat niyə bu zülmü çəkməyi özünə rəva bilir? Axı bir vaxtlar öz haqqını tələb edən və haqqına yiyə çıxan bu adamlarıydı.**



- NTV-nin "İtoqi" verilişində Soljenitsın Kiselyova təxminən belə bir sual verdi. Soljenitsın soruşdu ki, Rusiyada 1917-ci ildə vəziyyət ağırıydı, yoxsa indi. Aparıcı dedi ki, indi vəziyyət ağırdı. Onda Soljenitsın dedi ki, bəs onda niyə o vaxt xalq üsyan edə bildi? Çünki ziyalı təbəqə xalqın tərəfindəydi.



**Ş.Hüseynov**
**B.Vahabzadənin 60 illik yubileyinə gəlmiş qonaqlarla**

**- Məncə, xalq siyasətçi sözündən çox ziyalı sözünə inanır.**

Ziyalı xalqın düşünən beynidi. İndi xalq başsızdı, onun ziyalısı yoxdu. Hakimiyyət sahibləri bu ziyalıları orden-medalla, mükafatla, vəzifəylə xalqın başından dağıdıblar.

... Söhbətimizin bu yerində Hüseynağa müəllim içəri girib dəfn mərasiminin başladığını dedi. Hə, xalqımızın düşünən beyinlərindən birinin ölüm günüydü həm də o gün. Biz bu barədə heç danışmadıq axı... Görünür, Nəcəf Nəcəfov hələ bizi tərk etməyibmiş...

**Səadət Akifqızı,**

*"Yeni Müsavat" N 292(934),*
*21 dekabr 1999*

## ELM FƏDAİLƏRİNİN ZƏHMƏTİ QİYMƏTLƏNMƏLİDİR

Azərbaycan Xalq Cümhuriyyəti tarixinə gur bir həqiqət işığı saçan çoxcildli sənədlər toplusu nəşr olunmuşdur. Çox nəfis və yüksək poliqrafiya mədəniyyəti ilə çap olunmuş bu sənədləri neçə vaxtdır ki, diqqətlə oxuyur, nəzərdən keçirirəm. Çox böyük, faydalı, nəhəng iş görülmüşdür. Zəngin milli dövlətçilik tariximizin keşmə-keşli, çətin, həm də fəxarətli dövrünün mənəvi xəzinəsi üzərindən uzun illərin zəhmli qara-qırmızı qadağan pərdəsi götürülmüşdür. Müsəlman Şərqi və türk dünyasında ilk dəfə demokratik cümhuriyyət qurmaq qayəsini qarşılarına məqsəd qoymuş xalqımızın qeyrətli, istedadlı övladlarının fəaliyyəti, dövlət quruculuğu, xarici siyasət, ordu quruculuğu və digər mühüm sahələrdə görülən işlər, qanunvericilig aktları bu sənədlər toplusunda öz geniş əksini tapmışdır.

Məqsədim çoxcildli sənədlər toplusu haqqında oxuculara geniş məlumat vermək deyil, indiki çətin, məşəqqətli, imkansızlıq şəraitində bu sənədləri arxivlərdən, müxtəlif mənbələrdən min cür əziyyətlə toplayıb, nizama salıb, nəşrə hazırlamış elm fədailərindən söhbət açmaqdır.

Sənədlər toplusunun "Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) Parlament" adlı 1-ci cildinin müqəddiməsində qeyd olunur ki, "dərc edilən protokol və stenoqrafik hesabatların əsilləri ərəb əlifbasındadır. Həmin materialları ərəb qrafikasından yeni qrafikaya köçürmək zəhmətini Bakı Dövlət Universitetinin baş müəllimi, mərhum Səfər İbrahimov öz üzərinə götürmüşdü. Həm də o, bu protokollarda olan çoxlu ərəb və fars tərkibli sözlər üçün lüğət də tərtib etmişdi".

İxtisasca riyaziyyatçı olan Səfər müəllim istiqlal fədaisi, Cümhuriyyət dövrü mücahidlərinin pərəstişkarı, çox böyük və vətənsevər şəxsiyyət idi. Yaşının çox olmasına, səhhətinin nasazlığına baxmayaraq özlərini tarixçi hesab edənlərin girişə bilmədikləri, bəzilərinin isə girişmək istəmədikləri çətin bir işi böyük bir aludəçiliklə öhdəsinə götürmüşdü. Bu yolda da özünü fəda etdi. Riyaziyyatçı Səfər İbrahimov 90-cı illərdə Xalq Cümhuriyyəti dövrü tarixinə dair çox qiymətli araşdırmaların da müəllifidir.

Səfər müəllimin başladığı hazırlıq işini M.Ə.Rəsulzadə adına BDU-nun professoru, tarix elmləri doktoru Seyidağa Onullahi davam etdirdi.

Mərhum akademik Ziya Bünyadovun Respublika Dövlət Təhlükəsizlik Komitəsinin arxivindən götürərək "Elm" qəzetində dərc etdirdiyi Azərbaycan parlamentinin son 1920-ci il aprelin 27-si iclasının protokolu və stenoqrafik hesabatı da sənədlər toplusuna daxil edilmişdir.



Respublika prezidentinin sərəncamı ilə sənədlərin toplanması, elmi cəhətdən işlənib nəşrə hazırlanması işinin əsas ağırlığı Baş Arxiv İdarəsinin rəisi, tarix elmləri namizədi Ataxan Paşayevin üzərinə düşmüşdür. Məcmuədə dərc olunan sənədlərin arxeoqrafik qaydalarla işlənilməsi, ona elmi məlumat aparatının hazırlanması və müqəddiməsinin yazılması A.Ə.Paşayev tərəfindən yerinə yetirilmişdir.

Mən Ataxan müəllimi uzun müddətdir tanıyıram. Bütün məsuliyyətimlə deyirəm ki, Azərbaycan Xalq Cümhuriyyəti tarixinə dair 7 cildlik sənədlər toplusu hər kəsdən əvvəl onun çox böyük zəhmətinin, axtarışlarının, elmi və təşkilatçılıq istedadının, ülvi vətənpərvərlik keyfiyyətlərinin nəticəsidir. A.Paşayev 126 adda orijinal elmi məqalə və əsərlərin müəllifidir. Onların ümumi həcmi 50-60 çap vərəqindən artıqdır. Topladığı və elmi-tarixi şərhlərlə dərc və nəşr etdirdiyi sənədlərin həcmi isə neçə yüz çap vərəqidir. Bütün bunları ona görə qeyd edirəm ki, təmənnasız, ömrünü, həyatını tariximizin araşdırılması işinə sərf etmiş belə nadir elm fədailəri yaddan çıxarılmasın, onların əməyinə lazımi qiymət verilsin. Mən inanıram ki, başqaları kimi A.Paşayev də konkret bir mövzu götürüb, işləyib tarix elmləri doktoru ola bilərdi. Belə elmlər doktorları da çoxdur. Ancaq onların yazdıqlarının tarix elmimizə, bütövlükdə xalqımıza faydalılıq əmsalı nə qədərdir? Ataxan müəllimin yazdıqları, aşkarladıqları ilə müqayisədə çox cüzidir. Bunlar nəzərə alınmalıdır.

Azərbaycan Xalq Cümhuriyyəti tarixinə dair çoxcildlik sənədlər toplusunu hazırlayanların, onu nəşr edənlərin böyük zəhmətləri layiqincə qiymətləndirilməlidir. Bu sahədə təşəbbüskar Elmlər Akademiyası, tarix ictimaiyyəti, ali məktəblər olmalıdır. Axı sənədlər toplusunda verilmiş materialların əksəriyyəti ilk dəfədir ki, çap olunur. Elmi işçilər, tədqiqatçılar, ictimai elmlər üzrə mütəxəssislər, ali məktəb müəllimləri, aspirant və tələbələr, habelə Azərbaycan tarixi ilə maraqlanan geniş oxucu kütləsi üçün bunlar nəzərdə tutulmuşdur.

Görək nəticəsi nə olacaq? Deyilənləri nəzərə alan tapılacaqmı?

***"525-ci qəzet", 16.11.1999***

## "ZƏMANƏ YAMAN DƏYİŞİB, PİS OLUB, ÇOX PİS..."

Bu acı həqiqəti səhnəmizin və xalqımızın fəxri, böyük sənətkarımız Nəsibə xanım Zeynalova dilə gətirir. "Şans" qəzetində onunla müsahibəni oxudum, (9.VI) neçə müddətdir ki, hissimi-həyəcanımı yığışdıra bilmirəm. Ləyaqətlə yaşayıb, mənalı bir ömür sürmüş sənətkar görün nələr deyir: "83 illik ömrün 65 ilini muzkomediyanın səhnəsində qoyasan, əvəzində yavaş-yavaş unudulasan", "indi mənə fikir vermirlər", "teatrın açılışında məni yada salan olmadı", "bir adamın dalınca danışmamışam, qeybət eləməmişəm" və s.

Ömrün qürub çağında ötən günlərə, ətrafdakılara yeni nəzərlə baxmaq, ötüb-keçənləri, dost-həmkarları dəyərləndirməyə çalışmaq təbiidir. Uman yerdən küsmək də adətimizdir. Lakin laqeydlik, unutqanlıq, intiqamçılıq, biləkədən saymamazlıq, göz görə-görə hörmətsizlik nümayiş etdirmək məddahlıqla, yaltaqlıqla və ləyaqətsizliklə, yüngül yolla özünə karyera qazananların köhnə peşəsidir. Nə edəsən - belədir də...

Nəsibə xanımı Musiqili Komediya Teatrının yeni binasının açılış mərasiminə dəvət etməmişlər. Kimlərdir bu ləyaqətsizliyin daşıyıcıları? Tarixi bir arayış.

1922-ci il noyabrın 7-də, yəni oktyabr çevrilişinin 5-ci ildönümü günü Bakıda, "İsmailiyyə"nin yanında böyük Sabirin abidəsinin açılış mərasimi olmuşdu. Mərasimdə bolşevik rəhbərliyin, yeni hakimiyyətə qulluq çırpışdıranların ən öndə gedənləri iştirak edirdi. Amma Sabirin istedadını ortaya çıxaran, onu məşhurlaşdıran, əsərlərini dərc edən, əqidə və məslək dostu və həmkarı Cəlil Məmmədquluzadəni bu mərasimə çağırmamışdılar. Görün M.Cəlil həmin günlərdə, yəni noyabrın 9-da-jurnalda nə yazırdı: "Sabirin təbinin atının iti qaçışına gözəl və geniş meydan hazırlayan Molla Nəsrəddin orada (mərasimdə) görsənmirdi, çünki bu açılışın nə vaxt olması xəbərini ona heç bildirməmişdilər".

Hörmətli Nəsibə xanım! Görünür, Sabirin abidə mərasiminə M.Cəlili dəvət etməyənlərdən törəyənlər indi meydan sulayırlar, hakimlik edirlər. Bu, xalqımıza çox baha başa gələn bəladır. Sizin son xəbərdarlığınız da ibrətamizdir, düşündürücüdür: "Eybi yox! Onlar da qocalacaq. Onların da qapısını döyən olmayacaq!"

Doğrudan da, Azərbaycanda zəmanəni yamana dəyişib, pis günə salanların aqibəti Nəsibə xanım deyən kimi olacaq. Biz necə, nə vaxta qədər bu rəzalətə dözəcək, başları Allah bilir nələrlə məşğul olanların hikkəsinin qurbanı olacağıq. Söhbət indi bundadır!

***"525-ci qəzet", 19.06.99***



## DOST HAQQINDA BİR NEÇƏ SÖZ

Hörmətli dostum, məsləkdaşım, uzun illər bir yerdə işləyib, müəmadi təmasda olduğum Məmməd bəy Xələfov haqqında düşünərkən məşhur mütəfəkkir ədibimiz Əhmədbəy Ağayevin 90 il bundan öncə Həsən bəy Zərdabinin dəfn mərasimində söylədiyi sözlər yadıma düşdü: "Dünyadan cümləmiz böyləcə gedəcəyik. Heç bir şey aparmayacayız! Bizdən qalan fəqət o insanlıq, o öz millətimizə, öz taifəmizə və ümuminsaniyyətə qulluq və xidmət qalacaq ki, əlan Həsənbəyin ruhunu bu qədər əziz və möhtərəm ediyor!"

M.Xələfovla mən 1946-cı ildə tanış olmuşam. Hər ikimiz universitetin tələbə həmkarlar komitəsinə üzv seçilmişdik. O, hüquq fakültəsində Stalin təqaüdü alırdı. Mən isə filologiya fakültəsinin jurnalistika şöbəsində Nizami təqaüdü. 1947-ci ildə universitetdə çoxtirajlı "Lenin tərbiyəsi uğrunda" adlı qəzet nəşrə başladı. Bu qəzetdə M.Xələfovun şəklini və haqqında yazı vermişdik. Sonralar hər ikimiz aspiranturaya daxil olduq. Qeyd edim ki, təhsil aldığımız müddətdə universitetdə çox görkəmli alim və ziyalı şəxsiyyətlər müəllimliklə məşğul idilər. İstiqlal, həqiqi vətəndaşlıq və milli qeyrət məktəbi keçmiş bu ziyalılar tə-



**1947-ci il. BDU-nun Həmkarlar Komitəsinin iclası**
**F.Köçərli** (ortada ayaq üstə), **ondan sağda M.Xələfov, solda İ.Səfərli, Ş.Hüseynov** (soldan birinci).

qib və təcavüzlərə məruz qalsalar da, sıraları azalsa da, xeyli qismi öz insanlıq və müəllimlik simalarını saxlayıb mühafizə etmişdilər. Nümunə götürüləcək, öyrəniləcək ziyalı-müəllimlər az deyildi. Hər fakültədə belə müəllimlər vardı. Bunların istedadlı, işgüzar, zəhmətsevər gənclərə qayğısı hədsiz idi. Sonralar bir yerdə həmkarlıq etdiyimiz ağsaqqallarımız Maqsud Cavadov, Əşrəf Hüseynov, Məmməd Arif, Mehdi Əliyev, Vahid Qəhrəmanov, Feyzulla Qasımzadə, Məmmədrza Təhmasib, Cəlal Qasımov, Həsən Dadaşov və başqalarının adlarını fəxrlə çəkə bilərəm.

M.Xələfov ziyalılarımızın 40-50-ci illər nəslinin ən yaxşı keyfiyyətlərini özündə cəmləşdirən, bütün həyatı boyu insanlıq keyfiyyətini qoruyub saxlayan şəxsiyyət idi. Müxtəlif şəraitlərdə, məqamlarda hər ikimiz dekan olarkən mən M.Xələfovu yolundan sapan, yersiz güzəştə gedən, ağa qara deyən, yarınan görməmişəm. Əksinə ona yarınanlar çox idi, fayda görən lap az. Bəlkə də yox idi. Milli mənafe, milli heysiyyət baxımından M.Xələfov heç kəsə güzəşt etməzdi. Mən Tiflis universitetinin elmi şurasında M.Xələfov doktorluq dissertasiyası müdafiə edərkən bunun şahidi oldum. Nəinki respublikamızın, həm də İttifaqın hüquqşünas alimlərinin Məmməd müəllimə böyük hörmət və ehtiramını gördüm.

Yay günlərində dostlar Şüvəlanda Məmməd müəllimin bağında onun başına toplaşardıq. Ciddi söhbətlərimiz, mübahisələrimiz olardı. Amma heç kəs bu ağır təbiətli, dərin düşüncəli adamı müvazinətdən çıxara bilməzdi. Təbiətən sakit, hədsiz səxavətli, elmi öyrənməyə həvəsli insanı heç vaxt yadımdan çıxara bilməmişəm və yəqin ki, bilməyəcəyəm.

***"Femida" qəzeti, 14 avqust 1999***



## BAYKARA, NİYAZİ, BƏXTİYAR

*Və bir də "Müsavat" necə yarandı?*

**1975**-ci ildə İstanbulda işıq üzü görmüş 336 səhifəlik kitab "bu əsərimi adları bilinən və bilinməyən, bir qismi arkadaşlarım olan Azərbaycan istiqlal mücadiləsinin əziz şəhidlərinə bağışlayıram..." ithafı ilə çap olunmuşdu. Kitabın üz qabığında üç rəngli, ay-ulduzlu Azərbaycan bayrağı, sonunda isə "Azərbaycan istiqlal mücadiləsi şəhidlərindən bir qrupu"nun şəkilləri verilmişdi. Burada M.Ə.Rəsulzadə (Müsavat partiyası lideri, Milli Şura rəisi), Həsən bəy Ağayev, Fətəlixan Xoylu, Nəsib bəy Yusifbəyli, "Soranlara mən bu yurdun anlatayım nəsiyəm, mən çeynənən bir ölkənin haqq bağıran səsiyəm!" - deyən şair Əhməd Cavadın və b. rəsmləri var.

Diqqətimi cəlb edən digər bir cəhət. Adətən müəllifin adı kitabın üstündə, yuxarı başda yazılır. Amma Hüseyn Baykara - gəncəli alim, hüquqşünas, tarixçi, mücahid öz imzasını üçrəngli bayraqdan, Azərbaycan istiqlal mücadiləsi tarixi sözlərindən sonra, səhifənin lap aşağısında vermişdir. İbrətamiz deyilmi?!

Bakının Hüsü Hacıyev küçəsindəki 19 nömrəli Yazıçılar Evi paytaxtımızın sayılacaq binalarındandır. Beş mərtəbəli bu binada yazıb-yaradan qüdrətli, qeyrətli qələm, milli amal və əqidə sahiblərinin tariximizdəki əvəzsiz xidmətləri, qoyub getdikləri ədəbi irs neçə-neçə nəslin tədqiqat obyekti, milli iftixar mənbəyi, təcrübə məktəbi olacaq. Neçə onilliklərdir ki, mən də bu binaya məsləkdaşım, böyük milli mütəfəkkir şairimiz Bəxtiyar Vahabzadənin 5-ci-axırıncı mərtəbədəki mənzilinə qalxıb-düşməkdə idim. Dostum da mənim kimi yaşlaşıb, vaxtilə birnəfəsə qalxdığı pilləkənləri son zamanlar qalxa bilmirdi. İndi yeni mənzildə 3-cü mərtəbəyə liftlə çıxır. Amma varlığı, ürəyi, keçmişi köhnə mənzillə bağlıdır, yenisinə heç cür uyğunlaşa bilmir. Amma nə edəsən ki, zaman, şərait köhnə həyat tərzini dəyişməyə məcbur edir. Təki əqidə, məsləkdəyişməsin.

Mənim üçün ən əziz günlər, əlbəttə, Bəxtiyarın köhnə mənzili ilə bağlıdır. Orada illər boyu çözələnən problemlər, keçirilən görüşlər, dünyanın müxtəlif səmtlərindən gələn ziyarətçilərlə söhbətlər qələmə alınıb, allah bilir neçə-neçə qalın cild olar. Yəqin ki, hələlik baş qarışıqdır. Şair demişkən, sular durulmayıb, görək nə göstərir bizə istiqbal! Tam ümidsiz deyilik!

Məni bu sözləri yazmağa vadar edən düzünü deyim ki, dostumun bu yaxınlarda "Azərbaycan" nəşriyyatı tərəfindən buraxılmış "Bir ömür yuxu" kitabı, orada ilk dəfə işıq üzü görmüş bir şer oldu. "Müsavat" adlanır bu şer. Onun yaranması, yazılması ilə əlaqədar bildiklərimi, qısaca xatırlamaq istəyirəm.

1977-ci il idi. Növbəti görüşlərimizdən birində Bəxtiyar mənə bir kitab verdi və dedi ki, bu kitabı Türkiyədən Niyazi gətirib, özü diqqətlə oxuyub, kitabın ayrı-ayrı səhifələrində tənqidi qeydləri də var. Mənə məsləhət görüb ki, mən də oxuyum və tutarlı bir tənqidi məqalə yazım. Mən də oxumuşam, amma görürəm ki, mənim gərəyim deyil, sən 1917-1918-ci illər mətbuatımızı öyrənirsən, tarixçisən, icmalçısan, elə gəl bu işi sən öhdənə götür, kitabı da verirəm sənə. Razılaşdım. Bəhanəni də başa düşdüm. İlk dəfə idi ki, İstiqlal mücadiləsi tariximizə dair sanballı, yerli-yataqlı, çoxlu tarixi faktlar, sənədlərlə zəngin və həm də bu hadisələrin iştirakçısı olan bir mühacirin -mücahidin qələmindən çıxan bir əsərlə tanış olurdum. Uzun müddət evdən kənar görüşlərimizin mövzusu tariximizin bizdən-xalqdan gizlədilən, iftira və saxtakarlıqlara məruz qalan fəxarətli istiqlal davası oldu. Rəsmi ədəbiyyat və bolşevik-kommunist məddahların ünvanına min hədyan uydurduqları müsavatçılar və "Müsavat"ın nə demək olduğunu bir daha anlamağa başladıq. İstiqlal savaşına dair marağımızın dairəsi genişləndi. Hətta professor, məşhur cərrah, əqidə və məsləkdostumuz Nurəddin Rzayevin bağ evində Müsavat Partiyasının proqramını və fəaliyyətini, tarixi təcrübəsini geniş müzakirə etməyə girişdik. Rəhmətlik professor Xudu Məmmədov da bu məclisimizin fəal iştirakçısı idi. Mən tənqidi məqalə yazmadım. Amma Bəxtiyar elə 1977-ci ildə "Müsavat" şerini yazdı. İndi həmin vaxtdan 22 il keçir. İlk dəfədir ki, uzun müddət "itirilmiş" hesab edilmiş "Müsavat" şeri işıq üzü görüb.

Tarixi bir təsadüfmü, yoxsa qanunauyğunluqmu deyə bilmərəm, amma maraqlıdır ki, Bəxtiyar Vahabzadə ilə bir binada, bir blokda, 3-cü mərtəbədə yaşamış məşhur şair və mədəniyyət xadimimiz Abdulla Şaiq də hələ 1918-ci ildə fevral ayında "Müsavatın marşı" şerini yazmışdı. Məncə, birincisi marşın sözləridirsə, 80 il sonra işıq üzü görmüş ikinci "Müsavat" Partiya himninin sözlərini xatırladır. İndi oxucular hər iki şerlə tanış ola bilərlər.





## TÜRK ƏDƏMİ-MƏRKƏZİYYƏT FİRQƏSİ "MÜSAVAT"A ithaf

Birləşəlim türkoğlu, bu yol millət yoludur,
Ünlə, zəfərlə, şanla tariximiz doludur.
Yürüyəlim irəli, haydı millət əsgəri,
Keçmişimiz şan, zəfər durmayalım biz geri.

Yıldırımlı gözünüz qan ağladır düşmənə,
Qorxaq, alçaq, xainin bu meydanda işi nə?!
Dəniz kimi coşalım, dalğa kimi qoşalım,
Altun ordu, irəli! Dağlar, daşlar aşalım!

Türk qafasında qorxu yuvalamaz, düşmənim!
Həp dəmirdən yapılmış ruhum, qəlbim, bədənim.
Süngümüzün ucundan damar qətrə-qətrə qan,
Hürriyyətdən, vətəndən ölüncə keçməm, düşmən!

Dalğalanır üstümdə şanlı Turan bayrağı,
Alovlanır qəlbimdə "Ərkənəqon" ocağı.
Haydı, yola çıxalım, haqsızlığı yıxalım.
Turanda gün doğunca zülmətlə çarpışalım!

Marş irəli, irəlidə cənnət kimi cahan var,
Günəş orda həp doğar, səadət orda parlar.
Türk firqəsi Müsavat,
Açalım quş tək qanad.
Sarılıb hürriyyətə,
Bulalım şanlı həyat.

***"Açıq söz" qəzeti, 6 fevral 1918***

## MÜSAVAT

Dan ulduzu tək şər dağıdıb doğduğu gündən,
Qəlblərdə azadlıq odu yandırdı Müsavat.
Ulduz və hilal eylə ki, üç rəngə qovuşdu,
Boz qurdu könüllərdə oyandırdı Müsavat.

Meydan oxudu qan çiləyən dövrana qarşı,
Bayraq elədi sülhü, o, çıxdı qana qarşı.
Hər zalimə, hər zülmə və hər böhtana qarşı,
Qanmazlara öz həddini qandırdı Müsavat.

Rəhbər dedi, istiqlal üçün dağ aşalım biz,
Bir türk kimi islamlaşa, çağdaşlaşalım biz,
İstiqlala, istiqbala daim qoşalım biz.
Amalına bir xalqı inandırdı Müsavat.

Haqdan yaranıb, məqsədi aydın, üzü ağdır,
Böhtandan azad, qəsdi təmiz, şərdən uzaqdır.
Daim bizə, yüksəl, - deyə millət yapacaqdır,
Millətdən olan hər kəsi, hər fərdi Müsavat.

Haqdan göyərib, daima çarpışdı yalanla,
Torpaqdan alıb qüdrəti köklədi zamanla.
Cənnət edəcək amala donmuş bir imanla,
Ünvani Azərbaycan olan yurdum Müsavat.

***Fevral, 1977***

**"525-ci qəzet", 1 iyun 1999**



## ZƏRDÜŞT ƏLİZADƏ MEYDANDA QAPIÇILIQ EDİRDİ

**20 Yanvar faciəsinin ildönümü ilə bağlı mərhum telejurnalist Çingiz Mustafayevin 1992-ci ildə hazırladığı verilişi ANS bu il də nümayiş etdirdi. həmin verilişdə ASDP-nin həmsədri Zərdüşt Əlizadə maraqlı fikir söylədi. O, BDU-nun professoru Şirməmməd Hüseynovu 20 Yanvar ərəfəsində tutduğu mövqeyə görə ittiham edirdi, Z.Əlizadənin bu fikrinə münasibətini öyrənmək üçün professor Ş.Hüseynova müraciət etdik.**

- O vaxt demişəm, yenə də deyirəm. Dağlıq Qarabağ məsələsi sülh yolu ilə həll olunan deyil. Ermənilər zor göstərib, torpaqlarımızı işğal ediblər, biz də zor edib torpaqlarımızı xilas etməliyik. Z.Əlizadə və onun tərəfdarları isə həmişə məsələni danışıqlar yolu ilə həll edilməsini çıxış yolu hesab ediblər. Ermənilər torpaqlarımızı işğal etmək üçün əsrlərlə hazırlıq işləri görüblər. Z.Əlizadənin tarixdən xəbəri yoxdur. Onun səthi savadı var. Z.Əlizadənin fikrincə, xalqımızın vuruşmaq, mübarizə əzmi yoxdur. İşi-peşəsi yalnız Ayaz Mütəllibovu müdafiə etməkdir. Vaxtında Əlizadənin cavabını vermişəm. Az.TV-nin isə məndən "xoşu gəldiyindən" o zaman dediklərimi təkrar hallandırırlar. Dəfələrlə telejurnalist İsmayıl Ömərov zəng edib, məni verilişinə dəvət edib. Amma imtina etmişəm. Və demişəm ki, naxələflərin, rüşvətxorların yuvasına getməyəcəyəm. Onu da deyim ki, mənə qarşı hücumlar tək Zərdüştün işi deyil. Az.TV nümayəndələrinin də bu işdə maraqları var.

Hələ o vaxtlar Z.Əlizadə mənə çox maneçilik törədirdi. Hətta bir gün Bəxtiyar Vahabzadə ilə Azadlıq meydanında tribunaya qalxıb çıxış etmək istəyəndə Z.Əlizadə qarşımı kəsib, mane oldu. O, orada qapıçı funksiyasını yerinə yetirirdi.

**- Siz o gün tribunada sözünüzü deyə bildinizmi?**

- O kim idi axı? Getdim, çıxış da etdim. Bilirsiniz, o vaxt İsa Qəmbər, Sabir Rüstəmxanlı, Əbülfəz Elçibəy və Bəxtiyar Vahabzadəni çıxmaq şərtilə, Azərbaycanın ictimai fikir tarixindən, fəlsəfədən xəbərsizlər meydanda at oynadırdılar. Və elə həmin yarımçıqlar bizim işimizə də mane olurdular.

**Şirməmməd müəllim xalqımızın unutqanlığından, şəhidlərə olan biganəlikdən də söhbət açdı.**

- Çəmbərəkənd qəbiristanlığında dəfn olunanlar da şəhid olublar. Bəs oralar niyə dağıdıldı? Vallah, bu cür davam etsə, gələcəkdə deyəcəklər ki, "20 Yanvar şəhidləri Azərbaycanı ölümə aparıblar. Niyə

rus tankının qabağına çıxıblar? Gəlin bu qəbiristanlığı sökək. Hamı da əl çalacaq".

**- 20 Yanvara kədən yol hardan başlandı?**

- Xalqın mübarizəsindən.

**- Bəs bu hadisələrdə, sizcə əsl günahkarlar kimlərdir?**

- Əsl günahkarlar ruslara sədaqət aşılayanlardır. Onlar xalqımızı diz üstə qoyduqları üçün tarix qarşısında suçludurlar. Diz üstə olan xalq isə yeriyə bilməz, sürünə bilər. Bu cür yas saxlamaqla nə erməni Qarabağdan çıxacaq, nə də torpaqlar azad olacaq.

**- Şirməmməd müəllim, o günləri necə xatırlayırsınız?**

- Hüzn, kədər və təəssüflə.

***"Yeni Müsavat" N 16(959),***
***23-24 yanvar 2000***

## İSLAM VƏ DEMOKRATİYA

*(ADSP-nın "Ziyalılar klubu"nda çıxış)*

-Bəxtiyar müəllim dedi ki, görək bizim islahat keçirməyə səlahiyyətimiz çatırmı? Çatır. Hələ vaxtilə bu məsələni M.Ə.Rəsulzadə, Ömər Faiq Nemənzadə, Əlibəy Hüseynzadə, H.B.Zərdabi də qaldırıblar. Bunu alimlər, siyasətçilər etməlidir. İslahatlar aparılmalıdır, bu vacib məsələni mollaların ümidinə qoymaq olmaz. H.B.Zərdabi deyib ki, həyat millətlərin yaşayış uğrunda mübarizəsidir. Elmin mübarizəsidir. Hansı millət elmə yiyələnmək çəngində geri qalsa ayaq altında qalıb məhv olacaq. XV əsrdə Avropanın inkişafı necə başladı? O vaxt orada bircə xristian dini mövcud idi, ingilislər protestantlığı yaratdılar və bununla elmi tərəqqiyə yol açdılar. Almanlar fanatizmə qarşı çıxdılar və lüter xristian dini çərçivəsində öz dinlərini, ruslar pravoslavlığı yaratdılar, elə yunanlar da həmçinin. Hərə dini özününküləşdirdi. Ermənilər xristian olsalar da öz dinləri - Qriqoryan kilsəsi var, bu kilsə heç kəsə tabe deyil.

Bütün dinlər siyasi məqsədlə yaradılıb və siyasi məqsəd fəlsəfəsi, dünyagörüşü ilə əsaslandırılıb. Bu məfkurələr xalqı bir yerə yığmağa, cəmiyyətdə hakim olmağa xidmət edib. Məhəmməd Peyğəmbər də islamı siyasi məfkurə kimi yaratdı, ərəbləri bir yerə yığdı, müstəqil dövlətini qurdu, imperiya qurdu, inkişafın qarşısını açdı. Cəbri də onlar yaratdılar, astronomiyanı da, kağızı da onlar gətirdi, yazı mədəniyyə-



tini də. Elmin bütün sahələrində inkişafa nail oldular. Elə ki, dövləti əvvəlki qaydada idarə etmədilər, yollarından sapdılar, totalitarizmə meyl göstərdilər, yavaş-yavaş tənəzzülə uğradılar. Eyni proses Osmanlı imperiyasında da baş verdi.

Din ideologiya, demokratiya, əqidədir. İdeyaların məcmuudur. Demokratiyanı təkcə İslam yaratmayıb. Demokratiya bütün mütərəqqi dünyagörüşlərin, əqidələrin, ideyaların toplusu kimi yaranıb. Dünya alimlərinin hamısı eyni tezisi deyir: Demokratiya müxtəlif əqidələrin, ideyaların məcmuudur. Heç kəs deyə bilməz ki, bunu mən yaratmışam. Orada islam da var, xristianlıq da, buddizm də.

ABŞ niyə demokratiyanın bayraqdarı və demokratik dövlətdir? Çünki dünyanın azadlıq axtaranları, müstəqillik istəyənləri oraya yığışıblar.

Çingiz Aytmatovdan soruşublar, necə edək ki, Amerikaya, Fransaya çevrilək. O, cavab verib deyib: "bu, xəyaldır, arzudur. Demokratiyaya gedən yolda ilk addımı atmaq lazımdır. Çünki bu adamlar 70 ildə düzgün tərbiyə olunmayıblar. Onları dəyişmək mümkün deyil".

Aytmatov düz deyir. Bu milis işçilərinə, icra aparatı işçilərinə, bu bürokrat nomenklatura ordusuna nə etmək olar? Bunları necə dəyişmək olar? Cəzasızlıq baş alıb gedir. Çünki cəza verən də onlardır. Gəlin real danışaq. Türkiyədə zəlzələ olub. İndi deyin görək zəlzələdə dağılmış evlərin materialından təzə ev tikmək olar? Yox. Sovet imperiyası da belə, dağılıb, kadrlar isə yaşayır, demək rüşvətxorlar da yaşayır, yerlibazlar da, fırıldaqçılar da... Cəmiyyətin yeniləşməsi üçün bir neçə nəsil keçməli, yeni təfəkkürlü insanlar yetişməli, həmdə buna şərait olmalıdır.

Bununla belə, əlimiz işdən soyumamalı, cəmiyyətin yeniləşməsi yolunda kim nəyi bacarırsa, etməlidir.

Azərbaycanda nə qədər ki, həqiqi demokratik dövlət bərqərar deyil, dövlətin sütunları: qanunvericilik, icraedici və məhkəmə orqanları xalqın mənafeyinə uyğun qanunlar çıxarmayacaqlar.

Bizdə siyasi iqtisadiyyat olub, indi bunu dəyişib iqtisadi siyasət etməliyik. Biz iqtisadi siyasəti qurmasaq, heç bir tərəqqiyə nail ola bilməyəcəyik.

***"Günay" qəzeti N4,***
***29 yanvar 2000-ci il***

## "ƏSLİ VƏ KƏRƏM" TAMAŞASI VƏ RƏSULZADƏNİN ARZULARI

**20-ci yüzilliyin iki nəhəng milli siması M.Ə.Rəsulzadə və Üzeyirbəy Hacıbəylinin dostluq və həmkarlığını göz önündə sərgiləyəcək tarixi fakt və sənədlər mövcuddur.**

**Həmyaşıdlar olan iki qeyrətli gənc 1905-ci ilin payızında milli mütəfəkkirlərimiz - Əlibəy Hüseynzadə, Əhmədbəy Ağayevin redaktoru olduqları və Azərbaycanın mütərəqqi ziyalılarının ayaq açdıqları "Həyat" qəzeti redaksiyasında görüşmüş, tanış olmuşdular. Hətta qəzetin 29 noyabr tarixli 109-cu sayında 21 və 20 yaşlı cavanların ruscadan tərcümə etdikləri "Kaspi" qəzetindən alınmış "Əski qaydalar hələ güclüdür" (Üzeyirbəy) və C.Məmmədquluzadənin "Qafqazski Raboçi Listok" qəzetində dərc olunmuş "Binəsiblər" (M.Əmin) yazıları dərc olunmuşdur. Bu tanışlıq getgedə əqidə, məslək, arzu və istək dostluğuna çevrilmişdir. Bu xüsusi tədqiqat mövzusudur. Yazılacaq.**

**M.Ə.Rəsulzadənin anadan olmasının 116-cı ildönümü ilə əlaqədar onun 1913-cü ilin yazında Türkiyədən Bakıya qayıtdıqdan sonra da Üzeyirbəylə yaxınlığı, onun opera və musiqi yaradıcılığına dair yazdıqları məqalələr, resenziyalar diqqəti cəlb edir. M.Ə.Rəsulzadənin "Əsli və Kərəm" operası və tamaşası haqqında "İqbal" qəzetinin 1914-cü il fevralın 3-də dərc etdiyi resenziyası xüsusilə dəyərlidir, qiymətlidir. İslam və Türk aləmində birinci olan "Leyli və Məcnun" operasını yüksək dəyərləndirən M.Ə.Rəsulzadə yazırdı: "Görünüz bəyənmədiyiniz milli aşıqlarımızın havası nə qədər dilrubadır, nə qədər cazibdir. Milliyyət hissini itirməyənlər və milliyyət ruhundan uzaqlaşmayanlar üçün Kərəmdə, Koroğluda və bunun əmsalındakı nəğmələrdə o qədər ülvi hisslər və o qədər geniş zövqlər vardır ki, onu ancaq saz nəğməsilə oxunduğu zaman hekayə qəhrəmanının dərdinə tamamilə aşina ola bilən köylülər qədər saf və pak ürəklərimiz anlaya bilərlər".**

**M.Ə.Rəsulzadə əmin olduğunu bildirir və yazırdı ki, "möhtərəm musiqarımız Üzeyirbəyin milli nəğməxanlarımız olan saz aşıqları ilə milli romanlarımız olan aşıq hekayələrini daha ziyadə tədqiq edəcək olurlarsa, əsl türk aləmində payidar ola biləcək əbədzində əsərlərini bundan sonra yazacaqlardır".**

**M.Ə.Rəsulzadənin arzusu çin oldu. Üzeyirbəy "Koroğlu" operasını yazdı.**



**Böyük və uzaqgörən, xalqımızın gücünə, qüdrətinə, istedad və qabiliyyətinə hədsiz inam bəsləyən, Üzeyirbəy kimi arkadaşının gələcəyinə hədsiz inamı olan böyük öndərimiz M.Ə.Rəsulzadənin adı çəkilən yazısını "Yeni Müsavat"ın oxucularına təqdim edirəm.**

**P.S.** *Ü.Hacıbəyovun ədəbi-bədii irsinin tanınmış tədqiqatçısı mərhum Qulam Məmmədli bəstəkarın həyat və yaradıcılığına dair "Salnaməsi"ndə M.Ə.Rəsulzadənin adını çəkməsə də, onun yazdıqlarından nümunələr vermişdir.* **(Bax səh. 135-136).**

**Milli aşıqlarımızın avamımız üzərində böyük təsirlər icra edərək söylədikləri "Əsli və Kərəm" hekayəsindən iqtibas olunan "Əsli və Kərəm" operasına mən keçən cümə gecəsi birinci dəfə tamaşa ediyordum. Üzeyirbəy Hacıbəyov arkadaşımızın musiqarlıqdakı birinci əsəri və gərək İslam və gərək türk aləmində birinci olan "Leyli və Məcnun" operasına tamaşa eləmiş, sonra Bakıdan ayrılmışdım. "Leyli və Məcnun"dan sonra yazılan musiqi əsərlərinin heç birini görməmişdim. Beş il keçmişdir. Tainki, keçən dəfə "Fərhad və Şirin"i görmüş, beş ildəki tədənniyə (geriləməyə red.) üreyim ağrımışdı. Fəqət "Əsli və Kərəm" operasının tamaşası bu ağrını sağaltdı.**

"Əsli və Kərəm" operasının misalını təlxis etmək istəməz. Çünki camaatımız mükərrərən oynanılmış olan bu operanı görməmiş olsalar belə "Əsli və Kərəm" nağılını oxumuşlar və yaxud eşitmişlərdir.

Müsəlman operasının aktyorları həqiqətən gözəl oynayırlar və kim nə deyirsə-desin Üzeyirbəy Hacıbəyovun təlif etdiyi (yazdığı - red.) əsərdə bir zövq-ədəbi və musiqi vardır. Xıncaxınc dolmuş olan teatrda oyunun və musiqinin məharətlə ifası nəticəsi olaraq müsəlman tamaşaçılarına xas olan bir səs və bir səda da yox idi. Hər kəs valeh olmuş, hər kəs Kərəmin o lahuti (ilahi - red.) eşqinə mütənasib ahəngi-nəğmatə canı dillə bənd olmuşdu.

"Əsli və Kərəm" bir yerə cəm etmiş olduğu Şərqi və Qərbi nəğmələrdən başqa mənə bir şey nöqteyi-nəzərindən daha çox yarındı. Bu da orada mühüm bir yer tutmuş olan "Türk havası"dır, saz havası. Çox təəssüf ediyoram ki, toylarımızın milli saz aşiqlərimizin əlindən çıxıb gürcü ğəzzalarına və gürcü zurnaçılarının düdüklərinə giriftar oluyor, bunun intiqamını mən keçən cümə gecəsi Sarabskinin Kərəm sifaətilə oxuduğu türk havaları ilə alıyordum və əgər mümkün olsaydı, qalxıb

xalqa deyəcəydim ki: görünüz bəyənmədiyiniz milli aşıqlarımızın havası nə qədər dilrubadır, nə qədər cazibdir. Milliyyət hissini itirməyənlər və milliyyət ruhundan uzaqlaşmayanlar üçün aşıq Kərəmdə, Koroğluda və bunun əmsalındakı nəğmələrdə o qədər ülvi hisslər və o qədər geniş zövqlər vardır ki, onu ancaq saz nəğməsilə oxunduğu zaman hekayə qəhrəmanının dərdinə tamamilə aşına ola bilən köylülər qədər saf və pak ürəklərimiz anlaya bilərlər. Zənn ediyoram ki, möhtərəm musiqarımız Üzeyirbəyin milli nəğməxanlarımız olan saz aşıqları ilə milli romanlarımız olan aşiq hekayələrini daha ziyadə tədqiq edəcək olurlarsa əsl türk aləmində payidar ola biləcək əbədzində əsərlərini bundan sonra yazacaqlardır. Bunun üçün əlbəttə lazımdır ki, lazım gələn elmlərlə silahlandıqdan sonra Peterburqu tərk ilə Qafqasiyaya gəlsinlər və burada kəndləri gəzmək surətilə millət ruhu və millət musiqisilə aşina olsunlar. Əlbəttə, böylə də edəcəklərdir.

Dedik ki, oyun gözəl keçdi. Hər şeydən əvvəl Müslümbəyin məharətilə idarə olunan musiqi dəstəsinin bir ahəngi - tam ilə icra olunduğunu qeyd edək. Bunu görmək və bunu hiss etmək üçün Əhməd oğlu da eşitsin, əlbəttə, musiqişünas olmaq gərək deyildir. Necə ki, bülbülün ahəng havasından həzz duymaq üçün musiqişünas olmağa lüzum yoxdur.

Aktyorların oyunlarına və oxumalarına söz yoxdur. Hamısı vəzifələrini hüsn ifa etdilər. Sarabski məsəlin ki, aşiq rollarını oynamaq üçün xəlq olunmuşdur. Nəzərə elə gəlirdi ki, o ancaq Məcnunu yaxşı oynayır. Göründü ki, Kərəmdə də müvəffəqiyyəti tamdır. Padşah rolundakı Qoca Mahmudov da yerində idi. Keşiş rolunu ifa edən Tanrıquliyevin gözəl və dəyərli surətdə ifayi-vəzifəsi deyə biliyoram ki, müvəffəqiyyətin canlı bir nümunəsidir. Tanrıquliyev tam bir aktyordur. Rus səhnələrində gördüyümüz iqtidarlı aktyorlardan. Əsli rolunu oynayan cənab Məhəmmədzadə bəd oynamadı. Fəqət bunu Leyli rolunu oynayan Əhməd Bədəlbəyov oynasaydı, daha gözəl çıxacaqdı, zənindəyim.

Sofi, Rəmzibəy və Şeyx Nurani rollarını ifa edənlər də birər qiymətə malik idilər.

Xor həmişə və hər yerdə olduğu kimi burada da gözləndiyi qədər mükəmməl deyildi. Hələ arvad xoru çox zəif idi. Çünki məlum, səhnəmiz bu xüsusda hələ naqisdir...

Mənzərə və qiyafələrə gəlincə, yenə şikayət edəcəyəm: İsfəhan padşahının müqərrəbi (yaxın - red)olan keşişin bağında qoyulan Roma heykəlləri artıq idi. Bağ dəxi vaxt vəqəəyə uymayacaq dərəcədə müasir idi. Erməni deyə ortaya çıxarılan kəndlilərin nədənsə hamısı



saqqalsız idi. İçlərindən birisi çaşıb da saqqal qoymamış və yaxud təsadüfən aralarına müsünni (qoca - red.) birisi girməmişdi. Keşiş bir erməni terterindən ziyadə bir rus popuna bənzədilmişdi. Hələb diyarı yolu üzərində ərəblərlə bərabər Kərəm ilə yoldaşına təsadüf edən qızların qiyafəsi Ərəbistan mənzərəsindən ziyadə Cənubi Rusiya həyatına işarə ediyordu. Sanki bir xutordan gəlmiş xaxol qızlarıdır. Sonra bir səhvi dəxi-haman qızlarla haman ərəblər eynən Hələb şəhərində də görünüyorlar. Bu olsa-olsa ancaq altı aylıq yolu bir göz yummada təyy etdirən (qət edən - red.) Şeyx Nuraninin nəfəsilə ola bilər. Sofinin başına qotazlı fəs qoymaq da bica idi, paltarı da bir az sadəcə olsaydı, Sofiyana olardı. Sofi madam ki, bir İran sofisidir, başına dərviş-vari bir sərpuş qoysaydı, daha müvafiq olardı.

Qəbulumuzdur ki, müsəlman səhnəsinə məxsus müsəlman teatrosu olmasa mənzərə və qiyafələrdə həmişə bir nöqsan görüləcəkdir. Fəqət bu da var ki, rejissorlar bir az diqqət etsələr bir çox nöqsanların azalması dəxi mümkündür.

Ələlümüm keçən cümə gecəsi oynanılan "Əsli və Kərəm" operası tamaşaçılardan hər kəsi məmnun qoyduğu kimi, məni də məmnun etdi. Pərdələr arasında gələcək həftələrdə "Evliykən subay" ilə "Arşın mal alan" operettalarının oynanılacağı dəxi elan olundu. Demək opera diringələri başlıyor. Fəqət nə olaydı da bundan sui-istifadə olunmayaydı.

**M.Ə.RƏSULZADƏ,**
"İQBAL" N-568, 3 fevral 1914,

**"Yeni Müsavat" N 22(965),**
30-31 yanvar 2000

Böyük öndərimiz M.Ə.Rəsulzadənin adını daşıyan Bakı Dövlət Universitetinin 80 yaşı tamam oldu. Dunyanın sivilizasiyalı ölkələrində millətin kamillik yaşını onun ali məktəblərinin, ən öncə universitetlərinin yaranma tarixilə hesablayırlar. Bizdə də belə olmalıdır.

Bakını azəri türklərinin "mərkəzi ürfanına" çevirmək yolunda ilk addım atan "Avropaca təhsil ikmal etmiş ilk müəllim" Həsənbəy Zərdabi olmuşdu. M.Ə.Rəsulzadə 1914-cü ildə "Bəsirət" qəzetində Qafqazda və Azərbaycanda ali təhsil müəssisələrinin yaradılması zərurətinə həsr etdiyi məqaləsində yazırdı: "Bu vaxta qədər Qafqazda təkcə inzibati mərkəz kimi deyil, həm də mənəvi, mədəni və mətbu mərkəz kimi tanınan Tiflislə yanaşı Bakının da mövcudluğu ön plana çəkildi. Həm də təkcə yenicə inkişaf yoluna qədəm qoyan neftilə deyil, həm də ilk milli qəzeti, milli teatrı, milli xeyriyyə cəmiyyətləri, qələm əhli ilə də diqqəti cəlb etməyə başladı". "Bakı bütöv bir milli ziyalılar, münəvvərlər şəhərinə çevrilməkdədir". Bakıda ali təhsil müəssisəsi, universitet yaratmaq və bu yolla ölkəni bəşəri tərəqqi və inkişaf məcrasına yönəltmək zərurətini dərk edənlərin bayraqdarı da M.Ə.Rəsulzadə olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti dövləti kimi, Bakı Dövlət Universitetini yaradanlar da müsavatçılar, onların başçılıq etdikləri Müsavat hökuməti, Milli Məclis olmuşdur. 1919-cu il aprelin 8-də Nazirlər Kabinəsi Bakı şəhərində universitetin açılması haqqında qərar qəbul etdi. Aprelin 29-da BDU-nun nizamnaməsi təsdiqləndi. 5 fəsildən və 72 maddədən ibarət bu nizamnamə demokratik ruhu, dünya təcrübəsinə əsaslanan mahiyyətilə indi də örnək ola bilər. Nizamnaməyə görə BDU Xalq Maarif Nazirliyi nəzdində muxtar elmi-təhsil müəssisəsi kimi təsis edilirdi. BDU-nun bütün strukturları, o cümlədən rektor, prorektor və digər inzibati orqan rəhbərləri seçki yolu ilə formalaşmalı idi.

Müstəqil, muxtar BDU yalnız 7 ay fəaliyyət göstərə bildi. Azərbaycan işğala məruz qaldı. Universitetdən milli ruh, müsavatçılıq-azərbaycançılıq ruhu yavaş-yavaş çıxarılmağa başladı. Sonralar sürgünlər, həbslər, qətllər dövrü gəldi. Lakin universitet milli ruhsuz qalmadı. Çünki onun təməlində, mayasında bu ruh həkk olunmuşdur - M.Ə.Rəsulzadə müsavatçılıq ruhu. Mən 55 ildir ki, bu müqəddəs məbəddəyəm. Orada çox məddahlar, yaltaqlar, üzsüzlər at oynatsalar da, universitetin şərəfini, ləyaqətini, milli ruhunu yaşadanlar həmişə olmuşdur və olacaqdır da. Onun yetirmələri də beləcə qisimlərə bölünmüşdür.

BDU-nun 80 illik yubileyi haqqında yəqin ki, ətraflı yazılacaq. Mən universitetin yeni gənc rəhbərliyinin apardığı abadlıq işlərini, qayda-qanun, səliqə-sahman yaratmaq tədbirlərini ürəkdən bəyənirəm. Lakin hər dəfə fakültəyə gedərkən universitetin giriş qapısının sağında yiyəsiz və baxımsız bir xatirə daşını görərkən, M.Ə.Rəsulzadəyə burada abidə qoyulacağı barədəki sözləri oxuyarkən qanım qaralır. Bu etinasızlıq, əlbəttə, "yuxarılar"dan gəlir. BDU-nun yaradılmasında M.Ə.Rəsulzadənin tarixi rolunu anlamayanlara onun 1914-cü ilin mayında yazdığı "Qafqasiya ali məktəbi" məqaləsini oxumalarını tövsiyə edirəm.



## QAFQASİYA ALİ MƏKTƏBİ

Qafqasiyalıların çoxdan bəri ürəklərində bəslədikləri böyük arzularından biri, münasibət düşdükcə ağlayaraq, izhar dərd edərək istədikləri məqsədlərindən ümdəsi hüsula gəldi. Keçən həftə Tiflisdə, Naftuluq məhəlləsində Qafqasiya politexnikum məktəbi-alisinin binövrəsi quruldu.

Qafqasiyalıların məktəbi-aliyə olan ehtiyaclarını irəli çəkərək hər dəfə eladikləri təşəbbüsat ilə ali dövlət dairələri hüzuruna müxtəlif zamanlarda verdikləri ərizələrin tarix və güzarişindən burada bəhs etmək məqaləmizin uzanmasına mucib olar. Yoxdur deyə bilərəm ki, mənim əqlim kəsəni Qafqasiyada məktəbi-ali lüzumundan hər zaman bəhs olunduğu xatirimdədir.

Çoxdan gözlənilən arzu indi bir həqiqət şəklinə girməkdədir. Avropanın bir neçə dövlətlərindən daha böyük bir ölkə təşkil edən Qafqasiya artıq ali məktəb yoxluğunun xəcalətindən bir dərəcə olsun özünü qurtarmış saya bilər.

Moskva, Peterburq və sair məktəbi-aliyəsi olan uzaq məmləkətlərin vücudları üzərində fəna təsirlər icrasından, uzaq və qərib bir ölkədə təhsil kəmal etməyin çox baha başa gəldiyindən və qeyri bir çox səbəblərdən naşi təhsili-ali görməkdən məhrum qalan qafqasiyalılar indi bu məhrumiyyətə vida edəcəklərdir. Artıq Qafqasiyada təhsili-ali sərih (şəksiz, şübhəsiz) addımlarla irəliləyəcək. Həm də qafqasiyalılara irəlidə çox gərək olan sənaye və texnika sayəsində irəliləyəcək-

dir. Ümid edəlim ki, bu yeni məbəd elm və fənndə, müsəlman abidlər (yəni tələbələr) beqədri-kafi mötəkib olacaqlardır. Çünki fünuni-aliyyə mərkəzlərinin uzaqlığından ütlubu-elm vəlokanə fis-sin (elm hətta Çində olsa da axtar) hədisinə rəğmən, hər kəsdən ziyadə müsəlmanlar itiriyordulardı.

Politexnik məktəbi-aliyəsinin Tiflisin iki məhəllələrindən hankısında bina olunması barəsində bir zaman tiflislilər arasında nə dərəcədə hərarətli bir mübahisə və münaqişələr olduğunu və nəticədə Bakı nümayəndəsinin rəyi sayəsində naftuluqluların qalib gəldiyi əlbəttə xatirlərdədir.

Qafqasiya politexnikumunun harada tikilməsi haqqında Tiflisin iki məhəlləsindən ziyadə Tiflis - Bakı bəhsə girişsə idi daha təbii edd olunardı. "Kaspi" qəzetəsinin sərmuharriri (baş redaktor) kimi Qafqasiya politexnikumunun ən təbii bir məhəlli sənaye və texnika mərkəzi olan Bakı idi. Bu xüsusda Naftuluğa Borçalıdan ziyadə Bakı rəqabət etmək haqqına malik idi. Tiflis darülfünun və mənəviyyata aid elm və fünun mərkəzi olacaq bir hal və mövqedədir. Sənaye və texnikaya mərkəz olmaq şan və səlahiyyəti isə Bakıda idi. Fəqət artıq bu xüsusları qurcalayıb əmri vaqe şəklini almış olan bir məsələni başqa bir surətlə həll etmək zamanı keçmişdir. İndi də Borçalı, nə də Bakı Naftuluğa qarşı dağıdıcı, xarabedici və özlərinə də az zərər verməz olan bir hissi-infial (utanma, acığı tutma) bəsləməməlidirlər. Mənfəətli və xeyirli bir rəqabəti -müstəhsinə ilə qafqasiyalılar üçün yeni açılmış olan bu geniş sahə elm və mərifətdən istifadəyə qoyulmalıdırlar.

Bakılılar, gərək verdikləri pul və gərək izhar etdikləri rəylər ilə politexnikumun ən səmimi dostları olduqlarını bilfel isbat etmişlərdir. Qafqasiya müsəlmanları da bütün vətəndaşlar ilə bərabər bu yeni müəssisə ürfanının iftitahi (açılması) üçün əllərindən gəldiyi qədər maddi və mənəvi köməklər etmiş və bunun zühuruna bütün vətəndaşlar ilə bərabər sevinmişlərdir. Əlbəttə bunun məmləkətə saçacağı feyz və bərəkətlərindən də sair vətəndaşları kimi istifadə etməyə çalışacaq, onun kurslarını doldurmaqla bu qədər möhtac olduqları sənaye mədəniyyəni kəsb və təhsil edəcəklərdir.

Birinci Qafqasiya məktəbi - alisinin əhəmiyyəti yalnız Qafqasiya daxilinə məxsus deyildir. Qafqasiya ilə həmcüvar olan sair məmləkətlər də bu mənbəi-ürfandan istifadə edə biləcəklərdir. Bu gün Qafqasiya və Rusiya məktəblərində İranlı dindaş və arkadaşlarımızdan bir çoxları vardır ki, təhsili-ülum etməkdədirlər. Bundan sonra Tiflis kimi Təbrizdən iki günlük bir məsafədə vaqe olan məktəbi-ali əlbəttə tələbələrin miyanına İran Azərbaycanından da bir çox tələbələr cəlb edə-



cəkdir. Öylədə Tiflisdən çox da uzaq olmayan Kars hüdudi boyunda olan arkadaşlarımız osmanlı türklərindən də məktəbə gələnlər bulunacaqdır. Demək ki, Tiflis politexnikumu Qafqasiya xidmətindən əlavə qismən İran Azərbaycanı ilə Osmanlı Şərqinə də xidmət edə biləcəkdir. Böylə bir xidmətin gərək Azərbaycan və gərək Şərqi Türkiyə həyati-iqtisadiyyə və sənaiyəsində nə kimi bir fəaliyyət və həyata səbəb olacağı əlbəttə az bir mülahizə ilə anlaşıla bilər.

Keçən nömrələrin birində Qafqasiyada intişari-maarifdən bəhs edərkən biz Qafqasiya türklərinin ümumi-mütəxəssisəyə fövqəladə əhəmiyyət verməyimizin lüzumunu zikr etmişdim. Bu dəfə artıq ixtisasın bizə nə qədər lazım olduğunu binaən əleyh politexnikum məktəbinə nə dərəcədə möhtac bulunduğumuzu təkrar etməyəcəyəm. Yalnız bunu deyəcəyəm ki, Tiflis politexnikumuna hankı bir Qafqasiya milləti artıq tələbə ehda (hədiyyə etmək) edərsə məmləkətin atisinə iqtisadi və sənaeyi-istiqbalına da o millət hakim olacaqdır. Yalnız Qafqasiya deyil, İran Azərbaycanını da buraya idxal ediniz. Çünki, fikrimi aşkar edim gərək Qafqasiya və gərək İran Azərbaycanı bundan sonra sənaye və ticarəti bir yolda iti qədəmlərlə tərəqqi edəcəklər. Hələ Azərbaycan dəmir yolları çəkildikdən sonra bu tərəqiyyat div qədəmlərlə atılmağa başlayacaqdır.

Böylə tərəqqi meydanında ancaq xüsusi sənayei və texnika fənləri ilə müsəlləh olanlar yürüyə bilərlər. Yoxsa tərəqqinin və tərəqiyyata uyğun olanların dəmir ayaqları altında və polad pəncələri cəndində tarmar olub gedərlər.

Politexnikum Qafqasiya və həvalisinin (ətrafının) fəal bir tərəqqi dövrəsinə girəcək mühüm bir qədəmidir. Doğru ki, bu binai-ali vilayətlərimizə bərraq və nəvvar (çox parlaq və nur saçan) bir nuri-mərifət saçacaqdır. Fəqət eyni zamanda məmləkətlərimizdə qızğın və hərarətli bir tərəqqi sənai vücuda gətirməklə dəhşətli bir mübarizeyi-həyat da mühib olacaqdır. Bu binai səharın nurları ilə işıqlanmış olanlar, o binanın qapısını tanımayanlara müsəllət olacaqlardır. Bunu hər kəs indidən anlamalıdır. Hər kəsdən ziyadə biz anlamalıyıq. Əlimizə fürsət keçmişkən evimizin içində böyük sənaye məktəbi vücuda gəlmişkən, ondan beqədri-kafi istifadə etməzsək sabahımız o qədər parlaq ola bilməz. Əgər ondan beqədri-lüzum istifadə edəcək olursaq, inanmalıdır ki, ondan gələcək fayda başqalarından bizim hissəmizə daha çox düşəcəkdir. Çünki fünuni məxsusə ilə müsəlləh olduqdan sonra qafqasiyalı bir türk və bir müsəlman əlbəttə Azərbaycanda açılacaq saheyi-rəqabətdə başqalarına faiq gələr. Çünki bu sahədə sənət və bilgidən əlavə həmcinslik dəxi onun yar və moinidir (köməkçisidir). Bundan başqa Qafqa-

siyanın özündə dəxi ən az işlənmiş və xam qalmış yerlər müsəlman olan məhəllələrdir. Binaən-əleyh burada dəxi müsəlman sənətkarı üçün başqalarına nisbətən daha müsaid bir zəmin vardır. Yetər ki, bir az durbinliklə (uzaqgörənliklə), bir az bilik və məharət olsun!

Xülasə, birinci Qafqasiya məktəbi-alisinin binası ilə Qafqasiya mahalına hülul edən (daxil olan) yeni bir dövreyi-tərəqqinin fəal günləri başlıyor. Bu məktəbin əsası vəz olan gün Qafqasiya tarixi-təcəddüdündə ən parlaq bir səhifə işğal edəcəkdir. Qafqasiya əyyami-tarixisindən ən böyük bir günü də bu gün olacaqdır. Bu günü bütün qafqasiyalılarla bərabər Qafqasiya müsəlmanları da ümumi bir vətəndaş günü sayacaq. O günü bütün Qafqasiya doğma və müştərək Qafqasiya naminə sevinclərdir. İştə bu sevincə tərcüman olaraq biz dəxi həftəlik qəzetə olmaq cəhətilə bir az gec də qalsaq, bu Qafqasiya məbədi fünununun binövrəsi qoyulmaq xüsusunu bütün səmimiyyətimizlə təbrik edər və onun müvəffəqiyyətlərlə böyüyüb məsud nəticələr bəxş etməsini dileriz.

**M.Ə.Rəsulzadə,**
*"Bəsirət" qəzeti N6, 17 may 1914*

**"Yeni Müsavat" N28(971),**
**6-7 fevral 2000**

## TARİXİMİZDƏN QİSAS ALANLAR

Heç olmasa M.Ə.Rəsulzadənin bu çıxışını oxuyun:
*Bu vətən də bizimdir, əbədi milli məbədimiz olan universitet də. Ona sahib çıxaq!*

**1919-cu il avqustun 21-də Müsavat Partiyası başqanı M.Ə.Rəsulzadənin Azərbaycan Parlamentində "Azərbaycan darülfünunun təşkili haqqında" çıxışı.**

*Əziz həmkarlarım, tələbə gənclər, universitetin şərəfini və ləyaqətini əziz tutan məzunlar. Müqəddəs elm və təhsil-tərbiyə məbədimizin 80 yaşı tamam olur. Bu elm və təhsil ocağı çox çətin və mürəkkəb şəraitdə yaradılıb. Oxuyun böyük öndərimiz M.Ə.Rəsulzadənin aşağıda dərc olunmuş çıxışını. Görün M.Ə.Rəsulzadənin adını onun bilavasitə zəhmət çəkib öz həmkarları ilə birgə yaratdığı universitetdən ayırmaq olarmı? Universitetdə ana türkcədə ilk mühazirəni də M.Ə.Rəsul-*



*zadə oxumuşdur. Qoy tariximizdən xəbərsiz məddahlar, böhtançılar, qarayaxanlar heç olmazsa bu çıxışı oxuyub ayılsınlar. Axı hər şeyin də bir həddi var. Lenin hara, Rəsulzadə hara? Kirov hara, Rəsulzadə hara? Deyəsən, hakimiyyətdə olan partnomenklatura iflas olmuş keçmiş rəhbərlərinin heyfini bizdən, tariximizdən çıxmaq istəyir.*

- Burada universitet məsələsində gərək bizim əfkari-ümumiyyəmiz, gərək parlaman məhfilələrindən (heyətlərindən), ayrı-ayrı fraksiyalarda müxtəlif rəng almış və başqa-başqa nöqteyi nəzərlərlə bu məsələyə yanaşırlar. Hər şeydən əvvəl biz hamımız bunu etiraf edirik ki, Azərbaycan daxilində ülum, fünuna aşina mütəxəssis adamlar ələlümum məmləkət ürfanını (elm və mərifətini) yüksəltmək üçün darülfünun binası lazımdır. Deyirlər ki, əsas etibarı ilə universitet açılması əleyhinə deyilik. Fəqət doğurdan isə əleyhinədirlər. Məsələ mübik (aşkar) şəkildədir. İndi görək bu universitet təsisi lazımdır, lazım deyil. Bu xüsusda müzakirə lazımdır.

Bilirsiniz ki, məmləkətlərdə, ələlxüsus bizim məmləkətdə darülfünuna ehtiyac nöqteyi-nəzərdən vardır ki, bizdə mütəfənnin, mütəxəssis elmi nöqtələrə alim adamlar, üləma (alimlər) yoxdur. Bu cür adamların yoxluğu hər cəhətdən təsirini göstərir. Ona görə bir an əvvəl üləma, mütəfənnin üsula aşina adamları yetişdirmək hökumət və məmləkət vəzifəsidir.

Əlbəttə, yaxşı olardı bu fənn ocağı, bu elm mənbəi öz lisanımızda (dilimizdə) ola idi və oradakı professor və mudərris (müəllimlər) türkcə tərbiyə verəydilər. Məəttəsüf felən bunu tətbiq etmək, böylə bir fənn ocağı açmaq imkanı bizdə hələlik yoxdur.

Başqa məmləkətlərdə olduğu kimi heç bir zaman elmin, fənnin, başqa lisanlarda (dillərdə) illərlə olsa da ehtiyacı lüzumsuz olduğunu təcrübə göstərmişdir. Madam ki, biz hamımız bir nöqteyi-nəzərdəyik ki, ülum, fünun bizə lazımdır. Etiraf etməliyik ki, darülfünun da bizə lazımdır. Başqa bir lisana müraciət edirkən bu xüsusda nə üçün yalnız rus lisana iltizam (müraciət) edilir və buna imkan verilir. Bu böylə bir məsələ deyil ki, onu həll etmək olmasın.

İlk dəfə içimizdə bir çox tədrisə hazırlanmış tələbələr vardır ki, yalnız rusca tədris etməyə dərsliklərı və imkanları vardır.

Binaən əleyh (buna görə) Avropa məmləkətlərindən başqa birinin lisanında mümkün olsa idi, o lisanda götürərdik. Bu olmayacaqdır, çünki tələbələrimiz rus məktəblərində rusca dərs almışlar. Bu nöqteyi-nəzərdən bir dəlalət var. Ülum və fünun darülfününda rusca tədris edilməsinə gəldikdə əlbəttə, bizə söyləyə bilərlər ki, vaxtaki darülfünun milli olmayacaq, orada keçirilən dərslər türkcə olmayacaq, bu su-

rətdə tələbələrimizi niyə xarici məmləkətlərə göndəririk, bu surətdə təhsil etmələri ki, mümkündür. Bu doğrudur. Fəqət nəzərdə tutulmalıdır ki, məmləkətimizin elm və fənnə olan ehtiyacının bu yol ilə təmini mümkün deyildir.

Əlbəttə, biz daha ixtisaslı və bilikli adamlar yetişdirmək üçün Avropaya tələbələr göndərəcəyik. Fəqət eyni zamanda məmləkət daxilində bir fənn və elm ocağı vücuda gətirəcəyik. Çünki darülfünun yalnız tələbələr hazır etməyir. Bununla bərabər elm və fənnə aşina adamların və ərbabi-ixtisasın bir məcmun olacaq ki, bir tərəfdən təlim etməklə, digər tərəfdən məmləkəti öyrənir, onun əhval və xüsusiyyatını təhlil və tədqiq edir. Bu nöqteyi-nəzərdən darülfünun Azərbaycana xaricdən bir çox alimlər və professorlar cəlb edəcəkdir. Onlardan heç bir surətlə qorxub ehtiyat etmək lazım gəlməz ki, guya o alimlər və professorlar burada bir rus mədənniyyətinin ocağı olub qalacaq da, tələbələr ruslaşacaqdır.

Məndən əvvəl söyləyən natiq burada açılacaq darülfünunda rus mədəniyyəti ocağı deyə hər nə qədər söyləndisə də fəqət mən zənn edirəm bu surətdə söz söyləyən zəvat (adamlar) o fraksiya namindən burada bəyani-əfkar edir ki, o komissiyada tamamilə darülfünun əleyhində cərəyana daha qüvvət vermək və ona kömək etmək nöqteyi-nəzərindən bu surətlə burada çıxışda bulundular. Lakin əmin olsunlar ki, madam ki, hökumət bizim əlimizlə, darülfünuna dəvət etdiyimiz adamlar üzərinə hakim olacağıq və maddi cəhət əlimizdə olduğundan məvacib əndişə heç bir şey təsəvvür etməməlidir. Onların dəfələrlə rus elmi, rus mədəniyyəti deyə təkrar etmələri əfkari-ümumiyyəni qorxudanmaz. Çünki hər kəs bilir ki, rus və ya başqa bir millət (elmi) mədəniyyəti yoxdur. Ülum və fünun bitərəfdir. Dünyada rus elmi deyil, beynəlmiləl bir elm var. Biz bu beynəlmiləl elmi, hər bir millətin ağzından eşitdiyimiz kimi, rus professorları ağzından öyrənə bilərik. Çünki bizə ütlübül-elm vəlokanə fissin (elmi hətta Çində olsa da axtar) demişlər, tövsiyə etmişlər. Binaən əleyh (buna görə) Çində öyrənilməsi lazım gələn bir elmi Azərbaycan paytaxtında bir çinli ağzından öyrənməkdən bizim üçün heç bir fərq və xətəri yoxdur. Biz rusluq mərkəzində, rus darülfununda təhsil edənlərdən zərər görmədik. Biləks (əksinə), onlar daha səbatkar (mətanətli) olurlar. Biz, rus darulfununlarında təhsil edənlərin tamamilə təmsil etməsini deyil, politikası ilə ciddi surətdə mübarizə edənləri o darülfununlardan çıxanlar içərisində görürük. Binaən əleyh bu nöqteyi-nəzərdən heç bir qorxu yoxdur. Darülfununun faydalarından birisi də budur ki, burada bir kərə elmi bir müəssisə vücuda gələcək. Bununla məmləkətin məchul qalmış bir çox xüsusiyyəti öyrəniləcəkdir. Cəmaət arasında elmə və fənnə nə qədər həvəs artacaqdır.



Digər tərəfdən, xaricə getməyə imkanı olmayan tələbələr elm və fənn hasil etmək imkanında olacaqlar. Vaxtı ilə bu darülfünun get-gedə milliləşəcək. Bununla bərabər arada türk dili ümumi surətdə məcburi olaraq keçiləcək və öyrədiləcəkdir. Rus və ya əcnəbi bir lisanda təhsil etdiyi bir elmi öz dilində ifadə edə biləcək. Halbuki xaricə gedən tələbəmiz üçün bu mümkün deyil. Onlar öz lisan və mühitlərindən ayrılmaq məcburiyyətində olduqları halda, darülfununumuzun tələbələri isə təhsil etdikləri elmlərlə bərabər xalq arasında olacaqlar ki, bunun da bizə bir çox faydası dəyəcəyi təbiidir. Fəqət, bəzi mülahizələr vardır. O mülahizələrə bizim fraksiya daxilində əqəliyyətdə qalanlar da iştirak edirlər. Onlara etiraz etmək də mümkün deyil. Əvvələn istənilən professorlar tapılmayacaq. Təbii və başqa bu kimi şöbələr üçün olan alət və ədəvat (avadanlıqlar) əldə edə bilməyəcəyimizdən darülfununumuz naqis olacaqdır. Eyni zamanda burada rus professorları olduğundan və biz Rusiyadan yeni ayrılmış olduğumuz üçün haman professorlar bizi təkrar Rusiya ilə birləşdirmək fikrini təlim edəcəklər. Bunlar sırf praktik mülahizələrdir.

Fraksiya əksəriyyət etibarı ilə hazırlanan qanunun tərəfdarıdır. Bunun qəbulunu təklif edir. Fraksiyamızın nəzərini ərz etdim və xüsusi olaraq deyirəm ki, hər məmləkətdə, hər yerdə darülfununlar bu növlə təsis olmuşlar. Ümumi surətdə əgər Rusiya darülfününlarının tarixinə müraciət etsəniz görərsiniz ki, onlar da böylə başa gəlmişdir.

Ona görə demək olmaz ki, bizdə yoxsa, heç olmamalıdır. Və əgər bugünkü darülfünunlarına baxsanız, orada da almanca, firəngcə təlim aldıqlarını görərsiniz.

Heç bir millət tarixən ilk addımında milli bir darülfünuna sahib olmamışdır. Əvvəlcə özgələrdən istifadə edərək, sonra get-gedə qüvvət kəsb etmişdir. Binaən əleyh qorxmamalıdır. Darülfünun hər dildə olsa da olsun açıb oxumalıyıq. Çünki bu müəssisə ilə biz bir ürfan müəssisəsi quracağıq və get-gedə öz gənclərimizi onun vasitəsilə ziyalandırıb istədiyimiz milli professorlarımıza sahib olacağıq. Məşhur rus müstəşriqləri (şərqşünasları) hərgah buraya cəlb etməyə müvəffəq olarsaq və təbiidir ki, olacağıq da. Çünki bir professor təhdid altında vətəni Rusiyada akoplar içərisində çalışmaqdansa Azərbaycanda oturub kəndi (öz) əfkarını yürütmək, ələlxüsus ki, onları maddi cəhətdən də təmin edəsiniz, onlar bura gələr və əmin olunuz ki, xəyanət də etməzlər. Siz buna kəmali-itminan ilə (xatircəmliklə), əlinizi ürəyinizə qoyub səs verə bilərsiniz. (Alqışlar).

***"Yeni Müsavat" N34(977),***
***13-14 fevral 2000***

## M.Ə.RƏSULZADƏ VƏ M.H.ŞƏHRİYAR

**1955-ci il martın 6-da Azərbaycan milli qurtuluş hərəkatının ideoloqu və lideri, Müsavat Partiyasının başqanı M.Ə.Rəsulzadə Ankarada vəfat etdi. Ankara radiosu martın 7-də gecə saat 22.45-də M.Ə.Rəsulzadənin vəfatı xəbərini dünyaya yaydı. Martın 8-də böyük matəm mərasimi oldu. M.Ə.Rəsulzadəni Ankaranın Əsri məzarlığında dəfn etdilər.**

"Dünya", "Birlik", "Aram" və digər türk qəzetləri, "Qurtuluş" radiosu və KİV-də matəm məlumatları, dəyərləndirmələr dərc edilməyə başladı.

Mühacir şair, əslən gəncəli Kərim Yaycılının bu münasibətlə yazdığı şerində ürəkdən gələn və gələcəyə səslənən belə sətirlər vardı:

***Yaşatmazdı qəlblərdə ümidsizlik və məlal***
***Onun məfkurəsiydi haqq, müsavat, istiqlal!***
***Sar köksünə, Ankara, yurdumun ziynətini,***
***Günü gəlincə istər səndən əmanətini!***

Ölüm anına qədər vətənin istiqlalı, ürəkdən bağlı olduğu, qarış-qarış gəzdiyi Azərbaycanın hər iki tayının birliyi və səadəti naminə könüldən və təmənnasız çalışan böyük mücahidin qələmindən çıxan son yazılardan biri də M.H.Şəhriyara, onun şah əsəri "Heydərbabaya salam!" poemasına həsr olunub. Sevinclə, ürəkdolusu məhəbbətlə qələmə alınmış "Ədəbi bir hadisə" sərlövhəli bu məqalə M.Ə.Rəsulzadənin vəfatından az sonra "Azərbaycan" məcmuəsində 1955-ci il iyul-avqust və sentyabr-oktyabr aylarında çıxmış 4-5 və 6-7-ci saylarında dərc olunmuşdur. Həmin məqalədən parçalar:

"Ədəbi bir hadisənin bəlgəsini (sənədini) təşkil edən gözəl bir şer kitabı masamızın üstündədir. "Heydərbabaya salam" başlığını daşıyan bu mənzumə Təbriz postasının bizə bir sürprizidir.

Şer və sənəti anlayan zövq sahibi bir ədəbiyyatçının nəfis və orijinal bir sənət əsəri olan bu mənzuməni (poemanı) ədəbi bir hadisə deyə təqdirdə bizimlə bərabər olacağına əminiz.

Məzmun baxımından gərçək bir şer olan bu əsər şəkil (forma) baxımından da incə bir zövqün məhsuludur...

Hadisəni vəsf etdiyimiz zaman sadəcə İranlı bir şairin türkcə şer yazmış olduğunu qarşımıza məqsəd qoyduğumuz sanılmasın. Farsca gözəl əsərlər verən azərbaycanlı şairlərin türkcə şerlər dəxi yazmış olduqları yeni bir şey deyildir. Füzuli başda olmaq üzrə Azərbaycandan yetişən böyük şairlərin çoxu türkcə ilə bərabər farsca da şerlər yazmışlardır. Xətai təxəllüsü ilə türkcə şerlər yazan Şah İsmayılın da farsca şerləri vardır...

Azərbaycan ədəbiyyatındakı bu gələnəyi hesaba qatmaqla bərabər Şəhriyarın "Heydərbaba"sını gerçəkdən bir hadisə saya bilərsiz. Çünki bu əsər qeyd etdiyimiz əsərlərdən fərqli olaraq, özəl bir həsrətin təpkisi ilə yazılmışdır. Bu əsər dini, siyasi, hər hansı bir amilin təsirindən azad, təbii və insani bir həsrətin, sənət vurğunu bir aşiqin həsrətilə meydana gəlmiş bir əsərdir...

Təbriz postasının gətirdiyi bu xariqə əsərin Azərbaycan ədəbiyyatında bir hadisə təşkil etdiyi, bizcə, şübhəsizdir. Zəngin Azərbaycan ədəbiyyatı gələnəklərində hadisə və mərhələ təşkil edən əsərlər az deyildir. Fəqət bunlardan bilxassə son ilə qədərki ədəbi həyatda görünənlər arasında heç biri "heydərbaba" qədər canlı və bir baxıma hətta deyə bilərik ki, milli deyildir.

"Heydərbaba"da xalq yaradıcılığının gerçək qaynaqlarından feyz alan, folklorumuzun bütün gözəllik və zənginliklərini özündə əks etdirən səmimi, təbii bir şer çeşidi var. Çağdaş ədəbiyyat anlayışına mütabiq olan bu parlaq əsər, milli yaradıcılıq qüdrətini təmsil edən bir əzəmət və ehtişamdadır!..

Farscanın fəsahət və bəlağətinə bağlanıb sənələr sənəsi (illərcə) ana dilindən yadırğamış ikən, azərbaycanlı sənətkarın bu qədər milli bir şer yazması yaşadığımız günlərin də ən böyük hadisəsidir!..

Gərək "sözlərinin sazlardan" əskik olmayacağına inandığımız misilsiz şairi, gərəksə bizə xoş bir sürpriz yapan işdaşları - təbrizli sənətkarları candan təbrik edir, onlara yeni-yeni başarılar dileriz!

M.Ə.Rəsulzadənin əbədiyyətə qovuşmasından 45 il keçir. Onun ən böyük və əzəli arzusu canından əziz sevdiyi Azərbaycanın yenidən müstəqil dövlət həyatına qovuşması idi. Bu arzu çin oldu. Qalır xalqın demokratik həyat tərzi, sosial ədalətin bərqərar olması, sivilizasiyalı tərəqqi yolu, insancasına yaşayıb-yaratmaq şövqü üçün şəraitin mövcudluğu. Bu isə tarixdən və tarixi şəxsiyyətlərdən çox bizlərdən asılıdır.

M.Ə.Rəsulzadə əlifba islahatı sahəsində göstərilən səylərə həsr etdiyi bir məqaləsində yazırdı ki, əgər bu səylər yerinə yetirilsə, deyilənlər "qövldən-fələ (sözdən-işə) keçərsə, heç şübhə yoxdur ki, Mirzə Fətəlinin müqəddəs qəbrindən yüksələn "Afərin, səd afərin" sədası eşidilərdi."

Bu sözləri Azərbaycanın yetirdiyi böyük dövlət adamı, müstəqillik və bağımsızlıq meşəlimizi yandırmış M.Ə.Rəsulzadə haqqında da demək olar. "Afərin, səd afərin!" sədalarının eşidiləcəyi günlər də uzaqda deyil!

***"Yeni Müsavat" 52(995), 5-6 mart 2000***

## BƏXTİYAR VAHABZADƏNİ HƏBSDƏN SUSLOV QURTARIB

**Hörmətli oxucular!**

***"7 GÜN" olaraq bir çox müəmmalı hadisələrin əsl ŞƏHİDLƏRİni sizlərin görüşünə gətirməkdə davam edirik. Bizimlə həmsöhbət olan insanlar nə "adının çəkilməsini istəməyən mötəbər mənbə", nə də heç kəsin tanımadığı və müəmmalı şəxsiyyətə malik olanlar deyil. Bizim şahidlər hamının yaxşı tanıdığı insanlardır. Bu dəfəki həmsöhbətimiz Bakı Dövlət Universitetinin professoru Şirməmməd Hüseynovdur.***

*"Mənim rejimə qarşı yazdığım bir sıra əsərlərin, o cümlədən "Bağışlayın, səhv olub", "Mərziyə", "Ləyaqət", "Dan yeri" və s.-in yazılmasının səbəbkarı Şirməmməd müəllim olmuşdur. Daha doğrusu, mövzunu o seçmişdir".*

**Bakı - 1999,**
**Bəxtiyar Vahabzadə,**
**"İstiqlal", səh.69.**

İndi bəziləri sovet dövrü ədəbiyyatımızın cəfakeşlərini qınayır. Amma kim soruşub ki, bu ədəbiyyatı yaradanlar hansı hissləri keçiriblər qələmlərindən o misralar süzüləndə.

***Lenin, Sənin hər cümləni,***
***hər kəlməni,***
***Dönə-dönə***
***əzbərlədim.***
***Sözlərindən maya tutan***
***Sözlərimi döyüşlərdə***
***Mərd elədim.***

Bəxtiyar Vahabzadə bu sətirləri yazanda hansı hissləri keçirib? Onun hisslərinə toxunmayaq.

Bəs, ondan Lenin haqqında poema yazmağı kim tələb edirdi?

Şair bu poemanı niyə yazırdı?

Bu poemadan sonra nələr baş verdi?

Bu suallara cavab tapmaq üçün Şirməmməd Hüseynovla həmsöhbət olduq.



### *OXUMAQ YANĞISI*

- Mən Bəxtiyarla 1945-ci ildə tanış olmuşam, Bakıya oxumağa gələndə. Hər ikimiz Şəkidən olsaq da orada tanışlığımız olmayıb. Mən Gəncəli məhləsində olurdum, o isə bizdən aralıda yaşayırdı. Universitetə Bəxtiyar məndən 3 il qabaq daxil olmuşdu. O vaxt Yazıçılar İttifaqının nəzdində Gənc Qələmlər Məktəbi fəaliyyət göstərirdi. Biz tez-tez ora gedərdik. Bəxtiyarın orada ilk şerini oxumağı da yadımdadır. Rəhmətlik Səməd şeri eşidəndə dedi ki, "arıq bala, o şeri bir də oxu". Həmin dövrdə universitet oxumaq yanğısı ilə yaşayan insanları qoynuna almışdı. Müharibədən qayıdan cavanlar dinc həyata, elmə susamışdılar. Belə bir dövrdə biz Bəxtiyarla tanış olduq.

### *XRUŞOVDAN SONRA*

**- "Leninlə söhbət"in yaranma vaxtı yadınızdadırmı?**

- Necə yadımda deyil. Mən bu poemanın yaranmasında iştirak etmişəm.

**- Bir qədər ətraflı, xahiş edirəm.**

- Əvvəlcə gərək o dövrü yada salaq. 1964-cü ildə Xruşov hakimiyyətdən uzaqlaşdırıldı. Ona görə ki, onun dövründə insanlar Stalin rejiminin mahiyyətini anlamağa başladılar. Baxmayaraq ki, Xruşov Stalinin şəxsiyyətə pərəstişini ifşa edirdi, ətrafındakılar onun şəxsiyyətinə pərəstiş yaradırdılar. Bu, kommunist diktatorların xüsusiyyətidir ki, keçmişi ifşa etsinlər, özləri də həmin taxtda otursunlar. Amma Xruşov "KQB"-nin əl-ayağını yığmışdı. Ondan sonra hakimiyyətə gələn Brejnevin vaxtında isə başladılar fanatikcəsinə kommunist olmayanları izləməyə. Ən çox da milli təfəkkür tərzi olanları izləyirdilər. Onda sanki bir intibah dövrü idi. Bu nəslin nümayəndələri (indi onlara 60-cı illərin nümayəndələri deyirlər) 37-ni görməmişdilər. Odur ki, onlarda ölüm xofu yox idi, təqib xofu var idi. Bəxtiyar Vahabzadə də 50-ci illərdən başlayaraq milli düşüncə tərzinin təbliğatçısına çevrilirdi. Onun bir çox əsərləri milli özünüdərkə təkan verirdi. Sənə belə bir fakt deyim. Mən filologiya fakültəsinin partiya təşkilat katibi olanda SSRİ-nin müxtəlif yerlərindəki hərbi hissələrdən universitetə məlumatlar gəlirdi ki, azərbaycanlı əsgərlərin çantalarından bir poema tapırıq - Bəxtiyar Vahabzadənin "Gülüstan" poeması. Sorğu göndərirdilər ki, kimdir bu Bəxtiyar Vahabzadə?

## "İZİN VERİN HƏBS EDƏK"

**- Bəs, necə oldu ki, belə bir ziyalı "Leninlə söhbət"i yazdı.**

- Həmin dövrdə, yəni 60-cı illərin ortalarında Azərbaycan "KQB"sində SSRİ "KQB"sinə məktub yazılmışdı ki, icazə verin SSRİ Yazıçılar İttifaqının üzvü Bəxtiyar Vahabzadəni cəmiyyətdən təcrid edək.

## *TƏKLİF*

**- Deməli, təşəbbüs buradan göstərilib.**

- Bəli, raport yazıblar ki, icazə verin həbs edək. SSRİ "KQB"sidə Mərkəzi Komitəyə müraciət etmişdi ki, bu işə necə baxırsınız. Suslov cavabında bildirirdi ki, profilaktika aparmaq lazımdır. Yəni başını sığallayın, orden verin, medal verin, deputat eləyin, vəzifə verin, olsun bizim adam. Bundan sonra Bəxtiyarı çağırırlar "KQB"yə. Heydər Əliyev ona deyir ki, Lenin haqqında bir poema yaz. Onda Bəxtiyar gəldi yanıma ki, bəs mənə deyirlər Lenin haqqında bir poema yaz, mən nə yazım? Dedim ki, mən sənə Leninden sitatlar verim, gör nə yazmaq olar. Mən Leninin əsərlərinin tərcüməsinin redaktorlarından biriyəm axı. Mən onu oxumuşdum. Mən o sitatları və onların şərhini verdim Bəxtiyara. Beləliklə, bu poema yazıldı.

- Təqiblər dayandımı?

- Bu poemaya münasibət birmənalı olmadı. Əsər hissə-hissə çap olundu. Sonradan gördülər ki, Bəxtiyar dolayısı ilə rejimin özünü ifşa edib. Necə deyərlər, onları aldadıb.

## *9 MADDƏLİK "DONOS"*

**- Bəxtiyar Vahabzadənin Universitetdən uzaqlaşdırılması bundan sonra oldu?**

- Bəxtiyar bir gün də olsun Universitetdən uzaqlaşdırılmayıb. Mən filologiya fakültəsinin partkomu olanda - 70-ci illərin əvvəlində iki professor açıq imza ilə Mərkəzi Komitəyə 9 bənddən ibarət məktub göndərmişdi ki, onu universitetdən uzaqlaşdırmaq lazımdır. O professorlardan biri ölüb, biri isə sağdır. Mərkəzi Komitədən həmin məktubu tədbir görülməsi üçün universitetə göndərmişdilər. Mən də həmin o



məktubda göstərilən bəndləri sənədlərlə təkzib edən dəlilləri toplayıb verdim Bəxtiyara. Çalışırdılar ki, onu auditoriyadan uzaqlaşdırsınlar. Amma biz buna imkan vermədik. Bəxiyar bir gün də olsun universitetdən çıxarılmayıb.

***Mən Bəxtiyarın şəxsiyyətindən daha çox əqidəsinin aşiqiyəm. İndi də bəzi məsələlərdə mövqelərimiz düz gəlmir. Hərəmiz bir cəbhədəyik. Amma bizi birləşdirən bu torpağa, bu vətənə, onun istiqlalına olan məhəbbətdir.***

**"7 gün" qəzeti, N020(789)**
20-26 may 2000

## HİMNİN SÖZLƏRİNİ TARİXƏ DÜŞMƏK İSTƏYƏNLƏR DƏYİŞDİRMƏYƏ ÇALIŞIRLAR

"Bunu bir para adamlar, yəni adının tarixə düşməsini istəyən şairlər deyir. Bu adamların son on ildə tarixə düşmək üçün çox şansları olsa da, həmin fürsəti dəyərləndirə bilmədilər. Başları qarışdı orden-medal almağa. Ona görə də əllərinə düşmüş bu imkandan istifadə eləməyə can atırlar." "Orijinal olduğu kimi qalmalıdı. Mətndə anlaşılmazlıq, zəiflik, qüsur olduğunu deyənlər nadanlardı. Şer o vaxtın ədəbi dilində, türkcəsində yazılıb. Soruşan gərək anlaşılmaz olan nədi". "Hüququndan keçən əsgər, yəni canından keçən əsgər anlamını verir. Amerika Ana Yasasında yaşamaq hüququ adlı maddə var. Yəni kimsə Azərbaycan üçün canından, yəni yaşamaq hüququndan keçirsə, vətən yolunda qəhrəman olur. Burda anlaşılmayan nə var ki? Bunu anlaşılmazlıq adlandıranlar özləri köhnədən xəbərsizlərdi."

***"Yeni müsavat" N53(996),***
***7 mart 2000***

## "QLOBAL DÜŞÜNCƏN, VƏTƏNDAŞ QEYRƏTİN OLMALIDI..."

**- Şirməmməd müəllim, bu gün bu tarixi məqamda ziyalı sözü daha geniş, qlobal məna kəsb edir. Sizcə bugünkü ziyalıların vəzifəsi nədən ibarət olmalıdı?**

- Millətin, xalqın öz ziyalısından gileylənməyə, şikayətlənməyə, ummağa haqqı var. Çünki ziyalı millətinin düşünən beyni, görən gözüdü. Amma bir başqa tərəfi də var: gəlin görək bu ziyalı niyə öz mənəvi borcunu, funksiyasını yerinə yetirə bilmir? Tarixə nəzər salaq, bizim çox yaxşı ziyalılarımız olub, ziyalı ənənələrimiz var. Azərbaycan müstəqilliyini itirdi. Onu öz gözləriylə görmüş, Türkmənçay müqaviləsinin bağlanmasında iştirak edən Abbasqulu Ağa Bakıxanov istefaya çıxdı, "Gülüstani-İrəm" əsərini yazdı. Şirvanın, Dağıstanın tarixini əks elətdirdi. Düşündü ki, Azərbaycan bölündü, parçalandı, işğal olundu. Deməli, xalqın tarixi yaddaşını yaratmaq zərurəti meydana çıxdı və Bakıxanov bu tarixi missiyanı öz üzərinə götürdü, "Azərbaycan tarixi"ni yazdı. Bakıxanovdan sonra Mirzə Fətəli Axundov gəldi. Publisistikamızın əsasını qoydu, dram əsərləri yazdı, fəlsəfi fikirlərini ortaya qoydu. Başqa vasitələrlə millətin özünü-özünə tanıtması, qeyri-millətlərin arasında yer tutması mümkün deyildi. Ordu yox, dövlət məmuru yox, qanunvericilik yox. İndi təsəvvürünüzə gətirin, M.F.Axundov böyük bir ordunun görə bilmədiyi işi gördü. Ondan sonra Həsən bəy Zərdabi gəldi. Həsən bəy Zərdabinin gördüyü işlər əsrin hüdudlarına sığan deyil. İndi fikir verin, ziyalının, şəxsiyyətin tarixi rolu, tarixi missiyası nə deməkdir. Bu ziyalıların dalğasında qeyrətli, namuslu, vətəninin taleyini düşünən yeni nəsil gəldi. Məmməd Əmin Rəsulzadə, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Üzeyir bəy, Mirzə Cəlil... Bunlar milləti millət kimi yaşatdılar, varlığını sübut etdilər.

M.Ə.Rəsulzadə 1914-cü ildə yazırdı: "Bakıda cəmisi 100 nəfər ali təhsilli türk ziyalısı var. Bunların da bir qismi öz ana dilini bilmir. Familiyası, adı bizdən olsa da, onlar qatır kimi bir şeydirlər. Gücləri var, görkəmləri var, iş qabiliyyətləri var, amma gələcəkləri yoxdu".

Gələn yeni nəsil Azərbaycanı müstəqilliyə qovuşdurdu. Lakin 20-ci illərdən başlayaraq gizli, açıq terrorlar, repressiyalar başladı. 30-cu, 40-cı illərdə bu repressiyalar minlərlə görkəmli ziyalılarımızın həyatına son qoydu. Müharibədən sonra ziyalıların, diplomluların sayı çoxalsa da, o milli ruh, qeyrət, namus vardı ha, bax onu ziyalıların canından, qanından çıxartdılar.

**- İndi iqtisadi məsələləri, keçid dövrünü bəhanə gətirib məsuliyyət altından qaçmaq istəyirlər. Və yenə bir çox hallarda mənəvi məsuliyyət ac-yalavac ziyalıların üstünə düşür...**



- Ac adamın gözü yeməkdən başqa heç nəyi görmür axı. Ona görə də ziyalılardan şikayət eləyənlər gərək bilsinlər ki, ictimai iqtisadi şərait, dövlət quruluşu, hakimiyyətdə olanlar ziyalıları bu günə qoydular. Özünü fəda etməyə hazır olan, namusu, qeyrəti olan ziyalılar yenə qalır, amma onlar azlıqdadı. Özü də onları elə günə salıblar ki, hər tərəfdən elə sıxışdırıblar ki, deyir, gərək namusundan, qeyrətindən keçəsən, bir loxma çörəkdən ötrü əyiləsən, sınasan... Qardaş, belə dövlətmi olar?

Ziyalı ziyalı funksiyasını yerinə yetirə bilmirsə, deməli o ziyalı deyil. Baxırsan diplomu var, elmi dərəcəsi var, şəkil kimi oğlandı, amma ziyalılığı yoxdu. Çünki onu ziyalı kimi yetişməyə qoymadılar. İkiüzlü, yalançı, riyakar, məddahçı, rüşvətxor elədilər. Ziyalı o vaxtlar yetişəcək ki, iqtisadi cəhətdən dövlətdən, iqtidarda olanlardan, rüşvətxorlardan asılı olmasın. Nə qədər ki, belə bir bazis yetişməyib, hakimiyyətdə olanların haması köhnə kommunistlərdi, belə olacaq. Təzə nəsil də hələ tam yetişməyib.

**- Bunun üçün uzun demokratiya yolu keçmək lazımdı. Mən bu yolu marafonçuların keçdiyi yola bənzədərdim.**

- 1787-ci ildən Amerikada seçki qanunu fəaliyyət göstərirdi. Seçki qanununa görə seçib-seçilmək hüququ yalnız kişilərə məxsus idi və mülkiyyət senzi var idi. 1920-ci ildə qadınlar, 1960-cı ildə isə qaradərililər seçib-seçilmək hüququ qazandılar. Amerikanın keçdiyi yol 200 illik demokratiya yoludu və o bu saat dünyanın ən qüdrətli dövlətidi. Mən düşünürəm ki, bugünkü çətinliklərimizlə, bir-birimizə olan münasibətimizlə, dünyaya baxışımızla biz 30-40 ilə də demokratiya yolunu keçə bilməyəcəyik. Ona görə də hərə gərək öz sahəsində demokratik dəyərlər uğrunda mübarizə aparsın. Bu saat hamı tələb eləyir, amma fikirləşmir ki, demokratik düşüncə göydən düşmür, o damla-damla yığılır və bu damlanı dənizə çevirmək üçün səbrin, iradən, sağlam mənəviyyətin, milliliyin, qlobal düşüncən, vətəndaş qeyrətin olmalıdı. Əgər müəllim tələbədən rüşvət alırsa, tələbəyə yalan deyirsə, riyakarlıq edirsə, ziyalı yetişdirə bilər? Yenə deyirəm, gərək hərə öz işlədiyi yerdə, öz imkanı daxilində cəmiyyət üçün, inkişaf üçün, nəsə bir iş görsün.

Həsən bəy Zərdabi deyirdi ki, indi biz satınalma qulu azad edəedə, özümüz-özümüzə qul olmuşuq. Öz müstəmləkəçilərimizdi bizi soyanlar, bizi əzənlər, bizi inkişaf etməyə qoymayanlar. Bunlar müstəmləkəçilərdən də qəddardı, çünki özümüzünküdü.

**- Dördüncü hakimiyyət sayılan mətbuata, azad fikrə, azad sözə respublikamızda olan baxışa sizin münasibətinizi öyrənmək maraqlı olardı...**

- Bizim mətbuatı funksiyasını yerinə yetirməyə qoymurlar. Hakimiyyət necədirsə, mətbuat da elədi. Ola bilməz ictimai, iqtisadi-siyasi quruluş bir cür ola, mətbuat başqa cürə. Tamam yeni meyllər ola-

caq, amma boğacaqlar. Götürək "Müsavat" qəzetini, görürsən, Rauf Arifoğlunun başına nə oyun gətirirlər? O mətbuat ki, həddindən artıq qabağa gedir. Onu boğurlar. Rauf Arifoğlunun yazılarını mən oxuyub heyran olurdum. Ondakı dunyagörüşünə, baxışa, cəsarətə hər bir jurnalist həsəd apara bilər. Amma cəmiyyət içərisində passiv müdaxilə var, passiv razılıq var. Çünki şüurlarda 37-nin qorxu-ürküsü hələ də yaşayır, çünki iş yoxdu, az-çox işləyənlər büdcə təşkilatlarında işləyir. Büdcə təşkilatları da dövlətin əlindədi. Əli İnsanov tapşırıq verir ki, hakimlərin hamısı YAP-ın üzvü olmalıdı. Heç kəs etiraz edə bilməz. Hamı işini itirməkdən qorxur. Maarifdə, təhsildə olana bir başqası göstəriş verir. İndi hamını kütləvi surətdə YAP-çı eyləyiblər. Artıq ideoloji müharibə qurtardı, soyuq müharibə qurtardı, kapitalizm, sosializm qarşıdurması qurtardı. İndi informasiya müharibəsi başlayıb. Harda balaca bir şey olur, dünya o saat xəbər tutur. Sən gördün, Sergey Dorenko ORT-də Putinə nə divan tutdu. Nələr demədi ona: yalançı, məsuliyyətsiz. Sübut elədi hər şeyi. Belə olanda deyirlər mətbuat ölkə prezidentini nüfuzdan salır, ona görə də ondan qorunmaq lazımdı. Bu, senzuranın yeni metodu. Bizdə də belə bir şey hazırlanır. Senzura idarəsinin əvəzinə mətbuat şurası yaradılacaq, həmin funksiyanı yerinə yetirəcək, bir az sığallı, güzgü-daraqlı...

İndi hakimiyyətdə köhnə kommunistlərdi. Kommunistlərin yaddaşında müsavat düşmənçiyi var. Onlar Müsavatdan qorxan qədər heç kimdən qorxmurlar. Görürsən Müsavat partiyasını seçkiyə buraxmadılar. Bunların bütün intriqaları müsavatın üstündədi. Çünki hər yana müdaxilə eləyə bilirlər, müsavatdan başqa. Müsavatçılıq Azərbaycançılıqdı, milliyyətçilikdi, dünyavilikdi, namusdu, qeyrətdi. Ona görə də Rəsulzadəni görməyə gözləri yoxdu. Məmməd Əmin cümhuriyyətin başında durub, adını çəkmirlər. O birilərini tərifləməklərinə baxma... Sən cümhuriyyəti yaradanı təhqir edirsən, böhtan atırsan, bəs sənin vicdanın hanı? Özü də bu böhtanlara elə adamları qoşurlar ki... Təsəvvür elə, zooparkdakı qəfəsə şiri, pələngi, fili, qurdu salıblar və onları elə günə qoyublar ki, bir tikəyə möhtacdılar. Əlini qaldırır, deyir, burdan tullan, ordan tullan, otur, dur. Və ziyalının böyük bir dəstəsini gözüqıpıq, kölgəli eləyiblər. 100 şirvan verir və boynuna da böyük minnət qoyur. Deyir, görürsən, dövlətin atalıq qayğısını? Mən demirəm kömək almasın, kömək lazımdı. Ancaq 100 şirvandan ötrü bütün nəslini ləkələ, öz gələcəyini ləkələ. Bu hansı ölçüyə sığışar?

**- Köləlik ruhu, manqurtluq, təslimçilik, "mən salim olum" prinsipi bizim cəmiyyətimizdə uzun illərdən bəri kök atıb. Birdən-birə ondan xilas olmaq çətin olacaq. Özü də indiki vaxtda.**

- İndi təsəvvür eləyin, İslam dinindəki Allaha itaəti bunlar elədilər padşaha itaət, vara-dövlətə, sərvətə itaət. Yəni göyə-Allaha, əlçatmazlığa, ucalığa, ülviliyə, paklığa itaəti göylərdən yerə endirdilər. Qondarma itaət fəlsəfəsi yaratdılar. Bax, o itaət mərtəbəsi bu milləti baş qaldırmağa qoymadı. İndi oğrular başda olanda oğru dəstəsi düzəldir, yalançı yalançı dəstəsi düzəldir. İntəhası bunu seçki yoluynan edir. Gərək cəmiyyət özü sağlam ola ki, sağlam adamları da parlamentə seçələr. Reallıq budur. Belə olan təqdirdə sən bu vətəndaşdan nə istəyirsən? O öz qarnının hayındadı, bir parça çörəknən imtahana çəkilir. "Ac qılınca çapar" məsələni eşidibsən? Seçki o vaxt seçki olar ki, hər bir şəxsiyyət özünü ölkənin sahibi hesab eləsin və onu idarə eləyənlərin fəaliyyəti üçün məsuliyyət hissi daşısın. İcra başçıları get gör camaatın başına nə oyun açırlar. Neylesin indi bu camaat? Milis çapoulçunun tərəfində, məhkəmə onun tərəfində, əllərində dəyənək, əllərində avtomat silah, soruşuram, bu camaat neyləyə bilər? Üsyan eləməlidi? Üsyan eləmək üçün gərək onun ürəyini, qəlbini o cür tərbiyə eləyəsən ki, o bilə ki, ölüm vaxtında bu dövlətin əsasını qoyanlar ilk öncə vətəni düşünüblər. "Millət necə tarac olur-olsun" deməyiblər. 1918-ci ilin "Azərbaycan" qəzetinə baxın, Üzeyir bəyin, Ceyhun bəyin redaktəsiylə çıxan qəzetə 65-70 yaşında kişilərin göndərdiyi məktublar var ki, biz silah götürüb vətənin yolunda vuruşmaq istəyirik. Qaçmaq yox ee, sinəsini güllə qabağına vermək haqqında düşünür. Özü də söznən yox e, əməlnən... Hanı o nəsil? Amma mən bədbin deyiləm, düşünürəm ki, millətinin gələcəyini düşünən qeyrətli oğullar yenə parlayıb üzə çıxacaqlar.

**- Şirməmməd müəllim, mən sizinlə tamamilə şərikəm. "Su gələn arxa bir də gələr". Bunun üçün milli özünüdərk, şüurlarda inqilab lazımdı. Cəfər Cabbarlının 30-cu illərdə dediyi "məişətdə, şüurlarda inqilab" görünür bu gün də, sabah da və bütün vaxtlarda bizə gərək olacaq. Xüsusən, millətin təzədən ayağa qalxması, öz haqqını tələb etməsi uğrunda mübarizədə...**

- Milləti diz çökdürüblər. Bu millətin başının üstündə duranlar onu ayağa durmağa qoymurlar. Nə vaxt millət ayağa dursa, onun başının üstündə heç nə görünməyəcək. Ulu Tanrıdan, bir də aydın, işıqlı göylərdən başqa.

**- Maraqlı müsahibəyə görə çox sağ olun!**

**Söhbətləşdi:**

**Zülfüqar ŞAHSEVƏNLİ**

*"Günay" qəzeti, 23.IX.2000*

## OXUCU SÖZÜ

*(ixtisarla)*

...Yaşarın Əlibəy Hüseynzadə haqqında yazdığı "Ön söz" mənim bu vaxta qədər bu böyük mütəfəkkir və publisist haqqında oxuduğum ən əhatəli, ən tutarlı elmi-tədqiqat əsəridir. Məqalədən sətirlər: Azərbaycanda milli bir ideologiya səviyyəsində türkçülüyün ilk dəfə hərəkətə gəldiyi qatarın sükanı arxasında hamıdan əvvəl Əlibəyi görürük və bu qatar sonralar bütün Qafqazdan, Orta Asiyadan, Anadoludan keçir. Öz hərəkətində milli-mənəvi mədəniyyətin bütün əsas qatlarını-elmi sənəti, fəlsəfəni, sosiologiyanı... birləşdirir". Yaxud: "Qarabağı itirməmişdən əvvəl tarixi yaddaşı (!) itirmişik. Əcnəbi drakanlar və daxili mankurtlar, islam və türkçülük düşmənləri Şərqdə, o cümlədən Azərbaycanda yaddaşın məhvi ilə məntəzəm, ardıcıl, planlı şəkildə məşğul olmuşlar... Özünə və Əlibəyə qarşı çevrilmiş inkarçı canfəşanlıqda bəzən hətta ən qatı erməni şovinistini belə arxada qoyan yerli, milli "ziyalının" vətəni və mənəviyyatı eyni bəlaya yenidən tutuldu, tarixdə bəlkə də hələ görünməmiş növbəti erməni qəsdinin və təcavüzünün qurbanı olduq. Son 70 ildə Azərbaycan ədəbiyyatşünaslığında və siyasi-ictimai fikrində Əlibəy Hüseynzadə və "Füyuzat" ədəbi məktəbinə qarşı yağdırılmış iftira və böhtan fəvvarəsi ilə müqayisədə hətta üzdəniraq "erməni mənbələri" və "əlyazmaları" da "toya getməli" görünür.

Bunları duymaq, görmək, yazmaq üçün milli və vətəndaşlıq qeyrəti lazımdır ki, bunlar Yaşarda həmişə olmuş və yenə də bolluğu ilə vardır.

Yaşar əsrin sonunda cərəyan edən ədəbi-bədii və ictimai-siyasi hadisələrə Bəxtiyar Vahabzadənin yaradıcılıq və şəxsi fəaliyyəti prizmasından baxır və öz orijinal mülahizələrini söyləyir. O yazır: "Poeziyanın fırtına gücü və enerjisi o zaman birə iki qat artır ki, inqilab nəhrində şair sözün təkcə məcazi yox, üstəlik həm də hərfi mənasında dalğaya və tələtümə çevrilir..." Yaxud "əgər dünyada başdan-ayağa romantik istiqlal varsa, o da Azərbaycan istiqlalıdır. Dünyanın ən romantik istiqlal şairləri də türk şairləridir... Bəxtiyar Vahabzadə həm poeziyası, həm də publisistikası ilə onların sırasında təkrarsız yer tutur".

Yaşarın istedadı, təxəyyülü və təfəkkürü qələmə aldığı, haqqında fikir və söz dediyi böyük şəxsiyyətlərin, mütəfəkkirlərin səviyyəsinə uyğun olduğu üçün tutarlı, elmi və ehtiraslı olur. Yaşar nə yazıbsa, ürəkdən yazıb. Məhz buna görədir ki, hədərə gedəni demək olar ki, yoxdur. Bu dediklərimə Yaşarın təvazökarlığını, nəfsinə hakimliyini, şəxsiyyətinin ziyalı bütövlüyünü də əlavə etmək istərdim.

***"Yazıçı" dekabr 2000***



## YADDAŞLARDA XATİRƏLƏŞƏN ÖMÜR

**1962**-ci il oktyabrın 23-də respublika radiosunda ilk dəfə Azərbaycan dilində beynəlxalq mövzuda yerli müstəqil veriliş efirdə səsləndi. Azərbaycan ictimaiyyətinə beynəlxalq informasiyalar, şərhlər, xülasələr çatdırmağa başladı.

**"Son xəbərlər"** redaksiyasında artıq siyasi icmalçılar qrupu formalaşırdı. Sözsüz ki, **Qəmbər Hüseynov** cəlb olunmuşdu. Biz mümkün qədər sərbəst, müstəqil fəaliyyət göstərmək istəyirdik. Bu vaxta qədər Moskvada işlənib hazırlanan icmallar tərcümə edilərək efirə verilirdi. Sovet kommunist ideologiyası hakim idi. Biz təkcə qəzet materialları və hazır icmallarla kifayətlənə bilməzdik. Az-çox obyektiv informasiya üçün mənbə lazım idi. Məlumdur ki, radioda xarici dalğalarda SSRİ-də "perexvat" olunurdu. Adi dinləyicilər üçün bu dalğalar, necə deyərlər, "vurulurdu". Radioda isə xarici dalğalarda SSRİ, Azərbaycan barədə yayımlanan məlumatlar bütövlüklə yazılırdı. Bundan başqa Moskvada xüsusi "Atlas" buraxılırdı. Tutaq ki, ABŞ prezidentinin nitqi "Pravda" qəzetində icmal şəklində verilirdisə, "Atlas"da bu tam verildiyi şəkildə çap olunurdu. Təbii ki, belə materiallar yüksək, ali rəhbər işçilər, büro üzvləri üçün nəzərdə tutulurdu. Belə materiallardan verilişlər yazılırdı, ayrı-ayrı siyasi icmalçılar da istifadə edə bilərdilər. İstinad etməyə belə mənbələr vardı.

**"DUNYA HƏFTƏ ƏRZİNDƏ"** proqramı qısa müddətdə özünə geniş auditoriya topladı. Dinləyicilərin böyük marağına səbəb oldu. Biz çoxlu dinləyici məktubu alırdıq. Onları maraqlandıran sorğulara cavablar hazırlayırdıq.

Proqram diskussiya, açıq fikir mübadiləsi şəklində qurulurdu. Növbə ilə aparıcı olurduq. Veriliş canlı müzakirə xarakteri alır, olayın məğzi açılır, dinləyiciyə hərtərəfli informasiya verilirdi. Aramızda ixtisaslaşma gedirdi. Qəmbər müəllim Asiya və Afrika ölkələrinin tarixini, ictimai-siyasi proseslərini çox yaxşı bilirdi, ona görə bu regionlar üzrə o danışırdı. Birimiz Avropada, digərimiz Amerikada baş verən proseslərdən söhbət açırdıq. Hərəmiz dünyanı bir istiqamətdən, bir mövqedən izah edirdik. Beləliklə dünyanın tam mənzərəsi alınırdı.

Bu dövrdən beynəlxalq mövzuda jurnalistika da formalaşırdı.

İndi Azərbaycanda beynəlxalq jurnalistikamızın tarixini yada salanda ilk icmalçılar qrupunu xatırlamaq vacibdir. Bu qrupdan Q.Hüseynov və B.Rəcəbov dünyasını dəyişmişlər. Burada Qəmbər Hüseynovun özünəməxsus layiqli yeri vardır.

Biz həmfikirlər olduğumuz kimi, həmsoyad idik. Özümüzü qardaş sayırdıq. O, nəcib insan, gözəl alim kimi daim yaddaşlarda yaşayacaqdır. Parlaq xatirəsi əziz olsun.

***"Diyar" jurnalı. N16-17. 28 noyabr 2000***

## TARİXDƏN KÜL AXTARMAZLAR, OD AXTARARLAR

**Yanvarın 31-i Azərbaycan Cümhuriyyətinin yaradıcısı M.Ə.Rəsulzadənin doğum günüdür. Onun haqqında hamıya məlum olan həqiqətləri bir daha təkrarlamadan bu gün narahatçılıq doğuran bir cəhəti diqqətə çəkməyi daha vacib saydıq. Son vaxtlar bu böyük şəxsiyyətin Azərbaycanın taleyi ilə bağlı gördüyü işlərə kölgə salmağa cəhd edilir, onun adı və fəaliyyəti, bəlkə də onun haqqında danışmağa belə haqqı çatmayanlar tərəfindən mənfi çalarlarla hallandırılır. Görəsən bu, nə ilə bağlıdır? Bu suala cavabı BDU-nun professoru Şirməmməd Hüseynov verir:**

Adam var ki, külü görür. Adam var külün içində gizlənmiş qoru, odu görür ki, onun vasitəsilə qəlbinin ruhunu işıqlandırsın. Bu, onlara həm keçmiş, həm indi, həm gələcəyi görmək üçün lazımdı. Tarixi şəxsiyyətlərə münasibətdə biz bu prinsipi aydın görürük. İndi adamlar var ki, özlərini tarixdən aldıqları közün müəllifi - yolgöstərən, xalqın yolunu işıqlandıran kimi qələmə vermək istəyirlər. Guya bunlar siyasətçilər, dahidirlər. Beləliklə dövlət başçılarına bu cür xidmət edən, qulluq çırpışdıran əllamələr dəstəsi yaranır. Vaxtilə bolşeviklər də bu prinsipi rəhbər tutdular. Nadir şəxsiyyət olan siyasi xadimləri, dövlət adamlarını xalqın gözündən salmağa, düşmən kimi qələmə verməyə çalışırdılar. Onlara qara yaxmaq üçün minlərlə elmi əsər, dissertasiya, kitab yazıldı. Eləcə də M.Ə.Rəsulzadə, Ə.Topçubaşov, Ə.Hüseynzadə və b. - bizə müstəqil dövlət yaradanlar bizdə xalq düşmənləri elan olundular. Onlar birinci növbədə məhz Rəsulzadəni nüfuzdan salmağa çalışırdılar. Ona görə ki, birinci yerə iddia edirlər. Rəsulzadə Milli Şuranın sədri idi, dövlət başçısı sayılırdı.

Sonradan onunla silahdaş olanların heç biri - nə Topçubaşov, nə Fətəli xan Xoyski cümhuriyyətə qədər Rusiya rejiminə qarşı mübarizədə iştirak etməyiblər. 1917-ci ilin martına qədər onlar çara qulluq edəndə Rəsulzadə gizli vərəqələr buraxırdı. Tehranda qəzetlər çap etdirirdi. İranda Demokrat Partiya yaradırdı. Səttarxanla, Bağır xanla görüşürdü. Azərbaycan məsələsinə dair materiallar toplayır, siyasi fəaliyyətlə məşğul olurdu. 1910-cu ildə Tehranda siyasi partiyalar haqqında xüsusi kitablar buraxıldı. M.Ə.Rəsulzadə 1911-ci ilin iyulunda İstanbula getdi. "Gənc Türklər hərəkatı"nın liderləri ilə görüşdü. Məşhur "İran türkləri" əsərini yazdı. Türkçülüyün nəzəri və əməli problemlərini hazırlamaqla məşğul oldu. Onun təşəbbüsü ilə 1911-ci ildə



Azərbaycanda ilk həqiqi milli siyasi partiya olan Müsavat Partiyası yarandı. 1913-cü ildə Rəsulzadə yenidən Bakıya qayıtdı.

Rəsulzadə irsini öyrənmək üçün gərək onun əsərlərini oxuyasan. Respublikada bunu bilən adamları barmaqla saymaq olar.

Mən onun 1903-1909-cu illərdə yazdığı əsərlərinin 208 məqalədən ibarət birinci cildini hazırlayıb çap etdirmişəm. Lakin 1909-1914-cü illəri əhatə edən ikinci cildini hazırlasam da onu nəşr edən tapılmır. 1999-2000-ci illərdə məcbur olub həmin əsəri "525-ci qəzet"də həftədə bir səhifə çap etdirməklə 91 səhifə dərc etdirdim. Bu cildə 135 əsər daxildir. Bunlar Tehranda, İstanbulda və Bakıda yazılıb.

Rəsulzadəni ağına-bozuna baxmadan tənqid edən Sovet dövrü yazıçılarının bir qismi indi də yaşayırlar. Onlar tüpürdüklərini yalamaq istəmir, onun haqqında dediklərini bu gün də sübut etmək istəyirlər. Nə qədər ki, onlar yaşayır, həqiqət öz qiymətini ala bilməyəcək. Türkiyədə Rəsulzadə haqqında yazılan kitablar, görülən işlər onun doğma vətənində görülən işlərdən qat-qat əhatəli, geniş, elmidir. Odur ki, bizim respublikada cümhuriyyət haqda yazılan elmi işləri yaxın qoymurlar. Nəsiman Yaqublunun Akademiyanın Tarix institutunda elmi işinin həlli düyünə düşüb. Çünki oradakı elmi şura üzvləri vaxtilə Rəsulzadəni söyənlərdir. Amma bütün bu cəhdlər əbəsdir. 70 ildə Stalin kimi nəhəng bir şəxsiyyət başda olmaqla, Azərbaycanın yaltaq, simasız "alimləri", "tənqidçiləri", saxtakarları Məmmədəminin adını tarixdən silə bilmədilər. Yenə sonda onun qaldırdığı bayrağın altına girməyə, onun vaxtında yazılmış himnin sədaları altında ayağa durmağa məcbur oldular. Bu, tarixin oyunudur. Hələ heç kəs tarixin oyununda tarixə qalib gələ bilməyib. Çünki tarix həqiqətə sədaqətlidir, qərəzsizdir. Saxtakarlığı sevmir. Onu aldadan hələ ki, olmayıb. Qoy indiki cılızlar da tarixlə oynamasınlar. Rəsulzadə və onun məsləkdaşları şöhrət üçün, adlarının hallanması üçün, şəkillərinin küçələri, kabinetləri bəzəməsi üçün yaşamayıblar. Onlar xalq, millət üçün yaşayıblar. Nə qədər ki, Azərbaycan xalqı, Azərbaycan torpağı var, onlar da xalqın qəlbində, ruhunda, qan yaddaşında qalacaqlar. Qoy buna heç kəsin şübhəsi olmasın.

**Hazırladı: İ.Hacıyeva**

***"Hürriyyət" N10(652), 30-31 yanvar, 2001***

## KİTABIN İÇİNDƏKİLƏR


**Ön söz** ... 3
**C.Həsənli.** Mənəviyyat adamı ... 4
**B.Vahabzadə.** Öz gözü ilə görüb öz ağlı ilə düşünmək ... 5
**F.Mehdi.** Dövrün, zamanın canlı salnaməsi ... 7
Düzlük ... 10
Keçmişin ibrət dərsləri ... 23
Türk nəğməsi ... 25
"Təkamül" qəzetinin redaktoru ... 26
Yazıçı Əfqana və "Azərbaycan"ın bütün oxucularına məktub ... 27
2-ci səhifənin qonağı Şirməmməd Hüseynovdur ... 29
Müstəqil dövlətə azad jurnalistika gərəkdir ... 34
Sual-cavab ... 38
Sovet "möcüzəsi" qaldıqca kefi saz da olacaq, ac da ... 39
Əyri otur, amma düz danış ... 41
Siyasət oyun deyil, sənətdir ... 43
"Qarışıqdır hələlik millətin istedadı..." ... 49
"Türkün dostu türk özüdür" ... 53
İxtiyara bu qədər ixtiyar vermək olarmı? ... 56
Azərbaycan Respublikası prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri İsa Qəmbərova ... 57
Tənəzzül nə qədər davam edəcək ... 58
Qafqazda ilk türk məktəbi ... 60
**Ö.F.Nemanzadə.** Şəkidə ... 61
"AzərTAC" sözü haradan peyda olmuşdur? ... 63
Gələcəyin lənətindən qorxmaq lazımdır ... 64
Qazanılmış şöhrəti itirmək faciəsi də var ... 66
Varislik, qoçaq və maymaq "millətpərəstlər" ... 68
Dərd həmin dərddir ... 69
Bizim mətbuat ... 70
Qələm dəllalları, qəzet həşəratları ... 72
"Mətbuatın hörmət və əzəmətini bilək, qoruyaq" ... 74
Məkrli yalan və böhtan kimə gərəkdir? ... 76
"Ehtiyatlı olmaq lazımdır" - kimdən? ... 78
İnandıra biləcəyikmi? ... 78
Keçmişdən səhifələr ... 79





Möcüzə ... 80
Şəki ... 81
Köhnə hamam, köhnə tas ... 82
Hər vızıldayandan bal arısı, hər gədadan bəy olmaz ... 85
Tariximizin ibrətamiz səhifələri ... 86
Xalq istəyir ... 87
Yaddaşlarda yaşayan sətirlər ... 89
Kimlərin varisiyik? Vərəsələrimiz üçün nə qoyacayıq? ... 91
Həyat davam edir... Yaxud iki sifət ... 95
Hər vaxtınız xeyir ... 97
Bəylər burada vurnuxur, balayanlar Xankəndində iş görür ... 98
Düşmənini tanı, milli intibahını yüksəlt ... 101
Gürcüstan və Azərbaycanı kimlər və niyə çalxalayırlar? ... 102
Rusların erməni siyasəti ... 103
Həsənbəy Zərdabi əldəqayırma "bəylər" haqqında ... 106
Yanan Ağ evdə üç bayraq dalğalanırdı ... 107
Tarixi xəbərdarlıq və laqeydlik ... 108
Tarix və bugünkü oktyabr düşüncələri ... 110
Adlar dəyişib, bəs vəziyyət necə? ... 111
Məyus və ümidsiz olmayaq! ... 113
Gəlişi gözəl sözlər, real həqiqətlər ... 114
Mübarizə və düşmənə nifrət məktəbimiz varmı? ... 115
Milli qurtuluş hərəkatının ideoloqu ... 117
Bir sərlövhə, bir əhvalat ... 118
Millət, istiqlal və maarif fədaisi ... 119
Tarixi şəxsiyyətləri siyasi oyunlara qatmayaq ... 121
Səfərlər barədə düşüncələr ... 127
1918-ci ilin mart-aprel faciələri ... 129
Üzeyir Hacıbəyov ... 130
İnam azalır, narazılıq artır. Niyə? ... 130
"İnqilabi şıltaqlıq", yoxsa "yalançı pəhləvanlıq" ... 132
"Bir ovuc" nə vaxt bir ordu olacaq! ... 133
Ü.Hacıbəyov. Rəhbərlərimiz ... 134
Şahnazaryan riyakarlıq pərdəsini açır ... 135
İstiqlal düşüncələri ... 136
Günümüz siyasi icmalçıların gözü ilə ... 137
Dərd yenə də həmin dərddir ... 139
Zaman dəyişir, dərdlər qalır ... 141
Murtuza Muxtarovun qeyrəti, tarixin təzadları ... 143
Tərəqqipərəstlərə gözaydınlığı ... 144

Məzlum millətin mətbuatı da məzlum olur ..... 146
Aldanmayan, aldatmayan təkcə tarixdir ..... 148
Tarixin dərsləri, gərdişin təzadları ..... 151
Çeçenistan və Rusiyada daxili vəziyyət ..... 152
Əsri problemlər, köhnə mərəzlər ..... 154
Milli qətliam, vətəni bir matəm günü ..... 157
Unudulmaz faciə ..... 158
Böyük qələbə, bəs sonrası? ..... 161
Qaçanı da qovmaq adətimizdir ..... 163
Yazıq qələm, oxucular, ədəbiyyat... ..... 164
"Müqəddəs qələmi qərəzi-şəxsi ələti edənlərə nifrət!" ..... 167
İki yol ayrıcında ..... 170
"Tərəqqi"nin (1909) - "Mühakimə"yə (1995) cavabı ..... 171
Kitabdan ad silmək olar, tarixdən yox ..... 173
Emosional demokratiya - hay-küyçülük ..... 177
Utanılası zamandır ..... 180
Bir daha üçrəngli bayrağımız haqqında ..... 182
Türkiyə variantı azadlıq yoludur ..... 184
Adı tarixə həkk olunmuş dövlət xadimi ..... 186
Dekabrın 7-si ikili əziz gündür ..... 190
Büronun qərarı. MSK-nın məlumatı ..... 190
Milli istiqlalımızın bayraqdarı ..... 192
Azərbaycanın böyük günlərindən biri ..... 196
Hacıbəyli uzaqgörənliyi, Kovalyov harayı ..... 198
Xaricdə mələk, daxildə kələk ..... 205
Şeytan haradadır? ..... 206
Üst dağılıb, özül necə? ..... 207
Əsrin əvvəli - əsrin sonu: nə dəyişib, nə qalıb? ..... 209
Bizə qorodovoy yox, həqiqi azadlıq lazımdır ..... 213
"Qırmızı qaranlıqlar": qızıl sözlər, qara işlər ..... 216
"Yeni Qafqasiya"nın xüsusi 27 aprel sayı ..... 220
"Boz qurdlar", yoxsa qırmızı şeytanlar? ..... 226
İnam, elm, şərait ..... 227
A.Borovik erməni təcavüzünü niyə görməzliyə vurur? ..... 228
Qanıb yaşamaq dərdi ..... 230
Məni siyasətdə deyil, şərlərimdə axtarın ..... 233
Əsl ziyalı çağırışı nümunəsi ..... 235
Qorbaçov Vaşinqtonda kitab satır ..... 236
Məddahlıq köhnə "sənətdir", davamçıları hər zaman var ..... 237
Böhtan xorunu ziyalılar oxumur ..... 238



"Təfəkkür"çülər "Əsrin səsi"nin suallarına cavab verirlər ..... 239
Qırxdan biri, yaxud geriliyin göstəricisi ..... 240
Ziyarət düşüncələri ..... 241
"Millətin təmini-hüquq" məsələsi ..... 243
Dünyanın ən böyük hadisəsi ..... 246
Vətənin matəm günü niyə yaddan çıxıb? ..... 249
"Cümhuriyyət" ..... 253
İstiqlal uğrunda yanıb-yaxılanlar ..... 255
Müəllim məsələsi hər millətin ölüm-dirim məsələsidir ..... 256
Təzadlı bayramlar, təzadlı günlər ..... 261
Azərbaycan istiqlal ərəfəsində ..... 262
M.Ə.Rəsulzadənin Tehran vəsiyyətnaməsi ..... 263
Azərbaycan dövlətçiliyinin bərqərar edilməsi uğrunda mübarizə ..... 266
Bizə yazırlar ..... 268
Təzə il, təzə meydan, diri pirlər, fitva zavodu... ..... 269
Binəsiblər, talesizlər, məzlumlar, bəs təqsirkarlar? ..... 274
Müəllim və dostun vida sözü ..... 276
Bizə yazırlar ..... 277
O taylı və bu taylı vətənin böyük öndəri ..... 278
Fədakar mücahid, böyük öndər ..... 279
İstiqlal tariximizə dair öndər sözü ..... 280
Nərimanov və "ata", "vətən başı" deyib kəllə vuranlar ..... 287
Müqəddəs adlar, istiqlal mücahidləri unudulmasın gərək ..... 290
Külək yaradanlar mütləq tufana düşürlər ..... 294
Həsən keçəl, keçəl Həsən, köhnə bina, tanış üzlər ..... 295
İki öndər, iki tale ..... 297
Mən jurnalistəm ..... 301
İstiqlal mücadiləsinin böyük və unudulmaz qəhrəmanlarından biri ..... 302
Heyvandarlıq məhsulları hara, milli ideologiya hara? ..... 310
Ağacı qurd, milləti manqurt içindən məhv edər ..... 311
İstiqlal mücadiləsi və gənclik ..... 312
1918-ci ilin mart soyqırımı rəsmən niyə qeyd edilmir?(di) ..... 319
Niyə biz əzab çəkirik, düşmən sevinir? ..... 323
Azərbaycan siyasi mühacirəti ..... 324
Tarixdə mühacirətin rolu ..... 325
Millət sizə minnətdardır ..... 327
Türkləri Nargin adasında kimlər qırırdı? ..... 329
Qara bir ildönümü ..... 332
Əsilsiz uydurma iddialar Azərbaycan dövlətinin mövqeyidirmi? ..... 335
80 il əvvəl - 80 il sonra kim idik, nə olmuşuq? ..... 343

Onları qınamağa haqqımız varmı? ....349
Keçmişin ibrət dərsləri ....351
15 sentyabr 1918 - Bakı və Azərbaycanın xilası günü ....353
Ömər Faiq Nemanzadənin camaata müraciəti ....357
Türk dünyasının iftixar və ümidgahı ....360
Demokratiya və istiqlaliyyət axtarışında ....363
"Yeni Müsavat" 9 yaşında ....364
Bu gün tarixin yubileyidir ....365
"Bizi diz çökdürüblər" ....366
Xalq başsız qalıb ....371
Elm fədailərinin zəhməti qiymətləndirilməlidir ....376
"Zəmanə yaman dəyişib, pis olub, çox pis..." ....378
Dost haqqında bir neçə söz ....379
Baykara, Niyazi, Bəxtiyar ....381
Zərdüşt Əlizadə meydanda qapıçılıq edirdi ....385
İslam və demokratiya ....386
"Əsli və Kərəm" tamaşası və Rəsulzadənin arzuları ....388
Qürur hissi, məyusluq anları ....392
Tariximizdən qisas alanlar ....396
M.Ə.Rəsulzadə və M.H.Şəhriyar ....400
Bəxtiyar Vahabzadəni həbsdən Suslov qurtarıb ....402
Himnin sözlərini tarixə düşmək istəyənlər dəyişdirməyə çalışırlar ....405
"Qlobal düşüncən, vətəndaş qeyrətin olmalıdır..." ....406
Yaddaşlarda xatirələşən ömür .... 410
Oxucu sözü ....411
Tarixdən kül axtarmazlar, od axtararlar ....412



**Buraxılışa məsul:** *Binnət Süleyman*

**Kompüter dizaynı:** *Aliyə Qabilqızı*

Şirməmməd Hüseynov
MİLLİ HAQQ VƏ ƏDALƏT AXTARIŞINDA
*Bakı, "Adiloğlu" nəşriyyatı - 2004, 420 səh.*

Yığılmağa verilmişdir: 15.10.2004
Çapa imzalanmışdır: 26.11.2004
Kağız formatı: 60x90 1/16
H/n həcmi: 26,25 ç.v.
Sifariş: 527
Sayı: 200

Kitab "ADİLOĞLU" MMC-nin mətbəəsində
hazır diapozitivlərdən istifadə olunmaqla
ofset üsulu ilə çap edilmişdir.

*Ünvan: Bakı şəh., Ü.Hacıbəyov küç., 38/3*
*Tel.: 98-68-25; faks: 98-08-14*

Elektron
resurs

AÜ 254386

ADİLOĞLU